ISSN 2221-8432

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

(ALİ MƏKTƏBLƏR ARASI ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ)

Актуальные проблемы изучения гуманитарных наук

Межвузовский сборник научных статей

The actual problems of study of humanities

Interuniversity collection of scientific articles

1/2017

ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Ali məktəblərarası elmi məqalələr məcmuəsi

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Межвузовский сборник научных статей

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Interuniversity collection of scientific articles

№1

2017

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 4 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125
Tel.: 596 21 44; 4970625
Faks: 5962144
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2017

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **A.M.Məmmədli**
filol. e. d., prof. **A.Ə.Həsənov**
filol. e. d., prof. **T.H.Şükürbəyli**
filol. e. d., prof. **T.H.Məmmədova**
filol. e. d., prof. **F.Y.Veysəlli**
filol. e. d., prof. **D.N.Yunusov**
filol. e. d., prof. **F.F.Cahangirov**
filol. e. d., dos. **N.Ş.Məmmədov**
filol. f. d., dos. **E.Ə.Şükürlü**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **R.M.Novruzov**
filol. e. d., prof. **M.Q.Qocayev**
filol. e. d., prof. **Ş.H.Xəlilli**
filol. e. d., prof. **R.M.Qeybullayeva**
filol. e. d., prof. **N.T.Məmmədov**
filol. e. d., dos. **R.K.Rəsulov**
filol. f. d., dos. **İ.M.Carçıyeva**
filol. f. d., dos. **Ə.Ç.Ağamirzəyev**

Pedaqogika
ped. e. d., prof. **A.N.Abbasov**
ped. e. d., prof. **O.M.Rəcəbov**
ped. e. d., prof. **F.N.İbrahimov**
ped. e. d., prof. **K.A.Məmmədov**
ped. e. d., dos. **İ.H.Cəbrayılov**
ped. f. d., dos. **O.Ə.Səmədov**
ped. f. d., dos. **Y.K.Alxasov**
ped. f. d., dos. **A.G.Məmmədov**

İctimai elmlər
fəlsəfə e.d., prof. **M.A.Əliyev**
fəlsəfə e.d., prof. **C.R.Məmmədov**
tarix e.d., prof. **F.F.İbrahimli**
tarix e.d., prof. **M.İ.Əmrahov**

Buraxılışa məsul: filol.e.d., prof. **T.H.Cəfərov**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. № 1/2017. – Bakı: Mütərcim, 2017. – 430 s.

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Сборник включен в Перечень рекомендуемых научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики.

© Məqalə müəllifləri, 2017
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsi redaksiyası, 2017

DİLÇİLİK - ЛИНГВИСТИКА

N.A.ABBASOVA

Milli Aviasiya Akademiyası
(Bakı şəh., Mərdəkan pr., 30)

İNGİLİS DİLİNDƏ TƏYİN BUDAQ CÜMLƏSİNİN (ATTRIBUTIVE CLAUSES) TƏSNİFAT MƏSƏLƏLƏRİ

Açar sözlər: *ingilis dili, tabeli mürəkkəb cümlə, təyin budaq cümləsi, baş cümlə, budaq cümlə, təsnifat*
Ключевые слова: *английский язык, сложноподчиненное предложение, придаточное определительное, придаточное предложение, классификация*
Key words: *English, complex sentences, attributive clauses, clause*

Giriş. Bəllidir ki, istər dilçilikdə, istərsə də digər elmlərdə hər hansı bir mükəmməl təsnifatın əsasında düzgün seçilmiş təsnifat kriteriləri dayanır. Bu fikir eləcə də, ingilis dilinin qrammatikası çərçivəsində aparılan təsnifatlara da şamil edilə bilər. İngilis dilindəki təyin budaq cümləsinin təsnifatına gəlincə onu söyləmək lazımdır ki, tabeli mürəkkəb cümlənin bu növünün təsnifatında əsas məqsəd onun məna növlərinin müəyyənləşdirilməsi olmuşdur. Bir məqalə çərçivəsində ingilis dilindəki təyin budaq cümləsinin ən geniş yayılmış və üzdə olan təsnifatlarına nəzər yetirək.

İngilis dilində təyin budaq cümləsinin (attributive clauses) təsnifatının tarixi-xronoloji ardıcıllığı. Əldə olan materiallar və sovet dövrü ədəbiyyatlarının tədqiqi bizə imkan verir ki, ingilis dilində təyin budaq cümləsinin ən ilkin təsnifatlardan birinin hələ ötən əsrin ortalarında, yəni XX əsrin 50-ci illərində aparıldığını söyləyək. Bu təsnifat Y.İzraleviç və K.Kaçalova tərəfindən aparılmışdır. Müəlliflər ingilis dilində təyin budaq cümləsinin təsnifatını semantik xüsusiyyətlərinə görə apararaq onları üç növə bölmüşlər:

"1. Fərdiləşdirici (индивидуализирующие) təyin budaq cümlələri
2. Təsnifedici (классифицирующие) təyin budaq cümlələri
3. Təsviredici (описательные) təyin budaq cümlələri" (1, s. 427).

Müəlliflərin bu təsnifatına nəzər saldıqda görə bilərik ki, birinci tipə aid olan təyin budaq cümlələri, yəni fərdiləşdirici təyin budaq cümlələri bir şəxsin və ya əşyanın (və ya şəxslər və əşyalar qrupunun fərdi əlamətlərini bildirir. Bu elə bir əlamətdir ki, həmin şəxsi və ya əşyanı digərlərindən fərqləndirməyə xidmət edir. Bu təsnifatın ikinci qrupuna daxil olan, yəni təsnifedici təyin budaq cümlələri bu və ya digər əlamətinə görə şəxs və ya əşyanın aid olduğu sinfi və ya qrupu göstərir. Nəhayət, üçüncü qrup – təsviri təyin budaq cümlələri isə şəxs və ya əşya haqqında əlavə məlumat verməyə xidmət edir. Bu əlavə məlumat isə həmin şəxs və ya əşyanın keyfiyyətlərinin təsvirindən ibarət olur. Rus germanistikasında bu təsnifatın müxtəlif şəkillərinə rast gələ bilərik. Xüsusilə beynəlxalq şəbəkədə sözügedən mövzuya həsr olunmuş materiallarda belə təsnifatlara rast gəlmək mümkündür. Məsələn, bir təsnifatda təyin budaq cümləsi iki yerə ayrılır:

1) məhdudlaşdırıcı – ограничительные (limiting)
2) təsnifedici - классифицирующие (classifying)
3) təsviredici - описательные (descriptive)

İngilis dilinin qrammatikasının tədqiqinə həsr olunmuş tədqiqatlarda təyin budaq cümləsinin məna növlərinə görə iki yerə bölünməsi halları daha geniş yayılmışdır:

1) təsviredici (descriptive)

2) məhdudlaşdırıcı (limiting) təyin budaq cümlələr.

Eyni təsnifata M.Qanşina və N.Vasilevskayanın "English Grammar" kitabında rast gəlinir: "Attributive clauses are of two kinds:

1) limiting

2) descriptive" (2, s.412)

V.Kauşanskaya, R.Kovner və digər müəlliflərin müştərək yazdığı "A grammar of the English language" kitabının beşinci təkmilləşdirilmiş nəşrində isə nəzərdən keçirdiyimiz məsələyə münasibət belədir: "According to their meaning and the way they are connected with the principal clause attributive clauses are divided into *relative* and *appositive* ones" (3, s.340). Göründüyü kimi, bu dərslikdə təyin budaq cümlələri məna növlərinə görə təsnif edilərək, nisbi və qeyri-nisbi təyin budaq cümlələrinə bölünür.

Azərbaycan müəlliflərinin tədqiqatlarında ingilis dilində təyin budaq cümləsinin (attributive clauses) təsnifatı məsələsinin qoyuluşu.

Azərbaycan germanistikasında özünəməxsus mövqeyi olan prof. Oruc Musayev "İngilis dilinin qrammatikası" adlı dərsliyinin üçüncü təkmilləşdirilmiş nəşrində ingilis dilində tabeli mürəkkəb cümləyə və onun növlərinə xüsusi yer ayırmışdır. Müəllif təyin budaq cümləsinin tərifini, onun tabeli mürəkkəb cümlə daxilindəki yerini, bağlanma vasitələrini və s. verdikdən sonra təsnifat apararaq onları iki yerə bölür: "Təyin budaq cümlələri iki cür olur:

1) Məhdudlaşdırıcı təyin budaq cümlələri (limiting attributive clauses)

2) *təsviredici təyin budaq cümlələri (descriptive attributive clauses*)" (4, s.304).

Prof. O.Musayev bu qrupların ifadə etdiyi məna çalarlarını açaraq onların bağlanma vasitələrini də göstərir. Professorun fikrincə, "məhdudlaşdırıcı təyin budaq cümlələri təyin olunan sözü mənaca məhdudlaşdırır, dəqiqləşdirir və müəyyənləşdirir. Bu qəbildən olan təyin budaq cümlələri baş cümləyə ya nisbi əvəzliklərlə (*who, which, that*), ya nisbi zərfliklərlə (*when, where, how, why*) və ya heç bir bağlayıcı vasitə olmadan, yanaşma yolu ilə bağlanır... İkinci qrupa daxil olan budaq cümlələr, yəni təsviredici təyin budaq cümlələri təyin olunan söz haqqında əlavə məlumat verir. Bu qəbildən olan təyin budaq cümlələri baş cümləyə nisbi əvəzliklərlə, xüsusən *who* və *which* nisbi əvəzlikləri ilə bağlanır" (4, s.304-305).

Bu təsnifatdakı nüanslardan biri də ondan ibarətdir ki, O.Musayev məhdudlaşdırıcı təyin budaq cümləsini baş cümləyə birləşmə üsuluna görə bir növünü də fərqləndirir. Bu növ təyin budaq cümlənin baş cümləyə yanaşma üsulu ilə birləşən növü olan – *kontakt budaq cümlələrdir (contact clauses*). Qeyd edək ki, kontakt budaq cümlələrin ayrıca olaraq fərqləndirilməsinə M.Qanşina və N.Vasilevskayanın tədqiqatlarında rast gəlinir: "İn a complex sentence with a limiting attributive clause the relative pronoun may be omitted. Such clauses are called *contact-clauses*" (2, s.411).

Daha bir təsnifata Azərbaycan tədqiqatçılarından R.Fərəcovanın "İngilis dilində təyin budaq cümləli tabeli mürəkkəb cümlələrin semantik-sintaktik xüsusiyyətlərinə görə təsnifatı" adlı məqaləsində rast gəlmək mümkündür. Müəllif ona qədər Azərbaycan germanistikasında ingilis dilində təyin budaq cümləli tabeli mürəkkəb cümlə üzrə aparılan təsnifatlara nəzər yetirmiş və ümumiləşdirərək belə bir bölgü aparmışdır:

1) "...Keyfiyyət bildirən təyin budaq cümlələri

2) Fərqləndirici təyin budaq cümlələri

Keyfiyyət bildirən təyin budaq cümlələri öz növbəsində iki növə bölünür:

1) Məhdudlaşdırıcı təyin budaq cümlələri (limiting/restrictive/essential)

Təsviredici təyin budaq cümlələri (descriptive/ nonrestrictive/ nonessential)" (5).

Tədqiqatçı təsnifat kriterisi kimi semantik-sintaktik xüsusiyyətləri götürür.

Azərbaycanlı tədqiqatçılar L.Məhərrəmov və Q.Məmmədov da ingilis dilində təyin budaq cümlənin növlərinə münasibət bildirmiş və öz təsnifatlarını təqdim etmişlər. Bu təsnifata kriteri kimi isə, müəlliflər mənasına və baş cümləyə bağlanma xüsusiyyətini seçmişlər: "Mənasına və baş cümləyə bağlanma xüsusiyyətinə təyin budaq cümlələri iki qrupa ayrılır:

a) nisbi təyin budaq cümlələri;

b) *əlavə təyin budaq cümlələri"* (6, s.363).

L.Məhərrəmov və Q.Məmmədov öz təsnifatlarının daha da dərinləşdirərək birinci qrupa daxil edilən təyin budaq cümlələrinin də öz növbəsində iki yerə ayrıldığını qeyd etmişlər: " Nisbi təyin budaq cümlələri də mənasına görə iki yerə ayrılır:

a) *məhdudlaşdırıcı təyin budaq cümlələri;*

b) qeyri-müəyyən (təsviredici (descriptive)) təyin budaq cümlələri" (6, s.363)

Nəticə. İngilis dilində təyin budaq cümlələri üzrə aparılan çoxsaylı təsnifatlara nəzər yetirdikdə belə bir qənaətə gəlmək olar ki, onlar əsasən təyin budaq cümləsinin semantik xüsusiyyətlərinə görə bölgüsü şəklində aparılmışdır. Bu təsnifatlara müqayisəli metodun tələbləri ilə yanaşsaq, belə bir nəticəyə gəlmək olar ki, təsnifat zamanı təyin budaq cümlələr neçə növə ayrılsa da, bu məna qruplarının ehtiva etdiyi semantik yük eynidir.

Ədəbiyyat

1. Израилевич Е., Качалова К. Практическая грамматика английского языка. М.: Внешторгиздат, 1954.

2. Ganshina M., Vasilevskaya N. English grammar. Moscow: Highter school publishing house, 1964.

3. Каушанская В., Ковнер Р., Кожевникова О., Прокофьева Е., Райнес З., Сквирская С., Цырлина Ф. Грамматика английского языка – A grammar of yhe English language. М.: Айрис-пресс, 2008.

4. Musayev O. İngilis dilinin qrammatikası. Bakı: Maarif, 2003.

5. Fərəcova R. İngilis dilində təyin budaq cümləli tabeli mürəkkəb cümlələrin semantik-sintaktik xüsusiyyətlərinə görə təsnifatı // https://www.researchgate.net

6. Məhərrəmov L., Məmmədov Q. İngilis dilindən fonetik, qrammatik, leksik materiallar və testlər. Bakı: Elm və təhsil, 2012.

H.A.Аббасова

Вопросы классификации придаточных определительных в английском языке

Резюме

В статье исследуются вопросы классификации одной из разновидностей придаточных предложений – придаточных определительных в английском языке. Вначале автор представляет общий обзор сложноподчиненных предложений английского языка, затем на обширном материале английского языка переходит к исследованию придаточных определительных предложений. В статье также предлагаются классификации придаточных определительных предложений, проведенных как в английской лингвистике, так и в русском языкознании, а также азербайджанскими языковедами.

N.A.Abbasova

The Type of Complex Sentences in English: Attributive Clauses

Summary

This article examines one of the types of subordinate clauses in English. At the beginning the author presents an overview of complex sentences in English, then in `the vast material of the English language goes to the study of the paranasal attributive proposals. The article also provides the classification of adventitious attributive proposals conducted in English linguistics, as well as in Russian linguistics, as well as by Azerbaijani linguists.

Rəyçi: filol. f.d., dos. A.X.Ramazanova
Redaksiyaya daxil olub: 10.02.2017

G.A.ABDULLAYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ QEYRİ-MƏHSULDAR ŞƏKİLÇİLƏR

Açar sözlər: *iltisaqi, şəkilçi, qeyri-məhsuldar, feildüzəldən şəkilçi, şəkilçiləşmə*
Ключевые слова: *агглютинативный, суффикс, непроизводные, суффиксобразующие глагол, аффиксация*
Key words: *agglutinative, suffix, non-productive, suffixes forming the verb, affixation*

Dünya dillərinin tipoloji bölgüsündə Azərbaycan dili iltisaqi dillər qrupuna daxil edilir. Bu dillər üçün xarakterik olan əsas xüsusiyyət söz kökünün sabitliyi, şəkilçinin çox inkişaf etməsi, sözün sonuna artırılaraq istər sözyaratma prosesində, istərsə də sözlər arasında qrammatik əlaqənin qurulmasında müstəsna rol oynamasıdır. Azərbaycan dilində də şəkilçi həm sözlər arasında qrammatik əlaqə yaratması, həm də morfoloji yolla söz yaratmada məhsuldar iştirak etməsi ilə diqqəti cəlb edir.

Dilimizdə işlənən şəkilçilər müxtəlif prinsiplər əsasında təsnif olunur. Vəzifəsinə, işlənmə yerinə, yazılışına görə müxtəlif növlərə ayrılan şəkilçilər mənşəyinə görə də milli və alınma olmaqla iki qrupa bölünür. Qrammatik şəkilçilər bir qayda olaraq milli mənşəli olduğu halda, leksik şəkilçilərin bir qismi alınma sözlərin tərkibində dilimizə daxil olmaqla işləklik qazanmış, nəticədə leksik şəkilçilərin qeyri-məhsuldar növünü yaratmışdır.

Digər tərəfdən, dildə tarixi inkişaf prosesində sözün mənasının daralması – sözün müstəqil mənasını itirərək köməkçi sözə çevrilməsi – köməkçi sözlər sırasında şəkilçiləşməsi – leksik şəkilçi kimi işlənməsi – bu vəziyyətdə tədricən məhsuldarlığını itirməsi kimi bir prosesin getdiyi də danılmazdır. Dilin tarixi qatlarında müstəqil mənalı söz kimi işlənən *arzulamaq, etmək, hesablamaq* mənalarını verən "*sa"* feilinin məzmununun qeyri-məhsuldar feil yaradan *–sa, -sə* şəkilçisində qalması və bu qəbildən olan kifayət qədər fakt da bu fikri təsdiqləyir. Deməli, bir tərəfdən alınma sözlər hesabına, digər tərəfdən dilin inkişafı prosesində sözün şəkilçiləşməsi hesabına leksik şəkilçilərin qeyri-məhsuldar olan qrupu formalaşır.

Azərbaycan dilinin morfologiyasına dair yazılmış kitablarda leksik şəkilçilər əhatəli şəkildə araşdırılmış, məhsuldar və qeyri-məhsuldar şəkilçilər konkret olaraq göstərilmişdir. Lakin müəlliflərin heç birinin məqsədi qeyri-məhsuldar şəkilçiləri araşdırmaq olmadığından, məsələyə ümumi şəkildə baxış müşahidə olunur.

Bütün bunları nəzərə alaraq, biz tədqiqat işində hazırda dilimizdə mövcud olan qeyri-məhsuldar şəkilçiləri araşdırmaq, bəzi sözlərin quruluşu məsələsinə aydınlıq gətirmək istəyirik.

Qeyd olunduğu kimi, Azərbaycan dilinin tədqiqatçılarından prof. Muxtar Hüseynzadə, prof. Qəzənfər Kazımov, prof. Buludxan Xəlilov və başqalarının əsərlərində bu problemə müəyyən səviyyədə toxunulmuş, dilimizdə mövcud olan və sözyaratma prosesində az müşahidə edilən şəkilçilər konkret olaraq göstərilmişdir.

Prof. Qəzənfər Kazımov qeyri-məhsuldar şəkilçiləri dörd qrupa bölmüşdür:

1. Adlardan ad düzəldən şəkilçilər (*-kən, -tuq, -ist, -izm, -ban, -pərvər, -kar, -dar, -ey, -ban);*

2.Adlardan feil düzəldən şəkilçilər (*-sa, -sə, -sı, -sın, -sin, -imsə, -ıq, -ik, -ux, -ük, -na, -nə)*;

3.Feillərdən ad düzəldən şəkilçilər (*-qan, -an, -n, -a, -ə, -ca, -cə, -c, -id, -üd*;

4.Feillərdən feil düzəldən şəkilçilər (*-a, -ə, -sın, -sin, -ix, -ik, -ümsə).*

Yuxarıda verilən qeyri-məhsuldar şəkilçilərdən 1-ci qrupa daxil olanlar mənşəyinə görə alınma, 2, 3, 4-cü qrupa daxil olanlar isə milli mənşəli olub, sözlərdən şəkilçiləşməyə doğru inkişaf prosesi nəticəsində yaranmışdır.

Prof.Buludxan Xəlilov da qeyri-məhsuldar şəkilçiləri qruplaşdıraraq eynilə dörd növün adını qeyd etmişdir. Lakin əvvəlki müəllifdən fərqli olaraq, adlardan ad düzəldən şəkilçilərə -*ov, -öv, -axlı, -təkin*; adlardan feil düzəldən qeyri-məsuldar şəkilçilərə *-qır, –kir, -qur, -kür*; feillərdən ad düzəldən qeyri - məhsuldar şəkilçilərə *-maq, -mək, -ınc, -inc, -unc, -ünc, -kəm*; feillərdən feil düzəldən qeyri-məhsuldar şəkilçilərə *-ala, -ələ, -qla, -klə, -ğuz* şəkilçilərini əlavə etmişdir. Əslində, hər iki müəllifin qeyd etdiyi şəkilçilər qeyri-məhsuldar şəkilçilərə aid edilməlidir. Eyni zamanda, hazırda dilimizdə kifayət qədər söz var ki, quruluş etibarilə kök və şəkilçiyə ayrılması mümkündür. Ona görə də belə sözləri də düzəltmə, onları yaradan şəkilçiləri isə qeyri-məhsuldar şəkilçi adlandırmaq olar. Konkret olaraq seçdiyimiz nümunələrə baxaq:

1. Adlardan ad düzəldən qeyri-məhsuldar şəkilçilər:

-aş şəkilçisi: Bu şəkilçi ismə artırılaraq isim əmələ gətirən qeyri-məhsuldar şəkilçi olub, yalnız bir sözdə - *adaş* sözündə müşahidə edilir.

-ura şəkilçisi: Bir sıra Avropa mənşəli sözlərdə işlənən bu şəkilçi ismə qoşularaq peşə, sənət hazırlayan, müəyyən iş icra edilən yer məzmunu bildirən isimlər yaradır: *agentura, aspirantura, doktorantura*

-ik şəkilçisi. İsmə artırılan bu şəkilçi sifət əmələ gətirən qeyri-məhsuldar şəkilçi kimi diqqəti cəlb edir. Məsələn, *akrobatik, etnoqrafik, ritmik, tipik* və s.

Bu şəkilçi ilə bir sırada təxminən eyni funkiyanı yerinə yetirən, **-tik** (-atik) şəkilçisini də qeyd etmək olar. Bu şəkilçi də bəzi alınma isimlərə qoşulmaqla sifət yaradır: *sxematik, tematik*

-er şəkilçisi. Alınma qeyri-məhsuldar şəkilçilərdən biri olan bu şəkilçi milli şəkilçimiz olan -çı, -çi, -çu, -çü şəkilçisinin sinonimi kimi çıxış edir və peşə, sənət məzmunlu isimlər əmələ gətirir: *aksioner, milyarder, tanker.*

-c (-ac) şəkilçisi. Bu şəkilçi milli mənşəli olub tarixən dilimizdə intensiv işlənsə də, hazırda məhsuldarlığının azalması ilə müşahidə edilir və isimdən, sifətdən isim əmələ gətirir: *anac, ayrıc, qaxac* və s.

-var şəkilçisi. Yalnız *antikvar* sözündə müşahidə edilən bu şəkilçinin əslində *varı* sözündən səs düşməsi nəticəsində yarandığını, iki sözün: *antik və varı* sözlərinin birləşməsindən yaranan *antik +varı* sözündən yarandığını ehtimal etmək olar:

-vat şəkilçisi. Bu şəkilçi də dilimizdə bir sözdə: *xırdavat* sözündə müşahidə edilir.

-gir şəkilçisi. Adlara qoşularaq sifət əmələ gətirən bu şəkilçiyə bir neçə sözdə rast gəlmək olar: *cibgir, fəndgir, tərəfgir.*

-man şəkilçisi. İsimdən sifət yaradan bu şəkilçi, həm də sifətə artırılmaqla əlaməti daha qabarıq nəzərə çatdırır: *ataman, qocaman, şişman.*

-bin şəkilçisi. Sifətdən sifət yaradan bu qeyri-məhsuldar şəkilçiyə də bir sözdə rast gəlinir: *bədbin.*

-nam şəkilçisi. Ərəb və fars dillərində müstəqil söz kimi işlənən *nam* vaxtilə Azərbaycan dilində də ad mənasını ifədə edən söz kimi işlənmişdir. Lakin müstəqil söz kimi arxaikləşdiyi üçün *bədnam* sözünün düzəltmə söz adlandırılması məqsədəuyğundur.

-at şəkilçisi. Alınma şəkilçi olub isimdən isim əmələ gətirir: *adresat, cavahirat, təbliğat, təlimat, təsnifat*

-ir şəkilçisi. Bu şəkilçi də çox müşahidə edilməyən və alınma olub, yalnız *bankir* sözündə müşahidə edilir.

-gər şəkilçisi: İsimdən isim və sifət əmələ gətirən şəkilçidir: *cadugər, hiyləgər, kimyagər, misgər, zərgər.*

-gah şəkilçisi. Yer məzmunu bildirən isimlər əmələ gətirən bu şəkilçi ilə bir neçə söz əmələ gəlmişdir: *qərargah, məbədgah, nişangah (-əngah şəkilçisi: seyrəngah).*

-xor şəkilçisi. İsimdən sifət yaradır: *rüşvətxor, müftəxor.*

-axay şəkilçisi: Bu şəkilçi də hazırda dilimizdə yalnız bir sözdə *solaxay* sözündə müşahidə edilsə də, dialektlərimizdə də müşahidə edilməkdədir. (Şəki dialektində *lalaxay dilsiz-ağızsız* mənasında).

-ual şəkilçisi. Alınma şəkilçilərdən biri lub *intelektual* sözündə müşahidə edilir.

-ant şəkilçisi. Bu şəkilçi də peşə, sənət adı bildirən isimlər əmələ gətirən *–çı, -çi, -çu, -çü* şəkilçisinin sinonimi kimi işlənir: *fabrikant, doktorant.*

-ısqal şəkilçisi. Əslində bu şəkilçi sifətə artırılmaqla əlamətin normadan az olduğunu ifadə edir: *darısqal.*

-manc şəkilçisi isim əmələ gətirir: *dilmanc.*

-kən şəkilçisi: Bu şəkilçi də isimlərə artırılaraq isim əmələ gətirən qeyri-məhsuldar şəkilçidir: *yelkən, pilləkən.*

-alaq şəkilçisi səs təqlidi sözdən isim əmələ gətirir: *şapalaq.Yapalaq* sözündə də bu şəkilçini görmək mümkündür. Fikrimizcə, bu sözdə fleksiya hadisəsi baş vermişdir. *Yapalaq* boyu balaca mənasını ifadə edir. *Yapışmaq* sözündə *ış* hissəsi ixtisar olunub, *yapalaq* kimi sabitləşən söz *yerə olduqca yaxın ("Yerə o qədər yaxındır ki, elə bil yapışıb",* - mənası *yapalaq* sözü ilə ifədə olunur) mənasını ifadə edir.

-ər şəkilçisi də sifətdən isim əmələ gətirir: *lənqər.*

-deh şəkilçisi isimdən sifət yaradan şəkilçi kimi *cavabdeh* sözündə nəzərə çarpır.

-an şəkilçisi. Bu şəkilçi həm isimdən isim, həm də sifətdən sifət yaradır: *dövran, şoran*

2. Adlardan və təqlidi sözlərdən feil düzəldən qeyri-məhsuldar şəkilçilər

Dilimizdə bəzi sözlərdə rast gəlinən, lakin dilçilik kitablarında qeyd edilməyən qeyri-məhsuldar şəkilçilərin bir qismi də adlardan və səs təqlidi sözlərdən feil əmələ gətirir. Belə şəkilçilərə aşağıdakıları aid edə bilərik:

-ırğa şəkilçisi sifətdən feil yaradır: *yadırğamaq*

-nə şəkilçisi. Səs təqlidi sözdən feil əmələ gətirən bu şəkilçini *kişnəmək* sözündə görmək olar.

-ik, -ıx şəkilçisi. Bu şəkilçi də sifətlərə qoşulmaqla feil əmələ gətirir: *acıxmaq, darıxmaq, gecikmək.*

-sı, -si, -sin şəkilçisi. Türk mənşəli olan bu şəkilçi hazırda əksər türk dillərində fərqli fonetik tərkibdə işlənməklə feil əmələ gətirir. Azərbaycan dilində də *tamahsımaq, diksinmək, kifsimək* sözlərində müşahidə edilir.

-an, -ən şəkilçisi həm ismə, həm də səs təqlidi sözə artırılaraq feil əmələ gətirən qeyri-məhsuldar şəkilçidir: *hoppanmaq, gücənmək.*

3. Feillərdən ad düzəldən qeyri-məhsuldar şəkilçilər

-ım, -üm (-m) şəkilçisi: *aşırım, açım, artım, anlam, büküm, qıvrım, yayım.*

-anaq, -ənək şəkilçisi feildən isimdüzəldən bu şəkilçiyə *boğanaq,döyənək, biçənək* kimi sözlərdə rast gəlmək mümkündür. Onu da qeyd edək ki, bu şəkilçinin ismə artırılması da müşahidə edilir: *tozanaq.*

-az şəkilçisi də qeyri-məhsuldar şəkilçi olub yalnız *çarpaz* sözündə müşahidə edilir.

-ğıc şəkilçisi dal(maq) feilinə qoşularaq isim yaradır: *dalğıc.*

-ri şəkilçisi də qeyri-məhsuldar sifətdüzəldən şəkilçi kimi feillərə qoşulmaqla *əyri, yumru sözlərində işlənmişdir.*

-mac, -məc şəkilçisi. Fikrimizcə, bu şəkilçi özündə iki elementi birləşdirir. Bunlardan biri isimdüzəldən *-ma, -mə,* digəri isə isimdüzəldən *-c* şəkilçisidir. Lakin *yaxmac, yanıltmac, döyməc* tipli sözlərdə şəkilçini bu cür tərkib hissələrinə ayırmadan bir şəkilçi hesab etmək məqsədəuyğundur.

-əri şəkilçisi. Feilə qoşulmaqla sifət əmələ gətirən şəkilçilərdən biri olub, dilimizdə *köçəri* sözünün tərkibində qalmışdır.

-qac, -gəc şəkilçisi türk dillərində intensiv işlənən bir şəkilçi olsa da, Azərbaycan dilində *tutqac, üzgəc, süzgəc* sözlərində müşahidə edilməkdədir.

-zik şəkilçisi dilimizdə yalnız *əmzik* sözündə işlənməkdədir.

4. Feillərdən feil düzəldən qeyri-məhsuldar şəkilçilər

Dilimizdəki sözlərdə feillərə qoşularaq tərz məzmunu yaradan bir sıra şəkilçilər də diqqəti cəlb edir. Belə şəkilçilərə **-xul, -ux, -ıx** şəkilçilərini göstərmək olar. *Burxulmaq, duruxmaq, sınıxmaq* kimi sözlər həmin şəkilçilərin iştirakı ilə formalaşıb hərəkətin zəif tərzdə icrası məzmununu yaradır.

Beləliklə, hazırda dilimizdə **adlardan ad düzəldən** *-aş,-ura,-ik, -tik (-atik),-er -c (-ac),-var,-vat,-gir,-man,-bin,-nam,-at,-ir -gər, -gah,-xor,-axay, -ual,-ant,-ısqal,-manc,-kən,-alaq,-ər, -deh, -an,* a**dlardan və təqlidi sözlərdən feil düzəldən** *-ırğa,-nə, -ik, -ıx, -sı, -sin,-an, -ən,* f**eillərdən ad düzəldən** *-ım, -üm (-m), -anaq, -ənək, -az, -ğıc, -ri, -mac, -məc, -əri, -qac, -gəc, -zik,* f**eillərdən feil düzəldən** *-xul, -ux, -ıx* şəkilçiləri qeyri-məhsuldar şəkilçilər kimi müşahidə edilməkdədir.

Ədəbiyyat

1.Abdullayeva G. A. Azərbaycan dilində -sa, -sə şəkilçisi, onun qrammatik və üslubi xüsusiyyətləri. Bakı, 1999.
2.Abdullayeva G.A.Müasir Azərbaycan dili. Morfologiya, sintaksis. II hissə, Bakı, 2014.
3..Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. III hissə, Bakı: Maarif,1983.
4. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 2010.
5. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. I hissə, Bakı, 2007.
6.Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə, Bakı, 2007.
7. Müasir Azərbaycan dili. EA nəşri, II hissə, Bakı, 1980.
8.Seyidov Y. Azərbaycan dilinin qrammatikası. (Morfologiya).

Г.А.Абдуллаева

Непроизводные окончания в современном Азербайджанском языке

Резюме

В статье исследуются наблюдающиеся на данный момент непроизводные окончания в современном азербайджанском языке. Просматриваются мнения, связанные с научной литературой, выражается отношение к вопросам структуры некоторых слов на данном уровне нашего языка, и под четырьмя группами обобщаются непроизводные окончания в современном азербайджанском языке.

G.A.Abdullayeva

Non-Productive Suffixes in Modern Azerbaijan Language

Summary

The article investigates the non-productive suffixes in the Modern Azerbaijan language. The opinions on this issue has been referred to the scientific literature related to the Azerbaijan linguistics, introduced the attitude according to the structure of some of the words in our language and modern non-productive suffixes summarized under the four names.

Rəyçilər: filol.f.d., dos. U.B.Mürşüdova
ADPU-nun (Şəki filialı) Dillər kafedrası
20.12.2016-cı il tarixli iclasının qərarı (pr. №04))
Redaksiyaya daxil olub: 16.01.2017

K.A.ALIRZAYEVA
dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ PERİFERİK FONEMLƏRİN FONETİK-FONOLOJİ XÜSUSİYYƏTLƏRİNƏ DAİR

***Açar sözlər**: periferik, fərqləndirici, velyar, kakuminal, novlu*
***Ключевые слова:** периферический, различительный, велярный, какуминальный, щелевой*
***Key words:** periferic, distinctive, velar, cacuminal, constrictive*

Dildə fonem birləşmələrindəki qanunauyğunluqları müəyyənləşdirərkən görürük ki, fonemlər müxtəlif mövqelərdə çıxış edirlər. Fonemlər həm sözün əvvəlində, həm ortasında, həm də sonunda işlənir. Lakin bunu bütün fonemlər haqqında demək olmaz.

Dildə bəzi fonemlər sözdə hər üç mövqedə sərbəst işləndiyi halda, elə fonemlər vardır ki, məhdud formada işlənir. Dildə bəzi fonemlər tez-tez, digərləri isə az işlənir.

"Periferiya" anlayışını dilçiliyə ilk dəfə R.Jakobson 1936-cı ildə "Ümumi hal nəzəriyyəsinə dair" adlı əsərində gətirmişdir. O qeyd edir ki, periferik həmişə ifadənin və ya sistemin kənarında durana deyilir (6, s.152). D.Counz fonemi hər hansı bir dildə təbiətinə görə birbirilə qohum olan, biri digərinin yerində, eyni fonetik konteksdə işlənməsi mümkün olmayan səslərin ailəsi adlandırır (5, s.14). F.Kazımov fonemi nitq səsi kimi götürür və müəyyən bir dildə ən kiçik məna vahidləri kimi morfemləri eyniləşdirməyə və fərqləndirməyə xidmət edən ən minimal danışıq səsini fonem adlandırır (7, s. 471). F.Yadigarın fikrincə isə, fonem, dilin bölünməyən, ən kiçik və ayrılıqda heç bir məna ifadə etməyən, yalnız sözləri və onların formalarını fərqləndirməyə xidmət edən vahidlər nəzərdə tutulur (8, s. 66).

A.Martine fonetik planda periferik elementlər ideyasını irəli sürərək, sistemə tam inteqrasiya olunmuş fonemləri yarımçıq inteqrasiya olmuş fonemlərdən ayırmağı tövsiyə edirdi. Yarımçıq inteqrasiya olunmuş fonemlər fərqləndirici əlamətlərə görə geniş fonoloji oppozisiyalarda iştirak edə bilmir (9, s. 178). Periferik fonemlər məhdud funksional yük daşıyır və məhdud distribusiyaya malik olur.

Müasir ingilis dilində /h/ samiti samit fonemlərin içərisində təcrid olunub. /h/ fonemi ingilis dilinin heç bir fonemi ilə birbaşa oppozisiya yarada bilmir.Ingilis dilində /h/ fonemi saitdən sonrakı mövqelərdə söz və morfem sonunda işlənə bilmir.

Azərbaycan dilində /ɤ/ fonemi sözün və morfemin başlanğıcında gələ bilmir. O, yalnız saitdən sonra gəlir, morfem və söz sonunda isə çox güclü şəkildə karlaşır.

Müasir ingilis dilində /ʒ/ fonemi çox az dərəcədə /ʃ/ ilə kontrasta gəlir.

Y.Vaxek ingilis dilində aşağıdakı fonemləri periferik fonemlər adlandırır: /h/, /ʒ/, /ŋ̲/, /w/, /j/, /ɔɪ/. O yazır ki, hər bir dildə fonemlər müxtəlif dərəcədə işlənə bilərlər. Bəziləri daha geniş variasiya imkanına malik olurlar. Digərlərinin isə işlənmə xüsusiyyətləri çox məhduddur. Məsələn, /w/ sonoru sözün əvvəlində saitdən əvvəl işlənir və ya samitlə sait arasında gəlir. Ancaq o, söz kökünün sonunda işlənə bilmir.

Ingilis dilində dilarxası, velyar samit /ŋ̲/,/k,g/ samitlərindən əvvəl işlənir. Bu dildə /ŋ̲/ ilə başlayan söz yoxdur. Ən əsas fakt odur ki, /ŋ̲/ və /ŋ̲ g/ səslərinə analoji fonetik şəraitdə rast gəlmək mümkündür. Məsələn: sözlərin ortasında /fiŋ̲gə/, /sıŋ̲gə/.

Ingilis dilindı /r/ fonemi əsasən sait və yarımsait səslərdən əvvəl işlənir. Y.Vaxek /r/ fonemini aşağıdakı kimi izah edir. "Bağlayıcı, birləşdirici /r/ - özündən dərhal sonra saitlə başlanan söz gələrsə, onda sözsonu r-düşmür. Məsələn: the door is open, far away.

Müasir ingilis dilində söz əvvəlində /tr-/və /dr-/ birləşmələrində səslər elə möhkəm bağlanır ki, onlar fonetik nöqteyi-nəzərdən affrikat təsiri bağışlayırlar. Y.Vaxek bunu onunla izah edirki, akustik eyniliyinə baxmayaraq, onlar həmişə morfemlərin iki komponenti arasında aralıq səsə bənzəyir.

Ingilis dilində elə bir fonem yoxdur ki, /r/ onunla birbaşa fonematik oppozisiyaya daxil ola bilsin (10, s. 244).

Y.Vaxek /j/ periferik fonem kimi danışarkən, onu frikativ səs kimi deyil, daha çox yarımsait səs kimi tələffüz oldu]unu qeyd edir. /j/ və /i/ arasında yeganə əsas fərq onların heca daxilində yerinə yetirdikləri funksiya ilə bağlıdır. /i/ heca nüvəsini yarada bildiyi halda, /j/ heç vaxt bu funksiyanı yerinə yetirmir. O, qeyd edir ki, /j/ samitinə ingilis dilində yalnız saitdən əvvəl rast gəlinir, postvokal vəziyyətində isə bu samit işlənmir. (10, s. 256)

A.S.Gimson sait fonemli mövqelərdən 21 samit fonemi qarşılaşmasını mümkünlüyünü göstərir. /ŋ/ fonemi isə normal olaraq yalnız /i, æ, ʌ,ɔ/ saitlərindən sonra işlənir. İngilis dili 20 samit fonemindən yalnız /w, j, h, r, ŋ, ʒ/ fonemləri məhdud çərçivədə işlənir (11, s. 267).

Azərbaycan dilində də fonemlər sisteminə nəzər saldıqda, məsələn, /t/ fonemi demək olar ki, bütün mövqelərdə işlənir və digər fonemlərlə oppozisiya yaradır. /h/ fonemi isə sözün sonunda çox az hallarda işlənir. Məsələn: sülh, ruh və s.

Azərbaycan dilində /ɣ/ fonemi sözün əvvəlində işlənə bilmir. /ʒ/ fonemi də çox az sözdə müşahidə olunur. Bu sözlərin də əksəriyyəti alınma sözlərdir. Buna görədə /ʒ/ fonemi dilimizdə digər başqa fonemlərlə oppozisiyaya girə bilmir.

Azərbaycan dilində /k/ foneminə yalnız alınma sözlərdə rast gəlinir. Məsələn, konkurs, konservatoriya, komediya və s. /x/ foneminin müxtəlif samitlərlə bilavasitə qoşulduqda işlənməsində məhdudluq vardır. Eyni zamanda işlənmə dairəsi morfoloji cəhətdən də məhduddur. Bu fonem yalnız kök mövqedə işlənir (1, s. 257).

Beləliklə, bu araşdırmalardan belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan dilində /h, x, ɣ,ʒ, k/ periferik fonemlərdir.

T.Hidayətzadə ingilis dilində /h/ fonemini Azərbaycan dilindəki /h/ foneminə nisbətən xeyli zəif olduğunu, Azərbaycan dilindəki /h/ foneminin hər cür fonetik şəraitdə işlənə bildiyi halda, ingilis dilində /h/ fonemi yalnız 2 saitlərdən və /j/ -dan əvvəl işləndiyini qeyd edir (2, s. 98).

Ingilis dilində /r/ kakuminal samitdir. Azərbaycan dilindəki /r/ samiti isə məhdud işlənmə yerinə və söz sonunda güclü karlaşmaya malikdir. Azərbaycan dilində /r/ samiti apikal məxrəclidir. Ingilis dilində /r/ səsini tələffüz edərkən dodaqlar genişlənir və dairəviləşir. Azərbaycan dilində /r/ samitini tələffüz edərkən dodaqlar tamamilə neytral olur. Ingilis dilində /r/ yalnız saitlərdən əvvəl işləndiyi halda, Azərbaycan dilində bu fonem hər cür fonetik vəziyyətdə işlənir (2, s. 66).

Periferik fonem kimi işlənən /ʒ/ fonemi novlu, küylü, dilönü samitdir. Ingilis dilində /ʒ/ novlu, qoşakeçidli samitdir. Ingilis dilində /ʒ/ apikal, Azərbaycan dilində isə dorsal məxrəcli samitdir.

Azərbaycan və ingilis dillərində olan periferik fonemləri oxşar və fərqli əlamətlər belə göstərə bilərik: ingilis dilində periferik fonemlər: /w/, /j/, /h/, /r/, /ŋ/, / ʒ/, Azərbaycan dilində periferik fonemlər: /h/, /ɣ/, /ʒ/, /k/, /x/. Oxşar fonemlər isə /h/, /ʒ/-/h/, /ʒ/. Fərqli fonemlər /w/,/ŋ/ (ingilis dilində), Azərbaycan dilində isə /ɣ/,/x.

Ədəbiyyat

1.Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. Bakı, 1973.

2.Hidayətzadə T.İ. İngilis dili Azərbaycan auditoriyasında. Bakı, 1987.

3.Trubeskoy N.S. Fonologiyanın əsasları.1939-cu ilin almanca nəşrindən tərcümə. “Son söz” və “Qeydlər” prof.F.Yadigarındır. Bakı, 2001.

4.Abercrombic D. Elements of general phonetics. Edinburgh, 1967.

5.Jones D. The phoneme: its nature and use. Cambridge, London, May, 1949.

6.Якобсон Р. К общему учению о падеже. Общее значение русского падежа. Избранные труды. М., 1985.

7. Кязимов Ф. Система согласных фонем современного азербайджанского литературного языка. Ученые записки Азгоспединститута иностранных языков, вып. I. 1956.

8. F.Yadigar. Fonetika və fonologiya məsələləri. Bakı, 1993.

9.Martinent A. Elements of general linguistics. Londan, 1964.

10.Vachek J. On peripheral phonemes of Modern English. İn: Selected Writings in English and General Linguistics. Academic. Prague, 1976.

11. Gimson. A.C Reader in Phonetics in the university of London, In: Juirk R. The use of English. London.

К.А.Алырзаева

К фонетически-фонологическим особенностям периферических фонем в английском и азербайджанском языках

Резюме

Статья посвящена фонетически-фонологическим особенностям периферических фонем в английском и азербайджанском языках. В статье сделана попытка изучения фонологических особенностей и распределения периферических фонем в составе слова.

K.A.Alirzayeva

On Phonetic Phonological Features of the Peripheric Phonemes in the English and Azerbaijani Languages

Summary

The article deals with the phonetic-phonological features of the peripheric phonemes in the English and Azerbaijani languages. An attempt is made in the article to study phonological features and distribution of the peripheric phonemes within the words.

Rəyçilər: prof. F.H.Zeynalov
ADU-nun ingilis dilinin fonetikası kafedrası
24.12.2016-cı il tarixli iclasının qərarı (pr. №04))

Redaksiyaya daxil olub: 29.12.2016

F.İ.CƏBRAYILOVA
E-mail: fjabrailova@yahoo.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

MƏCAZİ MƏNALI SÖZLƏR VƏ ONLARIN TƏRCÜMƏ PROSESİNDƏ YARATDIĞI PROBLEMLƏR

Açar sözlər: *ünsiyyət, dilçilik, metafora, mətn, ədəbiyyat*
Ключевые слова: *коммуникация, лингвистика, текст, метафора, литература*
Key words: *communication, linguistics, metaphor, text, literature*

Məlumdur ki, hər hansı bir dilin müxtəlif qatlarında inkişafın müəyyən mərhələlərində baş verən bu və ya digər dəyişikliklər onun yalnız daxili inkişaf qanunları ilə məhdudlaşmır. Belə dəyişikliklərin müəyyən hissəsi onun bilavasitə ictimai-iqtisadi, siyasi-mədəni və s. cəhətdən əlaqədə olduğu qohum və ya qohum olmayan dillərin (xarici amillərin) təsiri nəticəsində yaranır və dilin formalaşmasında və zənginləşməsində müəyyən rol oynayır. B.A.Serebrennikov bu barədə yazır: "Xarici aləmin rolu o qədər az və əhəmiyyətsiz deyil ki, dil hadisələrini öyrənərkən ona etina göstərməmək mümkün ola. Dünyada heç bir dil şüşə qapaq altında inkişaf etmir. Xarici aləm ona fasiləsiz təsir göstərir və onun ən müxtəlif sahələrində aydın nəzərə çarpacaq izlər salır".(4)

Tərcümə cəmiyyət həyatında mühüm rol oynadığına görə həm ədəbiyyatşünasların, həm psixoloqların, həm etnoqrafların, həm də dilçilərin diqqətini cəlb etmişdir.

Tərcümə işinin ən mühüm qollarından biri bədii tərcümədir. Bədii tərcümədə tərcüməçilik tarixində ictimai-tarixi şəraitdə, ədəbi ənənə ilə bağlı olaraq həm kəmiyyət, həm də keyfiyyətcə aparıcı mövqedə dayanır.

Bizim həm orta əsr klassiklərimiz, həm də sonralar bir çox görkəmli sənətkarlarımız başqa xalqların əsərlərində dilimizə çevrilmələrlə müntəzəm məşğul olmuşlar. Onlar tərcümə etdiyi xalqın dilinə, mədəniyyətinə həssaslıqla yanaşmış, çevirdikləri əsərlərin özümlüyünü qoruyub saxlamağa çalışmışlar. Əsərin ideya istiqaməti, ayrı-ayrı insan xarakterlərinin təsviri, təbiət mənzərələri - bütün bunların hamısını küll halında hər bir tərcümədə qoruyub saxlamaq lazımdır.Tərcümənin vacib keyfiyyətləri sırasına incə zövq, habelə, necə deyəylər, bir növ artistizmə aid edilməlidir. Çünki başqa dildə yazılmış mətnin məğzini, surətlərini və personajlarını ana dilində canlandırmaq üçün tərcüməçi də artiist kimi dəyişilməyi, başqalaşmağı bacarmalıdır.(3)

Tərcümə prosesində bir dildən başqa dilə tərcümə zamanı başqa bir dildə yeni mətn yaranır. Bu yeni mətndə orijinala uyğunluq əsas və zəruri cəhət hesab olunur. Bu uyğunluğu qorumaq və saxlamaq üçün mütləq tərcümə prosesinin dəqiq başa çatması tələb olunur. Odur ki, tərcüməçi hər iki dili mükəmməl bilməli, söz və ifadələrin qarşılıqlı ekvivalentini düzgün müəyyənləşdirməlidir. Həmçinin orijinaldakı fikrin dil vahidləri vasitəsilə dəqiq verilməsi, dil normalarının pozulmaması tələb olunur.

1964-cü ildə tərcümədə uyğunluq məsələlərindən danışarkən Yevgeni Nida (Eugene Nida) məxəz və hədəf dillərdə linqvistik və mədəni problemlərin eyni dərəcədə əhəmiyyətli olduğunu hesab etmiş və belə nəticəyə gəlmişdir ki, mədəniyyət səviyyəsində mövcud olan fərqliliklər dilin strukturu səviyyəsindəki müxtəlifliklərlə müqayisədə daha kəskin problemlər yarada bilir.

1980-ci illərin ortalarında Hans J.Vermer (Hans H.Vermeer) tərcümədə ***"skopos"*** adlanan nəzəriyyə irəli sürür. "Skopos" sözü yunan dilində "məqsəd" mənasında olub tərcümə prosesinin və ya tərcümə fəaliyyətinin məqsədini özündə əks etdirən texniki termin idi. Skopos nəzəriyyəsi hər şeydən öncə tərcümə prosesinin məqsədini əks etdirir. Tərcümənin

məqsədi isə öz növbəsində tərcümədə adekvat nəticələr əldə etməkdə yardımçı olan metod və strategiyaları müəyyən edir. Burada adekvat nəticə dedikdə, hədəf dil başa düşülürdü. Məhz bu səbəbdən də tərcümənin hansı məqsəd daşıdığını, yəni məxəz dilin nə üçün tərcümə edilməli olduğunu bilməklə hədəf dilin də hansı funksiyanı yerinə yetirdiyini anlamaq olar. Bu iki faktor isə tərcüməçi üçün olduqca əhəmiyyətlidir. 1992-ci ildə Mona Beyker (Mona Baker) qeyd etmişdir ki, tərcüməçi məxəz dildə mövcud olan semantik və leksik vahidləri bilməlidir. O, hesab edirdi ki, tərcüməçi qeyri-ekvivalent semantik vahidlərin tərcümə edilməsi üçün müvafiq strategiyalar işləyib hazırlaya bilər. Bu strategiyalar isə iyerarxik şəkildə - ümumidən (superordinate) xüsusiyə (hyponym) doğru istiqamətlənir. (2)

Üslubiyyat dilçiliyin müstəqil bir sahəsidir. Onun da özünəməxsus spesifik cəhətləri vardır. Lakin üslubiyyatın tədqiq obyekti, əhatə dairəsi, kateqoriyaları hələ də dəqiqləşdirilməmişdir.

Üslubiyyat aşağıdakı məsələləri tədqiq edir:

I. Dildə mövcud ifadə vasitələrində bir sıra estetik ünsürlər

– ahəngdarlıq, melodiyalılıq, təbii ritm, obrazlılıq, müəyyən lövhə yarada bilmək keyfiyyəti, incə məna çalarlıqları və s. vardır. Estetik ünsürlər eyni zamanda dilin ifadəlilik keyfiyyətlərini təşkil eidr. İfadə vasitələrində olan bu keyfiyyətlərin qanunauyğunluqlarını, incəliklərini, kontekstdə yaratdığı emosional təsiri tədqiq etmək üslubiyyatın vəzifəsidir. Bəzi tədqiqatçılar dilin estetik keyfiyyətlərinin öyrənilməsini üslubiyyatın vəzifəsi hesab etmirlər. Estetik faktorlar dilin təbiətindən doğur, onun orijinal cəhətləridir. “Bir dilə xas olan estetik faktorlar başqa dilə xas olan belə faktorlara çox vaxt uyğun gəlmir, çünki hər bir dilin özünəməxsus orijinal keyfiyyətləri vardır”. Bu cəhətdən “Dil elə özü-özlüyündə poeziyadır”. Burada dili poeziya adlandırarkən estetik faktorlar nəzərdə tutulmuşdur.

II. Nitq prosesində düzəldilmiş bəzi söz birləşmələrində fikir düzgün əks olunmur. Belə söz birləşmələri qrammatik cəhətdən qüsurlu olmasa da, üslub baxımından nöqsanlıdır.

III. İfadə vasitələri məqsədəuyğun seçilməlidir. Məqsədəuyğunluluq üslubiyyatın ikinci vəzifəsini tamamlayır. Sözü seçib öz yerində düzgün işlətmək, incə çalarlıqları mətndə nəzərə almaq, fikri daha təsirli ifadə edən vasitələr tapmaq imkanlarını öyrənmək üslubiyyatın vəzifəsidir. Öz yerində düzgün işlədilməyən hər bir ifadə fikri ağırlaşdırır, mətnin və ya əsərin təsirini azaldır. Buna görə də cümlə seçmə üslubiyyatın əsas problemlərindən biridir. İfadənin dəqiqiliyi, gücü, emosional rəngi şəraitlə müəyyənləşir, təyin olunur. Bir mətndə və ya əsərdə daha yaxşı səslənən ifadə vasitəsi başqa bir mətndə düzgün olmaya da bilər. Bu mənada üslubiyyat tətbiqi xarakter daşıyır. O, hər bir ifadə vasitəsinə şərait və mətndən asılı olaraq qiymət verir.

IV. Üslubiyyatın öyrəndiyi məsələlərdən biri də fərdi üslubdur. Fərdi üslub alimin, yazıçının, natiqin, bir sözlə, fikir söyləyən şəxsin ifadə tərzi, yaradıcılıq manerasıdır. Təsadüfi deyil ki, antik dövrdə üslubiyyat ifadə tərzi, yaradıcılıq manerası kimi başa düşülmüşdür. Ədəbiyyat, mifologiya, tarix və sairdə xüsusi adların metoforik işlənmiş geniş mənaları yayılmışdır. Bu adlardan onları daşıyan şəxslərin keyfiyyətlərini bildirmək üçün istifadə olunur ki, bu da antonomasiya adlanır. Bu həm Azərbaycan, həm də ingilis ədəbiyyatında geniş istifadə olunmuşdur. Ən gözəl nümunə C.Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları” hekayəsidir. Danabaş təkcə kənd adı deyil, həm də onun sakinlərinin avamlığına vurulan eyhamdır. Klassik ingilis ədəbiyyatında da bu üslubi fiqur geniş yayılmışdır. Məsələn, Henri Fildinqin “The True History of Tom Jones, a Foundling” romanında Mr. Allmighty (hər şeyə qadir), Şeridanın “School for Scandles” pyesində Mr. Surface (səthi), Miss Teasling (cırnadan) və sairəni misal göstərmək olar. Buna ən gözəl nümunə C.Bayronun “Don Juan” əsərində aşağıdakı parçada hər bir adın izah olunmasıdır:

Sir John pottledeep the mighy drinker
There was the sage Miss Reading
And the two fair co-heiresses Giltbedding

Azərbaycan dilinə tərcümədə sözlərin qarşılığı: pottledeep - qazan kimi dərin; mighy drinker - güclü alkoqol içən; sage - müdrik, ağıllı; reading - oxu, oxuma; co-heiresses - iki varis qadın; giltbedding - iki nəfərlik yataq; Dick Dubious - hər şeyə şübhə ilə yanaşan; metaphysician - metafizik; angle - bucaq; mathematician - riyaziyyatçı; sivercup - gümüş kubok; race winner - cıdırda qalib gələn.

Bədii əsərlərin dilinin tədqiqi bir tərəfdən yazıçının, şairin sənətkarlıq xüsusiyyətinin, digər tərəfdən isə dilimizin, xüsusilə bədii dilimizin, xüsusiyyətlərinin öyrənilməsi deməkdir. Bədii əsərə qiymət verilərkən onun ideya-siyasi cəhəti ilə yanaşı yazıçının, şairin sənətkarlıq xüsusiyyətləri də nəzərə alınmalıdır. Əsərin ideyası, məzmunu onun kompozisiyası və dili ilə sıx bağlıdır. Bədii əsərin qiymətini onun ideyası, eləcə də bədiiliyi artırır. Məzmunca yüksək olan əsər bədii cəhətdən zəif olduqda öz keyfiyyətini itirir. Bədii əsərləri məcazsız təsəvvür etmək mümkün deyil. Təsvir ifadə vasitələri, yəni məcazlar bədii dilin çox mühüm tərkib hissələridir. Dildə sözlər müxtəlif mənalarda işlənə bilir. Bu cəhətdən sözün həqiqi və məcazi mənası meydana çıxır.

Bədii əsərlərin dilinin tədqiqi bir tərəfdən yazıçının, şairin sənətkarlıq xüsusiyyətinin, digər tərəfdən isə dilimizin, xüsusilə bədii dilimizin, xüsusiyyətlərinin öyrənilməsi deməkdir. Bədii əsərə qiymət verilərkən onun ideya-siyasi cəhəti ilə yanaşı yazıçının, şairin sənətkarlıq xüsusiyyətləri də nəzərə alınmalıdır. Əsərin ideyası, məzmunu onun kompozisiyası və dili ilə sıx bağlıdır. Bədii əsərin qiymətini onun ideyası, eləcə də bədiiliyi artırır. Məzmunca yüksək olan əsər bədii cəhətdən zəif olduqda öz keyfiyyətini itirir.

Bədii əsərləri məcazsız təsəvvür etmək mümkün deyil. Təsvir ifadə vasitələri, yəni məcazlar bədii dilin çox mühüm tərkib hissələridir. Dildə sözlər müxtəlif mənalarda işlənə bilir. Bu cəhətdən sözün həqiqi və məcazi mənası meydana çıxır. Bədii təsvir vasitələri sözün kəsb etdiyi məna ilə bağlıdır. Sözün məcazi mənası onun bilavasitə daşıdığı məna deyil, əlavə kəsb etdiyi şərti mənasıdır.

Ədəbiyyat

1. Q.H. Bayramov. Tərcümə sənəti. Bakı: OKA Ofset, 2008.
2. O. Musayev. Azərbaycanca-İngiliscə lüğət A-Z. Bakı: Şərq-Qərb, 2005.
3. Z. Verdiyeva, F.Ağayeva, M.Adilov. Dilçilik problemləri. (I hissə). Bakı: Maarif, 1982.
4. Комиссаров В. Н. Слова о переводе. М., 1980.
5. Л.С. Бархударов. Язык и перевод. М., 1895.

Ф.И.Джабраилова

Слова с переносным значением и проблемы, возникающие при их переводе

Резюме

В статье затрагиваются некоторые нюансы перевода художественных текстов. Подчеркивается необходимость адекватного воссоздания слов с переносным значением для передачи цели и смысла художественных текстов.

F.I.Jabrayilova

Translation of Metophoric Words, their Definition and Problems that Happen during Translation

Summary

This article is about a language and its changes and a great role of translation in the language. Here is mentioned that translation is used in literature, in linguistics and in other fields of the language. This article also defines the functions, strategies and aims of translation

Rəyçilər: dos. S.H.Fətəliyeva
İngilis filologiyası kafedrası
(06.02.2017-ci il tarixli iclasının qərarı (pr. №08))
Redaksiyaya daxil olub: 13.02.2017

G.X.ƏFƏNDİYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

QANADLI İFADƏLƏRİN STRUKTUR SABİTLİYİ

***Açar sözlər**: frazeologiya, qanadlı ifadə, atalar sözü, linqvistik termin, epitet, frazeoloji vahid*
***Ключевые слова**: фразеология, крылатые фразы, пословицы фразеологические единицы, лингвистический термин, эпитет*
***Key words**: phraseologizm, winged phrases, proverbs, linguistic term, epithet, phraseological unit*

Frazeoloji vahidlərin sabitliyi birmənalı qəbul olunmayıb, mübahisələrə səbəb olan frazeologiyanın aspektidir. Bu problemlə frazeoloji vahidləri absolut kateqoriya hesab edən N.M. Şanski, sabitlik haqqında ənənəvi təlimlərə invariantlıq anlayışı gətirən A.V.Kunin kimi alimlər məşğul olmuşlar. Keçən əsrin 90-cı illərində frazeoloqlar yekdilliklə belə qənaətə gəldilər ki, frazeoloji vahidlərin sabitliyi nisbidir və bunu V.M.Mokienko öz "Slavyan frazeologiyası"nda dəqiq göstərmişdir. "Frazeoloji sabitlik söz birləşmələrinin nisbi stabil işlənməsini nəzədə tutur" (3, s.9).

Məlum olduğu kimi, nisbi stabillik dil vahidlərinin variativliyini nəzərdə tutur. QV (qrammatik vahidlər) variativliyi eyni tipli QV yaranmasına və frazeoloji modelin olması haqqında danışmağa əsas verir. İdiomatikliyi, təkrarolunmazlığı və fərdiliyi ilə seçilən frazeoloji vahidlər illər ərzində "frazeoloji model" adlandırmaq məqbul deyildi. Yalnız frazeologiyanın müstəqil bir elm kimi inkişafı nəticəsində frazeoloji vahidlərin modelləşməsini tədqiq etməyə başladılar. Bu sahədə S.Q.Qavrin, V.M.Makienko və D.O. Dobrovolski kimi alimlər çox iş görmüşlər. Onlar nəinki frazeoloji vahidlərin əsasən model üzrə qurulduğunu (dəyişən sərbəst söz birləşmələri), hətta frazeoloji model və frazeoloji modelləşmə anlayışını verirlər ki, bu da frazeologizmin (frazeoloji tip QV kimi) sintaksisdən kənar xüsusi müstəqil formalaşmış dil vahidi olduğu üçün baş verir. Frazeoloji model dedikdə, "forma və məzmunun nisbi sabitliyin sxematik əks etdirən sabit birləşmənin struktur-semantik invariantı" nəzərdə tutulur (3, s.53).

S.Q.Şulejkova hesab edir ki, QV modelləşməsini dilin frazeoloji fondunu təşkil edən idiomatik ifadələrə xas prosesslər formalaşdırır (6, s.168). QV modelləşməsi adsız FV (frazeoloji vahid) fərqlidir, bu da onların məna xüsusiyyətlərindən irəli gəlir ki, QV mənbə və ya müəlliflə əlaqəsi çox istifadə nəticəsində azalır, ya da tamamilə itir (6, s.170) Tədqiqatçının fikrinə görə, bu modelləşmə "frazeoloji qrupun" yaranmasına rəvac verir. QV yaranması problemlərini araşdıran alim öz tədqiqatında iki faktoru göstərir: ekstralinqvistik (dil xarici) və interlinqvistik (dildaxili). QV meydana gəlmələrinin ekstralinqvistik şərtləri kimi "böyük sosial qruplarla həmahəng ideya və görüşlərə malik yeni lider və ictimai xadimlərin meydana gəlməsi; yeni sənət əsərlərinin xüsusilə oxucu, tamaşaçı, dinləyici rəğbətini qazanmış yeni sintetik növ və janrların yaranması; kütləvi informasiya vasitələrinin texnikiləşməsi sahəsində dil daşıyıcısının öz həyatı; dövlətin siyasi və iqtisadi kursunun dəyişməsi; dil daşıyıcılarının estetik, etik və dini dəyərlərin dəyişməsi" kimi səbəbləri göstərir (7, s.178-179). Lakin QV təşəkkülünün əsas səbəbib kimi alim dildaxili xarakteri göstərir. Birincisi ona görə ki, "eyni tipli hadisələrə ümumi anlayış kəsb etməsini göstərdikdə, məsələn, vətən viranə də olsa cənnətdir müəyyən realiyaların ümumiləşmiş adları kimi yox, "mücərrədləşmə" qanuna əsasən dil strukturunun kimi daha konkret elementlrinə nisbətən az konkret olanlar daha çox inkişaf edir" (7, s.179). QV meydana gəlməsini şərtləndirən başqa

bir faktor kimi müəllif məlum hadisələri daha emosional-təsirli adlandırmaqda ehtiyac olmasını göstərir.

Sitat və aforizmlərin "qanadlı" olmasının bir səbəbi kimi hələ XIX əsrdə A.A.Potebnyanın atalar sözü və məsəllərinin təmsildən əmələ gəlməsi faktını da alim göstərir. Burada mənbədə olan fikrin "qatılaşması" nəzərdə tutulur. Alim qeyd edir ki, ifadənin mətn tərəfindən həm leksik, həm də semantik baxımından adlandırılması mümkündür, yəni sitat və ya əsərin adı "qanadlı" statusu qazanır; ikincisi "QV leksik və struktur baxımdan mətndən kənar yaranır baxmayaraq ki, əsərin məxzi "qatılaşmış" formada onda mövcud olan obrazı dildə saxlayır" (Məcnun məhəbbəti. Hacı-qara xəsisliyi); üçüncüsü isə müəllif və ya əsərin personajı tərəfindən deyilən didaktik əhəmiyyətli hisslər, nəsiyyət, ibadət xarakterli ifadələrdir (Yaxşı de ki, xeyir olsun. Pis deməsən xeyir olmaz) (7, s.180).

Göstərilən faktlarla yanaşı QV yaranmasını şərtləndirən məqamlar kimi onların tərkibində ümumi əvəzliklərin olmasıdır (Hamı bir nəfər kimi. Hər şey dəyişir zaman kimi), və ya infinitivin olması (Yaşamaq sadəcə nəfəs almaq deyil, həyatın nəfəsini duymaqdır), təsirli-sintaktik konstruksiyaların və başqa təsirli dəyərləndirici leksikanın işlənməsi ilə də yaranır (Sən də Brut! Həyat necə də gözəldir!)

Alim adi sitaın QV olması üçün dörd mərhələ göstərir. Birincidə sitat müəllifin, mənbənin göstərilməsi ilə müşayət olunur. Bu zaman şifahi olduqda xüsusi intonasiya ilə tələffüz olunur, yazıda isə dırnaq işarəsində verilir. İkinci mərhələdə isə mənbə göstərilmir, lakin danışıq zamanı konstruksiyanın özəlliyi fərqli intonasiya ilə müşayət olunur, yazıda isə başqa qrafik işarələrlə verilir. Üçüncü mərhələdə isə frazeolaşma baş verir və bu da sitatın mənbədən ayrılıb başlıqlarda, bədii əsərlərin adlarında istifadə olunur. Dördüncü-sonuncu mərhələdə başqa dil vahidlərilə isə (əşyavi-məntiqi, sinonim, antonim) sistem əlaqələrə daxil olur (6, s.183-184)

Bu mərhələləri dəf edən sitat semantik və struktur dəyişiklərə məruz qalır: mənası ümumiləşmiş, mücərrəd və komponent tərkibinin azalması baş verir (Yoldan çıxmağın min yolu, həqiqətin isə bir yolu vardır-həhəqiqətin bir yolu var, qarnı sözlə doludur-qarnı doludur). QV frazeolaşmasından danışanda sabitlik və mənanın səciyyəviliyini dil vahidlərinin kateqorial əlamətləri kimi unutmaq olmaz. QV-in semantik problemi müasir elmdə az işlənmişdir. Q.Byuxman QV tərifin verdikdə semantikaya ümumiyyətlə toxunmur. S.V.Maksimov isə əksinə bütün diqqətin semantikaya verir. M.İ.Mixelson ilk dəfə QV semantik xüsusiyyətlərin təsvir etmişdir və nəyinsə məğzini "düz" və "dəqiq" çatdırılmasını ifadənin səciyyəvi əlaməti hesab edir. "Dəqiqlik" ideyası ilk dəfə S.Q Zaymovski tərəfindən inkişaf etdirilmişdir. O belə hesab edirdi ki, "sitatı düz başa düşmək üçün onun mənbəyini, meydana gəlmə zamanını və şəraitini bilmək vacibdir" (2, s.15-16). N.S və M.X. Aşukinlər S.Q.Zaymovskinin bu müddəasın konkretləşdirib "dəqiqlik" əvəzinə "obrazlılıq" termini təklif edib göstərirlər ki, QV bizim şüurumuzda bir neçə assosiyasiyalar yaradır və "QV mənbəsi haqqında məlumatımız olmadıqda bu təsəvvürlər solur və QV mənası düz başa düşülmür" (1, s.4).

Y.E.Proxorov "rusların fon biliklərin" təşkil edən QV mənalırının milli-mədəni komponentlərinin az olmasını göstərir (4, s.136-143). Q.V frazeolaşmasına səbəb kimi xüsusi "ekstralinqvistik" amili qeyd edir və vahidin mənasında tam mətnin kondensasiyasını göstərir (4, s.93-94)

QV ümumi səciyyəvi xüsusiyyəti kimi B.S.Şvartskopfun dediyinə görə strukturundan asılı olmayaraq mənanın iki planlığı: mətnin ümumi konkekstinin QV mənbəyi ilə münasibəti semantik strukturu yaratmış olur (8, s.114).

Şulejkova S.Q isə QV əsas səciyyəvi xüsusiyyəti kimi nə iki planlığını, nə obrazlılığını, nə aforistikliyini yalnız mənbəyinə "genetik bağlılığını" göstərir. Və bu "kadrdan" kənar dərinlik, ekstralinqvistik, "fon", əsas mənaya əlavəni təmin etmiş olur (7, s.158).

Beləliklə, QV dil daşıyıcılarının onun mənbəyi haqqında fon bilikləri unutmayana qədər xüsusi dil hadisəsi kimi qəbul olunur. Lakin bu fon biliklər, Şulejkovanın dediyinə görə, əsas mənaya əlavə semantik yük kimi qəbul olunmalıdır, çünki QV mənası sabit və başqa sabit söz kompleksləri kimi dilin qanunlarına bağlıdır.

Beləliklə, göstərilənləri nəzərə alıb, demək olar ki, QV hər bir müstəqil sabit dil vahidinə xas əlamətlərinə görə, differensial xüsusiyyətlərə malik dil vahididir. Başqa müstəqil vahidlərdən fərqi isə QV mənbəyi və ya müəllifin adı ilə xüsusi əlavə mənanın olmasıdır.

Ədəbiyyat

1. Ашукина М., Ашукин Н. Крылатые слова. М., 1980.
2. Займовский С.Г Крылатое слово. Справочник цитаты и афоризма. М.; Л.: Государственное изд-во, 1930.
3. Мокиенко В.М. В глубь пооговорки. Киев: Радянська школа, 1989.
4. Прохоров О.Е. Русские крылатые выражения как объект учебной лексикографии. М. Русский язык, 1977.
5. Ройзонзон Л.И. Лекции по общей и русской фразеологии. Самарканд. Изд-во. ТУ, 1973.
6. Шулежкова С.Г. Крылатые выр. русский язык М, 1979.
7. Шулежкова С.Г. Крылатые выражения русского языка, их источники и развитие Челябинск. Изд-во Челябинск. Государственный Института «Факел», 1995.
8. Шварцкопф Б.С. Основные параметры описания крылатых выражений современного русского литературного языка. М.: Наука, 1990.

Г.Х.Эфендиева

Структурная стабильность «крылатых» фраз

Резюме

Критерии отделения «крылатых» фраз от других фразеологических единиц, предложенные учеными-фразеологами, рассматриваются в данной статье. Здесь также затрагиваются понятие о воспроизводимости «крылатых» фраз, стабильность как дифференциальный признак «крылатых» фраз, причины их возникновения и развития. Крылатые фразы, использованные в письменных памятниках, доказывают древность произведения. В статье на обширном материале анализируются все эти вопросы.

G.Kh.Afandiyeva

The Structure Stability of the “Winged” Phrases

Summary

The criteria, distinguishing “winged” phrases from other phraseological units suggested, by scientists-phraseologists are analyzed in the article. The notion of re-usage of these phrases? The stability of the “Winged” phrases as the distinguishing features of the phraseological units are investigated here. Winged phrases used in the written monuments prove the antiquity of the work. The article examines these questions on the extensive material.

Rəyçi: filol.f.d., dos. A.X.Ramazanova

Redaksiyaya daxil olub: 07.02.2017

M.B.ƏMRAHOVA

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
(Bakı şəh., İstiqlaliyyət küç., 6.)

AZƏRBAYCAN DİLİNDƏ NEOLOGİZMLƏRİN ÜSLUBİ İMKANLARI

Açar sözlər: *neologizmlər, üslubi imkanlar, funksional üslublar, dildaxili faktorlar, əcnəbi mənbələr.*
Ключевые слова: *неологизмы, стилевые возможности, функциональный стиль, внутриязыковые факторы, иностранные источники.*
Key words: *neologism, stylistic possibilities, functional styles, linguistic factors, foreign sources.*

Qloballaşan dünyada cəmiyyət, elm və texnika sürətlə inkişaf edir. Bizi əhatə edən mühit daim qloballaşır, xalqların, ictimai quruluşların, müxtəlif sənət sahələrinin bir-birinə inteqrasiyası günün tələbinə çevrilir. Baş verən bu yeniləşmələr, insan ağlının belə kifayət etmədiyi sürətli inkişaf öz əksini dildə də tapır. Bütün dillərdə olduğu kimi, Azərbaycan dilində də yeni söz və ifadələr meydana çıxır. Bunlara *neologizmlər* deyilir. Bu sözlər ya qohum dillərin, xüsusən, Türkiyə türkcəsinin təsiri ilə yaranır, ya da dilin özündə "söz partlayışı" baş verir.

Neologizmlər elmin, iqtisadiyyatın, istehsalatın, mədəniyyət və incəsənətin inkişafı ilə, eyni zamanda fərdi-üslubi xüsusiyyətlərə görə yaranır. Dilimizdə son dövrlərdə işlənən *form, kreativ, ekstremist, biznesmen, mesaj, sayt, özəl* və s. kimi külli miqdarda yeni sözlər yaranır və yaranmaqdadır.

Neologizmər də arxaizmlər kimi dilin passiv fonduna daxildir, çünki onlardan hamı istifadə etmir, həmin sözlər cəmiyyətin bütün sferalarında eyni işləkliyə malik deyil. Digər tərəfdən, neologizmlərin bir qismi elmin, texnikanın, həyatın inkişafı ilə bağlı yaranırsa, bir qismi arxaikləşmiş sözlərin vətəndaşlıq hüququ qazanaraq yenidən dilə qayıtması ilə meydana çıxır. Belə sözlərə *dirilən sözlər* deyilir. Vaxtilə dilimizdə ümumişlək sözlər kimi işlənmiş *çavuş, yarlıq, ulu, ulus, dürlü, araşdırma* kimi sözlər özləşmə prosesinin təsiri ilə yenidən dilimizə qayıtmışdır (6, s. 152).

Dilimizdə neologizmlərin yaranma tarixi mövcuddur: bu XX əsrin 60-cı illəridir. Dilimizin inkişafına dövlət qayğısı ilə əlaqədar olaraq, bu proses xeyli güclənmiş, milli əsaslar zəminində yeni sözlər yarandığı kimi, bir çox əcnəbi sözlər də dilimizdə vətəndaşlıq hüququ qazanmışdır.

Yeni sözlərin bir qismi dilimizin öz sözləri, öz potensialı hesabına yaranır; burada sözlərin feilköklü olması da müəyyən rol oynayır: *dönəm, durum, duracaq, əyləc, duyum,yayım* tipli sözlərin kökləri feildir; *çimərlik, toplum, yetərsay, açıqca, toplu, dəstəkləmək, soyqırım* kimi sözlərdə bilavasitə hərəkət məzmunu vardır. *Dabankeş, öndər, çağdaş, nəfəslik, soyad, bağımsız, başqan* neologizmləri də dilimizin daxili qüvvəsi ilə meydana gəlmişdir (7, s. 246).

Neologizmlərin işlənmə miqyası, demək olar ki, Azərbaycan ədəbi dilinin bütün funksional üslublarını əhatə edir. Bədii, publisistik, elmi, rəsmi-işgüzar, hətta məişət üslublarında yeni sözlərin işlənməsi ayrı-ayırlıqda müxtəlif məqsəd və funksiya daşıyır.

Bədii üslubda neologizmlər. Bədii dildə yeni sözlərin işlənmə mexanizmi digər üslublarla müqayisədə bir qədər fərqlidir. Belə ki, digər üslublar hazır dil vahidlərindən yararlandıqları halda, əksinə, bədii üslub dildə yeni söz yaradıcılığı prosesinə ciddi təsir göstərir. Görkəmli söz ustalarının bədii dil vasitəsilə ədəbi dilə gətirdikləri xeyli sayda neologizmlər bu gün aktiv şəkildə işlənməkdədir.

Bildiyimiz kimi, söz yaradıcılığı prosesi ümumxalq dili ilə yanaşı, bədii üslubda da özünü göstərir. Ümumxalq dilində olduğu kimi, bədii üslubda da söz yaradıcılığı leksik,

morfoloji və sintaktik üsulla yaranır. Söz ustalarının yaradıcılığına bu yöndən diqqət yetirsək, xeyli sayda belə üslubi neologizmlərə rast gəlmək olar. Öz bənzərsiz sənətkarlığıilə ədəbiyyat tariximizdə yer tutmuş şair və yazıçıların dilində belə üslubi neologizmlərlə tez-tez qarşılaşa bilərik.

-çı[4] şəkilçisi ilə bədii dildə yaranmış neologizmlərə rast gəlmək olur: ***Toyçu*** *qardaş elə çal ki, toyun səsi... Coşar* ***bəstəçilər****, dinər bəstələr... Ev yıxsa da* ***böhtançının*** *dilləri...* (Z.Yaqub).

-lı[4] şəkilçisi ilə düzəlmiş neologizmlər bədii dildə daha çox məcazilik yaratmağa xidmət edir: ***Dizli*** *kişilərin qırılar dizi;* ***Çoxgözlülər*** *gözdən oldu* (Z.Yaqub).

- sız[4] şəkilçisi ilə yaradılmış neologizmlər daha çox bədii dildə kəskinlik, ifşaedicilik yaradır, mətnaltı fikirlər söyləməyə imkan verir: *Dilə gəlib* ***yolsuzların*** *əlindən;* ***Gözsüzlərə*** *gur işıq; Başın var* ***başsızdan*** *qoru* (Z.Yaqub).

-la[2]şəkilçisi ilə yaranan yeni sözlər, əsasən, qoşulduğu sözün mənası ilə bağlı hərəkəti bildirir: *Gözəlləri* ***göyçəkləməz****; Gözün nişan verdi, qaşın* ***himlədi*** (Z.Yaqub).

-lan[2]şəkilçisi ilə yaranan neologizmlər isə daha çox məna zənginliyi yaratmağa xidmət edir: *Bar sözündən* ***barlanmaq;*** *Yuva qurar* ***yuvalanar*** **(**Z.Yaqub).

Müasir dövrümüzdə əsərləri ilə ədəbiyyatımıza və dilimizə xeyli zənginlik gətirmiş Xalq yazıçısı Anarın son dövr yaradıcılığı da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Xüsusilə yazıçının bəzi nəsr əsərlərində ictimai-siyasi və mədəni mühitin təsirindən doğan və yüksək yaradıcı təfəkkürün məhsulu olan bu sözlər bədii və üslubi cəhətlərinə görə fərqlənirlər. Məsələn, müəllifin nəsr əsərlərində rast gəldiyimiz *olay,üzülmək, pantalon, təknə, şıq, uçaq, dərgi, görüntü, otoban, fuar, orman, anıt, süslənmiş* və s. leksik vahidlər bədii dil üçün yeni olan Türkiyə türkcəsinə aid sözlərdir. Yazıçının dilində işlənən neologizmlər – türkizmlər fonetik, leksik, qrammatik xüsusiyyətlərinə görə bir- birilərindən fərqlənirlər.

Yazıçı əsərlərində elə neologizmlərdən istifadə edir ki, onların ədəbi dilimizdə qarşılığı olsa da, bu sözlər mənbə dilin fonetik qəlibinə uyğun şəkildə saxlanılır. Belə ki, *karkatura, melodiya, afişa, bank* sözləri dilimizdə işləndiyi halda müəllif onları Türkiyə türkcəsinin fonetik tərkibinə uyğun şəkildə təqdim edir: *karikatür, melodi, afiş, banka.* Bəzi türkizmlər isə ana dilimizin fonetik qəlibinə salınaraq işlədilmişdir: *bıqdırmaq, qaldırım, qalabalıq, duraq, dartışma, dürlü-dürlü, qurtulmaq, şaşqın* və.s. Bu kimi sözlərdə daha çox *k-q, d-t* əvəzlənmələrini müşahidə etmək olar. Fonetik xüsusiyyətlərdə diqqət çəkən məqamlardan biri də *Kipr* sözünün yazılışı ilə bağlıdır. Müasir türk dilində *Kıbrıs* kimi işlənən bu sözü yazıçı hətta dilimizin səs qanunauyğunluğunu əks etdirən *Kipr* kimi deyil, *Kiprıs* formasında qeyd etmişdir: *Marşrutun bir ucu Baykal göstərilsə də, bəzi hallarda bu marşrut Yakut Saxa elindən, yaxud Monqolustanda Orxon abidələrindən başlanır və Quzey* ***Kiprıs*** *Türk Cümhuriyyətində bitirdi*.

Yazıçı işlətdiyi sözlərlə əsərlərində leksik paralellik yaradır. Məsələn, *bilgisayar//kompüter, dartışma//mübahisə, hava alanı//hava limanı//aeroport, pul//para, mer//başqan, uçaq//təyyarə* və. s. *Sancaq//tuğ//bayraq* sözlərindəki paralelliyi isə yazıçı zaman ardıcıllığına müvafiq olaraq sıralamışdır: *"Turan" otelinin qarşısında tarixi türk imperiyalarının, dövlətlərinin sancaqları və tuğları görünürdü. "Erkenekon" sarayının qarşısında çağdaş türk respublikalarının bayraqları dalğalanırdı.*

Müəllif bəzən Türkiyə türkcəsində verdiyi sözlərin ana dilimizdə izahını-əlavəsini də verir. Məsələn, *piknik* – çöl məclisi, *eylül* - sentyabr, *bələdiyyə başqanı*-mer, *təknə* - yaxta; Bilirdi ki, bu bayram günü orada xüsusi ayrılmış yerlərdə *pikniklər-çöl* məclisləri qurulacaq.

Nəsr dilində rast gəldiyimiz maraqlı bir məqam da cümlə daxilində bir anlayışı ifadə edən sözün həm Türkiyə türkcəsində, həm Azərbaycan türkcəsində işlədilərək sinonimik paralellik yaratmasıdır: *duraq//dayanacaq, dartışma//mübahisə.*

Sual cümlələrində müəllif türk dilinin sual əvəzliklərindən də istifadə edir: *Nədən hər gün eşitdiyi səslər bu gün bu qədər xoş bir ovqat oyadırdı?*

Publisitik üslubda neologizmlər. Məlumdur ki, başqa dillərdən alınan sözlər keçdiyi dilin daxili inkişaf qanunlarına tabe olaraq işlədilir və bu proses ilk növbədə, özünü mətbuatda, mediada göstərir. Ona görə də hər bir cəmiyyətin media və mətbuatı o cəmiyyətin güzgüsü rolunu oynayır və təbii ki, həmin xalqın mədəniyyətinə və dilinə bəslədiyi münasibət bu güzgüdə əks olunur. Və publisistik dili də digər üslublardan fərqləndirən əsas cəhət elə budur: belə ki, bu gün alınma sözlərin, o cümlədən neologizmlərin ədəbi dilə keçməsində kütləvi informasiya vasitələrinin böyük təsiri və rolu vardır. Demək olar ki, bu effektin miqyası genişləndikcə, digər üslublara da öz təsirini göstərir.

İctimai-siyasi leksika bütün dillərin lüğət tərkibində aparıcı yerlərdən birini tutur. Çünki ciddi və mürəkkəb ictimai-siyasi hadisələr, ziddiyyətli situasiyalar, bir sözlə, ölkə daxilində baş verən ictimai-siyasi durum və s. mətbuat səhifələrində bu olayları özündə əks etdirən söz və terminlərlə, terminoloji ifadələrlə öz əksini tapır (8, s. 43). İctimai-siyasi leksika ən çox alınma xarakteri daşıdığı üçün müəyyən zaman kəsiyində Azərbaycan dilinə tərcümə mətnləri ilə daxil olmuşdur. Məsələn: *klan, respondent, geopolitik, paranormal, killer, mafiya, revanş, preventiv, korrupsioner, kuluar, piket, funksioner, xaos, xarizma, konfidensial*və s.

Bu tip neologizmlərin çoxluğu müstəqil mətbuatın dilinə bəzi hallarda ağırlıq gətirir. Çünki onlar, bir növ ictimai-siyasi terminoloji leksikanın vahidləri olduğundan kütlə tərəfindən də anlaşılmazlığa səbəb olur. Qeyd etmək lazımdırki, Türkiyə türkcəsində "Dilimize sahip çıkıyoruz", "Yabançı kelmelere karşılıklar" başlıqlarında verilən bu tipli alınmaların (məsələn: *sempati* (təklif olunan qarşılığı yakınlıq), *prezante* etmek (tanıtmak), *mantalite* (zihniyyet, anlayış), *departman* (bölüm), *sponsor* (destekleyici), *branş* (bölüm) özləşdirilmiş variantları da mətbuata təqdim olunur və onun vasitəsilə ictimaiyyətə çatdırılır. Son zamanlar meydana gələn*"selfi"*sözününTürkiyə televiziyalarında nümayiş olunan reklamlarda *"özçekim"*şəklində işlədilməsi bu leksik vahidi artıq cəmiyyətdə ümumişlək sözə çevirmişdir. Bizcə, bu cür sözyaradıcılığı prosesinə üstünlüyün verilməsi bizdə də diqqətdən yayınmamalıdır.

Ancaq müstəqillik illərində Türkiyə türkcəsindən keçmiş *canlıyayım, cizgifilmi, özəlləşdirmə, işadamı, durum, yetərsay, düzən, işbirliyi* kimi söz və terminlər media və mətbuat vasitəsilə ədəbi dildə ümumişləklik qazanmışdır. Hətta son illərmətbuatdaTürkiyə türkcəsində işlənən bir sıra neologizmlərin dilimizdəki ərəb-fars mənşəli alınmaları sıxışdırmasını mütərəqqi hal kimi qəbul etmək olar: *önəm - əhəmiyyət, olay - hadisə, xüsusiyyət-özəllik, uçak - təyyarə*və s. (2, s. 258).

Yeni sözlər məişət üslubunda da mütəmadi olaraq işlənir. Ədəbi dilin məişət üslubunda işlənən bəzi neologizmlər dilin lüğət tərkibinə daxil olur, bir müddət işlənir və dilin lüğət fonduna daxil olur. Bəziləri isə dilin lüğət tərkibində qalır: ya geniş işlənmə dairəsinə malik olmur, ya da arxaikləşir. Məsələn, bu gün dilimizə daxil olan *feysbuk, android, vatsap, layn, imeyl, instaqram, skayp, slayd* kimi neologizmlər artıq kütlə tərəfindən işlədilir və dilimizin lüğət fondunda yer tutur. Ancaq bəzi sözlər isə belə deyil. Məsələn, *monopod* dilimizin lüğət tərkibinə daxil olsa da, geniş işləklik qazanmamışdır. Ancaq bunun əvəzində Türkiyə türkcəsinindən keçmiş *selfi çubuğu* ifadəsi daha aktiv işlənməkdədir.

Elmi üslubda neologizmlərin işlənməsi terminoloji xarakter daşıdığı və işlənmə sferası məhdud olduğu üçün bu barədə ayrıca araşdırma mövzusu kimi bəhs etməyi daha məqsədəuyğun sayırıq.

Beləliklə, məlum oldu ki, neologizmlər ədəbi dilin funksional üslublarında müxtəlif məqsəd və vəzifələrlə əlaqədar işlənir. Bədii və publisistik üslubda işlənmə miqyası və tezliyi daha çevik olan neologizmlərin ədəbi dildə işlənmə sferası daha genişdir. Və bu onu göstərir

ki, neologizmlər üslubi keyfiyyət daşımaqla bərabər, həm də dilimizin lüğət tərkibin zənginləşməsində mühüm əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. Anar. Seçilmiş əsərləri. Bakı: Lider, 2004.
2. Babayev A. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2016.
3. Bəylərova A. Bədii dildə üslubi fiqurlar. Bakı: Nurlan, 2008.
4. Cəfərov S. Müasir Azərbaycan dili (leksika). II hissə. Bakı: Şərq-Qərb, 2007.
5. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962.
6. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Maarif, 1987.
7. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I hissə. Bakı: Nurlan, 2003.
8. Məmmədli Y. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: BDU, 2015.
9. Yaqub Z. Seçilmiş əsərləri. Bakı, 2011.

М.Б.Амрахова

Стилевые возможности неологизмов в азербайджанском языке

Резюме

В статье говорится о стилевых возможностях неологизмов, употребляющихся в словарном составе азербайджанского языка. В статье отмечается, что основной чертой, отличающей публицистический язык от других стилей, является то, что сегодня в переходе заимствованных слов, в том числе неологизмов, в художественный язык большую роль и влияние имеют средства массовой информации. Масштаб этого эффекта, можно сказать, оказывает свое влияние и на прочие стили.

M.B.Amrahova

The Stylistic Possibilities of Neologism in Azerbaijani Language

Summary

This article deals with the stylistic possibilities of neologisms in vocabulary of Azerbaijani language. It was noted in this article that, the main feature that distinguishes publicistic language from another styles, today the mass media has a massive effect and role on passing of acquised words, as well as neologisms to literary language. The scale of this effect almost provides its effect in other styles.

Rəyçi: dos. A.Hüseynova

Redaksiyaya daxil olub: 14.02.2017

R.F.ƏMRAHOVA
E-mail: rena@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

FRAZEOLOGİZMLƏRİN TƏRCÜMƏSİNİN TƏDRİSİNDƏ NƏZƏRİ ASPEKTLƏRİNİN ROLU

***Açar sözlər**: frazeoloji vahidlər, tərcümə problemləri, ekvivalent, əsas xüsusiyyətlər, semantik məna.*
***Ключевые слова**: фразеологические единицы, проблемы перевода, эквивалент, основные особенности, семантическое значение.*
***Key words**: pharaseological units, problems of translation equivalent, main properties, semantic meaning.*

Frazeoloji birləşmə funksional baxımdan bütöv hazır vahiddir. O özünü semantik və konstruktiv-qrammatik söz birləşməsi şəkildə biruzə verir və məhz buna görə də asanlıqla ikinci dilə çevrilmir. Bunun da səbəbi frazeologizmlərə məxsus olduqları dillərin təkrarsız milli səciyyəsi, leksik-qrammatik qanunauyğunluqlarıdır. Gənc tərcüməçilərə frazeoloji birləşmələrin tərcümə metodlarının və üsullarının kompleks şəkildə öyrədilməsi orijinalın dilinin əlvanlığının qorunmasının əsas faktoru kimi tərcümə mətnində obrazlığın yenidən ekvivalent şəkildə verilməsi məqsədi güdür. Ümumiyyətlə, frazeologizmlərin tərcümə üsulları bunlardan ibarətdir: frazeoloji ekvivalentlərin axtarıb seçilməsi, analoq üsulu, hərfi tərcümə yaxud kalka üsulu və tədrisi tərcümə.

Gələcək tərcümələrin frazeoloji birləşmələrin və paremiyaların tərcüməsinə dair əldə etdikləri nəzəri-praktiki biliklərin möhkəmlənməsi və məhsuldarlığına nail olmaq məqsədi ilə onlara leksik-semantik və funksional-struktur baxımdan bir qədər mürəkkəb və zəngin tərcümə mətnlərini vermək məqsədəuyğun olardı. Birincisi, bu sahədə müəyyən təcrübə əldə etmiş yuxarı kurs tələbələrinin daha qədim, o cümlədən sakral mətnlərin tərcüməsində özlərini sınamalıdırlar. Çünki zaman keçdikcə bu mətnlərdəki frazeoloji birləşmələr və vahidlər məna və struktur baxımından xeyli dəyişdiyindən gənc mütərcimdən əlavə filoloji biliklər tələb olunur və təbii ki, o, məsələnin bütün ciddiliyinin fərqinə varmalıdır.

İkincisi, frazeoloji birləşmələrin, yaxud paremioloji vahidlərin tərcüməsi ilə məşğul olan mütərcim bu mühüm leksik qatların nəzəri aspektləri haqqında lazımi təsəvvürə malik olmalıdır, əks təqdirdə o bu qəbilədən olan birləşmələri adi ifadə kimi qəbul edər və nəticədə həmin leksik vahidlərin mahiyyətini təhrif edər. Başqa sözlə desək, bəzi sakral ifadələrin arxasında dərin və ibrətamiz əhvalatlar, moralitelər dayandığını mütərcüm mütləq bilməlidir. Məsələn:

«*Чудотворная рука – что значит. Будь Мусой, и это ты поймешь.*

Сможешь в «жалящей змее» ты посох, даже без всяких книг, узреть» (Насими. Перевод А.Старостина, 1, s.156).

Tərcüməçi A.Starostin Bibliyada Moiseyin ikinci kitabından Musa peyğəmbər haqqındakı, «Он бросил его на землю, и жезл превратился в змею» ifadəsindən xəbərdar olması şübhə doğurmur? (2, 4). Eyni fikri dahi Fizulinin məhəbbətin alqı-satqı predmeti olmadığı haqda Yusif və Züleyxa əhvalatına istinad etməsi barədə də söyləmək olar:

«*Как в любовном торге Юсиф был покупкой, языки же.*

Словно жало, Зулейху там, всходу поднимались жалить» (Перевод Х.Гани) (3, s.160).

Tələbə tərəfindən sakral mahiyyət kəsb edən ifadənin kontekst baxımdan düzgün qiymətləndirilməsində yanlış tərcümə qaçılmaz olur. Məsələn, müasir publisistikada aşağıda

gətirilən nümunəyə oxşar ifadələrə tez-tez rast gəlmək olar: "Ürəyində Allah sevgisi olmayan insan nə qədər elm, mənsəb sahibi olsa da, mərhəmətli ola bilməz. Bəli, yalnız mərhəmət insanı intiqamçılıqdan, xüdbinlikdən hifz edə bilər və alicənab hərəkətlərə sövq edər. Lakin mərhəməti başqalarının qüsuruna göz yummaq kimi başa düşmək naqislik olardı. Kamil insan hər şeydən öncə səmimi olmalı, münafiyi-əxlaqdan kənar qalmalıdır" ("Bütöv Azərbaycan" qəzeti, 2016, № 2).

Müşahidələr göstərir ki, "Allah sevgisi" ifadəsini tələbələrin heç də hamısı düzgün tərcümə etməmişdir. Onların bəziləri bu ifadəni "Любовь к Богу", digərləri "божественная любовь" kimi vermişlər. Əslində sonuncu variantla müşahidə birinci variant kontekstə daha yaxındır. Bunun da başlıca səbəbi tələbələrin mövcud ifadələrin mahiyyət etibarı ilə etimologiyası haqda fərqli təsəvvür səviyyələrinə malik olmaları ilə bağlıdır. Məsələn, Harut-Marut kimi dini rəvayətə bələd olmayan mütərcüm M.Fizulinin aşağıdakı beytini şairin adi eşq hisslərinin təsviri kimi qəbul edərdi:

Səni mələk gözəli yazmaz oldu eşqi günah,
Vəli yazıldı bu üzdən bəsi səvab sana
Cəza günündə sorulmaz xətalar eylədiyin,
Yetər fəğan ilə mən verdiyim əzab sana (4, s.132-133).

Göründüyü kimi, frazeologizmlərin, paremiyaların tərcüməsi geniş ekstralinqvistik amillərlə sıx bağlıdır. Gənc mütərcim hər bir tərcümə vahidinin sırf lüğəvi mənasını bilməklə məhdudlaşa bilməz. Təbii ki, filoloji biliklər bilavasitə frazeologiyanın nəzəri aspektləri ilə tamamlanmamalıdır. Mütərcüm tərcümə prosesində daima orijinalın və tərcümənin məxsus olduğu dillərin qanunauyğunluqlarını bütün səviyyələrdə müqayisə edir. Bu müqayisə kifatət qədər elmi-nəzəri bazaya malik olmasa, lazımi praktik nəticədən söhbət gedə bilməz. Başqa sözlə desək, gənc tərcüməçilər mütləq frazeologiya və paremioloji vahidlər haqda lazımi elmi mülahizə yürütmək imkanına malik olmalıdırlar. Onlar tanınmış dilçilərdən S.Ojeqovun, S.Şanskinin, V.Vinoqdavun, Orucovun, M.Tağıyevin, İ.Həmidovun, H.Bayramovun və başqalarının bu sahədə apardıqları tədqiqatlardan lazımi səviyyədə xəbərdar olmalıdırlar. Gənc tərcüməçi bunların əsasında aydın təsəvvür edir ki, frazeoloji vahidlərin tərcüməsi müasir tərcümə nəzəriyyəsi çərçivəsində işlənib hazırlanmış nəzəri-praktik problemlər içərisində ən mürəkkəb və məsuliyyətli sahələrindəndir. Bu vahidlərin tərcüməsində müşahidə olunan forma və məzmunun çətinlikləri hər iki dil sistemlərinin spesifikası ilə bağlıdır. Çünki bu leksik vahidlə təkcə real predmetləri ifadə etmirlər, onlar həmçinin, danışanın psixoemosional vəziyyətini və onun predmetə olan emosional münasibətini əks etdirən informasiyanı özündə ehtiva edir. Axı danışanın psixoemosional münasibəti milli-mədəni spesifika ilə bağlı olur. Yəni frazeologizmlərin predmeti ifadə etməsi, bir tərəfdən, yerli (milli) mahiyyət kəsb etdiyindən, digər tərəfdən isə təkrarsız leksik-qrammatik quruluşa malik olduğundan hərfi tərcümə məqbul hesab edilə bilməz.

Axtarılan qarşılıqlar orijinalın məzmununu maksimum saxlamaqla tərcümə dilinin leksik-qrammatik qanunlarına tam tabe olmalıdır. Məsələn: "Dəvənin boynu kimi (düzdür)": "Пряма как московская оглобля". Frazeologizmlərin tərcüməsindən danışarkən gənc mütərcim bu leksik qata aid olan müxtəlif sabit söz birləşmələrinin, cümlələrin fərqli tərcümə vahidləri kimi tərcümə həlli tələb etdiyini unutmamalıdır. Məsələn, rus və Azərbaycan dillərində müəyyən nitq situasiyalarında tez-tez işlənən hazır ifadələr vardır ki, onları tərcümədə yenidən qurmaq məqbul sayılmaz. Bu cür ifadəliyin əsasını ifadə planı – spesifik predikativ birləşmə, xüsusi sintaktik sxem, materialın qeyri-adi səslənmə üsulu, ifadənin zahiri strukturu ilə onun məna strukturunun ümumi uyğunsuzluğu və s. Bir sözlə, frazeologizmlərin flektiv rus dilindən və iltisadi Azərbaycan dilinə, yaxud əksinə tərcüməsində eyni informasiyanı müxtəlif leksik-qrammatik vasitələrin köməyi ilə icra edirik və təbii ki, bu halda "yüz faizli" uyğunluğa nail olmaq çətindir. Bunu ilk növbədə ifadə planında müşahidə edi-

rik. Əlbəttə, hər iki dildə struktur və məna planlarının tam uyğun gəldiyi ifadələr yox deyildir ("başını itirmək – терять голову, держать путь – yol tutmaq, yüz ölç bir biç - сто раз отмерь, один раз отрежь" və s.).

Bütün bu istisnalara baxmayaraq, gənc tərcüməçi bilməlidir ki, frazeoloji birləşmələr və paremioloji vahidlər forma və məzmun baxımından sırf milli xüsusiyyətlərə malik olduğundan tərcümədə interferensiya yəni "güc tədbiği" arzuolunmazdır. Mütərcim hər şeydən öncə istənilən sabit birləşməni adi söz birləşməsindən ayırd etməlidir. Bunun üçün o hər iki dilin bu vacib leksik qatının nəzəri və praktiki aspektlərinə yetərincə bələd olmalıdır. Bəzən frazeoloji birləşmələrin adi ifadələrdən fərqləndirilməsi onların etimologiyasını bilmədən reallaşdırma mümkünsüz olur. Bununla yanaşı mütərcim frazeoloji birləşmələrin, paremioloji vahidlərin strukturunda baş verən "qrammatik dəyişikliklərə" də (4, s.99) diqqət yetirməlidir. Gənc mütərcim həmçinin "frazeoloji arxaizmləri və istorizmləri" (6, s.147) ayırd edərkən mətnin yaranma tarixinə və janrına, oradakı sabit birləşmələrin tiplərinə, onların xarakterinə xüsusən diqqət yetirməlidir.

Janrdan asılı olmayaraq tərcümə prosesində hər bir fəslin, abzasın, hətta sabit söz birləşməsinin, yaxud mətnyaratmanın sintaktik vasitələrinə əsaslandığı başlıca şərt kimi nəzərə alınmalıdır. Mütərcim tərcümənin və orijinalın məxsus olduqları dillərin qanunauyğunluqlarını müqayisə edərkən əyani sürətdə görür ki, tərcümə prosesində frazeoloji paralellərin qismən uyğunluğu, yaxud qismən fərqləndiyi leksik komponentlər daha çox milli dilin ifadə spesifikasından qaynaqlanır (дело лопнуло – işi baş tutmadı, впутать в историю - əngələ salmaq və s.).

Tam uyğunluqdan fərqli olaraq qismən uyğunluq zamanı sabit birləşmələrin daxili formasını motivləşdirən obrazlı təsvirlərin oxşarlığı mövcud olmur. Qismən uyğunluq üçün hər iki dilin heç olmazsa bir semantik komponentinin üst-üstə düşməsi kifayət edərdi: «Из другой оперы – fərqli məsələdir; всякое лыко в строчку – xırdaçılıq eyləmək (hər xırda şeyi irad tutmaq); вести двойную игру – iki üzlülük eyləmək». Tələbə-mütərcim onu da bilməlidir ki, frazeoloji vahidlərin yeniləşmə və tərcümə növü komponentlərdən birinin digəri ilə yeniləşməsi okkazional əvəzlənməsi deməkdir. Bu yazan, yaxud danışan tərəfindən kontekstlə müəyyənləşdirilə bilən ifadənin, hətta sözün sinoniminin yaxud antoniminin səsləndirilməsi ola bilər. Bir çox antonimin əvəzləmələrdə birləşmə variantlarada rast gəlmək olar. Onların yaranması ifadəliliyin yüksədilməsi zəzurətindən irəli gəlir. Çünki frazeoloji birləşmələr tez-tez işlədildiyindən onların ifadəlikləri adiləşir. Antonimik yerdəyişmələr təkcə yüksək ekspressivliyə xidmət etmir, o gözlənilməz işlənmə tərcinə, paradoksluğuna görə həm də bəzən yumoristik effekt yaratmaq imkanına malik olur. Təbii ki, gənc mütərcim bu cür əvəzləmələrin həm linqvistik qanunauyğunluq baxımdan və həm də praktik nöqteyi-nəzərdən ziddiyyət təşkil etmədiyinə əmin olmalıdır.

Bir daha qeyd edək ki, frazeoloji birləşmələrin, paremiyaların mükəmməl tərcüməsi sırf linqvistik faktorla məhdudlaşmır. Burada linqvistik amillərin ekstralinqvistik amillərlə sıx bağlılığı spesifik milli-tarixi köklərdən qaynaqlanır. Başqa sözlə desək, gələcək mütərcim zəngin linqvistik baza ilə yanaşı geniş filoloji imkanlara malik olmalıdır.

Ədəbiyyat

1. Насими И. Избранная лирика в двух томах. Баку, 1976.
2. İncil Əhdi Cahid. Bibliya. Stokholm, 1996.
3. Физули М. Избранное. М.: Советский писатель, 1971.
4. Qasımova A. Fizuli yaradıcılığında Quran rəvayətləri. Bakı, 1995.
5. Гусейнов Ф.Г. Русская фразеология. Баку, 1977.
6. Шанский Н.М., Зимин В.И., Филиппов А.В. Опыт этимологического словаря русской фразеологии. М., 1987.

Р.Ф.Амрахова

Роль теоретических аспектов при обучении переводу фразеологизмов

Резюме

В статье рассматривается основные теоретические аспекты, помогающие молодым переводчикам при переводе фразеологических и паремиологических единиц на другой язык. Также здесь исследуются основные способы перевода фразеологизмов.

R.F.Amrahova

The Role of Theoretical Aspects in Teaching the Translation of Phraseologizms

Summary

The main aspects which help young translators to translate idioms and sayings into another language are investigated in this article. You can also find the main ways of translation the idioms here.

Rəyçi: dos. İ.T.Quliyeva

Redaksiyaya daxil olub: 10.02.2017

R.M.İSMAYILOVA
E-mail: alieva_rena@hotmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MONOTEİST DİNLƏR VƏ XRİSTİANLIQ ÜÇÜN UNİVERSAL XARAKTERLİ DOQMALARA İSTİNAD EDƏN İSPAN FRAZEOLOGİZMLƏRİ HAQQINDA

Açar sözlər: *ispan dili, dini məzmunlu frazeoloji vahidlər, monoteist dinlər, xristianlıq, allyuziya, "İncil", İsa Peyğəmbər, xaç.*

Ключевые слова: *испанский язык, фразеологические единицы с религиозной тематикой, монотеистические религии, аллюзия, Библия, Иисус Христос, крест.*

Key words: *the Spanish language, religious phraseological units, monotheistic religions, allusion, the Bible, Jesus Christ, the cross.*

İspan dilində xalqın yerli inancları, öngörüşləri, mifoloji təsəvvürləri və bu təsəvvürlər altında formalaşmış dünya modelinə istinad edən frazeoloji vahidlərlə yanaşı, universal semantika kəsb edən ifadələr də az deyil. Universal semantikaya malik dini məzmunlu ifadələr dedikdə, biz monoteist dinlərin ortaq dünya modeli və teoloji doqmalarını əks etdirən müddəaların əks olunduğu frazeoloji vahidləri nəzərdə tuturuq. Belə ki, monoteist dinlərdə Tanrının İlahi Qüdrət, Ali Ədalət, Mütləq Hakimiyyət təcəssümçüsü olması, hər şeyin başlangıcının məhz ona istinad etməsi inancı bir çox ortaq mahiyyətli dini doqmaların formalaşmasını qaçılmaz etmişdir. Həmin doqmalar da məntiqi olaraq, xalqın dünyagörüşünə sirayət etməklə bərabər, dünya modelinin qəlibləşmə standartlarının müəyyənləşdirilməsində həlledici rol oynamış, bununla da etnopsxiloji, linqvokulturoloji fenomen hesab edilə bilən frazeoloji sistemdə öz təsir izlərini buraxmışdır.

"İnsanın dini dünyagörüşünün frazeoloji reprezentasiyası (rus, ingilis və ərəb dillərinin materiallları əsasında)" adlı namizədlik dissertasiyasında bu problemin bir çox nəzəri aspektlərinə aydınlıq gətirməyə çalışmış L.L.Qriqoryeva yazır: "İncil və Quran xristian və müsəlman mədəniyyətlərində Tanrı, şeytan, səma, mələklər və dini şüurun digər realiləri haqqındakı dini təsəvvürlərin mənbəyi sayılır (5, s.11).

İspan dilindəki dini məzmunlu frazeoloji vahidlərin məhz semantik universallıq və unikallıq aspektində təhlili burada monoteist dinlərə xas teoloji doktrinalardan doğan ortaqlıqların universal semantika törəmə potensialını ortaya qoyur. Əks tərəfdə, yəni unikallığın müəyyənləşdirilməsi baxımından təhlillərimiz burada 1) dini etiqad fərqlilikləri; 2) konfessional fərqliliklər; 3) yerli linqvokulturoloji mühit və etnomental şüur şərtləndirməsindən törəyən fərqlilikləri təsbit etmək imkanını tanıyır. Universallıq müstəvisindən nəzər salındıqda, ispan dilindəki dini məzmunlu frazeologizmlərdə 1) monoteist dinlərin ortaq dini doqmaları, 2) xristianlığın ortaq dini doqmalarına istinad edən ifadələri ayrıca qruplar çərçivəsində nəzərdən keçirmək məqsədəuyğun olardı.

İspan dilinin frazeoloji sistemində yer alan, lakin monoteist din daşıyıcısı olan xalqların frazeoloji sistemində tam semantik qarşılığına təsadüf edilən dini məzmunlu frazeoloji vahidlər sırasında konkret olaraq, ***Sabe Dios*** "*Allah bilir*" (məsələn, ***Sabe Dios*** *en qué estarías pensando cuando has oído nudistas en lugar de budistas*), Dios dirá (hərfən : Allah deyər) "Allah göstərər" (məsələn, *Ahora mismo estoy tan cansado que no puedo pensar en la solución para esta cuestión. Mañana* ***Dios dirá***.) ifadələrini (20) buna əyani misal göstərmək olar. Əslində "İncil" sitatı əsasında formalaşmış olan bu frazeoloji variant mənbə mətndə

("İncil"də) geniş şəkildə istifadə edilir: *Mas* ***sabe Dios*** *que el día que comiereis de él, serán abiertos vuestros ojos, y seréis como dioses sabiendo el bien y el mal* (Génesis 3:5) (12).

Y encima dices: "¿Qué ***sabe Dios****?*

¿Podrá ver a través de las nubes? (Job 22:13-15) (15).

Müqayisə üçün qeyd edək ki, rus, ingilis və ərəb dillərinin materiallarına istinadən xristian və müsəlman dünyasının dil mənzərəsinin frazeoloji inikası məsələlərini araşdırmış L.L.Qriqoryeva həmin frazeoloji vahidin adı çəkilən hər üç dildə yüksək işlənmə tezliyi ilə seçilməsi faktına diqqət çəkmişdir. Məsələn, rus dilində: ***Бог знает; Бог весть***; ***одному Богу известно***; ingilis dilində: ***God knows*** (hərfi tərcümədə: "Allah bilir"); ***God knows that*** (hərfi tərcümədə: "*Allah bilir ki*, "); ərəb dilində: الله اعلم[Əllahu a'ləmu] (hərfi tərcümədə*: Allah bilir*); (4, s.17-13). Öz növbəmizdə onu da əlavə edək ki, eyni semantik tutumlu frazeologizm Azərbaycan dilində də kifayət qədər yüksək işlənmə tezliyi nümayiş etdirir və eynilə ispan dilində olduğu kimi polisemantem frazeologizm statusuna malikdir. N.Seyidəliyevin tərtib etdiyi frazeoloji lüğətdə "Allah bilir" frazeologizminin "məlum deyil, heç kəs (kim) bilmir, heç kəsə bəlli deyil" anlamı qeyd edilsə də (18, s.27), N.Vəliyevanın tərtibçisi olduğu üçdilli frazeoloji lüğətdə bu dini məzmunlu frazeoloji vahidin hər üç dildə polisemantem statusu kəsb etdiyi vurğulanır: Allah bilir! (məlum olmayan bir iş haqqında) – 1. Goodness knows! / God alone knows! / Heaven knows! / The Lord only knows! / Nobody knows! / Who knows! / You never can tell. (about the unknown thing) – Бог (его, её) знает! / бог весть / господь ведает / господь его знает / бабушка надвое сказала (о неизвестном); 2. (məlum deyil nədir) – the devil knows what / there's no making head or tail of it / smth. disgusting, shocking, outrageous, etc. – чёрт-те что; 3. (məlum olmayan vaxt haqqında) – till (to,until) doomsday / till the crack of doom / till Kingdom Come / till (until) the cows come home / till the hay comes home – до морковкина (морковкиного) заговенья (неопределённо долго, до неизвестного времени); 5. God (goodness) knows who – невесть кто (неизвестно кто, чёрт знает кто); 6. (böyük narazılıq, hiddət olanda) – deuce knows / goodness knows – чёрт (бес, леший, шут, пёс, прах, хрен) его знает / чёрт (бес, леший, шут, пёс, прах, хрен) его ведает (выражает возмущение, негодование) (19, s.41).

Geniş kontekstə ***Sabe Dios*** frazeoloji vahidinin semantik tutumunun reallaşma mövqelərinə diqqət edək: *En cuanto a las actuaciones, destacó la vuelta del canadiense Justin Bieber al escenario de los premios tras cinco años de ausencia. Lo hizo con un popurrí de temas conocidos y una coreografía clásica rodeado de un buen puñado de bailarines. Al finalizar, se echó a llorar emocionado,* ***sabe Dios*** *por qué* (23). Bu kontekstdə "Allah bilir" anlamını ifadə edən "Sabe Dios" frazeologizmi "Bir Allaha bəllidir ki, ...", "Bir Allah bilir ki, ..." anlamlı qeyri-müəyyənlik, qeyri-dəqiqlik semantikasını əks etdirir. Bu mənada Sabe Dios polisemanteminin verilmiş kontekst çərçivəsində reallaşmış məna çalarını Ehtimal-Şübhə frazeosemantik sahəsinə aid etmək yanlış olmaz.

Göründüyü kimi, ***Sabe Dios*** frazeologizmi təkcə mənbə ortaqlığı baxımından deyil, eləcə də polisemantem mahiyyətinə malik olması baxımından da Azərbaycan, ingilis, rus, ərəb dillərindəki analoqları ilə uyğunluq nümayiş etdirir. Müqayisə üçün deyək ki, növbəti nümunədə "Allah bilir" anlamlı Sabe Dios frazeologizmi Ali Qüvvənin şahidliyə çağrılması anlamını daşıyır: El Chojin: "***Sabe dios*** *que lo he intentado, pero no puedo con Dylan*" (24). Bu mənada Sabe Dios frazeoloji vahidinin sonuncu kontekst çərçivəsində ifadə etdiyi mənanı deklarativ xarakter kəsb edən And-Şəhadət frazeosemantik sahəsinə aid etmək olar.

İspan dilindəki ***Dios ayuda a quienes se ayudan a sí mismos*** ifadəsinin tam və qismən semantik adekvatlığa malik olan qarşılıqlarının ingilis, rus, alman, Azərbaycan, türk və s. dillərdə təsadüf edilməsi də monoteist dinlərin əsas doktrinalarındakı oxşarlıqlarla şərtlənir. Bu məqama diqqət çəkən L.Ş.Şafiqullina da ingilis, tatar, türk və rus dillərinin materiallarına istinadən oxşar nəticəyə gəlir. Dilçi ***God helps them that help themselves - на Бога надейся,***

а сам не плошай ifadəsinin semantik adekvatlığını məhz ortaq dini postualatlarla əlaqələndirir (6). Alman dilində : ***Hilf dir selbst, so hilft dir Gott*** (14), Azərbaycan dilində: ***Allah deyir: Səndən hərəkət, məndən bərəkət*** (11).

Onu da qeyd edək ki, ***Dios ayuda a quienes se ayudan a sí mismos və Dios dice: Ayúdate que yo te ayudaré*** frazeoloji vahidləri ilə bağlı ilk baxışdan paradoksal sayıla biləcək vəziyyət mövcuddur. Belə ki, bu frazeologizmlər bilavasitə "İncil"lə əlaqələndirilsə də, bir çox mənbələr bu ifadələrin xristian doktrinalarına uyğun olmadığını və ümumiyyətlə "İncil"də buna bənzər ifadələrin yer almadığını iddia edirlər (10). Bu zaman əsas əks-arqument kimi, xristian təliminə görə, konkret olaraq, Tanrının hər zaman insanların yardımına gəlməsilə bağlı "İncil" kəlamlarına (məsələn, "Mira que te mando que te esfuerces y seas valiente: no temas ni desmayes, porque Jehová tu Dios será contigo en donde quiera que fueres. (Josué 1:9) müraciət edilir (9). Bundan çıxış edən tədqiqatçılar həmin ifadənin ilk olaraq, antik yunan mədəniyyətində səsləndirildiyini, daha sonra isə "Qurani-Kərim"in Ər-Rad surəsinin 11-ci ayəsində səsləndirilmiş fikir əsasında tez bir zamanda yenidən aktuallıq qazandığını qeyd edirlər (11). Həmin surədə deyilir: "*Allahın əmri ilə insanın həm önündə, həm də arxasında daim onunla birlikdə olub onu qoruyan mələklər vardır. Həqiqətən də,* ***insanlar nəfslərində olanı dəyişmədikcə, Allah da onlarda olanı dəyişməz****. Əgər Allah hər hansı bir camaata pislik etmək istəsə, heç nə onun qarşısını ala bilməz. Onların Ondan başqa ixtiyar sahibi yoxdur*" ("Qurani-Kərim", 13:11) (33). Göründüyü kimi, fərqli dini etiqadlar üçün xarakterik olan və müasir ispan dilində işləkliyini davam etdirən ***Dios ayuda a quienes se ayudan a sí mismos*** və ***Dios dice: Ayúdate que yo te ayudaré*** frazeoloji vahidləri öz allyuzial fonuna görə "İncil"ə deyil, daha çox "Qurani-Kərim"ə bağlılıq nümayiş etdirirlər (Onu da qeyd edək ki, müasir populyar (kütləvi) mədəniyyətdə bu ifadənin yüksək işlənmə tezliyi ilə seçilməsi haqqında bəhs edilərkən ilk olaraq, Bencamin Franklinina adı xatırladılır (11)).

Müasir ispan dilində bu ifadə kifayət qədər yüksək işlənmə tezliyi ilə seçilir: "***Dios ayuda a quienes se ayudan a sí mismos****": sentencia inapelable No obstante, su proverbio favorito fue el intemacionalmente difundido "****Dios ayuda a quienes se ayudan a sí mismos****", cuyo origen se ha hecho remontar a la antigüedad clásica* (16). İspan dilindəki ***a Dios rogando y con el mazo dando*** frazeoloji vahidini də eyni semantik nüvəyə daxil etmək olar (21). Oxşar vəziyyəti ispan dilindəki ***al que madruga, Dios lo ayuda***, ingilis dilindəki: ***he who wakes early, God helps*** (22), rus dilindəki ***Кто рано встает тому бог подает***, Azərbaycan dilindəki ***Tez duranla, tez evlenenə Allah da kömək edir*** frazeologizmlərinin timsalında müşahidə etmək olar. Maraqldır ki, R.Alijanova bu ifadənin də köklərinin "Qurani-Kərim"də yer aldığını qeyd etmiş, konkret olaraq, Furqan surəsinin 47-ci ayəsində bu məqamın xüsusilə vurğulandığına diqqət çəkmişdir (1). Aurín Rodríguezin də qeyd etdiyi kimi, "İncil"də bu frazeoloji vahidin altsemantikasına birbaşa uyğun olan ifadəyə təsadüf edilmədiyi qeyd etməklə yanaşı, bir çox ifadələrdə Tanrının səhər erkəndən oyanaraq öz işlərinin icrasına başlanılmasını təşviq etdiyi anlamını ortaya qoya biləcək ifadələrin yer aldığına da diqqət çəkir. *Levantándose Josué muy de mañana, pasó revista al pueblo, y subió él, con los ancianos de Israel, delante del pueblo contra Hai* (Josué 8:10) (26).

Qeyd edək ki, rus, ingilis dillərilə müqayisədə ispan dili daşıyıcılarının dini etiqadında konfessional fərq mövcud olsa da, ortaq xristian doqmaları burada yüksək səviyyədə ortaqlıqların mövcudluğunu qaçınılmaz etmişdir. Bu baxımdan provoslav xristian rusların dilindəki bibleizm frazeologizmləri katolik xristian fraznsızların dili ilə müqayisə etmiş V.Q.Qakın gəldiyi nəticə ilə razılaşmamaq mümkün deyil. Belə ki, dilçinin müəyyən teoloji aksent fərqliliyilə seçilən dini frazeologizyanın nüvə etibarilə ortaq cəhətlərilə seçilməsi fikrini (2, s.14-20); (3, s.55-65) eynilə ispan dilinin frazeoloji sistemindəki dini məzmunlu frazeoloji vahidlərə şamil etmək olar. Məsələn, İsa Peygəmbərin çarmıxa çəkilmədən öncə həmin çarmıxı daşıması faktına demək olar ki, bütün xristian xalqlarının frazeoloji sistemində bu və ya digər şəkildə

metaforik anlam qazandırılmışdır. Məsələn, ispan dilində: ***llevar su cruz*** (hərfən: *öz xaçını daşımaq*), fransız dilində: ***porter sa croix***, rus dilində: ***нести свой крест***, ingilis dilində: ***to bear one's cross*** və s. "İncil"də oxuyuruq: Ya que Jesús no pudo llevar Su cruz por todo el camino hacia el Gólgota (cf. Mateo 27:32; Marcos 15:21; Lucas 23:26) (25). İstər dini diskursda (məsələn, Papa Francisco: *A Cristo se le entiende al llevar la cruz. Nos prepara para ser cireneos que le ayuden* ***a llevar la cruz****. Y nuestra vida cristiana sin esto no es cristiana* (27) , istər siyasi diskursda (28) yüksək işlənmə tezliyi nümayiş etdirir.

Qeyd edək ki, xaç obrazı ispan dilindəki bir çox frazeoloji vahidlərin metaforik kodlaşamsında həlledici rol oynamışdır. Məsələn, ***cruz pesada*** (hərfən: ağır xaç) "ağır (mənəvi) yük", ***cruz de matrimonio*** (hərfən: *nikah xaçı*) "*nikah bağları (əlaqələri)*", ***cruces y calvarios*** (hərfən: *xaçlar və əzablar*) "*qorxulu hekayələr, dəhşətli hadisələr*", ***de la cruz a la fecha*** (hərfən: xaçdan tarixə kimi) "*əvvəldən axıra kimi, başdan zona kimi*" və s.Təqdim edilən ifadələrin hərfi mənası ilə metaforik kodlaşma əsasında kəsb etdikləri frazeoloji məna yükünün qarşılaşdırmalı təhlili burada İsa Peyğəmbərin Qalqofa yolu boyunca daşıdığı xaçın ağırlığının taleh, qədər sınağı, yükü kimi nəzərdən keçirldiyini bir daha əyani şəkildə ortaya qoyur. Nümunələrə diqqət edək: *Andrus carga* ***cruz pesada*** *por sus costosos errores. El torpedero dice que es momento más duro de su carrera*. (29)):

Con la ***cruz pesada****,*
vide ir a mi amado,
con sus pies descalzos
y todo llagado (30)

Digər nümunəyə nəzər salaq: *Sea bienvenido y agradecido, pues, el correo electrónico, pero "****entre la cruz y la fecha****" se podían decir más y mejores cosas* (31). Onu da qeyd etmək maraqlıdır ki, Pontiy Pilatın (Ponti Pilat (ispanca: Poncio Pilato) Yəhudi əyalətinin V prefekti, Suvarilər rəisi idi (17)) evindən Qalqofaya, yəni İsa Peyğəmbərin çarmıxa çəkildiyi yüksəkliyə aparan yol, məhz bu səbəbdən Vía Dolorosa "Ələm Yolu" adlandırırlır (7) və həmin ifadə istər ispan dilində, istər də bir çox digər xristian xalqının dilində "kədər, əzab", "məşəqqətlərlə dolu həyat yolu", "sınaq məqamı" və s. bu kimi anlamların ifadəsi üçün istifadə edilir. Konkret olaraq, ispan dilində bu ifadənin frazeologizm statusu qazandığını qeyd etmək olar:

Por la ***Vía Dolorosa****!*
Todo mi pecado fue llevado!
Y el poder del infierno se rompió
Como ha dado a su vida por la borda (32).

Oxşar vəziyyət rus və fransız dillərinin materailları əsasında "İncil"in onomastik inventarının frazeoloji vahid kimi işləklik potensialını araşdırmış E.N.Yakovleva tərəfindən təsbit edilmişdir: путь на Голгофу (tərcümədə: "Qalqofaya yol") - via dolorosa ("Ələm yolu"), fransız dilində: ***le chemin de croix*** - "***путь креста***" (tərcümədə: "xaç yolu") (8, s.14).

Ədəbiyyat

1. Алижанова Р. «Кто рано встает - тому Бог подаёт» или плюсы раннего подъёма http://www.islam.ru/content/obshestvo/41938

2. Гак В.Г. Вопросы сопоставительной фразеологии (библеизмы в русском и французском языках // Научные труды МПГУ. М., 1994. С. 14-20

3. Гак В.Г. Особенности библейских фразеологизмов в русском языке в сопоставлении с французскими библеизмами // Вопросы языкознания, 1997. № 5, с.55-65

4. Григорьева Л.Л. Фразеологическое отражение христианской и мусульманской религиозных картин мира (на материале русского, английского и арабского языков) // Ученые записки КГУ. 2009. Выпуск № 3, Т.151., С. 179-183.

5. Григорьева Л. Л. Фразеологическая репрезентация религиозного мира человека : на материале русского, английского и арабского языков., автореферат диссер…канд.филол.наук., Казань, 2009, 20 с.

6. Шафигуллина Л.Ш., Каюмова Д.Ф. Лингвокультурологический потенсиал фразеологических единиц концепта «религия» и особенности их репрезентации в английском, татарском и турецком языках // Вестник Казанского государственного университета культуры и искусств Выпуск № 1 / 2015

7. Шествие на Голгофу (Христос, несущий Свой крест; Крестный Путь; «Via Dolorosa» http://files.school-collection.edu.ru/dlrstore

8. Яковлева Э.Н. Эволюция библейских имен собственных в лексике и фразеологии русского и французского языков, автореферат …диссер.канд.филол.наук., М., 1998.

9. "Ayúdate que yo te ayudaré" http://el-dandre.blogspot.com/2009/06/ayudate-que-yo-te-ayudare.html

10. Dios dice: Ayúdate que yo te ayudaré https://es.wikipedia.org/wiki/Dios_

11. God helps those who help themselves https://en.wikipedia.org/wiki/

12. Génesis 3:5 http://bibliaparalela.com/genesis/3-5.htm

13. God helps those who help themselves - is it in the Bible? http://www.gotquestions.org/God-help-themselves.html

14. Hilf dir selbst, so hilft dir Gott https://de.wikipedia.org/wiki/Hilf_dir_selbst,_so_hilft_dir_Gott

15. Job 22:13-15 https://www.biblegateway.com/passage/?search=Job+22%3A13-15&version=BLPH

16. Mieder Wolfgang. Dios ayuda a quienes se ayudan a sí mismos. Phrases proverbiales dans la correspóndance d'Abigail Adams http://www.paremia.org/wp-content/uploads/P14-1.pdf

17. Poncio Pilato https://es.wikipedia.org/wiki/Poncio_Pilato

18. Seyidəliyev N. Frazeologiya lüğəti. Bakı: Çıraq, 2004.

19. Vəliyeva N.Ç. Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğət. Bakı: Nurlan, 2006.

20. http://multilinguablog.com/wp-content/uploads

21. Spanish Proverbs http://www.languagerealm.com/spanish/spanishproverbs.php

22. Spanish proverbs https://en.wikiquote.org/wiki/Spanish_proverbs

23. http://www.elmundo.es/cultura/2015/08/31/55e3d512e2704e944b8b456d.html

24. http://cultura.elpais.com/cultura/2011/04/18/actualidad/1303077601

25. http://www.ebglobal.org/inicio/debe-jesus-llevar-la-cruz-solo

26. Aurín Rodríguez Al que madruga, Dios le ayuda http://www.aurinrodriguez.org/index.php/articulos

27. http://es.aleteia.org/2014/09/26/%E2%80%8Bpapa-francisco-a-cristo-se-le-entiende-al-llevar-la-cruz/

28. QUINTA ESTACIÓN: El Cireneo ayuda a Jesús a llevar la cruz. La mano amiga que levanta http://es.aleteia.org/2014/04/18/quinta-estacion-el-cireneo

29. http://eldia.com.do/andrus-carga-cruz-pesada-por-sus-costosos-errores/

30. Juan Bautista Rael The New Mexican Alabado https://books.google.az/books?id=CKirAAAAIAAJ&pg

31. http://medicablogs.diariomedico.com/laboratorio/2011/04/18/

32. http://www.musica.com/letras.asp?letra=2049973

33. http://www.quran.az/13/11/t1

Р.М.Исмаилова

Об испанских фразеологизмах, опирающихся на универсальные догмы монотеистических религий и христианства

Резюме

В статье исследуются испанские фразеологизмы, опирающиеся на универсальные догмы монотеистических религий и христианства. На основе сравнений и сопоставлений становится известно что, ощутимая часть испанских фразеологических единиц с религиозной тематикой

опирается на универсальные религиозные догмы. На основе этого автор разделяет данного рода фразеологические единицы на две группы: 1) фразеологизмы, опирающиеся на универсальные догмы монотеистических религий (например, *Sabe Dios, Dios ayuda a quienes se ayudan a sí mismos*, *Dios dice: Ayúdate que yo te ayudaré* и т.д.); 2) фразеологизмы, опирающиеся на универсальные догмы христианства (например, *cruz pesada*, *cruz de matrimonio*, *cruces y calvarios*, *de la cruz a la fecha* и т.д.).

R.M.Ismailova

About the Spanish Phraseological Units referring to the Dogmas of a Universal Nature to Monotheistic Religions and Christianity

Summary

The article analyzes the Spanish phraseological units referring to the dogmas of a universal nature to monotheistic religions and Christianity. On the bases of comparison, it becomes clear that a considerable number of religious phraseological units in the Spanish language refer to universal theological dogmas. The author considers the Spanish religious phraseological units in two separate groups: 1) Shared religious dogmas of monotheistic religions (for example, *Sabe Dios*, *Dios ayuda a quiene se ayudan a sí mismos*, *Dios dice: Ayúdate que yo te ayudaré*); 2) Phraseological units referring to the shared religious dogmas of Christianity (for example, *cruz pesada*, *cruz de matrimonio*, *cruces y calvarios*, *de la*, *cruz a la fecha* and etc.).

Rəyçi: prof. Ə.Ə.Abdullayev

Redaksiyaya daxil olub: 20.12.2016

A.V.MAHMUDOVA
E-mail: aygunmahmudova777@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

"MÜDRİKLİK" KONSEPTİNİN QURULUŞUNDA ƏŞYAVİ, MƏKAN VƏ KVANTİTATİV XÜSUSİYYƏTLƏR
(ingilis dilinin materialı əsasında)

Açar sözlər: *müdriklik, konsept, əşyavi xüsusiyyətlər, kvalitativ metaforalar, funksional metaforalar, məkan xüsusiyyətləri, kvantitativ xüsusiyyətlər.*
Ключевые слова: *мудрость, концепт, особенности предметов, квалитативные метафоры, функциональные метафоры, пространственные особенности, количественные особенности*
Key words: *wisdom, concept, features of the things, qualitative metaphors, functional metaphors, features of space, quantitative features*

İngilis dilində "müdriklik" konsepti insanı gündəlik həyatda əhatə edən müxtəlif əşyalar vasitəsilə təsvir olunur. Müdriklik məcazi şəkildə əşya ilə əlaqələndirilir. Əşyavi xüsusiyyətləri ifadə edən metaforaları dörd qrupa ayırmaq olar: keyfiyyəti, ölçünü bildirən, funksional və sırf əşyavi xüsusiyyətləri bildirən məcazlar.

Keyfiyyət və ya kvalitativ metaforalar müdrikliyin bir əşya kimi keyfiyyət səciyyəsini bildirirlər. Bu xüsusiyyət ingilis dilində "müdriklik" konsepti üçün az səciyyəvidir. Keyfiyyət metaforaları müdrikliyin yaş xüsusiyyətlərini göstərə bilər. Məsələn: müdriklik yeni (...understood with a **new wisdom** that the tiger... (10) və ya "köhnəlmiş" ola bilər (Alvina had the **old-fashioned wisdom...** (9).

Ölçü xüsusiyyətlərini bildirən məcazlar müdrikliyin özünəməxsus əlamətlərini göstərir. Müdrikliyin bir əşya kimi ölçüsü var. O, böyük/iri/nəhəng (...has ***an enormous*** collective ***wisdom...*** (9), həmçinin balaca ola bilər (Here, methinks, is ***small wisdom...*** (15).

Funksional metaforalar müxtəlifdir və ingilis dilində onların hamısı feili məcazlardır. Funksional metaforalar müxtəlifdir. Belə ki, müdrikliyi, sanki bir əşya kimi bir yerdən digər yerə keçirtmək olar. Məsələn: ***gətirmək***. Məsələn: ...Arsdale`s ***wisdom, brought*** to bear on the case... (26); ***qoymaq***. Məsələn: ...able to ***put*** her worldly ***wisdom...*** (12); ***vermək***. *Məsələn:* ***(...give*** the continuity, tradition, and ***wisdom*** which are equally, if not more, ***important.*** (14); ***tapıla bilər.*** *Məsələn:*...the conventional ***wisdom*** of past decades ***can be found*** among political scientists... (17).

Yuxarıda göstərilən misallarda göründüyü kimi müdriklik yerdəyişmənin obyekti kimi çıxış edir.

Sırf əşyavi xüsusiyyətləri bildirən metaforalar müxtəlifdir. Müdriklik əl ilə yaradılan bir əşya kimi təsvir olunur. İngilis dilində "müdriklik" konseptində aşağıdakı əşyavi xüsusiyyətlər aşkar olunmuşdur: ***"partlayış/partlama"*** - *müdriklik partlaya bilər*. *Məsələn:* the collective ***wisdom,*** such as it is, of the agency business favours ***bursts*** in most circumstances. (25); ***"fəvvarə"***. *Məsələn:* The panel on doctrine is the ***fountain of all wisdom*** of course (25).

İngilis dilində "müdriklik" konseptinin quruluşunda aşkarlanan məkani xüsusiyyətlər arasında lokallaşdırma xüsusiyyətləri geniş bir qrup təşkil edir. Lokallaşdırma xüsusiyyətlərinin ifadəsi zamanı müdriklik –müvafiq məkanda müəyyən bir yer tutan obyekt kimi çıxış edir.

M.V.Pimenova insanın daxili dünyasının yeri haqqında mühakimə edərkən məkanın iki növünü fərqləndirir: real və mifoloji məkan (24). Məkanın birinci növü daxili dünyanın subyekti və ya obyektinin insan bədəninin hüdudlarında lokallaşdırmasını, yəni insan orqanlarının, bədən üzvlərinin daxilində məhdudlaşdırmasını nəzərdə tutur. İkinci növ isə, əksinə,

lokallaşdırmanı xəyali, təsəvvür edilən, ideal, gerçəklikdə mövcud olmayan törəmələrin daxilində nəzərdə tutur. İngilis dilində "müdriklik" konseptinin "insanın daxili dünyasının əqli səciyyəsi kimi" lokallaşdırılması real məkan daxilində, insanın fiziki bədəni daxilində həyata keçməsi daha səciyyəvidir. "Hafizə, yaddaş" və "can, ruh, könül" yerləri bildirən anlayışlar istisna hallardır. Misallara nəzər salaq.

İngilis dilinin konseptual sistemində müdrikliyin yerləşdiyi yer kimi gözlər göstərilir. Hamıya məlum olan məcazi ifadəyə əsasən "gözlər – insan qəlbinin aynasıdır". Faktiki material əsasında gözləri, həmçinin müdrikliyin əksi adlandırmaq olar. Məsələn: gözləri müdrikliklə dolu idi (Their **eyes were** ancient, **filled with the wisdom...** (4), müdriklik gözlərdə yerləşir (...and there was such sad **wisdom in her eyes...** (22). Gözlər, xüsusən, yaşanan illərin, ötən illərin müdrikliyinin güzgüsüdür (**...with the wisdom of their long lives...** (4).

Müdriklik tək gözlərdə deyil, həmçinin insanın üzündə də əks ola bilər. Məsələn: His ***face reflected*** a depth offeeling and ***wisdom*** I had never ***seen on the face...*** **(**2). Bundan başqa müdrikliyi təkcə görmək yox, həmçinin eşitmək olar. Müdriklik ağızda (Again **wisdom** flies **from his mouth ...** (5) və dildə də yerləşə bilər (They would eat his **tongue for wisdom...** (2). Müdrikliyin ağızda yerləşməsi təsadüfi deyil, çünki insanın müdrikliyi nitqdən bəlli olur.

İngilis dilində tək bir xüsusiyyət də qeyd olunur: "səs". Məsələn: **In his** face and **voice** she could already discern **wisdom...** (8)). "Voice" sözünün tərifindən çıxış edərək – "voice - the sound or sounds uttered through the mouth of living creatures, especially of human beings in speaking, shouting, singing, etc." (hərfən: səs - canlı məxluqların ağzından tələffüz etdirilən səs və ya səslər, xüsusilə insanların danışığında, qışqırma zamanı, oxuyaraq çıxardıqları səslər və s.), bu xüsusiyyəti "müdrikliyin ağızda lokallaşması" xüsusiyyətinin variantı kimi qəbul etmək olar.

Müdriklik müxtəlif biliklərlə assosiasiya edilərək aşağıdakı məkanlar-da/yerlərdə yerləşə bilər: ***"insan beyinində.*** *Məsələn:* ...and the millennia-old storehouse of ***right-brain*** intuitive ***wisdom*** (8); ***"başda"***. Məsələn: But Sir Benedict shook ***wise head.*** (15).

Müdrikliyin "yaddaş"da yerləşmə xüsusiyyətinə nəzər salaq. Yaddaş – "yadda saxlamaq, mühafizə etmək və şüurda əvvəlki təəssüratları, xatirələri yadına salmaq, xəyalında canlandırmaq qabiliyyətidir" (19). Bu xüsusiyyət ən çox ingilis dili üçün səciyyəvidir. Toplanmış materiallarda "yaddaş" xüsusiyyətini bildirən müxtəlif feili məcazlar var:

İngilis dilində bu cür metaforalar azdır: to remember. Məsələn: ..and remembering his **wisdom...** (12). İngilis dünya dil mənzərəsində müdriklik bədəndə də yerləşə bilər. Məsələn:...and the **wisdom of the body** had come to her **rescue** (3). İngilis dünya dil mənzərələrində tədqiq olunan konseptlərin ifadəsi müdrikliyin kəmiyyət göstəriciləri ilə olması səciyyəvi haldır. V.N. Toporov qeyd edir ki, "qədim mədəniyyətlərdə rəqəm və say dini mahiyyət daşıyırdı və kainatı, dünyanı "səmtləşdirirən" bir vasitə idi" (28). Başqa sözlə desək, rəqəmlər vasitəsilə insan ərtaf aləmdə olan müxtəlif hadisələr haqqında öz biliklərini təsvir edir, bunula da bu hadisələri müəyyən nizama salır. Tədqiq olunan "müdriklik" konseptinin quruluşunda kvantitativ xüsusiyyətlər müxtəlif dil vasitələrilə ifadə olunaraq geniş şəkildə təqdim olunub. Kvantitativ xüsusiyyətlərin ifadəsi, əsasən, iki qarşı-qarşıya qoyulan əlamətlərlə təcəssüm olunur: "böyük miqdar-kiçik miqdar" və "bütövlük-hissə".

Müdriklik mücərrəd anlayış olduğu üçün o, hesablanan mahiyyət sayılır: o, çox və ya az ola bilər.

artıqlıq, çoxluq.

Bitməz/tükənməz.

İngilis dilində bu xüsusiyyət aşağıdakı leksemlər vasitəsilə ifadə olunur: **"much"**. Məsələn: ...despite ***much wisdom...*** (21); **"multiplying"**. Məsələn:...ameliorating the soil, ***multiplying wisdom,*** achieving longevity. (5); **"a great deal of"**. Məsələn:***...a great deal of***

collective ***wisdom...*** (21), a good deal of (...with ***a good deal of*** worldly ***wisdom...*** (7)), an enormous amount of (...have ***an enormous amount of wisdom*** about their community... (12).

"Müdriklik" konseptində göstərilən xüsusiyyətin işlənməsi müdrikliyin "doldurulma"sına işarə etməklə baş verir. Müdriklik müəyyən məkanı tamamilə dolduracaq bir anlayış kimi çıxış edir. Məsələn: **filled** the girl **with** a deep **wisdom.** (8); And **full of** useless **wisdom...** (28). İngilis dilində də "böyük/çoxlu miqdar" xüsusiyyəti "cornucopia" ("bolluq") leksemi ilə ifadə olunur (1). Məsələn:...to this **cornucopia of political wisdom...** (12).

İngilis dilində "müdriklik" konseptinin kvantitativ xüsusiyyətləri aşağıdakı variantlarda çıxış edə bilər: ***"dose"*** ismi ilə. Məsələn:...his ***dose of wisdom...*** (14)

"bit" ismi ilə. Məsələn:...well-thought-out ***bit of wisdom*** (25), ***"some"*** və ***"little"*** əvəzliyi ilə. Məsələn: ...read ***some wisdom*** from this instrument... (22); ...brought me ***little wisdom.*** (12).

İngilis dilində "müdriklik" konsepti üçün semantik cəhətdən "yoxluq, olmama" mənasına yaxın xüsusiyyət çıxış edir. Məsələn: ***...lacking in*** worldly ***wisdom...*** (10). İngilis dilində "müdriklik" konseptinin quruluşunda "çox miqdar" və "az miqdar" xüsusiyyətləri arasında orta mövqe tutan xüsusiyyətlər aşkarlanmışdır. Məsələn: "lazımi qədər, kifayət qədər" **(...wisdom enough** to understand... (17)**)** və "əlavə miqdar" (...all our **extra wisdom...** (19). "Bütövlük–hissə" qarşılaşmaya aid misallara nəzər salaq. "Bütövlük" xüsusiyyəti ən işlək hesab olunur. İngilis dilində bu xüsusiyyət qeyri-müəyyən əvəzliyi ***"all"*** ilə ifadə olunur . Məsələn: **...all** our **wisdom** (14). "Müdriklik" konseptinin quruluşunda "hissə"ni bildirən xüsusiyyət isə "***part", "piece"*** kimi isimlərlə ifadə olunur. Məsələn: ...it seemed to me the better **part of wisdom** to leave... (2); ...another **piece of wisdom...** (6). Misaldan gördüyümüz kimi müdriklik bütövün bir tərkib hissəsi kimi çıxış edir.

Beləliklə, ingilis dilinin konseptual mənzərəsində müdriklik çox və ya az miqdarla ölçülür, yəni müdriklik insanlara müxtəlif formada aid edilir. Bu xüsusiyyətlər bərabər və yüksək işlənmə tezliyinə malikdir. Lakim "bütövlük" xüsusiyyəti digər xüsusiyyətləri üstələyir, çünki insan müdriklikdən bütöv şəkildə istifadə edir, onu hissələrlə istifadə etmir.

Ədəbiyyat

1. Адамчик Н. В. Большой англо-русский словарь. Мн.: Литература, 1998.
2. Anne Rice. Interview with the vampire. USA, 1976.
3. Arthur Clarke. Odissey two. UK, 1982.
4. Bridget Wood. Rebel Angel. USA, 1993.
5. Christopher Paolini. Eragon. USA, 2003.
6. David Lindsay. A voyage to Arcturus. England, 1920.
7. Desmond Morris. Catlore. England, 1988.
8. D.H. Lawrence. The lost girl. England, 2009.
9. H.G. Wells. The research magnificent. England, 1915.
10. Irene Young. Enigma variations. England, 2000.
11. Iris Murdoch. The Book and the brotherhood. England, 1987.
12. Iris Murdoch. The sea. England, 2001.
13. James and William Ball. Stockport Grammar School 1487-1987. UK, 1987.
14. Jeffery Farnol. Beltane the Smith. England, 2006.
15. John Jeffery Farnol. The Geste of Duke Jocelyn. USA, 2010.
16. John S. Henley. Rival states, rival firms. England, 1991.
17. Joseph Heller. Catch 22. USA, 1961.
18. Кузнецов С. А. Большой толковый словарь русского языка. СПб.: Норинт, 1998.
19. Lain Banks. A Song of Stone. Scotland, 1997.
20. Philip Pullman. Amber Spyglass. England, 2000.
21. Pullman. The Golden Compass. England, 1996.

22. Пименова М. В. Этногерменевтика языковой наивной картины мира внутреннего мира человека. Серия «Этногерменевтика и этнориторика». Вып. 5. Кемерово, 1999, с. 193.
23. Roderick White. Advertising: what it is and how to do it. USA, 1993.
24. Samuel Hopkins Adams. Success. USA, 2008.
25. Топоров В. Н. Числа // Мифы народов мира. Т. 2. М., 1988. С. 629-631.
26. Wilfrid Gibson. Krindlesyke. England, 1922.

А.В.Махмудова

Предметные пространственные и квантитативные особенности в структуре концепции "Мудрости" (на основе материала английского языка)

Резюме

В статье нашли свое отражение предметные пространственные и квантитативные особенности в структуре концепции "Мудрости" в английском языке и даны примеры. Концепция мудрости связана с предметом в переносном смысле и с метафорами, обозначающими предметные особенности, которые расследуются и разделены на соответствующие группы. Кроме того, квантитативные особенности строения концепции "мудрости" в статье выражаются с помощью различных средств языка и представлены в широком спектре.

A.V.Mahmudova

Features of the Things and Space, Quantitative Features in the Structure of the Concept of “Wisdom” (on the basis of the material of the English language)

Summary

Features of the things and space, quantitative features in the structure of the concept of “wisdom” in the English language are reflected in the article and noted with examples. Wisdom is associated with the things in figurative way and metaphors expressing features of the things that are divided into appropriate groups, are analyzed in here. In addition, quantitative features in the structure of the concept of “wisdom” are presented widely with different means of the languages in the article.

Rəyçi: prof. A.M.Məmmədli

Redaksiyaya daxil olub: 16.01.2017

T.B.MƏMMƏDOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALMAN DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ İDİOMLAR, SÖZ CÜTLÜKLƏRİ VƏ QANADLI SÖZLƏRİN ROLU

Açar sözlər: *frazeoloji vahid, frazeoloji birləşmə, idiomlar, söz cütlükləri, qanadlı sözlər*
Ключевые слова: *фразеологическая единства, фразеологическая сочетания, идиомы, парные слова, крылатые слова*
Key words: *phraseological unit, phraseological combination, idioms, word pairs, winged words*

Dilçilik tarixində frazeologiyanın tədqiqat tarixi Ferdinand de Sössür və Ş. Ballidən başlayır, rus dilçiliyində V.V.Vinoqradov, H.M.Şanski, O.S.Axmanova, L.A.Bulaxovski, Azərbaycan dilçiliyində H.A.Bayramov, S.Ə.Cəfərov və başqaları frazeologiya üzərində əhəmiyyətli araşdırma aparmışlar (1, s.262).

Alman dilinin frazeoloji sistemi ilə bağlı külli miqdarda tədqiqatlar aparılmışdır. XIX-XX əsrin alimləri H.Paul (4, s.53-52) öz tədqiqatlarında sabit və dəyişkən söz birləşmələrini, inkarlığın ifadə vasitələrini tədqiq etmişlər.

Bu sahədə aparılan tədqiqatlardan biri Fridrix Zaylerin 50 il əvvəl yazdığı "Alman frazeologiyasıdır" (5, s.72). O, bu əsərdə alman dilinin frazeologiyasının əsas bölmələrinin təsnifatını vermişdir. Lakin müasirlik baxımından F.Zaylerin nəzəriyyələri öz əhəmiyyətini itirmişdir. Belə ki, o, frazeoloji birləşmələrin linqvistik meyarlarının müəyyənləşdirilməsini, frazeoloji fondun zənginləşdirilməsinin daxili və xarici səbəblərini və onun leksika ilə əlaqəsini tədqiq etməmişdir. Frazeoloji qovuşmalara alman dilində çoxsaylı frazeologizmlər aiddir. Belə ifadələrdə komponentlərdən birinin mənası bir qədər hiss edilir, digərləri öz mənasından tamamilə uzaqlaşmış olur. Məs.: *durch die Lappen gehen* "entwischen", *an jemandem, an etwas einen Narren gefressen haben* "für jemanden, für etwas eingenommen sein".

Frazeologiya dilçilik elminin bir sahəsi kimi, bütün sabit söz birləşmələrinin məcmusu olub və onların tədqiqi ilə məşğuldur. Alman dilinin lüğət tərkibinin zənginləşməsinin ən mühüm yollarından biri də dildə frazeoloji birləşmələrin yaranması ilə bağlıdır. Bu günə qədər dünya dilçiləri arasında frazeologiya haqqında hamının qəbul edə biləcəyi ümumi, konkret bir fikir yoxdur.

Sabit söz birləşmələri dedikdə, sabit, bölünməz söz qrupları nəzərdə tutulur. Frazeoloji birləşmələrdə isə birləşmənin komponentləri əvvəlki leksik mənasından uzaqlaşmış olur. Burada xalqın dünyagörüşü, həyat tərzi ilə yanaşı həmin sözün aid olduğu əşya və anlayışın aparıcı rolu olur. Frazeoloji birləşmələr xalqın dünyagörüşündən və dilin daxili qanunlarından yarandığı üçün nə tərkib hissələrinə ayrılır, nə də başqa dilə tərcümə edilir (1, s.261).

Frazeoloji vahidlərdə komponentlərin hər ikisi öz əvvəlki mənasını itirir. Məs.: *grosse Augen machen* "staunen", *auf die Beine kommen* "genesen" və yaxud "in bessere Verhältnisse kommen" və s.

Frazeoloji birləşmələrdə isə komponentlərin biri öz əvvəlki mənasını itirir, digəri isə öz əvvəlki mənasında işlədilir. Bu birləşmələr daha çox feili birləşmələr kimi xarakterizə edilir. Frazeoloji birləşmələrdə ismi hissə öz əşyavi mənasını saxlayır, lakin feil metaforik olaraq işlədilir. Məs.: *zum Ausdruck bringen* ifadəsində *bringen* feili metaforik olaraq işlənmişdir, amma *Ausdruck* –ismi isə öz həqiqi mənasını saxlayır. Bütövlükdə bu söz birləşməsi *"ausdrucken*", o cümlədən də *nicht in Frage kommen* "nicht wichtig sein*", in Gefahr schweben* „in Gefahr sein" və s. mənasında işlənmişdir.

Rus dilçiliyində V.Vinoqradov sabit söz birləşmələrinin semantik və semantik-struktur təsnifatını vermişdir. Frazeologizmlərin struktur-semantik təsnifatına aşağıdakı qruplar aid edilir:

Wortpaare (söz cütlükləri), Idiome (idiomlar), Geflügelte Worte (qanadlı sözlər), Sprichwörter (atalar sözü) (10, s.162).

Söz cütlükləri dedikdə, vahid bir məna və məfhum ifadə edən iki sözün sabit bisləşməsi başa düşülür, Məs. *Mann und Maus, fix und fertig, hin und her* və s. Söz cütlükləri digər frazeoloji qruplardan öz strukturuna görə tamamilə fərqlənir. Söz cütlüklərində daha çox birləşdirici vasitə olaraq *und* bağlayıcısından, bəzən də *für, um* sözönülərindən istifadə edilir. Məs.: Haus *und* Hof, hoffen *und* harren, Schritt *für* Schritt, Stunde *um* Stunde və s. Bundan savayı söz cütlüklərində daha çox ahəngdarlıq, alliterasiya və həmqafiyəlilik xarakteri vardır. Məs.: *Kisten und Kasten, bei Nacht und Nebel, mit Sack und Pack, mit Ach und Krach, ausser Rand und Band* və s. Bəzi söz cütlüklərində bu kimi oyfonik vasitələr olmaya da bilər. Məs. : *alt und jung* və s.

Söz cütlükləri daha çox sinonim, antonim sözlərdən, bir-birini tamamlayan, vahid bir məna bildirən müxtəlif mənalı sözlərdən ibarət olur. Məs.: *auf Schritt und Tritt* „auf jedem Schritt“, „überall“, *nach Brauch und Sitte* „ nach den Sitten“, *Hab und Gut* „ das ganze Gut“, *an Ort und Stelle* „an einem bestimmten Ort“, *ohne Sinn und Verstand* „ sinnlos“ , *los und ledig* „ frei“, *Feuer und Flamme* „ begeitert sein“, *kreuz und quer „*nach allen Seiten“ , „von allen Seiten“, „überall*“; auf Leben und Tod* „auf immer*“, alt und jung* „alle“, *Freud und Leid* „ alles“, „ alle Erlebnisse“, *Freund und Feind* „ alle“, *durch dick und dünn* „ mit allen Mitteln“ ; *mit Mann und Maus* „ mit allem*“, leben und weben* „ schaffen, *mit Mühe und Not* „mit grosser Mühe“, kurz und gut „ kurz“ (6, s.158).

Sabit söz birləşmələrinin növlərindən biri də idiomdur. İdiomlar sərbəst sintaktik söz qruplarından əmələ gəlir və komponentlərin mənası onların ümumi məcmusu ilə eyniyyət təşkil etmir. Alman dili idiomlarla zəngin dildir. Məs.: *die Augen in die Hand nehmen* “genau zusehen”, *sich die Beine in den Leib stehen* “lange warten”, *unter die Haube bringen* „ verheiraten“, *einem etwas aufbinden* „weismachen“, *Pech haben* „Unglück haben“, *Hand und Fuß haben* „vernünftig, begründet sein“, „gut durchgedacht“ və s.

İdiomların ümumi mənası motivasiya olunduğu kimi motivasiya olunmaya da bilər. Motivasiya edilmiş idiomların mənası onların komponentləri ilə tamamlanır. Məs. : *ins Auge fallen* „bemerkbar sein*“, sich den Kopf zerbrechen* „angestrengt nachdenken“, *den Kopf verlieren* „die Gestesgegenwart verlieren“, *die Nase in etwas stecken „*sich für fremde Angelegenheiten interessieren“, *die Finger von etwas lassen* „sich nicht mit etwas abgeben“ və s.

Motivasiya olunmamış idiomların mənası komponentlərin mənası ilə tamamlanmır. Məs.: *eine Sache übers Knie brechen* “eine Sache rasch abtun“, *auf etwas Gift nehmen* „sich auf etwas verlassen“, *jemanden aus den Lumpen schütteln* „jemanden kräftig zurechtweisen“ və s.

Motivasiya olunmamış idiomlar etimoloji-tarixi təhlil vasitəsi ilə izah olunur. Belə halda subyektin mədəniyyəti və təhsili onun səviyyəsindən asılı olur. Aşağıdakı idiomların modifikasiya olunub və yaxud olunmadığını müəyyənləşdirmək olduqca mübahisəlidir. Məs.: *jemandem auf die Finger sehen „*genau beobachten“, *etwas aus den Fingern saugen* „sich etwas ausdenken“, *durch die Finger sehen* „milde urteilen“ və s.

Quruluşuna görə idiomlar feili söz birləşmələri və aşağıdakı qruplara bölünür:

a) Feil + isim birləşməsi: *Scheibe sein* “verloren gehen”, *Purzelbäume schlagen* “sich überschlagen”

b) Feil + sözönü birləşməsi: *Um den Kopf gehen* “um das Leben gehen”

c) Feil + ismin sifətlə birləşməsi: *Lange Beine haben* “ lange dauern*”, blauen Dunst vormachen* “ betrügün”

d) Feil + sözönün sifətlə birləşməsi: *Für bare Münze nehmen* " für Wahrheit halten"

e) Feil+ isim + sözönü birləşməsi: *Jemandem einen Floh ins Ohr setzen* " jemanden aufregen durch irgendeine Mitteilung"

f) Feil+ sifət birləşməsi: *Blau machen* "nicht zur Arbeit gehen", "die Arbeit versäumen"

g) Feil + zərf birləşməsi: Sich breit machen „wichtig tun", „prahlen"

h) Feil + məsdər birləşməsi: *Flöten gehen* "verloren gehen", *unter vier Augen* „zu zweien", *wie aus dem Ei geschält* „äußerst sauber", „ganz neu".

İdiomlar söz cütlüklərindən öz strukturuna görə fərqlənir. Bir qayda olaraq idiomlar güclü ekspressivlik və bədiilik, yəni məcazlıq ifadə edir. Məs.: *etwas aufgefressen haben* ifadəsi *etwas begangen haben* ifadəsi daha güclü ekspressivlik və bədiilik bildirir.

Qanadlı sözlər də sabit söz birləşmələrinin xüsusi növlərindən biridir. Yunan mənşəli bu ifadəni Homer ağızdan-ağıza keçən (uçan) sözlər kimi xarakterizə etmişdir. Qanadlı sözlərin özünəməxsus xüsusiyyətlərindən biri də onların müxtəlif dillərdə strukturuna görə fərqli olmasıdır. Onlar quruluşuna görə bir sıra spesifik cəhətləri özündə cəmləşdirir.

Bəzi dilçilər qanadlı sözləri "şüar" xarakterli sözlərlər kimi xarakterizə edirlər. Qanadlı sözlər daha çox aforizm, sitat, kəlam, şüar kimi ayrı-ayrı şəxslərin, şair, yazıçı, alim və siyasətçilərin nitqində işlədilir. Bəzən müəllif unudulur, qanadlı sözlər isə dildə işlənərək, daha da möhkəmlənib dilin zənginləşməsinə yardımçı olur. Məs.: *Sein oder nicht sein, Sturm und Drang Periode , Sturm im Wasserglase* və s.

Qanadlı sözlər münasib (tutarlı) mənaya, beynəlmiləlçilik xarakterinə, tərcümə üsuluna, müəyyən bir mənbəyin mövcudluğuna və bəzən də müəllifin olması kimi xarakterik xüsusiyyətlərə malikdir: Məs.: *das Sein bestimmt das Bewußtsein* (K.Marx). *Liebe macht blind* (Platon), *Kampf ums Dasein* (Darwin), *alles fliesst* (Heraklit), *viel Lärm um nichts* (Montesquieu), *Ich weiß, daß ich nichts weiß* (Sokrates), *das rote Gespenst* (7, s.184).

Qanadlı sözlərin yaranma mənbəyi və yaradıcıları məlum olduğu üçün onları altı qrupa bölürlər: Tövrat və İncil ilə ilgili, mifik, xəlqi, tarixi, siyasi və ədəbi sözlər (7, s.184-186). Tövrat və İncil ilə ilgili sözlər – *Fleisch und Blut, in dem siebenten Himmel, verbotenen Frucht*; mifologiya ilə bağlı sözlər - *Apfel der Zwietracht*; folklordan, xalq nağıllarından götürülmüş qanadlı sözlərlə bağlı - *der Geist des Hauses, böser Geist, der dritte Hahnenschrei;* tarixiliklə bağlı sözlər - *Potemkinsche Dörfer, nach Kanossa gehen;* qanadlı sözlər hər hansı bir siyasi hadisənin təsiri altında yaranır. Məs.: Bismarkın imperialist siyasəti sayəsində- *Blut –und Eisenpolitik.* Qanadlı sözlərin əksəriyyəti siyasətçilər tərəfindən yaranır. Məs.: *ehernes Lohngesetz* (Rikardo), *Recht auf Arbeit, öffentliche Meinung, Organisation der Arbeit, Lumpenproletariat* və s.; Qanadlı sözlər ədəbi mətnlərdə də daha çox işləkdir- *Dichtung und Wahrheit, man lebt nur einmal in der Welt, das Ewig-Weibliche –Goethe, Meine bessere Hälfte, Um ihrer schönen Augen willen* və s.

Misallardan göründüyü kimi, vahid bütövlülük, stabillik, xalqın tarixi ilə bağlılıq alman dili frazeologizmləri üçün xarakterik olan xüsusiyyətlərdəndir. Frazeologizmlər öz bədiiliyi, münasib forma quruluşu ilə alman dilinin lüğət tərkibinin nəinki keyfiyyətcə, həmçinin kəmiyyətcə də zənginləşməsində, fikrin ifadəsində isə daha güclü ekspressiv və emosional təsir gücünə malikdir.

Ədəbiyyat

1. Babayev A.M.. Dilçiliyə giriş. Bakı: Maarif, 1992.
2. Bayramov H. Azərbaycan dili frazeologiyasını əsasları. Bakı, 1978.
3. Kazımov Q. Azərbaycan dili frazeolgiyasını ən qədim qatı (yazıyaqədərki dövr). Bakı, 2008.
4. Deutsche Sprichwörterkunde. München, 1922.
5. Dornseiff F. Der deutsche Wortschatz nach Sachgruppen, 5. Aufl. Verlag Walter de Gruyter & Co. Berlin, 1959.

6. Fleischer W. Phraseologie der deutschen Gegenwartssprache. Leipzig, 1982.
7. Iskos A., Lenkova A . Deutsche Lexikologie. 2.Auflage, L., 1963.
8. Stepanova M.D., Çernyşeva I.I. Lexikologie der deutschen Gegenwartssprache. Moskau, 1986.
9. Булаховский Л.А. Введение в языкознание, часть 2. М., 1954.
10. Виноградов В.В. Русский язык. М.-Л..

Т.Б.Мамедова

Роль идиом, парных слов, крылатых слов в обогащении словарного состава немецкого языка

Резюме

В статье речь идет о роли идиом парных слов в обогащение лексического состава немецкого языка. Идиомы выражают сильную экспрессивность и художественность. Парные слова в основном обладают плавностью, аллитерацией и созвучностью. Крылатые слова же употребляются в речи политиков, поэтов, писателей и ученых как афоризмы, цитаты.

T.B.Mammadova

The Role of Idioms, Word Pairs and Winged Words in the Enriching of German Vocabulary

Summary

The article deals with the role of idioms, word pairs and winged words in the enriching of German vocabulary. İdioms express strong sayings and figurative meaning. Word pairs are characterized as harmony and allitration. But winged words are used as aphorisms, citation, samples, slogans in poets', in writers', in scientists' and in politicians' speech.

Rəyçi: filol.f.d., dos. E.Q.Yusifov

Redaksiyaya daxil olub: 06.01.2017

L.A.MİKAYILZADƏ
E-mail: lala@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

N.GƏNCƏVİNİN «LEYLİ VƏ MƏCNUN» ƏSƏRİNDƏ İŞLƏNƏN ƏRƏB-FARS MƏNŞƏLİ SÖZLƏRİN ETİMOLOGİYASI

***Açar sözlər**: etimologiya, alınma sözlər, söz yaradıcılığı.*
***Ключевые слова**: этимология, заимствованные слова, словесное творчество.*
***Key words**: etymology, borrowings, word formation.*

Azərbaycan dilinin bugünkü zəngin səviyyəyə yüksəlməsində, şübhəsiz, şair və yazıçıların böyük rolu olmuşdur və bu proses indi də davam etməkdədir. Şair və yazıçılarımız ana dilində yazıb-yaradarkən, dövrün, zamanın tələblərinə uyğun olaraq təhsil aldıqları dilə məxsus qiymətli kəlamlardan da istifadə etmişlər. N.Gəncəvi, M.Füzuli, Ş.İ.Xətai, S.Ə.Şirvani, M.Ə.Sabir və başqalarının əsərlərinin lüğət tərkibində ərəb-fars sözləri sənətkarlıqla işlənmişdir. Fars mənşəli sözlərin əksəriyyəti bədii üslubla bağlı olsa da, ictimai, siyasi vəziyyətlə, habelə, məişətlə bağlı hadisələri əks etdirənləri də vardır. Fars-ərəb sözləri, tərkibləri xalq danışıq dilinə, məişət üslubuna sürətlə daxil olmuş, ədəbi dildə əsl Azərbaycan sözləri ilə bir sırada ünsiyyətə xidmət göstərmişdir. Bu gün həmin sözlərin mənasını yaxşı bilmək klassik ədəbiyyat nümunələrini öyrənmək üçün çox əhəmiyyətlidir.

Müasir Azərbaycan dilinin zənginləşməsinin əsas mənbələrindən birini başqa dillərdən alınma sözlər təşkil edir. Belə sözlər Azərbaycan dilinə ya bilavasitə, ya da bilvasitə keçir. Dilçilik elmi sübut edir ki, dünyada yalnız öz milli sözlərindən ibarət olan saf dil yoxdur. Dünya xalqlarının ictimai, siyasi, mədəni, iqtisadi, elmi, hərbi və s. əlaqələrinin yaranıb inkişaf etməsi eyni zamanda onların dillərində də öz əksini tapır. Belə bir əlaqə nəticəsində dünya dillərindən bir-birinə söz və istilahlar keçir. Bu zaman söz və ifadələrlə birlikdə şəkilçilər də keçə bilər. Bunlar həm şifahi danışıq dili və həm də yazılı ədəbiyyat vasitəsilə keçir. Əlbəttə, alınma sözlərin miqdarı bu və ya başqa bir dildə müxtəlif olur. Onlar keçdiyi dilə müxtəlif məzmunda təsir göstərir. Lakin bütün hallarda dilin zənginləşdirilməsi məqsədi aparıcı məqsəd daşıyır. Azərbaycan xalqının tarixi inkişafının müxtəlif dövrlərində ərəb- fars dilindən dilimizə xeyli sözlər keçmişdir ki, bunların bir çoxunun bugünkü dilimizdə alınma söz olduğunu müəyyənləşdirmək belə çətindir. Dilimizə keçən sözlərin hamısı söz yaradıcılığı nümunələridir. Onların leksik –semantik yolla dilimizə keçdiyi də dilçilik elminə məlumdur. Həmin leksik yolu belə ümumiləşdirmək olar: 1) ədəbi -bədii əsərlər vasitəsi ilə keçənlər; 2) dialektlərdən keçənlər; 3) elmi, bədii, publisistik, məişət, rəsmi-işgüzar leksika kimi keçənlər; 4) tərcümə ədəbiyyatı vasitəsi ilə keçənlər; 5) ticarət, mal dövriyyəsi vasitəsi kimi keçənlər (8).

Qeyd etmək lazımdır ki, dilimizə ərəb-fars mənşəli sözlərin həm kökü (əsası), həm də şəkilçisi (morfemi) keçmişdir. Belə sözlər həm morfoloji və həm də sintaktik yolla yaranmış və bu proses bu gün də davam etməkdədir. Dilimizdə işlənən ərəb və fars mənşəli sözləri aşağıdakı kimi ümumiləşdirmək olar: 1) Fars-ərəb sözlərinin dilimizə keçmə tarixi çox qədim olmaqla bunların çox hissəsi həm ədəbi dilimizdə, həm də ümumxalq danışıq dilində işlənərək bugünkü dövrə gəlib çıxmışdır; 2) Belə sözlərin bir hissəsi dilimizin daxili qanunları əsasında öz fonetik tərkibini dəyişdirərək, dilimizin tələffüz xüsusiyyətlərinə uyğun şəkildə işlədilir və bunların alınma sözlər olduğunu müəyyənləşdirmək belə çox çətin olur; 3) Fars-ərəb mənşəli sözlərin bir hissəsi dilimizdə əslinə uyğun surətdə işlənsə də, onlar həm ümumxalq danışıq dilində, həm də ədəbi dilimizdə öz sözlərimizdən fərqlənmir, yəni hamı tə-

rəfindən eyni dərəcədə anlaşılır. Bunların alınma sözlər olduğunu ilk baxışda heç kəs ağlına belə gətirmir; 4) Ərəb və fars dillərindən keçən bir qrup sözlər öz leksik şəkilçiləri ilə birlikdə dilimizdə işlədilir və bunların çox hissəsi Azərbaycan dilinin leksik şəkilçilərini qəbul edir; 5) Ərəb və fars mənşəli sözlərin çox az bir hissəsi ümumxalq danışıq dilində deyil, yazılı ədəbiyyatda, ziyalıların dilində işlədilir. Dilin lüğət tərkibi fasiləsiz dəyişmədə olub, cəmiyyətin, elm və texnikanın inkişafı ilə əlaqədar daim yeni sözlər hesabına zənginləşir, köhnəlmiş sözlər isə tədricən sıradan çıxır. Bu və ya digər yazıçının nitqini və ya onun əsərinin lüğət tərkibini, yaxud hər hansı fəaliyyət dairəsinə (müəyyən peşəyə) aid sözlərin məcmusunu göstərmək üçün də «leksika» terminindən istifadə olunur (3). Leksikologiyada sözə, onun işlənmə dairəsi, fəal və ya qeyri-fəal lüğətə daxil olması, hamı tərəfindən işlənməsi, yaxud müəyyən ixtisasa, dialektə aid olması baxımından yanaşılır. Leksikologiya sözü ayrılıqda, təcrid olunmuş şəkildə deyil, başqa sözlərlə əlaqədə öyrənir (1, s.78). Bu isə dilin leksik sistemində hər bir sözün yerini müəyyənləşdirməyə imkan verir. Bir sözlə, leksikologiya dilimizin lüğət tərkibinin indiki vəziyyətini və tarixi inkişafını öyrənməklə onun lüğət sistemini işıqlandırır. Deməli, leksikologiyada öyrənilən obyekt, hər şeydən əvvəl, sözdür.

Söz dilin əsas leksik vahididir. Sözü xarakterizə edərkən onun 1) fonetik ifadəliliyini; 2) semantik valentliliyini; 3) vurğusuz və ya vurğulu olmasını; 4) leksik-qrammatik münasibətdə olmasını; 5) bütövlüyünü (tərkibinə başqa sözün daxil olmasına yol verilməsini) və s. nəzərə almaq lazımdır (1, s.56). Leksik mənalı sözlər, adətən, müstəqil və tammənalı sözlər hesab olunur. Sözün leksik və qrammatik mənalarının vəhdətdə olması onun ən mühüm xüsusiyyətlərindən biridir. Sözün leksik- semantik mənası dedikdə, onun əşya və hadisələri ifadə etmək qabiliyyəti, əşya-şey məzmunu, başqa sözlə, maddi mənası, obyektiv varlığın müxtəlif hadisələri ilə münasibəti nəzərdə tutulur. Ümumiyyətlə, ərəb-fars sözləri adı ilə işlənən istər fars, istər ərəb və istərsə də ərəb-fars sözlərinin əksər qismi, düşdüyü yeni mühitdə, Azərbaycan sözlərinin və bu sözlərə aid fonetik qaydaların təsiri altında Azərbaycan sözlərindən o qədər də seçilməyən bir şəkil almışdır. Bununla belə, hər iki dildən gələn sözlər gəldiyi dillərə məxsus fonetik, leksik-semantik xüsusiyyətləri də müəyyən dərəcədə saxlamışdır.

Məlumdur ki, Azərbaycan xalqının böyük şairi və mütəfəkkirləri dünya ədəbiyyatının Homer, Dante, Şekspir, Puşkin kimi nəhəng simalarından biri olan Nizami Gəncəvi yaradıcılığı və məzmunu, ictimai-fəlsəfi idealları, bədii keyfiyyətləri, formasının kamilliyi ilə Azərbaycan və dünya ədəbiyyatında xüsusi yer tutmuş yeni parlaq səhifə açmışdır. Nizaminin bütün dünyada şöhrətləndirən onun beş poemasıdır ki, dünya ədəbiyyatına "Xəmsə" adı ilə daxil olmuşdur. Şairin yalnız poetik sənatkarlığı deyil, fəlsəfi məfkurəvi və əxlaqi görüşləri də bu poemalarda öz əksini tapmışdır. Təbii aləmi, cəmiyyəti, insanı əhatə edən mühiti və insanın özünü Nizami geniş planda parlaq boyalarla canlandırır. Bədii idrakın və bədii təsvir vasitələrinin zənginliyi, rəngarəngliyi, dolğunluğu cəhətdən Nizami dünya ədəbiyyatının nadir yaradıcılarındandır. Sənət əsərlərinə ölməzlik verən bu böyük keyfiyyətlər Nizami yaradıcılığında və o cümlədən "Leyli və Məcnun" da almaz kimi parlayır. "Leyli və Məcnun" böyük şairin ömrünün püxtələşmiş dövründə - 47 yaşında "Sirlər xəzinəsi" və "Xosrov və Şirin" dən sonra yazdığı üçüncü əsəridir Bu əsərin mövzusu ərəb mənbələrindən alınmışdır. Onu da qeyd etmək lazimdir ki, bütün qiymətli bədii nümunələr kimi "Leyli və Məcnun" oxunduqca tədqiq olunduqca insanlarda yeni-yeni fikirlər, hisslər oyadır. Hər kəs onun fikribəbii keyfiyyətlərindən bir qisminə aludə olur, hər adam öz zovqünə təhsil və tərbiyəsinə görə gözəl bir cəhətdən ləzzət alır, öz idrakını zənginləşdirir.

Əlbəttə, onun oyatdığı fikirlər və hisslər işıqlıdır, nəcibdir, təmizdir, insanı ucaldır. Nizami əsəri yazılandan çox-çox əvvəl məlum və məşhur imiş. Qətranın özünün də Məcnun haqqında ərəb mənbələrindən məlumat alması mümkündür. Onun bu məsələdə sərbəst hərəkət etməsi, oxucuya məlum, məşhur hadisə kimi Leyli və Məcnunu xatırlaması isə əfsanənin ərəb mənbələrindən əlavə ədəbi ictimaiyyət arasında da geniş yayıldığını təsdiq edir. XI əsr İran

şair və nasiri Nasir Xosrov da bu əfsanənin maraqlı olduğunu qeyd edir, lakin onu daha çox bədəvi ərəblərin mühiti ilə əlaqələndirir, Taifdə Leylinin yaşadığı qəsrin xərabələrini göstərdiklərini, maraqlı hekayələr danışdıqlarını yazır. Nizaminin poemasında mövzunun bəlli, məşhur olması dəqiq göstərilir. Onu Axsitan da, Nizaminin oğlu Məhəmməd də yaxşı bilir, anlayırlar. Axsitan Məcnunun böyük eşqini, bu mövzunun bütün sözlərin şahı olduğunu yazır. Şairin oğlu 14 yaşlı Məhəmmədin qeydi daha maraqlıdır. Onun fikrincə, "bu gözəl mövzuda böyük sənət var". Nizami özü isə onu "aləmə bəlli bir ayə" sayır, başqa sözlə, əfsanənin yazılı və şifahi şəkildə çox geniş yayıldığını etiraf edir. Nizami gah oğlu Məhəmmədin dililə, gah öz sözləri ilə bu məşhur əfsanənin bədii əsər kimi işlənmədiyini, çılpaq qaldığını da yazır:

Harda ki eşq əhli bir süfrə açar,
Bu gözəl hekayə ona duz saçar.
Bu qədər nazəndə, incə bir dilbər,
Nədən çılpaq qalsın bu vaxta qədər?
Onu bəzəməmiş arif əlləri,
Odur ki, çılpaqdır o gözəl pəri (2).

Maraqlıdır ki, həm Axsitan, həm də şairin oğlu Məhəmməd bu mövzunu Nizaminin hünərinə layiq, ona məhrəm hesab edirlər. Belə çıxır ki, Axsitanın bu mövzuda Nizamidən əsər xahiş etməsi özü də Nizami yaradıcılığına bələd olmağından, dahi şairin ruhən bu mövzuya yaxınlığından irəli gəlir. Sözün sərrafı olan Axsitan Nizami irsi ilə "Leyli və Məcnun" mövzusu arasında yaxınlıq, doğmalıq hiss etdiyindən ondan məhz bu mövzuda əsər yazmağı istəyir. Anlaşılır ki, poema sifarişlə yazılsa da, onun məşhurluğu və məhz Nizami dühasına yaxınlığı belə bir əsərin meydana çıxmasına səbəb olmuşdur. Nizaminin bu mövzunu işlərkən yerli folklor mənbələrdən başqa, yazılı qaynaqlardan da geniş istifadə etməsi əsər boyu özünü aydın hiss etdirir. Nizaminin ölməz dastanını böyük şairimiz Səməd Vurğun Azərbaycan dilinə tərcümə etmişdir. Bu tərcümənin ən gözəl xüsusiyyəti Səməd Vurğun yaradıcılığına xas olan yüksək bədiilik təbiilik və axıcılıqdır. Ən çətin və mürəkkəb hissləri belə şair olduqca səlis və yığcam bir şəkildə tərcümə etmiş, ana dilimizin zəngin xəzinəsindən mənalı sözlər seçib mirvari kimi yan-yana düzmüşdür. Buna görə də Nizami qəhramanlarının işıqlı fikirləri, parlaq ehtirasları Səməd Vurğun tərcüməsində gözəlliyini və alovunu saxlamış orjinalda olduğu kimi güclü çıxmışdır.Əsər oxunarkən tərcümə olduğu qətiyyən bilinmir fars-ərəb mənşəli sözləri işlətləklə əsər daha da öz gözəlliyini, orjinallığını saxlamışdır. Bu isə ən böyük müvəfəqiyyətdir, çünki orjinaldan uzaqlaşmaq və təhriflər hesabına yox dəqiqlik, doğruluq və bədii adekvatlıq hesabına əldə edilmişdir. Orjinalın bütün məziyyətləri saxlanmış fikirlər dərinliyi və müdrikliyi ilə ifadə olunmuş obraz və təşbehlərin təravəti qorunmuşdur. Tərcümənin hər sətrində Səməd Vurğunun odlu şair nəfəsi hiss olunur, işlənən fars-ərəb mənşəli sözlər əsərin dilini də zənginləşdirmişdir. O, Nizami əsərini əsl şair ürəyinin ehtirası və coşğun ilhamının qüdrəti ilə dilimizdə canlanmışdır. Şair əsərin həm əvvəlində, həm də əsər boyu müxtəlif yerlərdə müxtəlif üsullarla həyat, dünya, dövrün insanları, onların amalları, səviyyələri, əməlləri haqqında söhbət açır, bu söhbətləri də mövzuya yad, kənar bilmir.

Ey varlıq nəqşinin naziri olan,
Qaldır əngəlləri idrak yolundan.
Boş təbli döyərək hay-haray salma,
Heç kəsin səsinə biganə qalma.
Bir toz görünsə də hər zərrə əgər,
Dünya pərdəsində o da iş görər (2).

Burada işlənən nəqş, nazir, zərrə, dünya bu kimi fars-ərəb mənşəli sözlər seirə bədiilik, rəngarənglik vermiş, eyni zamanda dilimizin lüğət tərkibinin zənginləşməsinə kömək etmişdir. İdrak yolundakı əngəllər deyilmi Leylinin, Məcnunun faciəsinin səbəbi? Dünya pərdəsində hər zərrənin bir iş gördüyünə biganəlik deyilmi bu faciəni törədən? Şair bu fikirdədir

ki, qəflət, nadanlıq, biganəlik, insanın öz vəzifəsini bilməməsi onun həyatını zəhərləyir, onu düzgün hərəkət etməyə qoymur. Nizamiyə görə, insan dünyaya dünyanın mahiyyətini anlamaq, öyrənmək üçün gəlmişdir.

Qısa söz; dünyada nə sən, nə də mən
Oyuncaq deyilik xilqətimizdən.
Nə şəhvət, nə yuxu, nə də ki yemek
Həyatın mənası olmasın gərək.
Yatmağı, yeməyi bu aləmdə sən
Eşşək, öküzdə də görə bilərsən.
Təbiət quranda xilqətimizi,
Başqa səhifədə yazmışdır bizi (2).

Bu hissədə də işlənən fars-ərəb mənşəli sözlər- dünya, xilqət, həyat, məna, aləm bu kimi sözlər əsərə rəng qatmış, şair tərcümədə bu sözləri məharətlə işlətmişdir. Nizami insandan ayıq olmağı, öz insanlıq vəzifəsini yaxşı başa düşməyi, yerlərin, göylərin sirlərini öyrənməyi tələb edir; İnsan dünyaya nə üçün gəlmişdir? Onun burada vəzifəsi nədən ibarətdir? Peyğəmbərə müraciətlə deyilən aşağıdakı iki misra bəlkə də poemada qaldırılan mətləblərin ana xəttini təşkil edir: - Biz kimik, neçiyik, aç göstər artıq, -Büt qayıranmıyıq, büt qıranmıyıq (2). Allaha yalvarışlarında da şair dünya və insan haqqındakı düşüncələrindən ayrıla bilmir. Dövründən, bü dövrün mətləblərindən danışan zaman alov püskürür.

İlahi, dar gündə sən ol həmdəmim,
İstədiyin yerə çatsın qədəmim,
Söylə nə vaxtadək bir tikə üçün
Şaha və gədaya yalvarım hər gün...
Vəfasız yaranmış bütün qapılar,
Bir sənin qapında vəfa tapılar (2).

Bu sətirlərdə də işlədilən fars-ərəb mənşəli sözlər-həmdəm, qədəm, vəfa... əsərə bədiilik, dolğunluq gətirmiş və dərin məna ifadə etmişdir. Bu sətirlər təkcə Allaha məhəbbətin ifadəsi deyil, həmçinin də şairin dövrü, onu əhatə edən mühit, insanlar haqqında narazılıq dolu narahat düşüncələridir.. Məcnunu, Leylini, onları əhatə edən adamları da bədbəxt edən, kədər və göz yaşları ilə üzləşdirən məhz həmin mühit və insanlardır. Həyat elə qurulmuşdur ki, insanların içi dərdlə, kədərlə doludur. Burda isə həm də bir ixtiyarsızlıq vardır. Məcnunun atasına verdiyi cavablardan aşağıdakı misralara diqqət edək:

Daşları əridər çəkdiyim kədər,
Kim öz ürəyinə sıxıntı istər?!.
Məni pis taleyim təqib edir, bil,
Heç kəs bədbəxtlikdən qurtaran deyil (2).

"Leyli və Məcnun" poemasında Nizami əsərdəki hadisələrlə bağlı iki müstəqil hekayə də vermişdir ki, bu hekayələr poemanın əsas ideyası ilə birbaşa bağlıdır. O dövr üçün fars-ərəb mənşəli sözlərin şeirlərdə işlədilməsi məqbul sayılsa da, bu sözlərin yerli-yerində işlədilməsi özü bir istedad tələb edirdi. Çünki belə sözlərin yerli-yerində işlədilməsi, misralarda məna zənginliyi, sözlərin qurluşu, qafiyələrin düzgün işlədilməsi hər bir sənətkara nəsib olmur, amma Səməd Vurğun istedadı bütün şeirə lazım olan, şeirə rəng qatan və onu zənginləşdirən ərəb və fars mənşəli sözlərdən, ifadələrdən, ibarələrdən məharətlə istifadə etmişdir. Məsələn: bədii qüvvətə malik səhnələrin təsvirini canlı, müəyyən əxlaqi nəticə ilə tamamlayır, şahları ədalətli, insaflı olmağa çağırır:

Şah heyran qaldı ki, bu nə hikmətdir,
Bildi ki, səadət insaniyyətdir.
Qəflət yuxusundan ayıldı birdən,
Əl çəkdi itlikdən, itpərəstlikdən (2).

Əsərin sonunda Nizami Şirvanşaha müraciət edərək onu ədalətli, insaflı olmağıa, fikrini ölkənin abadlığına verməyə, xalqın xoşbəxtliyini, dinc həyatını təmin etməyə çağırır: - Dünyanı abad et sən, ey hökmdar, - Adın bu dünyada qalsın yadigar ... (2). Tərcümədə verilən hər kəlmədəki fars-ərəb mənşəli sözlər əsərə dərin mənalılıq, dəqiqlik, doğruluq və bədii adekvatlıq vermişdir.

Nizaminin ölməz dastanını böyük şairimiz Səməd Vurğun Azərbaycan dilinə tərcümə etmişdir. Bu tərcümənin ən gözəl xüsusiyyəti Səməd Vurğun yaradıcılığına xas olan yüksək bədiilik təbiilik və axıcılıqdır. Ən çətin və mürəkkəb hissləri belə şair olduqca səlis və yığcam bir şəkildə tərcümə etmiş, ana dilimizin zəngin xəzinəsindən mənalı sözlər seçib mirvari kimi yan-yana düzmüşdür, eyni zamanda fars-ərəb mənşəli sözlərdən istifadə edərək əsəri daha da orjinala uyğun tərzdə tərcümə edib bizlərə təqdim etmişdir. Buna görə də Nizami qəhramanlarının işıqlı fikirləri, parlaq ehtirasları Səməd Vurğun tərcüməsində gözəlliyini və alovunu saxlamış orjinalda olduğu kimi güclü çıxmışdır.Əsər oxunarkən tərcümə olduğu qətiyyən bilinmir, fars-ərəb mənşəli sözləri işlətləklə əsər daha da öz gözəlliyini, orjinallığını saxlamışdır. Bu isə ən böyük müvəfəqiyyətdir, çünki orjinaldan uzaqlaşmaq və təhriflər hesabına yox dəqiqlik, doğruluq və bədii adekvatlıq hesabına əldə edilmişdir. Orjinalın bütün məziyyətləri saxlanmış fikirlər dərinliyi və müdrikliyi ilə ifadə olunmuş obraz və təşbehlərin təravəti qorunmuşdur. Tərcümənin hər sətrində Səməd Vurğunun odlu şair nəfəsi hiss olunur, işlənən fars-ərəb mənşəli sözlər əsərin dilini də zənginləşdirmişdir. O, Nizami əsərini əsl şair ürəyinin ehtirası və coşğun ilhamının qüdrəti ilə dilimizdə canlandırmışdır.

Ədəbiyyat

1. Arif M. Azərbaycan xalqının ədəbiyyatı. Bakı, 1968.
2. Gəncəvi N. Xəmsə. Leyli və Məcnun Bakı: Yazıçı,1982.
3. Azərbaycan dilinin izahlı lüğəti. I cild. Bakı: Çıraq, 1997.
4. Azərbaycan dilinin izahlı lüğəti. II cild. Bakı: Çıraq, 1999.
5. Azərbaycan dilinin izahlı lüğəti. III cild. Bakı: Çıraq, 2000.
6. Dəmirçizadə Ə.M. Dilin lüğət tərkibi və qrammatik quruluşu. Bakı, 1965.
7. Cəfərov S.A. Müasir Azərbaycan dilində söz yaradıcılığı. Bakı: APİ, 1960.
8. Ərəb və fars sözləri lüğəti. Bakı, 1985.

Л.А.Микаилзаде

Этимология слов арабо-персидского происхождения, использованных в произведении Н.Гянджеви «Лейли и Меджнун»

Резюме

В статье говорится о произведении Н.Генджеви “Лейли и Меджнун”, об этимологии слов арабо-персидского происхождения, использованных в произведении, о заимствованных словах, которые сыграли основную роль в обогощении современного азербайджанского языка. В статье говорится о словах, перешедших в азербайджанский язык лексико-семантическим путем.

L.A.Mikhailzade

The Etymology of the Layers of the Arab-Persian Origin, Used in the Work of Nizami Ganjavi “Leyli and Majnun”

Summary

The article deals with the poem “Leyli and Majnun” by Nizami Ganjavi and the etymology of the words of Arabian-Persian origin in the poem and about the important role of borrowings in the enrichment of Modern Azerbaijani. The article also speaks about the words lexico-semantically brought into our language.

Rəyçi: dos. Ş.Ə.Əhmədova
Redaksiyaya daxil olub: 16.02.2017

M.O.MİRZƏLİYEVA
E-mail: merimira93@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

SÖZ MƏNASININ DƏYİŞMƏSİ YOLU İLƏ ALMAN DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİ

Açar sözlər: *metafora, metonimiya, söz mənasının dəyişməsi, ekstralinqvistik və intralinqvistik amillər*
Ключевые слова: *метафора, метонимия, изменение значения слов, экстралингвистические и интралингвистические факторы*
Key words: *metaphor, metonymy, the changing of word meaning, extralinquistic and intralinquistic factors*

Lüğət tərkibinin zənginliyi xalqın elmi və bədii təfəkkürünün güzgüsü, eləcə də həmin xalqın təfəkkürünün dərinliyi və genişliyindən irəli gələn amillərdəndir. Lüğət tərkibi daima və durmadan dəyişir, zənginləşir, milli mənbələr və dildaxili qayda-qanunlar hesabına tənzimlənərək daha anlaşıqlı, ifadəli və dərkedilən olur.

Alman dilinin lüğət tərkibinin zənginləşməsində ən mühüm yeri söz yaradıcılığı (yeni sözlərin yaradılması), başqa dillərdən alınma sözlər, söz mənasının dəyişməsi (dildə mövcud olan söz mənalarının dəyişməsi) və frazeoloji birləşmələrin yaranması təşkil edir. Dilin lüğət tərkibinin zənginləşməsinin yuxarıda sadalanan yolları təkcə alman dili üçün deyil, həmçinin german dilləri və bütün hind-Avropa dilləri üçün xarakterikdir. Lüğət tərkibinin zənginləşməsinin bu kimi yolları alman dilinin müxtəlif inkişaf mərhələlərində heç də həmişə eyni dərəcədə əhəmiyyətli olmamışdır. Təbii ki, söz yaradıcılığı alman dilinin lüğət tərkibinin zənginləşməsində böyük rol oynayır, bununla belə, söz mənasının dəyişməsi və alınma sözlər də alman dilinin ayrı-ayrı inkişaf pillələrində öz güclü potensialını göstərməkdədir.

S.Abdullayev qeyd edir ki, ümumən məcazlara, o cümlədən də metaforaya sadəcə olaraq bir dil-üslub vasitəsi kimi yanaşmaq özünü doğrultmur. Təbii ki, insan dərketmə prosesində real predmet və hadisələrin özləri ilə deyil, onları adlandıran, təmsil edən dil işarələri ilə düşünür və mühakimə yürüdür. Onun fikrincə, prosesi ən sadə şəkildə belə təsvir etmək olar ki, dil işarələri ya predmet və hadisələrin oxşarlığı əsasında bir-birinin üzərinə köçürülür, dəyişdirilir, ya da real məntiqi əlaqələr əsasında birləşir (2, s.505-506).

H.Kronasser söz mənasının dəyişməsinin 10 müxtəlif baxımdan gözdən keçirilmə imkanlarını qeyd edir. Bununla belə, o, söz mənasının dəyişməsinin bütün növlərini özündə ehtiva edən qaneedici bir sistemin hələlik mövcud olmadığını bildirir. O, söz mənasının dəyişməsinin məntiqi və psixoloji bölgüsündən bəhs edərək, metaforik olaraq *Schlange* sözünün alman dilində "gözləyən insanların uzun növbəsi" kimi, o cümlədən də həmin sözün məna həcminin genişlənərək onun yeni sememlərinin və yaxud leksik-semantik variantlarının, bir sözlə, metaforik köçürmələrinin yaranmasına gətirib çıxardığını qeyd edir (4, s.192). Göründüyü kimi, *Schlange* lekseminin semantik strukturunda adköçürməyə məxsus olan leksik-semantik variantlar mövcuddur. Assosiasiya qanunlarına əsasən ilanın burulan bədəni – *Feldschlange* (kiçik kalibrli uzun lülə (boru) - sərrastlığı daha dəqiqləşdirən), *Heizkörper* (isti su xətti anlamında), *Papierschlange* (*Luftschlange* – hava xətti) kimi sözlərdə metaforik köçürmələrə malikdir.

Metafora dünyanı fərqli çalarlarda təqdim edir, qavrayışa gedən yolu izafi, artıq detallardan təmizləyərək dərketməni intensivləşdirir, maksimal ümumiləşdirmə, bütövləşdirmə sayəsində bir anda yaddaşda olanları silərək predmeti, referensiyanı sanki qabarıq zərrənin

altına gətirir. Metaforik qavrayış görüş bucağını, ölçüləri az qala istənilən miqyaslarda böyüdüb-kiçiltməyə, genişləndirib daraltmağa qadirdir (2, s.567).

Bütün hallarda adköçürmə ilkin və ikinci (ikincidərəcəli) siqnifikat arasındakı oxşarlıq əlaqələrinə əsaslanır. Metaforik adköçürmənin nəticəsi olaraq, sözün məcazi mənası leksemin semantik strukturunda ikinci dərəcəli mənası kimi deyil, bəzən onun əsas mənası kimi işlənə bilir. Metaforalar çoxfunksiyalı olur. Onlar adköçürmə funksiyasını da yerinə yetirir, eyni zamanda onların qiymətləndirmə, dəyərləndirmə (dəyərini təxmin etmə) və qiymətdən salma, aşağılayıcı, dəyərsizləşdirici, təhqiredici, ucuzlaşdırıcı funksiyaları vardır. Məs.: *Du falsche Schlange!* (ikiüzlü, riyakar), *heimtückische Schlange!* (hiyləgər, kinli, xain, qərəzli, məkrli) əfi ilan, eləcə də *eine schöne Schlange* (gözəl qız) mənasında *Schlange* sözünün yuxarıda deyilənləri özündə ehtiva etdiyi görünür.

Sözün semantik derivasiyası onun dildə mövcud olan leksemi ilə üslubi sinonimlik yarada bilir. Belə bir halda *Huhn* - təkcə quş növü kimi "toyuq", eləcə də *Hahn* - "xoruz", *Esel* - "uzunqulaq", *Hund* - "köpək, it" mənasında deyil, həm də şəxsə aid edilə bilir. Məs.: *Dieser Mensch ist ein dummes, verdrehtes, verrücktes Huhn; Lappen* - təkcə parça kimi "yumaq, silmək üçün istifadə edilən əski, silgi, bez" mənasında deyil, həm də "kağız pul"; *Waschlappen* - isə "qorxaq, enerjisiz, xaraktercə zəif, zərif, incə, kövrək adam" anlamında başa düşülür. Misallardan göründüyü kimi, sözün mənasının dəyişməsi leksemin semantik struktur daxilində yeni semem invariantlarının yaranmasına səbəb ola bilir. Bu isə ənənəvi semasiologiyanın ən mühüm tədqiqat obyekti kimi söz mənasının dəyişilməsinin ilkin amillərindən biri kimi xarakterizə oluna bilər. Söz mənasının dəyişməsi isə dilin ekstralinqvistik və intralinqvistik amilləri ilə bağlıdır. H.Kronasser söz mənasının dəyişməsinin ekstralinqvistik və intralinqvistik səbəblərini dilin ictimai inkişafının yeni məfhumlar yaradacaq hərtərəfli aspektləri ilə bağlı olduğunu, dildə sözlərin mənasının yaxşılaşması, pisləşməsi, sözün mənasının daralması və genişlənməsi ilə izah edir (4, s.192).

S.Abdullayev qeyd edir ki, əslində mahiyyət etibarilə metaforik olmayan heç bir söz yoxdur – sözlərin hər birində ibtidadan, başlanğıcdan bir məcazlıq var. Hər şey ilkin səs metaforalarından başlayır və mətn-konstruksiya metaforalarına doğru inkişaf edir (2, s.525).

Adlandırılan, dəyərləndirilən və ya xarakterizə olunan metaforalar leksik-semantik sistemə aiddir. Bu növ metaforalar hər bir dildə mövcuddur. Məs.*: Hase* – qorxaq, ürəksiz, cürətsiz, agciyər, ciyərsiz adam; *ein Fuchs* – hiyləgər, bic, kələkbaz, cüvəllahı, əməlbaz, çox bilmiş; *ein Pute* – iddialı, lovğa və s.

Metaforanın xüsusi bir növü sinesteziya adlanır. Məs.: *schreiende Farben, dunkle Töne, helle Stimme, harte Worte, ansteckendes Lächeln, süsse Liebe* və s. Sinesteziya hələ qədim dövrlərdə müxtəlif dillərdə məhsuldar olmuşdur. Ş.Ullman sinesteziyanı semantik dəyişmələrin semantik universalilərinə aid edir və buraya bütün metaforik köçürmələri də şamil edir (8, s.217).

L.Sütterlin alman dilində söz mənasının nadir hallarda dəyişdiyini qeyd edir (6, s.227). O.Behaghel isə söz mənasının dəyişməsinin növlərini təhlil edərək belə nəticəyə gəlir ki, sözlər ümümiyyətlə mənalarını tez-tez dəyişir; bu, onların cümlədə başqa sözlərlə sintaktik əlaqəyə qoşulmasından irəli gəlir (7, s.219-220).

H.Sperber söz mənasının dəyişməsini predmet və məfhumların dəyişməsi ilə əlaqədar olaraq izah etməyə çalışır. Onun fikrincə, *Telephon* sözü öz mənasını predmetin dəyişməsi ilə dəyişmişdir. Belə ki, *Telephon* sözü ilkin olaraq bu günkü mənasından fərqli məfhum, texniki aparat mənasında işlənmişdir.

H.Sperber qeyd edir ki, mücərrəd məfhumlar da mənalarını dəyişə bilir. Məs.: *Religion* sözü qədim romalılara görə, "orta əsr rahibi, keşişi" mənasında deyil, Hötenin təbirincə desək, tam başqa anlamda işlənmişdir. Ona görə də o, söz mənasının dəyişməsində predmetin tarixini bilməyə daha çox önəm verir (5, s.28-31). Onun fikrincə, məfhumun mənası o zaman

dəyişməz qalır ki, o, güclü emosionallıq, şiddətli həyəcan, affekt vurğusuna malik olsun. O, söz mənasının dəyişməsinin əsas səbəbi kimi fiziki hadisələri, onların müxtəlif hissi qaynaqlarını göstərir. H.Sperber qeyd edir ki, danışan şəxs üçün söz təkcə onunla digər individium (fərd) arasında anlaşıq vasitəsi deyil, həm də ən azı emosiya və həyəcanın ifadə vasitəsi rolunu oynamalıdır, çünki dil fasiləsiz olaraq dəyişir və daima inkişafdadır (5, s.37).

Söz mənasının dəyişməsi yolu ilə bir söz bir neçə mənada işlənə bilər. Alman dilində söz mənasının dəyişməsinin aşağıdakı növləri vardır:

1. Metaforik və metonomik adköçürmələri (Metapher und Metonymie);
2. Sözün mənasının genişlənməsi və daralması (Bedeutungserweiterung und -verengung des Wortes);
3. Sözün mənasının yaxşılaşması və pisləşməsi (Wertsteigerung und Wertminderung der Bedeutung);
4. Sözün mənasının şişirdilməsi və kiçildilməsi (Hyperbel und Litotes);
5. Sözün mənasının evfemistik dəyişmələri (Euphemismus).

Söz mənasının dəyişməsi təkcə ayrı-ayrı sözlərdə deyil, həmçinin söz birləşmələri və cümlələrdə də olur. Məs.: *Martha sagte in die* ***Muschel:*** *"Ja, ich bins" (A.Scharrer).*

Burada *Muschel* sözü "telefon dəstəyi" mənasında işlənir və ilbiz gövdəsinə bənzər əşyavi oxşarlıq təşkil etdiyinə görə metaforik olaraq köçürülmədir. Məs.: *Kommen Sie heute abend mal mit, ich lade Sie ein, aber geben Sie mir* **keinen Korb!**" (R.Braune).

Bu cümlədə də *einen Korb geben* söz birləşməsi metaforik olaraq işlənmişdir.

Aşağıdakı bütün cümlə isə metaforik işlənmişdir:

Die gebratenen Tauben fliegen niemand in den Mund.

Pisani "Metaforanı" dildə mövcud olan söz formasının hər hansı dəyişməsi kimi xarakterizə edir və onları poetik (üslubi) və leksik metaforaya ayırd edir (9, s.143). Poetik metaforalar leksik metaforalarla müqayisədə daha ifadəli və dərin təsirli məna çalarları əks etdirir.

Und geheimnißvoll über dem kühnen Schwimmer
Schliesst sich ***der Rachen*** *(Fr. Schiller).*

Burada *Rachen* sözü kontekst daxilində "suyun girdabı" mənasında işlənir və müəllif tərəfindən üslubi bir taktika kimi qiymətləndirilir. Şair bunu balladada "suyun girdabı" kimi *Wasserwirbel – der schwarze Maul* deyə adlandırır. Eyni zamanda, aşağıdakı cümlədə *der schwarze Mund* söz birləşməsini yazıçı metaforik olaraq işlədir və bununla üslubi bir rəngarənglik yaratmış olur.

Verschlungen hat ihn ***der schwarze Mund*** *(Fr. Schiller).*

H.Vaynrix *"Semantik der Metapher"* əsərində cəsarətli metaforanı "adi metaforadan başlamış poetik rəmzlərə" qədərki geniş bir müstəvidə təhlil edir və belə bir maraqlı nümunə göstərir: *Schwarze Milch der Frühe. Wir trinken sie abends/wir trinken sie mittags und morgens/wir trinken sie nachts wir trinken und trinken. Schwarze Milch* (qara süd) metaforası simvolik şəkildə faşizmin vəhşiliklərinə, aramsız, dözülməz işgəncələrə məruz qalan yəhudi xalqının acı taleyinə işarə edir. Verilən misaldan göründüyü kimi, yaxın və uzaq metaforalar predmetlərin fiziki yaxınlığı və uzaqlığı, məsafə-oxşarlıq hədləri kimi qavranılır (2, s.535).

Alman dilində *Flügel* sözünün poetik metafora kimi heç bir predmet və ya heç bir yeni məna kəsb etmədiyi və dilin lüğət tərkibini zənginləşdirmədiyini aşağıdakı misalda daha aydın müşahidə etmək olar. Sözün bu tərzdə işləm məharəti yalnız onun ifadə texnikasını gözəlləşdirir. Metaforaları həm konkret, həm də mücərrəd anlayışlarda çoxmənalılığın əlamət üzrə keçməsi kimi də dərk etmək olar. Məs.:

Auf den ***Flügeln*** *der Einbildungskraft (J.W.Goethe).*

Auf ***Flügeln*** *des Gesanges (H.Heine).*

V.Şnayder metaforanı "fantaziyanın oyunu" (*das Spiel der Phantasie*) adlandırır (2, s.504).

İnkişaf prosesində sözün semantik həcmi genişlənə və darala bilir. Bununla əlaqədar olaraq, sözün semantik həcminin genişlənməsi və daralmasının iki növü ayırd edilir. Genetik baxımdan "*können*" feli ilə bağlı olan *Kunst* ismi tarixən həmin feldən əmələ gəlmişdir və demək olar ki, onun bütün məna çalarlarını saxlayır. O cümlədən *Gast* ismi ilk öncə "yad, kənar şəxs" mənasında işləndiyi halda, bu gün "dəvət olunmuş qonaq" anlamında işlənir və sözün ilkin məna çalarları *Gasthaus, Fahrgast, Kurgast* kimi sözlərdə hələ də qalmaqdadır. Sözün semantik mənasının genişlənməsi onun semantik məna həcminin xüsusidən ümumiyə, konkretdən mücərrədliyə dogru inkişaf prosesinin nəticəsi kimi qəbul edilməlidir. Sözün mənasının genişlənməsi onun işlənmə sahəsinin daha da artmasına səbəb olur. Məs.: *Öl* ismi ilkin başlanğıcda – *Olivenöl*, bu gün isə müxtəlif yağ növlərini bildirir. O cümlədən də bayram günləri mənasında işlənən *Ferien* isminin mənası genişlənərək "*Schulferien", "Ferien in der Hochschule", "den Urlaub*" mənalarında da işlənir.

Sözün semantik mənasının genişlənməsi üçün daha tipik cəhətlərdən biri sadəcə bir sözün bir əşya və predmeti ifadə etməsi və yalnız işlənmə sahəsinin semantik həcmini genişləndirməsidir.

Bəzi dilçilər sözün mənasının genişlənməsi və daralmasını metaforik və metonomik adköçürmələrlə bağlı qeyd edirlər. Sözün mənasının genişlənməsi və daralması dilin lüğət tərkibini keyfiyyətcə zənginləşdirir, çünki söz mənasının dəyişməsinin bu növü yeni söz yaratmır, əksinə dildə mövcud olan sözlərin semantik həcminin genişlənməsinə səbəb olur.

Metaforaya birmənalı şəkildə, bir dil-işarə avtomatizmi ilə "bəzək-düzək vasitəsi" (Schmuckmittel) və ya fikrin tamamilə əksinə olaraq "faktın çatışmamasının doğurduğu qüsur" kimi baxanlar var (1, s.49).

Sözün mənasının genişlənməsi və daralması alman dilinin lüğət tərkibinin bəzən kəmiyyətcə də zənginləşməsinə səbəb ola bilir, çünki həmin sözlər dildə yeni sözlərin və söz birləşmələrinin yaranması üçün bazis rolunu oynayır. Məs.: *fertig* sözündən - *verfertigen* feli, *Fertigkeit* ismi və *mit etwas fertig werden* kimi söz birləşməsi, o cümlədən də, *Ehe* ismindən bir sıra düzəltmə və mürəkkəb sözlər və söz birləşmələri yaranmış və bu gün daha çox işləkdir: Məs.: *ehelich, ehelichen. Ehekontakt, Ehefrau, Ehemann, eine Ehe schliessen* və s.

Misallardan göründüyü kimi, sözün semantik həcminin genişlənməsi və daralması alman dilinin lüğət tərkibinin keyfiyyət və bəzən də kəmiyyətcə zənginləşməsinin məhsuldar vasitələrindən biri hesab oluna bilər.

Frazeoloji birləşmələrin məcazi mənada işlədilməsindən yaranan perifrazlar əsasən ironik məna çalarlarına malik olur. Metonimiya az sözlə çox fikir ifadə etmək kimi səciyyəvi xüsusiyyətə malikdir. Metonimiyada sözün ilkin mənası deyil, digər məna variantları diqqəti daha çox cəlb edir. Metonimiyada metaforadan fərqli olaraq bənzətmə deyil, müqayisə üstünlük təşkil edir. Metonimiyada əşyanın müəyyən əlaməti obyektə, qoşulduğu sözə köçürülür. Poetik metonimiya dilin lüğət tərkibini zənginləşdirmir, o, dilə, fikrə emosionallıq və ekspressivlik gətirir. Məs.:

Schwarze Röcke, seidne Strümpfe,
Weiße, höfliche Manschetten (H.Heine).

Həqiqətdə poetik metonimiya üslubiyyata məxsus bir sahədir. Leksik metonimiya isə bunun əksinə olaraq, dildə mövcud olan sözlərin yeni məna variantlarının yaranmasına səbəb olur. Məs.:

Die Braunen fanden nichts (J.Petersen).

Alman dilinin konkret dil materialına nəzər yetirdikdə, leksik metonimlərin və xüsusən də sinekdoxanın geniş şəkildə işləndiyi özünü büruzə verir. Məs.: *er ist kluger Mensch* əvəzinə *er ist kluger Kopf; ein paar Menschen* əvəzinə die *gestrige Gesellschaft; eine Gruppe Menschen* əvəzinə *die ganze Welt; alle Zuhörer* əvəzinə *das ganze Auditorium* və s.

Misallardan göründüyü kimi, leksik metonimlər də metaforalar kimi dilin lüğət tərkibini həm keyfiyyətcə (sözün yeni məna variantlarının yaranması), həm də kəmiyyətcə

zənginləşdirir. Leksik metonimlər dilin kəmiyyətcə zənginləşməsinə xidmət edir, çünki bir sıra metonimlər dildə omonim kimi işlənir. Məsələn, biz gündəlik həyatda *Raum, Zuhörer* sözləri əvəzinə *Auditorium*; *Gebäude* və *Bewohner* əvəzinə *Haus*; *Getränk* əvəzinə *Glas* və s. kimi sözlərdən istifadə edirik.

Alman dilinin lüğət tərkibinin zənginləşməsində evfemizm söz və ifadələrin, obrazların təsir gücünü artıran təsvir vasitələri kimi ədəbi mətnlərdə daha çox işlədilir. Evfemizm söylənilən fikrin təsir gücünü bilərəkdən, məqsədyönlü olaraq yumşaltmağa, bir qədər azaltmağa xidmət edir. Müəllif öz fikrini ədəbi şəkildə ifadə etməkdə evfemizmdən, onun müxtəlif üslub çalarlarından məharətlə istifadə edir və bununla da həqiqətdə olanları birbaşa deyil, dolayı yollarla, başqa sözlərlə təsvir etməyə çalışır.

Dilçilik ədəbiyyatında evfemizmlərin dini, sosial-mənəvi, siyasi və ictimai-estetik növləri ayırd edilir. Dini evfemizmlər adından göründüyü kimi, din, insan həyatı, xəstəliklər və ölümlə bağlı fikir, düşüncə və təsəvvür tərzini əks etdirir. Məs.: Alman dilində *sterben* felini əvəz edəcək aşağıdakı söz və ifadələrin evfemistik işlənmələrinə diqqət yetirsək, onların dildə geniş şəkildə işləndiyini və müxtəlif yollarla yarandığını görərik: *einschlummern, entschlummern, hinübergehen, heimgehen, verscheiden, hinuntergehen, ausleiden, erblassen, erbleichen;* həmçinin *zur ewigenRuhe gehen, dem Gebote der Natur folgen, für immer einschlafen, die Augen schließen, den Geist aufgeben, in die Wohnung des Friedens kommen, nicht mehr unter den Lebenden sein, den letzten Atemzug tun, seine Stunde ist gekommen.* Evfemizmlərin dildə yaranmasının ən mühüm yollarından biri metaforik və metonimik adköçürmələrlə bağlıdır. Məs.: *wahnsinnig sein (*dəli*)* əvəzinə *verrückt, eine Schraube los haben (*vintini itirmək*); Gott* (Allah) əvəzinə *himmlischer Richter (*səmaların hakimi*)*; *Gott* (Allah) əvəzinə *Alwissende, der der Allmächtige (*hər şeyi bilən, hər şeyə qadir, qüdrət sahibi), *Teufel* (şeytan) əvəzinə *der Böse* (şər); dildə litota, alınma sözlər, söz yaradıcılığı, jarqonizmlər, ellipslər də evfemizmlərin yaranma vasitəsi kimi işlənə bilir – *krank* (xəstə) əvəzinə *unpässlich, nicht wohl* (kefsiz, əzgin olmaq)*; betrunken sein* (içkili olmaq) əvəzinə *ein bisschen lustig sein, angeheitert sein* (kefli, içkili olmaq)*; Lüge* (yalan) əvəzinə *Historie, Anekdote* (kiçik hekayə, nağıl), *dumm* (axmaq) əvəzinə *naiv* (sadə, sadəlövh, avam)*; Hosen* (şalvar) əvəzinə *Beinkleider; stehlen* (oğurluq etmək) əvəzinə *klauen, stibitzen, mausen* (yığmaq, çırpışdırmaq)*; sterben* (ölmək) əvəzinə *ins Gras beissen (təlef olmaq); Karten spielen* (kart oynamaq) əvəzinə *spielen* (oynamaq) və s.

Ümumiyyətlə, dildə evfemizmlərin yaranması danışan şəxsin fəaliyyət sferası, cəmiyyətdəki mövqeyi ilə sıx bağlıdır. Məs.: *sterben* feilinin müxtəlif sahə (peşə) qrupları tərəfindən fərqli tərzdə ifadə edildiyini aşağıdakı misallarda aydın şəkildə görmək olar. Matroslar - *läuft in den Hafen ein* (limana girmək, limana daxil olmaq); səyyahlar - *fährt in die Grube* (mədənə, şaxtaya getmək), məmur - *wird in eine andere Welt versetzt* (başqa bir dünyaya göndərmək), alimlər – *gibt den Geist auf* (ruhunu, canını vermək, ölmək). Evfemizmlərin yaranması söz yaradıcılığı üçün güclü təhrik, həvəsləndirmə və maraq doğuracaq bir meyldir. Dildə bəzən məfhumu ifadə etmək və ya onun sərt, kəskin mənasını örtmək, gizlətmək, yumşaltmaq arzusu ilə yeni sözlər, söz birləşmələrindən istifadə etmək ehtiyacı, zərurəti yaranır. Bu yolla dilə müxtəlif cür mənaca eyniyyət təşkil edən sözlər daxil olur. O.Behaghel *sich betrinken* (içib keflənmək) feilinin üslubi baxımdan müxtəlif məna rəngarəngliklərini özündə saxlayan yüzlərlə variantının olduğunu qeyd edir (7, s.116).

Evfemizmlər dildə mövcud olan sözlərin yeni mənalarının yaranmasına, semantik məna çalarlarının, əsasən də sinonimlərinin törəməsinə səbəb olur. Bu nöqteyi-nəzərdən evfemizmlər semantik-sözdüzəldici kateqoriya kimi alman dilinin lüğət tərkibini həm keyfiyyətcə, həm də kəmiyyətcə zənginləşdirir.

Dilin lüğət tərkibinin zənginləşməsində hiperbola əşya və hadisələrin, o cümlədən də prosesin gedişi və inkişafının şişirdilmiş təsviri kimi xarakterizə olunur, bu isə real gerçəklik-

dəki faktların (yəni həqiqətdə olan şeylərin) təsviri kimi qəbul edilir. Məs.: *Es regnet in Strömen,tausend Grüsse und Küsse, tausend Dank* və s.

Məşhur alman dilçi və publisisti V.Şnayderin *"Die Hyperbel ist in die Sprache eingebaut"* ("Mübaliğə dilin ruhundadır") fikrində böyük həqiqət vardır (2, s.496).

Hiperbola dilə emosional, ekspressiv rəngarənglik verməklə fikir və hislərimizin müxtəlif incə çalarlarını bədii təsvir (ifadə) vasitəsi kimi təqdim edir. Məs.:

Vierzehn Tage! Welche Ewigkeit! (J.W.Goethe)

Kein einzelner Gedanke, ein Sturm von Gedanken flog durch den Kopf des Mannes (A.Seghers).

Hiperbola emosiya, həyəcan ifadə etməklə dilin lüğət tərkibinin zənginləşməsinə xidmət edir. Şübhəsiz ki, bəzi hiperbolaların tez-tez işlənməsi onların dilin lüğət tərkibində möhkəmlənib qala bilməsinə, adi söz və ifadə kimi işlənməsinə əsas yaradır. Bununla da onlar dildə artıq mövcud olan söz və ifadələrlə bərabər işlənməklə adi ifadələrə çevrilir.

Litota hiperbola ilə müqayisədə dildə çox da geniş şəkildə işlədilmir. Litota da dildə emosional rəngarənglik yaradır, fikir və hislərimizin incə nüanslarının parlaq ifadə vasitəsi kimi işlədilir. Bununla bərabər onlar dildə bir nitq hissəsindən digər nitq hissəsinin yaranmasına da səbəb olur. Məs.:

Eine Handvoll, ein paar və s.

Ümumiyyətlə, nə hiperbola, nə də litota dilin lüğət tərkibinin zənginləşməsində mühüm rola malik deyildir, onlar yalnız dildə sözlərin semantik məna çalarlarının verilməsinin real göstəriciləridir.

Nəticə etibarı ilə qeyd etmək olar ki, dildə sözlərin mənasının dəyişməsi, sözə yanaşma mövqeləri, mənalandırma məqamları, onu qiymətləndirmə yolları birbaşa xalqın ictimai şüurunun inkişafı ümumi intellektual inkişaf səviyyəsi ilə sıx bağlıdır. Tarixi inkişaf nəticəsində insanın sosial həyatında, məişətində, dünyagörüşündə dəyişikliklər, yeni-yeni anlayışlar meydana gəldikcə, bəzi anlayışların köhnələrək dildən çıxması, bəzi anlayışların mənasının genişlənməsi, daralması, yaxşılaşması və pisləşməsi kimi faktorlar üzə çıxır ki, onlar da eyni ekspressiv ifadə zonasında müxtəlif idiomatik ifadələrdən istifadə etməklə fikrin daha da gözəlləşdirilməsinə xidmət edir. Bu kimi amillər söz mənasının dəyişməsi yolu ilə dilin lüğət tərkibinin keyfiyyət və kəmiyyətcə zənginləşməsinə səbəb olur.

Ədəbiyyat

1. A.Məmmədov, M.Məmmədov. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı, 2010.
2. S.Abdullayev. Qeyri-səlis dilçilik təcrübəsi. Bakı, 2013.
3. Ahmad Omid Yazdani. Deutsch-Aserbaidschan-Türkisches Wörterbuch, Berlin, 2012.
4. H.Kronasser. Handbuch der Semasiologie. 2. Auflage, Heidelberg, 1968.
5. H.Sperber. Einführung in die Bedeutungslehre, Bonn u. Leipzig, 1923.
6. O.Weise. Unsere Muttersprache, Ihr Werden und Ihr Wesen, Leipzig-Berlin, 1907.
7. O.Behaghel. Von deutscher Sprache.
8. St.Ullmann. Semantic universals. In: Greenberg J.Universals of Language. London, 1963, S.217 ff.
9. В.Пизани. Этимология. Изд. Иностр. лит., М., 1956.

М.О.Мирзалиева

Обогащение словарного состава немецкого языка путем изменения значения слова

Резюме

В данной статье затрагиваются вопросы обогащения словарного состава немецкого языка, улучшения и ухудшения, расширения и сужения значений слов путём изменения их

значения. В статье повествуется и о важной роли метафоры, метонимии, синекдохи, гиперболы, литоты и эвфемизмов в создании многообразия стилистики языка, а также качественного и количественного обогащения словарного состава.

M.O.Mirzaliyeva

The Enriching of German Vocabulary
by Means of Changing of Word Meaning

Summary

In this article we are talking about the enriching ways of German vocabulary by the changing of word meaning, improvement and deterioration, contraction and expansion factors in this language. Metaphor, metonymy, synechdoche, hyperbolic, litota and euphemisms not only make language colorful, but also plays an important role in the enrichment of the quality and quantity of the vocabulary.

Rəyçi: filol.f.d., dos. E.Q.Yusifov

Redaksiyaya daxil olub: 06.02.2017

V.Ə.MURSALOVA
E-mail: vafa_mursalova@yahoo.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

BƏDİİ ƏSƏRİN TƏRCÜMƏ HƏLLİ

Açar sözlər: *bədii tərcümə, məzmun, üslub, ekvivalentlik, metafora.*
Ключевые слова*: художественный перевод, содержание, стиль, эквивалентность, метафора.*
Key words*: literary translation, content, style, equivalence, metaphor.*

Bədii tərcümənin başlıca vəzifəsi müxtəlif xalqları bir-birinin mədəniyyəti ilə tanış etməkdən, onların yaxınlaşmasına, bədii-estetik sərvətlərinin daha da zənginləşdirməsinə xidmət etməkdən ibarətdir. Ədəbiyyat incəsənətin yeganə növüdür ki, tərcüməsiz başqa dil-etnik mühitdə dəyərsiz, anlaşılmaz bir şeydir. Lakin tərcümə adlanan bu nəcib iş elə yerinə yetirilməlidir ki, orijinalın özünəməxsusluğu maksimum səviyyədə tərcümə dilinin daşıyıcılarına çatdırılsın. Oxucu onu doğma dilində yaranmış əsər kimi sonuna qədər qavraya bilsin. Bunun üçün orijinal müəllifinin yaradıcılığının, tərcümə üçün seçilmiş əsərin bütün məziyyətlərini saxlamaq gərəkdir.

Bədii ədəbiyyat incəsənətin yeganə növüdür ki, orada "təsvir vasitəsi kimi yalnız dil çıxış edir". Məhz bu səbəbdən də bədii yaradıcılığın bu növündən olan ən qüdrətli əsər belə tərcümə edilmədən qeyri-etnik dil mühitində dəyərsiz bir şeydir. (2, s.31)

Bədii tərcümənin başlıca vəzifəsi orijinalın məzmunu və üslubunu ikinci dildə maksimum qorumaqdan ibarətdir. Burada tərcüməçi, bir tərəfdən, orijinalın məxsus olduğu milli dilin spesifikası ilə, digər tərəfdən isə fərdi müəllif üslubu ilə üzləşir. Tərcümə dilinin oxucuları orijinal müəllifi haqqıda, onun əsərinin estetik dəyəri barədə təsəvvürləri yalnız tərcümə mətni əsasında yaranır.

Bədii tərcümə ədəbi həyatımızın ən mühüm hadisələrindən biridir. Tərcümə ədəbiyyatı hər bir xalqın həyatına, onun mədəni inkişafına qüvvətli təsir göstərir. Bədii tərcümənin Azərbaycan ədəbiyyatının ümumi inkişafında özünəməxsus mühüm rol oynamısı danılmazdır. Müasir tərcüməşünaslıqda bədii tərcümə zamanı milli-mədəni özünəməxsusluğun qorunması ilə yanaşı kompleks şəkildə orijinal mətnin obrazlılığının qorunması problemi çox vacib məsələlərdəndir. Əsərin obrazlılığı dedikdə, yazıçının əsərdə istifadə etdiyi bədii ifadə vasitələri, məcazlar nəzərdə tutulur. Tərcümədə həmin ifadə vasitələrinin ekvivalentliyinə nail olmaq tərcümənin uğurlu olmasında mühüm şərtdir. Bu ifadə vasitələrindən olan metaforadan söhbət gedəndə təbii ki, digər məcazlarda diqqətdən kənarda qalmayacaq. Belə ki, istər metafora, istər metonimiya, istərsə də digər məcazlar, köçürmələr bir-biri ilə bağlıdır və onlar ümumilikdə əsərin bədii təsirinin, estetik tutumunun artırılmasına xidmət edirlər. Başlıca vəzifə həmin faktorların tərcümə zamanı hansı səviyyədə verilməsini müəyyənləşdirməkdir.

Maksim Qorkinin dediyi kimi, ədəbiyyatın ilk ünsürü – dil praktik real şüurdur, təfəkkürün ifadə vasitəsidir, bədii yaradıcılıqda zəruri alətdir. Bədii əsərlər bu zəruri və əvəzolunmaz alətlə, dil materialı ilə yaradılır. Yazıçı əsər yazanda dildən, dilin fonetik, leksik, frazeoloji vahidlərindən, qrammatik xüsusiyyətlərindən istifadə edir. Əsas və köməkçi, müstəqil və qeyri-müstəqil sözləri, məcazlar sistemini və lüğət tərkibinin leksik-üslubi layların fikir və düşüncənin ifadəsinə istiqamətləndirir. Lakin bunula belə hər dilin öz ifadə spesifikası var.

Dilin – insanın canlı ünsiyyət və əlaqə vasitəsinin tarixi təfəkkürün tarixi qədər qədimdir. İnsanlar bir-biri ilə dil vasitəsi ilə əlaqə saxlayır, dillə arzularını, hiss və duyğularını açırlar. Dil milli spesifik səciyyə daşıyır, varlığını bu və ya digər xalqın dili kimi saxlayır.

Canlı xalq dili öz kökü, öz ənənəsi üstündə şaxələnir, "yüz illər ərzində təşəkkül tapır. Onun çoxlu çalarları vardır. İfadələri, şəkilləri zəngindir. Millət nə qədər mədəni olsa, onun tarixi nə qədər parlaq olsa, həyatı nə qədər dolğun olsa, dil də bir o qədər zəngin olar. Bu dil insan hisslərini və fikirlərini daha yaxşı verə bilər". Sirr deyildir ki, mədəniyyətin bir qolu – roman təşəkkülünün ilk illərindən incəsənətin bütün sahələrinə təsir göstərmiş, müstəqil bədii danışıq tipi – "poetik nitq və nəsr təhkiyəsi" yaranmışdır. Nitqin hər iki tipi ifadə vasitələrini estetik amala uyğun dilin bütün qatlarından götürür. Poetik nitq predmeti lakonik, aydın və hiss-emosional ifadə edir: gözəlliyin, daxili qürur və fərəhin doğurduğu heyrəti, həyatın məntiqini, insanın düşüncə və mənəviyyatını metaforalarla – bədii fiqurlar bolluğu ilə mənalandırır, qiymət verir, mühakimə yürüdür. Hiss, duyğu, fikir, ümumən "həyatın bir parçası" gözəl, şairanə tərənnüm olunur. Çünki bədii əsərdə şərt, troplar sistemidir, poetik frazeologiya və leksika, müxtəlif ritmik üsullardır. Bunların toplusunun – birlik və əlaqəsinin obraz yaratmasıdır.

Tərcüməçi bilməlidir ki, təhkiyəni aparan şəxsin səsinin eşidilməsi, müəlliflə obrazın səsinin bir-birinə qovuşması, sözün təsviri imkanlarının genişliyi və çoxsahəliliyi nəsr dilinin səciyyəvi xüsusiyyətlərindəndir. Çünki bədii ədəbiyyatda söz təsvir vasitəsidir və təsvir edilən predmet sözlə ifadə olunur. Eyni zamanda, nəsrdə təsvirlə göstərmək, mənzərə yaratmaq sintezləşir, yazıçının və surətin dili fərdiləşəndə ikisəslilik, müstəqillik yaranır. Vasitəsiz nitq predmeti, hadisə və əhvalatı canlı və dəqiq ifadə edir. Ayrı-ayrı personajın nitqi fərdiləşəndə, fərdiləşmiş dil yarananda, surətlər silsiləsinin söhbət və mükalimələrini sənətkar söyləməsi müəyyən edəndə, obraz yazıçının səsini və "danışıq tərzini" daşıyanda əsərin məzmun-forması dinamikləşir, təsiri bədii bütövlük oyadır. (3, s.125).

Bədii dil tədricən, ümumxalq dili əsasında yaranır. Bu dil özünün leksik, onomastik və frazeoloji zənginliyini, qrammatik qanunlarını, ayrı-ayrı söz, ifadə və ibarələrini, bütövlükdə bədii-estetik qüdrətini, gözəllik, zəriflik, ifadəlik və sadələyini ümumxalq dilində alır. Canlı danışıq dili və ədəbi dil bədii dilə, bədii dil də bunlara təsir göstərir. Tərcümədə xalq dilinin layları, qol və şaxələri əlaqədə, vəhdətdə inkişaf tapır, rəngarəng məcazlar, obrazlı ifadələr hər iki xalqın sərvətinə çevrilir. Мать вздрогнула, услыхав стук двери: она знала, сейчас грянет буря» ("O bilirdi ki, bu saat tufan qopacaq", yaxud, "Cenni göyün yeddinci qatında idi") (4).

Xalq həyatının zənginliyi, təsərrüfatın, mədəniyyətin və adət-ənənənin inkişafı, ictimai-iqtisadi və siyasi əlaqələrin yönü, yeniliyin rəngarəngliyi dilə təsir göstərir. Dildə yeni sözlər, yeni ifadə tərzi yaranır, bəzən köhnə sözlər fəallaşır, yeni məna alır, bir sıra sözlər köhnəlir, işləkliyini itirir. Dilin zənginləşməsində yeni söz, ifadə və tərkiblərin yaranmasında, dil laylarının hərəkətə gətirilməsində "hissiyyata, marağa və fərdi əxlaqın şərtlərinə və gündəlik həyata" (D.Pisarev) yaxın olan ədəbiyyat əhəmiyyətli rol oynayır. Belə həyatı yaradanlar bilirlər ki, "ümumxalq dil dənizinin dalğaları sahilsiz və dibsiz olur" (İ.Turgenev). Onlar buradan, ümumxalq sərvətindən daha çox emosional-ekspressiv yüklü dil vahidlərini alır və belə sözlərdən düşüncə və hissiyat yeniliyi ilə istifadə edilər. Çünki "bədii söz yalnız bir və ya bir neçə insanın həyatının ən vacib, ən əsaslı dönüşlərini, sevinc və iztirablarını deyil, bir cəmiyyətin, bir xalqın və bir əsərin xarakter cizgilərini və ruhunu əks etdirməlidir. Ədəbi əsərdə sözlər arasındakı münasibət adi danışıqda olduğu kimi deyildir. Burada söz hesabın dörd əməliyyatından cəbri ifadələrə keçən rəqəmlər kimi yeni keyfiyyət və xassalər qazanır. Bədii dilin özünün loqarifması vardır və onu öyrənmək bütün ömrü boyu yazıçının vəzifəsidir" (Mirzə İbrahimov). "Bədii əsərdə nitq-həyat, fikir və hiss deməkdir. Yəni müəllif danışıq və nitq vasitəsilə qəhrəmanların bütün varlığını, onların fikir və düşüncələrini, ehtiras və meyllərini ifadə edir" (Məmməd Arif). (4, s.84).

İstər orijinalda və istərsə də tərcümədə dil vasitəçi materialdır. Fikir inkişafı və hərəkəti dilin inkişafını, zənginləşməsini, onun təzə rəng və çalar almasını şərtləndirir. Azərbaycan ədəbiyyatının yeni dövrü – Vaqif, Zakir və Axundovun "dildə islahat aparmalı" bədii fikrin inkişafında, varlığa geniş müdaxilədən, məzmun və forma axtarışının çoxistiqamətliliyindən ayrı

olmamışdırsa, Amerika ədəbiyyatı C.Kuper, C.London, Lonqofello, E.Po, T.Drayzer kimi sənətkarlara borcludur. Bədii tərcümə belə sənətkarların ümumbəşəri olmalarına xidmət edir.

Obrazların fərdiləşməsində, mühitin təbii və real görünməsində, mənəviyyat və psixologiyanın açılmasında şivə və dialektlər əhəmiyyətli rol oynayır. Buna görə də ehtiyac duyulanda, şərait tələb edəndə obrazların dilinə dialekt və şivə sözləri axıdılır, nitq fərdiləşir, onun şirinlik və oynaqlığı artır ki, bu da tərcümədə müəyyən çətinlkilər yaradır.

Canlı danışıq dili, eləcə də bədii dil daha çox qanunauyğun, öz kökü, öz daxili inkişafı əsasında zənginləşir. İctimai-siyasi həyat, elmi-texniki tərəqqi, mədəniyyətin və məişətin təzə inkişaf yönünə düşməsi, yeni söz, ifadə və tərkiblərin yaranma prosesini gücləndirir.

Söz bədii mətndə fikir və düşüncədir, hiss və həyəcandır, niyyətin, sosial münasibət və meylin mahiyyətini açan, varlığı özünəməxsusluğu ilə göstərə bilən vasitədir. Yazıçı xalq dilinin zənginliyindən – atalar sözlərindən, ibarə, məsəl və idiomatik ifadələrdən, təkmənalı leksik vahidlərdən istifadə edir, yaradıcılıq prosesində onun özü təsirli aforizmlər yaradır. Təhkiyədə surətin replika, haşiyə, mükalimə və söz-söhbətlərindən sözün funksiyası və forması dəyişir, yeni məna alır. Eyni söz müxtəlif funksional sahələrdə, müxtəlif territorial məhəlli və ictimai-mədəni şəraitdə, nəhayət, müxtəlif ekspressiv emosional məqamlarda işlənə bilir. “Ona görə də belə hallarda sözü mənaca differensiallaşıb bəzən tamamilə başqa-başqa şeyləri bildirməsi lüğətlərdə terminoloji, üslubi və s. qeydlər sistemi vasitəsilə izah olunur. Sözün məna quruluşundakı xüsusiləşmə, funksional dəbərdilmə və yerdəyişmə, metaforik və metanomik köçürmələ, üslubi çalarlıqlar çox vaxt elə həmin sözün işlənmə dairəsindən asılı olaraq irəli gəlir.

Ədəbiyyat

1. Тимофеев Л.И. Основы теории литературы. М.: Просвещение, 1971.
2. Поповиг Антон. Проблемы художественного перевода. М.: Высшая школа, 1983.
3. Мастерство перевода. М.: Советский писатель, 1965.
4. Ариф М. Избранные труды в двух томах. Т. II. Баку, 1987.
5. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı, 1994.
6. Русские писатели о литературном языке. М.: Советские писатель, 1984.
7. Драйзер Т. Дженни Герхард. Рассказы. М.: Правда, 1986.

В.А.Мурсалова

Проблемы перевода художественного текста

Резюме

В статье отмечаются задачи художественного перевода, его своеобразная важная роль в развитии азербайджанской литературы, а также затрагиваются вопросы использования образных средств. Достижение эквивалентности образных средств очень важное условие при переводе. И метафора, и метонимия, а также эпитеты очень связаны друг с другом и служат эстетическому восприятию художественного произведения. В статье указывается и на характерные особенности прозаического языка и на то, что широта и обхват возможностей описания языка является характерной особенностью прозаического языка.

V.A.Mursalova

Problems of Translation of a Literary Text

Summary

The duties of literary translation, its important role in the development of Azerbaijani literature, as well as means of expression used in literary works in the provision of any level are noted in the article. Because achieve equivalence of the same expression is an essential condition to the success of translation. Whether the metaphor or metonymy, as well as other metaphors and transfers related to

each other and in general they serve to increase the capacity of the literary works and aesthetic impact. Characteristic features of the language of the prose are noted in the article. Thus, the breadth and diversity of descriptive opportunities of the word are characteristic features of the language of the prose.

Rəyçi: dos. F.F.Kərimova

Redaksiyaya daxil olub: 07.12.2016

Z.M.QAFARLI

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MƏTNİN ƏSAS KATEQORİYALARI

Açar sözlər: *mətn, kateqoriya, koheziya, registlər*
Ключевые слова: *текст, категория, когезия, регистры*
Key words: *text, category, cohesion, registers*

Dilçilikdə mətn kimi, statusu çox gec və çətinliklə açılmış ikinci bir obyekt tapmaq çətindir. Hətta hələ də kifayət qədər dəqiq tərifini tapmamış söz və cümlə də qeyd olunan məsələdə mətnlə müqayisəyə girmir. Bununla belə, mətnin linqvistik obyekt olması artıq mübahisə doğurmur, fikir ayrılığına səbəb olmur. Mətnin linqvistik relevantlığı haqqında indi məsələ qaldırmağa ehtiyac olmasa da, mətnin statusunun təyini aktuallığını saxlamaqdadır.

"Mətn" termini çoxmənalıdır və dilçilik terminologiyasında, eləcə də mətn dilçiliyinə dair ədəbiyyatlarda onun izahında bu cəhət özünü aşkar şəkildə göstərir. Bir çox Avropa dillərində, həmçinin də rus, eləcə də Azərbaycan dilçiliyində «mətn» termin kimi izahlı lüğətlərə daxil edilmiş və ondan termin səviyyəsində istifadə edilir. "Mətn" terminindən dörd fərqli şəkildə istifadə edilməsi daha geniş yayılmışdır. Bu izaha görə «Mətn - 1) bitmiş və düzgün formalaşdırılmış əlaqəli ardıcıllıq; 2) müxtəlif mətnlər üçün müəyyən ümumi model; 3) kommunikasiya aktı iştirakçılarından birinə məxsus deyimlər ardıcıllığı; 4) formasına görə yazılı olan nitq nümunəsidir» (3, s.471). Belə təyinetmə ümumi mahiyyət daşıyır. Lakin bu şəkildə izah mətn dilçiliyinin əsasını qoymuş tədqiqatçıların işlərində mətnə yanaşmadan irəli gəlir. Mətnə konkret tərif verənlər və ya vermək istəyənlər də az deyildir. Mətn «müxtəlif leksik, məntiqi və qrammatik əlaqələrlə birləşmiş, müəyyən şəkildə təşkil olunmuş və istiqamətlənmiş informasiyanı ötürməyə xidmət göstərən cümlələrin düzülmüş çoxluğudur. Mətn struktur-semantik vəhdətdə mövcud olan mürəkkəb tamdır» (4, s.11). Bu baxımdan mətn bütov linqvistik obyektdir. İ.R.Qalperin mətnin əsas kateqoriyaları cərgəsində inteqrasiya və retrospeksiya ilə yanaşı informativliyi ayrıca qeyd etmişdir (2, s.15). İnformativlik mətnin tamlığı və bitkinliyindən asılıdır. Tamlıq və bitkinliyin əsas göstəricilərindən biri isə əlaqəlilikdir. Ayrılıqda götürülmüş hər bir söz informasiya daşıyır. Sözlərin yanaşı düzülməsi bu informasiyanın həcmini artırır. Lakin sözlər mətndə necə gəldi düzülmür. Bu isə söz sırasını onun cümlədə və beləliklə də mətndə oynadığı funksiyaları, söz sırasının mətndəki rolunun aşkara çıxarılmasını tələb edir. Ümumiyyətlə, burada mətnin kateqoriyaları anlayışını nəzərdən keçirmək və bundan sonra söz sırası və mətnlə bağlı digər anlayışlara keçmək daha məqsədə müvafiqdir. Çünki kateqoriya anlayışı özü mürəkkəb anlayışdır. Morfoloji kateqoriyalar və mətn kateqoriyaları bunlar fərqli şeylərdir. Mətn üçün kateqoriya anlayışını təyin etmək bəzi mübahisələr də doğurur. Doğrudanmı mətnin kateqoriyaları vardır? Təbii ki, məsələyə morfoloji kateqoriyalar müstəvisindən yanaşsaq, mübahisəli cəhətlər ortaya çıxır. Dilin sistem təbiəti mətnin də sistem təbiətini təsdiqləyir. Mətn, əslində dil vasitələri əsasında yaradılan linqvistik tamdır. Bu tamın təşkilediciləri bir-biri ilə müəyyən münasibətlərdə olur. Həmin münasibətlər mətn təşkilediciləri sisteminin hansı məsələsinə baxılmasından asılı olaraq dəyişir.

Mətn ümumi informasiyanı tamamlamaq xüsusiyyətinə malik olmalıdır. Əks təqdirdə verilmiş cümlələrdən həm əvvələ, həm də sona istiqamətlənmiş informasiya

natamamlığı mətni qapanmağa qoymur. «Mətnin quruluşunda özünü göstərən təkrarlıq hadisəsi struktur kompozisyon funksiya daşıyır. Bu özünü onda göstərir ki, təkrar komponentlə çərçivələndikləri zaman əlaqəli cümlələr toplusu bitkin sintaktik tama çevrilir. Mətn qapanır və onun tərkibini bitmiş hesab etmək olar» (1, s.208).

"Won't you sit down, Mr. Eden?" the girl was saying. "I have been looking forward to meeting you ever since Arthur told us. It was brave of you - "

He waved his hand deprecatingly and muttered that it was nothing at all, what he had done, and that any fellow would have done it. She noticed that the hand he waved was covered with fresh abrasions, in the process of healing, and a glance at the other loose-hanging hand showed it to be in the same condition. … (6, s.6).

«Martin İden» əsərinin birinci fəslindən götürülmüşdür. Bu parça əvvəl iki şəxsin daxil olduğu otağa üçüncü adam girir. Birinci şəxs onu ikinciyə təqdim edir və yalnız bundan sonra o, üçüncünü görür. Bu vaxta qədər isə otaqdakı kitablara baxır və bütün fikri kitablarda olur. Bu Martinin kitaba aludəçiliyini bildirən informasiyadır. Yeni informasiya isə qızın otağa girməsidir. Qız Martinə oturmaq təklif edir. Bu, kommunikativ akt prosesində baş verən hadisənin təsviridir və oxucu üçün xüsusi əhəmiyyət daşımır. Məlumdur ki, mətndəki informasiya dəyərli və dəyərsiz ola bilər. Yəni müəllif bəzən kommunikativ akt üçün dəyərli olmayan informasiyanı mətnə daxil edir. Belə halda informasiya müəyyən müddətdən sonra dəyərliliyini itirir. Müsahibinə oturmağı təklif etmək Rufun Martinə münasibətini, Rufun mədəni insan olmasının göstəricisi kimi çıxış edir. Lakin onun Martinlə çoxdan görüşmək arzusunda olması informasiyası yenidir və informasiyanın dərhal və sonradan dərinləşdirilməsi tələbini ortaya atır. Bu kontekstdə Ruf tərəfindən verilmiş üçüncü informasiya xətti «It was brave of you» - cümləsindən irəli gəlir. Qız hələlik oxucu üçün aydın olmayan bir xəbəri də verir. Martin hansısa mühüm bir işi görmüşdür.

İkinci abzasda informasiya Martinin görünüşü, onun geyimi, bədən quruluşu ilə bağlıdır. Bu məlumatlar əsərin lap əvvəlində verilmiş informasiyaların davamı səciyyəsini daşısa da, həmin informasiyalar mətndə iştirak edən üçün personacın –Rufun düşündükləridir. Mətn informasiya ötürmək vasitəsi olmaqla yanaşı, bir çox başqa məqsədlərə xidmət edir. Bədii əsərdə müəllif obrazı açır. Oxucuda bu obrazla bağlı müəyyən hisslər oyadır. Mətn boyu daxil edilən informasiyanın az olmayan bir hissəsi müəllifin bu məqsədinə xidmət edir. Rufun düşüncələri, onda Martinə qarşı müəyyən hiss oyadır. Əsərin sonrakı davamında bu düşüncələrin informativ yükü daha da çox hiss olunur.

Mətnin kommunikativliyi isə mətni yaradanla onu oxuyan və ya dinləyən arasındakı ünsiyyəti əhatə edir. Bu ünsiyyət bütün kommunikantların mütləq dialoq iştirakçısı olması tələbini ortaya atmır. *"Won't you sit down, Mr. Eden?"* the girl was saying. *"I have been looking forward to meeting you ever since Arthur told us. It was brave of you -"* kontekstindəki kursivlə verilmiş parça mətn daxilində kommunikasiyada olan şəxslərin kommunikativ aktlarıdır. Burada adresant Ruf, adresat isə Martindir. «The girl was saying» - müəllif nitqidir. Bu parça sözlərin kim tərəfindən deyilməsini aydınlaşdırmaq məqsədi daşıyır. Mətni formalaşdıran vasitə rolunu oynayır. Bu informasiyanın dəyərliliyi azdır və mətnin davamında onun mahiyyəti itir.

Mətnin kommunikativ praqmatik xüsusiyyətləri bu günə qədər tam işlənməmişdir. Elə buna görə də mətnin quruluş baxımından araşdırılması da natamamdır. Qeyd olunan cəhət mətnin kommunikativ hadisə olmasına diqqət verilməməsindən irəli gəlir. Mətn fraza və cümlələrdən təşkil olunur. Onda təqdim edilən və aktivləşən konsetlər, adətən, tamdır. Lakin mətnin tamlığı mətni yaradıb qavrayan kommunikantların münasibətindən də asılıdır. Kommunikasiya qapandıqda mətn itir. Mətn yalnız əlaqə və tamlıqla deyil, həm də intensionallıq, şəraitlə bağlılıq, başqa mətnlərlə əlaqə və informativliklə

səciyyələnir. Ona görə mətn də ünsiyyət vahidi hesab edilir. Mətn müxtəlif tipli ifadələrdən təşkil olunmuş kommunikativ vahiddir. Kommunikativlik mətnin bütün digər xassələrini birləşdirir.

Poststrukturalist paradiqmada mətnin mahiyyəti «danışan-mətn-qulaq asan» triadasında sonuncu elementdən asılıdır. Mətn şərh üçün deyil, şərh üçün əsas verən vasitədir. Bədii ədəbiyyatda bu triada da birinci və sonuncu mövqedə duranlar dəyişir. İstifadə etdiyimiz əsərlə izah etsək, onda deyə bilərik ki, danışan mövqeyində müəllif, Ruf, Martin, Artur və başqa personaclar durur. Həmin personajlar həm də dinləyən olurlar. Lakin onların sırasına oxucu auditoriyası da daxil olur. Oxucu da kommunikasiya aktının iştirakçısına çevrilir. Lakin oxucunun nitq aktı əsərdə olmur.

Kommunikativ nöqteyi-nəzərdən mətnin mahiyyəti yalnız dil əlamətləri ilə təyin oluna bilmir, mətn məqsədyönlü fəaliyyətin məhsuludur. Ona görə mətnin öyrənilməsinə kommunikativ aspektdən yanaşmaq vacibdir. Bu cür yanaşma, kommunikativ şərait mətnin əsas mənayaradıcı komponentidir.

Ədəbiyyat

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1998.
2. Гальперин И.Р. Текст как объект лингвистического исследования. М.: Наука, 1981.
3. Николаева Т.М. Краткий словарь терминов лингвистики текста //Новое в зарубежной лингвистике. М., 1978, 571 стр.
4. Тураева З.Я. Лингвистика текста. М.: Просвещение, 1986.
5. Jack London. Martin Eden. Publisher: Macmillan, 1909, 414 p.

З.М.Гафарлы

Основные категории текста

Резюме

В статье речь идет об основных категориях текста. Отмечается, что текст в действительности является лингвистическим целым, созданным на основе языковых средств. Составляющие этого целого находятся в определенных отношениях друг с другом. Эти отношения меняются в зависимости от рассматриваемого вопроса системы текстовых составляющих. Текст должен обладать особенностью завершенности общей информации. В противном случае, незавершенность информации, относящаяся как к началу, так и к концу заданных предложений, не позволяет тексту закончиться.

Z.M.Gafarlı

Main Categories of Text

Summary

The paper relates to main categories of text. It is noted that the text is in fact a linguistic whole formed by virtue of linguistic means. The component parts of such a whole are in certain relations with each other. Such relations vary depending on what issue of the system of text component parts is considered. The text must have a property of completion of general information. Otherwise the incompleteness of information related both to the beginning and the end of given sentences does not allow the text to be completed.

Rəyçi: dos. K.Cəfərova

Redaksiyaya daxil olub: 19.01.2017

Ş.Q.QOCAYEVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ EMFATİK NİTQİN FONETİK İFADƏ VASİTƏLƏRİNƏ DAİR

Açar sözlər: *emosional-modal münasibət, vurğu-ton işarələri*
Ключевые слова: *эмоционально-модальное отношение, знаки ударения и тонов*
Key words: *emotional-modal attitude, stress and tonic marks*

İnsanlar arasında ünsiyyət prosesinə xidmət edən dil leksik-qrammatik vasitələr ilə öz əksini canlı nitqdə tapır.

Fonetik ünsürlər prinsipcə leksik-qrammatik vasitələrdən fərqlənir, lakin onlar canlı nitqdə həmin vasitələrin mənalarının səsləndirici rolunu oynayır.

Deməli, cümləni və başqa nitq vahidlərini səslənmə prosesindən xaricdə təsəvvür etmək qeyri-mümkündür.

Ümumiyyətlə, dilin heç bir sintaktik tərkibini onun müvafiq intonasiya formasından ayrılıqda təsəvvür etmək olmaz. İntonasiyaya digər bir yanaşma onun diskursda rol oynamasıdır. Bu da danışıqda yeni məlumatla əvvəl deyilmiş köhnə məlumatın əlaqələndirilməsinə xidmət edir. Bunları nəzərə çarpdırmaq üçün melodik hərəkətlərə fikri cəmləşdirmək və lazım olan təsiri yaratmaq üçün müəyyən prosodik faktorlardan istifadə etmək lazımdır (5, s.224).

İntonasiyanın əsas funksiyası yalnız nitqin intellektual təbiətini göstərməkdən ibarət deyil, danışanın müəyyən fikrə qarşı olan münasibətini də göstərməkdən ibarətdir. Bu halda intonasiyanın müəyyənləşdirilməsində səs tonunun səviyyəsi mühüm rol oynayır (2, s.119).

İntonasiya ünsiyyət prosesində söylənilənlə ifadə olunan modal-emosional mənaların qavranılıb dərk edilməsi baxımından hədsiz əhəmiyyət kəsb edir.

İntonasiya ilə danışanın ifadə etdiyi söyləmdə onun kədəri, qəmi, sevinci və sairə bu kimi emosional-modal münasibətləri müəyyən edilir.

İntonasiyanın əsas üç vəzifəsi göstərilir: danışanın semantik, məntiqi, emosional çalarlıqlarını ifadə etmək. Bunlardan birincisi gündəlik, adi danışıqlar zamanı, ikincisi məntiqi vurğulu cümlələrdə, üçüncüsü hiss-həyəcan ifadə edən nitq prosesində müşahidə edilir.

Emfatik nitq neytral nitqdən fonetik cəhətdən daha emosional olması ilə fərqlənir.

Danışanın ifadəsinin məzmununa olan münasibətinə göstəricilərindən biri odur ki, dinləyicinin diqqətini hər hansı bir sözə xüsusi əhəmiyyət vermək üçün, cümlədə bir və ya bir neçə söz qüvvətli ifadə edir.

Danışan göstərmək istəyir ki, o bu sözü səbəbli olaraq xüsusilə vacib hesab edir.

Danışanın cümlədəki bir sözü xüsusi hesab etməsinin 2 səbəbi ola bilər.

Birincisi o, bu sözün ondan əvvəl ifadə olunmuş sözlə qarşılaşdırma mənası təşkil etdiyini göstərmək istəyir.

Bu emfatik üsul qarşılaşdırma emfazası adlanır. İkinci səbəbi isə, danışan cümlədəki bir və ya bir neçə sözü xüsusilə vacib hesab edir və bununla dinləyiciyə göstərmək istəyir ki, danışan münasibətindən asılı olaraq əsas məqsədi sözlərin mənasını qüvvətləndirməkdir. İntonasiya ilə ifadə olunan bu üsul isə qüvvətləndirici emfaza adlanır.

Nitqimizdə emfazanın mühüm əhəmiyyət kəsb edən məntiqi və emosional funksiyası var. Cümlədə olan bir və ya bir neçə sözün mənası və ya bütün cümlənin mənası adi danışıq nitqindən daha güclü vurğu ilə çarpdırıla bilər.

Hər hansı cümlə intonasiyanın bütün komponentlərinin modifikasiyası ilə emfatik edilə bilər. Cümlə və ya sintaqmın qabarıq şəkildə deyilməsi vaxtı şkala genişləşdirilə və ya daraldıla bilər və məna qruplarının tonal səviyyəsi yüksələ və ya alçaldıla bilər. Şkalaların genişləndirilməsi və ya daralması emosiyanın müxtəlif çalarlarını ifadə etmək üçün işlədilir. Lakin onlar arasındakı əsas fərq məna qrupunun vurğulu hecalar arasındakı intervallarının ölçüsündədir.

Emfatik vurğu cümlədə hər hansı sözə düşə bilər. Emfatik vurğu hətta adi qaydada adətən vurğusuz olan sözlərdə də ola bilər.

Beləliklə, emfatik vurğu vasitəsilə köməkçi fellər və morfemlər semantik əhəmiyyət kəsb edə bilərlər.

Emfatik nitqdə saitlər və cingiltili samitlər adi nitqdə olduğundan daha gərgin və uzun olurlar.

Emfazanın 2 növü var:

1.Qüvvətləndirmə emfazası

2. Qarşılaşdırma emfazası

Nitqdə hər iki emfaza növü bir-birindən qarşılıqlı surətdə asılıdır. Mənanı qüvvətləndirmək üçün cümlədəki sözlərdən birinin və ya bir neçəsinin xüsusi qabarıqlıqla deyilməsi qüvvətləndirmə və ya gücləndirmə emfazası adlandırılır. Cümlənin mənası bütövlükdə adi nitqdə olduğundan bütün vurğulu hecaların daha güclü edilməsi adətən xüsusi nəzərə çarpdırılır. Cümlənin mənası emfatik nitqdə dəyişilmir, lakin verilən situasiyada o yalnız qüvvətləndirilir. Bu halda cümlədə və ya məna qrupunda vurğu bölgüsü olduğu kimi, eyni qalır. Lakin vurğulu hecalar daha qüvvətli, güclü olur. Dilçilərin fikrincə nitqimizdəki mənanı qüvvətləndirmək üçün əsas fonetik üsullar aşağıdakılardır.

1. Diapazonun genişləndirilməsi
2. Diapazonun daraldılması
3. Vurğunun artırılması

Bu üç fonetik üsulun modifikasiyası müxtəlif emosiya çalarlarının ifadə edilməsində nəticə kimi çıxış edə bilər. Məna qrupunun diapazonunun genişləndirilməsində hər bir vurğulu hecanın tonal səviyyəsi qaldırılır, düşən və ya qalxan sonuncu vurğulu heca adi nitqdə olduğundan daha geniş diapazonda olur. Diapazonun genişləndirilməsi ilə biz sevinc, heyrət, qəzəb, heyranlıq, təəccüb və sair emosiyaları ifadə edən cümlələr qururuq.

Məna qrupunun diapazonunun daralmasında hər bir vurğulu hecanın tonal səviyyəsi alçaldılır, onlar arasındakı zaman intervalları qısalır və axırıncı vurğulu hecanın düşməsi və qalxması adi nitqdə olduğundan daha dar diapazonda deyilir. Beləliklə, bir cümlədə məna qrupunun daha dar şkalasını əldə edirik.

Emfazanın bu növü təəssüf, ümidsizlik, nifrət və sair ifadə edir. Bu bəzən böyük heyranlıq və etiraz ifadə edir. Emfazanın bu növü, danışan hər hansı bir şəxsə müraciət edərkən və başqa adamların eşitməyini istəmədiyi halda daha ifadəli olur.

Məsələn: He will `never `come `back`` again (təəssüf)

He is an `awful ``liar (qəzəb)

Beləliklə, diapazonun daralması ilə təəccüb və qəzəbli hisslər ifadə olunur. Bütün cümlənin mənasını cümlə vurğusunun artırılması ilə xüsusi nəzərə çarpdırmaq olar.

Qarşılaşdırma emfazası qüvvətləndirmə emfazası ilə yaxın əlaqəlidir. Bu emfaza bir sözlə başqa sözü qarşılaşdırmaq üçün işlədilir və hətta danışan ziddiyyət ifadə edərkən də işlədilir.

Qarşılaşdırma emfazasını bəzən "məntiqi vurğu" kimi qəbul edirlər. Məntiqi vurğu qarşılaşdırma emfazasının elementlərindən biri kimi iştirak edə bilər. Qarşılaşdırma emfazası cümlədə bir və ya bir neçə sözdə işlədilə bilər. Qarşılaşdırılmış söz cümlədə hər hansı bir

ifadə dayana bilər - cümlənin əvvəllində, ortasında və sonunda. Emfazanın bu növü cümlədə həm düşən, həm də düşən-qalxan sonluqla işlənə bilər.

Məs: He works in the `day time

(not in the night shift)

Qarşılaşdırma emfazası yüksək düşən tonun formasında aşağıdakı hallarda işlədilir.

1) Sonuncu vurğulu sözün düşən tonla tələffüz olunduğu cümlələrdə adi nitqdən fərqli olaraq səs yüksək səviyyədən düşməklə nəzərə çarpdırıla bilər. Emfatik düşən tondan sonra gələn bütün sözlərə vurğusuz sözlər kimi yanaşılır və alçaq tonal səviyyə ilə deyilir. Belə hallarda emfatik söz verilən digər söz və fikrə zidd qoyulur.

Məs: I` thought you were a `student

(but it turns out that you are a teacher)

2) Cümlədə olan hər hansı söz danışanın niyyətinə görə qarşılaşdırma emfazası kimi çıxış edə bilər. Belə halda emfatik sözdən sonra gələn bütün başqa sözlər vurğusuz deyilir.

Məs: I must be there to ` morrow ` morning.

3) Bəzən bir cümlədə bir neçə qarşılaşdırılmış söz ola bilər. Onların hər biri vurğulu hecada yüksək düşən tonla tələffüz oluna bilər, lakin emfatik hecalardan birinin daha əhəmiyyətli olması ilə əlaqədar tonun enməsi daha yüksək səviyyədən baş verə bilər. Digər sözlər isə vurğusuz tələffüz olunur.

Məs: I `didn`t ask Kim to come.

4) Bütün cümlənin mənası verilən bir fikirlə qarşılaşdırıla bilər. Qarşılaşdırmanın bu növü qüvvətləndirmə emfazasının işlədilməsi ilə düzəlir. Belə ki, diapazonu genişləndirməklə cümlənin axırıncı vurğulu hecasında yüksək düşən tondan istifadə edilir.

Cümlənin melodiyasında dəyişkənlik yoxdur. “Forty” times how I told you “not to` do that.

Cümlənin bütünlüklə mənasının qabarıq şəkildə göstərilməsi üsullarından biri mürəkkəb tonların işlədilməsidir. Emfazanın hər iki növündə mürəkkəb tonlardan istifadə olunur.

I am `very ˏsorrry.

`Do you, think he could, do, better?

Neytral tonlara nisbətən emfatik tonlar tələbələr tərəfindən daha gec qavranılır. Lakin intonasiya üzərində işləmək tələbənin nitqinin inkişafına və dil-daşıyıcıları tərəfindən anlaşılmasına kömək edir. İntonasiya ilə əlaqəli lent yazılarını dinləmək nəzəri materialların anlaşılmasını daha praktik edər və daha faydalı olar.

Ədəbiyyat

1. Babayev S.M., Qarayeva M.Q. English phonetics. Baku, Maarif, 1999.
2. Roach P. English phonetics and phonology. Cambridge University press, 2009.
3. Kingdon R. The Groundwork of English Intonation. London,1958.
4. Gimson A.C. An Introduction to the Pronunciation of English. 1986.
5. Jones D. Cambridge English Pronouncing Dictionary. 17 edition. Cambridge University Press, 2006.
6. O`Connor J.D. and Arnold G.F. The Intonation of Colleguial English. London, 1973.

Ш.Г.Годжаева

К фонетическим средствам эмфатической речи в английском языке

Резюме

В статье рассматривается важность логической и эмоциональной функций в эмфатической речи, а также ее фонетических средств в речевом акте.

Sh.G.Gojayeva

On Phonetic Means of Emphatic Speech in English

Summary

The article deals with the importance of logical and emotional functions of emphatic speech and its phonetic means in speech acts.

Rəyçilər: dos. K.A.Alırzayeva
ADU-nun ingilis dilinin fonetikası kafedrası
(31.01.2017-ci il tarixli iclasının qərarı (pr. №05))

Redaksiyaya daxil olub: 10.02.2017

İ.QULİYEV
E-mail: ibrahimquliyev27@ gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

"CAHANQOŞAYİ-NADİRİ"də İŞLƏNƏN TÜRK SÖZLƏRİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *Əfşar, Nadir şah, Astrabadi, lüğət, leksika, qrammatika.*
Ключевые слова: *Афшар, Надир шах, Астрабади, словарь, лексика, грамматика.*
Key words: *Afshar, Nadir Shah, Astrabad, Dictionary, vocabulary, grammar.*

Şah İsmayıl Xətaidən sonrakı Səfəvilər, Əfşarlar və Qacarlar dövründə adıçəklən dövlətlərdə fars dili üstün mövqeyə yiyələnsə də, o türk dilindən ayrı mövcud deyildi. Bu dövrdə türk dil vahidlərinin fars dilinə nüfuz etməsi nəticəsində fars dili inkişaf edir, zənginləşir və kamilləşirdi. Doğrudur, Azərbaycan dilində işlənən fars və ərəb sözləri kifayət qədər ətraflı tədqiq olunsa da, fars dilində türk sözləri az araşdırılmışdır. Fars dili qrammatik struktur baxımından fərqli linqivistik xüsusiyyətləri özündə əks etdirsə də, söz ehtiyatı onu daha çox türk dilinə yaxınlaşdırmışdır. Ümumiyyətlə, ortaçağ Yaxın Şərq dillərini leksik baxımdan bir-birindən ayırmaq çox çətindir, demək olar ki, elə bir mətn yoxdur ki, o, linqivistik baxımdan sinkretik xüsusiyyət daşımasın. Türk dilinin fars dilinə təsirinin araşdırılması baxımından Nadir şah Əfşarın katibi, tarixçisi və Əfşariyyə dövlətinin Xarici işlər naziri olmuş Mirzə Mehdi xan Astrabadinin əsərlərini (doğum ili məlum deyil, vəfat tarixi 1761-1766 (h.q.1175-1180-ci illər arası güman edilir)) araşdırmaq çoxlu faktlar verir. Bəri başdan qeyd edək ki, Mirzə Mehdi xan zəmanəsinin çox görkəmli şəxsiyyəti olmuş və fars dili ilə yanaşı, türk və ərəb dillərini mükəmməl bilmişdir. Tanınmış İran alimi, Mirzə Mehdi xan Astrabadinin həyat və yaradıcılığını tədqiq etmiş Seyid Əhməd Ənvar haqlı olaraq yazır: "Mirzə Mehdi xan ərəb və türk dillərinin çox dərin bilicisi olan alimlərdən biri olmuşdur və buna heç bir şəkk və şübhə yoxdur. "Dürreyi-Nadiri"də ərəb dilindən heyrətamiz istifadə və "lüğəti-Sənglax" kitabının türk dilində yazılması bu müddəanın ən yaxşı sübutudur" (1, s.9).

Ümumiyyətlə, təzkirələrdə, kitabxana kataloqlarında Mirzə Mehdi xanın aşağıdakı beş kitabı qeyd edilmişdir: "Dorreyi Nadere", "Sənglax", "Məban il-lüğət", "Münşəat", "Cahan-qoşayi-Nadiri". Bu kitabların hər biri dil və sənətkarlıq baxımından xüsusi önəm daşıyır. Nadir şahın ölümündən sonra münşilər və icmalçılar arasında xüsusi şöhrət qazanan "Dorreyi-Naderi"yə görə Mirzə Mehdi xanın adı dillər əzbəri olmuş və əsəri isə "mənası ləfzə qurban verilmiş, ləfzi isə sənətkarlıq yolunda şəhid olmuş" kitablardan biri kimi tarixə daxil olmuşdur (1, s.9).

"Sənglax" cığatay türkcəsi və farsca lüğətdir. Mirzə Mehdi xan onun müqəddiməsində qeyd edir ki, kitab Əmir Əlişir Nəvainin şeir və nəsr divanının müşkülatlarını həll etmək ***(başa düşülməsini asanlaşdırmaq - İ.Quliyev)*** üçün yazılmışdır: "Sonsuz bəlağət ölkəsinin əmirnafiz ül-əmiri Əmir Əlişir Nəvainin söz bəzəyi olan şeirlərini oxumağa əvvəldən xüsusi şövqüm (vardı)... Bu sırada tədqiqat hasil olandan sonra ürəkdən keçdi ki, oradakı çətin sözlər toplansın və o sözlərin mənalarını izah edən bir kitaba başlanılsın" (2, s.1). Müəllif bu əsərdə mahiyyətcə həzrət Nəvainin mənzum və mənsur kitabının lüğət məsələsini həll etdiyini, üstəlik, bəzi "moğoliyyə və Rumiyyə" (monqol və türk) sözlərinin kökünü də araşdırdığını bildirir. Mirzə Mehdi xan "ən mühüm əsərlərindən olan bu "Sənglax" adlı türkcə-farsca lüğətin tərtibinə Nadirlə ilk tanışlıqdan başlayıb, h.q. 1173-cü ilə qədər (1760) davam etmişdir.

Mirzə Mehdi xan Astrabadi cığatay türkcəsi və fars dili lüğəti ilə bərabər, yazdığı "Məbani il-lüğət" əsərində türk dilinin qrammatik qurluşunu araşdırmış, onu qədim şeir nümunələri ilə izah etməyə çalışmışdır. Bu kitab əslində "Sənglax"ın bir hissəsi, daha doğrusu, onun fəsillərindən biri kimi diqqəti cəlb edir. Lakin "Sənglax" sırf lüğətdən, "Məbani l-lüğət" isə türk dilinin qrammatik qaydalarından bəhs etdiyi üçün onlar ayrı-ayrı kitablar kimi qəbul olunurlar. Müəllif "Sənglax"ın müqəddiməsində türk dili barədə deyilənləri ötəri nəzərdən keçirərək, "Məbani l-lüğət"də qarşısına qoyduğu məqsədi aşağıdakı kimi izah etmişdir: "Fəraqi öz əsərində qeyd edir ki, türk sözləri mizan (ölçü) və məsdər baxımından ari olduğu üçün, öz kitabımın bünövrəsini qədim şeirin (gətirilən nümunələrin) şahidliyi ilə qoydum. Amma onun sözü tədqiqat və təhqiqata əsaslanmırdı və heç bir vəchlə axtarış və təhqiqata layiq deyildi, həqiqətdə türk dilində müəyyən və müqərrər olan qanun və qaydalar nə fars dilində var, nə ərəb dilində və onun bütün qrammatik formaları ədəb elminin qanununa müvafiqdir. Onları bilmək tələbələrə lazım olduğundan, o qanun və qaydaları bir qrupda və altı əsasda yazıb, aydın dəlil və arqumentlə məlum edib, onu "Məbani l-lüğət" adlandırdıq (2, s.4).

Göründüyü kimi, Mirzə Mehdi xan Astrabadi türk dilinin öz zəmanəsində mükəmməl, inkişaf etmiş bir dil olduğunu ciddi elmi əsaslarla sübut etmiş, yeri gəldikcə onun üstünlüyündən bəhrələnməyə çalışmışdır. Onun əsərlərindən aydın olur ki, o türk dillərinin, demək olar ki, əksər dialekt və şivələrinə bələd olmuşdur.

Tarixşünaslığımız üçün xüsusi önəm daşıyan "Cahanqoşayi-Nadiri" farsca yazılmasına baxmayaraq, türk dilinin tarixi köklərinin araşdırılması, Azərbaycan dilinin qrammatikasının tarixi-müqayisəli metodla öyrənilməsi, leksik dil vahidlərinin fonetik dəyişməsinin izlənilməsi və s. baxımından, fikrimizcə, olduqca əhəmiyyətlidir. Çünki əsər Nadir şah Əfşarın son dərəcə böyük arealda yürüşlərinin, hərbi səfərlərinin təsvirinə həsr olunduğundan, burada çoxsaylı türk toponimləri, hidronimləri, etnonimləri, antroponimləri, hərbi, siyasi, diplomatik terminlər öz əksini tapmış və üstəlik, bədii fikrin qüdrətləndirilməsi məqsədi ilə çoxsaylı türk bədii ifadə və təsvir vasitələri işlənmişdir. Bütün bunları nəzərə alan kitabın İranda tərtibçisi və çapa hazrlayanı Seyid Abdullah Ənvar "Cahanqoşayi-Nadiri" üzərində tədqiqatın iki ayrı-ayrı faktor - dil və məzmun istiqamətində aparılmasının vacibliyini qeyd etmişdir. O, yazır: "Cahanqoşayi-Nadiri"yə daxil olan sözlər "Dürrə"nin atılmış (məhcur) və yabançı (namunis) sözləri deyil, (oradakı sözlər) fars və ərəb sözləridir, lüğətlərdə mövcuddurlar, xalq dilində işlənirlər. Ancaq bu iki növ sözlərdən başqa saray münşilərinin terminləri və bir neçə gürcü kəlməsi və türk sözü işlənmişdir" (1, s.13).

Müəllif türk sözlərinə nümunə olaraq "qul", "sursat", yaylamışı", "yorğa mal", "eşik ağası", "minbaşı" və s. misal gətirir. Seyid Abdullah Ənvar buna səbəb kimi o dövrdə türk dilinin nüfuzunun yüksək olmasını göstərir. Həqiqətən də həmin dövrdə Şah İsmayılın xüsusi dil siyasəti nəticəsində türk ədəbi-bədii dili ilə yanaşı, mükəmməl siyasi, diplomatik, hərbi və s. dil formalaşmışdı. Görkəmli ədəbiyyatşünas alim Rəhim Əliyev bunu əvvəldən türk dilinin qoşununun, ordununun dili olması ilə əlaqələndirir. Onun fikrincə, ordunun dili İran elitasının dili demək idi, çünki o zaman İran elitası hərbçilərdən formalaşırdı (3).

Zənnimizcə, yüksək bədii sənətkarlıq nümunsi kimi son dərəcə bəlağətli epitet və poetik fiqurlarla zəngin olan "Cahanqoşayi-Nadiri"də işlənən türk sözləri əsərin bədii üslubuna uyğun olaraq leksik – qrammatik məna ilə yanaşı, bədii təsvir və ifadə vasitələri kimi də geniş funksiya daşımışlar. Buna nümunə olaraq aşağıdakı mətnin tərcüməsinə diqqət yetirmək kifayətdir: "Cahanın ***Turan*** torpağı boy atan qüvvələrin qoşununun ***hücumu ilə (türktazi)*** gülün ***qızılbaş*** işğalına (məruz qaldı) daxil oldu. ***Çəmən*** səhnəsinin qarətçiləri və gülşən dar ül-mülkünün ***yəğma***çıları olan dünənki ***xarəzmlilər*** baş(lar)ını adsızlıq kürkünə çəkdilər. Və şükufə və çiçəyin qıyıqgöz ***özbəkləri*** nökərçiliyə səy etdilər. Nafərman (hakimiyyəti olmayan) güllər fərman vermək ixtiyarına yiyələndilər, reyhanların səhranişin (səhrada yaşayan) ***türkləri*** dəstə-dəstə bahar sultanın sarayına itaətə üz tutdular" (1, s.343).

Məqalə müəllifinin sözbəsöz tərcümə etməyə çalışdığı bu parçada baharın gəlişinin bədii təsvirini və Nadir qoşununun Xarəzm türkləri hesabına zənginləşməsini göstərmək üçün Mirzə Mehdi xan Astrabadi türk dilinə məxsus söz və ifadələrin, etnonimlərin həqiqi mənasını bir kənara qoyub, onlardan təşbih, istiarə, mübaliğə kimi çox ustalıqla istifadə etmişdir. Əsərin demək olar ki, bütün fəsillərində məharətlə işlənmiş belə poetik lövhələrə rast gəlmək olur ki, Mirzə Mehdi xan bunu yaratmaq üçün türk dilinin şəhdi-şirəsindən, bədii zənginliyindən məharətlə istifadə etmişdir. Amma yuxarıda qeyd etdiyimiz kimi, "Cahanqoşayi-Nadiri" ilk növbədə türk dilinin qrammatik-leksik xüsusiyyətlərinin inkişaf yolunu izləmək baxımından əvəzsiz mənbədir. Burada sırf türk dilinə məxsus çaxsaylı **hidronimlərə:** Kür (1, s.180, 182, 405, 406, 637), Zəngi çay (1, s.253, 258), Ətrək (1, s.85, 137, 184), Arpa çay (1, s.3, 252, 254, 257, 273, 403, 404, 409), Qızılüzən (1, s.126, 135); Qazan çay- Qars çay (1, s.249), Qərənfel- çeşmə (1, s.160), Samur (1, s.237, 366), Qar qar- Qar qabər (1, s.48), Zəngi çayı - Zəngiçay (1, s.253, 258) və s.;

toponimlərə: Soğanluğ-Sukanlu-Soğanlı (1, s.260), Sulağ (1, s.247, 260, 261), Xınalıq (1, s.263), Qazma (1, s.48), Çiçəktu (1, s.153, 279, 348), Ordubad (1, s.152-153), Üç kilsə (1, s.251, 255), Aladağ (1, s.137, 248), Altı ağac (1, s.263), Ağzı bir – (əsərdə səhvən "Ağzı por" kimi getmişdir) (1, s.364, 365), Ətək (1, s.317, 334, 335, 336, 338, 352, 353, 361, 400), İlcikənd adı (1, s.233), Qarabağ (Əfqanıstanda, Arazın o tayında və Gəraylu məhəlləsində) (1, s.138, 141, 308, 310, 347, 348, 382), Qaratəpə (İraqda) (1, s.193, 216, 217, 219, 387); Qaraçəmən (1, s.276, 382), Qarac(ç)adağ (1, s.207, 367, 430), Qaraqum (1, s.49), Qaraqıytağ (1, s.368, 369, 370, 377), Qarakul (1, s.350), Qərəçulan (1, s.192); Qəleyi-Yüzbaşı (rota komandiri) (1, s.83), Qızlar (Dağıstanda indi Kizlər adlanır), (1, s.17), Körpi (1, s.255), Daş körpi (1, s.193), Kəlisay kəndi (1, s.239), Kögcə (1, s.252, 406, 407), Gögcə Dinkər (1, s.403), Murad təpə (1, s.255, 257, 407, 410), Nəxcəvan (1, s.131, 129, 222, 306, 383, 387), Yam təpə (1, s.56, 62) və s.;

etnonimlərə: avar (1, s.237, 263, 264, 265, 368, 377, 380, 396), qırxlu (1, s.26), gəraylu (1, s.64, 183, 364), qaraçorlu (Nadir zamanında piyada əsgərlər də belə adlanırdı) (1, s.64), irlu (Əfşar qoluna məxsus tayfalardan biri) (1, s.35), yəmirili (türk tirələrindən birinin adı, Dərəgəz və Quçanda məskunlaşıblar) (1, s.39), ziranlu-zidanlu (1, s.34), qəmuğ- kumık (bunun Qazi qəmuk variantı daha çox işlənmişdir) (1, s.230, 234, 235, 236, 237, 265), qıpçaq (1, s.8, 75, 136, 179, 379, 464), axısğa (1, s.257, 402, 403, 404), bayat (Əsli İraqda Bağdad Süleymaniyyə yolunun üstündə olan bir eldir) (1, s.43), tikkə-tikə (Mərv ətrafında yaşayan türkman tayfası, əslində "təkalu") (1, s.82), salur (bu türkman tayfası da Mərv ətrafında yaşayır) (1, s.82) və s. rast gəlmək olur. Yeri gəlmişkən, Qutqaşen sözünün kitabda bir neçə yazılış formasına rast gəlirik: Qulqaşin - Qutqaşin, Kut gəşən.

Kitabda rast gəldiyimiz türk sözlərinin əksəriyyəti quruluş və leksik məna baxımından daha çox maraq doğurur, belə ki, əksər halda onlar ya leksik şəkilçi ilə (saruq, tuğçi, colga, olga, ilci, ulcə, sığnağ yürüş, yaylaq, gizlik, yəsaq, arpalıq və s.), ya söz birləşmələrinin tərkibində (Bilxan dağı, Bilxan dağı kəndi, dəmur qapi, doqquz para, doqquz yolum, dəvə boynu, Səran təpə, dərə kəndi, təpeyi-Toxmaq xan, eşik ağası, tüfəngçi ağasi gəri, daş körpü, dəmir körpü, pol körpü (sonuncu birləşmə əslində biri farsca, digəri azərbaycanca olan iki eynimənalı sözdən ibarətdir)), ya da mürəkkəb quruluşda (qaraçəmən, savçıbulağ, yüzbaşı, minbaşı, qaraçorlu, qarabağ, qaratəpə, qarakul, qaracabağ, qorçibaşı (şah qvardiyasının başçısı), qızılbaş, aladağ) çıxış edirlər.

"Cahanqoşayi-Nadiri"də işlənən sadə sözlərin əksəriyyəti bu gün öz tarixi mənasını saxlasa da, bəziləri ya artıq dilin passiv fonduna düşmüş, ya da yeni məna kəsb etmişdir. Məs. əsərdə işlənən "kurniş" (1, s.256) sözü vaxtilə türk cığatay dilində "salam etmək", "itaət etmək", "baş əymək" mənasında geniş işlənsə də, hazırda öz işləkliyini itirib. O cümlədən "böyük təbil" mənasında işlənən "kurka" (1, s.263), ordunun ardınca dəstə-dəstə gələn və

ordunu arxadan qoruyan piyada mühafizə "çəndavəl", eləcə də "ailə", "qəbilə", "tayfa" mənasında işlənən "aruğ" (başqa variantı "uruğ") sözü də belə bir tale ilə üzləşmişdir. Sonuncu söz ilkin varintda dildən tam çıxsa da, xalq arasında "aruğ-uruğ" kimi q1almaqdadır. Daha çox "aramgah", "mənzil", "məskən", "dayanacaq" mənasında işlənmiş "yurt" (bu günkü dilimizdə "yurd") (1, s.49) isə öz məna dairəsini genişləndirmişdir. "Kitabi-Dədə Qorqud"da "yurd" sözünü araşdıran prof. A.Hacıyev yazır: "Abidənin dilində "yurd" sözü bir neçə mənada, o cümlədən, geniş mənada vətən, dar mənada isə yaşayış yeri, dayanacaq, ev mənasında işlənmişdir" (4, s.94) Tarixən köçəri həyat tərzi ilə bağlı "çadır", "müvəqqəti yaşayış yeri" kimi işlənən və "Cahanqoşayi-Nadiri"də də bu mənanı daşıyan "yurt" (ruslar "yurta" deyirlər) sözü müasir Azərbaycan dilində daha çox "vətən", "diyar" mənasında işlənir. Yaxud "ilğar" (1, s.49) sözü. Bu söz bu gün dilimizdə "əhd-peyman" mənası bildirən "ilqar"la omonim olsa da, "Cahanqoşayi-Nadiri"də o, tamam başqa mənada işlənmişdir. Kitabın "Təliqə"sində bu sözlə bağlı deyilir: "İlğar" türk sözüdür, "şəbgir" və "şəbxun" mənasında işlənir. "Gecə sürətlə və cəld əncam olunan müsafirət" "ilğar" adlanır**"** (1, s.49) Yeri gəlmişkən, Nazim Əttəba da belə yazır. Əsərdə işlənən "gizlik" sözü də bu gün dilimizdə işlənmir. "Gizlik" (1, s.71) dəstəyi uzun balaca bıçağa deyirlər. Bürhani-Qatidə qələmyonanın da bir növünün belə adlandırıldığı bildirilir və əlavə edilir ki, onun başı qatlanmış, arxası nazik olurdu.

Leksik şəkilçili sözlərə diqqət yetirdikdə onların əksəriyyətinin "çi"- qorçi (1, s.454), "uğ"- ağruğ (1, s.83), oyuğ (1, s.667), uk - tuzuk (1, s.172) (səliqə, bəzəmə, nizam, tərtib; ("Yeni tarama sözlügü"ndə "tüzmek" içine sinmek, işlemek kimi işlənmişdir (4, s.215); "ağ" – sığnağ (1, s.276), yərağ (1, s.122, 595), "lıq"- arpalıq (1, s.174), lik - iydəlik (1, s.179), "ş" (yüreş) (1, s.137, 276), "un"- qoşun (1, s.276, 469); "lağ" (yəylağ), "ğu"-"bəsğu" və s. vasitəsilə yarandığını görürük ki, bu da XVIII əsrdə qeyd edilən şəkilçilərin xeyli məhsuldar olduğunu göstərir. Bu əsərdə işlənən "uğ" şəkilçisi müasir dilimizdə daha geniş şəkildə işlənən (lıq) şəkilçisi ilə eyni mənalıdır. Məs.: ciddi fonetik dəyişməyə məruz qaldığından əslindən çox uzaqlaşmış "ağruğ" (1, s.83) sözü təliqədə "daşınan" və "yük" kimi izah edilmişdir. Əslində o, müasir dilimizdəki mücərrəd "ağırlıq" isimidir və kitabın ətək yazısında qeyd edilir ki, bu söz bəzən mətnin içərisində "ağırrıq" kimi də getmişdir (1, s.565).

Ümumiyyətlə, əsərdə "lıq", "lik" şəkilçisinin türk mənşəli sözlərə əlavə edildiyi kimi (məs. tiyul, iqta vergisi mənasında işlənən "arpalıq", "iydəlik" sözü), bəzən də fars mənşəli sözlərə əlavə edilmişdir: yer adı bildirən "abkədəlik" kimi.

Türkdilli sözlərə artırılan yuxarıdakı leksik şəkilçilərdən yalnız (məs. ol-ga (ka), cul- ka və ya "ga" (diyar, düz yer, çöl) (1, s.463), sonradan öz məhsuldarlığını nisbətən itirmiş və fonetik dəyişikliyə məruz qalaraq "kə", "gə" şəklinə düşmüşdür (Bürhani Qatedə ulka, ya ulga kimi işlənən bu söz "mülk", "vətən", "torpaq" kimi izah edilsə də, onun arta-dan təhrif olunduğu bildirirlir. (1, s.536). Məsələn, o, "il", yaxud "el" sözünə əlavə olunmaqla bu gün dilimizdə geniş işlənən "ölkə", bölmək feilinin kökünə artırılmaqla isə "bölgə" sözünün yaranması buna misal ola bilər. Çox ehtimal ki, 235-ci səhifədə getmiş ul-cə də (əsir, qarət, qənimət) düzəltmə sözdür.

Bundan əlavə, XVIII əsrdə işlənən şkilçiərdən biri də "qu", "ğu" olmuşdur. Məsələn, "busğu" bu sözün birinci hərfinin b-p əvəzlənməsinə məruz qalmış forması bu gün dilimizdə çox aktiv işlənir. Fəqət "Cahanqoşayi-Nadiri"nin elmi-tənqidi mətnini tərtib edən müəllif onun izahında çətinliklə üzləşdiyini bildirir: "Bu söz ***(busğu –İ.Q.)*** müraciət olunan lüğətlərə tapılmadı. "Aləmarayi-Nadiri"də ondan və "busğuqah"dan bir neçə yerdə söhbət açılmışdır. "Aləmara"nın mahiyyətindən belə çıxırdı ki, "busğu" o yerə deyilir ki, orada bir dəstə gözətçilik edir və sonra onlardan da bir dəstə ayrılıb, düşmənlə döyüşə girir və düşməni qovur, sonra yenidən öz busğusuna çəkilir. Xəbərsiz düşmən qəfildən busğudakılarla qarşılaşır və səmtini itirib ya məğlub, ya da fərari olurdu" (1, s.534). Əslində bu bizim bu gün də dilimizdə çox geniş işlənən "pusmaq" feilindən yaranmış "pusqu" isimidir ki, türk

sözlüyündə onun feil forması aşağıdakı kimi izah edilmişdir: **"pusmak, puşmak-sinmək, saklanmak, siper içine girip gizlenmek"** (5, s.174). Məlum olduğu kimi, s/ş eyni fonem olsa da, müasir Azərbaycan dilində bu sözün "puşmak" fonetik variantına rast gəlmirik.

Beləliklə, yuxarıda qeyd etdiyimiz sözdüzəldici şəkilçilər içərisində ən məhsuldarı isə "çi" şəkilçisidir: "topçi", qorçi", tuğçi" ("Tuğ" sözü türk dilində bir neçə mənada - I. bayraq, muncuq; II. Maneə; III. əlamət və s.- işlənmişdir. "Tuğçi" isə "bayraqdar" və "barabançı" (məs. qədim türklər "bayraqdar bayrağı sancıb" ifadəsini belə: "tuğuğ örü tikip") işlənib) (8, s.584-585), "cəzairçi"(Sonuncu söz İranda məşhur piyada hərbi dəstəni bildirir, Nadir dövründə tüfənglə silahlanmış bu dəstənin üzvlərinin sayı 20 minə çatırdı), "elçi". Çox ehtimal ki, "çi" şəkilçisi "çinitmək", "çın qılmaq" feilindən formalaşmışdır. Türk Dil Kurumu Yayınları seriyasında olan "Yeni Tarama Sözlügü"ndə "çin" sözü belə izah edilir: "gerçək", "doğru", "halis". "Çin eytmək" - doğru söyləmək; Çin itmek, [-kılmak] doğrultmaq, düzəltmək, gerçəkləşdirmək" (5, s.56). Hazırda Azərbaycan dilində "yuxunun çin olması", "çin-çin düzmək" kimi birləşmələrin tərkibində qalan və daha çox düz etmək, düzəltmək mənasında işlənən "çin" sözü, fikrimizcə, sonrakı mərhələlərdə səsdüşümünə məruz qalmaqla həm də leksik şəkilçiyə çevrilmişdir.

"Cahanqoşayi-Nadiri"də bu gün Azərbaycan dilində işlənməyən və artıq arxaikləşmiş sözlərə də rast gəlirik. Bunlardan biri də "Səbih" (1, s.11) sözüdür. Anəndrac bunu belə izah edir: "Çala və xəndək mənasında işlənən türk sözüdür, Müharibə zamanı ona sığınıb döyüşürlər. Məcməüt-təvarixin haşiyəsində isə bu söz belə şərh edilmişdir: "Sibih", ya "siba" türk sözüdür səngər və ordunu qorumaq üçün onun qarşısında toplanan torpaqdır" (6, s.8). Müasir türk lüğətində də bu sözün isim variantına deyil, mürəkkəb zərf variantına rast gəlirik: "[sebe sebe] yürümek – salına-salına yürümek, seke-seke yürümek" (5, s.183).

"Cahanqoşayi-Nadiri"də fars-türk sözlərinin və yaxud fərqli leksik şəkilçilərin mürəkkəb sözlərlə paralel şəkildə işlənməsi xüsusiyyətləri daha çox diqqəti cəlb edir. Məsələn. yaylamışı kərdən (1, s.27), eşik ağasıgəri, tüfəngçi ağasıgəri (gəri-başı) (1, s.543), qorçibaşıgəri (1, s.639), bəzən isə eyni mənanı bildirən fars və türk sözləri birləşərək bir mürəkkəb söz kimi işlənir: Polkörpü (1, s.16, 118) toponimi. Yeri gəlmişkən qeyd edək ki, bəzi yerdə körpü sözünün daha qədim variantı olan "köprü" işlənmişdir. Əsərdə bəzi söz birləşmələri Azərbaycan dilinə məxsus (təyini söz birləşmələri) ardıcıllıq üzrə işləndiyi halda (məs. yürüş meydan (1, s.137), Əli bulağı (1, s.185), altı para (1, s.263), doqquz para (1, s.263, 264, 266), doqquz yolum (1, s.171) bir başqaları izafət tərkibinə daxil edilmişdir: təpeye-Toxmaq xan, qəleyi-yüzbaşı və s.

Bəzən isə mürəkkəb söz və birləşmələrdə türk sözləri yanlış formada verilmiş və nəticədə tam anlaşılmazlıq yaranmışdır: məs. kitabda əksər yerlərdə Dəvə boynu (1, s.767) kimi işlənən birləşmə bəzi yerlərdə "dəh boynu kimi" (1, s.355) getmişdir ki, bu, heç bir məna vermir. Çox ehtimal ki, bu, katiblərin səhvi üzündən baş vermişdir. "Cahanqoşayi-Nadiri"də "qara" təyini ilə işlənən toponimlər xüsusilə çoxdur: Qaraçəmən (1, s.276), Qarabağ (1, s.616), Qaratəpə (1, s.654), Qaracadağ (1, s.665), Qarakul (1, s.765), Qaraqorum (Xorasanın şimalında olan və türklər yaşayan bölgə) (1, s.49), Qaraçulan (1, s.192) (Süleymaniyyənin şimal-şərqində yer adı), Qaracəngəl (Əfqanıstan) və s. Bizcə, bu mürəkkəb sözlərdə "qara" təyini rəng bildirməklə bərabər, böyüklük, əzəmət mənası da bildirir. Ümumiyyətlə, "qara sözü qoşulduğu sözlərdə müxtəlif mənalar ifadə edir. Misal üçün, təkcə qədim adlarda (Qaraxan, Qaragünə, Qarabudaq, Qaraca Çoban, Qaraçəkur və b.), istərsə də müasir adlarda (Qarakişi, Qarakazım, Qaravəli və b.) işlənmiş "qara" çoxanlamlıdır. Bir fikrə görə, adlardakı "qara" qədim xaqanlıqda xanların titulunu bildirirdi. Başqa bir fikrə görə isə, "qara" "başçı, böyük" mənasında da işlənmişdir" (7). Fikrimizcə, yuxarıda sadaladığımız sözlərin əksəriyyətindəki "qara" məhz böyük və əzəmətli mənasında işlənmişdir. Çünki dağın rənginin qarası olması mümkünsə də, çəmənin qarasını təsəvvür etmək mümkün deyil. "Cahanqoşayi-Nadiri"

qarammatik şəkilçilərin də yeri tam müəyyənləşməyib, belə ki, türk sözlərinə çox vaxt fars dilində cəm bildirən "an" şəkilçisi əlavə edilmişdir: elçiyan (1, s.728), çavuşan, qorçibaşiyan və s. Bəzən isə mətnin farsca olmasına baxmayaraq, söz cəm formasında "lər" şəkilçisi ilə işlənmişdir. 179-cu səhifədəki "haci-lər" sözünü buna misal göstərmək olar.

"Cahanqoşayi-Nadiri" də illərin hicri qəməri tarixinə müvafiq olaraq qədim türk təqvimi ilə verilməsi bəzi türk sözlərinin qədim variantlarının araşdırılması baxımından maraq doğura bilər. Məlum olduğu kimi, on iki illik dövrə üzrə olan türk təqvimindəki illərin adları heyvanların adı ilə bağlı olmuşdur: Sıçğan (siçan), od (inək), bars (pələng), tuşğan (dovşan), luy (nəhəng), ilan (il), yunt (at), qoy (qoyun), piçi (meymun), təxaquy (quş), it, tonquz (donuz) ili. Onu bildirək ki, bu sözlərin bir neçəsi, ümumiyyətlə, müasir türk dilində işlənmir. Həmin sözlər yalnız təqvimdə qalmışdır: məs. "Yunt" qədim türk dilində "jund" kimi tələffüz olunmuş və "at" bildirmişdir (8, s.281); "Od", yaxud "ud" kimi tələffüz olunan il "inək"lə (8, s.605); lu, lun, lunq (qədim Çin dilindən türk dilinə keçib) 1. əjdaha və ya 2. ilanlla bağlı olmuşdur. Digər sözlərin isə, tarixi fonetik prosesini belə vermək olar: təxaqu - taqağu- toyuq (8, s.536), Qoy- qoj- qoç (8, s.453). "Piçi"-nin mənası isə heç bir lüğətdə izah edilməyib (Qədim türk lüğətində onun "çi" siz şəkli ilə qarşılaşdıq) (8, s.397), onun ancaq ilin 4-cü ayı bildirməsi göstərilib. Diqqətlə fikir verdikdə, bu sözlərin bir çoxunun fonetik baxımdan tanınmaz dərəcədə dəyişdiyi aydın olur.

Bir sözlə, "Cahanqoşayi-Nadiri" farsca yazılmış mətn olmasına baxmayaraq, XVIII əsrin ortalarında türk (Azərbaycan) dilinin leksik-fonetik, morfoloji-sintaktik baxımdan öyrənilməsində əhəmiyyətli mənbədir. İranda XII əsrdən bəri sarayda farsca, orduda türkcə danışırdılar və bu İranda türk-fars qoşadilliyini yaradıb. Bunu öyrənmək dillərin və sözlərin tarixii anlamaq üçün mühüm bir yoldur. Ümumiyyətlə, müxtəlif dövrlərə aid fars mətnlərində türk-Azərbaycan sözlərinin öyrənilməsi və bu sahədəki boşluğun aradan qaldırılması dilimizin tarixi inkişaf yolunu izləmək, az işlək sözləri bərpa etmək üçün çox vacibdir (9).

Ədəbiyyat

1. Astrabadi Məhəmməd Mehdi bin Məhəmməd Nəsir, "Cahanqoşayi Naderi"yə. Seyid Abdullah Ənvarın müqəddiməsi, Tehran, Əncoməni Asar və məfaxeri-fərhəngi, 1377.
2. Astrabadi Mirzə Mehdi xan Astrabadi, "Sənglax" kitabının müqəddiməsi, İran Milli Kitabxanasında qorunan 1141 saylı əlyazma nüsxəsi.
3. Rəhim Əliyev. "Top" romanı haqqında", "Ədəbiyyat qəzeti", 13 oktyabr 2015.
4. Asif Hacıyev. Dədə Qorqud kitabı: oxunuşlar, açımlar. Bakı, 2007.
5. Yeni Tarama sözlüyü, Türk dil kurumu yayınları. Ankara, 1983, 476 s.
6. مجمع التواریخ , کتابخانه سنایی,کتابخانه طهوری, تهران, ۱۳۴۷
7. https://az.wikipedia.org/wiki/Qara
8. Древнеетюркский словарь, Ленинград, 1969, 676 с.
9. Zərinazadə H. Fars dilində Azərbaycan sözləri. Bakı, 1962.

И.Кулиев

Специфические особенности тюркских слов в «Джахангошайи-Надири»

Резюме

В данной статье проводится критический анализ туркских слов и выражений, которые были использованы в произведении "Cahanqoşayi-Nadiri" Мирзы Мехди хана Астрабади, бывшего министром иностранных дел государства Афшаров и секретарём Надир шаха. На основе автор названного произведения проследил различие между диалектами и идиомами тюркских языков, а также лексические и фонетические изменения, произошедшие в результате исторических процессов, на большом ареале гидронимов, топонимов и этнонимов. Широкий анализ сравнения языковых единиц дал возможность сделать конкретные выводы о развитии языка.

I.Guliev

Specific Features of Turkic Words in "Dzhahangoshayi-Nadir"

Summary

This article provides a critical analysis of Turkic words and expressions that have been used in the work **"Dzhahangoshayi-Nadir"** by Mirza Mehdi Khan Astrabadi – former Foreign Minister of Afshar country and Nadir Shah's secretary. Having basing on the mentioned work, the author traced the differences between the dialects and idioms of the Turkish language, as well as lexical and phonetic changes that have occurred as a result of historical processes on a large areal hydronyms, toponyms and ethnonyms. The great analisys of comparison of linguistic units, gave the opportunity to make concrete conclusions about the development of language.

Rəyçi: prof. R.M.Novruzov

Redaksiyaya daxil olub: 16.02.2017

A.Q.QULİYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MÜRƏKKƏB QURULUŞLU İCTİMAİ-SİYASİ TERMİNLƏR

Açar sözlər: *terminologiya, beynəlxalq, ictimai-siyasi, ünsiyyət, dil, cəmiyyət, lüğət*
Ключевые слова: *терминология, международный, социально-политические, коммуникация, язык, общество, словарь*
Key words: *terminology, international, political, communication, language, society, dictionary*

İctimai-siyasi terminologiyanın yaranmasının əsasında dilin öz sözlərinin semantik terminləşməsi, terminalma və onun genişlənməsi nəticəsində internasionallaşma, xarici dillərdən kalka etmə, texniki elmlərə aid terminlərin modifikasiyası, qrammatik üsullarla terminyaratma, abbreviasiya və s. durur. Ümumiyyətlə, ictimai-siyasi termin yaradıcılığında əsas yeri leksik-semantik və qrammatik üsullar, həmçinin başqa dillərdən kalka tutur. Leksik-semantik, morfoloji, sintaktik yolla ictimai-siyasi terminyaratma üsulları daha geniş tətbiq olunur. Xüsusən sintaktik yolla söz birləşməsi şəklində tərtib edilən ictimai-siyasi terminlər özünün kəmiyyət zənginliyi ilə diqqət cəlb edir.

İctimai-siyasi terminlərin böyük qrupunu internasionalizmlər və qarşılıqlı terminlər təşkil edir. Buraya ekzotik terminlər də daxildir. İnternasionalizmlər dünya dillərində fikir mübadiləsi, ünsiyyət nəticəsində yayılmışdır. Burada qədim yunan və latın realı diqqəti cəlb edir. İctimai-siyasi terminologiyada həmin mənşəli vahidlər vüsət tapmışdır. İnternasionalizmlərin əsas bazası Avropa dilləri hesab edilir. Uzaq regionlarda da ictimai-siyasi terminlərin əsası olan internasionalizmlər ingilis, fransız, alman, italyan və s. dillərdən alınmalardır. İnternasional leksikanın yayılma yolunun üç mərhələsi nəzərə alınır: a) mənbə dil-aralıqdili-reseptor dil; b) lakin bu vəziyyət ən çox iki sistemdə öz əksini tapır: mənbə dil-reseptor dil. İnternasionalizmlər və alınmalar dillərə iki yol ilə daxil olur: bilavasitə və bilvasitə (aralıq dil vasitəsilə), məsələn, yunan dili sözlərinin çoxu bizim dilimizə Avropanın aralıq dilləri (ingilis, fransız və s.) vasitəsilə daxil olmuşdur.

Dünya dillərində yayılmış söz birləşməsi şəklində olan ictimai-siyasi terminlər səciyyəli internasionalizmlərə gəldikdə demək lazımdır ki, bunlar da yeni anlayışları, məfhumları əks etdirir və həmin yeni məfhumları başqa xalqlara verməklə özləri struktur cəhətdən sıradan çıxarılır. Reseptor dil isə həmin vahidlərdən öz daxili və tarixi qanunlarına əsasən faydalanır: söz birləşməsi şəklində internasional terminin komponentləri əvvəlcədən reseptor dildə işlədilibsə, bu dil hazır komponentləri və ya komponentlərdən biri (ikisi və s.) reseptor dildə əvvəlcədən işlənməyibsə, onda kalka üsulundan istifadə edilir. Bu halda reseptor həm də operativ alınmalardan istifadə edə bilər, yəni alınma komponenti məfhumu baxımdan internasionalizm olur. Adətən, ikidilli və çoxdilli terminoloji lüğətlərin tərtibi zamanı leksikoqraflar belə hərəkət edirlər. Həmin məfhumu internasionalizmlərin qəbul edib etməməsi isə cəmiyyətin ixtiyarına buraxılır. Məsələn, rus dilində генеральный консул, генеральный президент və s. terminlərlə analogiya əsasında генеральный секретарь termini meydana gəlmişdir. Bu termin başqa dillərdə də rus dilində formalaşan məfhumu ifadə edir, heç də izahedici aydınlaşdırıcı ünsürə də ehtiyac olmur.

Həmin terminin hər iki komponenti ayrılıqda internasionalizm səciyyəli vahidlərdən bunların rus dili daxilində birləşməsi ilə yeni bir internasionalizm meydana gəlmişdir. Habelə bu komponentlərin birləşməsi (üsul və qaydaları) hər bir dildə həmin reseptor dilin milli

xüsusiyyətlərinə müvafiq olaraq müxtəlif şəkildə baş verir, yəni bir dilin sintaktik imkanlarına uyğunlaşdırılmış olur; ingilis dilində General Secretary, alman dilində General sekretar və s. Belə internasionalizmləri alınma söz kimi işlədən dillərdə isə vəziyyət başqa şəkildə olur, hər dil onu səciyyəvi şəkildə əks etdirir.

Beləliklə, dünya dillərində internasional məfhumların əks etdirilməsinin aşağıdakı üsullarını müəyyənləşdirmək mümkündür:

1. İnternasional terminlərin komponentlərindən biri əvvəlcə reseptor dildə işlədilmiş olarsa, həmin leksik analogiya əsasında əks etdirilir, söz birləşməsinin yalnız qrammatik quruluşu dəyişdirilmiş olur:

Rase discrimination - расовая дискриминация

Revolutionary situation - революционная ситуация

Constitutional monarchy - конституционная монархия

2. Əgər söz birləşməsi şəklində olan internasional terminlərin bütün komponentləri əvvəlcədən reseptor dildə olursa, bunların bəziləri həmin dildən alınıb işlədilir, başqaları alınmaya da bilər və nəticə də hər bir söz birləşməsini təşkil edən internaisonal terminlər düzəldilmiş olur:

Military industrial complex – военно-промышленный комплекс – hərbi sənaye kompleksi; Revolutionaty Military committee – военно-революционный комитет – hərbi inqilab komitəsi.

3. İnternasional anlayış əks etdirən söz birləşməsi şəkilli terminlərin komponentlərindən biri reseptor dildə əvvəlcədən mövcud olubsa, yeni tərkibdə bu komponent saxlanılır, digər komponentlər isə ana dilinin öz sözlərindən təşkil olunur və beləliklə, termin hibrid söz birləşməsi şəklində təzahür edir. Məsələn, Azərbaycan dilində политический, исторический və s. kimi terminlər yoxdur və buna görə də политическая система, политический режим tipli terminlər bu dildə siyasi sistem, siyasi rejim tipli hibrid söz birləşmələri vasitəsilə əks etdirilir. Digər misallar

Social justice – социальная справедливость – sosial ədalət

Neutal waters – нейтральные воды – neytral sular

Peace zone – зона мира – sülh zonası

Bəzi dillərdə internasional terminlərin bütün komponentləri mühafizə edilir, digər dillərdə bunlardan biri, üçüncü qrup dillərdə hamısı ana dili sözləri ilə əvəz olunur ki, bütün bunlar ictimai-siyasi anlayışları əks etdirməklə dillərin bir-birindən fərqləndiyini aydın şəkildə göstərir. Məsələn, social *reform* termini rus dilində leksik tərkib baxımından olduğu kimi saxlanılır, Azərbaycan dilində isə sosial islahat şəklində hibrid söz birləşməsi kimi verilir.

4. Söz birləşməsi şəklində olan internasional terminlərdə komponentlərdən biri və ya hər ikisi reseptor dildə ayrılıqda işlədilən sözlərdən ibarət olarsa, onda bütöv termin təşkil edən vahidlərin hər ikisi ana dili sözləri ilə əvəz edilir. Məsələn:

Nation wide discussion – ümumxalq müzakirəsi

National flag – dövlət bayrağı

National debt – dövlətin borcu

İnternational right – beynəlxalq hüquq

Pace discrimination – irqi ayrıseçkilik

Revolutionary situation-inqilabi şərait

Göründuyü kimi, reseptor dildə internasional terminin komponentlərindən biri və ya ikisi internasional sözlərdən ibarət olur. Lakin bu dillərdə termin söz birləşməsi şəklində formalaşdırılarkən ayrılıqda reseptor dildə müvəffəqiyyətlə işlədilən vahidlər milli dilə məxsus vahidlərlə əvəz olunur və bu da ictimai-siyasi anlayışların dəqiqləşdirilməsində mühüm rol oynayır. Ona görə ki, məsələn, *интернациональное право* ifadəsi heç də *xalqlar arasında hüquq* (*право между народами*) mənasını motivləşdirmir, həmin ifadəni başqa

mənada da anlamaq olar: İnternasionallaşdırılmış hüquq (*интернационализированное право*) və s. Halbuki *международное право* terminin məzmunu belə şərh edilir: "dövlətlər arasında, habelə beynəlxalq əlaqələrin digər iştirakçıları arasında əlaqə və münasibətləri tenzimləyən hüquqi prinsip və normaların məcmusu. İngilis dilində *international right* termini də eyni məzmuna malikdir, çünki bu dildə *internationa*l elə "beynəlxalq"deməkdir.

5. Ayrı-ayrı ictimai-siyasi anlayışlar xüsusi səciyyəli əsərlərin tərcüməsi sayəsində dünya dillərinə yayılır. Lakin bu zaman heç də terminin özü alınmır, bir çox hallarda yalnız məhfum internasionallaşdırılmış olur, lakin termin başqa dillərdən alınmayıb yalnız kalka edilir. Məsələn, provisional government – müvəqqəti hökümət; working class movement – fəhlə hərəkatı peaceful coexistense – dinc yanaşı yaşama; good neighbourly relations – mehriban qonşuluq münasibətləri; cold war – soyuq müharibə; world market – dünya bazarı və s.

Xatırlatmaq lazımdır ki, dilə əcnəbi dillərin təsiri yalnız leksik (bəzən də morfoloji) planda özünü göstərir. Dil leksik baxımdan zənginləşir. Qrammatik və semantik aspektdə təsir olmadığından (və ya cüzi olduğundan) bu sahələrdə müqavimətdə də o qədər ehtiyac olmur. Dildə internasionalizmlərin və ya alınma vahidlərin işlədilməsi göstərilən xüsusiyyətlərlə əlaqədardır. Məfhumun əks edilməsi hələ nə internasionalizmdir, nə də alınma hesab edilməlidir.

Beləliklə, dünya dillərinə yayılan internasionalizmlərlə əlaqədar bu dillərə yeni ictimai-siyasi məhfumlar gətirilir ki, bu da onların terminoloji sistemini zənginləşdirir, həmin sistemi formalaşdırır. Hər hansı terminoloji sistem kimi ictimai-syasi terminologiyanın da formalaşmasında sıranın yaranması çox mühümdür, həm də belə sıra nə qədər çox vahidi əhatə edərsə, terminlər də bir o qədər yadda qalmış olar, motivləşmiş hesab edilə bilər, asanlıqla mənimsənilir. Məsələn, ingiliscə: movement-revolutionary movement-guerrillo movement-trade-union movement-non allignment movement –movement-national liberation movement-resistance movement-guerillo movement-trade-union movement-non allignment movement-movement of defenders of peace; azərbaycanca: hərəkat –inqilabi hərəkat–milli azadlıq hərəkatı–bloklara qoşulmamaq hərəkatı-sülh tərəfdarları hərəkatı. Terminoloji sıraların əsla nəzərdən qaçırılmaması, onların zənginləşdirilməsi qayğısına qalınması zəruridir. Mövcud termin sıraya daxil olan vahidi miqdarını çoxaltmağa kömək edən neologizm-terminlərin tam səlahiyyətli termin vahidi kimi qiymətləndirilməlidir. Çünki, sıraya daxil olmuş vahid ümumi terminoloji sistemlilik əsasında meydana gəlmiş olur.

O.S.Axmanovun məşhur lüğətində alınma termininə iki tərif verilmişdir. İctimai-linqvistik bir proses kimi alınma termini belə səciyyələndirilir: "Yeni anlayışları ifadə etmək, əvvəlcədən mövcud olan anlayışları diferensiallaşdırmaq, qabaqlar məlum olmayan predmetləri əks etdirmək üçün digər dillərin lügət fondundan faydalanmaq". Terminin müxtəlif növlərini fərqləndirərkən belə əlamət qeyd olunur: "Müəyyən dilə alınma nəticəsində daxil olan sözlər, sözdüzəldici şəkilçilər və konstuksiyalar".

Burada əsas məsələ alınma terminin özünün çoxmənalı olmasındadır və elə bu çoxmənalılıq alınma sözlərin və terminlərin şərh edilməsi işinə çox zaman əngəllik törədir. Belə ki alınma bir proses kimi də başa düşülür, alınma bu prosesin nəticəsi olan söz və termin kimi də işlədilir. "Alınma sözlər o cümlədən latın mənşəli alınma sözlərə german dillərinin şəkilçilərini qoşmaqla yeni sözlər düzəldilməsi üsulu qədim ingilis dilində lüğət tərkibinin zənginləşdirilməsi üsullarından biri olmuşdur". "Fransız dilində bir sıra sözlər yunan dilinə keçmişdir". Alınma sözlər dedikdə, mənbə dildən əlavə (əsasən) başqa sistemli bir dildə işlənən vahidlər nəzərdə tutulur. Termin və ya söz yayılma dövrünün ilkin mərhələsində ən azı bir dilə keçdikdə alınma sayılır. Digər daha bir sıra dillərə – müxtəlif sistemlərə məxsus dillərə də yayıldıqda bu alınma dil vahidi internasionalizm səciyyəsi kəsb etmiş olur. Bir dil ailəsinə mənsub dillərdə də bir-birindən söz alınması prosesi özünü göstərir. Mənbə dil ilə

aralıq dili qarışdırmaq və ya eyniləşdirmək düzgün deyildir. Söz və ya termin yalnız bir sistemə mənsub dillər qrupunda yaradılır və tədricən bir sıra aralıq dillərdən keçərək yayılmağa başlayır. Mənbə dilin dəqiq şəkildə müəyyənləşdirilməsi çox zəruridir . Terminin mənşəyi ayrıca, xüsusi problemdir, dil vahidinin keçdiyi yol bu problem ilə qarışdırıla bilməz. İnternasional leksikanın yayılma yolunun üç mərhələsini nəzərə alanda da yuxarıdakı mülahizələrin qüsurları bir daha aydın olur. Həmin üç mərhələ belədir: mənbə dil–aralıq dil –reseptor dil. Mənbə dil vahidləri bilavasitə aralıq dilə daxil olur. Aralıq dil dedikdə, tərkibdə çoxlu dillərdə danışan xalqlar olan dövlətdə aparıcı, rəsmi dil, habelə üçüncü dünya ölkələrində keçmiş müstəmləkəçilərin dili (məsələn, Hindistanda ingilis dili, Əlcəzairdə fransız dili, Mozambikdə portəgiz dili və s.) nəzərdə tutulur. Aralıq dil əslində ən əvvəl özü mənbə dilin vahidlərini mənimsəyir ki, bu zaman reseptor dil keyfiyyətinə malik olur, həmin vahidləri üçüncü bir dilə ötürəndən sonra isə aralıq dilə ötürəndən sonra isə aralıq dil hesab olunur. Bu zamandan bu üçüncü dil reseptor dil sayılır. Bu prosesdə aralıq dil o zaman öz funksiyasından məhrum olar ki, terminoloji informasiyanın yayılmasında iştirak etməyə, yəni reseptor dillər söz və ya termini bilavasitə mənbə dildən aldıqda aralıq dil öz əhəmiyyətini itirə bilər ki, belə hallar hazırda təcrübi şəkildə o qədər də özünü göstərə bilmir. Yalnız bu halda bilavasitə alınmalar yolu ilə internasionalizmlər meydana gəldiyindən bəhs açmaq mümkündür. İnternasionalizmlər və alınmalar dillərə iki yol ilə daxil olur: bilavasitə və bilvasitə (aralıq dil vasitəsilə), məsələn, “yunan dili sözlərinin çoxu bizim dilimizə Avropanın aralıq dilləri (ingilis, fransız dilləri və s.) vasitəsilə daxil olmüşdur, halbuki bu dövrdə qədim yunan dili artıq ölü dil idi. İnternasionalizmlər vasitəsiz (bilavasitə) yolla baş verən alınmalar, lakin onlar leksikologiyanın bir elm kimi məhz internasionalizm hesab edilib alınmalardan fərqləndirilməlidir. Əgər alınma sonradan üçüncü bir sistemə daxil olanlar tərəfindən əks edilmirsə, onda elə alınma (söz və ya termin) olaraq qalır, internasionalizmə çevrilmir.

Ədəbiyyat

1. Sebastien A., Merriam Reflexivity in words // Word Ways: The Journal of Recreational Linguistic. Volume 21. Number 3,1988. p.131-134.
2. Халилова С.Н. Лингвистические основы общественно-политической терминологии. АДД. Баку, 1989.
3. Хаютин А.Д. Общественно- политическая терминология Жан Жака Руссо в свете современного понтмания терминов. Дисс. …. канд. филол.наук, Самарканд 1970.

А.Г.Гулиева

Сложные социально-политические термины в современном английском и азербайджанском языках

Резюме

Большую группу социально-политических терминов составляют интернационализмы. В эту группу также входят экзотические термины. Интернационализмы были сформированы в результате общения, обмена мнениями в мировых языках. В этом случае привлекают внимание древнегреческие и латинские реалии. Основную часть социально-политических терминов составляют термины из вышеуказанных источников. Основную базу интернационализмов составляют европейские языки. В данной статье исследуются эти вопросы на основе материалов азербайджанского и английского языков.

A.G.Guliyeva

Complex Social and Political Terms in Modern English and Azerbaijani Languages

Summary

A large group of social and political terms constitute the internationalism and mutual terms. This group also includes exotic terms. Internationalism was formed as a result of dialogues,

exchanging of the views in the world's languages. Ancient Greek and Latin realities attract attention in this case. The main part of the socio-political terms constitute the terms of the above sources. Internationalisms mainly consist of European languages. This article examines these questions on the basis of materials of the Azerbaijani and English languages.

Rəyçi: filol.f.d., dos. A.X.Ramazanova

Redaksiyaya daxil olub: 07.02.2017

N.H.QULİYEVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

«AZƏRBAYCANÇILIQ» KONSEPTİNİN ƏSAS MAHİYYƏTİ VƏ REPREZENTASİYA VASİTƏLƏRİ

Açar sözlər: *Azərbaycançılıq, konsept, subkonsept,aspekt, reprezentasiya*
Ключевые слова: *Азербайджанство, концепт, субконцепт, аспект, представление*
Key words: *Azerbaijanism, concept, subconcept, aspect, reprezentation*

"Azərbaycan dilinin izahlı lüğəti"ndə «azərbaycanlı» məqaləsində yazılır: «Azərbaycan SSR-nin və Cənubi Azərbaycanın əsas əhalisini təşkil edən, türk dillərindən birində danışan xalq və bu xalqa mənsub adam; azəri» (1, s.64). Vikipediyada bir qədər fərqli tərif verilir: «Azərbaycanlılar, yaxud, azərilər və ya Azərbaycan türkləri - Azərbaycan Respublikasında, həmçinin İran Azərbaycanında yaşayan əhalinin əsas hissəsini təşkil edən türk xalqı». Tarixi dövrlə bağlı terminoloji fərqlər nəzərə alınmaqla bu iki tərif əsasən üst-üstə düşür və gördüyümüz kimi, burada əsas amil kimi türk xalqlarından birinin məskunlaşma yerindən çıxış edilir. Tarix boyu həmin ərazilərdə eyni zamanda bir neçə türk (Azərbaycan) dövlətinin olması, sərhədlərin tez-tez dəyişməsi dövlət Böyük Britaniyada olduğu kimi ərazi anlamını deyil, dil və türk xalqlarına mənsubluq amilini aparıcı etmişdir. Yalnız XX əsrin sonunda Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dil amilinə ərazi amili də əlavə olundu. Lakin azərbaycanlıların yalnız Azərbaycan Respublikası hüdudlarında yaşamadığı nəzərə alınaraq yenə də dil aparıcı amildir. Məhz bu dövrdən başlayaraq xalqı vahid bir amal ətrafında birləşdirən daha geniş məna tutumlu amil ön plana çıxmağa başladı və bu da «azərbaycançılıq»dır. İndi «azərbaycançılıq» Azərbaycanda multikulturalizm konseptinin əsas aspektlərindən biridir. Həmin konseptual sferanın formalaşmasında Ulu Öndər Heydər Əliyevin xidmətləri əvəzsizdir. R.Cəbrayılov buna istinadən yazır ki, «Böyük strateq azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid sistem və konsepsiya halına gətirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri əsasına çevirdi. Məhz Heydər Əliyev dühasının səyi ilə azərbaycançılıq mahiyyətcə real məzmun daşıyaraq praktikada realizə imkanları qazandı» (7). Müəllif qeyd edir ki, «Ulu öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir» (7). Məlum olur ki, nəzərdən keçirdiyimiz konsept xüsusi siyasi məna kəsb edir və Azərbaycan xalqını vahid ideologiya ətrafında birləşdirən milli ideyaya çevrilir.

Müəllifin daha bir fikrini nəzərdən keçirək: «Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur» (7). Burada konseptin əsas elementləri kimi «dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdir»mək, «vətəndaş birliyi və vahid sosium» elementləri fərqləndirilir. Azərbaycançılıq ideyaları Azərbaycan xalqına məxsus etnik və psixoloji amillərlə, ictimai təfəkkürün qaynaqları ilə, xalqın məişət həyatı ilə dərindən bağlı olan düşüncə və təsəvvürlər

bazasında yaranır. Azərbaycançılıq ideyalarının formalaşmasında insan və cəmiyyət amili xüsusi yer tutur (8).

«Azərbaycançılıq» konsepti ilə bağlı daha bir neçə misalı nəzərdən keçirək: «Azərbaycan müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olub. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilib. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası bu gün də mövcuddur. Bu ideya ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir… azərbaycançılıq Azərbaycanın ərazisində yaşayan xalqın həmrəyliyi ilə məhdudlaşmır. Bu ideologiya davakar millətçiliyi inkar etməklə bərabər, Azərbaycanın müstəqilliyini arzulayan, onun güclənməsini istəyən insanları birləşdirir… Azərbaycançılıq kontekstində vətəndaşlıq, vətənpərvərlik və loyallıq fərdin cəmiyyətə və dövlətə vahid yanaşma sistemdir. Bu üçlüyün vəhdətində birlik və sabit dövlət quruluşu mümkündür» (9). «Hər bir xalqın özünəməxsus ənənələri, tarixi, mədəniyyəti, dəyərləri, adəti, milli xüsusiyyətləri var. Sadalanan bu faktorlar bütövlükdə həmin xalqın bir növ milli ideologiyasını təşkil edir. ...formaca müxtəlif, məzmunca eyni olan dəyərlər toplusu milli ideologiyanın özəyini təşkil edir» (10). Mətnlərdə «azərbaycançılığ»ı səciyyələndirən, onun komponentləri kimi çıxış edən «milli və dini tolerantlıq», «adət-ənənələri, milli-mənəvi dəyərləri», «sosiumun həmrəyliyi», «vətəndaşlıq, vətənpərvərlik və loyallıq» kimi leksemlər və söz birləşmələri işlədilmişdir.

Digər bir misal: «Milli ideologiyamız olan azərbaycançılıq bu ölkədə, kimliyindən asılı olmayaraq, bütün fərqli etnikləri bir arada birləşdirir. ...bu ideya ətrafında, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkədəki bütün insanlar birləşib. Bu baxımdan azərbaycançılıq ideyası, demək olar ki, əhalinin bütün spektrini əhatə edir» və ya «Azərbaycanda yaşayan bütün xalqların azərbaycançılıq ideyasını birləşdirici, vəhdət yaradıcı bir ideya kimi qəbul etməsilə yanaşı, həm də bu ideologiya cəmiyyətdə oturuşub» (10).

«İdeologiya cəmiyyətdə milli birliyi və ümumxalq münasibətlərini qorumaq, millətin və onun dövlətinin mövqeyini izah və təsdiq etmək üçün yaradılır. O, xalqın milli-mənəvi varlığının ilkin əlamətlərindəndir; xalqın kimliyini əks etdirən təfəkkür, adət və inanclar sistemidir. Dil, ərazi, din və ideoloji birlik xalqın, millətin və dövlətin tarixi varlığının əsas atributlarıdır» (11). Deməli, «azərbaycançılıq» «bu ölkədə, kimliyindən asılı olmayaraq, bütün fərqli etnikləri bir arada birləşdirir», «həmrəylik missiyasını» yerinə yetirir, «demək olar ki, əhalinin bütün spektrini əhatə» edir. Bundan başqa, bu konsept Azərbaycanda yaşayan bütün xalqların birləşdiricisi qismində çıxış edir və bunlarda da Azərbaycandakı xalqların tarixi, adət-ənənələri, dil və mədəniyyətlərinin qorunub inkişaf etdirilməsi vurğulanır və eyni zamanda bir daha dil, ərazi, din məsələləri də önə çəkilir.

"Azərbaycanlı" və "azərbaycançılıq" konseptlərinin «British» və «English» konseptləri ilə müqayisəsi göstərir ki, konseptual mənada və konseptosferasının əhatə sahələrinə görə «English» konsepti azərbaycanlı, «British» konsepti isə (britaniyaçılıq mənasında) azərbaycançılıq konseptinə yaxındır. Bununla yanaşı, «British» konseptosferası «English» konsptosferasından, «azərbaycançılıq» isə azərbaycanlı konseptosferasından daha geniş olsa da, onların elementləri nəzərdən keçirdiyimiz misallardan göründüyü kimi, bir çox məqamlarda üst-üstə düşür.

«Britaniyaçılıq» konseptinin aspektləri kimi «tolerance» (dözümlülük, tolerantlıq), «religiousness» (dindarlıq), «liberalism» (liberalizm), «nationalism» (millətçilik), «patriotism» (vətənpərvərlik), «culture» (mədəniyyət) anlayışları da çıxış edir. Bu anlayışlar azərbaycançılıq konseptinin də tərkib hissələri olub son nəticədə «multikulturalizm» konsepti ilə kəsişir və müəyyən kontekstlərdə onun reprezentasiyasına xidmət edirlər. Bununla belə, Azərbaycan və Britaniya linqvokulturoloji konseptosferalarında onlar tam üst-üstə düşmürlər. Bu da birinci növbədə hər millətin, etnik birliyin şüurunda onların tarixən formalaşmış

özəllikləri ilə bağlıdır. Bunlardan bəzilərini Azərbaycan mediasferasından götürülmüş materiallar əsasında nəzərdən keçirək və onların özəlliklərini müəyyənləşdirməyə cəhd edək.

Bu anlayışların hər biri bu və ya digər dərəcədə Azərbaycanda milli özəlliklərə malikdir və son nəticədə məhz bu özəlliklər «azərbaycançılıq» konseptinin əsasını təşkil edir və onu formalaşdırır. Qeyd edilir ki, «Azərbaycan xalqının milli xarakteri və mentalitetinin təsiri altında formalaşan milli ideologiyanı - azərbaycançılıq ideologiyasını Ulu Öndər Heydər Əliyev azərbaycanlıların milli ruhunun qoruyucusu, ümumdünya sivil məkanında milli özünütəsdiqin əsas amili hesab edirdi» (12). V.Ömərov fikrini davam etdirərək bildirir: «...mentalitet şüur fenomeni kimi, hər şeydən əvvəl, sosiomədəni dəyərlərin sintezinin təzahürü olmaqla cəmiyyət və insan həyatının bir çox sahələrinə nüfuz etdiyindən, çoxlu ölçülərdə və xarakteristikalarda üzə çıxır. ...o, intellektlə iradədə əksini tapmış ruhi və fəhmi qavramanın ittifaqının fərdin mənfi şüurunda, düşüncə tərzində təcəssümüdür, buna görə də insanın formalaşmış fikirləri və ideyaları praktik siyasət üçün hələ kifayət deyildir, başlıca şərt bunların sosial reallaşmasıdır» (12). Vurğulamaq istərdik ki, mentalitet xalqın minillərdən keçib gələn təcrübəsinin, formalaşmış adət-ənənələrinin, dini və mədəni dəyərlərinin ən ümdə xüsusiyyətlərini özündə cəmləyərək bir toplum kimi təzahür edir. Buna görədir ki, Azərbaycan xalqının tolerantlığı, dindarlığı, vətənpərvərliyi və s. kimi xüsusiyyətlərinin özəllikləri bu gün Azərbaycan xalqının birləşdirici ideyası olan azərbaycançılığın əsasını təşkil edir və onu başqalarından fərqləndirir.

Azərbaycanda tolerantlıq ilk növbədə dini dözümlülük kimi dəyərləndirilir. Əgər ingilis konseptosferasında onun arxasında irqi, milli, sosial dözümlülük də durursa, Azərbaycan xalqının tarixi formalaşma şəraitlərinin təsiri altında həmin anlayışın əsasən dini dözümlülük önə çıxmışdır. Bunu mediadiskursdan götürülmüş bir neçə nümunədə nəzərdən keçirək: «İstər yəhudi, xristian, müsəlman olsun, istərsə də türk, avar, acar və digər etnik mənsubiyyəti olan insanlar bu cür düşüncə ilə fəaliyyət göstərsələr onların cəmiyyətə verdikləri fayda daha çox olacaq» (13).

Burada dini azadlığı müxtəlif millətlərin dinc yanaşı yaşayıb fəaliyyət göstərməsi ilə birgə nəzərdən keçirilsə də, bir qədər sonra müəllif fikrini dəqiqləşdirir və məhz din məsələsi üzərində dayanır: «… müstəqillik dövründə Azərbaycanda 2 minə yaxın məscid tikilib, son 10 il ərzində 80 məscid əsaslı təmir edilib. Ölkədə rəsmi şəkildə 525 islam, 34 qeyri-islam təmayüllü dini icma, eyni zamanda, 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Avropanın ən iri sinaqoqlarından biri 2003-cü ilin mart ayında Bakı şəhərində açılıb. Bütün bunlar isə bir daha Azərbaycanda dinlərin bərabər yaşaması üçün bütün imkanların yaradıldığından xəbər verir» (13).

F.Ədalət Azərbaycanda mövcud olan tolerantlığı ilk növbədə dini tolerantlıq kimi şərh edir: Quba rayonu Qırmızı qəsəbə Dağ Yəhudiləri dini icmasının sədri B.Simonduyev: «Azərbaycanlılarla yəhudilər arasında dostluq və tolerant münasibət olmasaydı, biz burada dinimizi saxlaya bilməzdik. Burada bizim dinimizə, adət-ənənələrimizə hər cür şərait yaradılıb. Bizim bu dostluğumuzu, Azərbaycandakı tolerantlıq mühitini pozmaq istəyənlər və gözü götürməyən qüvvələr də var. Allah onları niyyətlərinə çatdırmasın inşallah» (13).

Alban-Udi Xristian dini icmasının sədri R.Mobilinin fikrincə, Azərbaycanda yaşayan xalqları birləşdirən əsas dəyər azərbaycançılıq fəlsəfəsi olub: «Burada dinlərarası dialoqda heç bir problem yaşanmır. Hər kəs öz adət-ənənələrini, dini inanclarını heç bir təzyiq olmadan müstəqil şəkildə yerinə yetirir» (13). Bu nümunələrdə tolerantlıq əsasən dini dözümlülük, müxtəlif dinlərin nümayəndələrinin dinc yanaşı yaşaması, bir-birinə hörmətlə yanaşması baxımından nəzərdən keçirilir. Nümunələrdə xalqların bir-birinə hörmətlə yanaşması fikri də önə çəkilsə də, bu fikir də son nəticədə dini tolerantlıqla bağlanır. Bu da göstərir ki, tolerantlıq konsepti Azərbaycanda ingilis mediadiskursuna nisbətən dar və konkret mənada işlədilir.

Daha bir neçə misala müraciət edək: «Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Heç vaxt Azərbaycanda milli, yaxud da ki, dini zəmində ayrı-seçkilik olmayıb, yoxdur və olmayacaq. Azərbaycanda yaşayan bütün insanlar bizim

dəyərli vətəndaşlarımızdır və Azərbaycanda hökm sürən dini dözümlülük, dini tolerantlıq əminəm ki, başqa yerlərdə də öyrənilə bilər» (14). «Azərbaycana irqçilik, ksenofobiya, dini dözümsüzlük, terror və ekstremizm kimi hallar həmişə yad olub. Azərbaycan torpaqlarının erməni işğalçılarının təcavüzünə məruz qalmasına, Xocalı faciəsinin törədilməsinə baxmayaraq, dinlərarası dialoq, tolerantlıq, ermənilərin mənsub olduğu dinin davamçılarına qarşı heç bir zəiflik göstərmədən davam etdi. Bu ənənənin dinlərin qarşıdurması kimi təqdim olunmasına Azərbaycan dövləti və xalqı imkan vermədi» (14).

Bu nümunələrdə multikulturalizm anlayışı işlədilməsə də, onlar bütövlükdə məhz onun Azərbaycandakı vəziyyətini əks etdirirlər. Müəllif Azərbaycanda «müxtəlif millətlərin bir ailə kimi» yaşamasını, «milli, dini zəmində ayrı-seçkiliyin» olmamasını, «dini tolerantlıq», «dini dözümlülüyün» olmasını önə çəkir, nəzərdən keçirdiyimiz multikulturalizm konseptini əks tərəfdən səciyyələndirən, daha doğrusu ona yad olan, lakin konseptin anlaşılması üçün vacib olan «irqçilik, ksenofobiya, dini dözümsüzlük, terror və ekstremizm» kimi anlayışları səsləndirir və onlara Azərbaycan cəmiyyətində yer olmadığını vurğulayır.

Azərbaycan Milli Məclisinin yəhudi əsilli deputatı Y.Abramov tolerantlığın bir Azərbaycan modeli olduğunu yazır: "Mən yəhudi etnosundanam. Yəhudilərə münasibətdən, onların yaşamından deyə bilərəm ki, Azərbaycan dövləti qədər nə MDB məkanında, nə də bütövlükdə dünya miqyasında tolerantlıq nümunəsi ola biləcək dövlət yoxdur. Həm konstitusiya yolu ilə, həm də cəmiyyətin özünün ənənələri ilə bütün millətlərə bir dözümlülük nümayiş etdirilir. Bütün millətlərin nümayəndəsi Azərbaycanda özünü doğma hesab edə bilir. Ən önəmlisi olan da budur. Çünki bunu başqa dövlətlərdə görə bilmirəm. Yəhudilər artıq 2500 ilə yaxındır ki, Azərbaycanda yaşayırlar. Yəhudilər Sasanilərin dövründən burada məskunlaşmış bir etnosdur. Lakin tarixin heç bir dövründə yəhudilərə qarşı nə milli, nə dini, nə də məişət zəminində heç bir arzuolunmaz münasibət olmayıb. Bu gün Bakı Dövlət Universitetində ivrit fakültəsi var. Fransa kimi dünyanın beşiyi sayılan bir ölkədə isə yəhudi qəbiristanlığı, sinaqoqları dəfələrlə təhqir olunub. Azərbaycanda belə hadisələrə heç zaman rast gəlinməyib. …Gözümü açıb Qubada, Bakıda kilsə görmüşəm. Dünyada yəhudilərin kompakt yaşadığı iki yer var, biri Yerusəlim, biri də Quba. Üçüncü belə bir yer yoxdur. Qubada avropalılara, hətta Avropa Şurasının prezidentinə 150 metr məsafədə məscid, kilsə və sinaqoqun yanaşı yerləşdiyini göstərəndə heyrətləniblər. İstər dini, istərsə də milli zəmində Azərbaycan bütün dünya üçün açıq bir dövlətdir. Bu yaxınlarda Bakıda dövlət ehtiyacı üçün sinaqoq sökülməli oldu. Bu məsələ ortaya çıxanda prezident İlham Əliyev göstəriş verdi ki, yeni sinaqoq tikilənə qədər o sökülməsin. Hansı ölkədə belə tolerantlıq var? Bakıda cəmi bir neçə ailə katolik vardı, onlar üçün katolik kilsəsi tikildi. Bu detallar Azərbaycanın nümunə olacaq bir model olduğuna sübutdur» (15).

Multikulturalizmin Azərbaycanda məhz «həyat tərzi» olması da bununla şərtlənir və onun konsept kimi izlərini Azərbaycan folkloru və poeziyasında axtarmaq lazımdır. Çünki azərbaycanlılar harada olurlarsa olsunlar, onları fərqləndirən Vətənə məhəbbət, doğma torpağa bağlılıqdır:

Vətənə gəldim, imana gəldim.
Gözsüz qalmaq olar, Vətənsiz yox!
Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır (2, s.13).

Payız qışdan əzəldi,
Yarpaq tökən xəzəldi.
Vətən viran da olsa,
O, Cənnətdən gözəldi (3, s.356)

Azərbaycanlıların milli mentaliteti və bundan irəli gələrək azərbaycançılığın əsas mahiyyətini S.Rüstəmin "Azərbaycana gəlsin" şeirində görmək olar:

...Qanımızda dövr edən sədaqətdir, sədaqət,
Günəşdən də parlaqdır gözümdən bu həqiqət.
Dostuna, qardaşına təmənnasız məhəbbət,
Hörmət görmək istəyən Azərbaycana gəlsin!

Payızında, qışında, baharında, yazında
Dinir dostluq nəğməsi konüllərin sazında.
Sabaha addımlayan mərd oğlunda, qızında
Qeyrət görmək istəyən Azərbaycana gəlsin! (6, s. 20-21).

Bu folklor nümunələrində azərbaycanlının ən ümdə xüsusiyyəti kimi vətəninə bağlılıq bariz qabardılır. «İngilis» (ingiltərəli) konseptosferasının əsas elementləri fərdiyyətçiliklə bağlı təzahür etdiyi halda, azərbaycanlı konseptosferasının əsas elementləri daha genişdir və bütövlükdə bütün millətə xas olan elementlərlə bağlıdır. Poetik nümunələrə istinadən onları açar sözlər kimi vermək olar: «vətənə bağlılıq», «sədaqət», «qüdrət», «qəhrəmanlıq», «sadəlik» və s.

Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. 1-ci cild. Bakı: Elm, 1966.
2. Atalar sözü. Bakı: Yazıçı, 1981.
3. Bayatılar. Bakı: Azərnəşr, 1956.
4. Cahangirov F. Dil və mədəniyyət. Bakı: Elm və təhsil, 2014.
5. Vəliyeva N. Mədəniyyətlərarası dialoq və qlobal kommunikasiya şəraitində təhsilin dili və dilin təhsili. Bakı: Elm və təhsil, 2016.
6. Rüstəm S. Seçilmiş əsərləri. Üç cilddə. 1 sild. Bakı: Şərq-Qərb, 2005.
7. http://www.anl.az/down/meqale/azerbaycan/2011/may/175824.htm
8. http://sesqazeti.az/az/news/kivdf/302636
9. http://modern.az/az/news/47501#gsc.tab=0
10. http://www.baki-xeber.com/v5/00077675.html
11. http://www.sherg.az/site/id4881/Az%C9%99rbaycan%C3%A7%C4%B1l%C4%B1q...#.V71uS02LTiw
12. http://www.anl.az/down/meqale/ses/2012/fevral/230074.htm
13. http://www.bizimyol.info/news/39650.html
14. http://www.anl.az/down/meqale/express/2010/iyun/125221.htm
15. http://musavat.com/news/gundem/dini-ve-milli-tolerantligin-azerbaycan-modeli_89870.html

Н.Г.Гулиева

Основная суть концепта «азербайджанство»и способы его представления

Резюме

В настоящее время концепт «азербайджанство» является одним из главных аспектов концептосферы «мультикультурализма» в Азербайджанской республике. В формировании данной концептуальной сферы (Azerbaijanism) заслуги общенационального лидера Гейдара Алиева огромны. В данной статье нами найдены новые аспекты реализации концепта «азербайджанство» в азербайджанской поэзии и фольклоре. В рамках данной статье автором рассматриваются вышеназванные проблемы.

N.H.Guliyeva

The Main Essence of “Azerbaijanism” Concept and Its Means of Representation

Summary

At present, “Azerbaijanism” is one of the main aspects of the “multiculturalism” concept in Azerbaijan Republic. The national leader Heydar Aliyev’s merit in the formation of this conceptual

sphere (Azerbajanism) was matchless. We can find the aspects of "Azerbaijanism" as a concept in the folklore and Azerbaijan poetry. Above mentioned problems are investigated in this article which presented for publication.

Rəyçi: prof. F.F.Cahangirov

Redaksiyaya daxil olub: 14.02.2017

Ü.M.QULİYEVA
filologiya elmləri namizədi

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

SÖZ BİRLƏŞMƏLƏRİNDƏ SİNTAKTİK ƏLAQƏLƏR

Açar sözlər: *söz, söz birləşmələri, sintaktik əlaqələr, komponent, məna, müasir ingilis dili, dilçilik.*
Ключевые слова: *слово, словосочетания, синтаксические связи, компонент, значение, современный английский язык, языкознание.*
Key words: *words, word combinations, syntactical relations, component, meaning, Modern English, linguistics.*

Söz birləşməsini əmələ gətirən sözlər arasında həm semantik, həm də sintaktik əlaqələr olur. Sözlər arasında semantik əlaqələrin əsasını təbiətdə olan obyektiv əlaqələr təşkil edir. Obyektiv aləmdə əşyalar və hadisələr arasındakı münasibət və əlaqələrin forması çox müxtəlif və rəngarəng olduğu kimi, sözlər arasındakı semantik əlaqələr də müxtəlif və rəngarəng olur. **An interesting book** birləşməsində əşya ilə onun əlaməti, **five books** birləşməsində əşya ilə onun kəmiyyəti, **egg yolk** birləşmsində müəyyən bir bütövlə onun hissəsi, **to read a book** birləşməsində hərəkətlə onun obyekti, **to go home** birləşməsində hərəkətlə onun istiqaməti və s. arasındakı münasibətlər ifadə olunur. Sözlər arasındakı semantik əlaqələr ümumiləşdirilərək, adətən, aşağıdakı şəkildə qeyd edilir: 1) predikativ əlaqə, 2) obyekt əlaqə, 3) atributiv əlaqə, 4) relyativ əlaqə. Bu əlaqələr haqqında ətraflı danışılacaq.

Sözlər arasındakı əlaqələrin ikinci cəhətini onların (əlaqələrin) ifadə formaları təşkil edir. Bu əlaqələr sintaktik əlaqələr adı ilə qeyd edilir. Sintaktik əlaqələr sözlərin sintaktik cəhətdən birləşməsi nəticəsində əmələ gəlir.

Dilçilikdə ənənəvi olaraq sintaktik əlaqələrin iki formada təzahür etdiyi qeyd olunur: tabesizlik əlaqəsi və tabelilik əlaqəsi. Lakin müasir dilçilərin bəziləri bu iki sintaktik əlaqə növündən başqa üçüncüsünü də qeyd edirlər. L.S.Barxudarov üçüncü əlaqə növünü "predikativ", A.M.Muxin isə "sosiativ - predikativ" əlaqə adlandırır. Bu termin qənaətbəxş hesab oluna bilməz. Belə ki, tabesizlik və tabelilik əlaqələri deyəndə söz birləşməsində komponentlərin yerinə yetirdiyi fiınksiya nəzərə alınmır, lakin "predikativ" termininin mahiyyətinə görə komponentlər arasındakı əlaqənin mübtəda-xəbər əlaqəsinə uyğun olduğu nəzərə alınır, yəni komponentlərin sintaktik funksiyası təsvir edilmiş olur.

Hələ L.Yelmslev yazırdı ki, iki komponent arasında əlaqələrin üç növü ola bilər: 1) hər iki komponent bir-birindən asılı deyil, bu tabesizlik (koordinasiya) əlaqəsinə uyğun gəlir; 2) birinci komponent ikincidən asılı deyil, bu tabelilik (subordinasiya) əlaqəsinə uyğundur və 3) birinci komponent ikincidən asılıdır, ikinci komponent də öz növbəsində birincidən asılıdır, bu əlaqə növünü Yelmslev "qarşılıqlı aslılıq" (interdependence) adlandırmışdır (7, s.45).

Bir halda ki tabesizlik, tabelilik və qarşılıqlı asılılıq əlaqələri mücərrəd şəkildə komponentlər arasındakı qarşılıqlı mövqe **(status)** anlayışını əks etdirir, onları sintatik əlaqələrin növləri kimi səciyyələndirmək olar. V.V.Burlakova bu üç növ əlaqənin dildə mövcud olan bütün sintaktik əlaqələri ehtiva etmədiyini qeyd edir və dördüncü növ sintaktik əlaqəni - akkumulyativ əlaqəni də bu siyahıya daxil edir. Bu əlaqənin mahiyyəti, habelə tabesizlik, tabelilik və qarşılıqlı asılılıq əlaqələrinin mahiyyəti nədən ibarətdir? (4, s.55).

Qeyd etmək lazımdır ki, bu nöqteyi-nəzər qənaətbəxş olsa da dilçilərin hamısı tərəfindən qəbul olunmur. Müəyyən dilçilər tabesizlik əlaqəsini başqa cür başa düşürlər, onların fikrinə görə, tabesizlik əlaqəli söz birləşməsinin komponentləri həmin birləşmədən kənarda yerləşən başqa bir sözə münasibətdə eynilik təşkil edirlər, məsələn, **N. had been shocked and upset**

(I.Murdoch) cümləsində, bu müəlliflərin fikrinə görə, **shocked** və **upset** sözləri **had been** formasına münasibətdə eynilik təşkil etdiyi üçün tabesizlik əlaqəsindədir. Analoji olaraq, **Rigderı and his friends had rushed into School House (I.Murdoch)** cümləsində **Rigden** və **his friends** sözləri **and** tabesizlik bağlayıcısı ilə birləşdiyinə görə deyil, **had rushed** sözünə paralel münasibətli olduqlarına görə tabesizlik əlaqəli söz birləşməsi əmələ gətirir.

Tabelilik əlaqəsinin mahiyyəti, demək olar ki, əksər dilçilər tərəfindən eynimənalı qəbul olunur. Ənənəvi olaraq, belə hesab edirlər ki, tabelilik əlaqəsi əlaqədar olan vahidlərin qeyri-bərabər hüquqlu olduğunu əks etdirir. Bu əlaqə prosesində komponentlərdən biri digəri və ya digərləri üzərində dominantlıq təşkil edir və onları həm forma cəhətdən, həm də yerləşmə cəhətdən özünə tabe edir (asılı komponentlərin baş üzvdən sonra, əvvəl və ya hər iki tərəfdən yerləşməsi).

Tabelilik əlaqəli söz birləşmələri daxili strukturuna görə müxtəlif cür olur - 1) asılı üzvlər tabeedici üzvdən əvvəl (solda) yerləşə bilər (belə strukturlar reqressiv strukturlar adlanır): **an old brownstone house; fairly well; rather good; completely still; to always resent,** 2) asılı üzvlər tabeedici üzvdən sonra (sağda) yerləşə bilər (belə struktular proqressiv strukturlar adlanır): **a list of names; bad for the health; to hear of it; to put it in the envelope,** 3) asıb üzvlər tabeedici üzvün hər iki tərəfində yerləşə bilər: **a folded sheet of paper; no particular comments elswhere.**

Tabelilik əlaqəsinin göstəricisi fleksiyalarla (sözün sonuna əlavə olunan və morfoloji-sintaktik mənaların ifadəsinə xidmət edən morfem) zəngin olan dillərdə sintaktik cəhətdən asılı komponentin formasında təzahür edir. Lakin müasir ingilis dili fleksiyalarla zəngin olmadığı üçün, sözlər subordinativ funksiya yerinə yetirdikdə belə, adətən, forması dəyişmir. Çox nadir hallarda asılı komponentin forması dəyişə bilər, məsələn, feli birləşmələrdə şəxs əvəzliyi ilə ifadə olunmuş, obyekt bildirən asılı komponent tabeedici sözün təsiri altında formasını dəyişir: to ask him; to know them; to teli me. Buna görə də, müasir ingilis dilində söz birləşməsində tabelilik əlaqəsini təyin etmək üçün başqa bir üsul, müəyyən əlamət (göstərici) tələb olunur. V.V.Burlakova bu məqsədlə bir üsul təklif etmişdir: müasir ingilis dilində söz birləşməsində tabelilik əlaqəsini təyin etmək üçün onu təşkil edən komponentləri cümlə üzvləri çərçivəsində təsnif etmək, yəni sintaktik funksiyasını müəyyənləşdirmək lazımdır (4, s.17).

Müəllif qeyd edir ki, bu üsul həm söz birləşməsində tabelilik əlaqəsini təyin etməyə imkan verir, həm də söz birləşməsində hansı komponentin asılı, hansının tabeedici olduğunu da müəyyənləşdirməyə imkan verir. Məsələn, **very big houses** birləşməsində **"very"** kəmiyyət zərfinin (intensifikator) və **"big"** sifətnin yerinə yetirdiyi sintaktik funksiya mahiyyətinə görə bu sözlərin asılı komponentlər olduğuna işarə edir (**very-** kəmiyyət zərfliyi, **big** -təyin). Nəzərdən keçirilən söz birləşməsində **"houses"** isminin sintaktik funksiyası açıqlana bilmədiyi üçün, yəni heç bir sintaktik funksiya yerinə yetirmədiyi üçün, bu komponent söz birləşməsinin baş üzvü hesab olunur. Müəllif əlavə edir ki, əgər bu söz birləşməsini fel daxil etməklə genişləndirsək, məsələn, **to see very big houses,** alınan strukturda həm zərf və sifət, həm də isim sintaktik funksiya yerinə yetirir (sözönüsüz tamamlıq funksiyası), beləliklə, bunların hər üçü asılı komponentlərdir. Lakin felin məsdər forması **"to see"** nəzərdən keçirilən bu strukturda heç bir sintaktik funksiya yerinə yetirmir, deməli, söz birləşməsinin baş üzvüdür.

Yuxarıda qeyd olunduğu kimi, V.V.Burlakovanın fikrinə görə tabesizlik, tabelilik və qarşılıqlı asılılıq əlaqələri, sintaktik cəhətdən nizamlanımış birləşmələrin (söz birləşmələrinin) komponentləri arasında meydana gələn sintaktik əlaqələrin bütün növlərini ehtiva etmir. Müəllif qeyd edir ki, L.Yelmslevin iki komponent arasında meydana gələn üç sintaktik əlaqə növünü (tabesizlik, tabelilik, qarşılıqlı asılılıq) təyin etməyi məntiqi cəhətdən düzgün hesab oluna bilər, lakin dil materialı göstərir ki, məntiq səviyyəsində təyin olunan əlaqələr qrammatik nizamlanmış strukturlarda meydana gələn bütün sintaktik əlaqələri əhatə etmir (3, s.35).

Məsələn, **to write his friend a letter** strukturundakı **his friend a letter** birləşməsini nəzərdən keçirsək aydın olar ki, bu birləşməni təşkil edən komponentlər arasında müəyyən

əlaqə mövcuddur. Bu fakt onunla sübut olunur ki, komponentlərin yerlərini dəyişdikdə onlardan biri formal modifikasiyaya uğrayır: **(to write) his friend a letter - (to write) a letter to his friend.** (mötərizədə verilən vahidlər nəzərdən keçirilən söz birləşməsinə aid deyil və yalnız bu birləşmənin qrammatik nizamlanmış struktur kimi təyin edilməsində yardımçı rolu oynayır). **A letter to his friend** birləşməsinə yuxanda adı çəkilən üç sintaktik əlaqənin heç biri uyğun gəlmir: bu birləşmənin komponentləri tabesizlik əlaqəsində deyil, çünki onları **and** tabesizlik bağlayıcısı ilə birləşdirmək mümkün deyil; komponentlər tabelilik əlaqəsində də deyil, çünki onlardan biri digəri üzərində dominantlıq təşkil etmir, onu özünə tabe etmir; komponentlər qarşılıqlı asılılıq əlaqəsində də deyil, çünki komponentlərin hər ikisi bir-birindən asılı olmadan, ayrılıqda işlənə bilər: **to write a letter; to write to his friend.** Qarşılıqlı asılılıq əlaqəsi ilə xarakterizə olunan söz birləşməsində isə bu xüsusiyyət yoxdur.

Beləliklə, bu cür söz birləşmələrində sintaktik əlaqə növü aydın ifadə edilmir və bu birləşmənin sintaktik struktur kimi təyin edilməsində strukturdan kənarda yerləşən əlavə yardımçı vahid tələb olunur. Belə söz birləşmələri ilk baxışdan vahidlərin bir yerə "toplaşmasını" xatırladır. Bütün bunlara görə V.V.Burlakova bu əlaqə növünü akkumulyativ (latınca: **accumulatio** - toplaşma) əlaqə adlandınr (3, s.42).

Akkumulyativ əlaqə təkcə iki müxtəlif növ tamamlıqdan ibarət birləşmələrdə deyil, həm də başqa strukturlarda da müşahidə olunur. Məsələn, tamamlıq + zərflik tipli birləşmələrdə: **(to come) home very early, (to see) a man for three minutes.**

Akkumulyativ əlaqə ən çox atributları bir neçə müxtəlif nitq hissələri ilə ifadə olunmuş atributiv söz birləşməsində müşahidə olunur: **every average (boy); many forgotten (legends); these important (decisions); some old (cards).** Bu birləşmələrdə atributlar arasında sintaktik əlaqə mövcuddur, çünki onların bir-birinə nisbətən mövqeyi qəti müəyyənləşdirilmişdir, onların yerini dəyişmək mümkün deyil - bu halda səhv birləşmələr əmələ gələ bilər: ***forgotterı many (legends); *important these (decisions).**

Yuxarıda qeyd olunan **many forgotten (legends); some old (cards)** tipli söz birləşmələrinin komponentləri heç bir tabesizlik bağlayıcısı ilə birləşdirilə bilməz, buna görə də onlar arasındakı əlaqəni tabesizlik əlaqəsi hesab etmək olmaz. Bu əlaqəni tabelilik və qarşılıqlı asılılıq əlaqəsi də hesab etmək olmaz, çünki atributlardan heç biri digəri üzərində dominantlıq təşkil etmir və bu komponentlər bir-birindən asılı olmadan, ayrılıqda təyin funksiyası yerinə yetirə bilər: **many legends; forgotten legends; some cards; old cards.** Beləliklə, bu və bu növ atributiv söz birləşmələrində atributlar arasındakı sintaktik əlaqə akkumulyativ əlaqə hesab olunur.

Beləliklə, söz birləşməsində komponentlərin qarşılıqlı mövqeyini (statusunu) əks etdirən sintaktik əlaqələrin qeyd olunan dörd növü məqbul sayılır: tabesizlik, tabelilik, qarşılıqlı asılılıq və akkumulyasiya.

Müasir ingilis dilində sözlər arasında tabelilik əlaqələri konkret ifadə formasından asılı olaraq üç yerə ayrılır: 1) uzlaşma əlaqəsi, 2) idarə əlaqəsi və 3) yanaşma əlaqəsi. Uzlaşma və idarə əlaqələrinin əhatə dairəsi, müasir ingilis dilində, məhduddur (ingilis dilində qapanma əlaqəsinin olduğunu deyimlər də vardır).

Dilçilikdə mövcud ənənəyə görə uzlaşma, idarə və yanaşma tabelilik əlaqəsinin konkret ifadə formaları olaraq eyni səviyyəyə aid olan, ayrılıqda baxılan əlaqələrdir. Lakin son illər müasir ingilis dili materialı üzərində aparılan tədqiqatlar göstərir ki, uzlaşma, idarə və yanaşma əlaqələrinin mahiyyətini dərindən, hərtərəfli təhlil edəndə aydın olar ki, bunları eyni səviyyəyə aid etmək olmaz. Məsələn, **he knows, she understands** birləşməsində şəxs əvəzliyi ilə fel arasındakı əlaqə, ənənəvi olaraq, uzlaşma əlaqəsi kimi səciyyələndirilir, lakin **he knew, she understood** birləşmələrindəki əlaqə isə yanaşma əlaqəsi kimi səciyyələndiridir. Qeyd olunduğu kimi nəzərdən keçirilən birləşmələrdə yanaşma əlaqəsi bir tərəfdən şəxs əvəzliyinin digər tərəfdən felin qarşılıqlı valentlik xüsusiyyətlərinə əsaslanır, məhz bu

xüsusiyyətlərə görə **they read** tipli birləşmələr yanaşma əlaqəli birləşmə hesab olunur. Lakin uzlaşma əlaqəsində də əlaqədar vahidlərin valentlik (birləşmə) xüsusiyyətləri nəzərə alınır. Uzlaşma əlaqəsi birləşmə əmələ gətirməsi mümkün olmayan vahidlər arasında mövcud ola bilməz. Beləliklə, uzlaşma əlaqəsinin meydana gəlməsi iki pilləlidir: əvvəlcə valentlik xüsusiyyətləri bir-birinə uyğun gələn, yəni birləşməsi və ya yanaşması mümkün olan vahidlər seçilir, sonra isə bu vahidlər birgə funksiya yerinə yetirmək üçün müəyyən qrammatik forma qəbul edir. Analoji olaraq idarə əlaqəsini də bu cür təhlil etmək olar.

Bütün bunlardan belə çıxır ki, tabelilik əlaqəsinin konkret təzahür (ifadə) formaları olan uzlaşma və idarə bir səviyyəyə, yanaşma isə başqa səviyyəyə aiddir.

Adətən, predikativ, relyativ, atributiv əlaqələr və obyekt əlaqəsi əlaqədar vahidlərin semantikasına əsasən müəyyən olunur. Lakin V.V.Burlakovanın fikrinə görə bu əlaqələrin bu cür təyin edilməsi tam dəqiq deyil. Onun fikrincə sintaksis semantikanın təsiri altında olsa da adı çəkilən əlaqələr başqa əsasda meydana gəlir. Bu, onunla izah olunur ki, əlaqədar vahidlərin semantikası nəzərə alınmasa belə, onların müəyyən nitq hissəsinə aidiyyətini və nitq hissələrinin kombinator xüsusiyyətlərini bilərək, hər hansı söz birləşməsində bu əlaqələri müəyyən etmək mümkündür. Məsələn, fel və zərfin birləşməsi nəticəsində **(V+Adv.)** relyativ əlaqə, sifət və ismin birləşməsi nəticəsində **(A+N)** atributiv əlaqə, feilin və ismin birləşməsi nəticəsində **(V+N)** obyekt əlaqəsi və s. meydana gəlir. Buradan belə çıxır ki, nitq hissələrinin birləşmə qanunauyğunluqlarını və söz birləşməsi tərkibində əlaqədar vahidlərin bir-birinə nisbətən yerləşmə qanunauyğunluqlarını bilməklə, bu vahidlərin semantikasını nəzərə almadan söz birləşməsinin tərəfləri arasında meydana gələn semantik əlaqələri müəyyənləşdirmək mümkündür. Beləliklə, predikativ, atributiv, relyativ əlaqələr və obyekt əlaqəsi müəyyən nitq hissələrinin kombinatorikası (birləşməsi) nəticəsində əmələ gəldiyi üçün Burlakova bu əlaqələri kombinator əlaqələr adlandırmağı daha münasib hesab edir. Qeyd etmək lazımdır ki, feli birləşmələrdə bu əlaqələri müəyyən etmək üçün əlaqədar vahidlərin yalnız hansı nitq hissəsinə aidiyyəti deyil, həm də həmin nitq hissəsinin mənaca hansı növünə aidiyyəti də nəzərə alınmalıdır, deməli, bu proses semantikaya əsaslanır. Və yaxud asılı komponenti substantiv birləşmə ilə ifadə olunmuş feli birləşmələrdə əlaqələrin təyin edilməsi asılı komponentin semantikasına və ya referent aidiyyətinə əsaslanır, məsələn, **read four times** birləşməsində **four times** söz birləşməsi hərəkətin təkrarlanmasını ifadə edir. Lakin **read a book** birləşməsində hərəkət və onun obyekti ifadə olunur. Substantiv söz birləşmələrinə gəldikdə isə bu birləşmələri təhlil edərkən belə məna çalarları nəzərə alınmır və birləşmənin leksik mənasından asılı olmayaraq ismə tabe olan bütün asılı komponentlər onun təyini hesab olunur.

Dilçilər tərəfindən aparılan tədqiqatlar göstərir ki, dil ierarxik quruluşa malik olduğuna görə müəyyən dil səviyyəsinə aid vahidlərin strukturu ondan aşağıda yerləşən səviyyələrin vahidlərindən asılıdır. Bunu nəzərə alaraq söz birləşməsinin daxili strukturu, deməli, həm də tərəfləri arasındakı semantik əlaqələr komponentlərin aid olduğu nitq hissələrinə və ya nitq hissəsinin mənaca növlərinə əsasən təyin edilməlidir. Burlakovanm fikrinə görə, predikativ, atributiv, relyativ əlaqələr və obyekt əlaqəsi dildə mövcud olan müxtəlif nitq hissələrinin və onların mənaca müxtəlif növlərinin birləşməsi nəticəsində meydana gələn əlaqələrin hamısını ehtiva etmir, məsələn, bağlayıcı fel **(link verb)** və nominal hissədən ibarət olan strukturlara bu əlaqələrin heç biri uyğun gəlmir: **to be clever; to turn pale.** Müəllif qeyd edir ki, bu strukturlarda kombinator əlaqələri təyin etmək üçün əlaqədar vahidlərin morfoloji təbiətini, yəni hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirmək lazımdır. Məlum olduğu kimi, belə strukturlarda birinci komponent həmişə feillə ifadə olunur, ikinci komponent isə müxtəlif növ nitq hissələri, hətta bütöv söz birləşmələri ilə ifadə oluna bilər, lakin əksər hallarda sifətlə ifadə olunması səciyyəvidir. Bütün bunları və strukturun semantik məzmununu nəzərə alaraq, Burlakova bağlayıcı feillə nominal hissə arasındakı semantik əlaqəni ekzistensional əlaqə adlandırır. Belə ki, bu strukturda müəyyən bir əlamətin varlığı, mövcudluğu ifadə olunur (3, s.32).

Beləliklə, söz birləşməsinin tərəfləri arasındakı semantik əlaqələr aşağıdakı kimi göstərilə bilər: predikativ əlaqə, obyekt əlaqəsi, atributiv əlaqə, relyativ əlaqə və ekzistensional əlaqə.

Söz birləşmələri sintaktik struktur kimi xarakterizə olunduğuna görə onları təşkil edən komponentlər sintaktik komponentlər adlanır. Bu, həm də ona görə mümkündür ki, söz birləşməsini əmələ gətirən sözlər struktur tərkibində məna modifikasiyalarına uğramaqdan başqa sintaktik status da əldə edir və beləliklə, həmin strukturun sintaktik komponenti kimi çıxış edirlər.

Müasir dilçilikdə obyektin sintaktik komponentləri daxili struktur əlamətlərinə və xarici formal əlamətlərinə görə təsnif olunur. Xarici formal əlamətlərinə görə obyekt sintaktik komponentlərinin aşağıdakı növləri göstərilir:

1) Sözönüsüz obyekt (Oj). Obyekt sintaktik komponentinin bu növü strukturda dəyişiklik edilsə də əlamətini dəyişmir: **to send the doctor away - to send away the doctor.**

2) Strukturdakı mövqeyindən asılı olaraq ya sözönüsüz ya da sözönülü əlamətlə xarakterizə olunan obyekt (0_2): **to send him a letter - to send a letter to him.**

3) Sözönülü obyekt (0_3). Obyekt sintaktik komponentinin bu növü strukturda dəyişiklik edilsə əlamətini dəyişmir: **to send for the doctor - It was for the doctor that he sent.**

Daxili strukturuna görə isə obyekt sintaktik komponentlərinin sadə və mürəkkəb olmaqla iki növü qeyd edilir. Sadə obyekt komponenti həm ayrıca sözlə, həm də atributiv birləşmə ilə ifadə oluna bilər: **to build a house; to respect old age.** Mürəkkəb obyekt komponenti isə ikinci dərəcəli predikasiyaya əsasən qurulmuş birləşmələrlə ifadə olunur: **to fınd the car gone; to find the door open; to rely on the money being paid.**

Ədəbiyyat

1. Seyidov Y. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı: Maarif, 1966.
2. Бархударов Л.С. Штелинг Д.А. Грамматика английского языка. М.: Высшая школа, 1973.
3. Бурлакова В.В. Основы структуры словосочетания в современном английском языке. Л.: ЛГУ, 1975.
4. Бурлакова В.В. Синтаксические структуры современного английского языка. М.: Просвещение, 1984.
5. Винаградов В.В. Из истории изучения русского синтаксиса. М., 1958.
6. Маслов Ю.С. Введение в языкознание. М.: Высшая школа, 1975.
7. Ельмслев Л. Пролегомены к теории языка. 1963.

У.М.Кулиева

О синтаксических связях в словосочетаниях

Резюме

В статье изучаются синтаксические связи в словосочетаниях в общем подходе. Сперва автор пытается рассмотреть синтаксические связи в общем смысле, затем рассматривает синтаксические связи между компонентами словосочетаний и их значений.

U.M.Guliyeva

On Syntactical Relations in Word Combinations

Summary

The article touches upon the syntactical relations in word combinations. The author first of all tries to study the syntactical relation in general sense of meaning, then to speak on syntactical relations between the components of word combinations and their meanings.

Rəyçi: dos. A.M.Cəfərov

Redaksiyaya daxil olub: 17.01.2017

Г.З.АЛЛАХВЕРДИЕВА

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

ЛЕКСИКО-СЕМАНТИЧЕСКОЕ ПОЛЕ «СВАДЬБА» В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Ключевые слова: *концепт, фрейм, свадьба, азербайджанский язык, когнитивный признак*
Açar sözlər: *konsept, freym, toy, Azərbaycan dili, koqnitiv əlamət*
Key words: *concept, frame, wedding, Azerbaijani language, cognitive sign*

Свадебный ритуал является одним из важнейших в культуре любого народа. Образование новой семьи во все времена и у всех народов считалось значительным событием не только в жизни молодых людей и их родственников, но и в жизни общества в целом. Государство и религия всегда старались держать под контролем брак. В связи с этим уже на ранних этапах образования моногамной семьи формируются обряды и ритуалы, сопровождающие брак. Причем обрядность присуща браку с самых первых шагов. У разных народов по-разному, но строгий этикет обнаруживается уже в первом знакомстве молодых. Что должен делать парень, как он должен дать знать о своем чувстве, как должна вести себя девушка и т.д. Всё это расписано и у многих народов сохраняется по сей день. Соблюдению ритуала придается очень часто мистическое значение. Люди думают, что нарушение каких-либо традиционных действий может обернуться несчастьем. Ритуалы и обряды, как правило, обрастают лексическим наполнением, каждая ступень находит выражение в языке, ритуал в целом обогащается концептуальным содержанием. В лексико-семантической системе языка организуются поля, покрывающие соответствующие сферы жизни. Концептуальное содержание охватывает обряд полностью. Слова могут забываться, но народная память сохраняет образы действий, жестов и поведений. Поэтому фрейм, соответствующий в нашем сознании тому или иному обряду, оказывается богаче концепта. В данном случае фрейм «свадьба» по своему объему намного шире концепта «свадьба».

Лексико-семантические поля, естественно, восстанавливаются по материалам существующих словарей. Никакими другими способами создать представление об обряде мы не располагаем. Если забыто слово, то мы просто не знаем о соответствующей детали фрейма. Семасиологический анализ всегда исходит из лексико-семантической данности.

На Востоке, как известно, обрядность и традиции всегда имели большое значение. В этом смысле очень мало что изменилось. Все детали обрядов сохраняются. Даже в тех случаях, когда материальное положение людей не позволяет соблюдать все детали традиции в строгости, они все равно стараются по мере своих сил делать всё правильно. Как уже отмечалось, очень часто строгому соблюдению обрядности придается мистическое значение. Люди уверены в том, что от «правильного поведения» зависит счастье детей.

Свадебный обряд включает в себя в Азербайджане множество деталей, многие из которых предшествуют свадьбе. Обычные слова и словосочетания приобретают особое фразеологическое значение, поскольку сопровождают стандартное поведение. Например, в азербайджанском языке существует частица *hə*, обозначающая согласие. Словосочетание *həsini almaq* означает получить согласие. Однако выражение

приобретает фразеологическое значение и закрепляется за определенным ритуалом. В любой ситуации говорящие однозначно понимают, о чем идет речь, какое согласие подразумевается: речь идет о согласии выдать дочь тому, кто просит ее руки. Причем это согласие дает не девушка, а, как правило, ее отец. В Азербайджанско-русском словаре под редакцией проф. М. Т. Тагиева читаем: «*II в знач. сущ.* положительный ответ сватам о согласии на брак со стороны родителей девушки. *Qızın həsini almaq* сосватать девушку (получить согласие на брак) (1, 4, с.837-838). Получается, что здесь нет фразеологического значения, а *hə* в значении существительного употребляется только в интересующем нас значении. На наш взгляд, даже это обстоятельство говорит о фразеологизации словосочетания. Иными словами, если частица употребляется в значении существительного только в одном и, таким образом, специальном значении, то это можно расценивать как свидетельство фразеологизации.

АРС дает и диалектный вариант данной частицы: *həri* (1, 4, с.867). Приводятся сочетания *qızın hərisini almaq, qızın hərisini vermək*, и на этот раз эти выражения приводятся как обычные словочетания. Между тем фразеологизация, связанная со стандартной ситуацией, не может быть поставлена под сомнение. Интересно отметить и следующую особенность. Вариант *həri* является принадлежностью бакинского диалекта. Однако, несмотря на это, получил широкое распространение. Иногда даже добавляют *bakılılar demişkən* (как говорят бакинцы).

Интересно отметить, что в Толковом словаре азербайджанского языка слово *hə* приводится в четырех значениях, но все они имеют отношение исключительно к частице, существительное не отмечается. Не приводится и устойчивое словосочетание (2, 2, с.350). Что касается диалектного *həri*, то здесь просто дается ссылка на *hə* (2, 2, с.372).

Выражения *hərisini almaq* и *hərisini vermək* отсутствуют и во фразеологическом словаре А. А. Оруджева. Сравнение рассмотренных словарей говорит в пользу АРС под редакцией М. Т. Тагиева. Как уже отмечалось, в азербайджанской культуре существует стандартная ситуация, носящая обрядовый характер. В азербайджанском языке широко употребляется соответствующее этому стандарту устойчивое словосочетание или фразеологизм. Следовательно, существующие словари обязаны отмечать его.

Среди ритуалов, предшествующих свадьбе, центральное место занимает обручение, по-азербайджански *nişan*. Это слово обладает интересной этимологией. Буквально оно означает «знак». Например, *nişan vermək* – подать знак. Особое значение в этом контексте приобретает и выражение *nişan üzüyü* – обручальное кольцо. Кольцо подает знак другим, что эта девушка уже помолвлена.

В АРС слово *nişan* фиксируется в семи значениях существительного, первое из которых определяется как «метка, отметка (знак, поставленный для обозначения чего-л.)», седьмое – «обручение, помолвка» (1, 3, с.585). Кроме того, Словарь отмечает это слово и как прилагательное. здесь отмечается, что слово *nişan* имеет значение «обручальный» (1, 3, с.585).

Вообще в исламском мире многое определяется на уровне знаков. Не принято открыто говорить о многом, особенно об интимных вещах. Даже традиционная мусульманская свадьба носит во многом характер знака, намека, сигнала. Иными словами, после свадьбы если мужчину и женщину видят вместе, то знают, что они в законном браке.

В азербайджанском культуре хна (красящее вещество) становится своеобразным символом радости. В АРС читаем: «HƏNA сущ. хна (красно-желтая растительная краска, употребляемая для окраски волос, ногтей и т.п.). Başına *həna qoymaq* (*yaxmaq*)

положить на голову хну, красить голову хной; *heç hənanın yeridir* зачем все это, это совершенно неуместно (о чем-л. сказанном некстати, неуместно и т.д.) (1, 4, с.858).

Выражение *heç hənanın yeridir* из музыкальной комедии У. Гаджибекова «Не та, так эта», которое в современном азербайджанском языке употребляется в качестве поговорки. Словарь не отмечает символического значения концепта «хна», хотя оно является прецедентным в азербайджанской культуре. Свадебный обряд в Азербайджане включает в себя такой широко распространенный ритуал, как *həna yaxdı* (мазание хной). Это своеобразное веселье перед свадьбой, своего рода девичник. На нем присутствуют только женщины и девушки. Кульминацией праздника является мазание рук присутствующих хной, особенно незамужних девушек. Это своеобразное пожелание скорейшего и удачного замужества.

Тот факт, что АРС не упоминает этого ритуала, может служить доказательством того, что фрейм «свадьба» намного шире самого концепта «свадьба». Однако даже в этом случае отмеченное выражение *həna yaxdı*, на наш взгляд, следовало привести в словарной статье. Это устойчивое словосочетание, даже если и не фразеологизм. Однако АРС приводит слова *xınaqoyma* и *xınayaxdı* как идентичные (1, 4, с.771). Значение первого определяется как «торжественный обряд, устраеиваемый накануне свадьбы, когда невесте красят волосы и ногти хной» (1, 4, с.771). Не отмечается, что это девичник, что, на наш взгляд, является важным когнитивным признаком концепта «xınaqoyma».

Следует также отметить, что современном азербайджанском языке употребительнее русское *хна*, чем собственно азербайджанское *həna*, которое считается устаревшим. Никто не говорит *həna yaxmaq, həna almaq, həna yaxdı*. Как правило, азербайджанцы говорят *xna yaxmaq* и т.д. Устаревшее *həna*, как правило, вызывает улыбку, поскольку ассоциируется с прецедентным именем Мешеди Ибада и известной ситуацией из комедии У. Гаджибекова.

Особенность фрейма «свадьба» в азербайджанском языке такова, что самые обычные слова приобретают здесь специфическое значение. Словари не всегда это отмечают, но, поскольку сами предметы приобретают особое осмысление в пространстве этих обрядов и ритуалов, и слова наполняются особым содержанием. Эти обычные слова начинаю в сознании народа ассоциироваться со свадьбой, с обрядом в целом, с предшествующими и последующими ритуалами. Например, такие слова, как *noğul* и *nabat* являются названиями обычных сладостей, но за многие века сложился культурный фон, ставший основанием для свадебных ассоциаций. Например, в АРС значение лексемы *nabat* определяется следующим образом: «NABAT сущ. набат (прозрачные кристаллики из застывшей смеси сахара с фруктовым соком); леденцы; 2. поэт. в сочет. *dodağı nabat губы* как мёд, *nabat kimi şirin* сладкий как набат, *ağzı nabat* уста как мёд (1, 3, с.527). Как видим, Словарь не отмечает никаких свадебных ассоциаций. Между тем набат на протяжении многих веков стал неотъемлемым атрибутом свадьбы. Так, во время обручения в дом невесты приносят головку сахара и набат. И то, и другое сохраняется нетронутым до рождения первенца, после чего их разбивают на куски и раздают родственникам и близким. Фрейм «свадьба» включает набат и всё, что с ним связано, как обязательный элемент. Более того, фоновая информация способствует образованию концептуального содержания, можно говорить о концепте «набат» в языковой картине мира азербайджанцев.

Такая ситуация связана и с лексемой *noğul*. Это тоже название сладости, которая непосредственно ассоциируется со свадебным ритуалом. Набат и ногул – это своеобразные свадебные сладости. АРС отмечает даже аппозитив *noğul-nabat* (1, 3, с.589). Однако и в этом случае словарная статья не содержит каких бы то ни было свадебных ассоциаций. Словарная дефиниция не содержит элементов культурного

фона, она только раскрывает содержание понятия: «сущ. ногул конфеты кругловатой формы с шероховатой поверхностью, с пряной или миндальной начинкой (1, 3, с.589). Несмотря на то, что АРС не отмечает свадебных ассоциаций, концепт «свадьба», безусловно, связан с этим предметом и соответствующим понятием. В данную парадигму входит, например, и словосочетание *şirin çay* или этикетное выражение *ağzınızı şirin edin*. Как отмечалось выше, фрейм «свадьба» включает в себя такую существенную деталь, как головка сахара – *kəllə qənd*.

Столь же специфическим для азербайджанской культуры явлением оказывается обычная баня (поход в баню), если это предшествует свадьбе. Следует отметить, что это не просто купание, а особый ритуал. В баню жених идет не один, а в компании друзей. Ритуал сопровождается музыкой и особым одариванием всех, кто встречается на пути и особенно самих банщиков. Все это дает основание утверждать, что в азербайджанской культуре существует такой стандарт, как свадебная баня, купание в бане накануне свадьбы. Если так, то в азербайджанском языке должен существовать соответствующий штамп, обозначающий это прецедентное понятие. Прецедентность свадебной бани не должна вызывать сомнения, поскольку никому не надо объяснять, что такое *toy hamamı*. В статье на слово *hamam* АРС не отмечает такой штамп, как *toy hamamı*. Но интересно отметить, что статья содержит указание на другой стандарт, также характеризующий азербайджанский менталитет: «hamamdan sonra çay içmək» (1, 4, с.812). В статье на слово *bəy* АРС указывает такое значение, как «новобрачный, жених», при этом приводится помета *этнографическое*. Однако и здесь отсутствует устойчивое словосочетание *toy hamamı*. Приводится поговорка *bəylə gəlin toyda oynamalıdır* (1, 1, с.246). Что касается этого выражения, то стоит отметить, что канонической является форма *bəy öz toyunda oynamalıdır*. Стоит также отметить, что большинство азербайджанцев знает это выражение из музыкальной комедии У. Гаджибекова «Не та, так эта», где встречается ее полный вариант: *Bəy gərək öz toyunda oynasın ki, ucuzluq olsun*. Вполне возможно, что эту своеобразную паремию придумал сам У. Гаджибеков.

Толковый словарь азербайджанского языка также не приводит устойчивое словосочетание *toy hamamı*. Нет выражения *bəy hamamı* и в статье на слово *bəy*, но здесь обращает на себя внимание иллюстрация. Составители Словаря приводят пример по пятому значению этого слова, которое определяется как «жених»: «Toyun üçüncü gecəsinin sabahı bəyi hamama apararddılar. H. Sarabski» (2, 1, с.290). То есть: «На следующее утро после третьей свадебной ночи жениха отводили в баню». Обращает на себя внимание глагольная форма *apararddılar*, подчеркивающая обычай, правило, «так бывало». Интересно, что не перед свадьбой, а на утро после третьей ночи.

Рассмотренный материал и проведенный анализ позволяют сделать некоторые выводы. Прежде всего: семантическое поле и фреймы, обладающие концептуальным содержанием, не совпадают. Многие слова, имеющие непосредственное отношение к свадебному обряду, не фиксируются словарями в соответствующих значениях, между тем они обозначают важнейшие обрядовые детали. Следовательно, лингво-когнитивное исследование должно опираться не только на языковой, но и на этнографический материал.

Литература

1. Азербайджанско-русский словарь в 4-х томах. Том 1. Баку: Элм, 1986. Том 4. Баку: Мутарджим, 2000.
2. Azərbaycan dilinin izahlı lüğəti. I cild. Bakı: Şərq-Qərb, 2006. İV cild. Bakı: Şərq-Qərb, 2006.

G.Z.Allahverdiyeva

Azərbaycan dilində "toy" leksik-semantik sahəsi

Xülasə

Məqalə müasir Azərbaycan dilinin semantik sisteminin tədqiqinə həsr olunub. Diqqət mərkəzində "toy" leksik sahəsi dayanır. Təhlil göstərir ki, bu sahə müvafiq həyat hadisəsini tamamilə əhatə edə bilmir. Bütöv əhatə leksik-semantik sahənin sərhədlərini aşır. "Toy" konsepti həmin sahədə verballaşır, lakin nigahla bağlı bütün hadisələr yalnız freym daxilində təqdim oluna bilər.

G.Z.Allahverdiyeva

Lexical-Semantic Area "Wedding" in Azerbaijani Language

Summary

The article deals with the study of semantic system of Azerbaijani language. The centre of attention is lexical area "wedding". The analysis shows that this area cannot thoroughly embrace the relevant life event. Complete embrace goes beyond the lexical-semantic area. The concept "wedding" is verbalized in that area, however all events linked with marriage can only be presented within the frame.

Rəyçi: prof. A.M.Məmmədli

Redaksiyaya daxil olub: 09.02.2017

Л.О.ВЕЗИРОВА
доктор филологических наук

Азербайджанский государственный педагогический университет
(г. Баку, ул. Узеир Гаджибеков, 34)

ОБОСОБЛЕНИЕ ЧЛЕНОВ ПРЕДЛОЖЕНИЯ В СОВРЕМЕННОМ РУССКОМ ЯЗЫКЕ И ИХ ОБЩАЯ ХАРАКТЕРИСТИКА

Ключевые слова: *обособление, члены предложения, русская грамматика, синтаксис, функция.*
Açar sözlər: *təcrid, nitq hissələri, rus qramatikası, sintaksis, funksiya.*
Key words: *isolation, parts of sentence, Russian grammar, syntactic, function.*

Осложнение предложения может быть связано со смысловым и ритмико-интонационным выделением в нём второстепенных членов, которые имеют добавочную функцию, совмещают несколько значений и воспринимаются как дополнительное сообщение. Такие члены предложения называются обособленными.

В истории русской синтаксической науки долгое время существовал взгляд на обособленные члены как на сокращённые придаточные предложения. Так понимали сущность обособления Н.И.Греч, А.Х.Востоков, Ф.И.Буслаев. Так, например, Ф.И.Буслаев пишет, как «полные предложения сокращаются в имена существительные, прилагательные и наречия, т.е. переходит в какой-либо отдельный член предложения». (1)

Теория сокращения придаточных предложений была подвергнута критике со стороны А.А.Потебни, доказавшего её антиисторизм. В своём труде «Из записок по русской грамматике» А.А.Потебня (8) говорит о приложении (употребляя этот термин в широком значении) и его отличии от атрибута в сказуемом. Сопоставляя предложения *Босая девица вышла на мороз; Девица, босая, вышла на мороз* и *Девица вышла босая на мороз,* А.А. Потебня приходит к выводу, что определение (б*осая девица*) и приложение (*девица, босая, вышла…)* и атрибут в сказуемом (*вышла босая),* различаются следующим образом: «Определение и приложение означают признаки, уже данные в определяемом прежде, чем возникает действие; атрибут в сказуемом есть признак, возникающий вместе с действием или посредством его». (8)

Приложение же имеет в зародыше отношения противительное и уступительное: *босая, а вышла*; *хотя босая, но вышла.*

Далее разрабатывает теорию обособленных членов предложения А.М.Пешковский. Он и вводит в научный обиход сам термин. В работе «Русский синтаксис в научном освещении» этому вопросу посвящена целая глава - «Обособленные второстепенные члены».

При описании самих членов предложения А.М.Пешковский опирается на их морфологическую принадлежность: обособленное прилагательное, присубстантивная сравнительная форма, деепричастие и т.д.

Несмотря на детальное описание обособленных членов предложения, А.М.Пешковский не раскрыл их смысловые и синтаксические функции. Опираясь на интонацию и ритм в определении обособленных членов, он, в отличие от А.А. Потебни, упустил по существу главное – особую сообщительную функцию этих членов предложения, их смысловую усложненность.

Так, при изучении обособленных членов предложения внимание было переключено на интонацию, паузы, порядок слов. Такой аспект исследования привёл М.Н.Петерсона к неоправданному отказу от проблемы обособления вообще.(5)

Существо обособленных членов предложения заключается в том, что они содержат элемент добавочного сообщения, следовательно, обособление тесно связано с сообщительной функцией предложения,

т.е. с его смысловой целенаправленностью. Добавочный характер сообщения, передаваемого при помощи обособленных членов, оформляется через полупредикативные отношения, которые возникают в предложении в дополнение к предикативным, передаваемым главными членами.

(Baku, S.Rustam street, 25)

MODAL VERBS AND THEIR EXPRESSİON IN AZERBAİJAN

Key words: *modal verbs, basic features, meaning, their expression Azerbaijan languages.*
Açar sözlər*: modal feillər, məna kökü, məna, Azərbaycan dilində ifadələr.*
Ключевые слова*: модальные глаголы, основа значения, значение, выражения на азербайджанском языке.*

Modal verbs are a special kind of auxiliary verbs. Like other auxiliary verbs, they are always used with a main verb but modal verbs express an attitude to what we say. They can express how certain or uncertain we are about an event, or how willing or unwilling we are to do something, for example. There are twelve modal auxiliary verbs, but they are used with very great frequency and in wide range of meanings. They express concepts or attitudes (they fulfil different functions) relating to recommendation, obligation, necessity, and prohibition, and refusal; possibility, expectation, probability and certainty; promise and intention, ability and willingness.

There are four paired forms - can, could; may, might; shall, should; will, would. There are four single forms - must, ought, need, dare. There are no other forms, and all modals are therefore, to varying degrees, ‘defective’ verbs. The two verbs **need** and **dare** present special problems: **dare** can follow the grammatical patterns of either modal auxiliaries or lexical, ‘regular’ verbs; **need** contrasts grammatically with the regular verb “need”. The verbs customarily classed as modals in English have the following properties: 1) they do not inflect, except insofar as some of them come in present–past (present–preterite) pairs. They do not add the ending *-(e)s* in the third-person singular (the present-tense modals therefore follow the preterite-present paradigm); 2) They are defective: they are not used as infinitives or participles (except occasionally in non-standard English), nor as imperatives, nor (in the standard way) as subjunctives; 3) They function as auxiliary verbs: they modify the meaning of another verb, which they govern. This verb generally appears as a bare infinitive, although in some definitions a modal verb can also govern the *to*-infinitive (as in the case of *ought*); 4) They have the syntactic properties associated with auxiliary verbs in English, principally that they can undergo subject–auxiliary inversion(in questions, for example) and can be negated by the appending of *not* after the verb.

The following verbs have all of the above properties, and can be classed as the principal modal verbs of English. They are listed here in present– preterite pairs where applicable: 1) can and could; 2) may and might; 3) shall and should; 4) will and would; 5) must (no preterite). Note that the preterite forms are not necessarily used to refer to past time, and in some cases they are near synonyms to the present forms. Note that most of these so-called preterite forms are most often used in the subjunctive mood in the present tense. The auxiliary verbs may and let are also used often in the subjunctive mood. Famous examples of these are "May The Force be with you," and "Let God bless you with good." These are both sentences that express some uncertainty, hence they are subjunctive sentences.

The verbs listed below mostly share the above features, but with certain differences. They are sometimes, but not always, categorized as modal verbs. They may also be called "semimodals": 1) The verb ought differs from the principal modals only in that it governs

a to-infinitive rather than a bare infinitive (compare he should go with he ought to go); 2) The verbs dare and need can be used as modals, often in the negative (Dare he fight?; You dare not do that; You need not go.), although they are more commonly found in constructions where they appear as ordinary inflected verbs (He dares to fight; You don't need to go). There is also a dialect verb, nearly obsolete but sometimes heard in Appalachia and the Deep South of the United States: darest, which means "dare not", as in "You darest do that" (4, p.89); 3) The verb had in the expression had better behaves like a modal verb, hence had better (considered as a compound verb) is sometimes classed as a modal or semimodal; 4)The verb used in the expression used to (do something) can behave as a modal, but is more often used with do-support than with auxiliary-verb syntax: Did she used to do it? (or Did she use to do it?) and She didn't used to do it (or She didn't use to do it) are more common than Used she to do it? and She used not (usedn't) to do it. Other English auxiliaries appear in a variety of different forms and are not regarded as modal verbs. These are: 1) be, used as an auxiliary in passive voice and continuous aspect constructions; it follows auxiliary-verb syntax even when used as a copula, and in auxiliary-like formations such as be going to, is to and be about to; 2) have, used as an auxiliary in perfect aspect constructions, including the idiom have got (to); it is also used in have to, which has modal meaning, but here (as when denoting possession) have only rarely follows auxiliary-verb syntax (see also must below); 3) do; see do-support.

While sentences are classified according to the modality, not the purpose of expression but the style of expression is taken as a basis. In this case, the attention I paid on how the idea is expressed in the sentence – possibility, necessity, to show the reality and real, necessary and possible forms of the modality are differentiated. The views and opinions of two well-known scientists on Azerbaijan languages show that first of them defines the modality types only with forms of verb and second one with both verb and with aid of other means. Treating the issue on both ways, allows distinguishing many types of modality. To generalize modal meanings in a limited number of modal groups classified with certain criteria is more appropriate.It should be noted that the indicative modality reveals in different forms in Azerbaijani languages. The reason for this is the wide variety of expressing time in the Turkish language. These forms have close relations to the indefinite future of Azerbaijani language.

While sentences are classifed according to the modality, not the purpose of expression but the style of expression is taken as a basis. In this case, the attention I paid on how the idea is expressed in the sentence – possibility, necessity, to show the reality and real, necessary and possible forms of the modality are differentiated. The views and opinions of two well-known scientists on Turkic languages show that first of them defines the modality types only with forms of verb and second one with both verb and with aid of other means. Treating the issue on both ways, allows distinguishing many types of modality. To generalize modal meanings in a limited number of modal groups classified with certain criteria is more appropriate. Of course, one need to pay attention to an issue that only one of the above - mentioned authors if takes as the basic verbal predicativity modality but other one had taken in account predicativity established with the help of other names. To connect modality category just with verbal forms in Azerbaijani as well as in Turkic languages is not absolutely true. Because in these languages, besides verbal predicate there are noun predicate sentences. To express modality in noun predicate sentences, other means are also used.

It should be noted that, in Azerbaijani language, the forms verb is quite enough in noun predicate sentences to express modality category. Therefore, modal verbs in a number of European languages, including English language, do not exist in Azerbaijani language. Of course, the said is various issues related to modality. In other words, semantic types of

modality, means of expression of modality, expression means of modality in verbal and noun predicate sentences.

The Azerbaijani linguist O.I.Musayev gives the classification of the means of expressing the category of modality in modern English. He writes about the modal words: "The modal words denote the speaker's attitude to the reality, possibility or probability of the action he speaks about" (2, p.134).

He gives the division of the modal words: 1.words expressing certainty (certainly, surely, assuredly, of course, etc); 2.words expressing supposition (perhaps, maybe, possibly, probably, etc). The morphological means of realization of the category of modality is represented by means of the mood. Here we'd like to state the importance of indicative modality. The indicative modality is related to the non-finite forms of the verb (1).

Investigations show that the number of verbs denoting modality is not the same in the Azerbaijani and English languages. O.I.Musayev divides modal verbs into two groups in the English language: 1.primary modal verbs; 2.secondary modal verbs. Primary modal verbs are can, may, must, ought to; secondary modal verbs are shall, should, will, would, dare, need. The Azerbaijani linguist F.Jahangirov claims that there are two verbs in Azerbaijani which have the meaning of modality. They are bilmək and bacarmaq .

There is an obvious etymiligical connection between the terms 'modality', 'modal' and 'mood'. All these three terms have been given a variety of conflicting interpretations by linguists and logicians. One must be aware that the term 'mood has long been used in different senses by linguists and logicians. Since linguistic semantics has been strongly influenced by logical semantics in recent years. 'Mood' is employed by linguists in the logician's sense of the word. Mood generally can be referred to such grammatical categories as "indicative", "subjunctive" and "imperative". Some function s of mood are non-propositional and the functions of them are beyond the scope of truth-conditional semantics. It is stated by the linguists such as Lyons that all natural languages have the categories of mood and tense. The grammatical category of mood is used more oftener than the grammatical category of tense in the languages.

In Azerbaijani language the modality of present confirmative form of verb forms, the modality expresses the information on reality of event occurred and at the same time whether it expresses its implementation by this or other person.

Ağabacı birdə onu gördüki, bətnindəki körpə qarnını təpikləyir. Sizi yoldaşınız gözləyir (Elçin). (Agabaji just saw that the infant in womb kicks her belly). Your friend waits for you. In given examples "təpikləyir" and "gözləyir" are in the form of the verbs. The modality expressed by this form is real modality. It expresses the real activity executed by singular of third person. The speaking one just conveys information about these events, but does not express his relation to that event. However, the relation of speaking person shows itself in reality and taking place in present time. In the first sentence the speaking one is an author and he conveys and information related to third person, as if expresses her inner speech, or feeling intuitively.

The train starts in 10 minutes – Qatar 10 dəqiqədən sonra yola düşəcək. Here the English and Azerbaijani tense forms completely array each other. But one also needs to know that in Azerbaijani language at that moment the absolute tense form may be used: "yola düşəcək" (will leave). The past tense has two forms in Azerbaijani: declarative past and perfect past. The declarative past is made by adding relevant option of –mış suffix to the root of verb. In the modality expressed through the use of this tense the reality of the action is shown. Unlike the past tense the occurrence of action in this tense form and presence of its consequence in present time shows self. And perfect tense form is formed by adding

appropriate options of – dı, di, du, dü and – tı, ti, tu, tü suffixes (3, 46). These features are the same in both English languages.

There are various forms of the future tense form in English. Indefinite form of future tense of this language does give any modality to action when used with static verbs. Everybody will be at the meeting. If shall modal verb in the sentence creates a meaning of promises, threats, orders and the warning, but will modal verb forms meanings of wish, consent, intentions, commitment. From this point the modality in English in indefinite form differs from those in Azerbaijani languages. You shall pay for it – Sən buna görə cvb verəcəksən. All right I will come.-Yaxşı mən gələrəm/gələsiyəm. As you can see, in the given translation options the predicate form in future tense is not used in Azerbaijani language. This indicative modality shows the different features of English, Azerbaijani languages.

Literature

1. Alıyeva Gunay Dilqam "About the teaching strategies of modality in the class room". Baku, 2002

2. Aslanov.A.Ə. "Müasir Azərbaycan dilində modal sözlər" Nizami adına ədəbiyyat və dil instutunun əsərləri. X cover, Bakı EA. 171-175

3. Cavadov Ə. "Modal sözlər-müasir Azərbaycan dili". II part. Bakı, 1998

4. G.V.Kuzmina "Functions of the modal verbs in English" Moscow, 2012

5. Bayramova V.The use of modal verbs in Azerbaijani, English and German language. Qafqaz University Press. Bakı, 2012. www.sciencedirect.com

G.Ş.Süleymanova

İngilis dilinin modal feilləri və onların Azərbaycan dilinə verilməsi

Xülasə

Məqalə modal feillərin öyrənilməsinə həsr edilmişdir. Modal feillər köməkçi feillərdən funksionallıq və semantikasına görə fərqlənir. Köməkçi feil müstəqil mənaya malik deyil, o ingilis feilinin müxtəlif analitik formalarının yaranmasına kömək edir. Can, may, must, ought, shall, will, need kimi feillər modal feillər adlanır. Azərbaycan dilində modal feillər ingilis feillərdən öz təsdiq etməliyi ilə seçilir, şübhə, təxmin etmə və s. mənaları da var.

Г.Ш.Сулейманова

Модальные глаголы английского языка и их передача на азербайджанский язык

Резюме

Статья посвящена изучению модальных глаголов. Модальный глагол отличается от вспомогательных глаголов функциональностью и семантикой. Вспомогательный глагол не имеет самостоятельного значения, он помогает создать аналитические формы английского глагола. Глаголы типа *могут, может, необходимо, должно, должны, будет, нужно* называются модальными глаголами. В азербайджанском языке модальные слова отличаются от английского своей утвердительностью, модальные слова имеют значение предположения, сомнения и т.д.

Rəyçi: dos. S.H.Fətəliyeva

Redaksiyaya daxil olub: 05.01.2017

ƏDƏBİYYATŞÜNASLIQ - ЛИТЕРАТУРОВЕДЕНИЕ

G.AĞABƏY
filologiya üzrə fəlsəfə doktoru

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Quba filialı)
(Quba şəh., Fətəlixan küç., 4)

RÜFƏT ƏHMƏDZADƏ SATİRİK POEZİYASININ OBRAZLAR ALƏMİ

Açar sözlər: *Rüfət Əhmədzadə, satirik poeziya, tənqid, ifşa, sovet, cəmiyyət*
Ключевые слова: *Руфат Ахмедзаде, сатирическая поэзия, критика, разоблачение, совет, общество.*
Key words: *Rufat Amedzadeh, satiric poetry, critcisim, digrace, soviet, character, society*

Sovet dövrü Azərbaycan ədəbiyyatında satiranın bir keyfiyyət, yaxud janr olaraq geriyə çəkildiyini nəzərə almış olsaq, poeziyada onu inkişaf etdirənlərin sayının barmaqla sayılacaq qədər az olduğunu yəqin etmək olar. Bununla belə, sovet hakimiyyətinin ilk 30 ili ilə müqayisədə əsrin ikinci yarısında bədii əsərlərdə satirik pafosun artdığını görürük. Bu dövrdən başlayaraq siyasi basqının ədəbiyyat üzərində zəifləməsi müəyyən mənada satirik pafosun da artmasına səbəb olur. Məsələ burasındadır ki, siyasi və ədəbi həyatda yumşalma, hər şeydən əvvəl, mərkəzdən gəlməyə başlayır. Yeni cəmiyyətin qurulmasından təxminən otuz il keçdikdən sonra satiranın vacibliyi məsələsi yenidən gündəmə gəlir. İ.Stalinin ölümündən sonra siyasi sistemdəki dəyişiklik sovet ideoloqlarını satiranın vacibliyini önə çəkməsinə səbəb olur və "bizə qoqollar, şedrinlər lazımdır"-qənaətinə gəlməyə vadar edir: "Sovet həyatımızın satira üçün material vermədiyini düşünmək düzgün olmazdı. Bizə bütün mənfi, çürük, ölgün şeyləri, irəliləyişimizə mane olan hər şeyi satira atəşinə tutub həyatdan yox edən sovet qoqolları, şedrinləri lazımdır" (1). Bunun ardınca ədəbiyyatda, eləcə də publisistikada satirik pafos artmağa başlayır, həm qəzet və jurnallarda, həm də bədii nümunələrdə tənqidi pafos güclənir. Şair S.Vurğun özünün "Sovet poeziyası haqqında" məruzəsində satirik pafosa diqqət çəkərək yazırdı: "Poeziyamızın məsələlərindən danışarkən satirik poeziyanı da unutmaq olmaz. Satiranın kəskin və uzaqvuran silahı xalq tərəfindən sevilir və bu silah bizim poetik cəbbəxanamızda mühüm yer tutmalıdır. Bizim satira klassiklərin yaradıcılıq irsinə arxalanır. Krılov, Qriboyedev, Nekrasov, Şevçenko, Sabir, Abay və Abdulla Tukay kimi şairlərin satirik əsərlərinin əsasını vətənə və xalqa məhəbbət, zülmə və rəzalətə nifrət hissi təşkil edir. Bu böyük ənənələrin yaradıcılıq yolu ilə mənimsənilməsi məsul və mürəkkəb satira janrında yazmağa girişmiş müasir şairlər üçün də çox səmərəli ola bilər" (2, s.334).

Böyük şair S.Vurğun reallığı yaxşı başa düşdüyü kimi, satiranın gələcək inkişaf yolunu da aydın görür və qiymətləndirirdi. Doğrudan da, 50-ci illərdən başlayaraq satiranın qarşısında yandırılan nisbətən zəif işıq satiraya yeni qüvvələrin gəldiyinə müəyyən imkanlar yaratdı. Bu istiqamətdə S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, M.Dilbazi, B.Vahabzadə və b.

yazdığı satirik şeirlərlə yanaşı, yaradıcılığa yeni başlayan şairlərin şeirləri də dərc edilirdi. Hətta yeni nəsilin içərisində sırf satirik şair olaraq yetişən şairlər də var idi. Bu dövrdə ədəbiyyata yeni gələn nəsil içərisində Rüfət Zəbioğlu, Hikmət Ziya, Davud Ordubadlı, Famil Mehdiyevlə yanaşı, Rüfət Əhmədzadə də satiranın ədəbiyyatda qalması üçün çalışmış, yeni əsərlər yazmışdır. Ədəbiyyatda satirik pafosun bir qədər artmasının əsas səbəblərindən biri, ümumiyyətlə, siyasi sistemdə yeni bir tarixi şəraitin gəlməsi idisə, başqa bir səbəbi isə satirasız keçinmənin mümkün olmaması və "Molla Nəsrəddin"in bağlanmasından sonra ilk satirik jurnal "Kirpi"nin yaradılması olmuşdur. Təxminən iyirmi illik bir dövrdə satiranın özünü ifadə etməyə özünəməxsus "meydança"sı olmamışdır. Buna görə də "Kirpi"nin yaranması satirik meydançanın sərhdlərini genişləndirməyə xidmət edirdi. 1959-cu ildən "Kirpi" satirik jurnalında çalışan R.Əhmədzadəni də buraya gətirən səbəb məhz satirik pafosun getdikcə güclənməsi olmuşdur. Onun satirik istedadı yaradıcılığını bu istiqamətdə inkişaf etdirməyə tamamilə əsas verirdi. O, "Kirpi"yə gələndə gənc idi, cəmi 22 yaşı var idi, lakin ömrünün bundan sonrakı 33 ilini də bu jurnalda keçirərək satirik yaradıcılığını davam etdirdi. Bu müddətdə şairin "Özündən demir" (1962), "Qəribə yuxu" (1965), "Keçmə belə kişidən" (1967), "Karın könlündəki" (1970), "Hansımız hündürük" (1970), "Düzü düz, əyrini əyri" (1973), "Bu mənəm, mən deyiləm?" (1976), "Məhəbbətlə, gülüşlə" (1981), "Hələlik" (1991) və s. şeirlər kitabı nəşr edilmiş, yeni dövrdə satirik şair kimi tanınmışdır. Eyni dövrdə yaşayıb yaradan R.Əhmədzadə və R.Zəbioğlu yaradıcılığını satira mövqeyindən qiymətləndirən ədəbiyyatşünas B.Əhmədov yazır: "Maraqlıdır ki, R.Zəbioğlu ilə R.Əhmədzadənin şeirləri sanki "əkiz qardaş"dırlar...Təbii eyni dövrdə yaşayıb yaradan eyni satira bulağından "su içən" bu səntkarların satirik qəhrəmanları da bir-birinə bənzəyirdi" (3, s.268).

R.Əhmədzadə yaradıcılığında satirik hədəfləri düzgün müəyyənləşdirməklə yanaşı, onları sənətkarlıqla təsvir edir, ayrı-ayrı tipləri gülüş və tənqid hədəfinə çevirir. Onun satirik şeirlərinin müvəffəqiyyətli çıxmasının əsas səbəblərindən biri isə klassikədəbiyyatın, eləcə Sabir satira ənənəsini uğurla inkişaf etdirməsidir. Təsadüfi deyil ki, onun satirik şeirləri forma cəhətdən klassik və çağdaş poetik ənənə qovuşuğunu özündə ehtiva edir. Bu formalar içərisində klassik qəzəl forması da başlıca yer tutur. "Vəzifəm xətrinə", "Nuşi-canın", "Qorxsun o kəslər", "İşin yox", "Xain ürəyi", "Mənə bəsdir", "Mərhələ yoxdur" və s. şeirlərində qəzəl formasında yeni məzmun ifadə edir. Burada vəzifə xətrinə öz canını üzən, bütün donlara girənlərin ("Vəzifəm xətrinə"), yerliçilikdə misli tapılmayan, dost-aşnasını çəkib yanına gətirənlərin ("Nuşi-canın"), "cib" xəstəliyinə yoluxanların ("Qorxsun o kəslər") və s. obrazını sənətkarlıqla yaradır. Şair üçün cəmiyyətdə ən qorxulu xəstəliklərdən biri vəzifə xəstəliyidir. Şair bu xəstəliyi ictimai xəstəlik hesab etdiyindəndir ki, vəzifəpərəstin obrazını yaratmışdır:

İşlərim kimdən keçir, tərif dedim ünvanına,
Çalsalar hər cür hava, süzdüm vəzifəm xətrinə.

Halıma qəlbdən yananlar çox məzəmmət etdilər,
Haqq sözə bəzən dodaq büzdüm vəzifəm xətrinə.

Saymadım töhmətləri, tənqidləri, danlaqları,
Doğrusu, təhqirə də dözdüm vəzifəm xətrinə. (4, s.9)

Lakin satirik qəhrəmanın vəzifə xətrinə cilddən-cildə girməsi onun köməyinə gəlmir, tezliklə onu işdən qovurlar. Satirik qəhrəmanın sonda ifşa olunması satirada inkarın təsdiq vasitəsi kimi mənalanır. "Qorxsun o kəslər..." satirik şeirində isə şair cəmiyyətdəki başqa bir xəstəlikdən söhbət açır. "Görəsən, yer üzünə kim gətirib xəstəliyi, Kim əkib, kim becərib, kim bitirib xəstəliyi?" sualı ilə məsələni çox ciddi qoyan şair təbii xəstəliklər -tif, qripdən danışır və "cib" xəstəliyini onlarla müqayisə edərək ondan da kəskin və qorxulu olduğunu bildirir. Bununla şair təbii, tibbi xəstəliklə ictimai xəstəliyi müqayisə edərək fiziki qüsurları deyil,

ictimai nöqsanları hədəf alır. "İşin yox" şeirində də cəmiyyətin başqa bir xəstəliyi olan şöhrət tənqid hədəfi edilir. R.Əhmədzadənin satirik qəhrəmanı şöhrətpərəst ancaq özünü düşünür, xalqın xeyirinə bir kəlmə belə kəsmir. Lakin ən acınacaqlısı odur ki, bu şöhrətpərəst öndə gedir. Şair bu cür nadanları rüsvay etməyi, cəmiyyətə tanıtmağı özünə bir borc bilir:

Şöhrət bazısan, amma çalışmaqda işin yox,
Hər xeyrə-şərə əsla qarışmaqda işin yox.

Arsızlığa bir bax hələ eldən pay umursan,
El xeyrinə bir kəlmə danışmaqda işin yox. (4, s.10)

R.Əhmədzadənin satirik qəhrəmanları canlıdır, həyatidir, cəmiyyətin bir üzvüdür, buna görə də cəmiyyəti narahat edən problemlərdəndir: rüşvətxorluq, qohumbazlıq, tamahkarlıq, yaltaqlıq, əyyaşlıq, böhtançılıq, əliəyrilik həmişə cəmiyyəti içindən yeyən və dağıdan problemlərdən olmuşdur. Bu mənada R.Əhmədzadənin qəhrəmanları onun müasirləridir. Müasirlik donunda onları aşkara çıxarmaq o qədər də asan olmur. Onun satirik şeirləri də məhz məzmununa və sənətkarlığına görə bədii dəyər qazanır. Filologiya elmləri namizədi Cəfər Rəmzi yazır: "Rüfətin satiralarının müvəffəqiyyətli çıxması səbəbləri onun klassik ədəbiyyatın müsbət ənənələrinə istinad etməsi və müasir formalardan qidalanması ilə bağlıdır. O, əruz və heca vəznləri ilə yazdığı satiralarının çoxunu klassik formalarda (məsnəvi, qəzəl, mürəbbe, müxəmməs, müsəddəs) verir, folklor xəzinəsindən yaradıcılıqla istifadə edir. Yerində işlənən məsəllər, atalar sözləri, xalq ifadələri satiraların maraqlı oxunmasına, onun təsir qüvvəsinin dərinləşməsinə kömək edir" (5).

Tədqiqatçının yazdığı kimi, R.Əhmədzadənin satirik şeirlərində klassik forma başlıca yer tutur. Bu da, hər şeydən əvvəl, satirada Sabir ənənəsinin yaşadılmasından irəli gəlirdi. Məsələ burasındadır ki, klassik formadan istifadə edərək ona satirik məzmun vermək ilk dəfə Sabir yaradıcılığında özünün ən yüksək ifadəsini tapmışdır. Məhz Sabirdən sonra Ə.Nəzmi, M.S.Ordubadi, Ə.Vahid bu üsuldan bu və ya digər şəkildə istifadə etmişlər. Onun bir neçə qəzəli Sabirin "Ey qaşı kaman..." şeirinin təsiri ilə yazılmışdır. R.Əhmədzadə də Sabir satira yolunu davam etdirərək lirik forma olan qəzəldən satirik ifadə üçün istifadə etmişdir. "Ay kələkbaz, bu qədər keçmə yalandan-yalana" misrası ilə başlayan satirik şeirində də klassik formadan uğurla istifadə edilir:

Ey kələkbaz, bu qədər keçmə yalandan-yalan,
Utanıb, eylə həya, girmə dalandan-dalana.
O qədər vədə veribsən ki, gedib baş-qulağım,
Cumuram gündə xəyalımda kalandan-kalana.
De nədəndir ki, buludtək tutulur qaşqabağın,
Rəngi ruhun açılır rüşvət alandan-alana (6, s.59).

R.Əhmədzadənin bir çox şeirləri monoloq şəklində söylənmişdir. Bu forma geniş yayılmaqla yanaşı, satirik qəhrəman özünün xarakterini, daxili aləmini açmaq üçün ən yaxşı vasitələrdən biri olur. Əliəyri satıcı ("Tərəzi"), müttəhim ("Kifayətdi mənə"), vəzifəpərəst ("Bu mənəm, mən deyiləm?"), savadsız ("Axtar təzə day-day mənə"), ferma müdiri ("Hay-haray") və s. şeirlərində satirik qəhrəman bütün cizgiləri ilə açılır. "Tərəzi" şeirində sanki şair cəmiyyətin mənəvi tərəzisinin əyildiyini, hər şeyin öz yerini dəyişdiyini bildirir. Əliəyri satıcının tərəzidə xalqı aldatması, əslində həm də mənəvi problemdir. Tərəziyə xitabən deyilən sözlər satirik qəhrəmanın mənəvi aləmini bütün reallığı ilə ortaya qoyur:

Mən sənlə kefimi eyləmişəm cağ, tərəzi!
Yarım arşındı boyun, gəlhagəlin dağ, tərəzi!

Bu canım tək sevirəm, mən səni, öz canım üçün,
Çünki səndən alıram hər şeyi cananım üçün.

Bir günün xeyri bir ay bəsdi cibişdanım üçün,
Evimə müftə axır qənd, düyü, ət, yağ, tərəzi,
Yarım arşındı boyun, gəlhagəlin dağ, tərəzi! (4, s.46)

Satirik qəhrəmanın tərəziyə sevgisi aşiq-məşuq sevgisi kimidir, lakin elə müştərilər var ki, "aşiqin" kefini pozur, haray-həşir salır, bəziləri ona "yanpörtü" baxır. O zaman satıcı tərəzini düz çəkməyə məcbur olsa da, barmağı ilə azacıq basaraq "kef" edir. Bütün bunları satıcının sirri kimi tərəzi gizli saxlayır:

Lal olub saxlamısan indiyədək sirrimizi sən,
Hələ ki, görməmişəm bir belə dost qədri bilən,
Ay əzizim tərəzi, qurban olum şəstinə mən.
Əsli dost tək səni bildim, səni, ancaq tərəzi!
Yarım arşındı boyun, gəlhagəlin dağ, tərəzi
Mən sənlə kefimi eyləmişəm cağ, tərəzi! (4, s.47)

R.Əhmədzadənin yaradıcılığında lirika ilə satira paralel olaraq çıxış edir. M.Ə.Sabir yaradıcılığında da belədir. Əslində o, yaradılığa da lirik şair kimi başlamışdı. Lakin sonradan bütünlüklə satiraya keçməsi satira ilə lirikanın dialektik münasibətini ifadə etmiş olur. Bu mənada R.Əhmədzadə satirik qəhrəmanları, obrazları, bədii təsvir və ifadə vasitələri ilə bütöv bir dövrün mahiyyətini, mənəvi ab-havasını yaratmış oldu. Məlumdur ki, ötən əsrin 50-ci illərindən başlayaraq ictimai-siyasi həyatda müəyyən bir dəyişikliklər baş vermişdir. Siyasi qabarma və çəkilmələr dövrün mənəvi mühitinə də bu və ya digər şəkildə öz təsirini göstərmişdir. Ona görə də onun satira güzgüsündə 60-cı, 70-ci, 80-ci illər həyatı, cəmiyyət və onun problemləri aydın görünür. Bu mənada R.Əhmədzadə Sabir satira ənənəsini yeni dövrdə ən yaxşı şəkildə davam etdirənlərdən biridir. Əslində şairin siyasi lirika kimi vaxtilə dərc edilən bəzi şeirlərinin özündə belə satirik pamflet ünsürləri aydın görünür. Bu şeirlərin dərinliyində olan kinayə, istehza bu gün daha qabarıq şəkildə özünü biruzə verir:

Hər beşillikdə düşür xeyli, zəfər payımıza,
Biz hesabat veririk hər günə, hər ayımıza.
Gəlmişik alnı açıq şanlı qurultayımıza,
Qərq olub nura geniş ölkənin hər yanı bu gün,
Keçməyir ömrümüzün qüssədə bir anı bu gün!... (6, s.78)

O zaman siyasi lirika nümunəsi olaraq yazılan bu şeir yeni zaman kontekstində tamamilə ironik mahiyyət daşıyır; çünki bu gün nə həmin beşilliklər var, nə şanlı qurultaylar, nə də həmin qurultaylarda verilən qərarlar.

R.Əhmədzadənin satirik şeirləri içərisində nəzirələr də mühüm yer tutur. Nəsimi, Füzuli, Sabir, Əli Nəzmi və başqalarına yazılan nəzirələrdə şair müxtəlif problemləri satirik tənqid hədəfi etməklə klassik poeziyanı yeni məzmunda yaşatmaq yolunu tutur. Bu şeirlərin bəziləri lirik, bəziləri isə satirik şeirləri təfsir edir. Şairin yaradıcılığının bu xüsusiyyətini nəzərdə tutan tənqidçi Nizami Cəfərov doğru olaraq belə bir qənaətə gəlir: "R.Əhmədzadənin satirik təfəkkürünün müəyyənləşməsində onun nəzirələri (söhbət hər yerdə ancaq satirik nəzirələrdən gedir) xüsusi rol oynadı və mənim fikrimcə, şairin satirik yaradıcılığının hər-tərəfli təhlili hər hansı halda həmin nəzirələrin tədqiqindən başlanmalıdır" (7).

R.Əhmədzadə bu nəzirələrində formanı olduğu kimi saxlayaraq bədii mətnə yeni məzmun vermək yolunu tutur. M.Füzulinin "Məndə Məcnundan füzun aşiqlik istedadı var, Aşiqi sadiq mənəm, Məcnunun ancaq adı var" beyti ilə başlayan qəzəlini yeni satirik formada "Məndə hər şeydən əzəl, alimlik istedadı var, Hazıra nazir mənəm, alimin ancaq adı var" şəklində verməklə cəmiyyətdə alim adına layiq olmayan kəsləri ifşa hədəfi edir. Nəsimi, Sabir, C.Cabbarlı, S.Rüstəm, M.Müşfiq, H.Arif, M.Rahim, O.Sarıvəlliyə və b. yazdığı nəzirələrdə ictimai problemlərə toxunur, yeni satirik qəhrəmanlar yaradır. Şairin Sabirə bir neçə nəzirəsi vardır; bunlardan "Mən deyən oldu, sən deyən", "Gör", "Dəyiş söhbəti" və s. Satirik

şeirlərində sələfinin qəhrəmanlarının varislərinin obrazını ustalıqla yaradır. Sabirin "Çığırma, yat, ay ac toyuq, yuxunda çoxca darı gör" misrası ilə başlayan məşhur satirasını "Fermanıza cumanların əlində ixtiyarı gör!" misrası ilə tamamlayır. Satirik şeirin sonrakı misralarında müfəttişin məkrinə inanmamağı, "yumurtanın nəticəsini payızda saymamağı", "hay-küyə" aldanmamağı məsləhət görür və belə bir qənaətə gəlir:

Şikayət etmə, təftişin apardığın da görmüsən,
Yazdığın akta diqqət et, çıxardığın qərarı gör!

Girişdilər, ilişdilər, nə vaxt açıldı sirləri,
Bax, onda antipodların içində ahu-zarı gör! (4, s.164)

Sabirin "Mən deyən oldu, sən deyən?!" şeirinə yazdığı nəzirədə yeni dövrün reallıqları tənqid edilir:

Mən demədimmi, ay filan, axırı bəddi rüşvətin?
Sən demədinmi anlamaz kim almayıbsa ləzzətin.
Düşübsən indi sancıya, tünbətün oğlu, tünbətin,
Asanca tapmısan azar, amma sağalmağın çətin.
Əyri otur, düz danışaq, mən deyən oldu, sən deyən?
A quş beyinli balqabaq, mən deyən oldu, sən deyən?

Mən demədimmi el gözü yaxşı, yamanı tez seçir...
Sən demədinmi el nədir, mənim günüm ki, xoş keçir...
Cəzandı, çək, görən deyir: "Qoy ölsün, əkdiyin biçir..."
Gör necə dartılıb qulaq, mən deyən oldu, sən deyən?
A quşbeyinli balqabaq, mən deyən oldu, sən deyən? (4, s.163)

R.Əhmədzadənin satirik şeirlərində qoyduğu problemlər, tənqid etdiyi hadisə və keyfiyyətlər dövrün, zamanın, cəmiyyətin mənəvi xəstəliklərini özündə ehtiva etdiyindən böyük təsir qüvvəsinə malik olurdu. Bu şeirlərdə vəzifə hərisləri, rüşvətxorlar, zahiri bər-bəzəyə aldananlar, mənəviyyatsız adamlar, öz mənafeyini düşünənlər və b. tənqid edilməklə cəmiyyətə öz mesajını vermiş olurdu. Cəmiyyəti içindən yeyən elə keyfiyyətlər var ki, onu vaxtında görüb ictimai qınaq obyektinə çevirməsində satiranın rolu həmişə aktuallığını qoruyub saxlamışdır. Bu mənada R.Əhmədzadənin satirik poeziyasını öz dövrünün aynası hesab etmək olar. Doğrudur, bu şeirlərdə M.Ə.Sabir satirasında olduğu kimi ictimai, siyasi proseslərə toxunulmurdu, bununla belə elə cəmiyyət hadisələri var ki, onun satira hədəfi edilməsi cəmiyyətin saflaşmasına, təmizlənməsinə xidmət edirdi. Bu da istər-istəməz, ictimai mahiyyət daşıyır. Bu şeirlərdə cəmiyyəti dəyişməyə cəhd edilməsə də, cəmiyyətdəki bəzi qüsurların, problemlərin aşkara çıxarılmasında satira müəyyən rola malik olur.

Ədəbiyyat

1. Ədəbiyyatı partiyamızın və xalqımızın tələbləri səviyyəsinə yüksəldək. // Ədəbiyyat qəzeti, 1952, 28 oktyabr
2. S.Vurğun. Seçilmiş əsərləri. 5 cilddə, V c., Bakı, 2005,
3. B.Əhmədov. Azərbaycan satirasının inkişaf problemləri. Bakı: Elm, 2000, 296 s.
4. R.Əhmədzadə. Hələlik. Bakı: Yazıçı, 1991, 192 s.
5. C.Rəmzi. Düzü-düz, əyrini-əyri. // Ədəbiyyat və incəsənət, 1973, 16 iyun
6. R.Əhmədzadə. "Düzü-düz, əyrini-əyri. Bakı: Gənclik, 1973, 159 s.
7. N.Cəfərov. Dünyaya lirik şair kimi gəlmişdi... // Ədəbiyyat və incəsənət, 1982, 22 dekabr.

Г.Агабек

Мир образов сатирической поэзии Руфата Ахмедзаде

Резюме

Руфат Ахмедзаде - сатирический поэт II половины XX века. Он в своём творчестве продолжил сатирические тенденции Сабира в новой эпохе. В своих произведениях Руфат Ахмедзаде описал разные проблемы общества. Среди его образов основное место занимают безграмотные люди, лгуны, купцы, льстцы, взяточники и другие. В произведениях Руфата Ахмедзаде есть и обращение к другим поэтам того времени. В данной статье о сатирическом поэте автор опирается на научные труд литературоведов Н.Джафарова, Б.Ахмедова и др.

G.Agabey

The World of Characters of Rufat Ahmedzadeh's Satiric Poetry

Summary

Rufat Ahmedzadeh's, who began his literary activity in the second half of the XX century, literary activity is analyzed in the article. It is noted in the article that as a poet Rufat Amedzadeh, who continued Sabir's traditions in the new era, could in some way express different problems of the society in his works.

Among those who were criticised bribe-takers, illiterate scientists, those who prefer their personal interests to people's well-being, liars, flatterers, occupied the main place.

At the same time the poet's imitative poems to different poets are researched.

Although the main characters of his satiric poems are not of public essence, the events and qualities are of public nature.

Studies by N. Jafarov, B. Ahmedov and other authors about the satiric poet have been refered to.

Rəyçi: filol.e.d., prof. N.Tağısoy

Redaksiyaya daxil olub: 19.12.2016

T.Ə.ƏBDÜLHƏSƏNLİ
filologiya elmləri doktoru, professor

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
(Bakı şəh., İstiqlaliyyət küç., 6.)

XƏLİL RZA ULUTÜRKÜN POEZİYASINDA VƏTƏNSEVƏRLİYİN VƏ QƏHRƏMANLIĞIN POETİK ƏKSİ

***Açar sözlər**: elmi nəticələr, tədqiqat, yaşıdım, şairin lirikası, xalqın şüur və hissləri*
***Ключевые слова**: научные результаты, исследования, мой ровесник, лирика поэта, мысли и чувства народа*
***Key words:** scientific results, over the research, my coevals, lyrical possibilities, of the presentation tradition to community*

Xalq şairi Xəlil Rza **Ulutürk** müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsidir. Onun şeirləri öz orijinal cəhətləri ilə geniş oxucu kütləsinin və ədəbi fikrin diqqətini həmişə cəlb etmişdir. Xəlil Rza Ulutürkün yaradıcılığına məxsus tribunluq, coşğunluq, mübarizə və döyüş ardıcıllığı onun bütün poeziyası – şeirləri və poemaları üçün həmişə səciyyəvi olmuşdur.

Xəlil Rzanın lirik qəhrəmanı daxilən bütövdür, hər hansı şəraitdə o, öz bütövlüyünü, deməli, gözəlliyini və ülviyyətini qoruyub saxlayır. Bunun səbəbi yalnız o deyil ki, o, iradəli, mətin, döyüşkən bir insandır, üstəlik həm də budur ki, sağlam dünyagörüşü ilə silahlanıb, vətənsevərlik, qəhrəmanlıq, humanizm barədə fikirləri, qənaətləri möhkəm elmi əsaslara malikdir, bunları yalnız kitablardan yox, həm öz mübarizə təcrübəsindən öyrənmiş, «yanmış kipriklərilə» hiss eləmişdir. Onun əsərlərindəki hər şeir, hər poema və ballada, əslində, bu qəhrəmanın yeni bir keyfiyyətini bizim üçün açır.

«Bir cüt göyərçin kimi» şeirində iki il ayrıcında düşünən, tarixin gedişinə və beynəlxalq aləmin mənzərəsinə qiymət verən lirik qəhrəmanın başqa keyfiyyətləri ilə tanış oluruq.

Hər hansı şair ömründə azı bir dəfə, bəzən bir neçə dəfə yeni il mövzusunda şeir qələmə alır. Lakin … sanki təsadüfən yazılmış bu şeir beynəlxalq aləmdə mövcud ziddiyyətləri və ümumən, bəşəriyyətin mənəvi həyatındakı keşməkeşləri necə ustalıqla, ictimai-siyasi koloriti ilə birlikdə nəzərdə canlandırır:

Düymələr hökmündən qurtulsun bəşər
Günəş sönə bilər bir səhv ucundan.
Asılsın deyirəm hərb istəyənlər
Mənim nifrətimin dar ağacından! (1, s.305)

Az qala şeiri bütünlüklə, təpədən dırnağacan misal gətirmək istəyirsən.

Gəl… ayırd eləyək napakdan pakı,
Cılız adamlardan dağ adamları.
İşıqlı sözlərin arxasındakı
Gizli zülmətləri dağıdanları.(1, s.306)

«Gizli zülmət» neofaşizmin, neomüstəmləkəçiliyin, saman altından su yeridən beynəlxalq imperializmin aparteid siyasətidir. Lirik qəhrəman bəşəriyyətin yolunda əngələ, səddə çevrilən bu tör-töküntülərin hamısını öz nifrətinin qızıl kürəsində yandırmaq, qəhr etmək əzmindədir.

X.Rza Ulutürkün publisistik səpkili şeirləri maraqla oxunur. «Qəflət ləkəsi», «Yaşıdım», «Gül yastıq» və sair bu kimi şerləri yüksək vətəndaşlıq alovu ilə seçildiyi kimi, forma əlvanlığı cəhətdən də şairin lirik imkanlarının genişliyindən xəbər verir. X.Rzanın tribun lirikasında şeirimizin ən yaxşı ənənələri – zaman hadisələrinə həssas,

poetik münasibət, cəmiyyətin, xalqın şüur və hissələrini, nə ilə yaşamasını lirik «mən»in şəxsin sərvətiləri səciyyəsində təqdim etmək ənənələrinin təsiri çox qabarıqdır.

Lirik qəhrəman nə cür yaranır? Şair şəxsiyyətinin estetik ideal ilə qovuşması yolu ilə! Bulaq suyu məhz daşdan keçdiyi üçün durulduğu kimi, lirik qəhrəman da məhz estetik ideal ilə qovuşduğu üçün süzgəcdən keçir. Bu halda lirik qəhrəmanın dolğunluq dərəcəsi, aydındır ki, şair şəxsiyyətinin zənginliyindən və estetik idealının dəyərlərindən asılıdır. Lirik qəhrəman əsrin öncül ideallarını daşıdığı xalq mənəviyyatının aynasına çevrilə bilər. Bu mənada X.Rza Ulutürkün lirik qəhrəmanı seyrçi deyil, iştirakçıdır, müdafiəçidən daha çox hücumçudur.

Qıy vuraq, hər səddi devirməliyik.
Cansız ulduzlara can verməliyik.
Biz ümid toxumu Yer kürəsini
Cahan gülzarına çevirməliyik. (2, s.124)
/«Bir cüt göyərçin kimi»/

Bu şerin lirik qəhrəmanı dəyanətli, dözümlü, qüdrətli bir insandır. Amal, məqsəd və məslək aydınlığı onun əsas səciyyəsidir. Vətənpərvərlik, humanizm, hər cür ətalətə, süstlüyə qarşı hiddət, özünə dərin inam X.Rza Ulutürk şeirlərində poetik pafos, uçuş qanadları qazanır. Öz əqidəsi uğrunda mübarizədə ardıcıllıq, sarsılmaz iradə və dözüm, fədakarlıq, başdankeçərlik Şairin lirik qəhrəmanının başlıca cizgiləridir.

Çiynində dağ vəzifəm – böyük, ağır, müqəddəs.
Sən başımın altına gül yastıq qoyma əbəs.
Belə bir keşməkeşdə.
Ağlı, bir də vicdanı olanlar… yata bilməz. (3, s.52)

Bu misralar yalnız özünə, öz mənliyinə, seçdiyi sənətin gərəkli və zəruri olduğuna ürəkdən inanan və gündəlik işini amala çevirilmiş bahadır ürəkli bir insanın dilindən çıxa bilər. «Çətindir. Qarşımızda Hamlet sualı durur. Yaşaya bilməyəni zaman atır tavaya şabalıd tək qovurur». Diqqət edilərsə, bu misraların hər kəlməsində öz dərdləri ilə döyüşən, maneə və əngəlləri qıra-qıra irəliləyən lirik qəhrəmanın nəfəsi alovlanır.

Xəlil Rza Ulutürkün fikirlərini, demək istədiyi mətləbi şerin formasına qurban vermir, onu özünün istədiyi kimi yox, şeirin özünün ixtiyarına verir. Məhz buna görə də şerlərinin forması ancaq məzmuna, onun bədii keyfiyyətlərinə xidmət göstərir.

Ədəbiyyatımızın başqa janrlarına nisbətən dövrün, zamanın hadisələrinə, dünyamızın gərgin ictimai-siyasi mənzərəsinə ən çox əks-səda verən poeziyadır. Bəlkə elə poeziyanın aktuallığı, operativliyi də bundadır. Bu gün onun üzərinə, xüsusilə, mühüm vəzifələr düşür. O, öz spesfikliyini saxlamaqla yanaşı, gərək dünyanın dərdlərini, əsrin həyəcanlarını, fəlsəfi məzmununu da özündə cəmləşdirmiş olsun. Bu mənada Xəlil Rza Ulutürkün şeirlərindəki siyasi kəskinlik, dünya hadisələrinə fəal vətəndaşlıq münasibəti çağdaş şerimizin mühüm uğuru hesab edilə bilər. Onun şeirlərinin əksəriyyətində narahat, ləngərli dünyamızın dərdi-sərini ürəyindən keçirən, misralara ümid işığı verən şairin ürək çırpıntılarını eşidirik. Planetimizin sabahı üçün keçirdiyi narahatlığı duyuruq, müqəddəs şair kədərini bir daha yaşayırıq. «Mayakovskiylə söhbət» şerində şair söz ustadı ilə müasir dünyanın vəziyyəti barədə fikir mübadiləsi edir. «Qlobal təfəkkürə möhtac» olan bəşəriyyətin mühüm problemlərindən söz açır. İmperializminin iç üzünü, eybəcər simasını açır:

Tropik meşələrdə
Sarılaraq belinə pələngi boğa bilən
Bir ilandan daha çox
Burnunu yaralı torpağa soxmuş
Qanadlı raketlər təhlükəlidir. (4, s.67)

Bu şerin lirik qəhrəmanı təzadlı əsrimizin böyük dərdlərini düşünür, onun həlli yollarını tapmağa çağırır. Planeti nüvə qırğınından xilas etmək uğrunda mübarizəyə səsləyir. O, insanlığın, bəşəriyyətin tərəqqi, inkişaf yolları haqqında fikirləşir, imperializmə, müstəmləkəçiliyə, müharibə qızışdırıcılarına – antihumanizmin hər cür təzahürlərinə kəskin nifrət edir. O, zamanla nəfəs-nəfəsə yaşayır, dünyanın dərdlərini şəxsi kədəri hesab edir. Buna görə də oxucunu öz ardınca apara bilir, onun həmsöhbəti olmaq hüququ qazanır.

«Min yaşlı çinarlar», «Sükan dalındayam, içə bilmərəm», «Sorğular», «Ömrüm», «Qorx! Qorxma!», «Gənclik şəklin və bugünkü özün», «Sədr bilmədimi?», «Söz kürsüsü», «Yürüşdəyəm», «Azərbaycanlı», «Min bir dərdin dərmanı», «Məmməd Araz», «Başıaçıq dayanan kişi», «Ənənə – gələnək», «Müşfiqdənmi artığam, ya Şandor Petefidən?!», «Könlümlə söhbət», «Mən şərqəm», Bir odlu gözləri, bir də…», «Çobannamə» kimi dramatik özəkli, münaqişə alovlu şeirlərdən hər biri zəmanəmizin və mənəvi həyatımızın ən başlıca problemlərini işıqlandırır. Öz milli varidatını qorumaq uğrunda mübarizəyə girişmiş xalqın məğlubedilməzliyi, insanın məramı qarşısında məsuliyyət hissi, onu bioloji varlıq kimi dolanmaqdan xilas etmək uğrunda mübarizədən doğan fəlsəfi sorğular, özəl yaşamağın mənası və çətinlikləri, proqmatik mühitdə öz istedadına yol açа bilməyən insanın saflığından doğan faciəsi, sənətkar cildinə girmiş təslimçilərin ifşası, hər hansı şəraitdə mübarizə aparmağı bacaran məram yolçusunun mövqeyi, bütün müşgüllərin açarı və bütün dərdlərin dərmanı kimi cəsurluğun, mətanətin vəsfi, təklikdə özünütəhlil və eybəcərliyə qarşı mübarizə məramının labüdlüyü, Qərbi Şərqə qarşı qoyan Avropa mərkəzçiliyi ideoloqlarının ifşası, böyük sənət və böyük sənətkar heykəli qarşısında düşüncələr, təbiətə məhəbbətdəki xilasedici qüvvə, alimlikdən tutmuş çobanlığadək zəhmətin ləyaqət meyarı kimi dəyərləndirilməsi adını çəkdiyimiz şeirlərin başlıca mövzusunu və məfkurə yönünü müəyyənləşdirir. Bu şeirlərin arxasında dayanan lirik qəhrəman cəmiyyətin kölgəli cəhətlərini, fənalıqları mütəfəkkir gözləri ilə seyr edən, ancaq susmayan, mübarizə qaynağının tən ortasına atılan döyüş və idrak əhlidir və məhz buna görə cəsurdur, Şərə qarşı mübarizədə əsla güzəştə getməyən hünərvərdir.

Onları köpüncə sillələməyə,
Dargözlük hissini güllələməyə
Sən mənə silah ver, Odlar torpağı!
Vurğun qüdrəti ver, Vurğun bayrağı! (5, s.52)
/»Bir odlu gözləri, bir də…»/

Sən mikrob kimisən, varlığın zədə,
Naqislə, nakəslə mübarizədə
Heç bir ehtiyat! (6, s.124)
/« Üz-üzə»/
… Uyma onun felinə,
Öz balası həsrətdir Azərbaycan dilinə.
Aldadır önündəki sadəlövhü, hərifi.
Füzulidən bəhs açır,
Öz balası tanımır Füzulini, Vaqifi! (7, s.71)
/«Riyakar»/

Görkəmli rus sovet şairi Vladimir Luqovskoy doğru qeyd edir ki: "Lirika drammatik özəyə malik olduqda xalqın bədii xəzinəsinə çevrilir". Xəlil Rzanın ictimai, siyasi lirikası məhz belə bir ləyaqətə malikdir. İlk baxışda elə görünə bilər ki, Xəlil Rza poeziyasındakı konflikt meydanı vur-tut ikicə adamın vuruşundan ibarətdir. Lakin əslində burada vuruşan iki fikir sistemidir, yaşamağın, yaratmağın mənasına dair iki qənaət, iki fəlsəfə, iki dünyagörüşü arasında gedən barışmazlıqdır. «Neçə traktor salıb //

Qədim bir qəbristanı qara şuma döndərən, // hökmdar cinarları şah taxtından endirən, // Qırqovulu, ceyranı o dünyaya göndərən, // Min illik abidəni ilim-ilim itirən, // Yerində kəfən kimi şöhrət kolu bitirən // Satqınlar görmüşəm mən // İmansızı, qansızı yalandan mədh eləyən // Alçağı ülvi kimi əzizləyən görmüşəm // Qatilin əllərini qızıl qan ləkəsindən təmizləyən görmüşəm», «Məzənnəsi qalxdıqca, satqınlığı tündləşir. // Kor eşşək dərisinə dəyməsə də vücudu, // İş başında şirdi, «şir» /»Satqın»/. Şeirdən bəlli olur ki, «Satqın» damğası ilə damğalanan tip mühüm bir vəzifəni ələ keçirmiş, məngirləmiş adamcıqdır. Lakin o, eyni zamanda rüşvət, yemək hərisidir. «Satış qiyməti növ-növ enir, qalxır bir daha: - Beş min! – On min! – Əlli min!» Bayaq sədrlik, müdriklik, katiblik edən satqın indi müəllim maskası taxıb ali və orta məktəblərə, texnikumlara soxulmuş bəzi üzdən iraq imtahanbazları xatırladır. Bu o deməkdir ki, o, konkter olduğu qədər də ümumiləş-dirilmiş bir tipdir. Şeirdə bircə satqın deyil, ümumən satqınlığın bütün təmsilçiləri ifşa olunur. Növləri çoxdur: qiyabi satılan, əyani satılan, tədricən və biryolluq satılan, tünd satqın, miyanə satqın, «yarım misqal şöhrətə», «atasından xəbərsiz adətə» satılan.

İlk baxışda elə görünə bilər ki, Xəlil Rza Ulutürkün bu tipli şeirlərində eybəcərlik kateqoriyası gözəlliyi üstələyir, şair daha çox tənqidi realist ədəbiyyatın yaradıcılarından biri kimi qələm çalır. Lakin bu, yalnız ilk baxışda belədir. Bu şeirlərdə lirik qəhrəmanın nəfəsində elə bir atəş, vətəndaş mövqeyində elə bir sağlamlıq var ki, o, gözəllik, ülviyyət və hətta qəhrəmanlıq kateqoriyalarının həyat qaynağına çevrilir və oxucuda güclü bədii təsir oyada bilir.

«Qara hədəfə atəş» silsiləsində gərgin döyüş, çarpışma gedir. Bu çarpışma yalnız tərəqqi ilə irtica, düzlük ilə yalan, cəsurluq ilə qorxaqlıq, yurdsevərlik ilə milli satqınlıq, zəka ilə nadan arasında deyil, həm də bunların keçid formaları, mürəkkəb, çoxyönlü məzmunları arasındadır. Zira nadanın ayılması, zəka əhlinə çevrilməsi mümkün olduğu kimi, zəka, ağıl daşıyıcısının kirli, rəzil mikromühitə təslim olub öz simasını itirməsi də imkan xaricində deyil.

1983-cü ildə "Yazıçı" nəşriyyatında çap olunmuş «Hara gedir bu dünya?» kitabındakı «Qara hədəfə atəş» şairin «Ömürdən uzun gecələr» toplusundakı «Mayakovski işığında» bölməsinin davamıdır. Əslində, bu, təmayül «Taparam səni» kitabı ilə başlanmışdır. Lakin oradakı satira mayalı şeirlər nə sayca, nə də sambalca indiki səviyyədə deyildi. Bölmələrin adı necə də dürüst seçilmişdir. «Qara hədəf», «Mayakovski işığı», Mayakoski məşəli ilə getmək, yürüş etmək zərurəti yada düşür.

Şairin hələ «Doğmalıq» kitabında «Sabir kişi şairdir» /Rəsul Rza/ epiqrafı ilə nişan verdiyi həqiqəti, «Hara gedir bu dünya?» toplusunda «Mayakovski ilə söhbət»ini, «Ömürdən uzun gecələr»ində Rəsul Rza mövzusuna dönə-dönə qayıtmasını /«İradə və sağlamlıq dastanı», «Şerimizin Babəki»/ əsla təsadüfi saymaq olmaz. Görünür, ustadı saydığı həmin şairlərin yaradıcılığındakı bir sıra keyfiyyətlər və ilk növbədə, əlbəttə, vətəndaş yanğısı, naqisliyə dözməmək şakəri Xəlil Rzaya çox ciddi təsir göstərmiş və ədəbi-estetik platformasının ana xəttini müəyənləşdirmişdir. Başqa cür ola da bilməz. Böyük poeziya – qəhrəmanlıq poeziyası heç vaxt ənənəsiz yaranmır, onun böyüklüyü milli və beynəlmiləl təsiri mənimsəmək bahasına başa gəlir.

Qəhrəmanlıq nədir? Xəlil Rza özünün «Maqsud Şeyxzadənin bədii yaradıcılığı» /Elm, 1980/ monoqrafiyasında bu suala dürüst cavab vermişdir. Qəhrəmanlıq adi həyat fəaliyyətinin, adi yaşayış normalarının və ümumən normativliyin rədd olunmasıdır, yaşamağın və yaratmağın yeni, yüksək meyarıdır. Qəhrəmanlıq insanın öz bioloji məhdudluğu üzərində qələbəsidir, bircə ömrün içində bir neçə ömür yaşamaq əzmidir, buna görə bir sıra hallarda fəcilik ilə bağlıdır. Qəhrəmanın əbədi mənəvi ömür qazan-ması çox vaxt ona öz ömründən vaz keçməsi bahasına başa gəlir. Xəlil Rzanın başdan-başa qəhrəmanlıq ruhu ilə yoğrulmuş «Krasnadon qartalları», «Məhəbbət dastanı», «İki qardaşın söhbəti», «Hara gedir bu dünya?» poemalarından həmin fəci notları eşitmək

çox da çətin deyil. Birinci Dünya müharibəsindən sonra Cənubi Azərbaycanda qurulan və vur-tut bircə il /12 dekabr 1945-2 dekabr 1946/ ömür sürən milli demokratik hökumətin daxili həyatını, bütöv mənəvi mənzərələrini nəzərdə canlandıran «İki qardaşın söhbəti» poemasında bu cür qəhrəmanların tam surətlər qalareyası yaradılmışdır.

Dünyamızın bugünkü mənzərəsini, xalqın bugünkü ovqatını və mübarizəsini, mənəvi xəritəsini yalnız bu günün şairi tam əzəmətilə, nəfəs yeniliyi ilə canlandıra bilər. Bunun üçün başlıca şərt, yeni tutarlı söz deməyi bacarmaqdır. Xəlil Rza Ulutürkün poeziyası bu cəhətdən də diqqətəlayiqdir, cazibəlidir. Burada şairin yeni söz demək hünəri məzmuna uyğun yeni bədii biçim tapmaq uğrunda mübarizəsi sayəsində başa gəlir. Məsələn, vəzn baxımından bu poeziyada olduqca maraqlı məqamlar var.

Şairin poeziyasında sərbəstdən əruza və əruzdan hecaya vəzn keçidləri var. Lakin bu hadisə şair ilhamının öz ehtiraslarına yeni məcra axtarıb tapması sayəsində başa gəldiyi üçün qəribə görünmür, əksinə, qəlbə yatır, qəbul edilir. Çünki təsir etdiyi hadisələri qurultayın başlıca pafosunu, ictimai-siyasi iqlimini, coşğun ruh yüksəkliyini realistcəsinə dolğun şəkildə əks etdirir. Bu, novatorluqdur. Lakin Xəlil Rza Ulutürkün heç vaxt xüsusi bir səy ilə, novatorluq nümayiş etdirmək arxasınca qaçmır. Novatorluq əsil poeziyada, o cümlədən Xəlil Rza Ulutürkün yaradıcılığında gerçəkliyi bədii qavrayışdan, ilham axarından, məzmun-mündəricə dolğunluğundan, ən başlıcası estetik platformanın sağlamlığından irəli gəlir, tam təbii şəkildə ortaya çıxır. Burada forma əllaməliyi, süni qondarmaçılıq yoxdur.

Nəfəs dərinliyi şairliyin ümdə atributlarındandır. Xəlil Rza yaradıcılığı bu cəhətdən də diqqətəlayiqdir.

Təxminən 1980-ci ildə yazılmış «Hara gedir bu dünya?» poemasında dünyanın bugünkü beynəlxalq mənzərəsini yaratmağı öz qarşısına məqsəd qoyan şair xalqların qəlbinin, mənəviyyatının üsyanı kimi məsələləri işıqlandırılmış, insan ünsiyyəti ilə insan alçaqlığı arasında gedən mübarizə bədii-fəlsəfi təhlil obyektinə çevrilmişdir.

1982-ci ildə yazılmış «Türkel balam» poemasında Azərbaycana yeni bir övlad bəxş edən atanın, ananın övlad və ana Vətən problemi ilə bağlı düşüncələri lirik qəhrəmanın mənəvi həyatına çevrilmişdir.

Əlbəttə, bir məqalə çərçivəsində görkəmli xalq şairimiz Xəlil Rza Ulutürkün yaradıcılığı haqqında hərtərəfli fikir söyləmək mümkün deyil. Ancaq bir həqiqət var ki, səmimiyyət, dil və üslub əlvanlığı Ulutürk şeirinin səciyyəvi cəhətləridir. Bədii dilin təmənnasızlığı, saflığı, poetik nəfəsin genişliyi onun bütün yaradıcılığı üçün xasdır. Məzmuna, daxili semantikaya meyil güclüdür. Ən başlıcası isə onun şeirlərində şairin böyük bəşəri həyəcanlarının, dünyamızı sülh və həqiqət cığırı ilə irəlilətməyə çalışan böyük Vətəndaş yanğısının nəticəsidir. Azərbaycan mədəniyyətinin daha da çiçəklənməsinə xadmət edəcək əvəzsiz sərvətimizdir.

Ədəbiyyat

1. Ulutürk Xəlil Rza. Davam edir 37, Bakı, Gənclik nəşriyyatı, 1992.
2. Ulutürk Xəlil Rza. Ayla günəş arasında, Bakı, Yazıçı nəşriyyatı, 1992.
3. Ulutürk Xəlil Rza. Uzun sürən gənclik, Bakı, Azərnəşr, 1994.
4. Ulutürk Xəlil Rza. Mən Şərqəm, Bakı, Elm nəşriyyatı, 1994.
5. Ulutürk Xəlil Rza. Mənə bənzə, Bakı, Gənclik nəşriyyatı, 2000.
6. Ulutürk Xəlil Rza. Türkün dastanı, Bakı, Gənclik nəşriyyatı, 2000.
7. Ulutürk Xəlil Rza. Mən onsuz da əbədiyəm, Bakı, Gənclik nəşriyyatı, 2003.

Т.А.Абдулгасанлы

Поэтическое отражение патриотизма и героизма в творчестве Халил Рза Улутюрка

Резюме

Обратившись к поэзии Халил Рза Улутюрка, автор статьи выдвинул оригинальные утверждения и добились интересных научных результатов. В исследовании справедливо отмечается, что стихи «Пятно», «Мой ровесник», «Ложе из цветов» и другие отличаются «огненным» патриотизмом и показывают широкие возможности поэта с точки зрения колоритности формы. Лирика поэта-трибуна Халила Рзы представляет события, мысли и чувства народа и его лирическое «я» характеризует богатый внутренний мир поэта в лучших традициях азербайджанской поэзии.

T.A.Abdulhasanli

The Poetic Reflection of Patriotism and Heroism in the Poetry of Khalil Rza Uluturk

Summary

The authors of the article have researched Khalil Rza Uluturk's poetry, they have presented interest views and obtained scientific results. Over the research work there justice have been noted that writer's poems like as "Ignorance spot", "My coevals", "Gulyastig" and etc. are chosen by their civil fire and predict the huge lyrical possibilities of writer in the point of view of their form's difference. In the tribune Kh.Rza's lyric best poem traditions are revealed. They are: sensitive relation to today's events, poetic relations, and the influence of the presentation tradition to community, people consciousness and feeling, to their living on lyric level.

Rəyçi: prof. M.Hacıyeva

Redaksiyaya daxil olub: 03.02.2017

L.Ə.ƏLİZADƏ
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Memarlıq və İnşaat Universiteti
(Bakı şəh., A.Sultanova küç., 5)

ALLEQORİK TƏSVİR ÜSULUNUN KLASSİK POEZİYAMIZDA BƏZİ ÖZƏL ÇALARLARI

Açar sözlər: *klassik ədəbiyyat, şair, simvol, alleqoriya*
Ключевые слова: *классическая литература, поэт, символ, аллегория*
Key words: *classical literature, poet, symbol, allegory*

Alleqorik təsvir üsulu irfani-sufi və fəlsəfi poeziyada bir növ həyat həqiqətlərini müəyyən rəmzi işarələrlə təqdim etmə üsuludur. Həm də bu alleqorik rəmzlər orta əsrlər poeziyasına zəngin semantika və epik məzmun gətirir. Bu mənada "bahar və xəzan" adi fəsil adları deyil, daha çox mənəvi və cismani maddi həyat dövranlarına işarədir ki, bunlardan biri "əbədi", başqası "ötəri"dir. Ağıllı nəfs sahibi bu iki həqiqətin mənasını öyrənməlidir.

Sufi-irfani poeziyada "Küfr və iman" ən çox işlənən alleqorik bədii simvollardan biridir. Qasım Ənvar bir beytdə buna belə işarə edir:

Ürək ovlayan ona şərh edin bu halı,
Deyiniz ki, min işarə yaradır bu küfrü iman (1, s.237).

Həqiqətən də irfani poeziyada bu iki adın simvol, rəmz, ifadə vasitələri və mənaları çox müxtəlifdir. Sufi sözləri lüğətində deyilir: "Küfr – çoxluq (müxtəliflik) və təfriqə aləminin qaranlığına deyilir..." (2, s.168). Küfr "örtük", "hicab", "pərdə", "geyim" deməkdir. Məsələn, ruh, nurun hicabı, örtüyü bədəndir. Lölö və tər dürdanənin pərdəsi sədəfdir. Dünya işığının pərdəsi gecə və qaranlıqdır. Küfrün bir alleqorik rəmzi də qara saçdır ki, sevgilinin günəş üzünü örtür rəqib görməsin, sufi-irfani şeirdə gecə, qaranlıq, saç, qaş, kiprik, xətt, xal və "pərdə, örtük, hicab" ilə eyni mənada işlənir. Küfr həm də zahir aləmləri təmsil edir.

"İman" isə işıq, nur – nəfs və idrak aləmi və batin deməkdir. Qasım Ənvar "küfr və imanın min işarəsi var" deyəndə bunları nəzərdə tuturdu. Şair özü də bu sözlərin alleqorik məna və şərhini verir:

Biri zülmət ilə nurdur, birisi dolu fərəhlə,
Bədəninə tələş içində, ürəyim ümidlə xəndan (1, s.237).

Dediyimiz kimi, bütün sufi şairlərlə bərabər Qasım Ənvar da "küfr və imanı" "zülmət" (qaranlıq) və "nur"la əlaqələndirmişdir: Zülmətdən bədən tələş və həyəcan içindədirsə (bilimsizlik ucundan, qaranlıq bilimsizlik aləmidir. O, bilik aləmi üzərinə pərdə çıkmişdir), ürək işıq – nur evi olduğuna görə, yəni ilik və irfan evi olduğuna görə "xəndan" və şaddır.

Məst idik nəğmələrinlə, belə huşyar olduq,
Yatmış idik səsinlə sevgili, bidar olduq

Bu beytdə şair ilham mələyi saqiyə üz tutub deyir ki, sənin nəğmələrinlə məst idik və ağıllandıq, yatmış idik, səsinə "bidar" olduq, oyandıq. Həqiqətən də sufizm və sufi poeziyası orta əsrlərdə bir mənəvi oyanış hərəkatı idi.

Qasım Ənvarın qəzəlləri alleqorik bədii rəmzlərlə zəngindir.

Yar ilə aşina olsan görərsən,
Firidun gəncidir o nazlı ceyran (1, 238).

Şeirdə "yar" "nəfsi natiqə"nin, yəni bilik nəfsinin rəmzi olan sevgilidir. Sufilər "yar", "məşuq" deyəndə ağıl – dərrakə nəfsini nəzərdə tuturdular ki, bu da batin, gizli aləmdə, yəni sirlər xəzinəsində məqam yer almışdr. Sufi şeirdə bu xəyali, şərti sevgili antrapomorflaş-

dırılmışdır, insan kimi şəxsləndirilmişdir. "Muradı aşiqin yarın camalı"dır, deyən şair "camal" sözü ilə nur, elmin təcəlla etdiyi gözəllik kamalının üzdə, surətdə zahir olmasıdır. Biliklər üz və surətdə təzahür edir. Bilik, idrak üzvləri üzdə, ürəkdə təcəssüm olunur. Üz eşqdə başlıca məqsəddir:

Göstər üzünü cana, ta şərh eləyim mən də,
Xəlq oldu neçin dünya, varlığakı məna nə?

Aşiq sevgilinin sirr aləmini onun üzündən oxuyur. Üz-surət bədii-alleqorik obraz kimi bir sıra simvolların qarşılığı olmuşdur. Kəbə, meyxanə, bütxanə...:

Kəbə yüzündür, ey sənəm, yüzünədir sücudimiz

Kəbə müsəlmanların sitayiş və ilahi nurun təcəlla yeridir. Sufi sözlüyündə deyilir: "Kəbə bütün ariflərin və həq yolunun taliblərinin ürək məqsədlərinin vəhdət yeridir" (2, s.168). Pak, kamil gözəllik nümunəsi insanın üzü də mələk və hurilərin səcdə yeri olmuşdur.

Aləmi qıldı münəvvər şol yuzi mahı görün.

Mah – Ay ağlın alleqorik rəmzi, "dünyanı" (bədən və varlıq dünyası) işıqlandıran, dərk etdirən nurdur.

Mən ol arizi-gülgünə gülüstan demişəm.

Ariz ərəbcə üz deməkdir və "gül, gülüstan, gülzar" sirr, məna və ilahi hikmət aləmidir. Məşuqun üzünü gül və gülüstana bənzədən şair təbiətin vücudunda, bətnində gedən təbii proseslərin nəticə və hikmətini insan üzündə əks etdirmək istəmişdir. Yəni baharı oyanma, dirilmə dövranı olmaq üzrə od və suyun, ism ilə canın vəhdət və eşq məqamı eynilə insan üzərinə köçürülür. Təbiət günəşi kimi insan üzünün günəşi, odu, şəmi eşqin alleqorik simvollarıdır. Su, dəniz isə "elm", "bilik" anlamında işlənmişdir.

Orta əsrlər Azərbaycan və Şərq poeziyasında insan və təbiətin həyati məsələsi naturalist ədəbi-fəlsəfi planda müqayisəli şəkildə dərin və ətraflı tədqiq etmiş Ç.Sasaninin "N" əsərində insan-təbiət müqayisələrində işlədilmiş alleqorik rəmzlərin nəzəri mənbələr əsasında mənaları verilmişdir və biz də yeri gəldikcə hörmətli alimimizin dəyərli mülahizələrindən istifadə etmişik.

Beləliklə, hürufilikdə hərf zəngin epik məna daşıyır və bu mənalar sufi panteizmində olduğu kimi şərti mahiyyət kəsb edir. Sufi şeirdə üz, saçın mahiyyəti, alleqorik mənası gündüz və gecənin sifətlərilə təyin edilirsə, hürufilikdə hər bir hərfin batini alleqorik mənası dörd ünsürün təbiətinə görə müəyyən edilir. Sufilərdən fərqli olaraq hürufilər insanın bədən üzvlərini, məsələn; saçını, qaş, göz, qulaq, burun və dodağını hərflərlə işarə edirlər. İnsanın boyu əlifə bənzədilir. Zaman keçdikcə sufizmdən sonra hürufi poeziyasının alleqorik simvolizmi daha da zənginləşdiyi müşahidə olunur.

Orta əsrlər, intibah dövrü ədəbiyyatımız, klassik Şərq şeiri fəlsəfi cərəyanlarının ideya, dünyagörüşünün təqdim, təsvir və təbliğində mühüm vasitələrdən biri məhz alleqoriya, onun məcaz-metafora dünyası, simvolikası, yeri gələndə həm də silah kimi mübarizə vasitəsi olmuşdur. Məqalənin həcminə müvafiq olaraq mövzumuzla bağlı bəzi məqamlara diqqət yetirmək istərdik.

Aparılan araşdırmalar nəticəsində alleqoriyanın janr hüdudlarını şərti olaraq belə müəyyənləşdiririk: lirik janrlarda - qəzəl, rübai, qoşma, bayatı və s. daha çox təbiət lövhələri, peyzaj, gözəllik, məhəbbət, vüsal, ayrılıq və s. motivlərinin tərənnümü əsas yer alır. Bir sözlə, lirik qəhrəmanın hiss və həyəcanlarının tərənnümü üçün işlədilən estetik təsir və ruhi ovqat yaradan bədii təsvir vasitəsi, rəmz, simvolikadır. Epik əsərlərdə gerçəkləşən alleqoriya isə daha geniş və çoxplanlıdır. Belə ki, ilk növbədə alleqoriya məzmun və formada, ideya, kompozisiya, nitqdə təhkiyə ilə obraz və xarakterlərin səciyyələndirilməsində, həm də məcaz növlərində gerçəkləşir. Məsələn, Şeyx Mahmud Şəbüstərinin, Marağalı Əvhədinin məsnəvi şəklində yazdıqları əsərlərini alaq.

Azərbaycan ədəbiyyatında sufi yolun mərhələləri və onların şərhi Mahmud Şəbüstərinin "Gülşəni-raz" (5) və Marağalı Əvhədinin "Cami-Cəm" əsərlərində verilmişdir. Hər iki əsərdə

kamil insanın mənəvi yolu cismani aləmdəki seyrü sülukundan başlanır. Yəni hissi və əqli kamal özünü və öz əslini (maddi əslini və mənəvi əslini) tədqiq etməklə başlayır. Mütləq həqiqiətə yol eşqdən keçir. Eşq maarifin: mərifətin əsasıdır. Yəni maddi eşq və mənəvi eşq. Maddi eşq Leyli ilə Məcnunun dünyəvi-maddi eşq dövrünü əhatə edir. Mənəvi eşq Məcnunun Leyli surətində ilahi nurun təcəllasını müşahidə etməsi və maddi-şəhvani istəklərdən uzaqlaşması dövrünü özündə ehtiva edir. Çünki cismani zövqlər əbədi deyil, mənəvi zövqlər saliki "bəqa" aləminə aparır.

Bu baxımdan sufi-irfani eşq anlayışı da maddi eşqin ikinci-mənəvi mərhələsi olmaqla alleqorik məna daşıyır. Məsnəvi formasında özünə yer alan alleqoriyanın Ş.İ.Xətai yaradıcılığında gözəl nümunəsini görürük. Məsnəvi və qəzəl divanlarında verilmiş "eşq" rədifli şeirlərində mənəvi və maddi eşqin fərqi aydın izah edilmişdir. Misal üçün Xətainin "Dəhnamə"sində "eşq" rədifli şeirin məzmununa diqqət yetirək:

Ey canü dili xərab edən eşq,
Uşşaqi kim əz turab edən eşq...
Divanələrin dutub təriqin,
Tərki-vərəü səvab edən eşq (3, s.86).

Birinci beytdə göstərilir ki, eşq "can və dilə" (könülə) fərəh və şadlıq deyil, "xarabalıq" – dağılma, fənalıq gətirir və aşiqləri "turab"dan, maddilikdən ayırandır. Burada Füzuli divanının birinci qəzəlindəki "Eşq kilki çəkdi xət hərfi-vücudi-aşiqə" misrasını xatırlamaq kifayətdir. Yəni ilahi eşq yolu cismani fənadan sonra başlanır. Bu eşq mücərrəd alleqorik eşqdir.

M.Füzulinin "Gül" rədifli qəsidəsi də bu baxımdan səciyyəvidir. Qəsidə boyu beytlər dəyişdikcə alleqorik rəmzlərin müqayisə obyektləri də dəyişir. Alleqorik adlar və anlayışlar bir qayda olaraq bənzətmələr yolu ilə alınır. Yuxarıdakı beytdə də gülün ağzını, qönçənin örtüyünü açan səhər yeli ("badi-səhər") "Cəbrail", açılmış gül isə peyğəmbərin ürəyidir. "Badi-səhər", ya "badi-səba" orta əsrlər poeziyasında əksər hallarda "qasid", "xəbərçi" mənalarında işlənmişdir. Ancaq Füzuli bu qəsidəsində "yel" və gülü yeni və orijinal obraz kimi işlətmişdir. Gülü peyğəmbərin ürəyinə nisbət verən şair bu sözlə daha bir alleqorik məna yaratmışdır. Belə ki, gül od və suyun vəhdətindən yaranmışdır və od eşqin-məhəbbətin rəmzidir, yəni islam rəsulu Allahın sevimlisidir. Su isə həyat-dirilik rəmzidir.

Surəti-halinə heyran eylədi aqilləri,
Açdı irfan əhlinə gəncineyi-əsrar gül (4)

Gül, növ-növ çiçək və bitkilər təbiət mənşəli olsalar da, sufi-irfani poeziyada alleqorik məna daşıyaraq, həyat qüvvəsi olan nəfsin sirli aləmlərini əks etdirirlər. Buna görə irfani şeirdə verilmiş gül, onun növləri, bitki aləmi, bağ, bostan, gülzar sözləri adi təbiət təsviri mənasında başa düşülməməlidir.

Təkcə təbiəti deyil, irfançı filosof şairlər yer-gök aləmlərində nə varsa, onların hamısını insan vücudunda görürlər.

Sufi və irfançı şairlər həmişə təbiət elmindən insan elminə keçirlər. Bu barədə Ç.Sasani öz əsərində çoxsaylı ədəbi-bədii nümunələr və nəzəri mənbələr əsasında geniş şərhlər vermişdir. Bunun bir səbəbi yaradışın başlanğıcı cəmaddan sonra bitki, sonra heyvan və sonra insan növü gəldiyindən sufi-irfançı filosoflar birinci iki növün, yəni ölən-dirilən təbiətin həyatı məsələsini ön plana çəkmiş və onun nəticələrini insan üzərinə köçürmüşlər. Təbiətin cəmad (donmuş) halından oyanması, dirilməsinin ilk müjdəçisi çəmən, gül, gülzar, bağ, bostan, bir çox orta əsr qəzəl, qəsidələrin bahariyyə, ya nəsib hissələrinin əsas mövzusu olmuşdur. Füzulinin irəlidə sözü gedən türkdilli şeirləri içərisində "Gül" rədifli qəsidəsini təbiətin həyatına həsr edilmiş özəl bir bədii-alleqorik nümunə adlandırmaq olar:

Çıxdı yaşıl pərdədən ərz eylədi rüxsar gül,
Sildi mirati-zəmiri-pakdən jəngar gül (4)

Qeyd edək ki, Orta əsrlər Şərq və Azərbaycan sufi-irfani poeziyasında nəfs və cisimdən ibarət insan vücudu da alleqorik anlamda gecə-gündüz, gecəli-gündüzlü aləmlə müqayisə olunmuşdur. Nəsimidən aşağıdakı beyti nümunə alaq:

Zülfü rüxsarudır ey can, sureyi-Nurü Duxan,
Mən bu mənidən ona şamü səhər desəm nola.

Saç, kiprik, qaş, gözün qarası, xal irfani şeirdə madi aləmi və ona xas olan qara rəngi, gecəni, qaranlığı ifadə etmişdir. Qara saç və ağ üz şeirdə yerinə görə gecə-gündüzü, Şərq-Qərbi də bildirmişdir. Burada cism-bədənlə ruh-nəfs arasında zidiyyət, savaş deyil, cazibə, vəhdət vardır. Cism, bədən ruhun-nəfsin, alleqorik mənada işığın zühur, qonma yeridir və cismin həyatı ruhdan asılıdır. İrfani-sufi poeziyasında nur-nəfs əsasən "can" sözü ilə ifadə olunursa, cism, bədən də müxtəlif adlarla təqdim olunur. Misal üçün Məsihi divan şeirlərindən birində deyir:

Gəldi fəsli-novbaharü gülüstanım gəlmədi,
Güldi hər yan qönçəvü qönçədəhanım gəlmədi
Sünbülü sərvü gül oldu gülşən içrə cilvəgər,
Zülfü sünbül, yüzü gül, sərvi rəvanım gəlmədi.

Bu beytlərdə aşiqanə meyilləri təsvir edən aşiq şair sevgilini "gülüstanım", "qönçədəhanım", zülfü sünbül", "yüzü gül", "sərvi-rəvanım" – deyə yad edir. Poeziyada bir yandan alleqorik məzmunda canlı təbiət – gül, gülzar, bağ, gülşən, sərv, başqa yanda ay, günəş, ulduzlar insan varlığı üzərinə köçürülür. Əlbəttə bu alleqorik simvolların hər birinin rəmzi mənası vardı. Şeirdə "fəsli-novbahar" təbiətin oyanış, dirilmə və həyat dövranıdır. Şairə görə bahar çağı dirilən təbiət bir sirr aləmidir, o, insanın özünü dərk etməsi üçün bir mənəvi məktəb, bir ünsiyyət və bilik məvasıdır. Torpaq üstündə boy atmış yaşıl sərvlər, gül-çiçəklər, sünbüllər torpaq örtüyündə qalmış min-min sərv boylu, gül dodaqlı, sünbül saçlardan xəbər verir. Şair bu alleqorik epitetləri özündə əks etdirən sevgilisini dirilmiş təbiət bağında görə bilmir, yalnız onun nişanələrini görür. Ç.Sasani öz kitabında "Divani-Şəms"dən "gül" rədifli qəzəlindən verdiyi kiçik bir parçada:

...Gül kimdir? – Əql və can bostanından bir qasiddir,
Gülün ətəyini tutaq, ona yol yoldaşı olaq,
Rəqs edib gedək gülün əslinə və ağcına doğru (2, s.245).

– verilmiş alleqorik irfani rəmzlərin mənalarını belə izah edir: "İrfani naturalist şeirdə gül "elm", "bilik", "məna", "fikir" anlamlarında işlənmişdir. Çünki bu elm gülü torpağın batinindən baş qaldırır və daha ilkin ünsürlərin istihaləsindən, hal və keyfiyyətlərindən və eləcə də kosmik qüdrətdən, ilahi nurun feyzindən xəbər verir. Yəni qəzəldə tərənnüm olunan gül intibah gülüdür. Alleqorik mənada intibah elmi və fikrini ifadə edir" (2, s.245).

Orta əsrlər poeziyasında insan vücudu təbiət bağı, gül, gülzar, gülbün (gül ağacı), sərv, çinar, reyhan və müxtəlif gül-çiçəklərlə müqayisədə təsvir olunarkən şairlərin məqsədi təbiətə və insan varlığına fəlsəfi baxışlarını bildirməklə yanaşı şeirə fəlsəfi məzmun vermək, şeirin bədii metodunu təkmilləşdirmək olmuşdur. Sufi-irfani, başqa sözlə, dini-fəlsəfi poeziyada insan varlığı təbiətdən ayrı deyil. O, yaradılışın son təkamül zirvəsi, yaradanın xəlifəsi, hissi və əqli idrak vasitəsilə özünü, dünyanı və yaradanı elm ilə tanıyan müdrikdir. Bu cəhətdən irfani-sufu poeziya insanın öz əslini tanıması yollarını öyrədir. Bu öyrənmənin başlıca düsturu budur. "Hər kim öz nəfsini tanıdı, öz tanrısını tanımış olar". Bu düsturu bütün irfançı şairlər nəzərə çatdırırlar.

Klassik poeziyada insan yaradılışında dörd növ nəfsin iştirakı göstərilir: 1) donmuş nəfs, yəni "cəmad" – minerallar; 2) nəbati nəfs (bitki nəfsi); 3) heyvani nəfs; 4) insani nəfs. Buna nəfsi-natiqə, yəni ağıllı nəfs, bilikli, müdrik nəfs və ya dərrakəli nəfs – hər şeyin mahiyyət, keyfiyyət və əslini, başlanğıcını bilən nəfs. Biz burada insani və bitki nəfslərinin bəzi rəmzləri və idrakda onların rolunu qeyd etdik. Deməliyik ki, ilkin nəfslər cəmad – donmuş və bitki nəfsləridir.

Sufizm-panteizm ədəbiyyatları mənşəyi, məna və məzmunu, janrı, ifadə üsulu, bədii təsvir modelləri etibarilə çox mürəkkəb ədəbi-fəlsəfi söz yaradıcılığı növüdür. Bu mənada poeziyanın tarixi klassik dövr fəlsəfi-irfani ideologiyaların yaranma tarixindən bir neçə il qabaqdır. Ən qədim miflər, sadə və qısa süjetli əfsanə və nağıllar ibtidai icma dövründən başlamış sinifli cəmiyyətlərin meydana gəlməsi və sonrakı inkişaf mərhələləri ərzində insanların təbiətə, yer və kosmosa, dörd ünsür və dörd təbiətə (torpaq (yer), su, od, hava və yaz, yay, payız, qış), bitgi və heyvanat aləminə estetik münasibətləri müstəvisində əqli-mənəvi dünya görüşlərini ibtidai bədii dildə təsvir edirdi. Od, su, torpaq, hava, yaz və qış təbiəti, günəş, ay, işıq və qaranlıq haqqında ilk nəğmələr bu vaxtda yaranmışdı. Təbiətin, dörd ünsürün və dörd fəslin və gecə-gündüzün müsbət və mənfi (ikili) xarakterlərini, xüsusiyyətlərini əks etdirən mif-poeziya son antik dövrlərdə öz inkişafında kulminasiya mərhələsinə ucalır. Bu poeziya mürəkkəb, ziddiyyətli xarakterləri obrazlı bədii şəkillərdə təsvir və təqdim etməkdə zəngin ədəbi-bədii təcrübə, üsul, metod qazanmışdı. Ölən-dirilən təbiət, göy, işıq-qaranlıq, gecə-gündüz, günəş, ay antik dövr insanının düşüncəsində adi stixiya deyil, insan-allah anlamı almışdı. İnsan-təbiət anlayışı və ya oxşarlığı kimi qədim təsəvvürlər XI-XII əsrlər Azərbaycan və Şərq islami-mədəni intibahından sonra yaranan sufizm və panteizm təliminin əsas müddəalarından birinə çevrildi.

Təqdim edilən məqalə də alleqoriyanın mövzu, janr xüsusiyyətləri – ideya – fəlsəfi qayəsi ətrafında ümumiləşdirilmiş, məcazi–metaforik tərzi təhlil, tədqiq obyektimizin əsasını təşkil etmişdir.

Ədəbiyyat

1. Şah Qasım Ənvar. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. III cild. Bakı: Elm, 1984.
2. Sasani Ç. Orta əsrlər Azərbaycan poeziyasında naturalist ədəbi-fəlsəfi fikir. Bakı: Elm, 2007.
3. Xətai Ş.İ. Keçmə namərd körpüsündən. Bakı: Yazıçı, 1988.
4. Rüstəmova A. Klassik Azərbaycan poeziyasında qəzəl. Bakı: Elm, 1990.
5. Şəbüstəri M. Gülşəni – raz. (Elmi-tənqidi mətn). Bakı: Elm, 1972.

Л.А.Ализаде

Некоторые особенности аллегорического способа выражения в классической поэзии

Резюме

В этой статье автор стремится выявить главные истоки символов, фигуральных выражений, иносказаний, связанных с отражением аллегории в средневековой азербайджанской классической литературе. Приведены фрагменты из произведений великих поэтов Шах Касима Анвара, Физули, Шах Исмаила Хатаи. Автор приходит к такому заключению, что в классической поэзии очень часто встречаются аллегорические образные выражения, которые играют большую роль в мастерстве всей азербайджанских поэтов.

L.A.Alizade

Some Features of the Allegorical Expression in Classical Poetry

Summary

In this article the author seeks to identify the main sources of characters, figurative expressions, allusions, associated with reflection allegory in Medieval Azerbaijan classical literature. Fragments of the works of the great poets of Shah Qasim Anvar, Fuzuli, Shah Ismail Khatai are given as an example. The author comes to the conclusion that in the classical poetry there are very common allegorical figures of speech, which play an important role in the art of poetry throughout Azerbaijan.

Rəyçi: filol.f.d., dos. A.X.Ramazanova
Redaksiyaya daxil olub: 02.12.2016

A.Ş.HƏŞİMOVA
pedaqogika üzrə fəlsəfə doktoru

AMEA-nın Folklor İnstitutu
(Bakı şəh., İçərişəhər, Kiçik qala, küç., 31)

ƏDƏBİYYAT VƏ MİF ƏLAQƏLƏRİ
(V.Xlebnikovun yaradıcılığı əsasında)

***Açar sözlər**: ədəbiyyat. mif, Xlebnikov, poeziya, nəsr, nəzm, miforitual*
***Ключевые слова:** литература, миф, Хлебников, поэзия, проза, мифоритуал*
***Key words**: literature, myths, Khlebnikov, poetry, prose*

İri nəsr formalarının miflə əlaqələrini ortaya çıxarmaq üçün iki qarşılıqlı əlaqə və eyni zamanda qarşı-qarşıya qoyulmuş mifin romanlaşması və romanın mifologizasiyası formullarından istifadə olunmuşdur. Mifin romanlaşması roman əsasında heç də yalnız onun fabula-süjetinin iştirakı yox, yaxud obrazların əsasında iştirakı dayanmır, həm də burada arxaik miflərin müəyyən mənada bədii baxımdan yenidən yaradılması vacibdir. Belə yenidən yarananlara mifin fantastik motivirovkalarının realist baxımdan özünə haqq qazandıra biləcək xarakterlərin konkretləşdirilməsini aid etmək mümkündür ki, onlar mifdə kifayət qədər ümumi şəkildə əks olunubdur. Burada qəhrəmanların hərəkət və davranışları psixoloji baxımdan motivasiyalıdır ki, mifə keçid-qayıdış tamamilə gözlənilmədən baş verir. Romanın mifologiyası mifin hər hansı şəkildə yenidən qurulmasını tələb etmir. Bu, əsərin müəyyən səviyyələrində baş verir. Məsələn, elə bax bu şəkildə müəllif - təhkiyəçi fiquru ilə yanaşı, əsərin baş qəhrəmanının özü də mifologizasiyaya uğrayır. Ayrı-ayrı hallarda hadisələr, romanın süjet quruluşu öz "mifoloji sonluğu"na çatır, məsələn, antaqonist-personajların motivasiya olunmamış ölümü baş verir. XX əsrin 80-ci illərində mifologizasiya olunmuş qəhrəmanlar sırasında Anatoli Kim tərəfindən qələmə alınmış "Ata - meşə" romanının qəhrəmanları-Turayevləri - ata, oğul və babanı göstərmək olar.

XX əsrin danışdığımız dövründən söhbət düşmüşkən onu da qeyd edək ki, 70-ci illərin sonları - 80-ci illərin əvvəllərindən mif və nağıl əsərlərin infrastrukturuna daha çox daxil olmağa başladı. Ədəbiyyatşünaslar və tənqidçilər belə halı şərti - metaforik nəsr kimi müəyyənləşdirməyə çalışdılar. Belə istiqamət müəllifləri şərtiliyin bir neçə tipindən istifadə edirlər ki, onlardan ən başlıcası nağıl, mifoloji və fantastik şərtilikdir.

Beləliklə, 70 - 80-ci illər nəsri mifologiya və folklorla qeyd olunan bədii istiqamət çərçivəsində qarşılıqlı şəkildə əlaqələrə girdi ki, bu mənəvi-fəlsəfi məqam kimi, son dərəcə intensiv gedirdi. Bəzi əsərlər bu dövrdə ədəbiyyatşünas və tənqidçilər tərəfindən "mifoloji realizm", yaxud "şərti-metaforik nəsr" adı altında spesifik terminlərlə birləşdirildi.

Müasir xarici və doğma nəsrin (postmodernist) bir sıra əsərlərinin xülasə şəklində təhlili göstərir ki, müəlliflər folklor və mifologiya elementlərindən fəal şəkildə istifadə edirlər. Bu isə belə bir qənaətə gəlməyə imkan verir ki, belə əsərlərdə mifoloji və miforitual simvolikaların elementlərinin səciyyəvi xüsusiyyətlərindən yararlanırlar.

Yeni formaya yiyələnmə başqa bir şairə - Xlebnikova da verilmişdir ki, o, XX əsrin əvvəllərində Dostoyevskidən sonra Lobaçevski həndəsəsinin sakramental mahiyyətini anlaya bilməklə ilk dəfə olaraq onun adını öz poetik şedevri olan "Ladomir" poemasında qeyd edə bilmişdi:

Deyək Lobaçevski məkanı,
Nevski bayrağından uçur.
Bu Razin qiyamıdır,

Nevski səmasına uçur.
Çertyoj və Lobaçevski məkanın,
Çəkib ardınca aparır.
Qoy Lobaçevski əyriləri,
Şəhərləri bəzəsin... (1)

Xlebnikov poeziyasına kosmos qədim yunanların mifologiyasının "İliada" və "Odisseya"sına necə uzun kəsiyində daxil olmuşdursa, eləcə daxil olmuşdur. Bu, Lobaçevskinin, Eynşteynin və Siolkovskinin yeni kainatı olsa da, oradan hər hansı kosmik uçuş hələ də həyata keçirilməmişdi:

Bağla bürcünü yelkənə,
Qoy lap güclü, həyacanlı
Yer dünyanın üstündə
Quşlar ulduzu əvvəlki tək qalsın. (2)

Beləcə Xlebnikov kosmosda raket uçuşunu yox, bütün bizim qalaktikamızı təsəvvür edirdi. Bu məkandakı uçuş yox, zamandakı uçuş idi. Xlebnikov sanki hansısa qəribə intuisiya ilə əvvəlcədən hiss edirdi ki, bu gözə görünməyən dördüncü məkan ölçüsü doğrudan da məkan-zaman koordinatlarıdır. Yalnız Xlebnikovun ölümündən az əvvəl bu kəşfə imza atılmış və bu kəşf Eynşteynin "Ümumi nisbilik nəzəriyyəsi"ndə formalaşdırılmışdır. Bundan bir neçə il əvvəl Kazan Universitetinin fizika - riyaziyyat şöbəsinin tələbəsi V. Xlebnikov özünün ilk nəsr parçası olan "Vəsiyyət"ində, yuxarıda dediyimiz kimi, peyğəmbərcəsinə aşağıdakı sözləri yazmışdı. "Qoy onun məzarı üstündə yazsınlar: o, məkanla zamanı bir - biri ilə əlaqələndirmişdir. V.Xlebnikov arzu edirdi ki, onun hisslərindəki pərakəndə üçölçülü məkan əvəzinə və birölçülü zaman yerinə biz dördölçülü vahid məkan - zaman anlayışı qoyduq. Həmin dövrlərdə gələcək şair insanda, canlı cəmiyyətdə dördölçülü kosmosu kəşf etdyi zaman bu dördölçülü kosmosun kəşfi otuz ildən sonra Eynşteyn tərəfindən edilmişdi. Xlebnikov poeziyasındakı dünyanın kosmik obrazı Derjavindəki, Lomonosovdakı, Lobaçevskidəki, Tütçevdəki kosmik boşluq obrazından fərqlidir. Məsələn, Tütçevdəki "Biz üzürük, yanar boşluqda hər tərəfdən mühasirədəyik", Xlebnikovda "Bağla bürcünü yelkənə, Güclü, həyacanlı olsun, Yer dünyanın üstündə yelkən kimi yükləsin...". Həm əvvəlki, həm də sonrakı nümunədə biz kosmosda üzürük. Düzdür, zaman ritmi tamamilə başqadır. Bu əgər Tütçevdə üzməkdirsə, Xlebnikovda çapmaqdır. Lakin bunun özü də başlıca fərq deyil. Tütçevdə biz boşluqda, məkanda üzürüksə, Xlebnikovda bütün ulduzlu boşluqda birgə zamanda uçuruq. Xlebnikov maraqlı bir poetik "Zaman dövləti" adını da fikirləşmişdi ki, o, həmin ərazi uğrunda mübarizə aparmaq yox, əbədilikdən zamanı mübarizə yolu ilə əldə etməyə çalışmışdır. Bu uçuşun Kainatdakı, məkandakı hissi yox, zamandakı hissidir ki, bu da Mayakovskiyə sanki keçə bilmişdir. O, yazırdı:

"Düz
üzünün önündə
uçub gedir əbədilik -
sonsuz saatlarıyla
buraxıbdır quyruğun". (3)

Xlebnikov kosmos təxəyyülümüzü ona görə əsir etmir ki, onda kosmosun fəthi peyğəmbərcəsinə qabaqcadan görülmüşdür.

O, bizi yeni ölçüsüz zaman perspektivi ilə əvəz edir ki, bu da bütün məkanları dəf etməyə imkan verir. Xlebnikovda ulduz boşluğu kosmoqonik miflərdəki kimi yenidən insanabənzər xarakter alır. Ulduz kosmosu o, sanki nəhəng kainat beyni kimi nəzərdən keçirirdi:

"Yoldaşlar!
Siz kainatın ağıllı kəlləsini görürsüz
Süd Yolunun sa qapqara saçlarını..." (1)

Bəşəriyyət kosmosla bağlı öz poetik arzularında xeyli böyük yol keçmişdir. Oğlaq, keçi, sərvətlə bağlı rəvayətlərdən Xlebnikov kosmos - beyninə qədər gedir. İnsan beyninə yaxın olan Xlebnikov onları sonsuzluğa atılmış və ulduz kosmosu tuta biləcək tora bənzədir.

Qədim Misir heroqlifləri kimi Kosmos obrazı birmənalı mahiyyətə malik deyildir. Hər sənətkar və hər mərhələ onu özü bildiyi kimi oxuyur. Lakin akademik Vernadskinin fikirləri bu günkü qədər heç zaman belə aktual olmamışdır: "Bədii yaradıcılıq bədii şüurda sınmış kosmosun özüdür". "Qeyd etməyi zəruri bilirəm ki, görünür, biz orqanizm daxilində məkan ortaya çıxdığını görürük ki, bu, Evkldin məkan anlayışına cavab vermir".

Astronomların sırf elmi mübahisələrinə girişmədən deyə bilərik ki, kosmik modelə münasibətdə belə bir model təəccüb ediləcək dərəcədə doğrudur. Çünki kosmik mif eyni dərəcədə gələcək və keçmiş mərhələlərin işığını yenidən gücləndirməkdədir.

Ədəbiyyat

1. Васильев С. А. Традиции литургической поэзии и древнерусской литературы в стиле поэмы В. Хлебникова «Ладомир». www portal - slvo / ru /.

2. Велимир Хлебников. Доски судьбы. Реконструкция текста, составление, комментарий, очерк Василий В. Бобков. М. : ООО «Диполь Т», 2001, 288 с.

3. Маяковский В.В. Полное собрание сочинений в 12 томах. Т. 1 . Под обш. Ред. Н.Н.Асеева, Л. В. Маяковской, В. О. Перцова, М. И. Серебрянского - М.: Гос. Из - во худож. лит., 1939 - 1949.

А.Ш.Гашимова

Связи литературы и мифа
(на основе творчества В.Хлебникова)
Резюме

В статье анализируется проблема взаимосвязи литературы и мифа, и в основном космического сознания в творчестве В. Хлебникова. Научная разработка данной проблемы в литературоведении начинается со второй половины XX века. Эти исследования рассматриваются, как первичный мифологический источник, проявившийся в созидании и развитии художественной литературы.

A.Sh.Hashimova

The Relationship of Literature and Myth
(based on creativity Velimir Khlebnikov)
Summary

The article analyzes the problem of the relationship of literature and myth, and mainly of cosmic consciousness in creativity V.Khlebnikov. Scientific development of the problem in literary criticism begins with the second half of the twentieth century. These studies are considered to be the primary source of mythological, manifested in the creation and development of literature.

Rəyçi: filol.f.d., dos. A.X.Ramazanova

Redaksiyaya daxil olub: 10.02.2017

S.Q.İMANOVA
filologiya üzrə fəlsəfə doktoru

AMEA-nın Folklor İnstitutu
(Bakı şəh., İçərişəhər, Kiçik qala, küç., 31)

"KOROĞLU" DASTANINDA MAGİK MOTİV VƏ ELEMENTLƏR

Açar sözlər: *mif, folklor, dastan, Koroğlu, magiya, cin, cindar, cadugər, dəli*
Ключевые слова*: миф, фольклор, эпос, Короглы, магия, дух, ведьма, буйный*
Key words*: myth, folklore, epos, Koroglu, magic, devil, spirit, witch*

"Koroğlu" dastanı həm tarixi, həm yayılma coğrafiyası, həm də epik əzəməti baxımından nəhəng epik hadisədir. Bu dastan bir milli epos kimi Azərbaycan xalqının dünəni, bu günü və gələcəyi ilə qırılmaz şəkildə bağlıdır. S.Rzasoyun yazdığı kimi, nə milli folklorşünaslıq elmimizi, nə də milli folklorşünaslarımızı "Koroğlu" dastanından qıraqda təsəvvür etmək mümkün deyil. Bu dastan hər hansı formada (ya birbaşa, ya da dolayısı tədqiqat obyekti, yaxud ən azı, bir konfrans məqaləsi şəklində də olsa) hər bir Azərbaycan folklorşünasının düşüncəsindən keçib. Azərbaycan folkloruna dünya şöhrətini bütün tarix boyunca bu dastan gətirib: erkən orta əsrlərdən bütün Avrasiya mədəni məkanına yayılaraq milli dastançılıq düşüncəmizi məşhurlaşdırıb. XIX əsrdən dastanın Avropa (şöhrətinin) tarixi başlanıb. Bu gün Azərbaycan qəhrəmanlıq və məhəbbət dastanları içərisində yayılma coğrafiyası, linqvistik arealı, tədqiqat tarixi «Koroğlu»ya bərabər ikinci dastanımız yoxdur. Hətta "Kitabi-Dədə Qorqud" kimi misilsiz abidəmiz bu göstəricilərə hələ indi-indi çatmaqdadır (1, 6).

Bu dastanın magik görüşlərlə bağlılığı onun təkcə qədimliyi ilə bağlı deyildir. Məsələ burasındadır ki, "Koroğlu" qədim olduğu qədər də müasir dastandır. Yəni bu dastan, əslində, xalqımızın tarixinə yol yoldaşlığı edib. Ona görə də milli-mənəvi dəyərlərimiz, o cümlədən magik görüşlərlə bağlı dəyərlərimiz özünəməxsus şəkildə bu dastanda hifz olunub. Dastanın türk dünyasının hər yerində yayılması bunun sübutudur.

İsrafil Abbaslı da yazır ki, "Koroğlu" eposu məzmun və süjet fərqinə görə, əsasən, üç yerə bölünmüşdür: 1.Türkmən; 2.Azərbaycan; 3.Kiçik Asiya variantları. Eposun Qafqaz versiyasının (gürcü, erməni, kürd, ləzgi, avar) Azərbaycan variantı, türkmən, tacik, qazax, ərəb (Orta Asiya ərəbləri) variantının isə özbək "Koroğlu"su ətrafında mərkəzləşdiyi mülahizəsi də (2, 12) müəyyən qədər qeyd olunan bölgü ilə səsləşməkdədir (3, 28).

Ağaverdi Xəlil də belə hesab edir ki, "Koroğlu"nun yayıldığı nəhəng coğrafiyada oğuz türklərinə məxsus "Koroğlu" dastanı mərkəzi yer tutur. Müəllif bunu belə əsaslandırır ki, dastanın əsasını təşkil edən Koroğlu mifi ilk öncə oğuz mənşəlidir (4, 85). O, dastanın tatar-tobol versiyasını Azərbaycan "Koroğlu"su ilə tutuşduraraq belə bir qənaətə gəlir ki, mətndə "Koroğlu" dastanının əsas qəhrəmanlarının bir çoxunun adı vardır. Amma obraz kimi bəsitdir, semantik genişlənmə imkanları statik vəziyyətdədir". Tatar-tobol mətninin əsas motivi alplıq-dır, sevgi-məhəbbət motivləri yoxdur. Bu mənada, əski alplıq eposu "Oğuz kağan"la, "Şu Xaqan"la daha çox səsləşir. Tatar-tobol versiyasının Azərbaycan variantlarında keçən altı qolu burada, yığcam şəkildə olsa da, müşahidə olunur (4, 90).

Deyilənlər "Koroğlu" dastanının təkcə epik və tarixi coğrafiyasını təsdiqləməklə qalmır, eyni zamanda dastanın Azərbaycan milli yaddaşının dərinliklərinə işləyən köklərini ortaya qoyur. O köklər ki, onlar həm də magik təsəvvürləri təcəssüm etdirir. Bu cəhətdən "Koroğlu" dastanı mifik görüşlərlə sıx şəkildə bağlıdır.

Sədnik Paşayev (Sədnik Paşa Pirsultanlı) göstərir ki, "Koroğlu" epos səviyyəsinə yüksələnə qədər özünəməxsus təkmilləşmə, formalaşma yolu keçmiş, bu keçid mərhələlərində onlarla əsatir, əfsanə, rəvayət və dastanla qovuşmuş, təmasda olmuşdur. Koroğlunun tarixi qəhrəmanlığı yazıya köçürülməmişdən çox-çox əvvəllər yurdun – vətənin daş səhifələrinə yazılmışdır. Dastan və onun qəhrəmanları ilə bağlı qalalar, yerlər təkcə Azərbaycan ərazisi ilə məhdudlaşmır, onun hüdudlarından çox-çox uzaqlarda da məntəqələr, keçidlər, dağlar vardır. Lakin bütün bunlarla yanaşı, Koroğlu, onun igid dəliləri haqqında əfsanə və rəvayətlər daha geniş yayılmışdı (5, 174). Mərhum alimin fikrindən göründüyü kimi, "Koroğlu" dastanının özülünü mifik əfsanə və rəvayətlər təşkil edir. Bu nöqtə dastanda magik görüşlərin öz ifadəsini necə tapmasının üzərinə işıq salır. Magiya əski inanc sisteminə, mifik təsəvvürlərə əsaslanır. Magiya və mifologiya bir-birindən ayrılmazdır və magik təsəvvürlər ümumən mifoloji inanclar sisteminin bir parçasıdır. Bu cəhətdən "Koroğlu" dastanının əfsanə, əsatirlər əsasında formalaşması onun həm də magik təsəvvürlər əsasında formalaşması deməkdir. Lakin bu mifik-magik təsəvvürlər sonrakı inkişafda real tarixi hadisələrlə qovuşaraq möhtəşəm epos halına gəlmişdir.

S.Paşayev yazır ki, özlündə əsatir və əfsanələr dayanan "Koroğlu" eposunun bir yox, iki tarixi vardır: Bunlardan birincisi eposu əsatir və əfsanələrdən istifadə etmə yolu ilə yarandığı dövr, ikincisi dastanın real bir zəmində formalaşıb meydana çıxdığı dövr – tarixdir. Deməli, "Koroğlu" epos səviyyəsinə qalxana, bir abidə kimi formalaşana qədər əsatir, əfsanə və nağıl, nəhayət, dastan mərhələlərindən keçmişdir (5, 177). Hər bir dastan qəhrəmanı bütün hallarda müəyyən xətlərlə mifə bağlı olur. Bu, bir epik qanunauyğunluqdur. Bunun səbəbi odur ki, dastan qəhrəmanları, əslində, öz kökləri, keçmişləri baxımından mifin öz qəhrəmanlarıdır. Elə bir milli epos qəhrəmanı tapmaq olmaz ki, o, mifik cizgilərə malik olmasın. Bu cəhətdən təsdiq edə bilərik ki, hər bir dastanın mayası mifdən tutulmuşdur. Mifik qat ilkin bünövrə kimi hər bir dastanın formalaşdığı ilk bazanı təşkil edir. Bu cəhətdən Koroğlu obrazı da istisna deyildir. Tədqiqatçıların bu obrazın türk mifologiyasının müxtəlif qatları ilə əlaqələrini aşkarlaması təsadüfi olmayıb, Koroğlunun mifik arxetiplərə bağlılığını nümayiş etdirir.

Koroğlu obrazının mifik köklərini araşdırmış Mirəli Seyidov belə bir qənaətə gəlmişdir ki, bu obraz işıq//od//Günəş və ölüb-dirilmə ilə bağlıdır (6, 184-207). Eyni köklərə bağlılıq S.P.Pirsultanlının tədqiqatlarında da aşkarlanmışdır. O yazır ki, Aldədə və Dədə Günəşin ad kökləri Dədə Qorqud, Alı kişi, Koroğlu – Qoroğlunun ad köklərinin yaxın, eyni məna daşıması da maraq doğurur. Al – od, al – günəş, Aldədə, yəni Günəş dədə; qor – od, qut – uğurlu, xoşbəxt qoroğlu, yəni od oğlu, yaxud da eyni məna daşıyan Aldədə və ya Dədə Günəş (7, 89).

Ümumiyyətlə, Koroğlu mifik zənginliyə malik obrazdır. Bu obraz bütün real-tarixi cizgilərinə rəğmən, həm də mifik güc-qüdrətə malik qəhrəmandır. Göydən gəlmiş qılıncı, az qala, qanadları olan atı, qeyri-adi nərəsi və s. var. Bu mifik cizgiləri onu qeyri-adi doğuluşa malik qəhrəmanlar sırasına aid edir.

Füzuli Bayat yazır: "Qaranlıq mifoloji semantikası həm "gor", həm "kor", "həm də "qara" kəlmələrində qalmışdır... Məzar korluğa, məzardan çıxma isə görməyə bərabərdir... Türk mifoloji şüuruna görə, xaos kosmosun (yəni düzənli aləmin) təməli, başlanğıcıdır. Koroğlu qaranlığı işıqlandıran və ya xaotik aləmdən (epik variantda qəbirdən) gələn, başqa cür desək, ölüb-dirilən tanrı oğludur" (8, 38-39). Koroğlu bir mifik qəhrəman kimi, oğuz-türk mifologiyasıın ən yayğın, ən məşhur motivləri ilə bağlıdır. Fərhad Qasımov yazır ki, əslində, Goroğlu//Koroğlunun ölüb-dirilmə ideyası ilə bağlılığı, Koroğlunun ölümünün təsvirinə, demək olar ki, heç bir variantda rast gəlinməməsi, onun əbədi dirilərdən sayılması və s. Koroğluda xilaskar obrazının elementlərini axtarmağa sövq edir və məlum olur ki, onun ölümsüzlüyü, əcdad və mədəni qəhrəman olması faktı xilaskarlıq funksiyası ilə sistemli münasibətlər təşkil etməkdədir (9, 13).

Koroğlu obrazının Azərbaycan-türk mifoloji düşüncə sistemində öz yeri var. Bu yer ilk əcdad, ilk qəhrəman Oğuz Kağan obrazı ilə sıx bağlıdır. Daha doğrusu, Koroğlu obrazı mifik əcdad Oğuz kağan obrazı ilə ayrılmaz mövqeyə malikdir. Tədqiqatçılara görə, Koroğlu epik qəhrəman kimi Oğuz kağan obrazının davamıdır. Yəni "Oğuznamə" dastançılığı ənənəsi öz tarixi rolunu tamamlayıb başa vurandan sonra onun bazası əsasında "Koroğlu" dastanı formalaşmışdır. Bu cəhətdən tədqiqatçılar Oğuz kağan obrazının bir çox mifik cizgilərinin Koroğlu obrazına transformasiya olunduğunu söyləmişlər.

Oğuz və Koroğlu obrazlarını müqayisə etmiş Elçin Abbasov onların arasında aşağıdakı eyniliklərin olduğunu aşkarlamışdır:

1. Hər iki obrazın demonik görkəmə malik olması.
2. Hər iki obrazın tanrı oğlu mifi ilə bağlı olması.
3. Hər iki obrazın iki arvadının olması.
4. Hər iki obrazın fateh olması.
5. Hər iki obrazın öz ataları ilə qarşıdurması (Oğuz-Qara xan qarşıdurması; o cümlədən Koroğlunun günahından atasının kor qalması).
6. Hər iki obrazın atının itməsi.
7. Hər iki obrazın peyğəmbərlik, cadugər-şaman keyfiyyəti daşıması.
8. Hər iki obrazın mədəni qəhrəman funksiyasına malik olması.
9. Hər iki obrazın müdrik məsləhətçisinin olması (10, 97-98).

Beləliklə, "Koroğlu" dastanının magik görüşlərlə bağlılığı mif-dastan münasibətlərinə söykənir. Magik görüşlər tipologiyası etibarilə mifik inanclardan təşkil olunur. Türk dastançılıq ənənəsi, o cümlədən "Koroğlu" dastanı da ilkin şəkli etibarilə mifik-magik görüşlərə söykənir.

Bu xüsusda "Koroğlu" dastanının poetikasını tədqiq etmiş Nizami Cəfərovun fikirləri maraqlıdır. O, dastanın mifik qatlarının tədqiqi sahəsində belə bir qənaətə gəlmişdir ki, qədim türk mifologiyası ilə bağlılıq, dastanın ideya və məzmununun qiymətləndirilməsi zamanı mütləq cəhət kimi nəzərdə tutulmalıdır (11, 12).

Ümumiyyətlə, "Koroğlu" dastanı magik-mifik motivlərlə zəngindir və təbii ki, onların hamısını burada ümumiləşdirmək, nəzərdən keçirmək mümkün deyildir. Bu cəhətdən magik təsəvvür, obraz və ideyaların zənginliyi baxımından diqqəti daha çox "Həmzənin Qıratı aparması qolu" cəlb edir.

Qolda deyilir ki, Koroğlunun göstərdiyi igidliklərdən cana doymuş xotkar onu birdəfəlik məhv etmək istəyir. Odur ki, bütün paşaları öz məclisinə yığır. Bunların içərisində vaxtilə Koroğlunun atası Alı kişinin gözlərini çıxartdırmış Hasan paşa da var idi. O, Koroğlunu məhv edəcəyi haqqında xotkara söz verir. Toqata qayıdaraq qoşun, pəhlivan yığır. Paşanın təşkil etdiyi məclisdə vaxtilə Koroğlunun yanında mehtərlik etmiş, sonra ona xəyanət edərək Çənlibeldən qaçmış Mehtər Murtuz da iştirak edirdi. O, təklif edir ki, Koroğlunu məhv etmək üçün əvvəlcə onun atını əlindən almaq lazımdır:

"Elə ki yedilər, içdilər, damağlar duruldu, Mehtər Murtuz zəmini-ədəb öpüb dedi:

– Paşam sağ olsun, xotkara da qurban olum, sənə də. Sizin buyruğunuz Allah buyruğudu. İndi ki bizi göndərirsən, gedəcəyik. Ancaq orasını deyim ki, Koroğlunun igidliyinin düz yarısı Qıratdandı. Nə qədər ki o, Qıratın üstündədi, biz ona heç nə eləyə bilmərik. Əgər Koroğlunu muz-məhəl eləmək istəyirsənsə, birtəhər elə o atı onun əlindən çıxart!".

Heç kəs bu işi boynuna götürmək istəmir. Keçəl Həmzənin əlinə fürsət düşür. O, bəylik və paşanın kürəkəni olmaq müqabilində bu işə razı olur və Qıratı oğurlayaraq Hasan paşanın tövləsinə gətirir.

Burada ilk növbədə diqqəti cəlb edən atın qəhrəman həyatındakı roludur. Belə ki, bu rol həm epik, həm də magik-mifik əsaslara malikdir. Tədqiqatlar göstərir ki, qəhrəmanın atı onun qəhrəmanlıq kompleksinin tərkib hissəsidir. Yəni qəhrəman öz atına və silahına malik

olduqdan sonra qəhrəmana çevrilir. Bu cəhətdən qəhrəmanı qəhrəman edən elə onun atı və silahıdır.

B.N.Putilov müəyyənləşdirmişdir ki, baş qəhrəmanın bahadırlıq gücü üç göstəricidən yaranır: bahadırın özünün qabiliyyətləri, atının xüsusi keyfiyyətləri və silahının möcüzəli xüsusiyyətləri (12, 68).

Qeyd edək ki, burada ilk baxışdan bir az məntiqsizlik yaranır. Axı bir döyüş atı öz sahibi olan qəhrəmanın həyatında nə qədər böyük rol oynayırsa-oynasın, o, bütün hallarda qəhrəmana tabedir və ona xidmət edir. Yəni at qəhrəmanı deyil, qəhrəman atı yönəldir, onu idarə edir və bu cəhətdən, məntiqə görə, qəhrəman atdan üstün hesab olunmalıdır. Onda bəs Oğuz elinin ən böyük qəhrəmanı, müdrik Salur Qazan nəyə görə atı igiddən üstün hesab edir? Yoxsa onun Bəkillə bir ədavəti var? Lakin hətta belə bir ədavət olsa idi belə, Qazan yenə də bu sözləri ədavət zəminində deməyi özünə sığışdırmazdı. Çünki özü də bir igid idi və bütün igidlər kimi özünün də atı var idi. Əgər o, bu sözləri təhqir, ədavət məqsədi ilə demişdisə, onda bu təhqir təkcə Bəkilə deyil, onun özünə və bütün oğuz bəylərinə də aid olmalı idi. Bu isə Salur Qazanın təkcə Bəkili deyil, ümumiyyətlə bütün oğuz igidlərini təhqir edərək, özündən incik salması demək olardı. O isə Oğuz elinin sərkərdəsi idi və danışdığı hər sözün məsuliyyətini bilirdi. Bu cəhətdən Salur Qazanın atı igiddən üstün tutmasının altında bir hikmət yatır. Tədqiqatlar göstərir ki, bu hikmət məhz magiya ilə, magik təsəvvür və inanclarla bağlıdır.

Altay qəhrəmanlıq dastanlarının tədqiqatçılarından olan S.S.Surazakov yazır ki, qəhrəman yalnız öz döyüş atını əldə edəndən sonra döyüşçüyə çevrilə bilir. At bir sıra mətnlərdə qəbilənin Göylər tərəfindən yerə göndərilmiş müqəddəs hamisi (erjine) kimi çıxış edir: o, möcüzəli gücə malikdir, qəbilənin həyatı və işlərinə fəal şəkildə müdaxilə edir (13, 27).

Bax, məsələnin bütün mahiyyəti burada üzə çıxır. Məlum olur ki, qəhrəmanın atı elə-belə qüvvə deyildir: o, magik varlıq, magik hamidir. Göylərlə bağlıdır, magik-möcüzəli gücə malikdir. Azərbaycan nağıllarındakı atları yada salaq. Qəhrəmanların atları sehrli-magik varlıqlardır. Onlar çətin tapşırığın öhdəsindən necə gəlməyin yollarını qəhrəmana öyrədirlər. Koroğlunun atı Qırat da, əslində, belə bir magik-mifik gücə malik varlıqdır. Əgər gənc Rövşən (Koroğlu) hər şeyi düzgün icra etsə idi, Qıratın qanadları olacaq və o uçacaqdı.

Göründüyü kimi, Qıratın çiyinlərində iki dənə qanad var idi. Qanadlar alov kimi yanır, qızıl kimi parıldayırdı. Lakin Rövşənin səbirsizliyi işləri korlayır. Bu detal bizə aşağıdakı məntiqi nəticələrə gəlməyə imkan verir:

1. Qıratın çiyinlərində əvvəlcə qanadların olması, eləcə də bu qanadlar yox olandan sonra onların yerinin, izinin atın çiyinlərində qalması Qıratı epik tipologiyası baxımından uçan atlar kateqoriyasına aid etməyə imkan verir.

2. Qıratın qanadlarının olması onun uça bildiyini göstərdiyi kimi, göylər aləmi ilə bağlılığını da ortaya qoyur.

3. Mifik-epik ənənədə uçan atlar göylər aləmi ilə əlaqə yaradan, yerlə göy arasında rabitə quran varlıqlar hesab olunur. Bu isə həmin atların mifik tipologiya baxımından mediator varlıqlar, yəni yerlə göy arasında əlaqə yaradan, mediasiya edən obrazlar olduğunu göstərir. Azərbaycan nağılllarında atların qəhrəmanlara gizli bilikləri öyrətməsi onların mediator kimi göylər aləmi ilə bağlılığını ortaya qoyur.

4. Mediator varlıqlar bütün hallarda magik-mifik görüşləri təcəssüm etdirən obrazlardır. Mediator atlar qəhrəmana qeyri-adi güclərdən gələn təhlükələri öz magik qabiliyyətləri vasitəsilə dəf edərək aradan qaldırırlar.

5. Qıratın qanadları mifik arxetip kimi, onu göylər aləmi, medasiya qabiliyyəti və magik görüşlərlə əlaqələndirməyə imkan verir.

Bütün bu deyilənlərə dastanda təsadüf olunur. Qırat, əsil, qəhrəman kimi düşmənlərlə vuruşur, bəzən hiylə işlədərək özünü xəstəliyə, dəliliyə vurur. Bunun bədii cəhətdən mükəmməl nümunəsinə "Həmzənin Qıratı aparması" qolunda rast gəlirik.

Burada diqqəti ilk növbədə Koroğlunun tanınmamaq məqsədi ilə özünü aşıq cildinə salmasıdır. Bu, ilk növbədə paltardəyişmə yolu ilə baş verir. Koroğlu öz qılıncını gizlədir və Hasan paşanın məclisinə əlində saz daxil olur. Koroğlunun çalıb-oxuduğunu, yəni mahir saz çalan, bədahətən gözəl şeirlər qoşan və öz qoşduqlarını gözəl səslə oxuyan aşıq olduğunu bilirik. O, dastanda bir çox hallarda düşmənlər tərəfindən tanınmamaq üçün özünü gah aşıq, gah ilxıçı, gah qəssab və s. kimi təqdim edir. Elmdə bu hal cilddəyişmə adlanır.

Muxtar Kazımoğlu bununla bağlı göstərir ki, folklorda libas dəyişmə, bildiyimiz kimi, özünü gizlədib bambaşqa şəxs vücudunda görünmək, bambaşqa ad altında tanınmaqdır (14, 5). Müəllifin başqa bir fikri paltardəyişmənin magik görüşlərlə bağlı olduğunun üzərinə işıq salır. O yazır: "Özünü gizlədib başqa dona girməyin ən arxaik mənası qəhrəmanın dəyişib o dünya sakinlərinin görkəminə uyğun bir görkəm alması inamı ilə bağlıdır. O dünya sərhədinə çatan qəhrəman o dünyanın eybəcər sakinlərinin görkəmini qəbul edir ki, təhlükədən qoruna bilsin (14, 11). Buradan aydın olur ki, paltardəyişmə mediasiya aktıdır. Yəni qəhrəman bir dünyadan o biri dünyaya daxil olur. Daxil olduğu dünyanın sakinlərinin onu tanımaması üçün paltarını dəyişir. M.Kazımoğlu bunun dirilərin dünyası ilə ölülərin dünyasının sərhədində baş verən akt olduğunu göstərir. Bunu eynilə "Koroğlu" dastanına da aid etmək olar.

Ədəbiyyat

1. Rzasoy S. Azərbaycan "koroğluşünaslığı" və professor İsrafil Abbaslı (ön söz) / İ.Abbasli. Koroğlu: nə var, nə yox? Bakı: Elm və təhsil, 2013, s. 3-23
2. Təhmasib M.H. Müqəddimə / Koroğlu. Bakı, Az.SSR EA Nəşriyyatı, 1956, s. 3-21
3. Abbaslı İ. "Koroğlu" eposu // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XIII kitab. Elmi redaktoru H.İsmayılov. Bakı: Səda, 2002, s. 10-72
4. Xəlil A. "Koroğlu" dastanının tatar-tobol versiyası və oğuz eposunun strukturu // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XXIX kitab. Elmi redaktoru H.İsmayılov. Bakı: Nurlan, 2009, s. 85-91
5. Paşayev S. "Koroğlu" eposu – xalq əfsanə və rəvayətləri // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. VII kitab. Bakı: Elm, 1987, s. 174-186
6. Seyidov M. Alı kişi və Koroğlu obrazlarının prototipləri haqqında // "Azərbaycan" jur., 1978, № 3, s. 184-207.
7. Pirsultanlı S.P. Azərbaycan eposunun əfsanə qaynaqları. Bakı: Azərnəşr, 2002, 163 s.
8. Bayat F. Köroğlu: Şamandan Aşıka, Alpdan Erene. Ankara: Akçağ, 2003, 176 s.
9. Qasımov F. Koroğlu dastanında mifoloji model: Fil. elm. nam. ...dis. avtoref. Bakı, 1999, 27 s.
10. Abbasov E. Oğuz eposunun tarixiliyinə dair («OĞUZ KAĞAN», «KDQ», KOROĞLU») // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. X cild, B.: Səda, 2004, s. 92-100
11. Cəfərov N. "Koroğlu"nun poetikası. Bakı: BDU, 1997, 46 s.
12. Путилов Б.Н. Героический эпос и действительность. Ленинград: Наука, 1988, 225 с.
13. Суразаков С.С. Алтайский героический эпос. Москва, Наука, 1985, 256 с.
14. Kazımoğlu M. Folklorda obrazın ikiləşməsi. Bakı: Elm, 2011, 228 s.

С.Г.Иманова

Магические мотивы и элементы в эпосе «Короглы»

Резюме

В ряде частей эпоса «Короглы» встречаются магические элементы и мотивы. Это, в первую очередь, связано с типологией образа главного героя. Короглы, как продолжетель образа Огуз кагана в настоящее время, обладет мифологическими корнями. С этой точки зрения, этот образ, в то же время, сформировался на основе магических представлений. В части эпоса «Как Гамза увел Гырата» представление Короглу себя как ашуга, буйность коня, вселение духа в плоть, изгнание его с помощью песен – все эти элементы связаны с магией, с магическими средствами лечения. А это подтверждает связь Короглу как героя с магическими-

мифическими представлениями, также сохранение мифических представлений в различных сюжетах эпоса.

S.G.Imanova

Magical Motves and Elements in the Epic «Koroglu»

Summary

In some parts of the «Koroglu» there found magical elements and motives. This is primarily due to the typology of the image of the protagonist. Koroglu as a current continuing image of Oguz Kagan has got a mythological roots. From this point of view, this image at the same time is formed on the basis of representations of magic. In the part of the epos «As Hamza has stolen Gyrat» Koroglu appears as an ashug, the madness of the horse, indwelling Spirit in the flesh, his exile with the help of songs - all of these elements are associated with a magic, a magical means of treatment. This confirms that Koroglu is a hero with magical-mythical representations, and the fact of the preservation of the mythical representations in various subjects of the epic.

Rəyçi: filol.f.d., dos. A.X.Ramazanova

Redaksiyaya daxil olub: 18.01.2017

P.MƏMMƏDOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Texniki Universiteti
(Bakı şəh., H.Cavid pr., 25)

PROFESSOR NİZAMİ TAĞISOYUN TƏDQİQATLARINDA QARAQALPAQLARIN MƏRASİM VƏ İNANCLARININ ÖYRƏNİLMƏSİ

Açar sözlər: *mərasimlər, inanclar, qaraqalpaqlar, yurta, ailə, bəd ruhlar, şagirdlik, uyğun xüsusiyyətlər*
Ключевые слова: *обряды, верования, каракалпаки, юрта, семья, злые духи, ученичество, сходные черты*
Key words: *rites, beliefs, Karakalpak, yurt, the family, the evil spirits, apprenticeships, similarities*

Prof. Nizami Tağısoy yaradıcılığında iki onillikdən artıqdır ki, qaraqalpaq türklərinin eposu, folkloru, klassik və XX əsr ədəbiyyatı tədqiqat obyekti və predmeti kimi çıxış etməkdədir. O, "Qaraqalpaq folkloru"na dair çoxsaylı araşdırmalar aparmaqla məqalələr yazmış, Beynəlxalq konfranslarda etdiyi məruzələrlə yanaşı, qaraqalpaq xalq nağıllarının dilimizə tərcüməsi ilə məşğul olub onları ayrıca nəşr etdirən (3) mütərcim, "Каракалпакская литература" (5) və "Qaraqalpaq ədəbiyyatı" (6) kitablarının müəllifi kimi tanınmaqdadır. Nizami Tağısoyun "Qaraqalpaq xalq nağılları", "Qaraqalpaq ədəbiyyatı" kitablarında digər nümunələrlə yanaşı, biz bu xalqın saysız-hesabsız mərasimləri ilə də tanış oluruq. Bu əsərlərdən hər birində müəllif mərasimlərin qaraqalpaq xalq mədəniyyətinin qədim növlərindən biri olduğunu qeyd edir. Doğrudan da qaraqalpaq mərasimlərinə yaxından bələdlik göstərir ki, mərasimlərin və inancların başlıca məqsədi ətraf aləmə təsir etməklə özünü müxtəlif tipli bədbəxtliklərdən, xəstəliklərdən qorumaqdan, ailənin və qəbilənin uğurlarını davamlı etməkdən ibarətdir.

Nizami Tağısoy qaraqalpaq mərasimlərindən və inanclarından hər birinin öz təyinatı olduğunu göstərməklə bu mərasimlərdə xalqın real məişət həyatının, onun baxış və fəlsəfi dünyagörüşü, psixoloji ovqatı olduğunu nəzərə çatdırır. (6, 147) Dünyanın digər xalqlarında olduğu kimi, qaraqalpaqlarda da qədim təbiət ayinləri və mərasimləri əsasən ovçuluq, təsərrüfat, heyvandarlıq, insan həyatında yer almış hadisələr – doğum, ölüm, hər hansı bir işə başlama, ev tikmə, toy-bayram, müxtəlif tipli şənliklər və s. bağlıdır. Biz "Qaraqalpaq ədəbiyyatı" kitabında inanclar və mərasimlərlə tanış olduqda görürük ki, onlar bu xalqın həyatını reqlamentləşdirməklə, həm də etnik-milli özünəməxsusluqla fərqlənməkdədir (6.148).

N.Tağısoy qaraqalpaq mərasim və inanclarını tədqiqatlara cəlb edərkən onları heç də lokal, sırf milli kontekstdə nəzərdən keçirmir, bu mərasim və inancların nəinki Orta Asiya və Qazaxıstanda, həm də Azərbaycan, özbək, türkmən, qazax, qırğız, tatar, başqurd, noğay və digər türk xalqlarında necə yer aldığını qeyd edir və burada o, əsasən qaraqalpaqların yurta (alaçıq) ilə bağlı mərasim və inanclarını daha çox təhlil obyektinə çəkir. Biz "Qaraqalpaq yurtası" ilə tanış olduqda burada yurtanın xeyli mühüm funksiyalarının olduğunu görürük.

Qaraqalpaqlarda yurta tikilməsi ilə bağlı mərasimlərin təşkilini ətraflı təhlil edən Nizami Tağısoy onun nəinki ailənin, təzə nikaha girmişlərin ənənəvi yaşayış yeri, həm də bayram, təntənə, əyləncə keçirilən məkan olduğunu söyləməklə, yurtanın qurulduğu zaman hansı ağacdan düzəldilməsinin vacibliyini qeyd edir.

Nizami Tağısoy qaraqalpaq mərasim və inanclarının toplayıcılarının əsərlərini incələyərkən xüsusən X.Yesbergenov, Q.Snesaryov, S.Hacıyeva və başqalarının yurtaya aid əsərlərindən istifadə etməklə bu məsələyə dair fikirlərini oxuculara çatdırmağı və bu mərasimlərin kifayət qədər spesifik olduğunu, eyni zamanda bu inanc və mərasimlərin

Azərbaycan türklərinin bəzi mərasim adətləri ilə uyğunluqlarına və oxşarlıqlarına nəzər yetirir.

Qeyd etdiyimiz istiqamətdə təhlillərini davam etdirən müəllif qaraqalpaq yurtalarını salanların xüsusi ənənə daşıyıcıları olduğuna diqqət yetirir. Eyni zamanda göstərir ki, yurta quran ustalar elə əsilli-nəsilli sənət sahibləri olmalıydılar ki, onlar nəsilliklə (yəni ən azı doqquz nəsil ard-arda) bu işlə yaxından məşğul olanlar idilər.

Yurta qurub tikmək ənənəsində qaraqalpaq akın və jıraularında olduğu kimi (müqayisə et Azərbaycan və Türkiyə aşıq sənətindəki ustad-şəyirdlik ənənələrini) "şekirt"lik ənənəsi inkişaf etmişdi ki, yurta tikməyə başlayacaq şəxslər ustadlar yanında üç-dörd il bu sənətin sirlərini öyrənməklə və ona yiyələnmə ilə bu işi davam etdirirdilər. N.Tağısoyun söylədiyinə görə şəyirdlər ustad yanında təlimi müvəffəqiyyətlə sona yetirdikdən sonra ustad yurtanın tikilməsində istifadə olunacaq alətlərindən hər hansı birini ona bəxş etməklə, ona öz xeyir-duasını verirdi. Təlim zamanı şəyird türk mətnində ərəb qrafikasında olan risalə ilə tanış olmalı idi ki, orada şəyirdin gələcəkdə görəcəyi işdə vicdanlılığı, iş yerinin səliqə-sahmanı, Allahın təkliyini, vahidliyini qəbul etməsi, ustaların hamisi olan Əlini tanıması və s. mühüm yer tuturdu. Çünki Əlini (yaxud İbrahim Xəlili) Qaraqalpaqstanda ilk yurta quran şəxs kimi tanıyırdılar. Yurta qurulan zaman dəstəmaz alınmalı, namaz qılınmalı, hami Bibi Fatiməyə, Allaha dualar edilməli, qurbanlar kəsilməli idi.

Yurtnın qurulmasının özünün konstruktiv kompozisiyası və strukturu vardı ki, burada qapı kandarı (bocar), yuxarı bir (manqaylama) və iki yan dirəkləri (tul aqaş və jak aqaş) qoyulması daha vacib hesab olunurmış. Yurtanın qapısı mütləq içəri açılmalı, çıxışı cənub tərəfə durmalı imiş. Yurta tikilməyə başlanan zaman qadınlar bağırsaq qızartmalı, iy çıxarmalı (iyis şıkarıy təşkil etməli), qonum-qonşulara paylamalı imişlər. Qaraqalpaqlar yurta qurarkən ağcaqayın ağacından (qaraqalpaqlarda "kayın") istifadə edilməməni onunla əsaslandırmışlar ki, ağcaqayın qaraqalpaqlarda bədbəxtlik gətirən ağac hesab olunurmuş. Qaraqalpaqlar ağcaqayın əvəzinə yurta tikintisində nazik, bərk və dözümlü söyüd ağacından istifadəyə daha böyük üstünlük verirlərmiş. Yeri gəlmişkən, bildirək ki, ruslar, ukraynalılar, belaruslar və qazaxlar ev tikintisində ağcaqayını daha bərk ağac hesab etməklə ona böyük üstünlük vermişlər.

Nizami Tağısoyun "Qaraqalpaq ədəbiyyatı" kitabında biz bu xalqın inanc və mərasimlərinin xeyli digər keyfiyyətləri ilə də tanış oluruq. Belə ki, qaraqalpaqların ənənəvi baxışlarına uyğun olaraq yurta quran ustanın emalatxnası müqəddəs hesab olunurmuş. Buna görə də belə emalatxanaları sonsuz qadınlar, psixi xəstələr ziyarət edər, qurbanlar kəsərdilər. Yurta ilə bağlı inanclarda belə bir şey də varmış ki, onu tikən usta yurtaya qapı qoymazmış. Onun fikrincə, yurtaya qapıqoyma ustanın ölümünə səbəb ola bilərmiş. Yurtanın tikintisinə başlama heç də həftənin bütün günlərində əlverişli hesab edilmirmiş. Uğurlu gün kimi çərşənbə və cümə axşamı günlərini seçirlərmiş. Yurtanın tikintisi üçün aul ağsaqqalları əlverişli yer seçməli, oradan bəd ruhları qovmalı imişlər.

Yurtanın tikintisinə başlamazdan əvvəl bütün qonum-qonşu, dost-tanış burya yığışmalı, qurbanlar kəsilməli, təntənələr təşkil olunmalı imiş. Buraya təşrif gətirənlər mütləq sovqatla (sayra) gəlməli və "qoy xeyirli olsun" ("Kutlı konıs bolsın") deyib, evlərinə hədiyyə ilə qayıdarmışlar.

Yurta tikildikdən sonra burada kimsə xəstələnsəydi, qaraqalpaqlar onun tikildiyi yeri uğursuz hesab edərdilər. Eyni zamanda Nizami Tağısoy burada belə bir məqamı da vurğulayır ki, qaraqalpaqların inancına görə xoşbəxtliyin hansısa konkret məkan olmur. Bundan başqa qaraqalpaqlarda başqa inanclar da mövcud idi. Məsələn, qaraqalpaqlar heyvan satarkən onun yunundan bir az götürürmüşlər ki, bu heyvannın satılması ilə bağlı ailənin xoşbəxtliyi və bərəkət evdən çəkilib getməsin. Maraqlıdır ki, Nizami Tağısoy analoji mərasim və inancların Azərbaycan türklərində də olduğunu söyləyir və azərbaycanlıların da heyvan satan zaman

onun yunundan qoparıb, saxladıqlarını, yaxud qaranlıq düşən zaman pul verərkən, pulun bir qırağından qopardıqdan sonra borc istəyənə verdiklərini qeyd edir. Nizami Tağısoy bununla bağlı yazır: "Azərbaycanlıların inancına görə şər qarışan vaxtı pul vermək ailənin xoşbəxtliyinə ziyan vura, evin ruzisi gedə bilərdi" (6, 151).

Qaraqalpaqlar ailədəki sonsuzluğu yurta yanında ağcaqayın ağacının bitməsi ilə əlaqələndirirdilər. Belə hallarda onlar ağcaqayın ağacını mütləq o yerdən uzaqlaşdırırdılar. Burada da müəllif Azərbaycan türklərində bədbəxtlik gətirən ağac kimi qoz və ənciri qeyd edir və onlardan kənarda olmanın vacubliyini söyləyir. Qaraqalpaq mərasim və inanclarından söhbət açarkən Nizami Tağısoy bu mərasimləri heç də yalnız Azərbaycan mərasim və inancları ilə müqayisə edib, paralellər aparmır. Məsələn, analoji mərasim və inancların Sibir türklərində, yakut və altaylılarda da mövcud olduğu faktına diqqət çəkir (1, 144).

Elə buradaca müəllif uşaqlara uğursuzluq və bədbəxtlik gətirən yerlərin tərk olunmasının Altay türklərində də mövcud olduğunu qeyd edir (4, 81).

Qaraqalpaqlarda yurtanın kandarı ilə bağlı qədim dini mərasim və inanclardan bəhs açan Nizami Tağısoy belə adətlərin əcdad ayinlərinə gedib çıxdığından danışır. Bu mərasim və inancların toy mərasimləri, uşaq doğuluşu, tərbiyə edilməsi, hüzn və dəfn olunma ayinlərində də izlənildiyini göstərir. Təhlillərdən görünür ki, qaraqalpaqlarda (bu azərbaycanlılarda da belədir) ayağın qapı kandarına qoyulması və kandar üstündə oturulması da yolverilməzdir. Eyni zamanda qapı kandarında görüşmək, qonağı onun üstündə qarşılamaq adətlə qadağandır. Çünki bu inanc, qapı kandarında əl-ələ görüşmək nəinki qaraqalpaqlarda, həm də digər türk xalqlarında bir-birini lənətləmə kimi nəzərdən keçirilərdi. Buna görə də qonaqla ya kandardan öndə, ya da içəri daxil olandan sonra görüşməyə icazə verilirmiş. Kandar ayinini nəzərdən keçirən Nizami Tağısoy bu inancların Sibir türklərində, xakaslarda və sakalarda olduğundan da müqayisəli şəkildə məlumat verməkdədir. Kiandar ayini, demək olar ki, qaraqalpaq və digər türkləri daim müşayiət edirmiş. Onların belə bir adətləri də varmış ki, ər evinə təşrif buyuran gəlin, qadın hər dəfə uşaq dünyaya gətirəndən sonra kandara baş əyməli, alnını kandara qoymalı, sonra sağ ayağı ilə kandardan içəri daxil olmalı, girməli imiş. Kandardan içəri daxil olduqdan sonra yurtadakı qızlar, gəlinlər içəri girənə müxtəlif hədiyyələr bəxş edərmişlər. Yeri gəlmişkən, müəllif bildirir ki, bu ayinlər nəinki qaraqalpaqlarda, Azərbaycan və Anadolu türklərində, özbəklərdə, türkmənlərdə, qaqauzlarda və digər türk xalqlarında da eynidir. Çünki qapı kandarı qədim türklərdə daim ulu və müqəddəs məkan hesab olunmuşdur.

Qaraqalpaqların digər mərasimlərindən bəhs edən Nizami Tağısoy buğda çuvalı ilə bağlı inancları da oxucuların diqqətinə çatdırır. Bununla bağlı qeyd olunur ki, buğda ilə dolu çuvalı yurtanın ortasında qoymaq evə, ailəyə zənginlik və çoxuşaqlıq arzulamaq kimi nəzərdən keçirilən bir şeydir. Yurtanın içi qaraqalpaqlarda bir neçə hissəyə bölünürmüş: burada mərasimlər keçirilən yer, qonaqlar qəbul edilən yer, ev əşyaları yerləşdirilən hissələr, ailənin özü yaşadığı yer və s. vardır. Yurtanın girişindən sol tərəfdə kişilər üçün, kişi paltarı, at yüyəni və yəhəri olan yer, pərdə arxasında gəlin və onun rəfiqələri, buradaca doğuş yeri və yenə də pərdə arxasında dünyasını dəyişənlərin yeri olurmuş. Bütün bunlar isə sağ tərəfdə yerləşirmiş. Müəllif qeyd edir ki, yurtanın göstərilən şəkildə bölgüsü həm də digər türk xalqlarında – qazaxlarda, noğaylarda və özbəklərdə də mövcud olmuşdur (2, 56-57).

Yurtanın qurulmasının xeyli detalları, onun içindəki əşyaların yerbəyer edilməsi qaraqalpaqlarda ritual xarakteri daşımışdır. Yurtanın üz tərəfi bitki və heyvan təsvirlərini əks etdirən kəsmə, deşmə (oyma) naxışları ilə bəzədilmişdir.Yurtanın daxilindəki səliqə-sahman daim qorunarmış. Yurtanın içinə keçə hazırlanıb döşənilməzdən əvvəl heyvanlar kəsilər, bağırsaq qovrular, təntənə təşkil olunar, Bibi Fatiməyə dualar edilərmiş. Bir sözlə, qaraqalpaqlarda bu mərasim və inanclarla bağlı adətlər daim ön planda olarmış.

NizamiTağısoy qaraqalpaqların qədim mərasim və inanclarında yurtanın yerini və rolunu aydınlaşdırarkən bu xalqın zəngin tarixi ənənlərə nə qədər böyük önəm verdiyini qeyd

etməklə, həm də həmin ayinlərin Azərbaycan türklərində və digər türk xalqlarında özünü necə büruzə verdiyini diqqətə çatdırmaqla, digər türk xalqlarının həyatı və etnoqrafiyası ilə bizi yaxından tanış etməkdədir. Belə tədqiqatlar çeşidli adət-ənənələri ilə zəngin olan türklərin mədəniyyət nümunələrinin öyrənilməsində bizlərə yardımçı olması şübhə doğurmur. Digər türk xalqlarının adət-ənənlərinin, mərasim və inanclarının belə müqayisəli-qarşılaşdırma müstəvisində öyrənilməsi olduqca zəruridir.

Ədəbiyyat

1. Алексеев Н.А. Ранние формы религии тюркоязычных народов Сибири. Новосибирск, 1980.
2. Гаджиева С.М. Материальная культура ногайцев в XIX-XX вв. М., 1976
3. Qaraqalpaq xalq nağılları. Tərc.ed. Nizami Tağısoy. Bakı, Mütərcim, 2006, 201 s.
4. Есбергенов Х. Обряды и верования каракалпаков, относящиеся к юрте// Кочевое жилище народов Средней Азии и Казахстана. М., Наука, 2000.
5. Мамедов Н.Каракалпакская литература. Баку, Kitab aləmi, 2007, 296 с.
6. Məmmədov – Tağısoy N. Qaraqalpaq ədəbiyyatı. Bakı, Elm və təhsil, 2015, 456 s.

П.Мамедова

Изучение обрядов и верований каракалпаков в исследованиях профессора Низами Тагисоя

Резюме

В представленной статье изучаются обряды и верования каракалпаков в исследованиях проф. Низами Тагисоя. Н.Тагисой ученый, последовательно занимающийся этнографией, воззрениями, фольклором, эпическим и этническим мировоззрением тюркских народов, в том числе каракалпаков. Изучая труды ученого, мы установили, что обряды и верования каракалпаков в его сочинениях исследованы достаточно обстоятельно. Исходя из этого, мы привлекли к анализу его труды, освещающие особенности обычаев и традиций каракалпаков, относящихся к юрте.

P.Mammadova

The Study of Rites and Beliefs Karakalpaks in Researchs of Professor Nizami Tagisoy

Summary

In the present paper we study the rites and beliefs of Karakalpacks in studies of prof. Nizami Tagisoy. N.Tagisoy is a scientist after-quently engaged in ethnography, beliefs, folklore, epical and ethnic outlook of the Turkic peoples, including Karakalpaks. Studying the works of the scientist, we found that the rites and beliefs of Karakalpaks in his writings has been explored enough. Accordingly, we are attracted to the analysis of his work, highlighting features of Karakalpak customs and traditions related to the yurt.

Rəyçi: prof. B.Əhmədov

Redaksiyaya daxil olub: 10.02.2017

R.N.MİRZƏFƏROVA
dosent

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

Q.Q.MARKESİN "YÜZ İLİN TƏNHALIĞI" ROMANINDA TƏNHALIQ MÖVZUSU

Açar sözlər: *ailə, tənhalıq, obraz, zaman, magik realizm.*
Ключевые слова: *семья, одиночество, образ, время, магический реализм.*
Key words: *family, solitude, image, time, magical realism.*

Magik realizmin ən parlaq əsərlərindən biri olan Kolumbiya yazıçısı Qabriel Markesin "Yüz ilin tənhalığı" romanı hansı mənadasa bütün ədəbi cərəyanın təcəssümünə çevrilir. Bu roman Q.Markes yaradıcılığında nəinki əsas yer tutur, bu Latın Amerikası romanının kuliminasiya adlanan yüksəlişinə çevrilir. Buendia nəslinin nəhəng sayda ikinci dərəcəli parlaq personajlarının fonundakı təsviri, - bu Kolumbiyanı, Latın Amerikasını, bəşər sivilizasiyasını bütövlükdə əks etdirən tarixi kətan bir lövhədir.

Romanın məna yozumu elə onun öz adındadır. Obyektiv gerçəklikdə "Yüz ilin tənhalığı" Kolumbiya tarixinin yüz illik gerçəkliyini əks etdirir, bədii obrazlılıq səviyyəsində isə bu söz birləşməsi yəni "Yüz ilin tənhalığı" metaforik məna daşıyır və qapalılıq, əbədiyyət bildirir. Adın ikinci komponenti – "tənhalıq"dır. Q.Markes özü ona diqqət yetirmişdi ki, Qəraib hövzəsinin sakinləri daxili tənhalığın daşıyıcısıdırlar. Romandakı tənhalıq - qəhrəmanlara xas olan yarımçıqlıq, sevməmək bacarığı, harmonik mövcudluğun qeyri mümkünlüyüdür.

Magik realizm üslubunda yazılmış roman insan tənhalığı problemlərinin hərtərəfli tədqiqini nümayiş etdirir. Yazıçı əsərinin "daxili sujetini" xarici sujetə görə açır – bu da Buendia nəslinin həyatının təfsilatlı təsviri üzərində qurulur. Romandakı hadisələrin cərəyan etdiyi yer – Xose Arkadio və Ursulanın yəni birinci nəslin əsasını qoyduğu qəsəbə şəhəri olan Makondada baş verdiyini göstərir.

Romanın xronotopu məkanca məhduddur, zaman səviyyəsində isə təsirlidir. Qeyd edək ki, Xronotop – yunan dilindən tərcümədə "xronos" – zaman, "topos" – yer bildirir. Mənası məkan, zaman koordinatlarının qanunauyğun əlaqəsi deməkdir. Makondanın tarixinin əsası Adəm və Həvvanın etdikləri günaha görə cənnətdən qovulması ilə birbaşa parlellik təşkil edir; xalaqızı və xalaoğlu ilə nigahın bağlanması sonradan Prudensio Aqilyarın öldürülməsi, Xose Arkadio Buendianın və Ursulanın doğma kəndi tərk etməyə və yeni-keçmiş kabusun olmadığı yerdə qərarlaşmağa məcbur edir.

İnsan tənhalığı problemi romanda müxtəlif səbəblərlə - sevməmək bacarığı, (bu xüsusiyyət demək olar ki, bütün Buendia nəslinin üzvləri üçün xarakterikdir), başqa insanlardan xaricən uzaqlaşmaqla (tənhalıqda yaşayan Rebeka, öz iradəsi əleyhinə monastra göndərilən, Melkiadesin otağında: əsgərlərdən ikinci Xose Arkadio və insanlardan - Aureliano Xosedən gizlənən Meme) və yaxud sevimliləri tərəfindən rədd edilməklə (Amaranta Pyetro Krespi və Xerineldo Markes tərəfindən atılanlar), daxili problemlərlə (ağlını itirmiş nəslin rəhbəri olan Xose Arkadio Buendia) və xarici (nəhayət ömrünün sonunda korlaşmış Ursula), hətta çox güclü ehtiraslarla insanların qəlbini ələ keçirməklə (polkovnik Aureliano Buendianın "tənhalıq hakimiyyəti", o öz ətrafında üç metrəlik dairə yaradır, ora hətta ən yaxın insanları belə düşə bilməzlər, Meme və Maurisio, Aureliano və Amaranta Ursulanın "tənhalıq məhəbbəti" ilə) izah olunur.

Romanın elə adından göründüyü kimi ailə üzvləri arasında olan mühüm problem də elə onların tənhalığa məhkum olmasıdır. Buendialar nəslinin axırına çıxan da elə tənhalıqdır. Bu

romanda elə təkliyin tarixidir. İlk tənhalığa qapılma anını biz Xose Arkadionun oğlunun erkən yaşında Pilar Terneraya olan hisslərindən sonra görürük. Aurelianodan sonra qardaşı Pilara da tutulur. Sonradan bu iki qardaş anlayır ki, hər ikisi tənhalığa qapılıb.

Q.Markesdə olan hər bir dərdin də, gülüşün də əsasında təklik dayanır. Elə bu səbəbdən Q.Markesdəki hər bir elementin üzündən əlavə onun da astarını da görürük. Q.Markesin diliylə desək, "Gerçəkliyi astar üzünə çevirə bilən, bu astar üzünün necə olduğunu göstərən roman ideal romandır" [4, 41]. Heç şübhəsiz ki, "Yüz ilin tənhalğı" da ideal romanlardan biridir. Ondakı bütün obrazlar rəmzidir, tragikomikdir. Həm son dərəcə ciddidir, həm də qeyri-ciddidir.

Əgər bizdə Q.Markessayağı əsərin sonundan əvvəlinə qayıtsaq, görərik ki, nəslin tənhalığına gətirib çıxaran səbəb ilk növbədə zorakılıq və insestdir. Elə antik dövrlərdən bizə məlum olan Sofoklun "Çar Edip" əsərində bu hadisə qırmızı xətt kimi keçir. O faciədə də bütün bəlalar elə insestdən gəlirdi.

Romanda insestə meylin digər əlamətini Xose Arkadionun Rebeka - öz bacısı ilə evlənməsində görünür. Xose Arkadio bunu adi hal kimi qəbul edir. Ursula narazılıq etdiyinə görə onlar qəbiristanlıqda ev tuturlar. Toy günü Rebekanın gəlinlik ayaqqabısının içində olan əqrəb onu sancır və qızın dili tutulur. Onlar anlamasa belə bu əqrəb onlara göndərilən bir bəla idi, çünki onlar qanunsuz olaraq nikaha girmişdilər.

Ursula Buendialar ailəsinin bütün həyatını gözdən keçirərək öz nəslinin nümayəndələri barəsində yekun qənaətlərə gəlmişdi. O başa düşürdü ki, oğlu Polkovnik Aurelianonun ailədə heç kimlə doğmalaşa bilməməsinin səbəbi heç kimi sevməməsidir. Nə arvadı Remediosu, nə də oğullarını. Bir gecə hələ Polkovnik Aureliano anasının bətnində olanda Ursula öz oğlunun ağladığını eşidir. Ursula əvvəlcə bu hadisəni donuz quyruğu ilə əlaqələndirsə də, sonda nəticəyə gəlir ki, oğlu sevmək hissindən doğuşdan məhrumdur. Bu da onu bir daha göstərir ki, insestə meyil edən əksər insanlar sevgi hissindən məhrum olur. Elə bu səbəbdən də, qızı Amarantanın Pyetroya verdiyi əzab qisas yanğısından, polkovnik Q.Markesin həyatını puç edən işgəncə isə hamının bildiyi dərddən doğmurdu. Ursula bunun səbəbini qorxuda görürdü. Ursula bilirdi ki, onun südü ilə qidalanmayan yalnız Rebekada qarşısıalınmaz cəsarət var.

Ümumilikdə insest insanın yaşayış tərzinin və ilahi qanunların kobud şəkildə pozulmasıdır. Əvvəl bütün miflərdə insanlar bacı-qardaş qismində idilər. Sonralar isə nəsillər artdıqca əsatirlərdə insest qadağan olunur, təbiətdə qayda-qanun pozulur, cəmiyyətdə bəlalar törənir [5, 108].

Təklik-tənhalıq xəstəliyindən demək olar ki, qurtuluş yoxdur. Hətta zahirən gözəl olan Gözəl Remedios belə ətrafa ölüm saçır. Q.Markes öz müsahibələrinin birində tənhalığı bütün Latın Amerikasına xas olan keyfiyyət sayır. "Bu torpaq həddi-hüdudu olmayan qızdırmalı təsəvvürlər diyardır" [5, 108]. Doğrudur ki, "Yüz ilin tənhalığı"nda bütün obrazlar təkliyə-tənhalığa məhkum olunublar. Ancaq, bu təkliyin bariz nümunəsi nəslin başçısı olan Xose Arkadio Buendia və onun oğlu polkovnik Aureliano Buendia sayıla bilər. Dəfələrlə ölümlə üzləşən, əmrləri hələ ağzından çıxmamış yerinə yetirilən Aurelianonun tənhalığı artıq fərdi deyil, bəşəri kontekstdə yüksəlir. Q.Markesə görə, Aureliano hələ dünyaya göz açmamışdan təktənhadır, anasının bətnində ağlayır, anadan olandan gözləri açıqdır, hər şeyi öncədən görməyə də qadirdir. Aureliano Buendianın həyatından dostluq, insaf, sadiqlik kimi anlayışlar silinib.

Beləliklə, romandakı tənhalıq Buendialları məğlubiyyətə aparır, Makondanı isə yerləyeksan edir. Q.Markes birbaşa deməsə də, romanın gözəgörünməyən hissəsində insanın halına acıyır, elə bir onu tənhalığın caynağından qurtarmaq istəyir. Q.Markesin humanizmi elə bununla bağlıdır. Başqa sözlə desək, insan hər halında, bütün kəsrli əlamətləri və qəribəlikləri ilə Q.Markes üçün qiymətlidir.

Tanınmış rus dramaturqu Mixail Roşinin yazdığı kimi: "Təklik mövzusu ən çox "Yüz ilin tənhalığı" romanında əsas xətt kimi götürülür, yazıçı tərəfindən güzgü kimi minlərlə qırıqlara parçalanır. Romandakı hər insana bu qırıqlardan biri qismət olur. Təbii ki, sınan şüşə qırıqları bir-birinin təkrarı olmadığı kimi, romanda da hərənin öz taleyi, öz tənhalığı var. Bunlar

tamam bir-birinə doğma adamlar olsalar da, əslində bir-birinə yaddırlar, ölümləriylə belə tənhadırlar, amma üzlərinə həmin şüşə qırıntılarının günəşdə parlayan işığı düşür" [5, 109].

Q.Markesin romanında Makonda camaatının hər birinin öz faciəsi var və onların hər biri bu faciyəyə öz əməlinə görə düçar olub. Görkəmli Peru yazıçısı M.V.Lyosa Q.Markesə həsr olunan "Amadis Amerikada" adlı məqaləsində belə deyir: "Q.Markes qəhrəmanlarının hər birinin soy kökünün gerbində yeganə bir nişan var ki, o da təklikdir. Onlar çarpışır-vuruşur, sevir-sevilir, istədikləri kimi yaşayırlar. Nəticə isə birdir: məğlubiyyət və bədbəxtlik; Q.Markesdəki obrazlar gec-tez gülünc vəziyyətə düşür, təhqir olunur, başladıqları işi heç zaman axıra çardıra bilmirlər [5, 111].

Varqas Lyosa ilə Latın Amerikası romanı barədə məşhur dialoqunda Q.Markes "Yüz ilin tənhalığı"ndakı bir sıra məqamlara, o cümlədən, tənhalıq mövzusuna toxunur: "Mən dünyada elə bir adam tanımıram ki, bu və ya digər mənada özünü tənha hiss eləməsin. İnsan tamamilə tənhadır "[5, 111]. Məsələ ilə bağlı Q.Markesin özünün də fikrini nəzərə çatdırmaq istəyirik. O, deyir ki, "Yüz ilin tənhalığı" barəsində yüzlərlə, hətta minlərlə kitab və məqalə yazılıb. Roman haqqında ağıllı sözlər də deyilib, mənasız fikirlər də. Ancaq heç kəs onun ürəyindəkini aça bilməyib. "Məhz ürəyimdə bəslədiyim bu hisslər o kitabı - "Yüz ilin tənhalığı" romanını yazmağa məni məcbur eləyib. Əgər mən təklikdən yazıramsa, bu sözün əksi həmrəylikdir, deməli, təklikdən yazmağıma baxmayaraq, mən əslində həmrəylik həsrətindəyəm. Kitabımın kökündə həmin fikir dayanır. Təklik və həmrəylik – şüurun iki qütbüdür. Biri dünyanın axırına, o biri isə gələcəyə aparır" [3, 112].

Tənhalıq mövzusu xüsusilə XX əsrin II yarısında müasir qərb ədəbiyyatında daha geniş yayılmışdır. Q.Markes isə "Yüz ilin tənhalığı" romanını digər Avropa və dünya yazıçılarının əsərlərindən fərqli olaraq tənhalığı daha yüksək səviyyədə təsvir edib. Sanki Q.Markes tənhalığın əksini axtarır və ona doğru can atır.

Ədəbiyyat

1. Budaqlı S. Latın Amerika romanı, I cild. Bakı, 2014, 245 s.
2. Cəbrayılov E. "Ədalət" qəz. , 2014, 26 aprel
3. Quliyeva A. Q.Q.Markesin yaradıcılığında fantastik realizmin xüsusiyyətləri. Filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcə almaq üçün təqdim edilən dissertasiya. Bakı, 2010, 149 s.
4. Markes Q.Q. tərc.Mövlud G. "Yüz ilin tənhalığı". Bakı, 2016, 467 s.
5. Məsud A. "Q.Q.Markesin seçilmiş əsərləri". Bakı, 2010, 671 s.

Р.Н.Мирзафарова

Тема одиночества в романе Г.Г.Маркеса «Сто лет одиночества»

Резюме

Статья посвященна теме одиночества в романе Г.Г.Маркеса «Сто лет одиночества», имеющей немаловажную роль в жизни героев романа. Несмотря ни на что, на протяжении всего романа все герои в своем мире оказываются одинокими.

R.N.Mirzafarova

The Theme of Solitude in the Novel of One Hundred Years of Solitude by Gabriel García Márquez

Summary

The article is dedicated to the theme of solitude in One Hundred Years of Solitude by Gabriel García Márquez, which plays a key role in the life of the novel characters. In spite of everything throughout the novel, all the characters in his world are lonely.

Rəyçilər: dos. R.Eyubova
BSU-nun ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrası
(24.10.2016-cı il tarixli iclasının qərarı (pr. №03))

Redaksiyaya daxil olub: 09.12.2016

G.N.MUSTAFAYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Ə.Rəsulzadə pr., 305)

BƏXTİYAR VAHABZADƏNİN LİRİK-FƏLSƏFİ YARADICILIĞINDA YUXU ANLAMI

Açar sözlər: *lirik-fəlsəfi, şair, yuxu, yuxugörmə, sevgi, insan*
Ключевые слова: *лирико-философский, сон, сновидение, любовь,человек*
Key words: *philosophical lyric, poet, sleeping, dreaming, love, man*

Dünya ədəbiyyatında özünə layiqli yer tutan, şeiri, sözü ilə oxucu qəlbini riqqətə gətirən, onu düşünməyə, nəticə çıxarmağa sövq edən Bəxtiyar Vahabzadə müasirimiz olaraq özündən sonra daim, əbədiyaşar bir söz xəzinəsi qoymuşdur. Onun dərin, fəlsəfi məzmunlu şeir nümunələri beynimizin dərin qatlarında ruhumuzla qəlbimizin ahəngini yaradır. Bəxtiyar Vahabzadə formaca adidən-adi görünən, məzmunca isə kəsərli, mətnaltı mənası olan sözlərini nizama salıb, şeirlərində poetik mirvari, incə bir harmoniya yaradır. Şair bütün yaradıcılıq nümunələrində insana müxtəlif istiqamətlərdən yanaşır, onun ruhi aləminin sirli və ecazkar qatlarında insanın görünən və görünməyən hisslərinə, duyğularına daxili "mən" nin vasitəsilə aydınlıq gətirir. Ümumiyyətlə, insan şairin yaradıcılığının əsas tədqiqat obyektidir. O, yorulmadan insan və cəmiyyət, insan və zaman haqqında düşünür. İnsanın daxili aləmininin mahiyyətini düzgün anlamaq üçün onu tam halda insan və hissləri ilə vəhdətdə götürən şair yaradıcılıq nümunələrində insanı bütün prizmalardan təhlil edir, lirik-fəlsəfi poetika ilə oxucusuna ərməğan edir. B.Vahabzadə yüksək bədii təfəkkür, lirik-fəlsəfi idraka sahib olmaqla yanaşı həm də insanın könül dünyasını, mənəvi aləmini yaxşı bilən psixoloq idi. B.Vahabzadənin lirik yaradıcılığında diqqət çəkən məsələlərdən biri də insanın ruhi aləmi ilə bilavasitə əlaqəli olan yuxu prosesidir. Psixologiyadan məlumdur ki, gerçək aləmdə mövcud olan cisim və hadisələrin baş beyində inikası olan duyğu, qavrayış və təsəvvürlərin izlərinin canlanması əsasında müxtəlif yuxugörmə halları baş verir. Bu psixoloji proses çoxumuz kimi, B. Vahabzadədən də yan keçmir. Şair fəlsəfi konsepsiyasında daha da irəli gedərək yuxuya özünəməxsus yanaşmışdır. O gah yuxuya inanır, gah inanmır, gah yuxu arzulayır, gah da yorucu yuxuların ağırlığından şikayət edir. Bu da B. Vahabzadənin şeir yaradıcılığında "yuxu və insan" qarşılaşmasını əks etdirir. B. Vahabzadə insan və yuxu anlamında təzadlı fikirlər irəli sürür, yuxunu Allahın bizə verdiyi nemətlərdən fərqləndirir, onu bala bənzədir:

Allahın bal yuxusu mənə haram gecələr,
Sürünürəm gündüzlər, yaşayıram gecələr. (1, s.153)

Yaxud,

Arxada yetmiş ilim, öndəsə allah bilir
Gecələr uzanır, vaxtın ömrü gödəlir.
Yuxum gəlmir ki, gəlmir, səhər gəlmir ki, gəlmir.(1,s.226)

deyərək yuxusuzluqdan əziyyət çəkdiyini etiraf edir və şikayət dolu fikirlərini nəzmə çəkir. O, yorulub yatmaq, yuxulamaq arzusundadır. Bal kimi yuxunu dadmaq ona bu gecələrdə nəsib olmadığından şikayətlənən şair ömrünün ahıl çağında vaxtın qısalığı ilə gecənin uzunluğu təzadında çırpınır və dərindən dərin yuxulamaq istəyir:

Açıram səhəri dirigözlü mən,
Yuxum perik düşüb fikirlərimdən, (2, s.122)

deyən filosof-şair elə həmin şeirində nə qədər qəribə bir fikirlə, təzadla oxucusunu çaşdırır və yuxusuzluğun da faydalı olduğunu diqqətə çatdırır və çox qəribə, özünəməxsus filosof düşüncəsi ilə təskinlik tapır:

Gileyli deyiləm qaçan yuxumdan
Onun hesabına uzanır günüm. (2, s.122)

Bəzən isə oxucusuna nəsihət də verməyi unutmurr:

Uymasın yuxuya şirincə yuxular,
Uyanın arzusu puç olar, yox olar. (5, s.42)

Məlumdur ki, eşq, sevgi insanı ucaldan, daxili təkamülə, əbədi səadətə qovuşduran, nəticə etibarı ilə ali mərama xidmət edən bir quvvə, kamil idrak yoludur. Bu idrak yolunun yolçusu olan şair təəssüf ki, ayrılıq adlı zülmün əsarətində yaşamalı olur. Şair bu acısını yüngülləşdirmək üçün vüsal həsrəti ilə alışan qəlbini yuxu ilə ovutmaq istəyir. Eşqdən doğan daxili iztirablarından qurtulmaq istərkən, daha da dərin möhnətə düçar olur:

Yatmaq istəyirəm sənsizliyimi
Yuxu dənizində batırım deyə.
Yuxumsa kölgəni öz kölgəm kimi
İzləyir, qısqanıb səni hər şeyə.
Yuxum qaçaq düşüb, yuxum gen gəzir,
Yuxum küçələrdə sərgərdan gəzir. (4, s.197)

Şeirlə tanış olanda insana elə gəlir ki, şair sevgini, sevgisinin əzabını yuxuya dəyişmək istəyir. Əzab-əziyyətini yuxuda boğmaq, sakit, qayğısız, hətta sevgilisi olmayan rahat bir dünyaya getmək istəyir. Hətta onu bu yolda tənha qoyan yuxusunun gen gəzməyindən gileylənir. Sonda isə şeirinin şah bir misrası ilə heç də belə bir arzunu ürəkdən arzulamadığı məlum olur:

Yuxum qaçaq düşüb yatammıram mən,
Yuxum qorxub qaçıb fikirlərimdən. (4, s.197)

Məlumdur ki, insan hər hansı məsələ haqqında özünün məqsədli arzuları ilə əlaqədar yuxudan əvvəl fikirləşir, düşüncələrə qapılır. Bu cür fikirlər müvəqqəti sinir rabitələrinin yaranmasına səbəb olur ki, bu da normal yuxu zamanı müxtəlif məzmunlu, əsasən arzu ilə əlaqədar yuxular görməsinə səbəb olur.

Röyada mən necə inanıram –
O şirin , məhəbbət yuxularına.
Nə qədər ki, yatır, yatdığı zaman
Gördüyü yuxuya inanır insan. (5, s.125)

Aşağıda diqqət yetirəcəyimiz şeirində də, çox güman ki şair sevgilisi ilə bağlı düşüncələrlə yuxuya gedir və yuxuda vüsala çatdığını görür.

İstərəm ki, yuxumdan da
Gəlib səni alan olsun.
Vüsal dolu bu yuxular
Yalan olsun, yalan olsun. (5, s.121)

Yuxusuzluqdan şikayətlənən şair indi də yuxu tapıb yuxusunda vüsala yetib. Amma bu vüsal yalançı ötəri bir sevinc olub. Şair əsəbidir: gerçək həyatda qovuşa bilmədiyi sevgisinə yuxuda qovuşmağı ağır gəlir ona.

Məhəbbət hissini, eşqdən doğan daxili iztirablarını nəzmə çəkən B.Vahabzadə böyük təəssüf hissi ilə ürəyində yanıb kül olan arzularından danışır, yuxudan ayılarkən şirin duyğuların da yoxa çıxdığını ürək yanğısı ilə söyləyir:

Ürəkdə külləndi yanar duyğular
Dandıq özümüzdən istəyimizi.

Yuxular, yuxular, şirin yuxular,
Şirin duyğulardan oyatdı bizi. (5, s.120)

İki aləmi qarşı-qarşıya qoyan şair yuxu ilə gerçəyin, qurduğu xəyallarla yaşadığı reallığın ağ-qara dünyasında ömür sürür. İnsanın təbiətinə, ruhuna bələd olan şair sirr və hikmət dolu bu varlığın yuxusunda necə xoşbəxt oldyuğunu incə zövqlə nizama çəkir. Çox sadə və aydın dillə oxucusu, həm də öz daxili dünyası ilə söhbət edən şairin səmimi tərzdə deyilmiş aşağıdakı misraları onun təəssüfünün əsl poetik ifadəsidir:

Uydum laylasına sevginin neynim,
Yatdım, yuxu gördüm, şirin bir yuxu.
Ötdü bir an kimi, sevgilim,
Həmin bu yuxuda ömrümün çoxu. (3, s.125)

Yuxu zamanı baş beyinin xarici aləmlə əlaqəsi demək olar ki, tamamən kəsilir. Yuxudan ayılarkən yenə də insan öz əvvəlki vəziyyətinə qayıdır, yəni sinir sisteminin xarici aləmlə əlaqəsi, fəallığı yenidən bərpa olunur. Real həyatı ilə yuxu aləmindəki həyatı arasında çox böyük fərq görən şair rahatlıq tapdığı yuxular aləminin gerçək olacağından bəzən qorxsa da, fürsəti əldən vermədən yuxu aləminin əlvan boyaları ilə real həyatını naxışlamaq istəyir:

Yuxular, yuxular, dəli yuxular.
Elə qorxuram ki, həqiqət olar.
Qorxuram? Yalandır! O xoş fürsəti
Xəyalda bəzəyər, naxışlayardım (5, s.126)

Bu şeir şairin ən yüksək ən ali hisslərinin təzadından doğub. Şair yuxuya inanır, yuxuda gördükləri ilə təskinlik tapır. Çünki yuxuda gördükləri min bir düşüncə ilə qurduğu, əlvan bər-bəzək verdiyi xəyallarıdır, yuxusuna girib ona rahatlıq vermir. Şair bundan təşnələr kimi həzz alır, həm də gizli bir hisslə bütün bunların həqiqət olacağından qorxur. Sonra da özünü inkar edir.

Xəyal dolu, yuxu dolu gecələri verin mənə
İstəmirəm mən gündüzü,
Başqa dürlü bir yuxudur ömrün özü. (3, s.25)

Fəlsəfi lirikanının labrintində - "yuxu" qapısınında çıxış yolları arayır, bir neçə yolu sınaqdan keçirir :gah yuxuya inanır, gah inanmır, gah yuxu arzulayır, gah yuxunu rədd edir. Sonuncu yol isə onun ürəyincədir:

Həqiqət budur ki, min həqiqəti,
Bircə yuxuma bağışlayardım. (5, s.127)

Digər bir şeirində isə şair fəlsəfi lirikada yuxuya həsr etdiyi şeirlərinə möhür vurur:

Necə minnətdaram iman yolu-röyalarıma.
Məni xoşbəxt eləyən duyğulu röyalarıma.
Mən oyaqlıqdakı min gerçəyi qurban verərdim.
Bir təəccüb dolu, heyrət dolu röyalarıma.
Sevirəm gündüzü, lakin mənim olsun gecələr,
Gecələr könlümü verrəm ulu röyalarıma. (4, s.226)

Ümumiyyətlə, yuxu anlamı B.Vahabzadə poeziyasının fəlsəfi-lirik ovqatını təyin edən əsas göstəricilərdəndir.

Ədəbiyyat

1.Vahabzadə B.Əsərləri. Bakı, "Öndər" nəşriyyatı, 2004.
2. Vahabzadə B.Ağıl başqa, Ürək başqa. Bakı,"Azərbaycan" nəşriyyatı, 2000.
3. Vahabzadə B. Nağıl-Həyat. Bakı, "Yazıçı", 1991.
4. Vahabzadə B.Əsərləri (1966-1981).Bakı,"Yazıçı",1984.
5. Vahabzadə B.Açılan səhərlərə salam.Bakı, "Yazıçı",1979.

Г.Н.Мустафаева

Понятие сна в лирико-философском творчестве Б.Вахабзаде

Резюме

Окинув взором творчество Вахабзаде, видим, что лирико-философские стихи с точки зрения содержания и целей привлекают внимание. Основной целью творчества Вахабзаде является человек. Философско-эстетические произведения поэта дают нашему духу новое дыхание, заставляют человека задуматься. С этой точки зрения в философской лирике поэта привлекают внимание стихи, написанные в форме обращения к понятиям человека и сна. В этой статье повествуется о снах, представляющих психологический дух человека в его жизни, о направлениях взгляда на сновидение поэта.

G.N.Mustafayeva

The Dream in Lyric-Philosophical of Bakhtiyar Vahabzadeh's Activity

Summary

When glazing at B.Vahabzadeh's poetry activity, we find out his lyric-philosophical poems intresting. The main aim of the great pedagogue, public figure and philosopher B.Vahabzadeh's poems is a Man. The poet's poems cause to think. From this point of viev the poet's poems in the subject of a man and a dream are interesting in philosophical lyric. A man's philosophical world, the role of a dream in the man's life, the poet's viev on the dream is talked about in this article. The confrontation of the Dream and the Man is explained on the examples in the result of the analyses.

Rəyçilər: f.f.d. K.F.Adışirinov, f.f.d., dos. G.A.Abdullayeva
ADPU-nun (Şəki filialı) humanitar elmlər kafedrası
(24.11.2016-cı il tarixli iclasının qərarı (pr. №03))

Redaksiyaya daxil olub: 30.12.2016

V.F.NƏBİYEVA
E-mail: vusala_nv@mail.ru

Bakı Biznes Universiteti
(Bakı şəh., Həsən bəy Zərdabi, 178)

DAHİ İNGİLİS DRAMATURQU UİLYAM ŞEKSPİRİN YARADICILIĞININ ƏSAS QAYƏSİ

Açar sözlər: *Şekspirin həyatı, Şekspirin yaradıcılığı, dünya dramaturgiyası, Şekspirin faciələri*
Ключевые слова: *жизнь Шекспира, творчество Шекспира, мировая драматургия, трагедии Шекспира*
Key words: *Shakespeare's life, creativity of Shakespeare, world drama, Shakespeare's tragedies*

Məşhur ingilis şairi, aktoyru və dramaturqu Uilyam Şekspir 23 aprel 1564-cü ildə İngiltərənin Uorkşir bölgəsinin Stratford-apon-Eyvon («Avon çayı üzərində şəhərcik») şəhərində dünyaya göz açmışdır. Şekspirin həyatının böyük bir qismi də məhz elə Eyvon çayının yaxınlığında yerləşən bu kiçik şəhərdə keçir. Gələcəyin bu böyük dramaturqu 26 aprel 1564-cü ildə Müqəddəs Üçlük kilsəsində xaç suyuna çəkilir. Şekspirin yaradıcılığında dramaturgiya mühüm yer tuturdu və önəmli nüans Şekspirin dünya səviyyəsində tanınmasına, dünya dramaturgiyasında aparıcı yerlərdən birinə sahib olmasına vəsilə olmuşdur. Dörd yüz ilə yaxındır ki, Şekspiri mübahisəsiz olaraq dünya dramaturgiyasının böyük nümayəndəsi kimi qəbul edən tədqiqatçılar onu bəzən "Eyvonun ozanı" və İngiltərənin milli şairi kimi də adlandırırlar.

Uilyam Şekspirin atası Con Şekspir əslən Snitterfielddən idi. Bələdiyyə məclisi üzvü Con Şekspir (1530-1601) dəri əşya taciri kimi də ad çıxartmışdır. Uilyam Şekspirin anası Meri Arden Şekspir (1537-1608) isə varlı fermer ailəsində böyümüşdü. Bu ailədə doğulan səkkiz uşaqdan üçüncüsü olmasına baxmayaraq Uilyamdan əvvəlki iki uşaq həyatdan vaxtsız köçdüyü üçün Uilyam bu ailənin ilk uşağı kimi dünyaya göz açmışdı.

Şekspir ilk təhsilini də elə doğulduğu Stratford-apon-Eyvon şəhərində almağa başlayır. Bu şəhərdə fəaliyyət göstərən qrammatika məktəbində yunan və latın dilləri ilə yanaşı məntiq də öyrədirdilər. Şekspir 1971-ci ildə bu qrammatika məktəbində təhsil almağa başlayırsa da, ailənin maddi durumunun çətinləşməsi səbəbindən təhsilini axıra qədər davam etdirə bilmir. Şekspir bir müddət kənd qəssabının yanında şagir işlədikdən sonra kənd məktəblərində dərs deməyə başlayır.

1582-ci ildə 18 yaşlı Uilyam Şekspir özündən yaşca böyük olan Anna Heteueylə (1555/1556-1623) ailə həyatı qurdu. Qeyd edək ki, Anna Heteuey Şekspir soyadını qəbul edəndə 26 yaşı var idi. Şekspir bu evliliyə ömrününü sonuna qədər sadiq qalmışdır. Uilyam Şekspirlə Annanın bu evlilikdən Suzanna Hall, Hamnet Şekspir, Cudit Quiney adlı uç uşağı dunyaya göz açmışdı. Hamnet və Cudit ekiz olaraq dünyaya gəlmişdi və bu ekizlərdən biri, Şekspirin azyaşlı oğlu Hamnet 11 yaşında vəfat etmiş, 11 avqust 1596-cu ildə dəfn olunmuşdur. Şekspirin qızları Suzanna ilə Cudit isə qardaşlarından fərqli olaraq uzun həyat yaşamış, evlənib ailə həyatı qurmuşlar. Şekspirin böyük qızı Suzanna 1583-1649-cu illərdə yaşamış və 5 iyun 1607-ci ildə Con Hall (1575 –1635) adlı fiziklə evlənmişdir. Bu evlilikdən Elizabet Barnard adlı qız uşağı dünyaya göz açmışdır. Şekspirin kiçik qızı Suzanna 1585-1662-ci illərdə yaşamış və Tomas Quiney adlı biriylə evlənmişdir. Bu cütlüyün isə Şekspir, Riçard və Tomas adlı üç uşağı dünyaya göz açmışdır.

Bir çox tədqiqatçılar Şekspirin 1585-1590-ci illərini itmiş illər olaraq adlandırırlar. Şekspir 1586-cı ildə vətəni Stratford-apon-Eyvon şəhərini tərk edərək Londona gəlir və

teatrda müxtəlif vəzifələrdə çalışmağa başlayır. Şekspir teatra gəldiyi zaman burada bir müddət varlı tamaşaçıların atlarına baxmaqla məşğul olur, müxtəlif zaman kəsiyində suflyor, aktyor, yazıçı, rejissor köməkçisi və teatr şirkətinin təsisçisi qismində çalışmışdır. Şekspirin həyatı haqqında məlumatın kifayət qədər olmaması səbəbindən bir sıra tədqiqatçılar onun real şəxsiyyət olmasına şübhə ilə yanaşırlar. "Həyatı haqqında məlumatın məhdudluğu Şekspirin şəxsiyyəti və müəllifliyi barədə şübhələrə, ona istinad edilən əsərlərin guya əslində F.Bekona, dramaturq K.Marloya və başqalarına məxsusluğuna dair fərziyyələrin yaranmasına səbəb olmuşdur. Lakin Şekspir dövrünün və yaradıcılığının dərindən öyrənilməsi bu fərziyyələrin elmi əsassızlığını aşkara çıxarmışdır." (1, s. 490)

İngilis intihabının nəhəng nümayəndəsi olan Uilyam Şekspirin yaradıcılığı olduqca zəngin və rəngarəngdir. Ümumiyyətlə, dünya şöhrətli bu dahi ədibin 38 dramı, 154 soneti, iki poema və bir neçə şeirləri dövrümüzə qədər gəlib çatmışdır. Ədibin xüsusilə dramları bir çox dillərə tərcümə olunmuşdur. Yazıçılığa komediya və tarixi əsərlər yazaraq başlayan Şekspir 1590-1612-ci illərdə daha məhsuldar bir şəkildə yaradıclıqla məşğul olmuşdur. Şekspir ilk əsərini də məhz elə 1590-cı ildə qələmə almış, bu dövrdən etibarən ədəbi yaradıcılıq aləminə qədəm basmışdır. Ümumiyyətlə, bü nüansı da qeyd etmək yerinə düşərdi ki, Şekspirin yaradıcılığı əsasən özündən əvvəlki irsdən və bəzən də müasirlərinin irsindən bəhrələnirdi. "Şekspirin dramaturji fəaliyyəti İngiltərənin iqtisadi-siyasi inkişafı və humanizm mədəniyyətinin vüsət aldığı dövrə təsadüf edir. Şekspir öz sələflərinin və müasirlərinin (K.Marlo, T.Kid, R.Qrin və b.) təcrübəsindən, klassik irsdən və xalq teatrı ənənlərindən məharətlə faydalanaraq dərin həyati məzmunlu, müxtəlif janrlı səhnə əsərləri yaratmışdır." (1, s. 490)

1593-cü ildən başlayaraq Şekspir o dövrün məşhur aktyoru olan Cems Berbecin teatr truppasında həm aktyor, həm də dramaturq kimi çıxış etməyə başlayır. Bu teatrın truppası 1599-cu ildə "Qlobus" teatrını inşa edirlər, lakin 1613-cü ildə "Qlobus" teatrı yanğına məruz qalır. Şekspir elə 1599-cu ildə qraf Sauthemptonun dəstəyi ilə zadəgan rütbəsi ilə təltif edilir.

Bu dövdən başlayaraq Şekspirin şöhrəti geniş yayılmağa başladı və Şekspir adı zaman keçdikcə məşhur bir isim halına gəlməyə başladı. "Şekspirin şöhrəti artdıqca həm tamaşaçıların, həm də teatr mütəxəssislərinin, alimlərinin nəzərində istedadlı bir dramaturq kimi tanınır. Şekspirin rəqibləri təhsildə, elmdə ondan yüksəkdə dursalar da, dramaturq kimi ondan çox-çox zəif idilər. Marlo, Qrin, Ben Conson və başqa yazıçıların əsərlərində köhnə dövr insanlarının düşüncəsi, əxlaqı əks olunurdusa, Şekspir əsərlərinin mövzusunu müxtəlif dövrlərdən, müxtəlif ölkələrdən götürdüyünə baxmayaraq, müasir ingilis həyatını, doğma xalqını təsvir edirdi. Buna görə də hamı, hətta rəqibləri belə onu istedadlı dramaturq kimi tanıyırdılar. Şekspir 1612-ci ildə Stratforda qayıdır və ömrünün axırına qədər burada yaşayır. O, 1616-cı il aprel ayının 23-də (anadan olduğu gündə), 52 yaşında vəfat etmiş və burada da dəfn olunmuşdur." (2, s.7)

Dahi yazıçının hərtərəfli, geniş bir düşüncəyə malik olması səbəbindən yaradıcılığının ilk dövründə yazdığı komedyalar ilə yanaşı sonralar faciələrə də yer ayırmağa başlayır. Onu da qeyd edək ki, Şekspirin yazdığı 38 dram əsərindən 17-i komediya, 11-i faciə, 10-u isə tarixi-xronoloji janrda qələmə alınmış pyesdir. Tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər siyahısında da özünə layiqli yeri tapan Uilyam Şekspirin haqqında 454 monoqrafiya dərc edilmişdir.

Ümumiyyətlə, Şekspir əsərlərinin əksəriyyətini "Qlobus" teatrı üçün qələmə almışdır. Şekspirin əsərlərinin əsas qayəsində ədalətsizliyə qarşı barışmaz mübarizə ideyası durur və bu ideyaya dahi ədib humanizm nöqteyi-nəzərindən yanaşırdı. "Şekspir əsərlərinin əksəriyyətini 1590-1612-ci illər aralığında yazmışdır. O, həm komediya, həm də faciə janrlarında eyni dərəcədə uğur əldə edə bilən nadir dramaturqlardan sayılır. "Hamlet", "Otello", "Romeo və Cülyetta", "Maqbet", "Kral Lir" kimi əsərləri dünya ədəbiyyatının nadir inciləri sırasındadır. Şekspirin süjet, dil və janr müxtəlifliyi ilə biri-birindən seçilən əsərləri Avropa teatr sənətinin

və ədəbiyyatının inkişafına misilsiz dərəcədə təsir göstərmişdir. Qələmə aldığı dramlarda yaratdığı inanılmaz dərəcədə çoxsaylı və rəngarəng insan obrazları o dövr Avropa ədəbiyyatında geniş yayılmış cansız və yeknəsək obraz və daha dəqiq desək, prototiplərlə zəngin əsərləri kölgədə qoyur. Yaratdığı Makbiz və Şilok kimi obrazlar bəzən xoşagəlməz hərəkətlərə yol versələr də tamaşaçıların rəğbətini qazana bilirlər. Çünki onlar sadəcə qüsurları olan insan obrazlarıdır.

Şekspirin əsərlər dünyanın bir çox dillərinə tərcümə olunmuş, dram əsərləri dünyanın əksər teatrlarında tamaşaya qoyulmuşdur.” (3)

Uilyam Şekspirin qələmə aldığı faciələr “Antonio və Kleopatra”, “Afinalı Timon”, “Koriolanus”, “Hamlet”, “Yuli Sezar”, “Kral Lir”, “Maqbet”, “Otello”, “Romeo və Cülyetta” “Tit Andronik”, “Troil və Kressida”dan ibarətdir. Ədibin komediya janrında yazdığı əsərlər isə “Məhəbbətin əbəs səyi”, “Yay gecəsində bir yuxu”, “Simbelin”, “Fırtına”, “"Şıltaq qızın yumşalması”, “İki məşhur qohum”, “Tədbirə qarşı tədbir”, “Qış nağılı”, “Heç nədən hay-küy”, “On ikinci gecə və yaxud istədiyiniz kimi”, “Perikl”, “Necə istəsəniz”, “Xeyirlə qurtaran hər iş yaxşı olar”, “Venesiya taciri”, “İki veronalı əsilzadə”, “Vindzor cici-bacıları”, “Səhvlər komediyası”ndan ibarətdir. Uilyam Şekspirin “Kral Con”, “II Riçard”, “IV Henri” (I Hissə), “IV Henri” (II Hissə), “V Henri”, “VI Henri” (I Hissə), “VI Henri” (II Hissə), “VI Henri” (III Hissə), “III Riçard”, “VIII Henri” əsərləri isə tarixi mövzudadır. Bununla yanaşı Şekspir “Venera və Adonis”, “Lukresiya” adlı poemaların və bir çox ssonetlərin də müəllifidir.

Adətən Şekspirin yaradıcılığını tədqiqatlar üç hissəyə bölürlər. “Tədqiqatçılar Şekspir yaradıcılığını əsasən üç dövrə bölürlər. Yaradıcılığının birinci dövründə (1591-1601) o, "Venera və Adonis", "Lukresiya" poemalarını, sonetlərini, "VIII Henri" pyesindən başqa bütün tarixi dramlarını, "Tit Andronik", "Romeo vo Cülyetta", "Yuli Sezar" faciələrini, bu dövr üçün xarakterik olan şən və nikbin "Səhvlər komediyası”, "Şıltaq qızın yumşalması”, "İki veronalı əsilzadə", "Məhəbbətin əbəs səyi", "Yay gecəsində bir yuxu", "Venesiya taciri", "Vindzor cici-bacıları", "Heç nədən hay-küy", "Necə istəsəniz", "On ikinci gecə və yaxud istədiyiniz kimi" komediyalarını yazmışdır. Yaradıcılığının ikinci dövründə (1601-1608) Şekspir tragik konfliktlər və qəhrəmanlardan bəhs edən faciələr yazmışdır: "Hamlet", "Otello", "Kral Lir", "Maqbet", "Antoni və Kleopatra", "Karolian", "Afinalı Timon". Bu dövrdə yazılan komediyalar birinci dövrdəkilərdən fərqlənir. Burada artıq əvvəlki komediyalarda olan şən əhval, nikbinlik hiss olunmur. Əksinə, onlarda bir qədər tragik ünsürlər gözə çarpır: "Troil və Kressida", "Tədbirə qarşı tədbir", "Xeyirlə qurtaran hər iş yaxşı olar" və "Perikl". Üçüncü dövrdə "Simbelin", "Qış nağılı" və "Fırtına" tragikomediyaları (1608-1612) yazılmışdır. Bu əsərlərdə fantaziya və alleqorizm özünü büruzə verir. Şekspirin sonetləri İngiltərədə İntibah dövrü poeziyasının ən yüksək zirvəsini və dünya poeziyası tarixində dönüş mərhələsini təşkil edir.” (2, s.10)

Uilyam Şekspir 1600-1601-ci illərdə qələmə aldığı "Danimarka şahzadəsi Hamletin faciəvi əhvalatı" (The Tragical Historie of Hamlet, Prince of Denmarke), və ya qısaca olaraq "Hamlet" əsəri onun ən məşhur faciələrindən biridir. "Hamlet" faciəsi eyni zamanda ədibin ən geniş həcmli əsəridir. Şekspirə qədər yazılan dramlarda əsasən Aristotelin “Poetika” əsərində irəli sürülən təkləblərə əməl olunurdusa, “Hamlet” əsərində Şekspir bu ənənəni tərsinə çevirir. “Hamlet” əsərində oxucu və yaxud da tamaşaçı Hamletin düşüncələrini əsasən monoloqlar vasitəsilə öyrənir.

Hamlet" faciəsində əsərin baş qəhrəmanının qisas almaq üçün əmisini öldürmək üçün tərəddüt etməsi bir çox tədqiqatçılarda çaşqınlıq yaratmışdır, psixoanalitik tənqidçilər bu tərəddüdü Hamletin şüuraltı istəkləri nöqteyi-nəzərindən təhlil edirlər. Dahi alman alimi Ziqmund Freyd bu hadisəni Edip kompleksi ilə əlaqələndiridi. “Freydə görə dünya ədəbiyyatın üç ən güclü əsərində - Sofoklun “Tiran Edip”, Şekspirin “Hamlet” və Dostoyevski-

nin "Karamazov qardaşları" əsərlərində eyni mövzunun - ata qatili olmanın əsas olması heç də təsadüf deyil. Bütün bunların kökündə edip kompleksi dayanır. Kral Edip Sofokla görə bir əsər qəhrəmanı idisə, Freydə görə insan olmağın faciəvi hallarından biri idi." (4)

Şekspirin dünya şöhrətli əsərlərinin içərisində "Otello" (The Tragedy of Othello, the Moor of Venice) faciəsinin də xüsusi bir mövqeyi vardır. Şekspirin təxminən 1603-ci ildə yazdığı güman edilən bu əsərin mövzusu Cerald Çintionun "Venesiya mavrı" adlı qısa bir hekayəsindən götürülmüşdür. Əsərin mövzusu irqçilik, məhəbbət, qısqanclıq və xəyanətdir. Əsərin baş qəhrəmanı Otello Kiprdəki Venesiya ordusunun Məğrib mənşəli bir komandirdir, Otello osmanlılarla müharibə etdiyi dövrdə böyük uğur qazanmış və hörmət sahibi olmuşdur. Xalq tərəfindən çox sevilən Otello şəhərin böyüklərinin birinin qızı olan Dezdemonaya aşıq olur. Otellonun sevgisi cavabsız qalmır və Dezdemona da Othello sevir. Lakin Otello ilə Dezdemonanın evləndikdən sonra xoşbəxtlikləri uzun sürmür, xalqın dedi-qoduları və Yaqonun xəyanəti bu sevgini faciəyə döndərir.

Uliyam Şekspir Renessas dövrünə xas olan müsbət qəhrəmanın bütün gözəl xüsusiyyətlərinin təsvirini vermişdir. "Otello" faciəsində nəcib və ağıllı general Otello obrazı ilə yanaşı Dezdemona obrazı da cəlbedici bir xüsusiyyətə malikdir. "Venesiya senatorunun qızı Dezdemona Otellonu məhz bu xüsusiyyətlərinə görə sevir, onun ləyaqətini qiymətləndirə bilir. Dezdemona ilə Otellonun izdivacı gözəl hisslər, təmiz məhəbbət üzərində qurulmuşdur. Dezdemona Otelloya ərə getməklə təkcə öz ailəsinə qarşı çıxmır, o bütün cəmiyyət qanunlarına qarşı üsyan edir.

Dezdemona Şekspirin qadın obrazları içərisində ən parlaq surətdir. O, cəsarətli olduğu kimi incə, zərif, sadiq, itaətkar qadındır. Otello təbiətcə qısqanc deyil. Onda yaranan bu hissin səbəbi Dezdemonaya - insana olan inamın qırılmasıdır, aldandığını zənn etməsidir. Otello Dezdemonanı dərin məhəbbətlə, kövrək bir hisslə sevir, hətta onu öldürmək istədiyi anda belə düşünür ki, ədalət naminə bunu etməlidir. Otello Yaqonun hiyləsinin qurbanı olur. Yaqo yüksək rütbəyə çatmaq istəyir, Otelloya həsəd aparır, onun əli ilə Dezdemonanı öldürtdürür. O, hər nəyin bahasına olursa-olsun, başqalarından üstün olmağa çalışır. Yaqo ağıllı, çevik, qabiliyyətlidir, lakin onun bütün bu xüsusiyyətləri çirkin əməllərini həyata keçirmək işinə yönəldilmişdir." (2, s.14-15)

Uilyam Şekspirin məşhur faciələri içərisində "Romeo və Cülyetta" (The Most Excellent and Lamentable Tragedy of Romeo and Juliet) əsərinin də xüsusi mövqeyi vardır. Şekspir bu əsəri 1591-ci və ya 1592-ci ildə qələmə almışdır. Bu əsərdə Renenssans dövrünün köhnəlmiş adət-ənənələrindən, bir-birinə düşmən olan iki ailədən bəhs edir. İtalyan şəhər dövləti olan Veronada Montekki və Kapuletti ailələri arasında uzun müddətdir ki, davam edən düşmənçilik vardır. Bu ailələr arasında düşməçiliyin olmasına baxmayaraq, Romeo və Cülyetta bir-birini ülvi və saf bir məhəbbətlə sevirlər. Romeo və Cülyetta öz saf sevgiləri uğrunda mübarizə aparsalar da, cəmiyyətin köhnəlmiş və sərt qayda-qanunları qarşısında məğlub olurlar. Montekki ailəsini təmsil edən Romeo ilə Kapuletti ailəsini təmsil edən Cülyetta əsərin sonunda intihar edirlər.

"Romeo və Cülyetta" əsərini Şekspir yaradıcılığının birinci dövründə qələmə almışdır. Bu əsəri tədqiqatçılar nikbin faciə adlandırırlar. Əsərdə həm Romeonun mübarizliyi və həm də Cülyettanın sadiqliyi yazıçı tərəfindən yüksək bir xarakter kimi dəyərləndirilir:

Yox, mən daha artıq verə bilərəm:
Heykəl ucaldaram qızıldan ona.
Verona durduqca - burada ondan
Qiymətli bir heykəl olmaz heç zaman.
Qovuşar əbədi, ölməz həyata
Dünyanın ən sadiq qızı Cülyetta. (2, s.142)

Şekspirin ən məşhur əsərlərindən biri də “Kral Lir” (quarto versiyasında “True Chronicle History of the Life and Death of King Lear anf His Three Daughters”, infolio versiyasında “The Tragedy of King Lear”) faciəsidir. Dahi deamaturq bu faciəni 1605-ci ildə qələmə almışdır. Şekspirin bir çox əsərlərində olduğu kimi “Kral Lir” faciəsinin də mövzusu Şekspirdən əvvəl mövcud olan rəvayətlərdən götürlümşüdür. Həmçinin onu da vurğulayaq ki, “Kral Lir” haqqında ballada da vardır. Tədqiqatçılar Şekspirin qələmə aldığı əsərin, yoxsa balladanın daha əvvəl yazılması barədə mübahisə aparırlar. “Kral Lir” tamaşasının ilk nümayişi 1607-ci ildə Uaythollu teatrında baş tutmuşdur. İlk dəfə 1608-ci ildə "Kral Lirın gerçək tarixi" başlığı ilə çap olunmuş əsərin çapının infolio və quarto adlı iki fərqli versiyası mövcuddur. Hər iki versiya da özünəməxsusluğu ilə seçilir və tədqiqatçılar tərəfindən qəbul edilir.

Şekspir "Kral Lir" əsərini qələmə alarkən Hellinşedin xronikalarından bəhrələnmişdir. Əsərin baş qəhrəmanı Lir Britaniya kralıdır, onun Qoneriliya, Reqana və Kordeliya adlı üç qızı vardır. Kral Lirin faciəsi də elə Britaniya krallığını öz qızları arasında böldükdən sonra başlayır. “Kral Lirin özünü bir şəxsiyyət kimi təsdiq etməsi cəhdi iki cəhətdən diqqəti cəlb edir: birincisi, artıq İntibah dövründə Şekspir böyük start səlahiyyətlərinə və imkanlarına malik fərdin özünütəsdiq naminə başqasının hüquqlarını tapdalamağa əl ata bilməsi təhlükəsini görürdü: ilk səhnələrdə onun sevimli qızı Kordeliyaya münasibəti dramaturqun haqlı olmasından xəbər verir. Bu eyni zamanda Intibah dövründə təşəkkül tapan digər bir sosial konsepsiyanın, sözün əsl mənasında cəmiyyətin bütün üzvlərinin azadlıqlarının tarazlığını qorumağa yönəlmiş "mənim azadlığım sənin azadlığın başlayan yerdə qurtarır" prinsipinin köklü şəkildə pozulması demək idi. İkincisi, artıq ilk səhnələrdə təkcə Kral Lirin yox, həmçinin Kordeliya və Kentin də özlərini müstəqil düşüncə tərzinə malik şəxsiyyətlər qismində təsdiq etmək cəhdləri köhnə ictimai münasibətlər sistemini təməlindən dağıdan mərkəzdənqaçma tendensiyalarının geniş vüsət almasından xəbər verir: Kral Lir Kordeliyanı və Kenti öz çevrəsindən uzaqlaşdırmaqla qeyri-ixtiyari onların patriarxal dünyasını tərk etmələri, onların indən belə azad şəxsiyyət qismində fəaliyyətdə bulunmaları üçün meydan açır.

Şekspir yaradıcılığının zirvəsi hesab olunan "Kral Lir" əsərinin protaqonisti iki nöqteyi-nəzərdən sənətkarın faciəvi qəhrəman axtarışlarının yekunu kimi diqqəti cəlb edir: birincisi, Kral Lir insanın fərddən şəxsiyyətə doğru yüksəlişinin bütün mərhələlərini keçir. İkincisi, o, Hamletin, Maqbetin və müəyyən mənada Otellonun (Lirin Kordeliyaya münasibətinin kəskin şəkildə dəyişməsinin əsasında onun qızının gələcək ərinə qısqanclığı durmurmu?) faciəvi şəxsiyyətlər kimi ən mühüm cəhətlərini özündə birləşdirərək dramaturqun yaradıcılığında ən mürəkkəb və ən sintetik obraza çevrilir.” (5)

Uilyam Şekspirin qələmə aldığı ən məşhur faciələrdən biri olan “Maqbet” həcm etibarilə ən qısa faciələrindən biridir. Bu əsər 1603-1606-cı illərdə qələmə alınmış, ilk dəfə 1623-cü ildə nəşr olunmuşdur. İlk dəfə 1606-cı ildə səhnəyə qoyulan bu əsər bütün dünyada tez-tez səhnəyə qoyulan əsərlərdən biridir. Əsərdə 1040-1057-ci illərdə Şotlaniyada baş verən hadisələrdən bəhs olunur.

Əsərin əvvəlində üç cadugər döyüşdən qayıdan qoşun sərkərdələri Maqbetlə Bankoya gələcəyindən müəyyən proqnozlar verir. Hər bir cadugər Maqbeti salamlayır, bunlardan birincisi Qlamisin rəhbəri olacağını, ikincisi Kavdorun rəhbəri olacağını, üçüncüsü də gələcəkdə kral olacağını söyləyirlər. Cadugərlər eyni zamanda Bankonun özünün kral olmayacağını, amma övladlarının kral olacağını söyləyirlər.

Zaman keçdikcə cadugərlərin Maqbetə bildirdikləri iki proqnoz gerçəkləşir. Bu zaman Maqbetdə üçüncü və sonuncu proqnozun da yerinə yetəcəyi barədə inam hissi baş qaldırır və Maqbetdə kral olmaq ehtirası alovlanmağa başlayır. "Maqbet" faciəsi R.Hollinşedin "İngiltərə, Şotlandiya və İrlandiya xronikaları" əsəri əsasında yazılmışdır. Maqbeti qatil və zalım edən cəmiyyətdə insanlar arasında mövcud olan ziddiyyətlərdir. Maqbet özünün

gücünə, qabiliyyətinə və bacanağına inanır. Lakin o, eyni zamanda əmindir ki, bütün bu üstünlüklərinə baxmayaraq, özünə layiq mənsəbə-titula çatmamışdır, odur ki, məqsədinə yetmək üçün cinayətə əl atır, qan axıdır. Əsərin əvvəlində Maqbet tamaşaçılara Şotlandiyanın düşmənlərinə qalib gəlmiş, cəsur və xoştəbiətli sərkərdə kimi təqdim edilir. O, qəhrəmanlığına görə şöhrət qazanmışdır. Maqbetin hərəkətlərində daima xeyirlə şər bir-birini əvəz edir. Cadugər bacıların söylədikləri onun qara fikirlərinə təkan verir. Elə bil ki, cadugərlər Maqbetin özünün arzularıdır - dil açıb danışırlar. Maqbetin cinayətləri öz iradəsinin bəhrəsidir, fövqəladə bir qüvvənin təsiri deyil. Maqbet heç bir çətinlikdən qorxmur, onu lərzəyə gətirən yeganə şey öz vicdanıdır. Dunkanı öldürdükdən sonra daima əzab çəkir. Ledi Maqbet öz ərini dahi hesab edir. O istəyir ki, əri Şotlandiyanın kralı olsun. Maqbet mənəvi sarsıntılar keçirərkən arvadı daima ona arxa olur. Ledi Maqbetin fikrincə, insan əllərinin qanını yuyan kimi cinayət yaddan çıxacaq. Lakin bu mümkün olmur. Maqbetin ölümündən sonra o da özünü öldürür" (2, s.16)

Şekspirin faciələri ilə yanaşı onun sonetləri də yazıçıya şöhrət gətirmişdir. Tədqiqatçılar Şekspirin 66-cı sonetini "Hamlet" faciəsindəki "Olum, ya ölüm?" monoloquna bənzədirlər. Şekspirin sonetləri ilk dəfə külliyat halında 1623-cü ildə nəşr olunmuşdur. Şekspirin ölümündən sonra nəşr olunan bu sonetlər ilk dövrlərdə o qədər də əks-səda doğurmamışdı. Şekspirin sonetləri ikinci dəfə 1640-cı ildə yenidən çap olundu, Con Benson adlı ingilis şairi ədibin sonetlərinin ikinci dəfə çap olunmasında önəmli bir rol oynayır. "Hər bir soneti oxuyan və bu günümüzün problemləri ilə müqayisələr aparan hər kəs, əminəm ki, hamı eyni nəticəyə gələcəkdir - heç kim inanmaq istəməyəcəkdir ki, bu sətirlər təxminən dörd yüz il əvvəl (!) qələmə alınmışdır. Şekspir poeziyasının həmişəyaşar xarakteri də məhz buradan qaynaqlanır. Sonetlərdə müəllif gah özüylə polemika aparır, gah əsmər sevgilisinə üz tutur, gah da səmimi dostunu həmsöhbəti edir. Dünyanın faniliyi, xeyirxah əməllərin təsdiqi, saf və saxta məhəbbət, riyakarlıq, xəyanət... sonetlərin mövzu rəngarəngliyini təmin etdiyi üçün oxucu heç bir yeknəsəqliklə üzləşmir. Hər növbəti sonet, on dördcə misralıq poetik nümunə oxucunun qəlbində öz işığını qoyur (təkcə 126-cı sonet on iki misradan ibarətdir və bu qəribəliyi anlamayan şekspirşünaslar daha çox həmin sonetin iki misrasının itdiyini güman edirlər). Şekspir cəmiyyətdəki neqativ halları, onun yaratdığı pəstahları görürdü. İnsanlar pisliklərə, eybəcərliklərə zorla tab gətirirdilər. Bu problem sonetlərin bir qismindən ana xətt kimi keçir, lakin sonetlərin ən dəyərlisi hesab olunan 66-cı sonet bu problemi bütün ağırlığı və qoyur. Ölüm arzulayan lirik qəhrəman onu bu arzuya tərəf sürükləyən bütün pislikləri sadalayır (qaranlıq işığı pəncəsində boğur, rəzalət bəxtiyarlığa yetişir, şərəfsizlik şərəfi dustaq etmişdir, saflıq dərd içində çapalayır, kütlük ağıla, yalan isə düzlüyə gülür, ilhamın ağzı yumruqla tıxanmışdır, mənlik və ləyaqət əl açıb dilənir və s.). Məgər insan bu qədər pisliyə, ifrat eybəcərliyə tab gətirə bilərmi?! Lakin Şekspirin qəhrəmanı ölə bilmir. Həmin sonetin son iki misrasına nəzər salın:

Ölüm istəyirəm, çarə budur, bax,
Səni tək qoymağa qıymıram ancaq." (6, s.5)

Ümumiyyətlə, Şekspirin qələmə aldığı bütün əsərlər dünya ədəbiyyatının ayrılmaz bir tərkib hissəsinə çevrilmişdir. "Şekspir öz əsərlərində formalaşmaqda olan Yeni dövrün dərin və çoxşaxəli təqdimatını verdi. Onun poeziyası və dramları zəmanəsinin nəinki tam bədii əks idi, həm də zəmanənin qabaqlayıcı inikası idi. Onun dramaturgiyası dövrün ziddiyyətlərini ən parlaq bir şəkildə ifadə edirdi.

Şekspir yaradıcılığında analitik estetik təfəkkür isə özünü ən azı o formada göstərirdi ki, böyük dramaturq zamanəsinin tipik obrazlarını yarada bilmişdir. O pyeslərinin qəhrəmanı olaraq seçdiyi insanları yüksək sənətkarlıqla elə məqamlarda təsvir edirdi ki, bu məqamlarda qəhrəmanın mənsub olduğu tipin daxili məzmunu, mahiyyəti, təbiəti tam şəkildə aşkara çıxırdı, qəhrəmanın mənsub olduğu tipin dixili mahiyyətinin aşkara çıxdığı həmin məqamlar

bir-birini əvəzlədikcə tamaşaçı və ya oxucu həmin mahiyyətin çoxtərəfli təzahürlərini müşahidə edir. Şekspir bununla da qəhrəmanının mənsub olduğu tipin bədii ümumiləşdirilməsinə nail olur." (7, s.98) Yüz illərdir ki, Şekspirin faciələri, komediyaları və tarixi mövzuda qələmə aldığı əsərləri dünyanın müxtəlif teatr səhnələrində böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Dünyanın bir çox dillərinə tərcümə edilmiş Şekspirin əsərləri bu gün də öz aktuallığını itirməyib. Biz Şekspirin əsərlərini dərindən mənimsəməli, onun müsbət və mənfi cəhətlərini sərfnəzər etməli, xüsusilə də müsbət tərəflərindən bəhrələnməliyik.

Ədəbiyyat

1. Azərbaycan Sovet Ensiklopediyası, Bakı, ASE, X cild, 1987.
2. Şekspir U. Seçilmiş əsərləri. İki cilddə. I cild. "Öndər nəşriyyatı", Bakı, 2004.
3. http://beyaz.az/oxu/3367/Uilyam-Sekspir.html
4. https://az.wikipedia.org/wiki/Edip_kompleksi
5. Quliyev Q. Gülən faciə və ağlayan komediya: Şekspir və Məmmədquluzadə. http://www.azyb.net/cgi-bin/jurn/main.cgi?id=339
6. Vilyam Şekspir. Seçilmiş əsərləri. İki cilddə. II cild "Öndər nəşriyyatı", Bakı, 2004
7. Əsədova N. Yeni dövr şəhər mədəniyyəti və analitik estetik təfəkkürün teatr mücəssiməsi // "Şəhər və teatr"mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 2016

В.Ф.Набиева

Главная цель творчества великого английского драматурга Уильяма Шекспира

Резюме

Биография Уильяма Шекспира, гигантского представителя периода британского ренессанса, очень богата и разнообразна. На протяжении многих веков его трагедии, комедии и исторические пьесы, с большим успехом были поставлены на театральных сценах всего мира. Произведения Шекспира были переведены на многие языки мира и не потеряли свою актуальность по сей день. Мы должны глубоко освоить произведения Шекспира, обратить внимание на их положительные и отрицательные аспекты и извлечь пользу. Все произведения Шекспира являются неотъемлемой частью мировой литературы.

V.F.Nabiyeva

Main Purpose of Creative Work by William Shakespeare, the Great English Dramatist

Summary

The creative work by William Shakespeare, the great representative of English Renaissance, is very rich and variegated. For centuries the tragedies, comedies and works written on historical theme by Shakespeare have been put on the stage in various theatres of the world with great success. Shakespeare's works have been translated into different languages of the world and have not lost their topicality even today. We should learn Shakespeare's works thoroughly, analyze their positive and negative sides and derive benefit from its positive sides especially. Generally, the entire creative work written by Shakespeare has become the integral part of the world literature.

Rəyçi: filol.f.d., dos. F.Allahverdiyeva

Redaksiyaya daxil olub: 25.01.2017

R.S.SƏFƏRƏLİYEVA

AMEA-nın Folklor İnstitutu
(Bakı şəh., İçərişəhər, Kiçik qala, küç., 31)

MƏHƏBBƏT DASTANLARINDA TEOLOJİ DİSKURS

Açar sözlər: *teoloji diskurs, məhəbbət dastanı, mif, monoteizm, politeizm, sakrallıq*
Ключевые слова: *теологический дискурс, сказание о любви, миф, монотеизм, политеизм, сакральность*
Key words: *theological discourse, the legend of love, myth, monotheism, polytheism, sacral*

Məhəbbət dastanları Azərbaycan etnik mədəniyyətinin, saz-aşıq sənətinin sirli hadisəsidir. Məhəbbət dastanlarının bədii sistemini təşkil edən elementlərin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Azərbaycan məhəbbət (eşq) dastanlarının süjet məkanı sakral personajların "fəaliyyət meydanıdır".

Şübhəsiz, Azərbaycan məhəbbət dastanlarının ideya-obraz məkanını iki əsas qəhrəmanın-aşiqlə məşuqun "tale mətni" təşkil edir ki, dastanların adlarında da əksini tapır: Məhəbbət dastanları iki qoşa qəhrəmanlı dastanlardır və bu da onları funksional baxımdan qəhrəmanlıq dastanlarından fərqləndirir. Belə ki, qəhərmanlıq dastanlarının adları aparıcı obrazın, yəni baş qəhrəmanın adı ilə ifadə olunur. Məsələn, "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm" və s. Məhəbbət dastanlarının adında isə çox vaxt hər iki qəhrəmanın adı verilir: "Abbas-Gülgəz", "Əsli-Kərəm", "Tahir-Zöhrə", "Valeh-Zərnigar", "Soltan-Qəndab" və s. (1, s.140).

Amma dastanlarda elə personajlar var ki, qəhrəmanın taleyi bilavasitə ondan asılıdır. Bu simvolik personajların təsvir və təhlil edilməsi əslində bütövlükdə mifoloji sistemin bərpasıdır. Mistik personajlar mifoloji düşüncənin səviyyəsini göstərir.

Mistik personaj (dərviş, saqi, Xızır, İlyas, Şahimərdan, nurani qoca) mifoloji düşüncənin təsəvvüf diskusunda təcəssüm formasıdır.

Bu personajların funksiyası dünyalar arasında əlaqə yaratmaq, qəhrəmanı sakral sferaya bağlamaqdır. Bu mistik personajlar - mediatorlar qəhrəmanın başqa dünyalarla əlaqəsini müəyyənləşdirir, xüsusilə buta verilmiş qəhrəmanın profan dünya ilə münasibətləri tənzimləyir. Haqq aşığının zəhərli su quyusuna, zindana atılması, dəryada tufana düşməsi və s. sufi-irfani aspektdə təhlil olunmalıdır.

Görkəmli fransız ədəbiyyatşünası - poststruktrulisti Rolan Bartın fəlsəfi fikirlərini dastan mətninə tətbiq etmək olar: "Personaj və diskurs bir-birilə şərikdirlər... Diskurs personajları ona görə yaranır ki, onlar bizim üçün öz aralarında oynasınlar, ondan ötəri ki, fasiləsiz kod mübadiləsini təmin edən əldə edə bilsin. Personajlar xüsusi diskurs tipləridir..." (2, s.265).

Təsəvvüf diskursu dastan qəhrəmanının mahiyyətini ifadə edir. "Diskurs" poststrukturalizmdən müasir humanitar araşdırmalara daxil olmuş çoxmənalı termindir. Diskurs terminin ən sadə yozumunu, fikrimizcə, Azərbaycan filosofu N. Mehdi vermişdir: "Diskurs dürlü tutumda olan, yəni bir cümlə, ya bir abzas olan deyimlərdir ki, mənalar düzümünü verir" (3, s.326).

Təsəvvüf (sufizm) Şərq mistisizminin əsas təzahür və ifadə forması olduğu kimi, Azərbaycan məhəbbət (eşq) dastanlarının ideya-məzmun strukturunu formalaşdıran mühüm fəlsəfi düşüncə sistemidir. Şərq fəlsəfəsində "ət-təsəvvüf" və "əs-sufi" terminlərinin mahiyyəti ilə bağlı fərqli fikirlər mövcuddur. A. Knışın qeyd etdiyi kimi, "ət-təsəvvüf" termini və onunla eyniköklü olan mütəsəvvüf (sufi, "sufilik edən") və sufi sözləri barəsində bir sıra fərziyyələr mövcuddur. Sufi müəllifləri ona etimoloji baxımdan daha çox təmiz, pak mənasında olan "SFV" kökünə aid edirlər. Qərbi Avropa alimləri XX əsrin əvvəllərinə qədər "ət-tə-

səvvüf" sözünün yunanca müdriklik mənasında olan sözdən törəməsi fikrinə meyilli olmuşlar. İndi isə hələ vaxtilə orta əsrlər müəllifləri tərəfindən söylənmiş fikir hamı tərəfinfən qəbul olunur. Həmin fikrə görə, "ət-təsəvvüf"- "sufi" (yun) sözündən düzəldilmişdir: kobud yun geyim, çox qədimlərdən zahid-abidlərin, "Allah adamlarının", mistiklərin adi atributu olmuşdur. (4, s.225)

Məhəbbət dastanlarında sufi qatı, təsəvvüf substratı mətnin təhkiyə xətti ilə üzvi surətdə elə qaynyıb qarışmışdır ki, bəzən obrazların və təhkiyənin "mistik havasını" fərqləndirmək çətin olur. Ona görə də dastan mətnlərində sufi arxetiplərinin, təsəvvüf mənalı obrazların bərpası maraq doğurur.

Hətta bəzi tədqiqatçılar məhəbbət dastanlarını sufi ideologiyasının tərkib hissəsi kimi təqdim edirlər, yaxud D.S.Lixaçovun təbiri ilə desək, sufizmin "etiket janrı" kimi qəbul edirlər. "Bütün parametrlərdə sufi ədəbiyyatı, ideologiyası və fəlsəfəsi ilə sıx bağlı olan eşq dastanları, təkkəyə bağlı aşıqlar tərəfindən düzülüb qoşulduğundan sufi ədəbiyatının bir hissəsidir" (5, s.123).

M. H. Təhmasib "Qurbani" dastanının hər üç versiyasına (Gəncə versiyası, Diri versiyası, Zəncan versiyası) əsaslanaraq, Qurbanini təriqətçi hesab edirdi və qeyd edirdi ki, "o da öz məşuqəsinə hüsn-mütləq kimi yanaşmış, ona olan məhəbbətinə rəmzi məna vermiş, "əhli-həqq"in öz "Nigar"ına olan məhəbbətinə izhara çalışmış şairlərdəndir.

...Bu gözəlin saçları "sərasər ayeyi- quran"dır, katiblərin şərhidir. O, "mərifət anlayan, mənasını bilən", "rəmz anlayan", "söz düşünən", "dərd bilən"dir. Ən maraqlısı da budur ki, bu Pərinin iki adı vardır:

Gizlini Nigardı, aşkarı Pəri,
Qurbani qoyubdu yolunda səri

yaxud

Məkan sevdiyimin bir ismi Nigar,
Canım yolunda, gözüm intizar və i.a

Bu, elə bir Nigardır ki, Qurbaninin canı onun yolundadır, gözləri də ona çatmaq üçün daim intizarda"dır.

Aydındır ki, bu şəkildə təsvir olunan axırda da gizli adının Nigar olduğu meydana çıxan bu Pəri yuxarıda qeyd edildiyi kimi sadə, real qız deyildir. (9, 365)

Təsəvvüf orta əsrlərin yalnız mistik-fəlsəfi düşüncə sistemi deyil, həm də müəyyən sosial abributları özündə ehtiva edir ki, bu da bir çox hallarda sufi təriqətlərinin, təkkə ədəbiyyatının yaranması, formalaşması ilə öz təsdiqini tapıbdı. Təriqətlər praktik metod olaraq düşüncələr, hisslər və əməllər vasitəsi ilə- həqiqəti axtaranı yönləndirirdi, onu ardıcıllıqla "məqamatlardan" keçirib, "əhval" adlanan psixloji təcrübə ilə uzlaşdırırdı ki, ilahi Həqiqəti hiss etsin (6, s.12).

Orta əsrlərdə Anadoluda, Azərbaycanda təsəvvüf yeni mənəvi-etik dəyərlərin və təriqətlər çərçivəsində ictimai-sosial mexanizmlərin təşəkkülünü şərtləndirdi, təkkə ədəbiyyatının yaranmasını və formalaşmasını surətləndirdi. "Təkkə ədəbiyyatı təriqət ideyalarını yaymaqla yanaşı, ümumi şəkildə vəhdətə gedən yolu, mərtəbələri, məqamları, halları bəyan edir. Bu mənada eşq dastanı müridin haqqa qovuşmağı üçün keçdiyi mənəvi yolun dastan variantıdır. Haqq aşiqi eşqlə haqqa qovuşmağa can atan müriddir. Təkkə ədəbiyyatında dərviş-mürşid münasibəti eşq dastanlarında aşiq-məşuq səviyyəsindədir" (5, s.132).

Deyildiyi kimi, təsəvvüf özü ayrılıqda bir böyük sistemdirsə, dastan onun müvafiq obrazlarını, simvollarını və motivlərini özündə birləşdirən "sistem içində sistemdir". "Bütövlükdə aşıq ədəbiyyatında və onun dastan janrında sufi konteksti dominant mövqedədir. Sufi dünyagörüşü bir sıra dastanların ideya-bədii əsasını təşkil edir, dastan şeirləri sufi simvolikası ilə qurulmuş xüsusi metaforik sistemlə işləyən işarələrdən yaradılır. Bu sistem dastan şeir-

lərində (başqa şeirlərdə də) semantik paradiqmaya daxil olur və sintaqmatik konstruksiyada xüsusi səviyyə (yarus) qazanır". (7, s.358).

Məhəbbət (eşq) dastanlarında gələcək qəhrəmanın uşaqlıq illərinə diqqət yetirilir. Qəhrəmanın möcüzəli doğuluşu süjetin mühüm halqasını təşkil edir. Adətən yaşlı valideynlərin övladsızlıq motivilə dastanların ("Tahir-Zöhrə", "Şah İsmayıl-Gülzar", "Əsli-Kərəm") kompozisiyası açılmağa başlayır. "Abbas-Gülgəz", "Qurbani", "Novruz-Qəndab", "Lətif Şah", "Şahzadə Əbülfəz", "Aşıq Qərib", "Mahmud və Ağcaquş", "Əmrah", "Məmmədxan və Səlbi xanım", "Yaxşı və Aşıq" və s. kimi dastanlarda buta aktı ilə kompozisiyanın əsas məqamı olur. Bütün süjet halqaları (doğuluş-göbəkkəsmə-buta-addəyişmə) Haqqa qovuşma mərhələləri kimi səciyyələnir: "Dastanın ("Əsli və Kərəm") bütün süjet strukturu baş qəhrəmanın fəaliyyəti üzərində qurulur. Buta bu halda həmin fəaliyyətin proqramlaşdırılmış sxemidir. Bu, təsəvvüfi dünya modelində qəhrəmanın İlahi tərəfindən proqramlaşdırılmış taleyidir: Allahdan qopan (nüzul etmə) insan qapalı traektoriya üzrə ona doğru hərəkət edərək (üruc-qalxma) sonda Allaha qovuşur (vüsal)" (10, s.67- 68), yəni "vəhdəti- vücud" konsepsiyası epik səviyyədə gerçəkləşmiş olur. Əgər süjetin əvvəlində qəhrəmanın ikiləşməsi baş verirsə, müəyyən mərhələlərdən sonra onların birləşməsi - vəhdətinin şahidi oluruq. Onların yolunu müəyyənləşdirən, onları əzab-əziyyətlərə, məşəqqətlərə düçar edən qüvvə ilahi eşqdir. "Vəhdəti vücud"un yolu ilahi eşqdən keçir.

Dastan qəhrəmanı bunun üçün ilk növbədə sınaqlardan, imtahanlardan keçməlidir. Əlbəttə, aşiqliyin sınaqları qəhrəmanlıq, igidlik, ərənlik sınaqlarından tamam fərqlidir. Əgər bahadırlıq dastanı fiziki gücün təntənəsidirsə, məhəbbət dastanı üçün mənəvi-ruhani qələbə önəmlidir. Məhəbbət dastanının süjeti müxtəlif sınaq həlqələrindən ibarət olur ki, bununla da qəhrəmanın Haqq aşiqliyi statusu təsdiqlənməlidir.

Qəhrəmanın haqq aşiqliyinin / haqq aşıqlığının mahiyyəti müəyyən "testlərdən", mərhələlərdən və yoxlamalardan keçiriləndən sonra açılır. "Azərbaycan məhəbbət dastanlarında haqq aşiqliyi sınaq-təsdiq modeli əsasında reallaşır. Qəhrəman sınaqdan-sınağa haqq aşığı olduğunu təsdiqləyir. Sınaqlar get-gedə çətinləşir və qəhrəman axırıncı sınaqdan çıxmaqla epik dəyər əldə edilmiş olur" (1, s.111). "Qurbani" dastanında Qara Vəzirlə qızı Nigar xanım Qurbanini sınaqdan keçirir.

Təsəvvüfün təbiətindən gəlir ki, haqq aşıqlığının mahiyyəti də sehrdən və möcüzələrdən, magik-mistik qüvvədən, simvolik nəsnələrdən ibarət olur. "Tahir-Zöhrə" dastanında Tahir Mirzənin qırx gün sandıqda, suyun içində qalması, "Abbas-Gülgəz"də Abbasın zəhərli sudan sağ-salamat çıxması bu qəbildəndir. "Valeh-Zərnigar"da Valehin çaya müraciətindən sonra, Zənbur çayının iki qola ayrılması həmin sehrin-möcüzələrin bədii inikasıdır:

"Valeh sözünü tamama yetirən kimi, Zənbur çayı iki şaqqaya ayrıldı. Çayın ortasından bir böyük yol açıldı.

Çoban Valehə dedi:

-Aşıq, mən sənin qardaşın oldum, hər yerdə dara düşsən, məni çağırarsan, dadına çataram (7, s.371-372).

Süleyman paşanın bacısı Hüsniyə xanım Kərəmin haqq aşiqliyini sınaqdan keçirmək üçün üzləri örtülü altı qız gətirir, Kərəm bu qızların adlarını bir-bir sadalayır: Banu, Püstə, Ceyran, Xədicə, Bəsti, İnci. Hüsniyə xanım Kərəmin bu bacarığına heyrət edir, onun vergili olmasına inanır.

"Hüsniyə xanım dedi:

-Afərin! Bu doğrudan da haqq aşığı imiş. İndi Əslinin üzündə olan nişanları de, səndən əl çəksin.

Aldı Kərəm, görək Əslinin üzündə olan xallara necə qiymət verdi:

Ay həzarat, bilin, Əsli xanımın
Üzündə xalları nazınnan gəlir.

Bir xalı əlifdi, bir xalı beydi,
Bir xalı dəftərə yazınan gəlir.
Bir xalı heyvadı, gəlməz irəngə,
Bir xalı İranı salıbdı ləngə,
Bir xalı elçidi gedər firəngə,
Bir xalı söhbətü sazınan gəlir.
Bir xalı yaxşıdı, bir xalı yaman,
Bir xalı könlümə salıbdı güman,
Bir xalı buluddu, bir xalı duman,
Bir xalı dağlara ayaznan gəlir.
Bir xalı bəzzadə, Rumun Qeysəri,
Bir xalı içibdi abi- kövsəri,
Bir xalı ağ üzə düzülən gəlir
Kərəmə gəlibdi təmizlik, paklıq,
Tanrıya gəlibdi yalnızlıq, təklik,
Qatardan ayrılmış, ay gözəl kəklik,
Xan oğlu üstünə bazman gəlir.
Kərəm sözünü qurtardı, düz gəlib dayandı Əslinin qabağında" (7, 154).

Kərəm başqa bir sınaq nəticəsində isə kəfənə bükülmüş insanın ölü olmadığını bildirir. Bundan sonra Hüsniyə xanım Kərəmin haqq aşığı olmasına tam əmin olur: "Sən doğrudan da haqq aşığı imişsən!" (7, s.155) - deyir.

Azərbaycan məhəbbət dastanlarının qəhrəmanı həm də aşıq kimi, saz çalıb oxumalıdır. Qəhrəmanın aşıqlığı, ustalığı daim sınağa çəkilir, yalnız sınaqdan sonra təsdiqini tapır. Aşıqlıq və şairlik haqdan gələn işarətdir. Aşıqlığın, şairliyin ona ilahi vergi kimi verilməsi ətrafdakılara sübut olunmalıdır. "Azərbaycan məhəbbət dastanlarında qəhrəmanın şairliyi (bədahətən söz deməsi) və saz çalmağı buta ilə bağlıdır" (8, s.112)

Qəhrəmanın aşıqlarla deyişməsi və qələbə çalması yalnız vacib süjet motivi deyil, həm də simvolik ritual arxetipidir. "Abbas-Gülgəz" dastanında Abbasın haqq aşıqlığı bir el sənətkarı ilə deyişməsindən sonra müəyyən edilir. Abbas aşıqlarla deyişir və qələbə qazanır. Aşıqlar bu "vergili" aşığa qarşı nə qədər kələklər, hiylələr işlətsələr də, Abbas onların kələyini anlayır, çünki haqq aşığıdır.

Qəhrəmanın - aşiqin qarşısına çıxan təhlükəli maneələr və onun mübarizəsi – mücadiləsi məhəbbət dastanlarının süjetini dramatikləşdirir, bu zaman hadisələr daha gərgin situasiyaya daxil olur. Bir məsələ də diqqət çəkir. Bəzi məhəbbət dastanlarında zəif də olsa, bahadırlıq substratı yer alır ("Tahir-Zöhrə", "Şahzadə Əbülfəz", "Lətif Şah" və s.) yəni qəhrəmanın həm də fiziki qüvvəsi və qabiliyyəti (qılınc oynatmaq, güləşmək və s.) sınanır. Amma "Əsli-Kərəm", "Abbas-Gülgəz", "Aşıq Qərib", "Qul Mahmud", "Yaxşı və Aşıq" kimi klassik dastanlarda aşıq yalnız sazın-sözün qüdrətinə güvənir, sazın-sözün gücü ilə maneələri dəf edir, rəqiblərə qalib gəlir. "Əsli və Kərəm", "Qurbani" / Dirili versiyası /, "Abbas-Gülgəz", "Şahzadə Əbülfəz", "Şah İsmayıl-Gülzar" dastanlarında qəhrəmanın hər qələbəsi ruhun qələbəsi və təntənəsi kimi qəbul olunur.

Haqq aşiqi əslində əhli-hal, könül adamı olur. Haqq aşığının hər bir sözü performativdir, yəni söz əmələ çevrilir, həyata keçir. - Sufiyə "hal" gələndə onun könlü kainatın güzgüsünə çevrilir və sufi özünü kainatın bütün ünsürləri ilə vəhdətdə görür. Vəhdətin bütün varlığı Vahidə (Allaha) bağlıdır: bütün kainat Vahidin zərrələridir. Böyük bir güzgü çilik-çilik olub qəlpələnəndə onun hər qəlpəsi Vahid Günəşin işığını əks etdiridiyi kimi, Allahdan başlanan kainatın da bütün ünsürləri eyni bir ilahi həqiqəti inikas edir. Dünya zahiri gözlə saysız rəng, şəkil və növlərdə görünsə də, könül hal gələndə bütün saysız ünsürlərin hamsının eyni olduğu görünür.

Göründüyü kimi, Azərbaycan məhəbbət dastanlarında "Bütün elementlər ilahi təcallanı (teoqonik sublimasiyanı, Allahın varlıq elementlərində təcəllisini) inikas edir. Bu cəhətdən Aşiqin Məşuqəyə aşiqliyi İnsanın Allaha aşiqliyi, Aşiqin Məşuqəyə qovuşmaq youndakı bütün fəaliyyəti Allaha qovuşmaq istəyən sufinin Ona çatmaq üçün Şəriət-Təriqət-Mərifət-Həqiqət struktur sxemi üzrə getdiyi Yoldur".

Ədəbiyyat

1. Cəfərli M. Azərbaycan dastanlarının struktur poetikası. Bakı: Nurlan, 2010, 404 s.
2. Барт Р. Мифологии . М.: Изд им. Сабашниковых, 1996
3. Mehdi N. Sənətin arxeologiyası. Bakı: Qanun, 2007
4. Кныш А. «ат-Тасаввиф» (очерк) / Ислам . Энциклопедичеекий словарь. М.: Наука, 1991, с. 225-231
5. Bayat F. Məhəbbət (eşq) dastanları // Azərbaycan şifahi xalq ədəbiyaytına dair tədqiqlər. IX kitab. Bakı: Səda, 2000, s 123-146
6. Трименгем Д С. Суфийские ордены в исламе .М., 1989
7. İsmayılov H. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf mərhələləri. Bakı: Elm, 2002, 404 s.
8. Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, 503 s.
9. Təhmasib M. H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 400 s.
10. Rzasoy S. Müasir Azərbaycan folklorşünaslığı. 2 cilddə. I c. Mif və epos məsələləri. Bakı: Nurlan, 2013, 364 s.

Р.С.Сафаралиева

Теологический дискурс в сказаниях о любви

Резюме

В данной статье из азербайджанских сказаний о любви выбираются некоторые выразительные дискурсы, с тем, чтобы комментировать их как образцы теологических высказываний. На основе анализа текстов сказаний автор приходит к выводу, что исламские мистические пласты в не являются механическими прибавками к ним, а выступают как органическая часть содержания сказаний.

R.S.Safaraliyeva

Theological Discourse in the Legend of love

Summary

Some expressive discourses are selected from the tales of love in order to comment on them in the article as examples of theological statements. Based on the analysis of such discourses, the author concludes that the Islamic mystical layers in tales of love for her organically and are not at all mechanical increments thereto.

Rəyçi: filol.e.d., prof. R.K.Rəsulov

Redaksiyaya daxil olub: 04.02.2017

İ.Q.TAĞIZADƏ
E-mail: tagızade-1979@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

E.MONRO HEKAYƏLƏRİNİN PSİXOANALİTİK TƏNQİDİN PRİNSİPLƏRİ ƏSASINDA TƏHLİLİ

Açar sözlər: *bədii psixologizmin ifadə üsulları, psixoloji analiz, E.Manro hekayələri*
Ключевые слова: *стили выражения художественного психологизма, психологический анализ, рассказы Э.Манро*
Key words: *expression styles of literary psychologizm, phychological analysis, A.Manro's stories.*

XX əsrin 60-cı illərindən başlayaraq Kanada ədəbiyyatında hekayə janrının yaradıcısı kimi tanınan Elis Manro hələ sağlığında ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüşdür. Kiçik nəsrin böyük ustadı E.Manronun hekayələri öz zəngin obrazlar qallereyası ilə bir çox tədqiqatçıların təhlil obyektinə çevrilmiş, onun yaradıcılığı ilə bağlı bir sıra monoqrafiyalar yazılmış və elmi araşdırmalar aparılmışdır.

Yazıçının kiçik nəsri bədii psixologizmin problemləri baxımında az öyrənilən sahə olduğunu nəzərə alaraq ədibin hekayələrini K.Yunqun, M.Bonapartın, J.Lakanın, Ş.Moronun tənqidi görüşləri və nəzəri prinsipləri ilə öyrənməyə çalışacağıq.

Psixoanalizin Ziqmund Freyddən sonra ikinci böyük nümayəndəsi isveçrəli psixoloq Karl Qustav Yunq (1875-1961) ədəbiyyat və incəsənətdə şüuraltı meyil və təzahürləri tədqiq edib, şəxsiyyətin dörd əsas elementi - şüur, şəxsi şüursuzluq, şüursuzluq və kollektiv şüursuzluğu özündə cəmləşdirdiyini söyləyir. K. Yunqa görə, şəxsi şüursuzluq insanın artıq keçmiş olduğu, ya unutduğu ya da sıxışdırılmış müxtəlif hisslərindən ibarətdir. Psixoloqun ən aparıcı təlimi "kollektiv şüursuzluq"dur. Onun fikrincə, yeni doğulmuş uşaq heç də tabula rasa (ağ lövhə) deyil, çünki onda anadagəlmə meyillər öz əksini tapıb və bu meyillər onun gələcək davranışını şərtləndirən amillərdir. Bu amillər K.Yunq tərəfindən arxetiplər (yunan mənşəli, "ilkin obraz, model" mənasındadır.) adlandırılmışdır. Arxetip nəsildən-nəsilə ötürülən, insanın şüurunda bilavasitə əksini tapan obrazların, istəklərin, davranış formalarının fövqəladə mürəkkəb əlaqəsindən ibarətdir. Yunqun nəzəri sistemdə əsas 5 arxitip - persona, anima və animus, kölgə və özəlliklər var. Persona (latınca "persona" – maska dem.) Bu, bizim ictimai üzümüzdür, yəni hər bir insan sosial tələbatını ödəmək, cəmiyyətdə yaşaya bilmək üçün maska taxır. Yunqa görə, persona bizə digər insanlara yaxşı təəssürat bağışlamağa və ya onlardan doğrunu gizlətmək üçün lazım olur. E. Manronun hekayələrində cəmiyyətin tələb etdiyi əxlaq, davranış qayda-qanunlarına təslim olmuş kimi özünü aparan maskalı obrazlar ordusuna rast gəlmək olar. Yazıçının "Qırmızı don-1946" ("Red dress-1946") hekayəsinə nəzər yetirək: "He took his hand from my waist and dropped my arm... It took me a minute or two to realize what had happened… I went and stood by the wall alone. The Physical Education teacher, dancing past energetically in the arms of a Grade Ten boy, gave me an inquisitive look. She was the only teacher in the school who made use of the words social adjustment, and I was afraid that if she had seen, or if she found out, she might make some horribly public attempt to make Mason finish out the dance with me. .. Still, I hoped not many people had seen. I hated people seeing… Pretend it didn't happen, I said to myself" - "O, əlini belimdən çəkdi və qolumu buraxdı... Bir və ya iki dəqiqə sonra nə baş verdiyini anladım. ... Rəqs meydançasından cıxıb, tək-tənha divara söykəndim. Fiziki tərbiyə müəlliməm onuncu sinif şagirdinin qolları arasında musiqinin sədaları altında yanımdan süzüb keçdi və sual dolu

baxışlarını mənə tuşladı. O, məktəbdə sosial bərabərlik ifadələrini işlədən yeganə müəllimə idi və mən onun bu hadisəni görməyindən və ya xəbər tutmasından ehtiyat edirdim, çünki o, Meysona mənimlə rəqsini bitirməsi üçün təsir göstərə bilərdi. ... Hələ də insanların görmədiyinə ümid bağalyırdım. Onların baxışlarına nifrət edirdim. Heç bir şeyin baş vermədiyini özümə təlqin edirdim" (tərcümə bizimdir – İ.T.) (1, s.70). Hekayənin qəhrəmanı gülüş mənbəyi olmamaq, tapdalanmış qürurunu gizlətmək üçün maska taxmalı olur. Hesab edirik ki, yazıçının hekayəsindən gətirdiyimiz sitat K.Yunqun təlimi ilə səsləşir.

K. Yunq "kölgə" arxitepini insan şəxsiyyətinin ən primitiv və qaranlıq dünyası ilə bağlayaraq, öz başlanğıcını heyvan əcdadlarımızın amoral həzlərindən aldığını iddia edir. Lakin "Kölgə" bizim bir çox yaradıcı ehtiraslarımızın və dərin emosional təəssüratlarımızın mənbəyidir. "Hər bir insanın öz kölgəsi var və onsuz keçinə bilməz. Kölgə vasitəsilə insan keçmişini, bəsit istəklərini və təcavüzkar meyillərini qoruyub saxlayır. Kölgə bir qayda olaraq sıxışdırılır, insan özünün şüursuz mənfi xarakterini görməkdən vaz keçir və onu görmür. Bununla belə, kölgə inkişaf etməyə davam edir. Günlərin bir günü bu sıxışdırılmış olanlar ortaya çıxıb insanın "işıqlı" tərəfinin rəhbər tutduğu mənəvi-əxlaqi dəyərləri darmadağın etməsi an məsələsidir. Yəni kölgə arxetipi insanın özünə etiraf etmədiyi, lakin ona xas olan, xarakterinin xoşagəlməz tərəfləridir. Kölgə fasiləsiz olaraq insan psixikasını zəbt edib ona hakim kəsilməyə can atır. Bunlar əxlaqi nəzəratə müqavimət göstərirlər" (2). E.Manronun "Zaman" ("Dimesions"), "Sahilə səyahət"("A trip to the coast"), "Vəhşi qu quşu" ("Wild swans") adlı hekayələrində kolgə arxitepinin dağıdıcı simasına rast gəlmək olar. "Zaman" ("Dimensions") hekayəsinə baxaq: "What I Know in Myself is my own Evil. That is the secret of my comfort. I mean I know my Worst. It may be worse than other people's worst but in fact I do not have to think or worry about that. No excuses. I am at peace. Am I a Monster? The World says so and if it is said so then I agree. But then I say, the World does not have any real meaning for me. I am my Self and have no chance to be any other Self. I could say that I was crazy then but what does that mean? Crazy. Sane. I am I. I could not change my I then and I cannot change it now." - "Özümdə tanıdığım yeganə şey öz Şərimdir. Susqunluğumun səbəbidir. Yəni, mən öz içimdəki şeytanı tanıyıram. Bəlkə də mənim şeytanım başqalarınınkı ilə müqayisədə daha pisdir, lakin bu məni nə düşündürür, nə də ki narahat edir. Heç bir bəhanəm yoxdur. Mən rahatam. Mən yırtıcıyammı? Dünya belə söyləyir və əgər belə deyirlərsə, razıyam. Odur ki, dünya mənim üçün heç bir mənə kəsb etmir. Mən özüməm və başqasına dönmək şansım yoxdur. Söyləyə bilərəm ki, mən həmin an dəliyə dönmüşdüm, lakin bunun nə isə mənası var? Dəli. Ağılı başında. Mən özüməm. Mən öz Mənimi həmin zaman dəyişə bilmədim və indi də dəyişə bilmərəm" (tərcümə bizimdir – İ.T.) (3, s.16). Bu üç günahsız balasını amansızcasına qətlə yetirən Lloyldın etirafıdır. Lloyldın Kölgəsi onun həyatını səadət işığına həsrət qoyur.

Tədqiqatçılar Rayn Kordel və Con Pennington anima və animus adlı arxetipləri bu cür izah edirlər: "Every Self has its own masculine or feminine counterpart to the personality: the anima is the female part of the male; the animus is the masculine part of the female. The anima embodies Eros–desire–a maternal archetype that is both positive (the nurturing mother) and negative (the devouring witch). Anima archetypes include the Great Mother, the Tempting Whore, and the Destroying Crone. Conversely, the animus embodies Logos–reason–and is paternal, symbolized by the Great Father, the Wise Old Man, the Lover, and the Destroying Angel archetypes… As the shadow side of the Self is usually hidden or repressed inside, the anima or animus side of the Self is also internalized and hidden, for the Self is unwilling to recognize its feminine or masculine side."-"Hər şəxsiyyətin daxilində kişilik və qadınlıq var: anima kişidə qadınlıq; animus qadında kişilikdir. Anima Eros-həzz-analıq arxitipidir. O həm müsbət (tərbiyəçi ana) həm də mənfi (acgöz cadugər) xüsusiyyətləri özündə cəm edir. Anima arxitipi Böyük Ana, Əxlaqsız Qadın, Cadugər simasında təcəssüm edir.

Animus isə Logos-ağıl-atalıq arxitipidir. O, Böyük Ata, Müdrik adam, Məşuq və dağıdıcı Mələk arxitiplərini simvolizə edir. Gizli və daxilən sıxışdırılmış kölgə kimi, hər kəsin anima və animusu da qapalı və məxfidir. Heç kəs öz qadınlıq və kişilik tərəflərini tanımaq istəməzdi" (4).

K.Yunqun anima və animus arxitipləri haqqında fikir yürüdən tədqiqatçı Q.Quliyev yazır: "Anima kişidə qadınlığın, Animus qadında kişiliyin təzahürü qismində çıxış edə bilər, çünki Yunqun fikrincə, elə bir kişi yoxdur ki, onda qadından nə isə olmasın. Eləcə də elə bir qadına təsadüf etmək çətindir ki, o kişilikdən tamamilə xali olsun. Bu mənada kişinin qadınlığından və qadının kişiliyindən damışmaq mümkündür" (5, s.244). E.Manronun kiçik nəsri animus arxitipinə aid qadın obrazları ilə zəngindir. Onlar sərbəst yaşamağı, ata, qardaş, kişi danlağından, nəzarətindən kənar, sərbəst həyata can atırlar. Yazıçının "Ofis" ("The office"): "The solution to my life occurred to me one evening while I was ironing a shirt. It was simple but audacious. I went into the living room where my husband was watching television and I said, "I think I ought to have an office."-"bir axşam köynək ütüləyərkən bu fikir ağlıma gəldi. Bu çox sadə ancaq cəsarətli qərar idi. Qonaq otağına keçdim, yoldaşım orada televizora baxırdı. Mən ona "düşünürəm ki, mənim öz ofisim olmalıdır" dedim" (1, s.30). Müstəqil işini qurmağa cəhd göstərən təhkiyəçinin istəyi animus başlanğıcından qaynaqlanır.

Xəyal, təxəyyül, mif, simvolik obrazlar mənəvi enerjinin aparıcı və əsas qaynağıdır. "Mən xəyalları psixikamızın spesifik fəallığının ən parlaq ifadəsi hesab edirəm... o, hər növ imkanın anasıdır. Yaradıcı təxəyyül hər gün yaradıcılığın ilkin şərtidir. Bütün böyük ixtiralar, kəşflər əvvəlcə xəyal olub. Təxəyyül psixi enerjinin birbaşa ifadəsidir", - deyir K.Yunq (6, s.14). Onun fikrincə, simvollar, miflər, mistik hadisələr insanın yaradıcı həyat enerjisinin, onun libidosunun birbaşa inikasıdır. Yunqun arxetipləri şüursuz olaraq təkrarlanan və miflərdə, simvollarda, müxtəlif inanclarda, psixi fəaliyyət aktlarında (yuxugörmə, qarabasma və s.), həmçinin bədii ədəbiyyatda, müxtəlif əsərlərdə məzmun kəsb edən kollektiv şüursuzluq modelləridir. E.Manronun "Karkaslı ev" ("Post and beam") adlı hekayəsinə baxaq: "I dreamt that I was giving you a ride on my bicycle. We were going quite fast. You didn't seem to be afraid, though perhaps you shoud have been. We mustn't call to interpret this."-"Yuxuda görürəm ki, səni öz velosipedimdə gəzdirirəm. Biz kifayət qədər sürətlə hərəkət edirik. Sənin heç qorxun yox idi, lakin gərək ki, qorxardın. Biz bu yuxunu yozmaq məcburiyyətində deyilik" (7, s.107). Ərinin dostu Laynelin ona - Lornaya yazdığı bu məktub parçasında təsvir olunan yuxu Laynelin arxitipinin simvolik təcəssümüdür.

Psixoanalitik nəzəriyyəsinin daha bir nümayəndəsi, XX əsr mədəniyyəti tarixində xüsusi yeri olan tədqiqatçı Mari Bonapartdır (1882-1962). Mari Bonapart bədii əsərin təhlili zamanı yuxugörmənin analizində istifadə olunan eyni mexanizmdən istifadə edilə bilər ideyasını iddia edir. Mari Bonapartın fikrincə, hər bir əsərin təhlili onun müəllifinin həyat hekayəsi ilə paralel müstəvidə aparılmalıdır. "Edqar Allan Ponun həyatı və əsərləri: Psixoanalitik şərh" ("The Life and the works of Edgar Allan Poe: A Psychoanalytic Interpretation") adlı tədqiqat işində üç yaşında ikən anasını itirmiş E.A.Ponun nəsrində və şerlərində anasına olan sevgidən qaynaqlandığını söyləyir (8). Mari Bonapart iddia edir ki, Ponun əsərləri anasına olan sıxışdırılmış dyğuların təcəsümüdür (4). Mari Bonapart haqlı olaraq vurğulayır ki, hər bir əsər müəllifin həyatına bir baxışdır. E.Manronun həyatına nəzər saldıqda onun hekayələrində qaldırılan problemləri yuxarıda qeyd olunan fikirlərlə aydın şəkildə həmahəng olduğunu görmək olur. E.Manronun "Qırmızı don-1946" ("Red Dress-1949"), "Utrext sülhü" ("The peace of Untecht"), "Ev" ("Home"), "Karkaslı ev" ("Post and Beam") və bir çox hekayələri aftobioqrafik cizgilərədən xali deyildir.

Z.Freydin psixoanaliz nəzəriyyəsini sonralar, XX əsrin ortalarında tanınmış fransız psixoanalitiki, freydisti, strukturalisti, filosofu Jakuez Lakan (1901-1981) yenidən işləmiş və

onu daha da təkmilləşdirmişdir. J. Lakan freydizmin ümumi fəlsəfəsi əsasında nitq qüsurlu psixi xəstəlikləri müalicə etməyə cəhd edirdi.

J. Lakanın psixoanalitik nəzəriyyəsinin əsasında iki müddəa durur: 1) dil kimi şüursuz struktur; 2) "Başqasının" nitqi kimi şüursuzluq. Bu iki müddəaya əsaslanaraq J.Lakan iddia edirdi ki, yalnız dilin və onun mexanizminin linqvistik analizi şüursuz proseslərin strukturunu aça bilər. Dil kimi şüursuz struktur dedikdə, J.Lakan dilin insanın dərk etmədiyi, lakin psixi proseslərin gedişatında xüsusi rolu olan şüursuz nitq elementlərinə malik olduğunu nəzərdə tutur. "Başqasının" nitqi kimi şüursuzluq dedikdə J.Lakan iddia edir ki, hər bir fərd "ehtiyac" və "istək"lərinin qarşılıqlı dialektikasında mövcuddur. Onun "Mən"i müəyyən deyil və fərd daim özünü axtarır. Və o öz "Mən"ini başqasının vasitəsi ilə, digər insanlarla münasibət kontekstində tapır. (9). J.Lakanın nəzəriyyəsini E.Manronun bir sıra hekayələrində izləyə bilərik. "Zaman" ("Dimensions") hekayəsinə baxaq: "I did it to save them the misery. The misery of knowing that their mother had walked out on them."-"Mən onları əzabdan qurtarmaq üçün bu əməli törətdim. Analarının onları tərk etmə duyğusunun verdiyi mənəvi əzabı yaşamasınlar deyə" (3, s.12). Bu ifadələr üç övladını qətlə yetirən atanın hakim qarşısında bəraət naminə söylədikləridir. Dilinə gətirdiyi bu söz karvanı onun qəlbinin təlatümünü ifadə edə bilmir. Şüursuzcasına söylədiyi bu cümlələr hiss etdiklərinin qarşısında kölgədə qalır.

Lakanın fikrincə, insan psixikasının strukturu əsas üç elementin mürəkkəb və ziddiyyətli qraşılıqlı münasibətində təzahür tapır: təsəvvür, simvolik və real. "Təsəvvür" – insanın yaratdığı ilyuziyalar kompleksidir. Bu elementin ilk mərhələsi uşaqlarda 6-dan 18 aya qədər özünüdərk ilə bağlı olan "güzgü mərhələsi" adını qazanmışdır. Alimin fikrincə, bu dövrdə usaq ilk dəfə özünü güzgüdə tapır və kimliyini dərk edir. "Simvolik" insanların sosial-mədəni qaydaların cəmiyyətədə mövcud olmaq naminə şüursuzcasına qəbul etdiyi mərhələdir. "Real" isə insan psixikasının ətraf aləmi necə dərk etdiyini izhar edir (4). E.Manronun kiçik nəsr nümunələrindəki qəhrəmanlarda hər üç mərhələni izləmək olar. "Oğlanlar və qızlar", "Kəpənək günü", "Qırmızı don" hekayələrində "güzgü" mərhələsini yaşayan yeniyetmə qızların özünüdərki ilə rastlaşırıq.

Şarl Moronun (1899-1966) 1954-cü ildə irəli sürdüyü nəzəriyyə diqqətəlayiqdir. Alim iddia edirdi ki, hər bir yazıçını şəxsiyyətin mifi xarakterizə edir. Psixoanalizin mövqeyindən şəxsiyyətin mifi məfhumunun təfsirində inkişafda olan şüuraltı şəxsiyyətin ifadəsi nəzərədə tutulur. Psixotənqidin əsas vəzifəsi məcburi və daxili səbəbləri açan eyni müəllifin müxtəlif əsərlərinin bir parçasının təhlili idi. Daxili səbəblər dedikdə, yazıçının öz əsərlərində şüuraltı düşüncələrini ifadə etməsi nəzərdə tutulur. Xarici adlanan psixotənqidin ikinci mərhələsində Ş.Moron yazıçının ədəbi fəaliyyətini nevroz və psixoloji mənəvi konfliktlərdən azad olma səbəbi kimi təhlil edir. Alimin fikrincə, məhz bu dərin daxili konflikti aşkarlamaq şəxsiyyətin mifini kəşf etməyə gətirib çıxardır. E.Manronun həyatı və əsərləri ilə yaxından tanış olduqda görürük ki, Ş.Moronun söylədiyi kimi, müəllif öz psixi yaşantılarını xüsusən də anası ilə bağlı yaşadığı sixintıları bütün hekayələrinə köçürmüşdür. "Tezliklə" ("Soon"), "Səssizlik" ("Silence"), "Utrext sülhü" ("The peace of Utrecht"), "Yosun" ("Dulse") və bir sıra başqa hekayələrinin təhlilli məhz E. Manronun şəxsi həyatı ilə paralellər aparılarkən xüsusi dəyər kəsb edir. E.Manronun "Yellənən körpü" ("Floating boat") adlı hekayəsinə baxaq: "And yet—an excitement. The unspeakable excitement you feel when a galloping disaster promises to release you from all responsibility for your own life. Then for shame you must compose yourself and stay very quiet." - "Və yenə də həyacan. Sürətlə inkişaf edən xəstəlik öz qaydalarını sənin həyatına diktə edəndə, səni gündəlik vəzifələrindən, işlərindən ayıranda dilə gəlməyən həyəcan insanın vücuduna hakim kəsilir. Sonra isə sən özünü ələ almaq və sakitliyi qorumaq məcburiyyətində olursan" (7, s.52). Bu sözlər xərçəng xəstəliyinə düçar olmuş və kimyəvi müalicə almaq məcburiyyətində olan Jinninin şüur axınından bir nümunədir.

E. Manro da 1990-1991-ci illərdə eyni xəstəlikdən əziyyət çəkdiyini və kimyəvi müalicə aldığı faktı bir daha göstərir ki, müəllif öz həyat təcrübəsini bir sıra hekayələrinə şamil etmişdir.

Göründüyü kimi, ingilisdilli Kanada ədəbiyyatının görkəmli nümayəndəsi E.Manronun hekayələrini psixoloji analizin nəzəriyyəsinə uyğun təhlil etmək mümkündür.

Ədəbiyyat

1. Munro A. Dance of Happy Shades. London: VintageBooks, 2000, 240 p.
2. dushunce.az/entries/elmi-arashdırma/yunqub-arxitipləri
3. Munro A. Too much Happiness, Toronto; McClelland & Stewart , 2009, 185p
4. http://2012books.lardbucket.org/pdfs/creating-literary-analysis.pdf
5. Quliyev Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. Bakı, 2012, 344 s.
6. Юнг К. Либидо и его метаморфозы и символы. 1994, с-Пб., 415 с.
7. Munro A. Hateship, friendship, courtship, loveship, marriage. Toronto, 2001, 286 p.
8. Bonaparte, Marie. The Life and works of Edgar Allan Poe: A Psychoanalytic Interpretation. London: Imago Publishing Co. LTD.,1949, 749p.
9. Joel Dor, Feher Gurewich. Introduction to the Reading of Lacan: The Unconscious Structured Like a Language, Other Press, LLC, 1998, 268 стр.

И.К.Тагизаде

Анализ рассказов Э.Манро на основе принципов психоаналитической критики

Резюме

Элис Манро, первая Канадская писательница, которой была присуждена Нобелевская премия, считается гордостью своей страны. Элис Манро всю свою писательскую карьеру работала исключительно в рамках рассказа. В этой статье исследуется психологический анализ как один из стилей выражения психологизма на основе изучения текста некоторых рассказов Элиса Манро. Приводится примерыв психоаналитической критики, анализируются такие рассказы, как “Красное платье 1946” (“Red Dress-1949”), “Офис” (“The office”), “Дом” (“Home”), “Измерение” (“Dimensions”), “Каркасный дом” (“Post and Beam”), “Yosun” (“Dulse”). Автор статьи на основе разных рассказов оценивает роль и место психоаналитической критики в творчестве писателя.

I.G.Tagizade

The Analysis of A.Munro’s Stories due to the Principles of Psychoanalytical Critic

Summary

Alice Munro is the first Canadian writer winning the Nobel Prize became the proud of her motherland. Alice Munro worked only within the frame of short story all her lirerary career. Psychological analysis as one of the expression way of psychologism was investigated on the basis of the stories by Alice Munro in this article. The samples of psychoanalytical critic were presented and the stories such as “Red Dress-1949”, “The Office”, “Home”, “Dimensions”, “Post and Beam” have been analyzed. The author of the article appreciates the role and the place of psychoanalytical critic in the works of the writer.

Rəyçi: dos. Y.Abdullayeva

Redaksiyaya daxil olub: 09.02.2017

С.Г.АЛИЕВА

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

ПОНИМАНИЕ СИМВОЛА В СИСТЕМЕ ЭСТЕТИЧЕСКИХ ВЗГЛЯДОВ Д.С.МЕРЕЖКОВСКОГО

Ключевые слова: *символ, символизм, религия*
Açar sözlər: *simvol, simvolizm, din*
Key words: *symbol, symbolism, religion*

Одним из интереснейших русских писателей и мыслителей конца XIX - начала XX веков является Дмитрий Сергеевич Мережковский. Творческое наследие этого писателя очень богато и разнообразно: проза, поэзия, литературно-критические и философские работы, статьи и т.д. Но, в то же время, его писательская деятельность остается одной из недостаточно освоенных частей литературного наследия Серебряного века. Особенно это показательно в сравнении с активным и плодотворным изучением наследия младших символистов. Но также очевидно, что общее представление о литературе того или же иного периода будет недостаточным без определения места и роли каждого писателя. Исследования творчества Мережковского, показали специфические особенности религиозно-философской и эстетической мысли, а также сомнения, чаяния, пристрастия, нравственные и духовные поиски прогрессивной элиты конца XIX и начала XX веков, что являлось актуальным, поскольку способствовали более всестороннему и полному изучению этого этапа в развитии литературы. В творчестве этого писателя отчетливо проявились специи-фические особенности этой переходной эпохи и, которое оказало огромное влияние на современников. Ставились вопросы, наиболее актуальные для русской литературы и культуры.

Обширный мир символов писателя представляет собой интерес для исследования, отражающий все особенности его мышления. Способ изображения, использованный в произведениях, соответствует созданной им всей специфической картине мира, его особой концепции истории. Формирует модель художественной мысли, присущая писателю именно миропонимания Мережковского.

Впервые именно Мережковский теоретически обосновал причины возникновения символизма, как нового литературного течения. Он выступил в 1892-ом году с лекцией «О причинах упадка и новых течениях в современной русской литературе». Мережковский был сложной фигурой в литературе «серебряного века». Он всю жизнь занимался религиозно-философскими исканиями, и вся его поэзия была неотделима от этого. Так он обретал Бога и новую религию. Влияние В.С. Соловьева, Ф.М. Достоевского повлияло на тематику произведений Д. Мережковского: раздвоенность личности и роковое одиночество, «неохристианство» и восхищение истинной красотой, утверждение единства духа и тела. В 1892 году писатель-мыслитель издает сборник стихотворений «Символы», где уже чувствуется его уникальный поэтический стиль, в отличие от его первого сборника «Стихотворения», который был издан в 1888-ом году. Сборник «Символы» выгодно отличает многообразие тематики: увлеченность трагизмом повседневного, ориентация на творчество А.С.Пушкина и традиции ан-тичной культуры, увлеченность городской тематикой. В сборнике «Символы» писатель на много лет вперед предвосхитил будущие изменения в России.

Мы же лгать обречены:
Роковым узлом от века
В слабом сердце человека
Правда с ложью сплетены.(3, 38)

Очередной третий сборник под названием «Новые стихотворения» (1896), немного динамичнее по содержанию. Теперь Мережковский не только отмечает конкретные темы, но также испытывает ощущение постоянной тревоги одиноких непонятых пророков, растоптанных мудрецов:

Мы бесконечно одиноки,
Богов покинут жрецы…(3, 29)

В 1909-ом году издан четвертый сборник стихов Д. Мережковского «Собрание стихов». Там, находясь в другом поэтическом окружении, по-иному начинают звучать старые стихотворении. Поэт снова обращается к Богу, так как кроме него никто не может дать избавленье от безнадежности и унынья. Желанием веры пронизан весь стихотворный сборник.

Мы не смеем, не желаем,
И не верим, и не знаем,
И не любим ничего.
Боже, дай нам избавленья,…
Дай нам крылья, дай нам крылья,
Крылья духа Твоего! (3, 98)

The article is investigates the role of a family in national education, also analysis and showed the roles and the importance of a father, a mother, a member of a family in a contemporary education process. The new feature and application of this character learned to Azerbaijani children the national proudness, unity, honor, fanaticism to motherland. The article is necessary for each young family and pedagogue. Different models, notes have a great educational importance.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 07.12.2016

R.C.BABAYEVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ LEKSİK BACARIQLARIN FORMALAŞMASI

***Açar sözlər**: leksika, leksik vahidlər, leksik bacarıqlar, formalaşma, əyanilik*
***Ключевые слова**: лексика, лексические единицы, лексические навыки, формирование, наглядность*
***Key words**: lexis, lexical units, lexical skills, formation, visualization*

İngilis dilinin leksikasının öyrənilməsi müasir metodikada ən aktual mövzulardan biri hesab olunur. Leksika şifahi kommunikativ fəaliyyətin tərkibinə daxildir və sifahi ünsiyyət zamanı istifadə edilir. İngilis dilini öyrənən tələbə, ilk növbədə, həmin dilin leksikasını bilməlidir, yəni ingilis dilində danışmaq üçün lazımi söz ehtiyatına malik olmalıdır.

Bəs leksika nədir? Leksika dilin söz toplusu, onun lüğət tərkibidir. Leksikanın tədrisi mürəkkəb bir prosesdir. Leksikanın məqsədi leksik bacarıqların yaradılması, sözü leksik qaydalara əsasən kombinasiya etmək qabiliyyətidir. Leksik bacarıq danışanın fikrinə əsasən leksik vahidin seçilməsidir.

Məlum olduğu kimi, ingilis dilinin öyrənilməsi özündə fonetikanın, leksikanın və qrammatikanın tədrisini əks etdirir. Bu üç komponent bir-biri ilə sıx əlaqədardır. Bunların biri digərini tamamlayır, yəni tələbələr leksikanı bilməli, onu fonetik cəhətdən düzgün tələffüz etməli və cümləni müvafiq qrammatik qaydalara uyğun olaraq qurmalıdırlar.

Leksika nitq fəaliyyətinin: eşidib-anlama, danışıq, oxu və yazının ən mühüm komponentidir. Leksik material eşidib-anlama, danışıq, oxu və yazı kimi nitq fəaliyyətinin dörd növünü intensivləşdirir, tələbə leksik material əsasında öz fikrini başqasına çatdırır. Tələbələrdə leksik bacarıq və vərdişlər həm leksik vahidlərin nitqə daxil edilməsi, həm də lüğət, mətnlə iş prosesi zamanı, leksik tapşırıqların yerinə yetirilməsi, leksikanın nitqdə aktivləşdirilməsi əsasında yaranır və onlarda yaradıcı təfəkkürü inkişaf etdirir.

Xarici dilin tədrisi metodikasında leksik bacarıqların formalaşmasının əhəmiyyəti mühüm bacarıq kimi vurğulanır, ona yiyələnmədən həmin dildə ünsiyyət qurmaq məntiqsizdir. Hazırda ingilis dili dərslərində leksik bacarıqların formalaşması aktual problemdir və dərs prosesində tələbələrdə leksik bacarıqların formalaşmasına xüsusi diqqət verilir. Hal-hazırda bu problemin aktuallığı müəllimdən tələb edir ki, o, tələbələrdə kommunikativ bacarıqları formalaşdırsın. Leksik bacarıqlar nitqin leksik tərəfini əks elətdirir, onlar nitq bacarıqlarının komponentləri hesab olunur. Leksik bacarıqlar leksik vahidlərlə və leksik vahidlərin kompleksi ilə yaranır. Öz növbəsində leksik vahid müstəqil leksik mənaya malik olan və nitq vahidi funksiyasını yerinə yetirməyə qadir olan dil vahidi kimi müəyyən edilir.

Metodistlərin leksik bacarıqların formalaşması haqqında müxtəlif fikirləri var. Məsələn, S.F.Şatilova görə, leksik bacarıq sözün istifadə olunması və sözun əmələ gəlməsi kimi komponentlərdən ibarətdir (3, s.84). E.İ.Passovun fikrincə isə leksik bacarıq söz birləşmələrinin əməliyyatından ibarətdir (2, s.50). R.K.Minyar-Beloruçev söz əmələgəlməsinin və leksik vahidlərin birləşməsi əməliyyatının leksikaya deyil, qrammatikaya aid olduğunu güman edərək, leksik bacarığı kommunikativ məqsədə uyğun olaraq sözü, söz birləşməsini və hazır frazanı uzun müddətli yaddaşdan avtomatik olaraq yadına salmaq imkanı kimi müəyyən edir (4, s.92). Qeyd etmək lazımdır ki, sözlərin istifadəsi təkcə sözləri bilmək deyil, onları ifadə edərkən manipulyasiya etmək bacarığını tələb edir. Bu problem iki yolla həll olunur: nəinki öz nit-

qində leksikadan istifadə etməyi öyrənmək, həmçinin, onu digərlərinin nitqində başa düşmək. Beləliklə, leksik bacarıq nitqdə verilən leksik vahidin situativ istifadəsini təmin edən fikir və onun digərləri ilə düzgün birləşməsinə əsasən leksik vahidlərin seçilməsi üzrə sintezli təsiridir. Leksik bacarıq ekspressiv və reseptiv leksik bacarıqlardan ibarətdir.

İngilis dilinin leksikasının öyrənilməsi prosesində ənənəvi olaraq üç əsas mərhələ mövcuddur:

1) Tanışlıq

2) İlkin mənimsəmə

3) Müxtəlif növ nitq fəaliyyətində leksik bacarıq və vərdişlərin inkişaf etdirilməsi

İlk iki mərhələ adətən bir mərhələdə, yəni leksikanın təqdimatı mərhələsində verilir. Təqdimat mərhələsi leksikanın öyrənilməsində mühüm rol oynayır. Leksika üzərindəki bütün sonrakı iş bu mərhələnin effektivliyi və məqsədyönümlüyündən asılıdır. İngilis dilinin leksikasının tədrisi müəllimdən xüsusi ustalıq tələb edir. Bu ustalıq ona görə lazımdır ki, tələbə öyrəndiyi sözü uzun müddət yaddaşında saxlasın və şifahi nitqdə ondan istifadə edə bilsin. Bunun üçün müəllim nə etməlidir? O, hansı üsullardan istifadə etməlidir? Müəllim dərsin məqsəd və vəzifələrinə, tələbələrin bilik səviyyələrinə və leksik minimumun düzgün seçilməsinə uyğun olan üsullardan istifadə etməlidir.

Təqdimat yeni leksik vahidin tanışlığı və ilkin mənimsəməsini birləşdirən, leksik materialın aktiv təlimi olan ilkin mərhələdir. Tanışlıq mərhələsində iş sözün forma, məna və istifadəsi üzərində cəmləşir. Birinci mərhələdə yeni sözün mahiyyətinin öyrənilməsi baş verir. Bu mərhələnin başlıca vəzifəsi sözün, yaxud frazeoloji birləşmənin mahiyyətini tələbələrə çatdırmaqdan və onun nitqdə istifadə xüsusiyyətlərini göstərməkdən ibarətdir. Növbəti mərhələdə tələbələr vahid nitq situasiyalarında leksik nitq əlaqələrinin yaranması üçün məşq edirlər. Sonuncu mərhələdə tələbələr dinamik leksik nitq əlaqələrini yarada bilirlər, daha doğrusu yeni sözləri ünsiyyətdə sərbəst istifadə edə bilirlər.

Leksikanın təqdimatı mərhələsində istifadə olunan üsullardan biri əyanilikdir.

Əyanilik üsulu dərk etməni real əşya və ya hadisələr, faktlar üzərində qurmağa deyilir. İngilis dili dərslərində əyani vəsaitlərdən istifadə etmək vacibdir və tələbələrdə leksik bacarıqların formalaşmasında əyanilik mühüm rol oynayır. Bu haqda metodist Q.M.Uayzer deyir: "Xarici dili intensiv öyrətmək işində əyani vəsaitlər xüsusi əhəmiyyət kəsb edir. Hər bir müəllim bu vəsaitin köməyindən istifadə etsə, onun dərsi maraqlı keçər, tələbələr dili yaxşı öyrənərlər" (5, s.35). Əyanilik üsulunun köməyi ilə, leksik materialın təqdimatı, məşqi və tətbiqi həyata keçirilir. Əyanilik sayəsində, sərbəst danışıq zamanı nitqin problemli tapşırıqları həll olunur. Lakin ən başlıcası, ingilis dili dərslərində əyanilikdən təkcə illustrasiya kimi, keçilən mövzu haqqında tələbələrdə təsəvvür yaratmaq məqsədilə deyil, həm də müstəqil bilik mənbəyi kimi, situasiya, motivasiya yaratmaq üçün istifadə olunmalıdır.

Əyanilik aşağıdakı formalarda olur:

1) sinif otağında olan əşyalar formasında, yaxud müəllim və ya tələbələrdə olan əşyalar məsələn: qapı, pəncərə, lövhə, təbaşir, kitab, qələm və s.;

2) şəkillərdən, sxemlərdən və cədvəllərdən ibarət divar əyani vəsaitləri;

3) hərəkətin əyaniliyi məsələn: oxumaq, yazmaq, getmək, oturmaq, qalxmaq, danışmaq və s. kimi sadə hərəkətləri ifadə edən bir sıra felləri göstərmək olar.

Əyanilik tələbələrə dil materialını daha dərk olunan formada və böyük maraqla öyrənməyə kömək edir. Bundan başqa, əyanilik tələbələrin psixoloji fəaliyyətini səfərbər edir, ingilis dili ilə məşğul olmağa maraq oyadır, yaradıcı təxəyyülü inkişaf etdirir, ingilis dilinin tədrisini asanlaşdırır.

Beləliklə, əyanilik əsas təlim metodudur. O, ünsiyyətin və real şəraitə yaxın olan vəziyyətin yaranma vasitəsidir, bu isə aktiv nitq fəaliyyəti üçün mühümdür və xarici dilə yiyələnmə zamanı əvəzolunmazdır.

Biz öz təcrübəmizdə əyaniliyə üstünlük veririk və bu üsuldan yeni leksikanın təqdimatı zamanı çox istifadə edirik. Məsələn: "Objects" mövzusu üzrə leksik materialın möhkəmləndirilməsində biz əşyalardan istifadə edirik. Sözün ilkin möhkəmləndirilməsində əşyalardan əyani vasitə kimi istifadə edirik. Əşyanı göstərir və sual veririk: Is this a diary?

Tələbə cavab verir: Yes, it is. It is a diary.

Digər tələbəyə də həmin əşyanı göstərir və alternativ sualı veririk: Is it a diary or a book?

Tələbə cavab verir: It is a diary.

Materialı möhkəmləndirmək üçün reproduktiv sualdan istifadə edirik: What is it?

Tələbə cavab verir: It is a diary.

Daha sonra növbəti sualı veririk: What colour is the diary?

Tələbə cavab verir: The diary is black.

Daha sonra başqa sual veririk: Where is the diary?

Tələbə cavab verir: The diary is on the table.

Beləliklə, müəllim yeni sözləri izah edərkən onları cümlədə işlətsə, tələbələrin özlərinə həmin sözlərə aid cümlə qurmağı öyrətsə, onda tələbələr həmin sözləri yaxşı mənimsəyərlər. Leksikanın tədrisində əşyalardan istifadə yeni sözlərin dərhal yadda saxlanılması və tələbələrin fəallığı ilə xarakterizə olunur. Buna görə də, əyanilik üsulunun ingilis dili dərslərində situativ illustrasiya kimi istifadəsi ingilis dilindəki yeni sözlərin tələbələr tərəfindən yadda saxlanılması prosesini sürətləndirir. Bundan başqa, situativ əyaniliyin mövcud olması ingilis dilində həm anlamanı, həm də danışığı təmin edir, tələbələr yalnız dilin formalaşması haqqında fikirləşirlər. Əyanilik üsulundan istifadə tələbələrə konkret situasiyalar şəraitində müxtəlif mövzularda danışmaq bacarığına yiyələnməyə imkan verir.

Beləliklə, belə bir nətıcəyə gəlmək olar ki, əyanilik əşya və hadisələr haqqında doğru, düzgün təsəvvürlərin yaranmasına kömək edir. İngilis dili dərslərində əyanilik üsulundan tədrisin bütün mərhələlərində - həm biliklərin mənimsənilməsində, həm möhkəmləndirilməsində, həm də tətbiqində istifadə etmək lazımdır.

Ədəbiyyat:

1. Соловова Е.Н. Методика обучения иностранным языкам. Базовый курс лекций: Пособие для студентов педагогических вузов и учителей. М.: Просвещение, 2005

2. Пассова Е.И., Кузнецова Е.С. Формирование лексических навыков: Учебное пособие. Воронеж.: Альтернатива, 2002

3. Шатилов С.Ф. Методика обучения немецкому языку в средней школе: Учебное пособие для студентов педагогических институтов. М.: Высшая школа, 1986

4. Миньяр-Белоручев Р.К. Методика обучения французскому языку: Учебное пособие для студентов педагогических институтов. М.: Высшая школа, 1990

5. Вайзер Г.М. Методика обучения иностранным языкам. М.: Просвещение, 1974

6. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам: Пособие для учителя. М.: Просвещение, 2005

7. Thornbury S. How to teach Vocabulary. Pearson Education Limited, 2004

Р.Дж.Бабаева

Формирование лексических навыков на уроках английского языка

Резюме

Данная статья рассматривает формирование лексических навыков на уроках английского языка. Обучение лексики английского языка является одной из самых актуальных проблем в современной методике обучения иностранным языкам. Формирование лексических навыков на уроках английского языка является актуальной проблемой в настоящее время и уделяется довольно большое внимание. Лексические навыки представляют лексическую сторону речи, они являются компонентами речевых умений, и образуют фундамент для обеспечения использова-

ния языка как средства общения. Формирование лексических навыков - это большой, трудоемкий процесс, требующий больших усилий, как от учителя, так и от учащихся.

R.J.Babayeva

Formation of lexical skills at english lessons

Summary

This article deals with formation of lexical skills at English lessons. Teaching of English vocabulary is one of the most actual problems in modern methodology of teaching a foreign language. Formation of lexical skills at English lessons is an actual problem now and special attention is paid to the formation of lexical abilities and skills. Lexical skills represent the lexical aspect of the speech, they are components of speech abilities, and form the base for ensuring use of the language as a means of communication. Formation of lexical skills is a complicated process demanding great efforts both from the teacher, and from the students.

Rəyçi: prof. D.Ə.İsmayılova

Redaksiyaya daxil olub: 29.12.2016

V.C.BABAYEVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

RİSK QRUPU UŞAQLARLA TƏRBİYƏ İŞİNİN MƏZMUNU VƏ BAŞLICA XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *risk qrupu uşaqları, sosioloji tədqiqat metodları, mətəbdənkənar təhsil müəssisələri, "ex post facto"metodu, sosial-təhsil fəaliyyətinin üsulu, asudə vaxt*

Ключевые слова: *дети группы риска, социологические методы исследования, внешкольные учебные заведения, метод «экс-постфактума», социально-воспитательная работа, свободное время*

Key words: *risk groups children, sociological research methods, school educational institutions, "the ex-post-facto" method, social and educational work, leisure time*

Bu gün cəmiyyətdə gedən proseslər, yeniləşmə, onun pozitiv və ya neqativ olmasından asılı olmayaraq yaratdığı gərginlik gənc nəslin bu şəraitə adaptasiya ilə bağlıdır. Yeniləşmə yalnız texniki, həyatı məsələlərdə deyil, həm də təhsilin struktur və məzmununda öz əksini tapmalıdır. Çünki yeni cəmiyyət yeni keyfiyyətlərin daşıyıcısı olan insanların tərbiyəsi və şəxsiyyətinin formalaşmasından keçir.

Müxtəlif materialların müqayisəli təlimi göstərirdi ki, demokrafik amillərin təsiri həmişə vasitəli xarakter daşıyır. Şagirdin bir şəxsiyyət kimi formalaşması prosesində onlar bilavasitə deyil dolayısı ilə ilk növbədə ailədaxili münasibətlər vasitəsilə təsir göstərirlər. “Eks post fakto” üsulu ilə əldə etdiyimiz materiallar bu nöqteyi-nəzərdən maraqlıdır

“Eks post fakto” mahiyyətcə retrospektiv təhlil üsuludur. Sosiologiyada, eləcə də tərbiyənin sosiologiyasında geniş istifadə olunan həmin üsulun vasitəsilə fakt baş verəndən sonra onu şərtləndirən səbəblər öyrənilir. Bu məqsədlə müvafiq sənədlər əsasında ancaq öyrədilən eksperimental kəmiyyətə görə bir-birindən fərqlənən iki qrup yaradılır. Qrupların müvafiq eksperimental kəmiyyətə görə retrospektiv təhlili şagird şəxsiyyətinin formalaşmasını şərtləndirən sosial amillərin rolunu aydınlaşdırmaq imkanı verir (2, s.67).

Pedaqoji psixologiyada ailənin tərbiyə mühitini şərtləndirən amilləri iki tipə ayırırlar. Ailə münasibətləri ər-arvad, ana-ata, valideyn-övladlar, bacı-qardaş və s. münasibətləri birinci tip amillər sırasına daxildir. Ailənin maddi vəziyyətini, mənzil şəraitini və s. isə ikinci tip amillərə aid edirlər.

Uşaqların tərbiyəsi sahəsində ikinci tip amillərin əhəmiyyəti aydındır. Lakin, bununla belə, onların təsirini həlledici hesab etmək olmaz. Psixoloji tədqiqatlar gösərir ki, ailənin tərbiyə imkanları, hər şeydən əvvəl, ailədaxili münasibətlərin, ilk növbədə, valideynlərlə övladların qarşılıqlı münasibətləri ilə müəyyən olunur (3, s.512). “Eks post fakto” eksperimentinin nəticələri bunu əsaslı surətdə təsdiqləyir.

Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, şagirdlərin inkişaf səviyyəsi ailə münasibətlərinin xarakteri ilə bilavasitə bağlıdır. Aşağıdakı şagird xarakteristikalarında bu cəhət özünü bütün aydınlığı ilə göstərir (hər iki şagird ailənin Y tipinə mənsubdur).

Cəfərova Təranə (VIII sinif). Atası filologiya elmləri namizədidir, boşanqıqdan sonra ailədən getmişdir. Cəfərova Təranə uzun müddət müəllimə işləmiş təqaüdçü anası və iki qardaşı ilə birlikdə yaşayır. Böyük qardaşı texniki ali məktəblərin birində işləyir. Ailədə ana və uşaqlar, bacı və qardaşlar, eləcə də qardaşlar arasındakı münasibətlər özlərinin mehribanlığı, səmimiliyi və xeyirxahlığı ilə seçilir. Ana ailə ixtilaflarında sarsılsa da, özünün ən ağır dəqiqəsində belə uşaqlara güvənib övlad fərəhindən təsəlli tapıb. O, uşaqların tərbiyəsinə həmişə xüsusi qayğı ilə yanaşır, uşaqların ataları ilə görüşməsini nəinki qadağan etmir, əksinə, onlarda ataya etibar və inam formalaşdırmağa çalışır. Oğlanları ata ilə tez-tez görüşürlər. Təranə

isə atasını haqsız sayır, onu bağışlaya bilmirdi. Böyük qardaşı Təranəni atası ilə barışdırdı. O gördü ki, buna anası da sevinir. Atası tez-tez Təranə və müəllimlərlə görüşmək üçün məktəbə gəlir, hər gələndə yeni nəşr olunmuş bədii əsərlər gətirir. Təranə məktəbdə səylə oxuyur. I rübdə onun qiyməti 4,7; II rübdə 4,9; III və IV rüblərdə isə 5,10 olmuşdur.

Əsgərova Nazilə (VIII sinif). Atası boşanıb evdən getmiş, bir neçə ay işsiz qalmış, sonra isə alver məsələri üstündə həbs olunmuşdur. Anası satıcı işləyir, uşaqlarla o qədər maraqlanmır. Nazilənin V sinifdə oxuyan bir qardaşı da var. Ana öz anasının evində başqa bir kişi ilə görüşür. Uşaqlar da bunu bilirlər. Evin ağırlığı Nazilənin üstündədir. Qardaşına da o qulluq edir. Çətinliyə düşəndə qız özünü saxlaya bilmir, ağlayır, hiddətlə anasını günahlandırır. O, ev tapşırıqlarını, demək olar ki, hazırlamır. Dərsdə də ovqatsız olur, tez-tez həyacanlanır, gözləri yaşla dolur. I rübdə 42 saat, II rübdə 30 saat, III rübdə 50 saat, IV rübdə 42 saat dərs buraxmışdır. Dərsdən sonra çox vaxt evdə olmur. Dediyinə görə, qohumlarıgilə gedir. Aşağı qiymətlərlə oxuyur, I rübdə onun qiyməti 3,3; II rübdə 3,4; III rübdə isə 3,2 olmuşdur.

Qrupların ailə münasibətlərinə görə retrospektiv təhlili göstərdi ki, boşanma və ya ölüm nəticəsində ata və ya ana qayğısından məhrum olmuş iki yeniyetmə arasında oxşar cəhətlər nə qədər çox olsa da, onlar bir-birindən özlərinin ailədəki vəziyyətlərinə görə fərqlənirlər. Şagird Abbas da, Nazim də yetimdir. Onların hər ikisi anasını itirmişdir. Abbasın anası uzun müddət xəstə olmuş, hətta ata onun xəstəxanaya verilməsinə razı olmamış və uzun müddət Abbas ilə birlikdə anaya məhəbbət və səmimiyyətlə xidmət etmişlər. Atası Abbas üçün insanlıq nümunəsinə çevrilmişdir. Nazim isə həmişə anasının atası tərəfindən təhqir olunduğunu görmüşdü. İndi isə ata ananı öldürmüş və həbs olunmuşdur...hər iki ailədə özünəməxsus mənəvi-psixoloji ovqat bərqərar olmuşdur. Ailə münasibətlərinin bilavasitə xarakterini əks etdirən bu cəhət şagirdlərin təlim fəaliyyətində də özünün aydın ifadəsini tapmışdır.

Beləliklə, qrupların eksperimental kəmiyyətə görə retrospektiv təhlili göstərir ki, demoqrafik proseslər hər şeydən əvvəl, ailədaxili münasibətlər "ər-arvad" münasibətləri vasitəsilə "ata-oğul" (oğullar), "ata-qız" (qızlar), "ata-uşaqlar", "ana-oğul" (oğullar), "ana-qız" (qızlar) "ana-uşaqlar", "ana-nənə" və s. münasibətlərinə təsir göstərir. Uşaq bir şəxsiyyət kimi məhz bu münasibətlərin qovşağında formalaşır. Hər bir ailə tipi daxilində müxtəlif inkişaf səviyyəli şagirdlərə eyni dərəcədə təsadüf olunması həm də bununla bağlıdır.

Ailə münasibətləri bu və digər dərəcədə ailənin tipoloji xüsusiyyətlərini əks etdirir. Bu cəhədən ailə münasibətlərini tipoloji axarda təhlil etmək metodoloji baxımdan xüsusilə vacibdir.

Ailədə yaranmış münasibətlərin xarakteri və şagirdin ailədaxili münasibətlərdəki mövqeyi məsələsi pedaqoji əhəmiyyət kəsb edir. Qarşıya təbii olaraq sual çıxır: şagirdin bir şəxsiyyət kimi formalaşmasına ailə münasibətləri hansı şəraitdə məhz neqativ təsir göstərir? Son zamanlar bu məsələ təhsilin sosiologiyası və ailə tərbiyəsinin sosial-psixologiyası istiqamətində diqqəti daha çox cəlb edir.

Müasir dövrdə sosioloji, hüquqi, psixoloji, pedaqoji ədəbiyyatda şagirdin pis oxumasını, davranışındakı mənfi meyilləri bilavasitə valideynlərin boşanması ilə əlaqələndirmək az qala ənənəyə çevrilmişdi. Lakin xüsusilə sosiologiya və sosial psixologiya sahəsində aparılmış fundamental tədqiqatlar məsələnin belə qoyuluşunun birtərəfli və əsassız olduğunu göstərdi.

Ailə hansı şəraitdə neqativ demokratik təsirləri neytrallaşdıra bilmir? K.E.İqoşev və Q.M.Minkovski bu məsələni natamam ailə timsalında nəzərdən keçirərək 4 cəhətə diqqəti cəlb edirlər.

Birincisi, uşaqların davranışı üzərində nəzarətin təşkilində ciddi nöqsanlar əmələ gəlir, onların dərslərinə hazırlaşmaqda intensiv kömək göstərilmir. İkincisi, ailə daxilində və ailənin ətrafında gərgin şərait yaranır. Üçüncüsü, ailənin maddi-məişət imkanları dəyişilir. Dördüncüsü, uşaqla birlikdə qalmış valideyn özünü yüngül aparır, hətta bəzən əxlaqsızlıq edir: uşağın gözü qarşısında təsadüfi adamlarla görüşür, qonaqlarla özünü şit aparır və s.

Müşahidələrimiz göstərir ki, bu cəhətlər natamam ailələrin hamısında özünü göstərmir. Ancaq bununla bahəm nəzərə almaq lazımdır ki, onlar təkcə natamam ailə üçün səciyyəvi deyildir. Müəyyən olunmuş xüsusiyyətlərə ailənin hər bir tipində təsadüf oluna bilər. Neqativ təsirlər vaxtında aradan qaldırılmadıqda yeniyetmənin gözündə valideyn öz nüfuzunu itirir; bu şəraitdə evdə-eşikdə, ailədə tədricən özgələşən yeniyetmə başqalarına həsədlə yanaşır, nəyin bahasına olursa olsun öz yaşıdları arasında şərəfli yer tutmağa çalışır. Nəzarətsizlik şəraitində uşaq asanlıqla neqativ təsirlərə qapılır. Müəlliflər əsaslı sürətdə göstərirlər ki, uşağın pozulması bilavasitə "ailənin tipi ilə deyil", "ailədəki və onun ətrafındakı iqlimlə" şərtlənir.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Dərs vəsaiti. Bakı: Mütərcim, 2016.
2. Kərimova E.M. Erkən tibbi-psixoloji-pedaqoji dioqnostika: Metodik tövsiyə. Bakı: ADPU, 2007.
3. Qaralov Z.İ. Tərbiyə. I və II hissə. Bakı: Nurlan 2006.

В.Ч.Бабаева

Основные особенности и содержание работы воспитания с детьми группы риска

Резюме

В статье анализированы состояния воспитательных работ с детьми группы риска, исследованы научно-исследовательские материалы, собранные методом «экс-постфактума», широко используемые в социологии воспитания. Выявлено, что напряженность, созданная процессами, происходящие в современном обществе (будь это положительная или негативная) напрямую связана с адаптацией детей в этой ситуации. Инновации должна отражаться не только в технических и жизненных вопросах, но и в структуре и содержании образования у детей группа риска. Потому что, новое общество зависит от воспитания и формирования личности людей, являющихся носителями новых качеств.

V.C.Babayeva

The main features of the content and meaning of education in children of risk group

Summary

Article analyzes the state of affairs of educational risk group of children, nurturing sociology widely used "ex-post-facto" research materials collected by the method of investigation. It is certain that the processes taking place in today's society (whether its positive or negative) is directly related to the tension caused by the adaptation of children in this situation. Innovation not only technically, in matters of life, but also the education of children who are at risk should be reflected in the structure and content. Because, the people who are carriers of a new culture and identity formation of society is going through a new qualities.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 07.12.02016

S.R.BƏDİYEV
pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

S.M.AXUNDOVA
Sumqayıt Dövlət Universiteti
(Sumqayıt şəh., 43-cü məhəllə)

AZƏRBAYCANDA QLOBAL TƏHSİL SİYASƏTİ

***Açar sözlər**: kurikulum, standart, inteqrasiya, qloballaşma, məzmun xətti, Boloniya prosesi, kredit.*
***Ключевые слова**: курикулум, стандарт, интеграция, глобализация, линия содержания, процесс болонии, кредит.*
***Key words**: curikulum, standart, integration, globalization, direction, contact, Balony process, kredit.*

Müstəqillik əldə etdikdən sonra Aərbaycanda ictimai həyatın bütün sahələrində müstəqilliyin əsasları yaradılmış, onun qabaqcıl dünya ölkələrinin standartları səviyyəsində qurmaq istiqamətndə işlər həyata keçirilmiş və keçirilməkdə davam edir. Ölkə qarşısında duran ən böyük problemlərdən biri də təhsil sistemini köhnə şablonlardan azad etmək, yeni ictimai-iqtisadi şəraitin tələblərinə uyğun şəkildə formalaşdırmaq, qabaqcıl dünya ölkələrindəki təhsilə inteqrasiya etməklə öz məkanında özünəməxsus xüsusiyyətləri olan təhsil sistemi yaratmaq idi.

Bu problemi yalnız dövlətin, onun müvafiq strukturlarının gücü ilə həll etmək mümkün deyildir. Təhsil hər bir vətəndaşın hər gün izlədiyi sahədir. Ölkə ictimaiyyətinin özündən gələn təşəbbüs, problemin cəmiyyət tərəfindən dərk edilməsi və dəstəklənməsi bu işin uğur qazanmasında vacib şərtdir.

Bunun üçün təhsilin qloballaşdırılması siyasəti, bununla əlaqədar həyata keçirilən islahatların mahiyyətinin açıqlanması, qaranlıq və ziddiyyətli məqamlara aydınlıq gətirilməsi, ona aid qanunauyğunluqların ictimaiyyətin nəzərinə çatdırılması lazımdır.

Qloballaşma anlayışının mahiyyəti, məzmunu bir çoxları üçün o qədər də aydın deyildir. Birinci olaraq bu sözün mahiyyətinə diqqət yetirək.”Azərbaycan dilinin izahlı lüğətində” (III cild, 2006) göstərilir: “Qlobal” sözü latın sözü olub tərcümədə “bütün yer kürəsini bürüyə bilən” mənasını verir.

“Azərbaycan Sovet Ensiklopediyası”nda (III cild, 1979) “qlobal” sözünün iki istiqamətdə tərcüməsi verilir: 1) “qlobal” fransızca “ümumi”, 2) latınca “kürə” və ya “bütün yer kürəsini bürüyən” mənasını verdiyi göstərilir.

“Qlobal” sözünün tərcümələrinə istinad etsək, deyə bilərik ki, qlobal təhsil dedikdə Yer kürəsi üzərində mövcud olan təhsilə ümumi baxış, bu təhsilin üstün, əhəmiyyət kəsb edən ünsürlərinə inteqrasiyası kimi başa düşməliyik.

Qloballaşma dünya ölkələrinin, o cümlədən Azərbaycan Respubikası təhsil sisteminin Avropa və Amerika Birləşmiş Ştatlarındakı qabaqcıl, müasir, inkişafda olan təhsilinə inteqrasiyası deməkdir. Dünya təhsilinə inteqrasiya Azərbaycan təhsil sistemində yeniləşmənin və islahatların aparılmasını tələb edrdi. Ulu öndər Heydər Əliyev təhsillə bağlı çıxışlarında qeyd edirdi ki, ölkəmizdə təhsil islahatı ancaq ölkənin nüfuzunu qaldırmağa yox, həm də ümummilli əhəmiyyətə malikdir. Əgər təhsil bugünkü ümumi tələblərə cavab verərsə, deməli, o istər keyfiyyət, istərsə də əhəmiyyət cəhətcə öz dayanıqlığını saxlaya bilir.

Müasir zamanda təhsil sisteminə verilən ümumi tələb onun qloballaşdırılmasıdır. Qloballaşma ayrı-ayrı ölkələrin təhsil sistemlərinin yaxınlaşmasında və vahid ümumtəhsil məkanlarının formalaşmasında büruzə çıxır. Təhsildə gedən bu proses ümumdünya miqyasında ge-

dən qlobal inteqrasiya və bütövləşmə prosesinin bir hissəsi olmaqla onun ümumi qanunlarına tabedir və bütövlükdə digər sahələrdə gedən proseslərlə vəhdət təşkil edir.

Bəzi mütəxəssislərə görə, təhsil sisteminin qloballaşdırılması, yəni dünya standartları tələblərinə uyğunlaşdırılması üçün iki istiqamətə diqqət yetirmək lazımdır: birincisi ölkənin daxilində təhsil sahəsində əldə edilmiş nailliyyətlərin öyrənilib, ümumiləşdirilməsi və təhlil edilməsindən ibarət olub, ilk növbədə təlim-tərbiyə sahəsində irəliləyişlərin mahiyyət və məzmununu öyrənməklə təhsilin mövcud durumunu, cəmiyyətin tələb və ehtiyaclarına uyğunluğunu müəyyənləşdirmək, bu cəmiyyətin formalaşması istiqamətində nələrin əldə olunduğunu və gələcək üçün hansı potensial imkanların yaranacağını meydana çıxarmağa imkan verər. İkincisi, inkişaf etmiş xarici ölkəkərin iş təcrübəsindəki mütərəqqi cəhətlərin öyrənilib ümumiləşdirilməsi və milli-mənəvi xüsusiyyətlərimizi nəzərə alaraq tətbiqinin həyata keçirilməsi.

Qloballaşma təhsilimizi inkişaf etdirməklə yanaşı, pedaqoji əbəbiyyatımıza yeni terminanlayışlar da gətirmişdir: kurikulum, nəticəyönümlü təlim, summativ və diaqnostik qiymətləndirmələr, taksonomiyalar, fasilitasiya, formativ, portfolio, mentor və s. və i.

Təhsilimizin qloballaşmasını şərti olaraq iki yerə ayırmaq olar:

1. Ümumi orta təhsilin qloballaşması;
2. Ali təhsilin qloballaşması.

1. Ümumtəhsilin qloballaşmasına yanaşmalar müxtəlifdir.

Amerikanın təhsil sisteminə, təhsil sahəsində çalışan tədqiqatçılara görə təhsilin qloballaşması aşağıdakı istiqamətlərdə olmalıdır.

- təhsilin humanistləşdirilməsi;
- təhsildə bərabər imkanların yaradılması;
- təhsildə ədalətliliyin təmin edilməsi;
- təhsildə keyfiyyətin nəzərə alınması.

Onlara görə təhsilalanlara bilik, bacarıq və vərdişlər istənilən tarixi dövrdə, dövlətin təhsil siyasətinə uyğun müxtəlif məzmun və formalarda verilmiş, həmçinin xalqın xüsusiyyətlərini, inkişafını özündə əks etdirmişdir, bunları qloballaşdırmağa ehtiyac yoxdur.

Avropa təhsil məkanında qloballaşmağa başqa mənada, başqa mahiyyətdə yanaşılır: fənn proqramlarının və məzmun standartlarının birinə yaxınlaşdırılması ilə yanaşı təlim metod və ya üsullarının şagirdlərin bilikləri müstəqil əldə etmələrinə imkan verən formalarından istifadə etməklə onların yaradıcılıq qabiliyyətini inkişaf etdirmək.

Nəticəyönümlü təlimin Qərb dövlətlərində XIX əsrdən tətbiq olunmasına baxmayaraq Azərbaycan təhsil sistemində XXI əsrin əvvəllərində tətbiq olunmağa başlamışdır.

Ümumiyyətlə, ümumorta təhsil sistemindəki yeniliklərin hamısını Qərb təhsil sisteminə inteqrasiyanın nəticəsi kimi göstərmək olar.

Müstəqil respublikamızda təhsilin inkişaf etmiş Qərb ölkələrindəki təhsilə inteqrasiyasının əsasları Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2003-cü ildə olmuş Kollegiyasında irəli sürülmüşdür desək, səhv etmərik. Qeyd edilən kollegiyada fasiləsiz təhsil kontekstində şəxsiyyətin, kamil insanın hazırlığı üzrə dünya təcrübəsinə inteqrasiya etmək, Açıq Cəmiyyət İnstitutu –Yardım Fondunun xətt ilə ixtisasartırma təhsilində alternativ xidmətlər göstərən treninq mərkəzlərinin fəaliyyətlərinin dəstəklənməsi,onların təklif etdikləri proqramlara uyğun təlim fəaliyyətinin təşkili tövsiyə olundu.

XXI əsrin başlanğıcından etibarən amerikalı mütəxəssislər dr. F.Şorn, dr. G.Varela, ingiltərəli mütəxəssislər dr. M.Maks, dr. Rey Harris və b. ölkələrindəki təhsil sistemi, innovativ təlim metod və texnologiyaları ilə əlaqəli seminarlar, konfranslar təşkil etmiş, azərbaycanlı mütəxəssislər Amerika Birləşmiş Ştatlarında olmaqla bu ölkədəki ümumorta təhsil sistemi ilə bilavasitə tanış olmuşlar.

Qeyd edilənlər respublikamızda təhsil sisteminin qloballaşmasına, başqa sözlə, inkişaf etmiş Qərb ölkələrindəki təhsilə inteqrasiya etməsinin səbəbi kimi qeyd oluna bilər.

Ümumtəhsil sistemimizin hansı istiqamətlərdə inteqrasiya etməsinə qısaca nəzər yetirək:

- **Akademik standartlar**. Amerika təhsil sistemində şagirdlərin bütün fənlər üzrə bilməli və etməli olduğu məsələlər standartlarda öz əksini tapmalı idi. ABŞ-da standartlar 90-cı illərdə həyata keçirilməyə başlamışdı. Azərbaycan Respublikasında isə Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli qərarı ilə həyata keçirilməyə başladı. Azərbaycan təhsil sistemində standart dedikdə hər hansı fənn üzrə şagirdin əldə edəcəyi bilik ,bacarıq ,vərdişə və ya fənn üzrə öyrədilməli bilik, bacarığın həcminə qoyulan dövlət tələbi kimi başa düşülür.

- **Kurikulum.** ABŞ təhsil sistemində bu anlayışdan XIX əsrin ikinci yarısından etibarən istifadə olunduğu göstərilir.Azərbaycanın pedaqoji ədəbiyyatına isə keçən əsrin 90-cı illərində daxil olmuşdur.Amerika təhsilində kurikulum dedikdə hər hansı fənn üzrə keçirilməli mövzuları özündə birləşdirən sənəd(proqram) nəzərdə tutulur. Bizim təhsil sistemində isə kurikulum daha geniş məzmun və sahələri əhatə edir.Kurikulum təhsilin məzmununu, təşkili, qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir.

- **Əməkdaşlıq (kooperativ) əsaslı öyrənmə.** Öyrənənlərə məqsədin və ya nəticənin daha müvəffəqiyyətlə əldə etməyə imkan verən, iştirakçılararası əlaqə. Azərbaycan təhsil sistemində XXI əsrin əvvəlindən tətbiq edilməyə başlanmışdır.

- **Blum taksonomiyası.** Çikaqo Üniversitetində B. Blumun rəhbərlik etdiyi tədqiqatçılar qrupu tərəfindən 1950-ci illərdə hazırlanmış təhsil məqsədlərinin təsnifatı.Taksonomiya şagirdləri qavramağa istiqamətləndirən ən aşağı (bilmək, anlamaq) səviyyədən yüksək(sintez, dəyərləndirmək) səviyyəyə aparan idraki məqsədlərin iyerarxiyasıdır.

- **İnteraktiv təlim.** Müəllimin şagirdlərlə,şagirdlərin şagirdlərlə əlaqəsi prosesində onların müstəqil şəkildə biliklərə,bacarıqlara, vərdişlərə yiyələnmələrinə, yaradıcı şəkildə formalaşmalarına imkan verən təlimdir.İnteraktiv təlim xüsusi metodların köməyi ilə həyata keçirilir. Azərbaycan təhsil məkanında interaktiv təlim XXI əsrin əvvəllərində həyata keçirilməyə başlanmışdır.

- **Şagirdlərin təlim fəaliyyətinin dəyərləndirilməsi.** "Azərbaycan Respublikasında ümumtəhsilin konsepsiyası (Milli Kurikulum)" konseptual sənədinin qəbulundan sonra (30 oktyabr, 2006-cı il) şagirdlərin biliyinin qiymətləndirilməsinin dioqnostik, formativ, kiçik və böyük summativ kimi formalarından istifadə edilməyə başlanıldı.

- **Fənn kurikulumu.** Fənn proqramlarını əvəz edən, fənnin tədrisi ilə bağlı bütün məsələləri (fənnin məzmunu, təlim strategiyaları,qiymətləndirmə) özündə cəmləşdirən dövlət sənədi. Azərbaycan təhsil sistemində 2006-cı ildən sonra tətbiq edilməyə başlanılmışdır.

- **Portfolio.** Müəyyən vaxt ərzində şagirdlərin öyrənmə müvəffəqiyyətlərini müəyyən etməyə imkan verən sənədlər toplusu. Portfolio şagirdləri düşünməyə sövq edir, testlərə nisbətən daha əyani və dəqiqdir.

- **Çoxşaxəli əqli qabiliyyətlər**. Təhsil liderlərini (o cümlədən qrup liderini) müəyyən etmək üçün vacib kompanentlər sistemidir. 1980-cı illərdə Harvard Universitetinin professoru H.Qardner tərəfindən yaradılmışdır. H.Qardner 7 qabiliyyət müəyyən etmişdir: linqvistik, məntiqi-riyazi, musiqi, məkan, kinestik, fərdlərarsı, fərddaxili.Təlim zamanı qrup liderini seçmək üçün onda hansı qabiliyyətlərin olduğunu irəlicədən müəyyən etmək lazımdır. Qabiliyyətlər şagirdin fənnə olan marağını nəzərə alaraq müəyyən edilməlidir.Azərbaycan təhsil sistemində hələlik, o qədər də həllini tapmayan problemdir.

- **Fasilitator.** Müəllimə aid anlayışdır. Yeni təlim metod və texnologiyaları ilə keçilən dərslərdə müəllimə aid funksiyaları bildirir. Belə dərslərdə müəllim rəhbər, təşkilatçı, istiqamətverən, dizayner kimi funksiyaları yerinə yetirməlidir.

- **Standartın strukturu.** Məzmun xətti, əsas standart, alt standartlar kimi struktura malikdir. Azərbaycan təhsil sistemində 2006-cı ildən sonra tətbiq edilməyə başlanmışdır.

- **Nəticəyönümlü təhsil.** Əldə olunması nəzərdə tutulan təlim müvəffəqiyyətlərinin nəticələr formasında əvvəlcədən müəyyən edilməsi deməkdir.

- **Təlim strategiyaları.** Təlimin təşkilinə verilən tələbləri, təlim prosesinin planlaşdırılmasını, təlimim təşkili forma, metod və vasitələrini nəzərdə tutulur.

2. Ali təhsilin qloballaşmasında Ümumavropa ali təhsil məkanının formalaşdırılması ideyası əsas amil oldu. İdeyanı Avropanın 4 böyük dövlətinin – Böyük Britaniya, Almaniya, İtaliya və Fransanın təhsil nazirləri irəli sürdülər. 1988-ci ildə İtaliyanın Boloniya şəhərində Avropanın ən qədim universitetinin 900 illik yubileyində "Baloniya xartiyası" qəbul edildi. Sonralar bu ad dəyişdirilərək "Boloniya prosesi" adlandırıldı. Hazırda "Boloniya prosesi"nə Avropanın 49 ölkəsi qoşulmuşdur. 2005-ci il may ayının 19-da Norveçin Bergen şəhərində keçirilən konfransda Azərbaycan Boloniya prosesinin həqiqi üzvü kimi təsdiq edildi.

Bəzi mənbələrə görə, Boloniya prosesinin başlıca məqsədi institut və universitetlərdə təhsilin səviyyəsini artırmaqla, qabiliyyətli təhsil alanların ABŞ-a axınınn, qarşısını almaq, həm də Avropanı yüksək ixtisaslı kadrlarla təmin etmək idi.

Başqa mənbələrə görə Boloniya prosesinin qarşısında aşağıdakı məqsədlərin durduğu göstərilir:

- Prosesə qoşulan hər bir dövlətin ali məktəbləri tərəfindən asan və müqayisə edilə bilən kredit sisteminin qəbul edilməsi;
- Universitetlərin və digər ali təhsil müəssisələrinin sərbəstliyi və məsuliyyətini təmin edən muxtariyyət hüquqlarının verilməsi;
- Tələbələrin, müəllimlərin vahid ümumavropa təhsil məkanında mobilliyinin təmin edilməsi;
- Bakalavr, magistr və doktorantura pillələrinin daxil olduğu üçpilləli təhsil sisteminin qəbul edilməsi;
- Ali təhsilin ümumavropa məkanının vahid standartlarının qəbul edilməsi;
- Ali təhsilin keyfiyyətlərini təmin edən vahid mexanizmlərin işlənib qəbul edilməsi;
- Avropa məkanında bütün ali təhsil müəssisələri və iş verənlər tərəfindən tanınan diploma Avropa əlavəsinin qəbul edilməsi;
- Ömür boyu təhsil və onun hər bir ölkə vətəndaşı üçün əl yetən olması konsepsiyasının qəbul edilməsi;
- Tələbələrin təhsilin obyektindən subyektinə çevrilməsi istiqamətində işin aparilması;
- Keçilən fənlərin və proqramların unifikasiyasının təmin edilməsi;
- Alınan ixtisasların müqayisə edilməsinin asanlaşdırılması;

Qeyd edilənləri Boloniya prosesinin prinsipəri kimi səciyyələndirsək, demək olar ki, bu prinsiplərin bir qismi Azərbaycanın ali təhsil müəssisələrində həyata keçirilməkdədir.

Ali təhsil müəssisələrimizin Avropa məkanındakı institut və universitetlərə inteqrasiya etməsini aşağıdakılara istinadən demək olar:

- Respublikamızda ali təhsilin bakalavirat pilləsinin qəbulu;
- Kredit (latın mənşəli söz olub "borc" mənasını verir) sisteminə keçid. Kredit fənlərin öyrənilməsinə ayrılan ölçü (vaxt) vahididir. Bir kredit 15 saata bərabər tutulur;
- Ali təhsildə 100 ballı sistemə keçid. 50 bal imtahana qədər (məşğələlərdə iştirak etməyə, sərbəst iş və ya kurs işi yazmağı və s. görə), 50 bal imtahan nəticələrinə görə;
- Fənn seçiminə görə (məcburi keçilməli fənlər,seçmə fənlər);
- Tədris planları (fənn proqramı, müəllimin və tələbənin fərdi iş planı, illik işçi tədris planı);
- Bakalaviriat ali təhsil pilləsini başa çatdırmaq üçün nəzərdə tutulmuş 240 krediti tez (istedadlı tələbələr nəzərdə tutulur) və gec ödəməklə əlaqədar ali təhsilin 3-3,5 ilə tamamlanmasının və ya 5 və daha çox ilə tamamlanmasının mümkünlüyü.

İstər ümumorta, istərsə də ali təhsilimizin Qərb və Avropa məkanındakı təhsilə inteqrasiyası respublikamızın beynalxalq aləmdə tanınması, təhsilin keyfiyyətinin yaxşılaşması, dövlətimiz üçün yüksək səviyyəli, ixtisaslı kadrların formalaşması deməkdir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsil sahəsində İslahat Proqramı. Bakı, 1999.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının materialları. Bakı: Təhsil, 2003.
3. Bədiyev S. Yeni təlim texnologiyalarından mühazirə mətnləri. Bakı, "Dərələyəz-M", 2009.
4. Boloniya prosesi və Azərbaycan Respublika qəzeti. 26 yanvar 2008-ci il.
5. Əhmədov A. Müəllimlər üçün fənn kurikulumlarına aid təlim kursunun materialları. // Kurikulum. № 2, 2009
6. Əliyev İ. Ali təhsildə kredit sistemi. Bakı, 2009.
7. Əliyev İ., Cəfərov C. Avropada Boloniya prosesi və onun Azərbaycanda perspektivləri. Bakı: ULU İKF, 2009.
8. Mehrabov A. və b. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006.
9. Mehrabov A. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.
10. Müəllim hazırlığının və orta təhsilin perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında) Bakı: Adiloğlu, 2005.
11. // Sosial və Humanitar elmlərin müasir problemləri. 2015, № 14
12. Şorn F. Fəal təlim. Bakı, 2003

С.Р.Бедиев, С.М.Ахундова

Политика глобальной политики в Азербайджане

Резюме

В статье объясняются влияние системы Заподного образования на реформы как в среднем, так и в высшем образовании, направления и их содержания в процессе интеграции.

S.R.Badiyev, S.M.Akhundova

Global educational policy in Azerbaijan

Summary

The article deals with the influence of the western educational system to the reforms held at secondary schools and high educational institutions, the context and direction clearly seen during the integration process.

Rəyçi: prof. F.N.İbrahimov

Redaksiyaya daxil olub: 31.01.2017

Ş.M. CƏFƏROVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

AİLƏDƏ ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞMASININ SOSİAL-PSİXOLOJI XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *sosial tərbiyə, ailə tərbiyəsi, uşaq psixologiyası, şagird şəxsiyyəti.*
Ключевые слова: *социальное воспитание, семейное воспитание, детская психология, личность учащихся.*
Keywords: *national education, family education, psychology of a child, the identity of students.*

Ailə tərbiyəsinin formalaşmasının tarixi çox qədimdir. Həm tarixi milli dəyərlər əsasında, həm də dini zəminə istinad edərək təşəkkül tapan milli ailə qanunlarının digər xalqlarda olan ənənələrlə oxşar tərəfləri olsa da, xüsusi özəl fərqlilikləri də mövcuddur. Dünyada tarixən müxtəlif tərbiyə sistemləri formalaşaraq müxtəlif yerlərdə uyğunluq nöqteyi-nəzərindən tətbiq olunmağa başlanılmış və davam etməkdədir. Lakin məqsəddən asılı olaraq öncədən qərara gəlinməlidir: biz icraçı, yoxsa yaradıcı insan ərsəyə gətirmək istəyirik? Bunlardan hər birinin yaradılması üçün müvafiq üsul və vasitələr vardır. Böyüklərin tapşırıqlarına qeyd-şərtsiz əməl edən, sözə qulaq asan, nizam-intizam qaydalarına həssas yanaşan, təyin olunmuş yolla gedən və bunu həyat tərzinə çevirən tərbiyəli şəxs obrazı bizə yaxşı məlumdur. Dikbaş, böyüklərin yanında fikir söyləməkdən çəkinməyən, müəllimlərlə mübahisə edən, qaydaları pozmaqda maraqlı olan, "ipə-sapa yatmayan" tərbiyəsiz və ya "çətin tərbiyə olunan" uşaq obrazı da tez-tez rast gəlinən real faktlardandır.

Ailə dəyərləri sağlam cəmiyyətin təşəkkül tapması üçün ən vacib amillərdən biridir. Qloballaşan dünyada həyatın bir çox sahələrində sürətlə gedən dəyişikliklər, yeniliklər xalqların və millətlərin həyata qarşı baxışlarına, sosial mühitə uyğunlaşmaları və subyektlərlə münasibətlərinə də öz təsirini göstərir.

Təbii ki, qarşılıqlı hörmət və hərtərəfli məsuliyyət üzərində qurularaq məqsədəuyğun formada yaşayan ailələrin sayı daha çox ola bilər. Çünki cəmiyyət butövlükdə özü normaldır. Lakin daxilində bir sıra boşluqların, çatışmamazlıqların təzahür etdiyi ailələr də hər bir dövr üçün xarakterik olub. Bu tipli ailələrdə övladla valideyinin münasibətləri üzrə yaranan bir çox maniələr onlar arasında sədd kimi dayanır.

Prof. R.İ.Əliyevin göstərdiyi kimi, ailədə atanın öz münasibətindən irəli gələn məsələlərə biganə yanaşması ailələrdə rast gələn xarakterik hallardan biridir. Ailə başçısının öz öhdəliyindən boyun qaçırması ikitirəliyə, inamsızlığa gətirib çıxarır. Bu zaman yük ailədə, əsasən, qadının üzərinə düşür. Nəticədə, qadın kişiyə qarşı münasibətində dəyişiklik baş verə bilir. O, ailəsində meydana gələn təbii və real problemlərin həllini çox zaman özü həyata keçirdiyindən həyat yoldaşına (kişiyə) qarşı vermiş olduğu dəyər aşağı düşür (3). Yaranmış bu neqativ hal isə evdə balansın pozulmasına, ziddiyyətə və sonda ailə dağılmasına gətirib çıxara bilir. Digər tərəfdən, uşaq da yaşadığı ailədə atanın tutduğu mövqeyi görür, təhlil edir və yaranmış vəziyyətə görə məyus olur. Çünki hər bir övlad öz ailəsinin möhkəm və ona hər zaman dayaq olmasını istəyir. Atanın laqeyidliyi ilə üzləşən uşağın məktəbdə özünü aparmasında, müəllimlərlə münasibətində problemlər ortaya çıxa bilir. Bu çatışmamazlıqlar uşağın normal inkişafı üçün real təhlükə mənbəyi rolunu oynayır. Övlad ailədaxili gərginliyin onun psixikasına vürduğu zərbənin "qisas"ını, bir çox hallarda məktəb yoldaşlarından çıxarmağa çalışır. Yaranmış gərginlik həm müəllim-şagird, şagird-şagird münasibətlərinə, həm də uşağın tədrisdəki nailiyyətlərinə mənfi təsir göstərir.

Görkəmli Azərbaycan psixoloqu, prof. R.İ.Əliyevin "Şəxsiyyət psixologiyası" mövzusundakı araşdırmalarına görə "Valideyinlərin bir-birinə qarşı münasibətlərindəki meydana gələn anlaşılmazlıqdan yaranan gərginlik uşaq psixologiyasına ağır təsir edən faktlardandır. Xarakter uyğunsuzluğu, maddi çətinlik, sosial statusun fərqli olması və bu kimi amillər ailədə kişi-qadın münasibətlərinin hansı səviyyədə təzahür etməsində rol oynayır" (4). Sadalanan şərtlərin aradan qaldırılması ailə iqliminin normal vəziyyətə gətirilməsinə xidmət etməlidir və bu da ən əsas uşağın psixikasının təsirlərdən azad olmasına istiqamətlənməlidir.

Ailə mühitində ziddiyyət yaranan məqamlardan biri də böyüklərin hökmranlığının davamlı olması və bu səbəbdən yeniyetmələrin azad şəkildə yaşama, qərar qəbuletmə imkanlarının məhdudlaşdırılmasıdır. Ənənə halını alan bu yanaşma çox zaman inkişafın, müstəqilliyin, sərbəst fəaliyyətin qarşısını alır. Lakin ailə dəyərləri, soykökə bağlılıq, nizamlanmış böyük-kiçik münasibətləri fonunda belə ciddi münaqişənin törətdiyi fəsadlar bir çox hallarda göz önünə gətirilmir. Amma bu fakt olaraq qalır. Fikrimizi əsaslandırmaq üçün ailələrdə baş verənlərin fonunda bir neçə nümunəyə müraciət edə bilərik:

Ailədə uşağın valideyinləri ilə yanaşı, bəzən babası və nənəsi də yaşayır. Baba üçün onun oğlu hələ də uşaq olaraq qalır. Bu da onun öz oğlu və ailənin digər üzvləri ilə münasibətlərində açıq hiss olunur. Bəzən həyat fəaliyyətlərində ortaq olmayan fikirlər və ziddiyyətlər ata-oğul arasında olan ünsiyyətə öz mənfi təsirini qaçılmaz edir. Nəvəsinə olan sonsuz sevgisi və bağlılığı zəminində öz övladı ilə qarşı-qarşıya gəlməyə belə çəkinməyən baba məqamında dəyərlərə sığınaraq nəvəsini müdafiə etməklə atanın bu vəziyyətdə verməli olduğu tərbiyə işinin qarşısını almağa çalışır. Bu da bir çox neqativ hallara gətirib çıxarır. İlk öncə, bu cür yanaşma ailədə ikitirəliyə rəvac vermiş olur. Nəticədə, uşağın bu formada tərbiyəvi məzmunda istiqamətləndirilməsi onda arxayınlığın, məsuliyyətsizliyin geniş vüsət tapması üçün münbit şərait yaradır.

Digər tərəfdən, ən ağır hal uşağın təlim-tədris prosesində göstərdiyi nəticələrin qənətbəxş olmaması, öyrənmənin, mənimsəmənin səviyyəsinin aşağı düşməsidir. Bu da təbiidir. Çünki uşaq-şagirdə qarşı tətbiq edilən nəvazişli təsirlərin belə bir nəticə ilə təzahür etməsi gözlənilən olmalıdır.

Evdə babanın (və ya nənənin) real dəstəyinə sahib çıxmış uşaq çox vaxt məktəb həyatında da bu imtiyazdan sui-istifadə etməyə cəhd göstərir. Yaranan problem sinifdə-dərs prosesində müllimlə şagird arasında olan münasibətlərə də təsirsiz ötüşmür. Belə vəziyyətlərdə şagird öz məsuliyyətindən yaxa qurtarmağa çalışır, fənn müəllimlərinin təlim proqramı üzrə verdikləri tapşırıqlara dırnaqarası baxır. Tədrisdə baş verən ciddi geriləmələrin qarşısını almaq üçün fənn müəllimləri və məktəb rəhbərliyi tərəfindən çalınan həyəcan təbilinə cavab reaksiyası kimi valideyinlərin (ata və ya ananın) gördüyü tədbirlər onların ailədə "səlahiyyətlərinin məhdudlaşdırılması" səbəbindən əsaslı effektiv təsirini göstərə bilmir. Prosesin belə davam etməsi şagirdin inkişaf da digərlərindən çox geridə qalması, məktəbdə tədris olunan fənlər üzrə mənimsəmə səviyyəsinin qabarıq formada dəyişməsi ilə nəticələnir.

Görkəmli Amerika pedaqoqu Fillip Şlexti özünün "XXI əsrin məktəbi.Təhsil islahatının prioritetləri" əsərində yazır ki, o, sahibkarlarla, iş adamları və məktəb funksionerləri ilə çoxsaylı sorğular aparmış və onlardan belə bir suala cavab istəmişdir? "Siz məktəbdən nə istəyirsiniz?" – cavab isə belə olmuşdur: "Bizə elə insanlar lazımdır ki, onlar müstəqil, sərbəst öyrənməyi bacarsınlar". Müəllif bununla demək istəyir ki, əgər şagird müstəqil öyrənməyi, məqsədinə çatmaq üçün yollar tapmağı, bu və ya digər problemləri həll etməyi və problemin həlli üçün müxtəlif informasiya mənbələrindən istifadə etməyi bacarırsa, onda peşəkarlıq səviyyəsini yüksəltmək onun üçün çox asan olacaqdır.

Beləliklə, məktəb mühitində müəllim-şagird münasibətlərini tənzimləyən əsas faktorlardan biri kimi uşağın ailədəki davranışı, digərləri ilə qarşılıqlı münasibətləri əvəzsiz əhəmiyyət

kəsb edir. Bu mənada, evdəki münasibətlərdə "böyüklər"dən gələn hegemon mövqeyin nümayişi şagirdə öz mənfi təsirini qaçılmaz edir.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası: Dərslik. Bakı: Mütərcim, 2016.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003.
3. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı: Araz, 2000.
4. Əliyev R.İ., Əliyeva G. Şəxsiyyət psixologiyası. Bakı: ADPU nəşriyyatı, 2010.
5. Kazımov N.M. Məktəb pedaqogikası: Dərslik. Bakı: OKA Ofset, 2009.

Ш.М.Джафарова

Социольно-психологические особенности формирования личности учащихся в семье

Резюме

В статье исследуются возможности воспитания личности у детей младшего возраста, выясняются пути реализации этих возможностей. Устанавливается, что посредством игр, семейных трудов, семейных бесед можно прививать воспитание гражданства у детей младшего возраста. Статья значима в работе педагогов-исследователей и учителей практиков.

Sh.M.Jafarova

On the formation of work for citizenship education

Summary

The article investigates the possibility of citizenship education for young children, it turns out the realization of these opportunities. It is stated that through the games, family papers, family conversations can instill citizenship education for young children. The article is significant in the work of teachers, researchers and teacher practitioners.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 07.12.2016

T.A.ƏFƏNDİYEVA

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şamaxı filialı)
(Şamaxı şəh.)

UŞAQLARDA MİLLİ VƏTƏNPƏRVƏRLİK HİSSİNİN İNKİŞAFI

Açar sözlər: *milli vətənpərvərlik hissi, vətənə məhəbbət, sədaqət hissi, fədakarlıq, məsuliyyət.*
Ключевые слова: *национально-патриотическое чувства, любвь к родине, чувства преданности, самоотверженность, ответственность.*
Key words*: feeling of patriotism, feeling of love and loyalty to motherland, selflessness, responsibility*

Azərbaycan Respublikasının yenidən müstəqillik əldə etməsi tarixin xalqımıza bəxş etdiyi ən böyük səadətdir. Lakin xalqımız bu səadəti heç də asanlıqla əldə etməmişdir. Minlərlə qeyrətli, igid və cəngavər oğullarımızı itirmiş, dəhşətli bəlalarla üzləşməli olmuşuq. Xalqımızın qarşılaşdığı sosial-iqtisadi çətinliklər hələlik aradan qaldırılmamış, ərazimizin 20%-i erməni işğalçılarının tapdağı altında qalmış, bir milyondan çox soydaşımız elindən, obasından, yurd-yuvasından didərgin salınmış, çadır düşərgələrində dözülməz şəraitdə yaşamalı olmuşlar. Bütün bunlar xalqımızın, eləcə də gənclərimizin psixikasına, xüsusən onların emosiya və hisslərinə təsirsiz qalmamış, onlarda bədbinlik, öz qüvvələrinə inamsızlıq hissinin yaranmasına, qismən də olsa, təsir göstərmişdir.

Belə bir vaxtda gənclərimizdə milli vətənpərvərlik hissinin tərbiyəsi məsələsi çox böyük aktuallıq kəsb edir. Hər bir fərdin daxilən yaşadığı hisslər, onun özünə, ətraf aləmə bəslədiyi və məxsusi səciyyə daşıyan şəxsi münasibətlərdən ibarətdir.

İnsan hissləri onun tələbatları ilə şərtlənir. Tələbatların inkişafı və dəyişməsi, onun hisslərinə mühüm təsir göstərir. Mədəni tələbatların inkişafı insan hisslərinə iki istiqamətdə təsir göstərir. Belə ki, həm hisslərin məzmunu, həm də təzahür xüsusiyyətləri dəyişir.

İnsanın hisslərində onun təcrübəsi, ictimai-siyasi həyat tərzi, adət etdiyi rəftar və davranışı da mühüm rol oynayır. Belə ki, iki müxtəlif həyat tərzi keçirən, müxtəlif davranışa malik olan adamda eyni obyektə bəslənilən hisslərin məzmunu tamamilə fərqli olur. Əgər biri varlanmaq hərisliyi hesabına kimisə məhv edir, ona qarşı amansızlığından peşmançılıq çəkmirsə, digəri əksinə, müəyyən bir qəbahətə yol verdikdə, bu hərəkətləri üçün uzun müddət narahat olur və bir daha belə etməməyə səy edir.

İnsanın hissləri çox rəngarəngdir. Vətənpərvərlik, şadlıq, kədər, gümrahlıq, yorğunluq, zəiflik, qəm, qüssə, təəssüf, qorxu, qəzəb, dəhşət, intizar, narahatlıq, şübhə, təəccüb, sevgi, nifrət, kinayə, qısqanclıq, hörmət, həya, iftixar və s. kimi yüzlərlə hisslər vardır. İnsan hisslərinin rəngarəngliyi onun özünün ətraf varlığa müxtəlif münasibət bəsləməsindən irəli gəlir. Axı, insan təbiətə, cəmiyyətə, əmək fəaliyyətinə və onun nəticələrinə, müəyyən cəmiyyət miqyasında mövcud olan əxlaq normalarına, ailə münasibətlərinə bir sözlə, gerçəkliyə hər hansı bir münasibət bəsləyir.

Milli mənsubiyətimizə xas olan ən mühüm əxlaqi hisslərdən biri də vətənpərvərlik hissidir. Onun əsasını cəmiyyətimizin tələblərinin dərk olunması təşkil edir. Belə dərketmə, milli dövlətçiliyimizin mənafeyini tələb edən nə varsa, onların hamısını mütləq yerinə yetirmək arzusuna və istəyinə istiqamətlənməlidir.

Milli dövlətçiliyimizin inkişafında və onun möhkəmləndirilməsində mühüm və həlledici rol oynayan qüdrətli amillərdən biri vətənə məhəbbət, ona dönməz sədaqət hissinin uşaqlarımızda formalaşmasından ibarətdir. Milli vətənpərvərlik hissi çox böyük təsir gücünə malik bir hissdir. Bu hiss, milli, hüquqi dövlətimizə cəmiyyət üzvlərinin hər birinin sədaqət və məhəbbətində, onun qüvvətlənməsi və inkişafı yolunda fədakarlıq göstərmək-

də, onu daxili və xarici düşmənlərdən qorumaqda, yeri gəldikdə vətənin uğrunda qəhrəmanlıqla şəhid olmaqda ifadə olunur.

Vətənpərvərlik bu günün işi deyildir. Onun çox qədim bir tarixi vardır. İnsanların öz elinə-obasına, öz ocağına, torpağına, öz xalqına, adət-ənənələrinə məhəbbət və sədaqətini ifadə edən bu hiss, çox qədim zamanlardan meydana gəlmişdir. Hələ yazılı ədəbiyyat yox ikən insanlar vətənə olan məhəbbət və sədaqətini folklor materiallarında-nağıllarda, oxşamalarda, atalar sözlərində, zərb məsələlərdə ifadə etmişlər.

Xalqın keçmiş tarixini, onun vətənə olan məhəbbətini əks etdirən şifahi xalq ədəbiyyatı materialları əsrlər boyu ağızdan-ağıza gəzmiş, dillər əzbəri olmuş və xalqın ictimai həyat tərzini qəsbkarlara, ədalətsiz şahların hökmranlıqlarına, zülmkarlıq və qəddarlıqlarına qarşı mübarizə motivlərini özündə əks etdirmiş və burada insanların öz vətəninə, elinə, obasına olan tükənməz sevgi və məhəbbəti, arzu və istəkləri tərənnüm edilmişdir.

Dövlətimizin hər bir üzvünün vətən uğrunda çalışması, vətənin daha da inkişaf etməsi uğrunda səy göstərməsi, onu düşmənlərdən qorunması ümumxalq xarakteri daşıyır. Milli vətənpərvərliyin böyük gücü və qüdrəti də məhz onun ümumxalq səciyyə daşımasındadır.

Bizim milli vətənpərvərliyimiz fəal və güclü təsir qüvvəsinə malik vətənpərvərlikdir. Milli vətənpərvərlik cəmiyyət üzvlərinin hər birindən doğma vətəni, xalqı yolunda əzmkarlıq göstərməyi tələb edir. Milli vətənpəvərlik mücərrəd anlayış olmayıb, vətən yolunda hər cür fədakarlıqdan, əziyyət və qurbandan çəkinməyən bir vətənpərvərlikdir. Vətən üçün fəallıq göstərmək, onun yolunda əzmkarlıq göstərmək, yaşadığımız cəmiyyətin hər bir üzvünün mənəvi borcudur.

Milli vətənpərvərlik hissi anadangəlmə olmayıb, düzgün təşkil edilmiş tərbiyənin və uşağın göz açıb böyüdüyü həyat şəraitinin məhsuludur. Bu mənada uşaqlarda vətənpərvərlik hissinin fitri olmasını qəbul etmək və ona özbaşına formalaşan bir proses kimi baxmaq olmaz.

Tərbiyə prosesində uşaqlara sadəcə olaraq vətənpərvərlik anlayışını öyrətməklə, bu barədə onlara müvafiq bilik verməklə kifayətlənmək olmaz. Tərbiyə işini elə təşkil etmək lazımdır ki, bu biliklər uşaqlarımızın əxlaqi keyfiyyətlərinə çevrilsin.

Uşaqlarımızı içtimai-faydalı əməyə hazırlamaq, onları yüksək vətənpərvərlik ruhunda tərbiyə etmək valideyn və məktəblərimizin təxirəsalınmaz vazifəsidir.

Hər bir valideyn, hər bir müəllim uşaqlarımızı tərbiyə edəndə, onlara təhsil verməkdə, mənəviyyatlarini inkişaf etdirəndə onlara milli vətənpərvərlik hissi aşılamağı qarşılarına əsas vəzifə kimi qoymalıdır.

Milli əxlaqımız tələb edir ki, uşaqlarımız hər an, hər bir şəraitdə özünü vətənin bir övladı, xalqın bir hissəsi, kollektivin bir üzvü hesab etsin, vətənin, xalqın rifahı uğrunda çalışsın, öz şəxsi səadətini vətənin, xalqın xeyrinə fəaliyyət göstərməkdə görsün, Vətən, xalq naminə hər cür fədəkarlıqlara hazır olsun. Bu, milli vətənpərvərliyin ən mühüm xüsusiyyətlərindəndir. Elə buna görə də, uşaqlarımızda müstəqil dövlətçiliyimizə hörmət və məhəbbət hissini inkişaf etdirmək, onları dövlətimizə hədsiz sədaqət ruhunda tərbiyə etmək fəaliyyətimizin əsasını təşkil etməlidir.

Milli vətənpərvərlik hissinin tərbiyəsi mahiyyət etibarı ilə digər əxlaqi sərvətlərlə (sədaqətlilik, işgüzarlıq, cəsarətlilik, xeyirxahlıq, mərdlik və s.) bilavasitə əlaqədardır. Lakin qeyd etmək lazımdır ki, milli vətənpərvərlik hissi öz məzmununa, spesifik xüsusiyyətlərinə görə sadaladığımız keyfiyyətlərdən fərqlənir.

Vətənpərvərlik hissi çox erkən vaxtlardan özünü biruzə verir. Uşaq hələ nitqə yiylənməzdən əvvəl ata-ananın, ailənin digər üzvlərinin mehriban münasibətlərindən, onların, uşağı əzizləmələrindən xoşhal olur, və valideynlərin münasibətlərinə emosional reaksiya verir. Elə bu zamandan başlayaraq, vətənpərvərlik uşaqda valideynlərinə, ailənin digər üzvlərinə bağlılıq şəklində özünü biruzə verir. Sonralar bu hiss bir sıra amillərin təsiri nəticəsində formalaşmağa başlayır.

Tədricən uşaq böyüyür, o, sadəcə olaraq ata-anaya, bacı-qardaşa deyil, həm də yaşadığı evə, öz küçə və həyətlərinə qarşı emosionallıq göstərir. Yaş artdıqca, onun əhatə dairəsi də artır, uşaqda öz kəndinə, şəhərinə bağlılıq hissi təşəkkül etməyə başlayır.

İlk vaxtlar uşaq öz valideynlərinin doğma kəndinə, elinə, obasına, təbiətə olan münasibətini mənimsəyir. Uşaq öz yaşadığı yerə valideynlərinin gözü ilə baxır, gözəllikləri duymağa başlayır. Valideynləri uşağın diqqətini kəndin, şəhərin gözəlliklərinə cəlb edir, sadə, lakin maraqlı söhbətləri ilə uşağın hisslərinə istiqamət verir, onlara doğma yurduna məhəbbət tərbiyə edirlər.

Uşaq 6-7 yaşına çatdıqda, valideynlərinin, digər adamların əməyi ilə, bir sıra içtimai hadisələrlə tanış olur. Belə tanışlıq ata-ananın, bağçada tərbiyəçilərin vasitəsi ilə həyata keçirilir. Onlar uşaqlara vətən haqqında sadə biliklər verir. Belə biliklər nağıllar, şerlər, gəzintilər əsasında mənimsənilir.

Uşaqlar hələ bağçada ikən məktəb təliminə psixoloji cəhətdən hazırlanır, həm də onlar məktəbə vətən haqqında yaşlarına uyğun informasiya ilə gəlirlər. Məktəbdə sinif müəllimi uşaqların vətən haqqında təsəvvür və informasiyalarını müəyyən sistemə salmaqla onlarda milli vətənpərvərlik hissi üçün səciyyəvi olan əlamətlərin formalaşmasına imkan yaradır. Milli vətənpərvərlik hissini inkişaf etdirmək üçün tərbiyəçilər bir sıra üsullardan istifadə etməlidirlər. Üsullar çox və rəngarəngdir. Bunlardan bir neçəsinə toxunmağı lazım bildik.

1. İnandırma üsulu. İnandırma üsulu ilə uşaqlarda milli vətənpərvərlik hissinə inam yaratmaqla onların əqidəsinə təsir göstərilirr. Bunun üçün ilk növbədə uşaqlara milli vətənpərvərlik hissi barədə daha müfəssəl informasiyalar verilməli, konkret nümunələr əsasında onlarda inam yaradılmalıdır.

2. Nümunə üsulu. Bütün əxlaqi fəzilətlərin, o cümlədən milli vətənpərvərlik hissinin formalaşmasında nümunə güclü təsir qüvvəsinə malikdir. Vətənpərvərlik mövzusunda ədəbi-bədii əsərlərin, kino-filmlərin müsbət qəhrəmanlarının, gənclərin gündəlik rastlaşdıqları müharibə veteranlarının nümunələri də bu cəhətdən faydalı materiallardır.

Yuxarıda qeyd etdiyimizi izah etmək, onların mahiyyətini uşaqlara mənimsətmək üçün ilk növbədə nümunə üsulundan istifadə olunmalıdır. Belə nümunələr milli vətənpərvərlik hissinin tərbiyəsi işinin təsir qüvvəsini artırır.

3. Rəğbətləndirmə üsulu. Bu üsul uşaqların rəftar, davranış və fəaliyyətini tənzimləyir, onları vətənpərvərlik hissi ilə silahlandırır. Rəğbətləndirmə üsulundan istifadə edərkən, milli vətənpərvərlik tərbiyəsinin tələblərini nəzərə almaq lazımdır ki, uşaqlar bu üsulun vasitəsi ilə milli vətənpərvərlik hissi tərbiyəsinin qayda və qanunlarını mənimsəyə bilsinlər. Bütün bunlar uşaqların məsuliyyətini artırır və milli vətənpərvərlik hissinin formalaşmasına müsbət təsir göstərir.

Milli vətənpərvərlik hissi tərbiyəsində təlim fəaliyyətinin də rolu çox böyükdür. Təlim və tərbiyə biri digərindən ayrılıqda götürülməyən, biri digərini tamamlayan pedaqoji-psixoloji prosesdir. İnkar etmək olmaz ki, uşaqlar təlim prosesində bilik, bacarıq və vərdişlərə yiyələnir, bir şəxsiyyət kimi inkişaf edib formalaşırlar. Təlim prosesində uşaqlar elmi biliklərə yiyələnməklə, həm də vətənə bağlılığı, onu sevməyi, lazım gəldikdə heç bir çətinlikdən qorxmadan onun yolunda hər cür fədəkarlıqlar göstərməyi öyrənirlər.

Ayrı-ayrı mövzuları keçərkən, tərbiyəçi qarşısına yalnız bilik vermək məqsədini qoymur, bu prosesdə o, həm də milli vətənpərvərlik hissinin formalaşmasına səy edir. Məsələn, S.Vurğunun məşhur «Azərbaycan» şerini izah edərkən tərbiyəçi öz qarşısına uşaqlara vətən haqqında bilik vermək və yaxud şeri onlara əzbərlətmək məqsədi qoymur. O, həm də uşaqlara öz elini, obasını, vətənini sevmək, ona qəlbən bağlı olmaq hissini formalaşdırır.

Uşaqlarda vətənpərvərlik hissinin tərbiyəsinə və onun inkişaf etdirilməsinə məsuliyyətlə və planlı şəkildə yanaşmaq lazımdır. Valideynlərin, uşaq müəssisəsində fəaliyyət göstərən tərbiyəçilərin, məktəblərimizdə fəaliyyət göstərən müəllimlərin ardıcıl, məqsəd-

yönlü və planlı şəkildə yanaşması nəticəsində milli vətənpərvərlik hissini tərbiyə və inkişaf etdirmək olar. Bu məqsədə müvəfəqiyyətlə nail olmaq üçün hər bir valideyn, eləcə də tərbiyə müəssisələrində fəaliyyət göstərən hər bir tərbiyəçi və müəllim milli vətənpərvərlik hissinin, mahiyyətini, onun psixoloji əsaslarını və vəzifələrini dərindən dərk etməli, bu vacib problemin tərbiyə və inkişaf etdirilməsinə məsuliyyətlə yanaşmalıdırlar.

Ədəbiyyat

1.Ağayev Ə.Ə. Vətəndaş olmağa borclusan. Bakı, 1979.
2.Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, 1991.
3.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı, 2003.
4.Bayramov Ə.S, Uşaqlarda əxlaqi hisslərin tərbiyəsi. Bakı,1963.
5.Nəsrəddin Tusi. Əxlaqi nəsri. Bakı, 1989.
8. Əzizov Q.Q. Psixologiya. Bakı, 2011.
9.expert.gov.az
10.psixologiya.net

Т.А.Эфендиева

Развитие национально-патриотического чувства у детей

Резюме

В статье исследуется проблема чуства национального патриотизма. Национально-патриотическое чувство выражается в преданности и любви каждого члена общества к государству, его самоотверженности на пути к укреплению и процветанию Родины, защите ее от внешних и внутренних врагов, если понадобится, бороться за ее идеалы, не щадя своей жизни.

T.A.Afandiyeva

Development of patriotism feeling in children

Summary

The feeling of patriotism is explored in the article. Patriotism is described as a love and loyalty of every member of the society towards the country, showing selflessness in its prosperity and growth, defending it from internal and external enemies and when appropriate, being a martyr heroically for the country.

Rəyçi: dos.Q.Q.Əzizov

Redaksiyaya daxil olub: 19.12.2016

S.M.ƏHƏDOVA

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ DEBATLARDAN SƏMƏRƏLİ İSTİFADƏ

Açar sözlər: *dərketmə, düşünmə, dərslər, Azərbaycan tarixi, müzakirələrin formaları məktəb*
Ключевые слова: *восприятие, мышление, уроки, история Азербайджана, формы обсуждений*
Key words: *comprehending, thinking, lessons, History of Azerbaijan, forms of discussion,*

Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində apardığımız müşahidələrdən aydın oldu ki, yüksək didaktik əhəmiyyətə malik olan debat-dərslərdən istifadə edilməsinə əsasən pilot və xüsusi təlim keçmiş müəllimləri olan məktəblərdə istifadə olunur. Bunun əsas səbəblərindən biri də qabaqcıl təcrübəni özündə ehtiva edən elmi-metodik ədəbiyyatın azlığıdır.

Araşdırmalar göstərir ki, hər cür debat və ya müzakirə əsasən aşağıda sadaladığımız vəzifələri yerinə yetirir:

- müzakirə edilən problemi təhlil etmək, həlli yolunu tapmaq və müstəqil qərar qəbul etmək bacarığının formalaşdırılması;
- müzakirə və müqayisə etmək, həyatda lazım olan tolerantlığın aşılanması;
- fəal dinləmə və bir-birinin fikirlərinə hörmət mədəniyyətinin formalaşdırılması;
- mənbələrdən lazımi materialların seçilməsi, eləcə də öz fikir və mülahizələrini əsaslandırmaq, fakt və arqumentlərdən istifadə etmək bacarığının formalaşdırılması və s.

Metodik ədəbiyyatda müzakirələrin – debatlar, diskussiyalar, çarpaz müzakirələr, müzakirə xəritələri, klassik dialoq (Sokrat dialoqu) akvarium kimi formalarından daha çox bəhs edilir. Adlarını çəkdiyimiz həmin təlim üsullarından pilot və qabaqcıl məktəblərdə yetərincə istifadə olunur.

Məktəblərimizdə tədris olunan Azərbaycan tarixi fənninin məzmununda müzakirəyə çıxarmalı yetərincə mövzular var. Məsələn, "Xilafət əleyhinə çıxışlar", "Xürrəmilər hərəkatı", "Azərbaycan xanlıqları" mövzularını göstərmək olar.

Debatın məzmunundan aydın olur ki, o həm intellektual əyləncə, həm də təhsil proqramı olmaqla yanaşı yeni dostlar, yeni ünsiyyət, geniş əlaqələr deməkdir. Debat- yeni həyat tərzidir!

Göründüyü kimi gündəlik həyatdakı debat- bu qeyri-formal debatdır. Təlimdə istifadə edilən debat- formal debatdır. Yəni, onun özünəməxsus quruluşu, qaydaları və məhdudiyyətləri var. Məsələn, ailədə hər hansı bir problem ətrafında ana ilə səhərə qədər mübahisə etmək mümkün olduğu halda , formal debatda öz mövqeyini isbat, arqumentləri təqdim etmək üçün sizə yalnız bir neçə dəqiqə vaxt verilir. Hakimin nitqi xüsusi tələblər əsasında qurulur. Formal debatda üçüncü tərəf hakim rolunda çıxış edir. İki mövqedən hansının inandırıcı olduğu, qənaətinə gəldiyi haqda qərar çıxarır.Həyatda isə, adətən, sizin evə nə vaxt gəlməyinizi ana ya da ata həll edir. Bununla da onlar, həm debatın iştirakçısı həm də hakimi rolunda çıxış edirlər.

Formal debat gündəlik həyatda baş verən qeyri-formal debatları «qanun-qayda»ya salmağa çalışır. Formal debat müzakirəyə təqdim olunan problemi təsvir edən, qısa ifadə olunmuş mövzudan başlanır. Həmin mövzu ətrafında iki, bir-birinə əks duran mövqelər yaranır: təsdiqedici və inkaredici. Mövqeləri təmsil edən hər bir komanda (təsdiqedici və inkaredici komandalar) bitərəf olan üçüncü tərəfi-hakimi, inandırmağa cəhd edir. Hər bir komanda arqumentlərin köməyi ilə öz mövqelərini müdafiə edir, rəqibinin arqumentlərini isə təkzib edir.

Debatın zəruriliyinə dair müxtəlif fikirlər mövcuddur. Ən əsası odur ki, debat aparmaq bacarığı şagirdlərə gündəlik həyatda lazım olacaq.Onlar dərketməni təfəkkürü, düşünməyin

inkişaf etdirilməsinə kömək edir. Debat şagirdlərə cəmiyyətdə gedən ictimai-sosial proseslərə, ətraf mühitə müxtəlif nöqteyi-nəzərdən baxmağı, biliklərə və ideyalara şübhə ilə yanaşmağı, onların əsasında yeni baxışlar, biliklər yaratmağı, arqumentləri məntiqi qurmağı və üçüncü tərəfi öz mövqeyinə inandırmağı öyrədir.

Göründüyü kimi sadalanan bilik və bacarıqlar insana gündəlik həyatda lazım olur. Elmdə və peşəkar fəaliyyətdə mühüm nailiyyətlər qazanmaq üçün öz nöqteyi-nəzərini ifadə etmək və rəqiblərin gətirdiyi arqumentləri təkzib etmək bacarığı əsas şərtdir. Demokratik bir dövlətin üzvü, cəmiyyətin vətəndaşı kimi hər bir şagird, debat aparmaq bacarığına yiyələnməklə, cəmiyyətdə baş verən hadisələri anlamağı öyrənir, öz baxışlarını müdafiə etmək qabiliyyətini inkişaf etdirir.

İnkişaf etmiş ölkələrin təhsil ocaqlarında təhsil alanlar debatlardan istifadə etməklə müxtəlif bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Debatçıların bunu nə üçün etdiklərini soruşsanız, onlar debatdan yüksək məmnunluq hissi duyduqlarını söyləyəcəklər. Komanda üzvləri dost olublar. Debat yeni görüş və ünsiyyətlər üçün geniş imkanlar açır.

Debat ənənəsi Qədim Yunanıstandan başlanır. Burada debat demokratiyanın ən mühüm aləti hesab olunurdu. Afinada vətəndaşlar təklif edilən qanunların mahiyyət və qüsurları haqda müzakirə edirdilər buna görə problemi yaxşı başa düşmək üçün, onları müxtəlif nöqteyi-nəzərdən təhlil edərək, müzakirə aparmaq bacarığına yiyələnirdilər.

Orta əsrlərdə Avropada xüsusi ilə İngiltərədə, Oliver Kromyel dövründə, siyasi sistemdə natiqlik sənəti və debat mədəniyyəti özünəməxsus yer tuturdu.

Debat ABŞ tarixinin lap əvvəllərində həmçinin universitetlərdə özünə yer tapmışdı. 1960-cı ildəki prezident seçkilərində Con Kennedi və Riçard Nikson arasında televiziya debatı yenidən debata diqqəti artırdı və artıq debat öz sabiq yerini təhsil sistemində də tutdu.

İndi debat dünyanın bir çox inkişaf etmiş ölkələrində, məktəb və universitetlərində Təhsil proqramı kimi tədris edilir.

Debat insanların anadangəlmə marağından yaranır. Biz həmişə həqiqəti bilmək istəyirik: bizə iqtisadi sahədə, təhsildə islahatlar lazımdırmı? Başqa planetlərdə həyat varmı? Gen mühəndisliyi özünü doğrultdumu? – bu suallar keçmişə, bu günə və gələcəyə aid ola bilər. Ancaq bunlar hamısı həqiqət axtarışları ilə bağlıdır.

Debatın dörd prinsipi var.

Birinci prinsip- hər şeyi öyrənmək (öyrənməyə alışmaq) – hər bir söhbəti, müzakirəni, mübadiləni məlumatın, biliyin müzakirə aparılan mövzu ətrafında aparılmasıdır. Hansı sahədə biliyin, təsəvvürün yoxdursa, orda mübahisə, müzakirə aparmaq, ən azı, «boş boğazlıqdır». Əgər mən nəyisə bilmirəmsə - bundan çəkinmək, utanmaq lazım deyil. Bu təbiidir. Hər şeydən məlumat vermək - heç ensiklopediyaların gücündə deyil. Lakin, əgər sən hansısa bir mövzudan danışmaq, problemi həll etmək istəyirsənsə, onda əvvəl bilik, məlumat almalısan, ondan sonra müzakirəyə keçməlisən.

Debat elə təşkil olunmalıdır ki, müasir demokratik cəmiyyətdə sizin müvəffəqiyyətinizi bilik və bacırıqlara yiyələnməkdə kömək etsin. İlk əvvəl debat sizin təhsilinizi zənginləşdirməklə yanaşı eyni zamanda sizə zövq verə biləcək bir fəaliyyət növü kimi düşünülmüşdür. Bu prinsipə uyğun olaraq debatın əsas hədəfi-tədrisdir.

Başqa sözlə, tədris daha böyük əhəmiyyət kəsb edir, nəinki qələbə. Ona görə də əgər siz (bu fikir tarix müəllimlərinə) debatda yalnız qələbə çalmaq üçün iştirak edirsinizsə, onda qarşınıza düzgün məqsəd qoymalısınız.

Nə üçün tədris qələbədən vacibdir? Debat - mövqe deməkdir. Debatda qələbə –inandırmaq deməkdir. Əgər sən qalib gəlmisən, demək sən inandıra bilmisən. Uduzdun-demək… Sözsüz bilik, düşüncə, ağılı artırmaq, genişləndirmək lazımdır.

İkinci prinsip – düzgünlük - inandırmaq naminə, üstün gəlmək naminə yanlış, özündən qurulmuş məlumatlara, fikirlərə əsaslanmamaq. Rəqib tərəfinin gətirdiyi sübutlar əgər inandırıcıdırsa, sənin ona qarşı bilik məlumatın yetərincə deyilsə, onu etiraf etmək lazımdır.

Əgər siz birinci prinsipi qəbul etmisinizsə, ikinci prinsipə-düzgünlüyə riayət etmək sizin üçün asan olacaq. Əgər öyrənmə və bacarıqların təkmilləşdirilməsi qələbədən vacibdirsə, o zaman arqumentlərin və dəlillərin saxtalaşdırılmasına əsas olmayacaq.

Düzgünlük - debatın əsasıdır. Bəzən «düzgün olmaq» - sizin öz mövqeyinizin əsasını təşkil edən suala «Bilmirəm» cavabı vermək deməkdir. Bəzən isə debatda düzgünlüyə riayət etmək sizin məntiqi mühakimənizin səhv olduğunu etiraf etmək deməkdir.

Üçüncü prinsip- aydınlıq yəni deyilən fikri, sübutu aydın, sadə dildə söyləmək. Peşəkar, akademik, xüsusiləşdirilmiş anlayışları işlətməmək. Əgər mən deyənləri rəqib tərəf, dinləyici dərk etmirsə, başa düşmürsə - bu mənim təqsirim, mənim nöqsanımdır. Nöqsan onda yox, məndədir. Müzakirə, mübadilə, mübahisə tərəflərin hər ikisinin qəbul etdiyi, başa düşdüyü dildə aparılmalıdır.

Dördüncü prinsip - rəqib tərəfə hörmət, müxtəlif fikirlərə, rəylərə, verilən qiymətlərə dözümlülük; tənqidi yox, dinləyib, təhlil etmək «zəif» yerləri tapmaq və diqqətini onlara cəlb etmək; rəqib tərəfin çıxışını axıra qədər dinləmək, sözünü kəsməmək, təhqiredici çıxışlara yol verməmək, şəxsiyyətə toxunmamaqdır. Bu baxımdan Karl Popper belə deyirdi: «Ola bilər ki, mən səhv edirəm, ola bilər sən haqlısan. Lakin biz yalnız bir yerdə həqiqətə gələ bilərik».

Professor A.A.Verbiski yazır: «…Debat zamanı iştirakçıların şəxsiyyəti toxunulmazdır. Əgər kimsə sizinlə razı deyilsə, buna görə onu alçaltmaq olmaz. Debatlar ideyalar və onların toqquşması, həmçinin hansı ideyaların bəşəriyyətə daha çox fayda verməsi ilə bağlıdır. İdeyaların toqquşmasında isə ən əsas silah yalnız düzgün əsaslandırılmış arqumentlər ola bilər. Başqa sözlə, siz rəqiblərə deyil, arqumentlərə və dəlillərə, mühakimələrə «Hücum etməlisiniz» (1,17).

Müəllif daha sonra yazır: «Əks mövqe, nöqteyi-nəzərlərin müdafiə etikasıdır. Debat tədrisinin texniki üsullarından biri- iştirakçılara mübahisəli məsələlər ətrafında iki bir-birinə əks olan mövqelərdən çıxış etmək təklifindən ibarətdir. Yəni siz əvvəlcə «təsdiq», sonra isə «inkar» nöqteyi-nəzərdən çıxış edirsiniz» (2, № 3, 1992, s. 30-35).

Diskussiya iştirakçısı «zəif» mövqeni və ya səhv ideyaları müdafiə etmək deyil. Sizin vəzifəniz mübahisədən qabaq hər iki mövqeni diqqətlə nəzərdən keçirərək onların dəstəklənməsi üçün inandırıcı arqumentləri və dəlilləri işləyib hazırlanmasının vacib olduğunu dərk etməkdir. Müdafiə edilən mövqeyə qarşı tutarlı arqumentlərin gətirilməsinin mümkünlüyünü inkar etmək debatların mənasını hecə endirməkdir. Əgər haqlı olduğunuza tam əminsinizsə, onda mübahisə nəyə lazımdır?

Debatda bir adamın əks mövqelərdən çıxış etməsinə haqq qazandıran səbəblərdən biri də – yüksək intellektual vərdişin inkişafıdır; qarşı tərəfin bütün arqumentlərini eşitməyənə qədər öz fikrini bildirməmək. Başqa fikri nəzərə almadan, əks tərəfi dinləmədən hər hansı mühüm məsələ üzrə nəticə çıxarmaq ən azı ağılsızlıqdır.

Deyilənlərdən belə nəticə cıxarmaq olar ki, mübahisəli məsələ ətrafında komandanın hər iki, iştirakçılarına nə qədər narahatlıq gətirsə də, mövqedən asılı olmayaraq, çıxış etmək öyrənmək nöqteyi-nəzərindən faydalıdır. Bu cür yanaşma ən vacib mübahisəli məsələlərin mürəkkəbliyini və dərinliyini dərk etməyə, düşünməyə kömək edir. Bundan başqa, debat zamanı komandanın hər iki mövqeyindən çıxış etmək şagirdləri bütün «lehinə» və «əleyhinə» arqumentləri eşitmədən və nəzərə almadan öz fikrini söyləməkdən çəkindirir.

Debatda ən əsas məsələ dərketmə düşüncənin (səhvlə buna həm də «tənqidi təfəkkür» də deyirlər) inkişafıdır. Dərketmə düşüncəsinin müzakirə olunan fikir və ideyaların təhlili, ifadəsi, müəyyən edilməsi, əsaslandırılması və nəticə çıxarılması deməkdir.

Dərketmə düşüncəsi müxtəlif baxımdan vacibdir. Debatın mövzusu verildikdən sonra şagirdlər dərketmə düşüncəsini mövzunun dərindən öyrənilməsi ilə başlayırlar. Dərketmə dü-

şüncəsi əsasında arqumentasiyanı düzgün qurmaq və rəqibin arqumentasiyasına «həmlə etmək» lazımdır (söhbət döyüş həmləsindən deyil, rəqibin arqumentasiyasının təkzibindən gedir). Mücərrəd ideyalarla real dünyada baş verən hadisələr arasındakı məntiqi əlaqəni görmək çox vacibdir. Rəqibin məntiqindəki zəifliyi üzə çıxarmağı və kifayət qədər əsaslandırılmış arqumentləri izləməyi bacarmaq lazımdır.

Dərketmə düşüncəsiz yaxşı debat alınmır. Lakin bunun nə olduğunu başa salmaq və ya mühazirələrdə öyrətmək çox çətindir. Siz bunu yalnız praktik fəaliyyət vasitəsilə – arqumentlər irəli sürərkən və rəqiblərinizin dəlillərini dinləyərkən öyrənə bilərsiniz.

Bununla əlaqədar professor Q.K.Selevko yazır: «Dərketmə düşüncəsi ilə yanaşı araşdırma bacarığı da lazımdır. Arqumentlər gətirilərkən siz onları sübutlarla gücləndirməlisiniz. Bəzən adi məntiq və ya misallar kifayət edir. Lakin, hərdən lazım olan dəlilləri müxtəlif mənbələrdən (qəzetlər, müsahibələr, elektron şəbəkələrdən, kitablardan) toplamaq lazım gəlir» (3, 106).

Danışmağınızdan və ya yazışmağınızdan asılı olmayaraq materialınızın təşkili söylədiklərinizin səmərəli olmasına birbaşa təsir göstərir. Materiallardan istifadə üsullarının geniş müxtəlifliyi mövcuddur. Siz gərək daha səmərəli üsulu seçəsiniz və ondan istifadə edəsiniz.

Debat ilk növbədə şifahi fəaliyyət növü olduğundan materialın təşkili burada daha böyük rol oynayır. Yazılı nitqdən fərqli olaraq, burada səhifəni geri vərəqləmək və materialı bir daha oxumaq mümkün deyil. Pis təşkil olunmuş nitq ona gətirib çıxaracaq ki, hakim sizin mülahizələrinizin məğzini tuta bilməyəcək, siz isə qələbəni əldən buraxacaqsınız.

Debat şifahi fəaliyyət olsa da, qeydlər aparmaq burada böyük əhəmiyyət kəsb edir. Bütün böyük adamlar yaxşı dinləmək bacarığına malik olurlar. ABŞ-da, bir çox icmalçılar etiraf edirlər ki, Barak Obama millətin nəbzini tutmağı bacarır, Rusiyada isə millət Vladimir Putinin nəbzini tutur (Kukuşkinin zarafatı). Yəni, onların hər ikisi amerikalıları və rusiyalıları nəyin narahat etdiyini yaxşı hiss edir və bilirlər.

Əgər siz debat zamanı rəqiblərinizin nitqinə diqqətlə qulaq asmasanız və onun arqumentasiyasını başa düşməsəniz, bu arqumentləri təkzib edə bilməyəcəksiniz.

M.Əmirov debatla bağlı yazır: "… debat təlim prosesində şagirdlərdə elə bacarıqlar formalaşdırır ki, həmin bacarıqlar onlara bütün həyat və fəaliyyəti müddətində yardımçı olur" (4, 385). Deməli, məntiqi quruluşu, məzmunu debatı tələb edən mövzuların müzakirələr üsulu ilə tədirsinə yer verilməlidir.

Bakıdakı 158 saylı məktəbin tarix müəllimi Elmira İbrahimova 7-ci sinifdə «Babək Xürrəmi Azərbaycan tarixində qəhrəmanlıq obrazındadır» mövzusunda keçirdiyi debatın nümunəsinə diqqət yetirək: Müəllim debatda iştirak edən hər iki tərəfi Babək Xürrəmi ilə bağlı aşağıdakı məzmunda materiallarla tanış edir: «Babək Xürrəmi» Azərbaycanın istiqlaliyyətini bərpa etmək, onu yadellərin tapdağından qurtarmaq, sərvətlərimizin və torpağımızın sahibi olmaq istəyirdi. Xürrəmilər tarixdə ilk dəfə olaraq yadelli zülmkarlara qarşı mübarizədə azadlıq rəmzi kimi qırmızı bayraq qaldırmış və qırmızı paltar geyinmişdilər. Ona görə də ərəblər onları müxəmmirilər (qırmızı rəngli paltar geyənlər) adlandırmışlar. Bəzz qalasının və xürrəmilər icmasının başçısı Cavidan idi. O, 816-cı ildə cəsarətli, mərd Babəki Bəzz qalasına gətirdi. Həmin ildə Cavidanın ərəb sərkərdəsi Əbu İmranla döyüşdə ölümündən sonra Babək xürrəmilərə başçılıq etdi. O ilk gündən xalqı ərəblərə qarşı azadlıq mübarizəsinə qaldırdı. Müaviyyə, Abdulla (Babəkin qardaşları idi) Tərxan, Aydın, Rüstəm isə Babəkin silahdaşları idilər. Kəndlilər, şəhər yoxsulları, sənətkarlar, orta və iri feodallar azadlıq ordusunun əsas hərəkətverici qüvvələri idilər. Lakin onlara qoşulan mənsəb sahiblərinin çoxü Babəkə xəyanət etdilər. Buna baxmayaraq, Babək 819-820-ci illərdə xəlifə əl - Möminin dövründə ərəb qoşunu üzərində beş dəfə qələbə çaldı. Lakin yeni xəlifə əl-Möhtəsim Babəkə qarşı güclü qoşun göndərdi. 833-cü il dekabrın 25-də xürrəmilər Həmədan yaxınlığında məğlub oldular. 835-ci ildə türk mənşəli Afşin Heydər ibn Kavus ərəb qoşununa başçı təyin edildi. O, xürrəmilərə qarşı qüvvələri səfərbər etdi.Eyni zamanda Babəkin əsir düşmüş oğlu vasitəsilə atasına məktub yazdırıb onun

təslim olmasını tələb etdi. Babək oğluna yazdığı cavab məktubunda bildirdi: «Sən mənim oğlum deyilsən, əgər sən mənim oğlum olsaydın mənim ardımca gələrdin. Mənin üçün bir gün azad yaşamaq, başçıl olmaq, qırx il miskin qul kimi yaşamaqdan şərəflidir». Lakin 836-cı ildə xürrəmilər Həştadsər dərəsində ərəblər üzərində qələbə çaldılar. 837-ci ildə ərəb qoşununun köməyinə iki ordu gəldi. Afşin Babəkə sülh təklif etdi. Babək bunu qəbul etmədi. 837-ci il avqustun 26-da Bəzz qalasına hücum başlandı. O, qaladan çıxıb Arrana gəldi. Arranda xristian Səhl ibn Sumbat ona xəyanət edərək Babəki ərəblərə təhvil verdi. Əvəzinə 20 min dirhəm mükafat aldı. 838-ci il martın 14-də Babəki Samirə şəhərində işgəncə ilə edam etdilər».

1 mövzu: «Babək Xürrəmi Azərbaycan tarixində qəhrəman obrazındadır».

2.Təsdiqedici tərəf. Debatda təsdiqedici tərəfin spikerləri-hakimə sübut etməyə çalışırdılar ki, Babək Xürrəmi Azərbaycan tarixində qəhrəman obrazındadır.

3. İnkaredici tərəf. İnkaredici tərəfin spikerləri hakimə sübut etməyə çalışırlar ki, təsdiqedici tərəfin mövqeyi düzgün deyil. Deməli, Babək Xürrəmi Azərbaycan tarixində qəhrəman obrazında təqdim edilməsi düzgün deyil.

4.Hər iki tərəf hakimlərə güclü arqumentlər gətirərək öz mövqelərinin düzgün olduğuna inandırmağa çalışırdılar.

5. Dəstək və sübutlar. Debat iştirakçıları arqumentlə yanaşı hakimə mövqeyi müdafiə edən dəlillər: sitatlar, faktlar, statistik və digər məlumatlar təqdim edirdilər.

Debatda bu cür dəlillər araşdırma yolu ilə əldə edilir.

6. Çarpaz suallar. Bu debatda birinci komandanın spikerinin sualları və ikinci komandanın spikerinin cavablarından ibarət olan görüş «Çarpaz suallar» rolunda başa çatır. «Çarpaz suallar» gedişində əldə olunan məlumatlar növbəti spikerlərin çıxışlarında ifadə edilirdi.

7. Hakimlərin qərarı. Hakimlər mövzuya aid hər iki tərəfin arqumentlərini dinlədikdən sonra, debatın nəticələrinə görə , təsdiqedici tərəfin mövqeyinin daha inandırıcı olduğunu əsas gətirərək, xüsusi formada doldurulmuş protokol əsasında üstünlük verdiyi haqda qərar çıxarır.

Elmira İbrahimovanın dərsinin müşahidəsindən aydın oldu ki, debatın səmərəli təşkili şagirdlərdə bilir, anlama, tətbiqetmə, analiz, sintez, hadisə və prosesləri qiymətləndirmək bacarıqlarının formalaşdırılmasına səbəb olmuşdur.

Elmi nəticə: Azərbaycan tarixi dərslərində debatlardan səmərəli istifadə şagirdlərdə düzgün mühakimə yürütmək, mürəkkəb seçim və qərarlar qəbul etmək, fərqli nöqteyi-nəzərlərə aydınlıq gətirmək, problemlərin daha yaxşı həllinə aparıb çıxaran mühüm sualları müəyyən etmək, biliklərə müstəqil yiyələnmək kimi bacarıqlara sahib olurlar.

Elmi yenilik: Azərbaycan tarixi dərslərində debatlardan istifadənin həll edilməsinin forma və metodlarının işlənib hazırlanması və onun reallaşdırılması istiqamətlərinin şərhidir.

Tətbiqi əhəmiyyəti: Məqalədə irəli sürülmüş müddəalar, işlənmiş texnologiyalar məktəblilərin öz fikirlərini sübut etmək, həqiqəti üzə çıxarmaq kimi bacarıqları formalaşdırmaqla onların həyata hazırlanmasına birbaşa motiv yaradır.

Ədəbiyyat

1. Вербицкий А.А. Активное обучение в высшей школе: контекстный подход. М.: Высшая школа 1991.

2. Вербицкий А.А. Деловая игра как метод активного обучения // Современная высшая школа. №3, 1992

3. Селевко Г.К. Современные образовательные технологии: Учебное пособие для педагогических вузов и институтов повышения квалификации. М., 1991.

4. Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlim metodikası: Dərs vəsaiti. Bakı, 2014

С.М.Ахадова

Эффективное использование дебатов на уроках истории Азербайджана

Резюме

В статье рассматривается актуальность проблемы, уровень разработанности, формы дебатов, правила применения, отражаются цели и задачи. Дается пример урока, отражающий применение выдвинутых положений и суждений. Образец урока показывает эффективность обучения.

S.M.Ahadova

Utilising debates in the lessons of history of Azerbaijan

Summary

The urgency of the problem, development levels, debate forms, application guideliness, goals and objectives are reflected in the article. An example of a lesson involving application of terms and considerations is given. The lesson is proof of the effectiveness of the training pattern.

Rəyçi: ped.e.d., prof. M.M.Əmirov

Redaksiyaya daxil olub: 29.11.2016

S.T.ƏLƏKBƏROVA
E- mail: alakbarovasolmaz@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN X-XI SİNİFLƏRİNDƏ TARİXİ MATERİALLARIN TƏDRİSİ ƏSASINDA MƏKTƏBLİLƏRDƏ ƏXLAQ TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASINDA VACİB OLAN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN MƏZMUNU

Açar sözlər: *əxlaq, vətəndaş, ləyaqət, şərəf, şəxsiyyət, cəmiyyət, daxili mənəviyyat*
Ключевые слова: *мораль, гражданин, заслуга, честь, личность, общество, внутренняя мораль.*
Key words*: morality, citizens, merit, honor, personality, society, inner spirituality*

Əxlaq, insanın hərəkət və fəaliyyətinin, davranış və rəftarının cəmiyyət tərəfindən qəbul edilib bəyənilməsi və müsbət qiymətləndirilməsidir. İnsanı insan yüksəkliyinə ucaldan vətəndaşlıq dəyanəti,vətəndaşlıq vüqarı ilə bağlı olan əxlaq insanın bir şəxsiyyət kimi özünü dərk etməsi, öz mənliyini və şərəfini qoruması, həyatda öz yerini düzgün tutması, özünə və cəmiyyət üzvlərinə hörmət etməsi deməkdir. Mahiyyət etibarilə insaniyyətlə eyni məna daşıyan əxlaq bəşəriyyətin əxlaqi sərvətlərinin əsasını təşkil edir. Əxlaq insanın qabil olduğu mənəvi dəyərdir, onun insanlıq sifətidir (3, s.261).

Kollektiv qarşısında, Vətən və xalq qarşısında borc hissi, öz yurdunu, torpağını qorumaq uğrunda fədakarlıq, fəaliyyətində milli kökə, milli ənənələrə bağlılıq, əxlaqlı vətəndaşın əsas xarakterik keyfiyyətlərindən hesab olunur. Özünün və başqalarının əxlaq hissini qorumağı bacaran, mənəvi əxlaq normalarına və ictimai davranış qaydalarına riayət edən yüksək mənəviyyatlı vətəndaşlar cəmiyyətin, elin-obanın dərin hörmət və ehtiramını qazanırlar. Bütün bu keyfiyyətlərin inkişafı və təzahür dərəcəsi insanın ənənəvi zənginliyi və daxili mədəniyyətini göstərir. Daxili mənəviyyat dedikdə, hər şeydən əvvəl, şəxsiyyətin mənəvi zənginliyi, mənəvi saflığını, əxlaqi hiss və estetik zövqlülüyünü, lütfkarlıq və insanpərvərliyini başa düşürük. Daxili mənəviyyat insanın mənəvi zənginliyindən irəli gəlir. Mənəvi zənginlik insanın yüksək şüur, təfəkkür və bilik sistemi, bu qabiliyyətlərin ictimai həyat fəaliyyətində əxlaqla tətbiq edilməsi ilə ölçülür. İnsanın mənəvi aləmini zənginləşdirmək üçün ilk növbədə onun şüur yetkinliyini yüksəltmək lazımdır. Hər bir gənc özünün hüquq vəzifələrini, cəmiyyətdəki rolunu, xidmətlərinin mahiyyətini bilməlidir. Yüksək mənəviyyata malik olmaq insanı bir vətəndaş kimi qiymətləndirmək, onun əxlaqına, ləyaqətinə hörmət etmək deməkdir. İnsanın əxlaqsız hərəkətini, mənəvi yoxsulluğunu heç bir vəclə bağlamaq olmaz. Mənəvi yoxsulluq ən acı böhrandır. Şagird şəxsiyyətinin mənəvi keyfiyyətini inkişaf etdirmədən kamil şəxsiyyət və əxlaqlı vətəndasşdan söhbət belə gedə bilməz. Yüksək vətəndaşlıq əxlaqı və mənəvi kamillik hər bir gəncin daxili mənəvi tələbatına çevrilməlidir Əxlaq ektik kateqoriya olub cəmiyyətdə, kollektivdə və şəxsi həyatda insana şərəf gətirən, onu insanlığa layiq ucalıq zirvəsinə yüksəldən mənəvi keyfiyyətdir (3, s.341).

Həmişə vətəndaşlıq borcunu lazımi səviyyədə yerinə yetirənlər vətəndaşlıq əxlaqı və vətəndaşlıq vüqarına malik şəxslər olur. Əsl vətəndaş olmaq isə o deməkdir ki, insan özünün vətən, xalq qarşısında könüllü sürətdə yerinə yetirəcəyi işləri dərk edir, şərəf və şöhrətini, şəxsi ləyaqətini başa düşür. İnsanlığın birinci və əsas şərti onun vətəndaşlığıdır. X-XI sinifdə təhsil alan hər bir şagird dərk etməlidir ki, onlar vətənin layiqli övladları olmaqla ilk növbədə vətən-

daşdırlar. Hər bir şəx özlüyündə həyatda tutacağı mövqedən, sənətindən, peşəsindən aslı olmayaraq vətənə olan övladlıq borcunu ləyaqətlə yerinə yetirməlidir.

Əxlaq tərbiyəsi işinin əsas mahiyyəti şagirdləri hərtərəfli bilik, bacarıq və vərdişlər sistemi ilə silahlandırmaq, onlarda müvafiq davranış qaydaları və həyata düzgün münasibəti formalaşdırmaq, Vətənə, xalqa ləyaqətli xidmət üçün yüksək mənəvi keyfiyyətlər aşılamaqdan ibarətdir (1, s.5).

Həyata vəsiqə almağa çalışan gənclərin xüsusilə də X-XI sinif şagirdlərinin əxlaqlı bir vətəndaş kimi yetişməsinin ən mühüm amili onların mənəvi aləminə nüfüz etməyi bacarmaqdır. Mənəvi aləmə nüfüz etmək isə müəllim-şagird arasında əlaqə vasitələri sistemindən ibarət olan pedaqoji prosesin əsas vasitələridir. Suxomlinskinin qeyd etdiyi kimi insan, insan mənəviyyatında elə keyfiyyətlər vardır ki, insan bunlarsız həqiqi tərbiyəçi ola bilməz, həmin keyfiyyələr içərisində mənəvi aləmə nüfüz etməyi bacarmaq birinci yerdə durur. Yeniyetmə gənclərin mənəvi aləminə təsir etməyin ən incə sahələrindən biri onun əxlaqının təriyə edilməsidir.

Mənəvi aləmə nüfüz etmək şagird şəxsiyyətinə hörmət etmək, onun mənliyinə toxunmamaq, onu bir insan kimi sevmək, gərəkli bir vətəndaş kimi qiymətləndirmək deməkdir.İnsanı insan edən birinci keyfiyyət onun mənəvi təmizliyidir. İnsan mənəviyyatı onun həyata baxışıdır. Mənəviyyat dedikdə yalnız onun özünə aid mənəvi borcdan, tərbiyədən söhbət getmir. İnsanlara, üzvü olduğu cəmiyyətə yaşadığı həyatda baş verən hadisələrə münasibət onun əsas mənəviyyatını təşkil edir (2, s.269). Yuxarı sinif şagirdlərinin əsl insan, əxlaqlı vətəndaş kimi yetişməsi üçün onlarda həyata və insanlara məhəbbət, yoldaşlıqda və məhəbbətdə sədaqət, qarşılıqlı münasibətdə inam və etibar, xeyirxahlıq və ədalət hisslərinin aşılanması-mənəvi tərbiyə prosesinin mühüm keyfiyyətləridir.

Vicdan insanı alicənablığa, təmənnasızlığa, ülviyyətə, paklığa səsləyən daxili tələbat, əxlaqi qabiliyyətdir. Vicdan daxili şərəf, şərəf isə zahiri vicdandır. Vicdan etik kateqoriya olub, insanın ayrı-ayrı adamlar, cəmiyyət, xalq qarşısında mənəvi məsuliyyətini dərk etməsi, özü-öz hərəkətlərini əxlaqi baxımdan qiymətləndirmısidir (1, s.15). Vicdan, borc, əxlaq, şərəf hissi ilə bərabər hər bir şəxsin mənəvi mənlik şüurunun ifadə vasitəsi olmaqla, insan davranışının daxili tənzimləyicisidir. Mənəvi əzab, həya, xəyanət, peşimançılıq və s. vicdanın konkret təzahürləridir.

Hələ eramızdan üç yüz il əvvəl yaşamış yunan şairi Menandr bu fikri lakonik şəkildə düzgün ifadə etmişdir. “Köksümüzün içində bir tanrı var, bu bizim vicdanımızdır”. Şərəf və əxlaqa malik olmaq üçün ilk növbədə hər bir şəxs özünə, öz əməllərinə nəzarət etməyi bacarmalıdır. Kənardan özünə baxmaqla özünənəzarət hissinin tərbiyəsi isə yalnız vicdanın gözü ilə mümkündür. Hər hansı çətinliyin məcburiyyəti ilə rastlaşanda da, enişli-yoxuşlu həyatın qarşıya çıxan sərtlikləri ilə aldadılmaq dərəcəsinə çatdırıldıqda belə, insan namus və əxlaqının nizamlayıcısı olan daxili vicdanını itirməməlidir. Vicdanını itirən və bundan heç bir peşimançılıq hissi keçirməyən adam insanlığını itirir və bununla özünün qeyri-insanlığını sübüt etmiş olur.

Əxlaq insanların öz davranışlarında rəhbər tutduqları prinsip olmaq etibarilə, onların bir-birinə, ailəyə, kollektivə, cəmiyyətə olan münasibətlərinin ifadəsidir. Şagird şəxsiyyətinin əməli fəaliyyətində mühüm rol oynayan əxlaqi vərdişlərin səciyyəvi xüsusiyyətləri onun davranış və hərəkətlərini düzgün qiymətləndirməkdir. Şagird mənəviyyatının qiymətləndirilməsində daha çox onun əxlaqi keyfiyyətlərinə fikir verilir (4, s.447). İnsanda əxlaqi vərdişlər olmadan özünütərbiyə, özünə hörmət mümkün deyildir.Vətəndaşlıq özünün kamil formasında əqidədir. Əqidə, vətənə, xalqa mütərəqi, milli mədəniyyətə, adət-ənənələrə, ana dilinə məhəbbətdə, insanlara, əməyə münasibətdə özünü biruzə verən nəcib, əxlaqi keyfiyyətdir. Əqidə tam şüurlu şəkildə mənimsənilmiş elə biliklər sistemidir ki, şagird onların həqiqiliyinə möhkəm inanır və həmin biliklərin tələblərinə uyğun olaraq hərəkət edir. Təlim-tərbiyə posesində verilən əxlaqi biliklər əqidəyə çevrilməmişsə, əqidə bərkiməmişsə, burdan belə nəticə çıxır ki, tərbiyəçi özü möhkəm əqidəyə malik deyildir. K.D.Uşinski haqlı olaraq yazırdı ki, əgər müəlli-

min özü möhkəm əqidəyə malik deyilsə, şagirdlər də əqidə yaratmağa nail ola bilməz. Necə deyərlər, əqidəyə yalnız əqidə isə təsir göstərmək olar. Əqidə insanı arzularına, gələcəyə aparan yolda öz məsləkindən dönməzlik yaradır. Dərin əqidə, məslək olmadan fəal həyat mövqeyinin formalaşması mümkün deyildir. Məslək insanı qorxmazlığa, mərdliyə, fədakarlığa, işgüzarlığa sövq edir, məsləksizlik isə əksinə, qorxaqlığa, riyakarlığa, yaltaqlığa, biganəliyə, duyğusuzluğa gətirib çıxarır. Belə adamların nə dostluğu bilinər, nə düşmənliyi, nə xeyiri bilinər nə şeiri, nə sevgisi bilinər, nə də nifrəti. Bir sözlə belə ləyaqətsiz, əxlaqsız adamlar yüksək vətəndaşlıq duyğusundan məhrumdurlar (2, s.210).

Mənəvi kamillik, əqidə, məslək artıq X-XI sinif şagirdlərində formalaşmaqda olan vətəndaşlıq yetkinliyinin mühüm göstəricisidir. "Vətəndaşlıq" anlayışı baxımından, "Əxlaq" anlayışının inkişafı-ictimai-sosial, hüquqi və mənəvi estetik əlamətlərlə ölçülür (1, s.45).

Bu gün məktəbli ətrafdan baş verən hadisələrdən kənarda qalmamalıdır. Bu günlər bizim ən böyük problemimiz olan Qarabağ torpağı vətəndaşlıq qeyrətinin əsil sınaq meydanına çevrilmişdir. Vətənin fədakar övladları, canları, həyatları bahasına öz borclarını şərəflə yerinə yetirirlər. Azərbaycan xalqının hər bir əxlaqlı, tərbiyəli övladı bu müqəddəs işə əlindən gələn köməyi əsirgəmir. Ayrı-ayrı vətəndaşlar yüzlərlə müəssisə, təşkilatlar, məktəblilər Qarabağa yardım fonduna hər cür vəsaitlə əməli köməklik göstərirlər. Görülən bu işlərdə yerinə yetirilən müxtəlif xeyriyyəçilik tədbirlərində şagirdlərin yaxından iştirak etmələri onların şüurlu surətdə milli vətəndaşlıq borcunu yerinə yetirmələrini əyaniləşdirir.

Ədəbiyyat

1. Ağayev Ə.A. Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi. Bakı: Maarif, 1975.
2. Əhmədov B.A., Rzayev A.Q. Pedaqogikadan mühazirə konspekti. Bakı: Maarif, 1983.
3. Göyüşov Z.B. Fəzilət və qəbahət. Bakı: Azərnəşr, 1972.
4. Кант И. Трактаты и письма. Москва, 1980.

С.Т.Алекберова

Содержание национально-моральных ценностей в формировании у учеников X-XI классов общеобразовательных школ нравственного воспитания

Резюме

В статье изучены вопросы общественно-социального, юридического и духовно-эстетического развития понятия «морали» с точки зрения «гражданства». Совершенство, честь и достоинство являются высшим показателем гражданства. Особенно важную роль в формировании у учащихся играет гражданский долг за оккупированные земли Карабаха, формирование у них чуства патриотизма, дружбы и чести.

S.T.Alakbarova

X-XI classes of secondary schools in the moral education of pupils on the basis of the teaching of history, which is important in shaping the content of national and moral values

Summary

The article investigates the study of historical materials of the X-XI classes of schoolchildren, "Citizenship" terms of understanding the development of "Morality", social, legal and aesthetic characteristics. It is understood perfection, belief, creed forming of the the upper class pupils citizenship is an important indicator of maturity. Especially these days, the true test of the square stage in the Karabakh territory devotion citizenship students' national self-esteem, patriotism, friendship are very important as instilling moral qualities.

Rəyçi: t.ü.e.d., prof. M.İ.Əmrahov

Redaksiyaya daxil olub: 22.12.2016

R.P.ƏLİYEVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARLA İŞİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *demoqrafik amillər, şagirdlərin fəlim fəaliyyəti, natamam ailələr, müəllim-şagird münasibətləri*
Ключевые слова: *демографические факторы, учебная деятельность учащихся, неполные семьи, отношения учителя и ученика*
Key words: *demographical features, education activities of pupils, single families, attitudes between teachers and pupils*

Müşahidələr göstərir ki, tərbiyəçilər uşaq evlərində yaşayan uşaqların demoqrafik xarakteristikasını bu və ya digər dərəcədə nəzərə alsalar da, onlara münasibət sahəsində pedaqoji məharət baxımından ciddi səhvlərə yol verirlər. Pedaqoji ədəbiyyatda (3, 4) səhvlərin xarakterinə görə həmin tərbiyəçilər aşağıdakı kimi qruplaşdırılır: 1.Tərbiyəçi özünün uşağa olan münasibətini həddindən artıq psixolojiləşdirir, onu "yetim", "yazıq" və s. kimi sözlərlə xarakterizə edir; 2. Tərbiyəçi uşaqla münasibətlərini gərginləşdirməməyə çalışır: ona tələbkarlıqla yanaşmır, güzəştə gedir; 3. Tərbiyəçi uşağın tərbiyəvi fəaliyyətini bilavasitə onun ailə vəziyyəti ilə əlaqələndirir, onun davranış və rəftarını "Ot kökü üstə bitər", "Özünü atasına oxşadır", "Elə ananın belə də qızı olar" kimi birtərəfli ölçülərlə izah edir.

Birinci və ikinci qruplara daxil etdiyimiz tərbiyəçilər müəyyən meyarlara görə birbirindən fərqlənsələr də, onların pedaqoji xarakteristikalarında ümumi cəhətlər var. Hər iki halda tərbiyəçilər uşaqlarla qarşılıqlı münasibətlərdə pedaqoji və psixoloji cəhətdən düzgün mövqe tutmur, öz münasibətlərinin motivlərini çox vaxt belə izah edirlər: "Uşağa qayğı göstərirəm", "Halına acıyıram", "İstəyirəm ki, fikir çəkməsin", "Axı, uşaqdır, könlünü alıb ovunduraram".

Belə uşaqlara tərbiyəçilər valideyn kimi yanaşmalıdırlar. Valideyn kimi yanaşmaq mahiyyətcə müxtəlif ölçülərə əsaslanır. Onlardan birincisi elmi-pedaqoji meyarlarla, ikincisi isə güzəran təcrübəsi ölçüləri ilə müəyyən olunur. Bu ölçüləri düzgün qiymətləndirmək üçün bir cəhəti qeyd etməmək olmaz. Tərbiyəçi, şübhəsiz, uşağa qayğı ilə yanaşmalıdır. Uşaq onun baxışlarında, nəfəsində ana (və ya ata) hərarəti hiss etməlidir, lakinyetim uşağa "yazıq balam" deyə-deyə oxşamaq, əzizləmək, göz yaşı axıtmaq mənasızdır. Uşağın ətrafında "yetimlik", "yazıqlıq" ovqatı, ab-havası yaratmaq uşağın özü haqqındakı təsəvvürünü dəyişmir.

Gəncə şəhərində yerləşən uşaq evində aparılan tərbiyəvi işlər qənaətbəxşdir. Bu uşaq evində əsas diqqət uşaqların tərbiyəsi və inkişafına yönəlmişdir. Pedaqoji kollektivin üzvləri çalışırlar ki, uşaqlarda xeyirxah, insani keyfiyyətlər, Vətənə, təbiətə məhəbbət hissi, humanistlik, insanpərvərlik tərbiyə olunsun. Onlar uşaqlara özlərini harada necə aparmalı olduqlrını öyrədirlər. Belə təşkil olunmuş işin nəticəsi kimi nümunə gətirilir ki, uşaqlar Qalaaltında dincələrkən ətrafdakılar onların tərbiyəsinə, qayda-qanuna riayət etməsinə həsəd aparırmışlar. Onlar stol arxasında özlərini mədəni aparır, nəzakətlə danışır, yoldaşlarına qayğıkeşliyi ilə diqqəti cəlb edirdilər.

Qeyd etdiyimiz uşaq evində uşaqların inkişafına, tərbiyəsinə xidmət edən bir sıra dərnəklər, dzü-do, uşu, karate üzrə idman bölmələri fəaliyyət göstərir. Xarici dillərin öyrənilməsi, müsiqi, xalça toxumaq, kompyuter savadı, tikiş, toxuma üzrədərnəklər uşaqlara mühüm həyati bacarıq və vərdişlər aşılayır.

Uşaq evində xalça toxuma dərnəyində məşğul olan uşaqların böyük nailiyyətlərini qeyd etmək lazımdır. Kiçik xalça toxuyanların emalatxanasında divardan dahi Nizami Gəncəvinin şəkli əks olunmuş xalça asılmışdır. Uşaqlar ona baxaraq eynilə ona bənzər xalça toxuyublar. Burada surət bəzi cəhətlərinə görə orjinaldan da yaxşı alınıb. Buna uşaqların xalçaçılıq sənətinə məhəbbəti səbəb olmuşdur. Burada ikinci tərbiyəvi cəhət ortaya çıxır – dahi Nizami Gəncəvini uşaqlara tanıtdırmaq. Həmin prosesdə uşaqlar həm də Nizami Gəncəvinin kim olduğu haqqında ətraflı məlumat alır, milli-mənəvi dəyərlərimizdən bəhrələnirlər.

Uşaq evində uşaqların təlim-tərbiyəsini təkmilləşdirmək, dünyagörüşünü genişləndirmək məqsədilə onların mütaliəsinə də böyük diqqət yetirilir. Burada müxtəlif peşələrə aid ədəbiyyatla zəngin kitabxana yaradılmışdır. Uşaqların mütaliəsi müşahidə olunur və istiqamətləndirilir.

Tərbiyəçilər məsləhət görürlər ki, uşaqları təbiətin gözəlliyindən, incəsənətdən, insanlara münasibətdən zövq almağa alışdırmaq lazımdır, onlara adekvat sosial cəhətdən mümkün olan formada stress vəziyyətindən çıxmaq yolları öyrədilməlidir. Uşaq evində, internatda olanlar çox vaxt öz vəziyyətini anlayaraq stresə düşürlər. Müxtəlif tərbiyə vasitələrindən istifadə edərək onları bu vəziyyətdən çıxarmaq zəruridir.

Uşaq evinin tərbiyəçilərinin fikrincə, prosesdə iştirak edənlərin humanistləşdiriməsinə, ilk növbədə, dialoq və həmrəyliyənail olmaqla mümkündür. Bu vaxt dialoq partnyorların mövqeyinin bərabərliyini, ünsiyyətdə olan adamların bir-birinə müsbət münasibətini, partnyorluğun olduğu kimi qəbul edilməsini, bir-birinə hörmət və etibar mübadiləsini nəzərdə tutur. Bu da imkan verir ki, dialoq iştirakçıları hər hansı situasiya haqqında eyni fikrə gəlsinlər. Uşaq evinin pedaqoqlarının fikrincə, müsbət qarşılıqlı əlaqə tərbiyəsində həmrəylik tərbiyəsinin üstün cəhətləri çoxdur. Təcrübə göstərir ki, bu vaxt hər iki tərəfin müsbət cəhətlərinə istinad edilir. Belə münasibətlər xeyirxah və etibarlı, demokratik olur, hər iki tərəf fəal şəkildə bir-birinə müsbət qarşılıqlı təsir göstərir.

Uşaqların tərbiyə edilməsində Şəki şəhəri qarışıq tipli internat məktəbinin pedaqoji kollektivinin onların valideynləri və qohumları ilə əlaqənin təşkili sahəsində müsbət təcrübəsi vardır. Məlumdur ki, uşaq evində, internatda yaşayan hər bir yetim və ya təkvalideynli uşaq fikir çəkir. Onlar, ilk növbədə, ailədə normal şəraitdə böyüyən, valideynləri ilə birlikdə yaşayan uşaqlarla rastlaşdıqda stres vəziyyətinə düşür, özünü ailədən təcrid olunmuş hesab edir, valideyin və qohumlarına qarşı onlarda nifrət hissi yaranır. İnternatın müəllimləri belə hesab edirlər ki, uşaq belə hisslərlə böyüdükdə nəinki valideyn və qohumlardan, hətta bütün insanlardan, cəmiyyətdən təcrid olunmuş şəkildə yaşamağa meyl göstərəcək. Buna isə yol vermək olmaz.

İnternatda bu istiqamətdə bir neçə ildir ki, iş aparılır. Belə uşaqların valideynləri və qohumları ilə münasibətlərinin davam etdirilməsi internatın pedaqoji kollektivinin əsas fəaliyyət istiqamətlərindən biri olmuşdur. Tərbiyəçilər həm uşaqların özləri, həm də valideynləri, qohumları ilə iş aparmağı qərara aldılar və bu işin həyata keçirilməsi üçün xüsusi tədbirlər planı hazırladılar.

Doğrudur, bu fəaliyyət prosesində tərbiyəçilər ailənin bərpası funksiyasını qarşıya məqsəd qoymur, lakin çalışırlar ki, valideynləri internata cəlb etsinlər, valideyn və qohumların uşağa münasibətini dəyişsinlər, uşağa kömək göstərsinlər ki, o, öz həyatında ailənin yerini və rolunu hiss etsin. Bu problemi həll edərkənuşaqda qohumlarına və yaxınlarına maraq və məhəbbət yaranmasının, onun insan cəmiyyətinin bir hissəsi kimi, müəyyən bir nəslə malik olmahissiyatının oyanıb möhkəmlənməsi çox vacib məsələdir.

Pedaqoqlar valideynlərin qiymətləndirilməsində və başa düşülməsində uşaqlara kömək edir, onların internata düşmələrinin səbəblərini açıqlamağa çalışırlar, çünki uşaqlara keçmiş ailələri haqqında məlumat vermək lazımdır. Bir çox hallarda valideynlərini itirmiş uşaqlar özlərinin belə çətin vəziyyətə düşmələrində günahı ailələdə görürlər. Bu hal incimə hissinə gətirib çıxarır. Qarşılıqlı fəaliyət onagətirməlidir ki, tərbiyə olunanlar və valideynlər arasındakı aqressiv

münasibət dəyişsin və uşaqlar uşaq evinə düşmələrinin səbəbini aydın təsəvvür etsinlər ("Valideynlərin qarşılarına çıxan çətinlikləri həll edə bilmədiklərinə görə mən internatda yaşayıram"). Belə olduqda uşaqlar internatda yaşamaqla ailəsinə kömək etmiş olduqlarını anlayırlar.

Uşaq evində uşaqlar müxtəlif mahnı bayramlarında iştirak edirlər. Orada gəlcəyin gözəl müğənniləriyetişir. Onların ifasında xalq mahnılarını dinləmək adama zövq verir. Tərbiyəçilər belə hesab edirlər ki, uşaqların əmək və estetik tərbiyəsində xalçaçılıq dərnəyinin rolu çox böyükdür. Bu qədim el sənətinin incəlikləri uşaqlara həvəslə öyrədilir və bunun nəticəsində tocunulmuş xalçalar əlvan naxışları və nəfisliyi ilə diqqəti cəlb edir.

Ədəbiyyat

1. Əliyev P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006
2. Əliyev P.B., Talıbova X., Məmmədova Ş. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlarla tərbiyə işinin təşkili. Bakı: Mütərcim, 2011
3. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Nəzəriyyə, Metodika, Axtarışlar. Bakı: Səda, 1998
4. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı: Maarif, 1993
5. Ковальчук А.В., Рукавишникова Н.Т., Журавлев В.И. Педагогическая коррекция агрессивного поведения подростков. Ярославль, 2004

Р.П.Алиева

Особенности работы с детьми потерявшие семейный уют

Резюме

В статье исследованы факторы, нарушающие целостность семьи, а также выявлены причины появления неполных семей. Далее изучен уровень влияния этих факторов на учебную деятельность учащихся, определены пути их устранения. Данная статья имеет место в практике современного преподавания и образования в школьном и семейном воспитании.

R.P.Aliyeva

Features of forming of the work has been deprived of parent patronage

Summary

The article has revealed the factors, disturbed the completeness of the modern families, also causes of formation of incomplete families. There has been learned the levels of influence of these factors to the education activities of pupils and defined the abilities of their elimination.

This article is very useful for teachers-tutors, both in school and family education.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 10.01.2017

N.X.EMİNLİ

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

İCTİMAİ FƏALLIQ MƏKTƏBLİ GƏNCLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN BAŞLICA GÖSTƏRİCİSİ KİMİ

Açar sözlər: *ictimai fəallıq, motivlər, ictimai borc, vərdiş, yaradıcılıq, təşkilatçılıq, milli vətənpərvərlik.*
Ключевые слова: *общественная активностъ, мотивы, общественная обязанностъ, привычка, деятелъностъ, организаторство, национальный патриотизм.*
Key words: *social aktivity, motives, social duty, nabit, creativity, orqanizational, national patriotism.*

Respublikamızda demokratiyanın inkişafı ilə əlaqədar olaraq ümumtəhsil məktəblərinin fəaliyyətlərinin yeni dövrü başlamışdır. Azərbaycan Respublikasının "Təhsil islahatı"nın icrasının həyata keçirilməsi bizim məktəb sahəsindəki qüvvələrimizdən maksimum istifadə etməyi tələb edir. Bu bir həqiqətdir ki, insanın ictimal fəallığının yüksəldilməsi məktəb özünüidarəsinin düzgün tənzimlənməsindən çox asılıdır. Aparılan müşahidələr göstərir ki, məktəblərimizdə demokratik əsaslarla keçirilən şagird komitələrinin seçkiləri və onların fəaliyyətinə pedaqoji istiqamət verilməsi, müstəqilliyinə və təşəbbüskarlığına diqqətlə yanaşılması şagirdlərdə bir sıra müsbət keyfiyyətlər yaratmışdır ki, bu da gələcək ictimaiyyətçi nəslin yaranması deməkdir.

İctimai fəallıq nədir? İctimai fəallıq şəxsiyyətin mürəkkəb əxlaqi-iradi keyfiyyətidir və insana xas olan təbii haldır. Bunun arxasında maraq, məsuliyyət, tələbkarlıq, təşəbbüskarlıq, çalışqanlıq, ictimai işlərdə başqalarına (yoldaşlarına) yardım etmək, təşkilatçılıq bacarığı və s. durur. İctimai fəallıq nəticəsində şəxsiyyət ictimai həyata fəal şəkildə təsir edir, ictimai inkişafda müstəsna rol oynayır.

Heç də təsadüfi deyildir ki, bu günkü Azərbaycanın müstəqilliyinin bərpa olunmasında ictimai fəallığın rolu az olmamışdır.

Hər bir şagird, tələbə sabahın mütəxəssisi, böyük fədakarlıq göstərən şəxsiyyətdir. Fikrimizcə, hər bir gənc ixtisas öyrənməyindən asılı olmayaraq bütünlüklə tərbiyə sahələrini mənimsəməli, həyatda fəal olmalıdır. Axı, bu bir sirr deyildir ki, bu günkü gənc sabahın yaxşı ixtisaslı mütəxəssisi olmaqla yanaşı, dövlət işlərində icraçı vəzifələrinə irəli çəkilirlər. Bu ictimai fəallıq nəticəsində baş verir ki, bunun əsası hələ məktəb partası arxasında şagird özünü idarə orqanlarında qoyulur və bu iş ali məktəblərdə inkişaf etdirilir. Bu inkişaf tələbə özünü idarə orqanları, tələbə elmi cəmiyyəti və s. vasitəsi ilə həyata keçirilir. Lakin pedaqoji təcrübə zamanı əsasən orta və ali məktəblərdə şagird və tələbələrə ictimai fəallıq üçün imkan verilir ki, onlar fəaliyyət göstərsinlər. Axı, bildiyimiz kimi, fərd ona verilən imkanlarda özünü göstərərək ictimai fəallığı üzə çıxarır. Bu zaman onlarla ictimai fəallığın fəaliyyət motivi əsasında iş aparılmalıdır. Bu fəaliyyət, axı, onların yaşlarının və dünya görüşlərinin artdığı vaxta təsadüf edir.

Şəxsiyyətin ictimai fəallığı onun seçdiyi peşədə, gördüyü hər hansı bir işdə cəmiyyətə yararlı olmaqdan ötrü ümumiliyin xeyrinə daha artıq əmək sərf etməkdə özünü göstərir. Həm də bu zaman şəxsiyyət verdiyi faydanı öz şəxsi mənafeyi çərçivəsində məhdudlaşdırmır. Həmin faydanın milyonlara məxsus olduğunu düşünür və hərəkət edir. Bu zaman isə şəxsiyyətin hansı peşədə, hansı vəzifədə çalışması əsas rol oynayır. Başlıcası isə kollektiv və cəmiyyət üçün faydalı olmağı dərk etmək və əməli fəaliyyət göstərməkdir. Onun gördüyü işin ictimai faydalı xarakter daşımasındadır. İctimai fəallığı hər şeydən əvvəl, onların özlərini kolektivin üzvü kimi hiss etməsində, kollektivin və cəmiyyətin rifahı naminə ictimai fəaliyyətə qoşulma-

sında, ictimai tapşırıqların yerinə yetirilməsində təşəbbüskarlığı və fəaliyyətin təzahüründə, kollektivin və cəmiyyətin qarşısında duran bir sıra vəzifələrin yerinə yetirilməsi məqsədilə təşkilatçılıq fəaliyyəti bacarığını və tələbatına malik olmasında özünü göstərir. Deməli, onların öz bilik, bacarıq və qüvvələrinin, faydalı vəzifələrin yerinə yetirilməsilə vərdişlər yaranır və tələbata çevrilir. Lakin bu müsbət vərdişlər inkişaf etdirilməli, yəni təşkilatçılıq fəaliyyətilə birləşməlidir ki, bu dolğun şəkil alsın. Axı, idraki fəaliyyət, ictimai fəallıq olmadan ictimai borcun yerinə yetirilməsi təlimə müsbət münasibət səviyyəsinə də yüksəlməz. Hər bir dövlətin özünün ictimai fəaliyyət dairəsi vardır. Kimi yüksək rütbəli şəxslərin, kimi dövlətin, kimisə xalq kütləsinin xeyrinə işləyir. Müəllimlər bu məsələni bir problem məsələ kimi dərs prosesində, sinifdənxaric və məktəbdənkənar tədbirlərin icrası vaxtında nəzərə almalıdırlar. İstiqaməti olmadan fəallıq dövlət quruluşuna (və ya cəmiyyətə) zidd fəaliyyətə çevrilə bilər. İctimai fəallığın tərbiyəsi zamanı münasibətlərin sosial şərtlərinin, konkret şəraitin nəzərə alınması lazımdır. Çünki insanların ictimai fəallığı məhz bu şərtlər və şərait daxilində meydana çıxır və yaxud çıxa bilər.

İctimai münasibətlər, konkret tarixi şərait, iqtisadi amillər ictimai fəallığın müvafiq növlərini müəyyən edir. Lakin ətraf mühitin predmetləri, təzahürləri ondan əmələ gələnlər, hər bir şəxs tərəfindən müxtəlif şəkildə qavranılır və həyata keçirilir: eyni predmet və təzahürlər bəzi adamlar tərəfindən faydalı kimi qəbul olunarsa, bir başqaları onlara əhəmiyyətsiz, digər qism isə hətta ziyanlı bir şey kimi baxa bilər. Məsələn, bəziləri Azərbaycanda 1988-ci ilin noyabr-dekabr aylarında baş verən nümayişi xalq hərəkatı kimi qiymətləndirdisə də, bəziləri isə buna əhəmiyyətsiz – ekstremizm kimi, bir başqaları isə mənasız bir proses kimi baxırdılar . Buna 1990-cı ilin 20yanvar faciəsini də aid etmək olar. Əslində əsas söhbət kamil formalaşdırılmış ictimai fəallıqdan gedir.

İnsanın, insan birliyinin, hər hansı predmet və yaxud təzahürün mənası sərvət anlayışı ilə müəyyən olunur. Cəmiyyət üçün onun inkişafı və möhkəmlənməsi üçün məna ifadə edən bir şey sosial sərvətlərin sisteminə daxildir. Belə bir kəlamı şəxsiyyət haqqında da demək olar. Onun mövcudluğu, inkişafı və təkmilləşməsi üçün vacib sayılan hər şey sosial sərvətlərə daxildir.

İctimai fəallıq müstəqil sərvət kimi özünü göstərir: o, şəxsiyyətin inkişafına kömək edir, mənəvi cəhətdən onu zənginləşdirir, bu və ya digər dərəcədə ona yaradıcı, əxlaqi məzmun gətirir. Beləliklə, göstərə bilərik ki, ictimai fəallıq şəxsiyyətin ayrılmaz keyfiyyəti, ictimai iş isə daxili tələbatıdır.

İnsanı fəaliyyətə maddi tələbatla yanaşı, həm də ictimai və mənəvi tələbatlar, yəni maraqlar, ideallar, hisslər, duyğular və s. təhrik edir. İnsanın qarşılıqlı əlaqələri əmək prosesində yarandığı və inkişaf edib təkmilləşdiyi üçün, fəallıq heç də yalnız şəxsi tələblər və maraqlarla məhdudlaşıb qalmır, həm də ictimai tələblər yə maraqlarla müəyyən olunur.

Hər bir şəxs böyüdükcə, müəyyən yaş həddinə çatdıqca, yəni onun şəxsiyyəti formalaşdıqca, onun maraq dairəsi, dünyagörüşü genişlənir və eyni zamanda, həm də fəallığı artır. Bu zaman mühitin də ona təsiri özünü göstərir.

Tələblər də daimi deyil. Onlar da fəaliyyətin təsiri ilə dəyişir. Ona görə də tələbatın şəxsiyyətin fəallığına və inkişafına təsiri həmin bu tələbata, onun şəxsiyyətə təsirinə münasibətdən asılıdır. İlk növbədə, hansı tələbatdan qane olacağı və yaxud olmayacağı isə şəxsiyyətdən asılıdır. Deməli, müəllimlər və hər bir tərbiyəçi bu məsələyə münasibətdə tələbatların rolunu və vəzifələrini dərindən dərk etməlidirlər. Bu da özünütərbiyədə mühüm cəhətdir. Həmişə zəruri tələbatlar fəaliyyətin motivlərinə çevrilir.

Xatırladaq ki, şagirdlərin və tələbələrin (və ya hər bir adamın) ictimai işdə iştirakı hələ onların ictimai fəallığı demək deyildir. Yalnız ictimai fəallıq onlarda daxili tələbata çevrildiyi və onlar şüurlu surətdə fəaliyyətə qoşulduqları təqdirdə real olur.

Şəxsiyyətin ictimai fəallığının mürəkkəb quruluşunun ayrılmaz komponenti onun iradəsinin xassələridir. Buraya məqsədyönlülük, qətiyyət, təkidlilik, sözü bütöv, intizamlılıq, prinsipiallıq, müstəqillik, səbrli olmaq və s. aiddir.

İctimai fəallıq şəxsiyyətin əxlaqi ləyaqəti, insanın ictimai dəyərlərinin meyarlarından biri, onun vətəndaşlıq yekdilliyi kimi qiymətləndirilir. Bunlar öz növbəsində vətənpərvərlik hisslərini qüvvətləndirən, genişləndirən fəaliyyətdir.

Ədəbiyyat

1. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: OKA Ofset, 2009.
2. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2016.
3. Qaralov Z.İ. Tərbiyə. 3 cilddə. Bakı, 2012.
4. Sadıqov F.B. Pedaqogika. Bakı: Təhsil, 2014.

H.X.Эминли

Общественная активность как основной показатель патриотического воспитания школьников

Резюме

В статье изучены мотивы общественной деятельности студентов, высших педагогических учебных заведений и проблема их зависимости от характера деятельности. Определено, что главным условием для общественной активности студентов является ведущий мотив их деятельности. При целенаправленном мотиве активность студентов более продуктивна.

Статья наряду с обогащением педагогической теории также имеет ценную педагогическую значимость. Статьей могут пользоваться контингент студентов и учителей высших учебных заведений.

N.Kh. Eminli

About motives of public activies of students and its influence to the character of ability field

Summary

The article studies the problem of motives of public activities of students of the pedagogical education establishments, also its influence to the character of their ability field. There has been determined that the basic feature of public activities of activities of students is the main motive. If the motive is clear, the public activities are more useful and qualified.

The article is necessary not only as theoretical source, but also has the practical importance. It is useful for teachers and students of the higher education establishments.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 07.12.2016

Q.Q.ƏZİZOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

UŞAQLARIN ƏQLİ İNKİŞAFINDA DİDAKTİK OYUNLARIN ROLU

Açar sözlər: *didaktik oyunlar, idrak fəallığı, tərbiyəçi, monoloji nitq, rabitəli nitq.*
Ключевые слова: *дидактические игры, познавательная активность, воспитатель, монологическая речь, связная речь.*
Key words: *didactic games, coqnitive activity, educator, monolog speech, coherent speech.*

Didaktik oyunlar uşaqların təlimi üçün yaşlılar tərəfindən xüsusi hazırlanmış oyunlardır. Buna görə də didaktik oyunların məzmununda uşağın emosional aləminə təsir göstərmək üçün oyun elementləri ilə yanaşı, idrak elementləri də əks olunur. Didaktik oyunların bu xüsusiyyətləri məktəbəqədər yaşlı uşaqların təlim-tərbiyəsi üçün geniş imkanlar açır. Didaktik oyun zamanı uşaqlar cism və hadisələri sadəcə əks etdirmirlər. Onlar cism və hadisələri müqayisə edir, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirirlər. Nəticədə uşaqlarda çox sadə şəkildə olsa da təfəkkürün təhlil, tərkib, müqayisə və ümumiləşdirmə prosesləri inkişaf edir.

Ümumiyyətlə, oyun fəaliyyətinin düzgün istiqamət alması və uşağın psixi və fiziki inkişafına, daha doğrusu idrak fəallığının inkişafına müsbət təsir göstərə bilməsi həmin mərhələdə tərbiyəçinin düzgün rəhbərliyindən çox asılıdır. Çünki bu mərhələdə oyunun bütün rəhbərliyi bağçada tərbiyəçi, ailədə isə valideynin əlindədir. Uşaqların oyunlarında müxtəlif şəkildə iştirak etmək mümükündür. Əgər uşaq oyunu davam etdirə bilmirsə, çətinlik çəkirsə, oyun maraqsız keçirsə tərbiyəçi maraqlı bir sual verməklə, oyuna bir material əlavə etməklə onu canlandıra bilər. Bəzən isə, uşaqla birlikdə oynamaqla oyunun daha düzgün getməsinə, maraqlı olmasına şərait yaratmaq mümkündür.

Uşaq oyunlarının düzgün təşkilində tərbiyəçinin oyuna düzgün münasibəti, uşağın yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması və ona rəhbərlik etməsi böyük əhəmiyyətə malikdir. Müşahidələr göstərir ki, bəzi tərbiyəçilər uşaq oyununa heç bir rəhbərlik etməyib onu tam nəzarətsiz qoyur, nəticədə aparılan tərbiyəvi işin uşaqların idrak fəallığına təsiri az, yaxud heç olmur. Digər tərbiyəçilər isə təcrübədə bunun tamamilə əksinə hərəkət edirlər. Uşaqların bütün oyunlarına nəzarət və rəhəbrlik edirlər. Həmişə uşaqların oyunlarına diqqət yetirirlər. Onlara nümunələr göstərirlər. Əyləncəli məsələlər verirlər. Lakin bununla da kifayətlənməyib çox vaxt məsələləri uşağın əvəzinə özləri həll edirlər. Beləliklə, uşaqlar bu zaman sadəcə müşahidəçiyə, oyunun ikinci dərəcəli iştirakçılarına çevrilirlər. Təcrübəli pedaqoq və psixoloqlar haqlı olaraq göstərirlər ki, belə tərbiyəçilərdən uşaqlara ancaq bir şey qalır; tərbiyəçiyə qulaq asmaq və onu təqlid etmək. Əslində burada uşaqdan daha çox onun tərbiyəçisi oynayır. Belə tərbiyəçilərin uşağı bir şey quraşdırıb tikir və tikinti zamanı çətinlik çəkirsə tərbiyəçi-müəllim dərhal uşağın yanında durub deyir: "Sən yaxşı etmirsənsə, bax, mən sənin üçün düzəldirəm gör necə eləmək lazımdır". Uşağa kömək etmək, ona istiqamət vermək zəruridir. Lakin hər şeyi uşağın əvəzinə yerinə yetirmək onu oyundan kənar etməkdən başqa bir şey deyildir. Belə tərbiyəçilərin uşaqları çətinlikləri aradan qaldırmağı, gördükləri işin keyfiyyətini müstəqil surətdə yaxşılaşdırmağa adət etmirlər. Uşaqlarda belə əqidə yaranır ki, yalnız yaşlılar hər işi yaxşı yerinə yetirə bilərlər. Ona görə də onlar oyunu, yaxud gördükləri bir işi yaxşılaşdırmağa cəhd etmirlər.

Təcrübədə yoxlanılıb ki, tərbiyəçinin uşağın oyununa qarışması ondan böyük ustalıq tələb edir. Uşaq oyununa düzgün olmayaraq qarışmaq çox vaxt onun pozulmasına, tamamilə əhə-

miyyətsiz bir işə çevrilməsinə səbəb olur. Uşaq oyununa yalnız o zaman qarışmaq lazımdır ki, oyun həqiqətən düzgün olmayan istiqamətdə getsin, tərbiyəvi cəhətdən qüsurlu olsun. Çalışmaq lazımdır ki, gələcəyin qurucusu olan uşaqlar xarici aləmdə mümkün qədər daha çox maraqlı və faydalı təsirlər alsınlar. Bunun üçün isə uşağın oyununa düzgün şərait yaratmağa səy göstərmək lazımdır. Oyun zamanı uşağa düzgün istiqamət vermək lazımdır. Onların əvəzinə oynamağa meyil göstərmək lazım deyil. Uşaqların özlərini oynamağa təhrik etmək lazımdır. Burada həvəsləndirmə metodundan istifadə etməyə çalışmaq, oyun zamanı uşağın yaradıcı təşəbbüsünü, özfəaliyyətini məhdudlaşdırmaq yox, genişləndirmək lazımdır. Əgər uşaq stuldan "maşın" ağac budağından "at" istifadə edirsə, burada heç bir pis iş yoxdur. Əgər uşaq nə isə bir şey quraşdırırsa, bunu qadağan etmək deyil, əksinə məsləhətlər vermək lazımdır. Uşaq oyunlarının zəif formada keçməsinə yol verilməməlidir, öz sual və məsləhətləri ilə oyunun şən və canlı keçməsinə şərait yaratmaq mütləq lazımdır. Oyun zamanı şən əhval-ruhiyənin olması oyunun uşağın idrak fəallığındakı müsbət rolunu artırır. Oyun zamanı şən əhval-ruhiyənin olması uşağın əsəb sisteminə də müsbət təsir göstərir, ürəyin və tənəffüs aparatının fəaliyyətini yüksəldir. Oyundakı şən əhval-ruhiyənin uşağın hərəkətlərinin sürətli və gümrah olmasına kömək edir. Bu oyunlar uşağın zehni və iradi proseslərinin də inkişafına səbəb olur. Məhz buna görə də uşağın şən, bəzən də səs-küylü oyunlarının qarşısını almaq düzgün deyildir.

Ümumiyyətlə, tərbiyəçi, təkcə oyun prosesinin özünə nəzarət və rəhbərlik etməsilə kifayətlənməməlidir. Xüsusilə uşağın oyuncaqlarla oynadıqdan sonra oyuncaqlarını qaydaya salmasına, hər şeyi öz yerinə qoymasına ciddi fikir vermək lazımdır. Tərbiyəçi çalışmalıdır ki, uşaq həmişə oyundan sonra oyuncaqlarını yığışdırmağa borclu olduğunu anlasın. Uşaqda heç vaxt öz oyuncaqlarını yiğışdırmamağın mümkün olması fikrinin yaranmasına yol verməmək lazımdır. Uşaqlara mənimsətmək lazımdır ki, öz oyuncaqlarını yığışdırmağa adət etsinlər. Beləliklə, tərbiyəçinin uşağın oyununda pedoqoji-psixoloji faktla iştirakı uşaqda ona məhəbbət, hörmət təbiyə edir.

4-5 yaşlı uşaqlar yaradıcı oyunlara çox aludə olurlar. 6 yaşdan isə onların həyatında uşaq bağçalarında geniş tətbiq olunan didaktik oyunlar böyük yer tutur. Uşağın məktəbə getməsi ilə əlaqədar onlarda aparıcı fəaliyyətdən digərinə-oyundan təlimə keçmə baş verir. Didaktik oyunların tətbiqi prosesində aparıcı fəaliyyətin birdən-birə kəskin şəkildə dəyişməsinə yol verilməməli, biliyin əldə edilməsi və saxlanılması üzrə uşağın çətin işi asanlaşdırılmalıdır. Bununla yanaşı uşaq bağçalarında təlimin qəbul olunmuş forması olan didaktik oyunlar demək olar ki, əsasən nitq inkişafına xidmət edir. Məsələn, monoloji nitq şifahi nitqin ən yüksək mərhələsidir. Uşaqlarda yaranmağa başlayan bu vərdiş tədricən inkişaf edir. Uşaq yoldaşları ilə oynayarkən ətrafdakılara evdə, uşaq bağçasında baş verən hadisələr haqqında nağıl edərkən monoloqdan istifadə edir. Monoloq nitqin məzmunu ilə forması arasında vəhdət başa düşməyi tələb edir. Monoloji nitq qrammatik cəhətdən elə qurulmalı, fikir elə ifadə olunmalıdır ki, dinləyici izahat tələb etməsin. Monoloji nitqin inkişafı uşaqların müstəqil nəqletmə vərdişinə yiyələnmə bacarığı ilə nəticələnir ki, bunun da təlim prosesində əhəmiyyəti böyükdür.

Kiçik qruplarda monoloji nitq vərdişləri formalaşdırmaq üçün mətni bir neçə dəfə oxumaq, onun hadisələrini uşaqlara tək-tək və xorla təkrar etdirmək lazımdır. Uşaq mətnin müəyyən hissəsini yaddan çıxardıqda tərbiyəçi istiqamətverici suallardan istifadə edir. Orta qrupda mətni oxuduqdan sonra qısa müsahibə aparılmalı, məzmunun necə başa düşüldüyü aşkar edilməlidir. Uşaqlar nəqletmədə çətinlik çəkərlərsə, qısa sual-cavabın köməyi ilə çətin söz və ifadələrin izahı, buraxılmış hissələrin bərpası üzrə iş getməlidir.

Uşağın həyatında ətraf aləmin, canlı və cansız təbiətin, ictimai həyat hadisələrinin qavranılması mühüm rol oynayır. Uşaq ətraf aləmlə iki yaşından təmasda olur, gördüyü hər bir cansız əşya, bitki, quş və s. onun diqqətini cəlb edir. Təbiətin gözəlliyi onda emosional hisslər yaradır. O, gördükləri haqqında başqalarına məlumat verməyə çalışır. Əvvəllər bir-iki sözlə ifadə olunan fikirlər tədricən hekayə şəklini alır.

Ətraf aləmlə tanışlıq zamanı uşaqların diqqət obyekti uzaqdan görünüşünə, ümumi mənzərəyə yönəldilməli, onun bütövlükdə qavranması təmin edilməlidir. Uşaqların obyektdə bir neçə dəqiqə sərbəst müşahidə aparmaları, tərbiyəçiyə suallarla müraciət etmələri, tərbiyəçinin suallarına cavab vermələri lüğət ehtiyatını zənginləşdirir, nitqinin qrammatik quruluşunu qaydaya salır, onları monoloji nitqə hazırlayır.

Oyuncaqlara baxıb nəql etmək uşaqların ən çox sevdikləri prosesdir. Kiçik qrupda belə məşğələlər sadə didaktik oyunlar şəklində keçirilir. Rabitəli nitqin inkişaf etdirilməsi üçün oyuncaqlar diqqətlə seçilməlidir. Bu məqsədlə müxtəlif formalı, müxtəlif ölçülü, müxtəlif rəngli və müxtəlif materiallardan hazırlanmış oyuncaqlar götürülə bilər. Həmin oyuncaqların aydın, fərqli parlaqlığı olmalıdır. Məsələn, qorxudan yazıq-yazıq baxan və tullanmaq istəyən dovşan; balaca, yöndəmsiz, çirkin, dimdiyini geniş açan ördək balası və s. Belə oyuncaqlar özünün qeyri-adiliyi ilə diqqəti cəlb edir. Uşaq onlara baxanda dovşanın dərdinə şərik olur, ördək balasını sığallayır, ona yazığı gəlir, meymun balasına qoşulub gülür.

Müəyyən vərdiş əldə edildikdən sonra uşaqlara plan vermək, planda oyuncaqların hansı materialdan düzəldildiyini, nə üçün belə rəngləndiyini, hissələrinin forması, onun xoşuna gəlib-gəlmədiyini soruşmaq mümkündür.

Orta qrupda uşaqların iki və daha artıq oyuncaqla süjetli hekayə qurub danışmalarına nail olmaq mümkündür. Bir neçə oyuncaq əsasında rabitəli mətnin qurulması üzrə iş gedəndə uşaq əvvəlcə hər bir oyuncağa diqqət yetirir, onalrın hər birinə yaxından bələd olur, sonra hekayə tərtib edib danışırlar.

Uşaqların böyük marağına səbəb olan şəkillər uşaqların dilini açmağa imkan verir. Şəkil uşaqların dilini açır, hekayələr tərtib etməyə stimul yaradır. Onların tez-tez şəkil nağıl etmələri onları müstəqil nəqletmə yoluna salır. Şəkil çəkərkən uşaqların marağı, hazırlığı nəzərə alınmalıdır. Şəkil üzrə işin yaxşı nəticə verməsi üçün hər bir uşağın onu "oxuması" qayğısına qalmaq lazımdır. Bunun üçün tərbiyəçi şəkilə diqqətlə baxmağı, onda qabarıq, nəzərə çarpan əlamətləri görməyi öyrətməlidir. Uşaqlar şəklin məzmununu başa düşməli, onda təsvir olunanlara öz münasibətini bildirməyi bacarmalıdır. Tərbiyəçi öz sualları ilə uşaqların diqqətini bir hissədən digər hissəyə yönəldir, müqayisə və ümumiləşdirmə aparmağa şərait yaradır. Nəticə etibarı ilə uşaqlarda şəkil haqda bitkin təsəvvür yaradır, bu da şübhəsiz uşaqların nitq inkişafına, əqli inkişafına müsbət təsir göstərir.

Beləliklə, tərbiyəçinin uşaq oyunlarında iştirakının tərbiyəvi əhəmiyyəti böyükdür. Tərbiyəçi uşaqlarla birlikdə oynamaqla onu hərtərəfli öyrənməyə imkan tapır. Bu isə uşağa düzgün yanaşmaq, onu düzgün tərbiyə etmək üçün başlıca şərtdir. Oyun zamanı uşağın marağı, onun nəyə doğru meyil etməsi, nə kimi bacarıqlara malik olduğu, hafizənin xüsusiyyətləri, təxəyyülü və iradəsinin inkişaf səviyyəsi və s. özünü aydın göstərir. Bunları öyrənməklə tərbiyəçi uşağın idrak fəallığının inkişafında nə kimi qüsurlar olduğunu müəyyənləşdirə bilər, bu qüsurları aradan qaldırmaq üçün lazımı tədbirlər görər. Digər tərəfdən tərbiyəçi uçağın oyunda iştirakı, uşaqda ona məhəbbət, hörmət tərbiyə edə bilər.

Ədəbiyyat

1. Bayramov Ə.S. Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri. Bakı, 1967.
2. Bayramov Ə.S. Şagirdlərdə təfəkkürün inkişafı. Bakı, 1982.
3. Əzizov Q.Q. Psixologiya. Bakı, 2011.
4. Çələbiyev N. Uşaq psixologiyası. Bakı, 2005.
5. Qədirov Ə.Ə Kiçik yaşlı məktəblilərdə öyrənmə prosesinin inkişafı. Bakı, 1991.
6. Kərimov Y.Ş. Uşaq bağçalarında nitq inkişafı. Bakı, 1985.
7. Makarenko A.S. Seçilmiş pedoqoji əsərləri. 1 və 2-ci cild. Bakı, 1983.
8. Həmzəyev M.Ə. Ailədə uşaqların oyunlarına rəhbərlik. Bakı, 1965.
9. Həmzəyev M.Ə. Təlim psixologiyasının bəzi məsələləri. Bakı, 1965.
10. Həsənov A.M. Məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsi. Bakı, 1993.

Г.Г.Азизов

Роль дидактических игр в познавательной активности детей

Резюме

В статье отмечается, что в рациональной организации детских игр особое значение имеет правильное отношение воспитателя к игре, учет возрастных и индивидуальных особенностей учашихся, и управление этой деятельностью. Составление пересказа по игрушкам и картинам играет важную роль в активизации познавательной деятельности детей.

G.G.Azizov

Role of didactic games in mental development of children

Summary

It is stated in the article that in effective organization of child games educators appropriate approach to the game, taking the child's age and individual characteristics into consideration and supervising him/her has great importance. Moreover, positive impact of narrating toys and pictures was described in the article.

Rəyçi: dos.K.Ə.Məmmədova

Redaksiyaya daxil olub: 06.01.2016

F.M.FƏTTAYEV

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

İNTELLEKT, ONUN MAHİYYƏTİ, STRUKTURU VƏ İNKİŞAF ETDİRİLMƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Açar sözlər: *məntiq, IQ test, intellekt, məntiqi təfəkkür, intellekt testləri, IQ əmsalı*
Ключевые слова*: логика, IQ тест, интеллект, логическое мышление, интеллектуальные тесты, коэффициент IQ*
Key words: *logics, IQ tests, intellect, logical thinking, intelligence tests, IQ amount*

İngilis alimi, antropoloq Frensis Qaltonun (1822-1911) intellekti ölçmə ideyasının irəli sürülməsindən sonra, intellekt problemi heç zaman olmadığı qədər əhəmiyyət kəsb etməyə başladı. İntellektlə bağlı aparılan çoxsaylı tədqiqatlar amerikan psixoloqu Hovard Qardneri belə deməyə məcbur etdi: "İntellekt məfhumundan elə tez-tez istifadə edirik ki, biz artıq onun şüurda mövcud olan və obyektiv varlığı əks etdirməyən subyektiv hadisə yox, ölçüləri təyin oluna bilən hansısa obyektiv varlıq olmasına belə inanmağa başlamışıq" [4]. İspan filosofu Yela 1955-ci ildə Parisdə keçirilən Beynəlxalq Konqresdə qeyd etdi ki, "intellekt ideyası obyektiv varlıq olmayıb, təsvir etmə vasitəsidir, abstraksiyadır, baxmayaraq ki, bunun arxasında həm də müxtəlif intellektual əməllərin icrası gizlənir" [2]. XX əsrin əvvəllərində tədqiqatçılar başa düşdülər ki, çoxlu sayda müxtəlif intellektual əməlləri bir ümumi faktorla – istedad, qabiliyyət, bacarıqla ifadə etmək nə qədər çətindir. Belə ki, C.Peterson iddia edirdi ki, "intellekt izolə edilmiş və sabit faktor olmayıb, müxtəlif qabiliyyətlər çoxluğundan ibarətdir və görünür ki, müxtəlif situasiyalarda müxtəlif mahiyyət kəsb edir" [2]. İntellekt səviyyəsini müəyyən etməyin yolları axtarıldı, müxtəlif yoxlama-ölçmə metodikaları yarandı, testlər tərtib olundu. Lakin yaradılan yoxlama-ölçmə materiallarının nəyi yoxlaması haqqında alımlər yekdil fikirdə deyildilər. Bəziləri bu testlərin intellekt səviyyəsini düzgün təyin etdiyini söyləsə də, digərləri intellektin daha geniş məfhum olmasını və onun bu testlərlə ölçülə bilmədiyini iddia edirdilər. Məhz buna görə də onlar ilk növbədə "İntellekt nədir? Onun mahiyyətində nə dayanır? İntellektin strukturu necədir?" sualına cavab axtarmağın vacibliyini anladılar.

İntellektin "öyrənmə bacarığı" olması fikrinin tərəfdarlarından biri – V.Xenmon hesab edirdi ki, intellekt insanın malik ola biləcəyi bilgiləri əldə edə bilmək bacarığıdır. V.Diabron intellekti öyrənmə və ya təcrübəyə yiyələnmə bacarığı adlandıraraq ən yaxşı intellekt testinin "öyrənmədə real inkişaf tempinin ölçülməsi" olduğunu deyirdi [2, s. 210]. Lakin, intellektin öyrənmə bacarığı kimi təyin olunması psixoloqları qane etmirdi. Çünki, təhsil alma dövrü adətən insanın bütün həyatını yox, onun müəyyən dövrlərini (uşaqlıq, yeniyetməlik və gənclik) əhatə edir. Yaşa dolmuş bir insanın intellekti özünü təhsil və təlimdə yox, digər məsələlərdə, hər şeydən əvvəl peşəkar işdə, həyat fəaliyyətində qarşıya çıxan məsələlərin həllində göstərir. Əyani sübut kimi, Albert Eynşteynin məktəbdə zəif oxuyan şagird olması, Sürix Politexnik Universitetində imtahandan kəsilməsi, sonrakı cəhdlərdə ora daxil olub, universiteti çətinliklə bitirməsi və onun diplom işinin mənfi rəy alması faktı göstərilə bilər.

C.Peterson, Stenford-Bine şkalasının yaradıcılarından biri olan L.Termen və bir çox digər alimlər intellekti "abstrakt münasibətlər və simvollarla əməliyyatlar aparmaq bacarığı" hesab edirdilər [2]. R.Tordnyak hesab edirdi ki, intellekt abstrakt təfəkkürdən asılı olub, özünü problemlərin həllində abstrakt əlamətlərə əsaslanmaqda göstərir. İntellekti abstraktlaşdırma bacarığı kimi ifadə edən bu fikir də alimlər tərəfindən birtərəfli yanaşma hesab olundu. Belə ki, bu cür yanaşma intellektin qavrama və psixomotor hissələrinə aid edilə bilmədiyindən, in-

tellektual bacarıqlar sferasını daraldırdı. Bundan başqa, əksəriyyətin qəbul etdiyi praktik intellekt konsepsiyası abstraksiyaya əsaslanmağı vacib hesab etmirdi. Alimlərin ümumi rəyinə görə intellekti yalnız abstraktlaşdırma bacarığı kimi təsvir etmək onun təzahürünün bir hissəsini, mövcudluğunun yalnız verbal tərəflərini əhatə edərək, mahiyyətini tam ifadə etmir.

Uzun müddət intellektin "yeni şəraitə adaptasiya olunmaq bacarığı" kimi başa düşülməsi fikri üstünlük təşkil etdi. İlk olaraq UilyamŞtern intellekti "qarşıya qoyulmuş məqsəddən asılı olaraq təfəkkür üsullarından istifadə etmək və bu üsulları digər məsələlərin həllinə uyğunlaşdırmaq bacarığı" kimi ifadə etmişdi [17]. XX əsrin ilk illərinin məşhur psixoloqlarından olan R.Frimen onu "intellektual məqsədin və bu məqsədə çatmaq üçün istifadə olunan vasitələrin adaptasiyası, ideya, əşyalar və şəxsiyyətlər aləminin məcmusuna balanslaşdırılmış reaksiya" kimi izah edirdi. [14, s.134]. R.Pintner, L.Terstoun, E.Klapared, J.Piaje və başqaları da bu kimi oxşar baxışların tərəfdarları idilər. Qeyd edək ki, professor Əbdül Əlizadə də psixoloqların fikirlərinə istinad edərək intellekti "fərdin ətraf mühitə adaptasiyası qabiliyyəti kimi" dəyərləndirir. [1, s.16].

Psixi fəaliyyətə onun informasion xarakteri nöqteyi-nəzərindən yanaşan daha sonrakı tədqiqatlarda intellektin adaptasiya olunma funksiyası xüsusi olaraq qeyd olunur. Belə ki, bu tədqiqatçılar intellekti "informasiya əldə etmə prosesinin ümumi strategiyası", "müxtəlif tipli informasiyalardan istifadə edə bilmək bacarığı" [9] kimi də tərif etmişlər.

XX əsrin 70-ci illərində tədqiqatçılar insan düşüncəsi ilə hər hansı məsələni həll edərkən kompyuterin apardığı hesablamalar arasında analogiya axtarmağa başladılar. Onlar bu yolla intellekti, insanın hər-hansı məsələni həll edərkən meydana gələn informasiya prosesləri terminləri ilə izah etməyə çalışırdılar. A.Censen, E.Hant, R.Sternberq, Q.Saymon bu cür yanaşmanın məşhur tərəfdarlarından idilər [8], [11]. Saymon intellekti insanın məntiqi və ya şahmat məsələsi kimi çoxvariantlı və çətin məsələləri həll edərkən baş verən informasiya proseslərini təhlil etməklə tədqiq etmək istəyirdi. Əvvəlcə o, A.Nyuellə birlikdə kompyuterdə belə məsələlərin həllini modelləşdirdi, daha sonralar – 80-ci illərdə R.Qleyzer, C.Lapkin, A.Lesqold və digər alimlərlə birlikdə tibbi diaqnozların qoyulması, fizika məsələləri kimi yüksək bacarıq tələb edən problemlərin həlli prosesini tədqiq etməyə başladı [11]. Bu məsələlərin həllində iki qrup – yüksək ixtisaslı təcrübəli mütəxəssislər qrupu və təcrübəsiz, yeni işə başlayanlar qruplarının fəaliyyətləri təhlil olundu. Tədqiqatçılar belə qənaətə gəldilər ki, bu iki qrupun fəaliyyətləri arasındakı fərq informasiya proseslərinin xarakterindən deyil, həll zamanı istifadə olunan biliklərin miqdarından və onların ümumiləşdirilmə səviyyəsindən asılıdır.

P.Sternberq insanda analogiyalar, ədədlər, fiqurlar, sözlər seriyasının davam etdirilməsi, sillogizmlər kimi güclü məntiqi təfəkkür tələb edən tapşırıqların həlli zamanı informasiya prosesləri axınını tədqiq etməyə başladı. O əsas məqsəd kimi, informasiyanı daha effektiv emal etməyə imkan verən xarakteristikaları tapmaqda görürdü. R.Sternberq ənənəvi test tapşırıqlarını həll edərkən insanın istifadə etdiyi intellektual proseslər və strategiyaları ayırd etməyə imkan verən xüsusi tapşırıqlar da hazırlayaraq öz texnikasını "komponent analiz" adlandırdı. O, özünün triarxik adlandırılan nəzəriyyəsini belə ifadə edirdi: "İntellekt dedikdə əqli özünüidarəetmə – öz həyatını konstruktiv, məqsədyönlü üsullarla, ağılla idarə etmə kimi başa düşmək olar" [11, s. 11].

İntellekt haqqında son illərin ən məşhur nəzəriyyə R.Sternberqin nəzəriyyəsi hesab olunur. Bu nəzəriyyədə intellektə insanı ətraf mühitlə uyğunlaşdıran (geniş mənada) informasiya sistemi kimi baxılır. Onun fikrincə intellekti öyrənmə bacarığı kimi izah edən nəzəriyyələr də onu adaptasiya olunma bacarığı nöqteyi-nəzərindən təyin edir. İntellekti tədqiq edən bütün tədqiqatçılar arasında ortaq fikir onun uyğunlaşma xarakterinə malik olmasıdır. Belə ki, R.Sternberqin redaktorluğu ilə nəşr olunan kollektiv monoqrafiyada belə bir fikir səslənir ki, müəlliflər "intellekt" terminini müxtəlif cür izah etsələr də, onların hamısı ortaq bir fikirlə razıdırlar ki, intellekti "məqsədyönlü adaptiv davranış"la əlaqələndirmək olar. [12].

Uzun müddət intellektin mahiyyətini izah etmək üçün olan cəhdlərin istənilən nəticəni verməməsi, tədqiqatçıları onu intellektual tətbiqetmə baxımından izah etməyə sövq etdi, yəni onlar "intellekt nədir?" sualını "hansı tip davranışlar intellektual adlanır?" sualı ilə əvəz edərək bu suala cavab axtarmağa başladılar. Bu suala cavab verə bilmək üçün əvvəlcə fərdlərin hansı cür – intellektual, yoxsa qeyri-intellektual davranış göstərəcəyini müşahidə etmək üçün hər hansı situasiya yaratmaq lazım gəlirdi. Sonra, bu situasiyada fərdlərinin necə hərəkət edəcəyi müşahidə olunaraq, fərdlərin davranışlarındakı fərqə əsasən, müqayisəli şəkildə tədqiq olunacaqdı. XX əsrin əksər pedaqoq və psixoloqlarının fikrincə, bir neçə alternativ cavab variantlarından yalnız birinin düz olduğu IQ testləri məhz bu situasiyanı yaradır. Bir çox psixoloqlar (A.Bine, Ç.Spirmen, L.Termen və s.) intellekt anlayışı olaraq, intellekt testlərinin ölçdüyü bacarıqları nəzərdə tuturdular, başqa sözlə, intellekt əmsalını (IQ) intellektin sinonimi hesab edirdilər. H.Y.Ayzenk, K.Lünqman və bir çox alimlər də bu fikri dəstəkləyirlər ki, intellekt IQ testləri ilə ölçülə bilən bacarıqlardır. [15, s. 129]. Bununla da onlar "intellekt" anlayışının məzmununu istedad kimi deyil, insana intellekt testlərinin həll edilməsində yardımçı olan, qazanılmış bilik və düşüncə vərdişlərini xarakterizə edən anlayış kimi ifadə edirlər. İsveç alimi S.Bohman da bu mənada başa düşülən intellekt termininin insanın istedadını deyil, testə düzgün cavab verə bilmə bacarığını ifadə etdiyini bildirir [2].

Bütün deyilənləri analiz edərək görmək olar ki, intellekti izah edən çoxlu nəzəriyyələr var. Demək olar ki, hər bir tədqiqatçının bu haqda digərlərindən fərqlənən mülahizələri var. Lakin, XX əsrdə tədqiqatlar zamanı intellektin mahiyyətinə aşağıdakı yanaşmalar daha çox üstünlük təşkil etmişdir:

- öyrənmə (informasiya əldə etmə) bacarığı. Bu fikrin ən məşhur tərəfdarları Alfred Bine, Çarlz Spirmen, Cef Kolvin olmuşlar.
- abstrakt münasibətlər və simvollarla əməliyyatlar aparmaq bacarığı. Bu fikrin ən məşhur tərəfdarları Luis Termen, Edvard Tordnyak, Cozef Peterson olmuşlar.
- yeni şəraitə adaptasiya olunmaq bacarığı. Bu fikrin ən məşhur tərəfdarları Uilyam Ştern, Luis Terstoun, Eduard Klapared, Jan Piaje, R.Sternberq olmuşlar.

İntellektin mahiyyətinin araşdırılması ilə paralel olaraq onun strukturunun öyrənilməsi sahəsində də tədqiqatlar aparılırdı. İntellektin strukturunu üzə çıxarmaq üçün ilk cəhdlər intellektə beyin xəritəsinin inikası kimi baxılması fikrinə əsaslanırdı (P.Sternberqin "coğrafi model" tərifi) [11]. Bu, frenologiya nəzəriyyəsinin nümayəndəsi olan F.Qall tərəfindən irəli sürülən – beynin müxtəlif hissələri müxtəlif funksiyaları yerinə yetirir – fikrinə əsaslanırdı. Onun fikrincə, fərdin intellekti haqqında məlumat əldə etmək üçün onun beyninin xəritəsini tərtib etmək lazımdır [13].

İntellektin strukturunu T.Kelli [8], L.Terstoun, R.Kettel, F.Vernon, C.Hilford [4], [5], [6], R.Ceqer, R.Meyli, Q.Qardner [3] və s. tədqiqatçılar müxtəlif növlərə ayırmışlar. Onlar fəza münasibətləri ilə əlaqəli əməllər, ədədlər üzərində əməllər, verbal materiallarla əməllər, yaddaş, sürət kimi faktorları intellekti xarakterizə edən əsas faktorlar hesab etmişlər. Qeyd edək ki, bu sahədə ən mühüm işlər C.Hilforda aiddir. O, özünün fərziyyəyə əsaslanan nəzəriyyəsində intellektin strukturunu müəyyənləşdirmiş və sonra onu eksperimental olaraq sınaqdan çıxarmışdır [5]. 150-dən artıq müxtəlif intellektual bacarığın müəyyən olduğunu nəzərə alan Hilford onları əqli əməliyyatların növləri (dərketmə, hafizə, divergent təfəkkür, konvergent təfəkkür, qiymətləndirmə), əqli əməliyyatlar zamanı istifadə olunan informasiyanın forma və məzmunu (təsviri, simvolik, semantik, eşitmə və s.), informasiyanın emal formalarını xarakterizə edən məhsulu, nəticəsi (elementlər, siniflər, münasibətlər, sistemlər, çevirmə növləri, nəticələr) kimi üç ölçüyə görə qruplaşdırmışdı. Lakin Hilfordun elə öz eksperimentləri onun nəzəriyyəsini təsdiq etmədi [5].

Daha sonrakı tədqiqatlar intellekt strukturunu müəyyən edən 6 əsas faktorun – əyani təfəkkür, verbal təfəkkür, riyazi təfəkkür, informasiya emalı bacarığı, formal-məntiqi təfəkkür

və motivasiyanın olduğunu söyləmişlər. Amerikan psixoloqu Q.Qardner İntellektin çoxşaxəli nəzəriyyəsində (The Theory of Multiple Intelligence) intellektə vahid bir anlayış kimi baxıla bilmənin mümkünsüzlüyünü onun kifayət qədər mürəkkəb struktura malik olması ilə izah edir [3]. Nəzəriyyənin əsas müddəaları belə ifadə olunur: hər bir insanda müəyyən qədər intellektual potensial olur, müxtəlif fərdlərdə irsiyyət, təlim, mühit və s. kimi müxtəlif amillərin təsiri ilə intellektin müəyyən sahələri digərlərinə nisbətən daha çox inkişaf edir. Nəticədə fərdlərin müxtəlif intellekt potensialları və onların müxtəlif səviyyədə inkişafları nəticəsində müxtəlif intellektlər meydana gəlir ki, bunlar da əvvəlcə qaba və primitiv formada olub, sonradan müxtəlif məsələlərin həlli zamanı "mədəniləşir". Qardner bu nəzəriyyəsində intellektin linqvistik, musiqi, məntiqi-riyazi, fəza, hərəki, şəxsiyyətdaxili, fərdlərarası kimi növlərinin olduğunu göstərmişdir.

Təqribən bir əsrə yaxın müddətdə intellektlə bağlı tədqiqatlar daha çox onun mahiyyətinin müəyyənləşdirilməsi, ölçülməsi və diaqnostikası istiqamətində aparılmış, tədqiq olunan obyektin özünün, onun səviyyələrinin, konkret inkişaf şərtlərinin digər elm sahələrinə (təbiət elmləri, fəlsəfə, pedaqogika) təsiri araşdırılmışdır. Qeyd etmək istərdik ki, bu problemi araşdıran bütün tədqiqatçılar təfəkkürün xüsusiyyətlərini və bu xüsusiyyətlərin öyrənmənin müvəffəqiyyətliliyinə, müxtəlif tipli problemlərin həllinə təsirini xüsusi vurğulamışlar.

İntellekt problemi ilə bağlı apardığımız araşdırmalar bizə onu deməyə əsas verir ki, intellekt çoxşaxəli və mürəkkəb struktura malik olmaqla, fərdin məqsədyönlü hərəkət etmək, cisim və hadisələr arasındakı əlaqə və münasibətləri dərk edərək, öz davranışını şəraitin tələbinə uyğun surətdə dəyişdirmək, rasional düşünmək və ətraf mühitlə effektiv rəftar etməsindən ibarət koqnitiv qabiliyyətidir. İntellekt fəal və mürəkkəb idrak əməliyyatı sistemi olub, yalnız həll edilən məsələlərin mürəkkəbliyi ilə deyil, insan fəaliyyətinin istiqaməti, təhrik və motivlərin xarakteri ilə müəyyən olunur. İntellekt özünü əqli idarəetmədə büruzə verir. Əqli idarəetmə özündə üç əsas komponenti birləşdirir: adaptasiya, seleksiya və formalaşdırma. Adaptasiya – insanın ətraf mühitə (aləmə) uyğunlaşması, seleksiya – fərdin uyğunlaşa biləcəyi mühitin seçilməsi, formalaşdırma – insanın ətraf mühiti özünə uyğunlaşdırması, özünə uyğun şəkildə formalaşdırması. İnsan ətraf mühitə (aləmə) nəzərən müxtəlif cür hərəkət edə bilər, yəni ona uyğunlaşa, özünə uyğun mühit seçə və ya onu özünə uyğunlaşdıra bilər, lakin bu zaman istifadə etdiyi intellekt komponentləri müxtəlif ola bilər. Onları da üç qrupa ayırmaq olar:

1. Metakomponentlər (problemin həllinin planlaşdırılması, ona nəzarət və onun qiymətləndirilməsini həyata keçirən proseslər).

2. İcra komponentləri (metakomponentlərin təyin etdiyi komandaları yerinə yetirmək üçün istifadə edilən aşağı səviyyəli proseslər).

3. Biliklərin əldə edilməsi komponenti (problemin necə həll olunmasını öyrənmək üçün istifadə olunan proseslər).

Bütün komponentlər qarşılıqlı şəkildə bir-birindən asılıdır və insan hər hansı problemi həll edərkən onlar birgə fəaliyyət göstərirlər. İntellekti yüksək olan fərdlər problemin həlli zamanı informasiya proseslərini avtomatlaşdırmağa meyilli olurlar və bunu digərlərindən daha yaxşı bacarırlar.

Bəs fərdin intellektual səviyyəsi hansı amillərdən asılıdır? O anadangəlmə bacarıqdır, yoxsa qazanılma? Fərdin intellekt səviyyəsinin dəyişməsi hansı faktorlardan asılıdır? Araşdırmalar göstərir ki, fərdin intellektual səviyyəsi genetik amillər, ətraf mühit, ailənin tərkibi və sosial durumu, məktəbin təsiri, uşağın və valideynlərin şəxsi xüsusiyyətləri və s. kimi bir çox faktorlardan asılıdır. Anadangəlmə intellekt uzun müddət sabit qalmır, o da müəyyən zaman ərzində məsələn, insanın boyu kimi arta bilir. Bu artım kiçik yaşlarda daha sürətli olub, yaş artdıqca stabilləşməyə başlayır. Təqribi hesablamalara görə son bir əsrdə insanların ümumi IQ əmsalları 30 bal yüksəlib. Bu artım son 50 ildə daha da sürətlənib və məktəblərində məntiqi təfəkkürü inkişaf etdirən çalışmalardan, IQ testlərindən istifadə edilən

ölkələrdə artım daha yüksək olub. Bu fakt onu göstərir ki, təhsil prosesi fərdin intellekt səviyyəsinə təsir edən əsas amillərdən biridir.

İntellektin inkişafında təhsilin rolu danılmazdır. Təhsil özündə bir çox mürəkkəb proses və fəaliyyətləri cəmləşdirir ki, onun nəticəsi təkcə öyrənənin intellekt səviyyəsindən deyil, bir çox digər faktorlardan da asılı olur. Yəni, şagirdin dərslərə yaxşı hazırlaşması, yüksək nəticələr əldə etməsi hələ onun yüksək intellektə sahib olması demək deyil və əksinə, yüksək intellektə malik olan şagirdin öyrədilən materialı əla səviyyədə mənimsəyəcəyini də demək olmaz. Belə ki, intellekt öyrənmənin yalnız bir faktorudur və öyrənmə intellektin özünü büruzə verməsinin bir halıdır. Hər bir şagirdin əldə etdiyi nailiyyətlər ailə, məktəb mühiti, motivasiya şagird şəxsiyyəti və s. kimi faktorlardan asılı olur. Bu faktorlar şagird nailiyyətlərinə onun IQ əmsalından daha çox təsir edə bilir. Əgər ailədə və məktəbdə, həmçinin şagirdin yaşadığı mühitdə intellektual inkişaf üçün münbit şərait varsa, onun IQ əmsalının yüksək olması digərlərinə nisbətən daha yüksək nəticələr əldə edəcəyini deməyə əsas verir. Lakin, intellektual səviyyəsi yüksək olan şagird qeyri-münbit intellektual inkişaf mühitinə düşdükdə, zaman keçdikcə onun IQ səviyyəsindəki inkişaf dayanır və ya şagird öz bacarıqlarını təhsildə yox, hansısa başqa sahələrdə, o cümlədən cəmiyyətin normal qəbul etmədiyi sahələrdə tətbiq etməyə başlayır. Bu bir faktdır ki, istedadlı insan hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, uğur qazana bilir. Əgər istedadlı şagirdlərin təlim-tərbiyə prosesi düzgün təşkil olunarsa, gələcəkdə onların hansısa yeniliklərə imza atacağına ümid etmək olar ki, bundan həm fərdin özü, həm də bütün cəmiyyət faydalana bilər.

Ətraf mühitin intellektual səviyyəyə təsiri elə güclüdür ki, şagird nailiyyətləri haqqında düzgün proqnoz verə bilmək üçün ətraf mühiti xarakterizə edən xüsusi indekslər daxil etmək zərurəti yaranır. Məsələn, müxtəlif tipli məktəb, lisey və kollecləri bir-birindən aşağıdakı parametrlərə görə fərqləndirmək olar:

- psixoloji mühit;
- nəzəri və praktik istiqamətlər üzrə dərslərin xüsusi çəkisi;
- şagirdlərin dərsdənkənar, məktəbdənxaric məşğələ və tədbirlərdə iştirakının səviyyəsi;
- ictimai fəaliyyətə maraq səviyyəsi;
- müxtəlif layihələrdə iştirak;
- ümumbəşəri problemlərin həllinə qoşulmaq cəhdləri və s.

Bu tendensiya digər sahələrdə də müşahidə olunur. Artıq ailə mühitini, xüsusilə ailənin sosial-iqtisadi durumunu şərtləndirən xarakteristikaları indeksləşdirmək üçün araşdırmalar aparılır. Bunun üçün bir göstərici ilə şərtlənən ən sadə parametrlərdən (atanın işi, məşğuliyyəti və ya valideynlərin təhsil səviyyəsi) tutmuş, yaşayış səviyyəsi, yaşadığı evin ölçüləri, şagirdin ayrıca otağının olub-olmaması, evdəki rahatlığın səviyyəsi, lazım olan kitabları, ədəbiyyatları əldə edə bilmək imkanı, məktəbdənxaric təhsilin (məsələn, musiqi dərslərinin) səviyyəsinə qədər ən incə mətləblər belə nəzərə alınır. B.Blumun tədqiqatlarına görə şagirdin 7 və 16 yaşlarındakı IQ testlərinin nəticələrinin korellyasiyasi təkcə valideynlərin təhsil səviyyəsinə görə 0,58-dən 0,92-dək yüksələ bilər. [1].

İntellekt səviyyəsi ətraf mühitin təsadüfi dəyişməsi, həm də planlı kənar müdaxilə nəticəsində dəyişə bilər. Məsələn, uşaqların IQ əmsalının nəzərə çarpacaq dərəcədə dəyişməsi (yüksəlməsi və ya aşağı düşməsi) aşağıdakı səbəblərdən baş verə bilər:

- ailə strukturundakı dəyişikliklər;
- ailə gəlirlərinin artması və ya azalması;
- yaşayış yerinin dəyişməsi;
- uşaq bağçasına gedib-getməməsi;
- musiqi, idman kimi sahələrlə məşğul olub-olmaması və s.

Alimlər hesab edirlər ki, ilk dəfə XX əsrin 60-cı illərində ABŞ-da aşağı sosial-iqtisadi şəraitdə yaşayan ailələrin uşaqları üçün yaradılmış təhsilin balanslaşdırılmış, necə deyərlər

kompensator proqramları nəticəsində intellekt səviyyəsinin yüksəlməsi mümkün ola bilər. Bu proqramlar çərçivəsində analarının IQ əmsalı 70-dən aşağı olan üşaqlara keçirilmiş məşğələlər nəticəsində 4 ildən sonra uşaqların bir çoxunda IQ əmsalının 135-ə çatdırılmasına nail olunmuşdur. Bu tədqiqat həm də ona görə daha çox maraqlıdır ki, burada genetik komponent və ətraf mühitin IQ-yə bilavasitə təsiri məsələsinə toxunulur, fərdi xüsusiyyətlərin formalaşmasında təlim və tərbiyənin rolunun həlledici olması təsdiqlənir.

1952 və 1982-ci illərdə Hollandiyada aparılmış testin nəticələri göstərir ki, 30 il ərzində 18 yaşlı hollandların IQ səviyyəsi 20 bal (1,33 dəfə) yüksəlmişdir. Ətraf mühitin (təhsil, iş və s.) təsiri ilə artım tempini riyazi hesablamalarla davam etdirdikdə məlum olub ki, bu templə 30 ildə IQ səviyyəsi 1,33 dəfə deyil, 2,67 dəfə yüksəlməli idi. Bu fakt onu deməyə əsas verir ki, IQ səviyyəsi yalnız ətraf mühitdən asılı olmayıb, ilk vaxtlarda deyildiyi kimi həm də irsi xarakter daşıyır və genetik faktorlardan asılıdır. Ona görə də, ümumi intellekt səviyyəsinin tədqiqi perspektivində ilk vaxtlarda olan birtərəfli baxışlardan fərqli olaraq, həm genetik, həm də ətraf mühit faktorlarının birgə araşdırılması məsələsi görünür.

Artımın səbəbləri haqqında bir çox tədqiqatlar aparılmışdır. Tədqiqatçıların arasında bu faktın nə ilə bağlı olması haqqında yekdil fikir olmasa da, bəzi fərziyyələr irəli sürülmüşdür:

- ətraf mühitdə olan dəyişikliklər, inkişaf intellektlə daha çox əlaqəlidir;
- insanlar gündəlik həyatlarında bu dəyişikliklərlə qarşılıqlı əlaqədə olur, onların təsirinə məruz qalır;
- intellekt faktorlarunun ətraf mühitə təsiri getdikcə çoxalır;
- keçmiş dövrlərdə insan qrupları arasında fərqlər indiki dövrə nisbətən daha çox idi, başqa sözlə, hazırda inteqrasiya prosesləri insan qrupları arasındakı fərqləri minimuma endirir.

Cəmiyyətin inkişafında ümumi təhsilin deyil, ayrı-ayrı fərdlərin şəxsi keyfiyyətlərinin daha önəmli olmasını irəli sürən nəzəriyyələr də mövcuddur. Onlar bu fikri bir çox ixtira və kəşflərin şəxsi keyfiyyətlər nəticəsində təsadüfən ortaya çıxmasını əsas götürərək irəli sürmüşlər. Məsələn, Ceyms Vatt qaynayan qabdan çıxan buxarı görüb təsadüfən buxar maşınını, İsaak Nyuton başına alma düşməsi ilə yerin cazibə qüvvəsini kəşf etmişdir və s. Halbuki qabdan buxarın çıxmasını Vattdan əvvəl də müşahidə edənlər olmuşdu. Alma daha öncə də bir çoxlarının başına düşmüşdü. Bəs niyə bu kəşfləri bu hadisələri onlardan əvvəl müşahidə edənlər yox, məhz Vatt və Nyuton etdi? Bu önəmli kəşflər təsadüfi deyildi. Həm Vatt, həm də Nyuton, çox dahi doğulsaydılar belə, sistematik təhsil olmadan bu cür kəşflərə imza ata bilməzdilər.

İnsan öz IQ əmsalını bütün həyatı boyu yüksəldə bilər, başqa sözlə insanın intellektual səviyyəsinin inkişafı onun həyat və fəaliyyəti ilə sıx əlaqəlidir. Xüsusilə təhsil insan idrakının yüksəlməsinə təsir edən ən mühüm amillərdən biridir. İntellektin inkişaf etdirilməsi üçün onun ilkin səviyyəsini müəyyənləşdirmək həlledici mərhələ hesab edilir. Bunun üçün intellektin paylanması qrafikinə əsasən hər bir şəxsin intellektual səviyyəsi barədə konkret məlumat əldə edilir, sonra bu qabiliyyətləri inkişaf etdirmək üçün görüləcək işin məzmunu, o cümlədən müvafiq çalışma və tapşırıqlar sistemi müəyyənləşdirilir. Bu tapşırıqlar bilavasitə şagirdlərin məntiqi və yaradıcı təfəkkürünün inkişafına yönəldilir. Çünki intellektin nüvəsini təfəkkür təşkil edir. Şagirdlərdə intellekt sistemli şəkildə inkişaf etdirilməli, onlarda ümumiləşdirmə, mücərrədləşdirmə, yanaşı, əqli keyfiyyətlərin, ilk növbədə, təfəkkürün məntiqiliyi və tənqidiliyinin inkişafına xüsusi diqqət yetirilməlidir.

Ədəbiyyat

1. Əlizadə Ə. İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər. Bakı, 2006.
2. Bohman S. What is intelligence? Stockholm, 1980.
3. Gardner H. Frames of Mind: The Theory of Multiple Intelligence. N. Y., 1983.
4. GuilfordJ. P. Cognitive Rsychology's ambiguities: some suggested remedies // Rsychol. Vol. 82. – 1982.

5. GuilfordJ. P. Hoepfner R. The analysis of Intelligence. N. Y., 1971.
6. GuilfordJ. P. The nature of human Intelligence. N. Y., 1967.
7. Handbook of human intelligence /Ed. by R.J.Sternberg. Cambridge, 1982.
8. Kelley T. Crossroads in the mind of man. Stanford, 1928.
9. Mental tests and cultural adaptation / Eds. Cronbach L. J., Drenth P. J. D., 1972.
10. Mischel W. Personality and assessment. N. Y., 1968.
11. Steinberg R.J. The triarchic mind. A new theory of human intelligence. N. Y., 1988.
12. Sternberg, Robert J.; Detterman, Douglas K., eds. (1986). What is intelligence? Contemporary viewpoints on its nature and definition. Norwood (NJ): Ablex. ISBN 0-89391-373-1.
13. The biology of human intelligence / Ed. C J. Turner, H. B. Miles. L, 1984.
14. The Journal of Educational Psychology, 1921. – № 12.
15. Айзенк Г. Интеллект: новый взгляд // Вопросы психологии, 1995. - №1.
16. Анастази А. Психологическое тестирование: В 2 т. / Под ред. К. М. Гуревича, В. И. Лубовского. Т. 1-2. М., 1982.
17. Штерн В. Умственная одаренность. СПб., 1997.

Ф.М.Фаттаев

Интеллект, его сущность, структура и факторы, обусловливающие его развитие

Резюме

В статье рассматриваются теории о сущности и структуре интеллекта, а также в сравнительной форме изучаются взгляды разных исследователей, и анализируются их общие и различительные черты. Обобщаются выдвинутые исследователями мысли, компоненты и отношения к сущности интеллекта. Кроме того, автор выражает свое мнение касательно этого вопроса, затрагивает проблему развития интеллекта.

F.M.Fattayev

The intellect, its Essence, structure and the factors influencing its development

Summary

The article deals with the theories of the essence and the structure of the intellect, the comparing studies of the opinions of the various researchers, and the analyses of the common and different features of these opinions. The ideas, the components of the intellect and the attitudes to its essence, offered by the researchers, are generalized. Besides, the author expresses his own opinion to this matter, touches the problem of development of the intellect.

Rəyçi: ped.f.d., dos.A.G.Məmmədov

Redaksiyaya daxil olub: 14.02.2017

M.S.HACIMURADOV

DTX-nin H.Əliyev adına Akademiyası
(Bakı şəh., Ələsgər Qayıbov küçəsi, 6.)

ƏLBƏYAXA DÖYÜŞ TƏLİMİNİN ƏSASLARI VƏ PRİNSİPLƏRİ

Açar sözlər: *Əlbəyaxa döyüş, texnika, özünümüdafiə, zərbələr, prinsiplər*
Ключевые слова: *Рукопашный бой, техника, самозащита, удары, принципы*
Key words: *Hand-to-hand fight, technique, self-defense, strikes, principles*

"Əlbəyaxa döyüş" anlayışı Hərbi Ensiklopediyada aşağıdakı kimi izah edilir: "Əlbəyaxa döyüş yaxın məsafədən döyüşün bir növü kimi döyüşən tərəflərin müxtəlif silahlar və əşyalarla, əl altında olan vasitələrlə, həmçinin boş əllə bir-birini məhv etmək üçün əlbəyaxa döyüş fəndlərindən məharətlə istifadə edilməsidir". Əlbəyaxa döyüş bəşəriyyət yarandığı zamandan mövcuddur. Təkmübarizlik texnikası qədim dövrlərdə əcdadlarımız tərəfindən yaradılmış, sonrakı minilliklərdə fasiləsiz olaraq təkmilləşmiş və zənginləşmişdir. İnsan həyatının ekstremal şəraiti ağlı və bədəni həmişə gərgin saxlamağa məcbur edirdi ki, özünümüdafiə üçün mürəkkəb düşünülmüş hərəkətlər icrasını axtarıb tapsın. Məsələn əllə zərbələr, ayaqla zərbələr, ağac və daşla zərbələr, tutmalar və atmalar və s. Əlbəyaxa döyüş sənəti bəşər tarixi boyunca inkişaf edib və insan həyatını ona məharətlə yiyələnmək bacarığından asılı olub.

Məlumdur ki, Yer kürəsində bəşəriyyətin mövcud olduğu bütün bu müddət ərzində mindən çox lokal müharibələr və silahlı münaqişələr baş vermiş, çoxlu sayda insanların məhvinə səbəb olmuşdur. Silahlı toqquşmalar və yaxud mübarizənin əsas forması olan müharibə hər zaman silahlanmanın və silahlı qüvvələrin tətbiqinin ən yüksək təşkilatlanma formasını tələb etmişdir, çünki bunsuz qarşıya qoyulan məqsəd və vəzifəni yerinə yetirmək mümkün deyil. Yer sivilizasiyanın tarixi dövlərindən yeni silahın meydana gəlməsi silahlı mübarizənin forma və üsullarının kökündən dəyişdirilməsinə gətirib çıxardı ki, bu da hərb işində elmi-texniki inqilabın əlamətləri ilə yeni nəsil müharibələrə keçilməsi idi. Deməli, döyüşçülərin öyrədilməsi, hazırlanması strategiyasının və hazırlığın yoxlanılması yenisi ilə əvəz olunmasına keçid baş verir.

Əlbəyaxa döyüş vərdişlərinin yoxlanılması aşağıdakı formada həyata keçirilir:

1. Ayrı-ayrı fəndlər və fənd kombinasiyaları yerinə yetirilir;
2. Rəqiblə və ya fərdi olaraq istifadə edilən texnikanın səmərəliliyi qiymətləndirilir;
3. Maneələrlə və dəyişən elementlərlə təchiz edilmiş 300-450m uzunluğu olan hücum xəttinin dəf edilməsi, məsafəni keçmək sürəti, maneələri dəf edərkən hərəkətlərin düzgün seçilməsi, dəqiq zərbələrin vurulması yoxlanılır. Qarşılaşma "rəqibi məhv edənədək", onu ayaqdan salanadək, yaxud rəqib döyüşü davam etdirməkdən imtina edənədək keçirilir, qələbə və məğlubiyyətlərin nisbəti nəzərə alınır.

Əlbəyaxa döyüş şəxsi heyətdə döyüş hazırlığının artırılması məqsədilə keçirilir və psixoloji baxımdan ümumi gərginliyin aradan qaldırılması üçün bir vasitə kimi çıxış edir. Bundan başqa, əlbəyaxa döyüş müəyyən növ fəaliyyət və xüsusi xidmət üçün vacib olan spesifik vərdişlərə yiyələnməkdə və onları möhkəmləndirməkdə xüsusi rol oynayır.

Əlbəyaxa döyüşlə bağlı olan məsələlər daha çox tərbiyəvi işin aparılmasına, idmançılarda döyüş üçün zəruri olan psixoloji, xüsusi fiziki keyfiyyətlərin formalaşmasına yönəlmişdir. Bu, xarici mühitin mənfi amillərinin təsirinə orqanizmin psixoloji və fiziki dözümlülüyün artırılması, onun zərif qavrayışlarının səviyyəsinin inkişaf etdirilməsi, ehtiyat imkanlarından istifadə edilməsi və ani dəqiq qərarları qəbul etmək bacarığının inkişaf etdirilməsidir. Bu nöqteyi-nəzərdən əlbəyaxa döyüş hazırlığı lazımlı və vacibdir.

Əhəmiyyətli dərəcədə psixolji gərginlik tələb edən operativ döyüş şəraitinə yaxın vəziyyətdə döyüşün nəticəsi əməliyyat işçisinin bacarıqlı və qətiyyətli hərəkətlərindən tamamilə asılı olacaqdır. Fərdi silaha yiyələnmək bacarığı, tez-tez dəyişən bir şəraitdə müxtəlif əlbəyaxa döyüş fəndlərinin bacarıqla istifadə edilməsi yüksək peşəkarlıq səviyyəsinə gətirib çıxarır.

Əlbəyaxa döyüş hazırlığının əsas məqsədi onların hazırlığının formalaşdırılması prosesinin qanuna uyğunluqları və bu prosesin idarə olunmasıdır.

Əlbəyaxa döyüşün öyrədilməsinə aiddir: qabaqlayıcı çalışmalar, komplekslər, müxtəlif idman növləri (boks, sambo, cudo və s). Hazırlıq formaları: sərbəst məşğələlər, məşq rejimi, idman bölmələrində məşğələlər.

Əlbəyaxa döyüş üzrə təlim prosesi özündə planlaşdırmanı, maddi-texniki təchizatı və bu prosesin mənimsənilməsinin gedişinə nəzarəti ehtiva edir. Təlimin planlaşdırılması tədrisin təsdiq edilən sənədləri əsasında həyata keçirilir. Əlbəyaxa döyüş məşğələlərini təşkil edərkən məşq edənlərin fəaliyyət xüsusiyyətləri nəzərə alınmalıdır. Əlbəyaxa döyüş təlimi prosesini məşq edənlərin gələcək fəaliyyətinin xarakteri ilə əlaqələndirmək lazımdır. Fiziki hazırlıq məşğələlərinin müntəzəmliyini və ardıcıllığını gözləmək lazımdır. Həftə ərzində fiziki yükün yerinə yetirilməsinin və həcmin bərabər paylanmasına riayət etmək vacibdir. Yerli şərait və öyrənənlərin fiziki inkişafı nəzərə alınmalıdır. Maddi-texniki təchizat da məşq zamanı mühüm rol oynayır.

Əlbəyaxa döyüş təliminin prinsipləri öyrədilən biliklərin ardıcıllıqla ötürülməsi, əlbəyaxa döyüş bacarıq və vərdişlərinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədilə müvafiq keyfiyyətlərin aşılanmasından ibarətdir.

Təlim və tərbiyə vahid pedaqoji prosesdir, belə ki, aşağıdakı didaktik prinsiplərə əsaslanır:

Şüurluluq və fəallıq prinsipi: pedoqoji prosesin keyfiyyəti və səmərəliliyi öyrənənin nə dərəcədə şüurlu təlimə hansı fəallıqla yanaşmasından çox asılıdır. Əlbəyaxa döyüşüöyrənənlərin bu növün bütün fəndlərini öyrənmək zərurətini başa düşməsindən, məşğələlərin vəzifələrinin dəqiq təyin edilməsindən, hərəkətlərin yaxud çalışmaların orqanizmə təsirinin nlara izah edilməsindən çox asılıdır. Şüurlu fəallıq və cəhd olmadan hər hansı idrakı fəaliyyət mümkün deyil. Əlbəyaxa döyüş təlimi praktikasında öyrənənlərin hərbi-tətbiqi vərdişlərər yiyələnmək zərurətini başa düşmələri, ən müxtəlif situasiyalarda müxtəlif rəqiblərlə əlbəyaxa döyüş aparmaq bacarığını və vərdişlərini formalaşdırmaq üçün şəxsi motivasiyanın olması zaəruridir. Rəqiblə qarşılaşdıqda yalnız döyüş texnikasına əla yiyələnən taktiki cəhətdən döyüşü düzgün idarə edə bilənin qələbə çalacağının dərk edilməsi daha möhkəm və daha tez harmonik, savadlı hərəkət vərdişlərinin mənimsənilməsinə, zəruri fiziki və iradi keyfiyyətlərinin qavranılmasına təsir göstərir. Öyrənənin fəallığı onun öyrənməyə nə dərəcədə həvəsli olmasına və həvəsləndirmə motivasiyasının səviyyəsinə əsaslanır. Öyrənənlərin marağının artırılması məşqçinin məşğələləri peşəkarcasına təşkil etmək, təlimi metodik cəhətdən düzgün qurmaq bacarığından asılıdır. Bu zaman məşğul olanların yaradıcı yanaşmalarını, qoyulan məsələlərin müstəqil həllinə hazırlıqlarını stimullaşdırmaq böyük əhəmiyyətə malikdir. Həmçinin, bu prosesdə çalışmaların, fəndlərin yerinəyetirilməsi keyfiyyətinin ayrı-ayrı nəticələrinin, nailiyyətlərin qiymətləndirilməsi də böyük əhəmiyyət kəsb edir. Əlbəyaxa döyüş məşqlərinə marağın artırılmasında təlimin texniki vəsaitlərinin, həmçinin müstəqil hazırlıq üçün ayrılan dərsdənkənar vaxtın rolu çox böyükdür.

Əyanilik prinsipi: təlimin bu prinsipi fəndlərin əyani (vizual) olaraq qavranılmasını, hiss edilməsinin istifdəedilməsini nəzərdə tutur. Bu prinsip iki yolla reallaşdırılır:

1. izah edərkən nümunəvi nümayiş etdirmə ilə;
2. əyani vəsaitlərdən istifadəetməklə.

Təlim prosesində məşğələ rəhbəri bilməlidir ki, öyrənənlərin analizatorları müxtəlifdir və onlar müxtəlif qabiliyyətlərə malikdirlər. Ətraf aləm haqqında informasiyanın 90%-ni biz görmə vasitəsilə əldə edirik. Hər hansı bir fəndin və ya hərəkətin öyrədilməsi nümunəvi nü-

mayişlə, yəni hərəkəti göstərməklə, onun izahı ilə başlanılır və bu nümayiş nə qədər keyfiyyətli olarsa, öyrənənlərdə bu fənd və ya hərəkət haqqında anlayış bir o qədər dolğun formalaşdırılmış olar. Əlbəyaxa döyüş təlimi prosesində əyanilik fəndin təbii nümayişi vasitəsilə təlim edilir və həmin fəndin mənimsənilməsinə, həmçinin hərəkətlərin quruluş sisteminin düşünülməsinə zəmin yaradır. Ona görə məşğələ rəhbəri tərəfindən fəndin və ya hərəkətin düzgün göstərilməsinin böyük həmiyyəti var. Əlbəyaxa döyüşün təlimi prosesində əyaniliyin bilavasitə nümayiş etdirilməsi və müşahidə edilməsi mümkün olmayan (hərəkətlərin cəldliyi və ya travmatiklik) texnikanın, taktikanın detallarının izah edilməsi böyük rol oynayır. Plakatların, kinoqramların, sxemlərin, videofilmlərin və digər əyani vəsaitlərin nümayişi fəndin ayrı-ayrı detallarınının canlandırılmasına və bununla da fənd haqqında dərin təsvirlərin əldə edilməsinə kömək edir.Təlim video və kinofimlərin, onların müzakirəsinin kurslara böyük səmərəsi olur. Əlbəyaxa döyüşə rəhbərlik edən bilməlidir ki, öyrənənlər vizual və akustik qıcıqlandırıcılarından hansına daha çox reaksiya verirlər. Əlbəyaxa döyüş təlimatçısı fərdi xüsusiyyətləri nəzərə alaraq hər bir öyrənən üçün maksimal təsir göstərən səmərəli təsir seçməlidir. Əyanilik prinsipinin səriştəli yerinə yetirilməsi təlimin səmərəliliyini artırır, öyrənənlərdə əlbəyaxa döyüş aparmaq vərdişlərinin formalaşdırması vaxtını qısaldır və onların marağını artırır.

Təlimdə müntəzəmlik və ardıcıllıq prinsipi: təlimin səmərəliliyi təlim materialının öyrədilməsindən, müəyyən qaydalara riayət olunmasından çox asılıdır. Belə ki, fəndin öyrədilməsində fasiləsizlik və ardıcıllıq böyük rol oynayır. Yeni material keçirilən məşğələnin davamı olmalıdır. Məşğələlər isə müntəzəm keçirilməlidir ki, hərəkət sxeminin ardıcıl öyrədilməsinə imkan yaransın. Bu qayda əlbəyaxa döyüş praktikasında böyük əhəmiyyətə malikdir. Təlimdə müntəzəmlik və ardıcıllıq prinsipinin əsas xüsusiyyətlərindən biri də təlim prosesinin fasiləsizliyidir. Məşğələlərin keçirilməsi təlim prosesinin rasionallığı və ardıcıllığı nəzərə alınmaqla planlaşdırılmalıdır.

Təlimin sistematiklik prinsipi: bu prinsip təlimdə sadədən mürəkkəbə, asandan çətinə yükü tədricən artırmaqla, sistemli keçid etməklə reallaşdırılır. Bu prinsip təlimdə öyrənənlərin yaş xüsusiyyətlərinin, hazırlıqlarının, fiziki və psixoloji xüsusiyyətlərinin nəzərə alınması ilə həyata keçirilir. Əlbəyaxa döyüş məşğələlərində bu prinsipə riayət edilməməsi ciddi zədələnmələrə gətirib çıxara bilər. Əksinə tələblərə riayət etməklə, materialın qısa müddətdə və səmərəli mənimsənilməsinə nail olmaq olar.

Təlimdə verilən biliklərin möhkəmliyi prinsipi: əlbəyaxa döyüş hazırlığı məşğələlərinə tətbiq etdikdə, bu prinsip öyrədilən fəndlərin hərəkətlərinin mənimsənilməsinin möhkəmliyini və müxtəlif şəraitdə istifadə olunması qabiliyyətini nəzərdə tutur.

Bütün adı çəkilən prinsipləri nəzərə almaq lazımdır, çünki onlar bir-biri ilə qarşılıqlı əlaqədardır və məşğələlərdə özlərini göstərirlər.

Əlbəyaxa döyüş hazırlığının əsas məqsədi məşğul olanların bilik, bacarıq və vərdişlərin mənimsənilməsində, onların hazırlığının formalaşdırılması prosesinin qanunauyğunluqları və bu prosesin idarə olunmasıdır. Əlbəyaxa döyüşlə məşğul olanların texniki hazırlıq və fiziki inkişaf səviyyəsini nəzərə almaqla yanaşı mövcud təlim materiallarının onlarda dünya görüşü, əxlaq xasiyyət və iradə formalaşdıran təlim-tərbiyə işinin bütün kompleksi ilə necə bağlı olduğunu bilmək zəruridir.

Əlbəyaxa döyüş nöqteyi-nəzərindən təlim pedaqoji, məqsədyönlü təşkil edilmiş prosesdir. Bu proses əlbəyaxa döyüşlə məşğul olanların spesifik-pedaqoji, təşkilatı, yarış, hakimlik fəaliyyətinin əsasını təşkil edən bacarıq, vərdişlərsistemi və təlim metodikasının nəzəriyyəsi haqqında biliklər sisteminin formalaşmasına yönəldilmişdir.

Ədəbiyyat

1. Вельмякин В.Н. Боевое самбо и рукопашный бой для спец войск. Рязань, 1993.
2. Методические рекомендации инструктору армейского рукопашного боя. Под редакцией П.М. Лаговского. М., 1995.
3. Харитонов И.В. Рукопашный бой правоохранительных органов. М.1994.
4. Martin Dougherty. SAS and Elite Forces Guide Extreme Unarmed Combat, Lyons Press April 2012.

М.С.Гаджимурадов

Основы и принципы преподавания рукопашного боя

Резюме

Статья посвящена роли рукопашного боя в современном обществе, которая вносит новые формы и методы подготовки спортсменов. Показано, что рукопашный бой является не только хорошим средством повышения физической подготовки, но и методом снятия психологического напряжения.

В том числе статья посвящена правильной организации проведения подготовки рукопашного боя.

M.S.Hajimuradov

Bases and principles of teaching hand-to-hand fight

Summary

The article is devoted to the role of hand-to-hand fight in modern society, which contributes new forms and methods to the training of athletes. It is proved that hand-to-hand fight is not only a good means for an improvement of physical training, but also a method for removing the psychological tension.

Furthermore, the article includes the suggestions for proper organization of training process of hand-to-hand fight.

Rəyçi: ped.f.d., prof. D.Quliyev

Redaksiyaya daxil olub: 06.02.2017

P.Q.İBRAHİMOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

SƏRİŞTƏLİ XARİCİ DİL MÜƏLLİMLƏRİNİN KOMMUNİKATİV CƏHƏTDƏN HAZIRLANMASININ PSİXOLOJİ ƏSASLARI

Açar sözlər: *kommunikasiyanın psixoloji aspektləri,psixoloji səriştəyə malik olan müəllim hazırlığı, müəllim şəxsiyyətinin növləri, dil materiallarının qavranılması*

Ключевые слова: *психологический аспекты коммуникации, подготовка психологически-компитентных учителей, типы личности учителя, усваение языковых материалов*

Key words: *the psychological aspects of communication, psychologically competent teacher training, types of the teacher s personality, comprehen-sion of language materials*

Avropa standartlarına inteqrasiya, təhsilimizdə gedən islahatlar və dünya təhsil sistemindən bəhrələnmək başqa fəaliyyətlərlə yanaşı, bir və ya iki xarici dildə ünsiyyət qurmağı, əlaqə saxlamağı bacaran şəxsiyyətin formalaşmasını və yüksək nəticələrə səbəb ola biləcək yanaşmalar tələb edir. Bunun əsasında yaddaşdan təfəkkürə keçmək, hafizədən çox məntiqi təfəkkürü inkişaf etdirmək durur. Elmin və texnalogiyaların müasir inkişaf səviyyəsində təhsil sistemində yeni psixopedaqoji və interaktiv metodların tətbiqi xarici dilin öyrənilməsinə olan münasibəti dəyişmişdir.

Müasir dövrdə xarici dilin tədrisində üstünlük verilən metodlardan biri də komunikativ metoddur. Bu metod müəllimlərdən təkcə linqvistik biliklərə deyil, eyni zamanda psixoloji biliklərə də yiyələnmələrini tələb edir. Psixologiya eksperimental bir elm kimi XX əsrin başlanğıcında təlim-təhsil prosesində geniş tətbiq olunmağa başlamışdır. Hər hansı bir xarici dilin tədrisində psixoloji aspektlərin nəzərə alınmaması həmin dilin öyrətmə və ya öyrənilməsini natamam və təsirsiz edir. Tələbələrin xarici dilin öyrənmə arzusu və bu fənnə olan maraqları onların bu dilə yiyələnmələri üçün vacib şərtlərdən biri olsa da, digər vacib şərtlərdən biri də müəllimlərin dərs prosesi zamanı efektiv öyrətmə texnikalarından istifadə etmələridir. Müəllimlərdə komunikativ bacarıqları sistemli halda formalaşdırmaq üçün T.M.Xrustalyova aşağıdakı müddəaları təklif etmişlər.

1. Tədris materialının mənimsənilməsi üçün qoyulmuş məqsədləri yerinə yetirmək bacarığı
2. Mənimsəmə prosesində müsbət motivasiyaya stimullaşdırmaq bacarığı
3. Tədris materiallarının düzgün təklifi və materialların öyrənənlər tərəfindən anlaşılmasını təmin etmək bacarığı
4. Biliklərin möhkəmləndirilməsi və tətbiqi, bacarıq və qabiliyyətlərin qazanılmasını təklif etmək bacarığı
5. Mənimsəmə prosesinin korrektə edilməsinin yerinə yetirmək bacarığı

Qeyd edilmiş bu bacarıqlar ümumiləşdirilmiş bacarıqlardır və idrak- təlim prosesinə uyğun gəlir. Kommunikativ yönümlü müəllimlər eyni zamanda qavramanın hər bir mərhələsində şagirdlərin istər intelektual istərsə də psixi fəaliyyətlərinin inkişafına diqqət yetirməlidirlər. Bunun nəticəsində tələbələr informasiya mənbələrini düzgün seçir və onun qavranılması prosesində fəallıq göstərirlər.

Kommunikasiyanın psixoloji fəaliyyətini izah edərkən növbəti məqamları qeyd etmək yerinə düşər. Kommunikasiya linqvistik hadisə ilə yanaşı həm də psixoloji bir hadisədir. Kommunikasiyanın insanların bir-birini qavraması, anlaması və qarşılıqlı əlaqə qurması prosesidir və nəhayət kommunikasiya informasiya mübadiləsidir və bu da insanların birgə fəaliyyət göstərməsi tələbatından yaranır.

Xarici dili mənimsəyən fərd olduğundan onu şəxsi və psixi xüsusiyyətlərini bilmədən mənimsəmə prosesinə nəzarət etmək qeyri mümkündür. Şəxsi keyfiyyətlərinə görə müəllimlər ekstravert və introvert müəllim tipinə bölünürlər. L.A.Xarayeva tərəfindən aparılmış tədqiqatların nəticələri göstərmişdir ki, introversiya yarıdan çox müəllimlərə xasdır ki, onların çoxu yüksək peşəkarlıq səviyyəsinə görə fərqlənirlər. Məlum olmuşdur ki, kommunikativ yönümlü müəllimlər daha çox ekstravert – müəllim tipinə uyğun gəlirlər,çünkü onlar sosial yönümlü ünsiyyətə daha adekvatdılar. Xarici dilin tədrisi prosesi zamanı linqvistik biliklərlə psixoloji biliklərin sintezi tələbələrdə düşünmə prosesinin formalaşmasına köməklik edir.Istənilən fəaliyyət növü kimi kommunikativ fəaliyyət növüdə istiqamətləndirici, icraedici, nəzarətedici funksional komponentlərdən ibarətdir. Fəaliyyət predmetinin xüsusiyyətlərindən asılı olaraq hər birinin məqsədi aşağıdakılar olacaqdır.

- Birinci, elə informasiya mənbələri seçmək lazımdır ki, öyrənənlərin rasional qavramasını təmin etsin
- İkinci, təlim prosesində elə üsullar seçmək lazımdır ki, tədris materiallarının düzgün qavranılmasını təmin etsin və ondan təcrübə prosesində çəkinmədən, qorxmadan istifadə edə bilsin.
- Üçüncü, təlim prosesində elə nəzarət və qiymətləndirmə mexanizmlərindən istifadə edilməlidir ki, qavrama prosesi zamanı öyrənənlərin fəallığını təmin edə bilsin.

D.Salamon və həmkarları (1964) müəllimin şəxsi xüsusiyyətlərini öyrənərkən müəyyən etmişlər ki, hər hansı bir materialın qavranılması, şərhin aydınlığından, ifadəliyindən və müəllimin bu materialı maraqlı təqdim etmə bacarığından aslıdır. Təqdim edilmiş materialın tələbələr tərəfindən anlama səviyyəsi isə müəllimin dərs prosesi zamanı göstərdiyi fəallıqdan aslıdır.Əgər müəllim dərs prosesi zamanı müsbət atmosfer yaradarsa və tələbələrə öz bacarıqlarını nümayiş etdirmələri üçün sərbəstlik verərsə onda onun dərsi uğurlu alınacaq. Müəlliflər həmçinin müəllimlərin bir sıra fərdi xüsusiyyətlərini qeyd etmişlər. Bunların sırasına passivlik, fəallıq, aqressivlik-dözümlülük, həvəsləndirmə-şagirdlərin aktiv iştirakına laqeydlik, qeyri emosiyanallıq-ifadəlik, xeyrxahlıq, mehribanlıq, təmkinlik və səbrsizlik. Əlbəttə ki, kommunikativ yönümlü müəllimlər aqressivlik, səbrsizlik kimi neqativ xüsusiyyətlərə deyil, dözümlülük, mehribançılıq, öyrənənləri həvəsləndirmə kimi pozitiv xüsusiyyətlərə malik olmalıdırlar.

Xarici dilin tədrisi zamanı yaranan problemlərdən biri də,müəllimlərdə tənqidi və yaradıcı təfəkkürün formalaşmasıdır. Yaradıcı təfəkkür dedikdə bura mənimsənilmiş bilik, bacarıq və vərdişlərin yeni şəraitdə tətbiqi, informasiyanın alternativ yollarla axtarılması və inteqrasiyası, problemə aid fərziyyələrin irəli sürülməsi, ideyaların praktikada tətbiq edilməsi kimi bacarıqlar daxildir. Tənqidi təfəkkürün formalaşmasına gəldikdə isə bu ağır pedaqoji psixoloji problemlərin təhlili ilə bağlı olsa da səriştəli yanaşmadan istifadə edərək bu problemi həll etmək mümkündür. L.S.Viqodskiya görə psixoloji ünsiyyət formaları yalnız ona görə mümkündür ki, insan təfəkkür vasitəsilə reallığı ümumiləşdirilmiş şəkildə əks etdirir. Burada o, ümumiləşdirmə və ünsiyyət, kommunikasiya və təfəkkürün vəhdətini məntiqi şəkildə şərh etməyə çalışır. Kommunikativ metodda digər psixoloji faktor isə idrak fəallığıdır. İdrak fəallığı istər müəllim istərsə də şagird şəxsiyyətinin strukturunda mühüm rol oynayır.Bu növ fəallıq şagirdlərdə öz bilik və bacarıqlarını təcrübədə tətbiq etməyə və hadisələrin mahiyyətini asanlıqla dərk etməyə imkan yaradır. Kommunikativyönümlü xarici dil müəllimləri hər hansı bir təlim tapşırığını verməzdən əvvəl həmin tapşırığın şagirdlərdə hansı idrak qabiliyyələrini formalaşdıracağını müəyyənləşdirməli və buna uyğun fəaliyyət növləri seçməlidilər.

Psixi fəaliyyətin təşkilində intelektual bacarıqlar da xüsusi rol oynayır. Xarici dilin öyrənilməsi prosesi zamanı müəllimlər növbəti aspektlərə diqqət yetirməlidirlər

- Qarşıya məqsədin qoyulması, anlama və qavramanın müxtəlif tapşırıqlar əsasında təşkili
- Hər hansı bir situasiyanın ilkin olaraq təxəyyüldə canlandırılması, dərk edilməsi və onun məzmunun öz sözləri ilə dinləyicilərə çatdırılması
- Öyrənmə prosesi zamanı yadda saxlamaq və ünsiyyət qurmaq bacarığının inkişafı

- Öyrənənlərin yaş və dil mənimsənilmə səviyyələrini nəzərə alaraq buna uyğun fəaliiyət növlərinin seçilməsi

Müəllimin öyrətmək və təhsil alanın öyrənmək fəaliyyəti birgə fəaliyyət prosesidir. Bu prosesin hər iki tərəfi arasında bəzən ziddiyətlər təzahür edir. Bu bir tərəfdən təlim prosesində meydana çıxan sual, tapşırıq müəyyən düşüncə, digər tərəfdən isə axtarış, güman və cavab vermək kimi bacarıqları tələb edir. Kommunikativ metodla xarici dil tədris edən müəllimlər təlim prosesi zamanı növbəti cür çətinliklərlə qarşılaşa bilərlər.

1. Müəllimin özünün psixoloji və emosional və iradi xüsusiyyətləri ilə bağlı olan çətinliklər
2. Müəllimin şagirdlərlə ünsiyyət qura bilməmək bacarığından yarana biləcək çətinliklər
3. Müəllimin şagirdin daxili psixoloji vəziyyətini başa düşməməkdən gələn çətinliklər
4. Lüğət ehtiyacının zəngin olmamasından, daxili nitqdən xarici nitqə asanlıqla keçə bilməməklə bağlı çətinliklər
5. Materialı şagirdlərə emosional, anlaşıla biləcək tərzdə çatdıra bilməməklə bağlı olan çətinliklər
6. Ünsiyyət prosesi zamanı verbal və yaxud da qeyri-verbal hərəkətlərdən uyğun şəkildə istifadə edə bilməməkdən törəyən çətinliklər

Onu da qeyd etmək lazımdır ki, B.A.Kan-Kalik gənc müəllimlərin pedaqoji ünsiyyət zamanı qarşılaşdıqları çətinlikləri "psixoloji maneələr" adlandırmış-dır.

Bütün qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, kommunikativ fəaliyyətin uğurlu alınması üçün müəllimlər müəyyən dərəcədə psixoloji biliklərə sahib olmalıdılar . Müəllimin təlim-tərbiyyə, metodiki və psixoloji səviyyəsi nə qədər yüksək olarsa ,bir o qədər də təlim prosesində müvəffəqiyyəti yüksək olacaqdır .Onlar şagirdləri sevməli və eyni zamanda özlərini sevdirməyi bacarmalıdılar.

Ədəbiyyat:

1.Əliyeva M. Müəllimlərdə kommunikativ və didaktik qabiliyyətlərin psixologiyası. Bakı, 2013.
2.İsmayılova M. Ünsiyyətin psixologiyası. Bakı, 2011.
3.Əfəndiyeva Ü. Müəllim şəxsiyyətinin psixologiyası. Bakı, 2014.
4.Əskərov M.B. Psixologiya və dilin psixologiyası. Elm və təhsil, 2011.
5.Əlizadə Ə.Ə.- Əlizadə H.Ə. Pedaqoji psixologiya. Bakı, 2010.

П.Г.Ибрагимова

Психологические основы в подгатовке коммуникативно-компитентных учителей иностранного языка

Резюме

В статье рассматриваются вопросы характеризующие психологические качества, которым должны отвечать коммуникативно-компитентные учителя иностранных языков. Отмечается правильное усваение материалов, а так же психологические аспекты коммуникации.

P.G.Ibrahimova

Psychological bases in training communicative competent foreign language teachers

Summary

In the article it is spoken about the questions characterising psychological qualities of communicative-competent foreign language teachers. Here is noted the right comprehension of materials and also psychological aspects of communication.

Rəyçi: f.e.n., dos. A.Ə.Əsədov

Redaksiyaya daxil olub: 07.12.2016

T.Ş.MEHDİYEVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MƏKTƏBLİLƏRDƏ MİLLİ-MƏNƏVİ TƏRBİYƏ İŞİNİN TƏŞKİLİNİN TARİXİ-SOSİAL XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *milli-mənəvi tərbiyə, formalaşması, milli süur, sosial-pedaqoji irs, ənənə.*
Ключевые слова: *морально-национальное воспитания, формирование, национальное сознание, социально-педагогическое наследство, традиция*
Keywords: *educators, formation, national consciousness, the social-pedagogical inheritance, tradition.*

Azərbaycan ictimai-pedaqoji fikrində tərəqqipərvər maarif xadimləri tərbiyənin məqsədini mübariz, qorxmaz, cəsur, öz hüququnu anlayan, savadlı milli ruhlu vətənpərvərlər yetişdirməkdə görürdülər. M.T.Sidqi, F.Köçərli, S.M.Qənizadə, N.Nərimanov, M.Hadi və digər maarif xadimləri ayrı-ayrı əsərlərində milli etiqadla mənəvi tərbiyənin vəhdətinə toxunmuşdular. Onlar bir qayda olaraq, uşaqların ailə tərbiyəsi, əqli, təhsil, əxlaqi, estetik, fiziki tərbiyə məsələlərində olduğu kimi əxlaq tərbiyəsində də milli-mənlik şüurunun formalaşdırılması məsələlərinə öz məqsədləri yönündən baxırdılar. Onlar tərbiyə sistemində milli etiqadla mənəvi tərbiyənin vəhdət prinsipini demokratik meyllərlə müdafiə edir, dolaşdıqları əyalətlərdəki və dərs dedikləri məktəblərdə şagirdlərin bu ruhda tərbiyə olunmasına xüsusi diqqət yetirirdilər. Eyni zamanda proqram və dərsliklərdə, ictimai həyat sferalarında bu işin səmərəli nəticəsini yoxlayırdılar.

Xalqından ayrılmamaq, onun müqəddəs adət və ənənələrini qiymətləndirə bilmək, nəcib hisslərini təhqir etməmək, xalqa ana dilini öyrətmək və onunla yanaşı dünya xalqlarının ümumbəşəri dəyərlərini mənimsətmək yolunda millət fədaisi olan görkəmli şair Məhəmməd Hadi təhsilin tərəqqi və inkişafında əsil milli etiqadlı düşüncə sahibləri tərbiyə etməyin necə müstəsna əhəmiyyət kəsb etməsindən bəhs edirdi.

O, milli etiqadla uşaq tərbiyə etməyin ümümbəşəri məzmununu onda görürdü ki, “milli olmayan şey ümumbəşəri də olmaz”. M.Hadi əsərlərində milli etiqadla, mənəvi tərbiyə amillərinin təsir gücünü artırmaqla əlaqədar məsələlərə ustalıqla yanaşmış, ədəbi yaradıcılığında, ictimai-siyasi və fəlsəfi şerlərində, pedaqoji məqalələrində bu məsələlərin şəhrinə geniş yer vemiş, həmin problemi professional səviyyədə şərh etmişdir.

Şairin fikrincə, əxlaq tərbiyəsinin mühüm vəzifəsi insani keyfiyyətlərin ləyaqətli daşıyıcısı olan milli etiqada bağlı vətəndaş yetişdirməkdir. Onun əsil milli ruhlu vətəndaş tərbiyə etməyin zəruri keyfiyyətləri haqqında “insanlar yalnız yaşamaq üçün deyil, mənsub olduğu cəmiyyətə xidmət etmək üçün yaranmışdır …” fikri nəcib diləkdir və əsil mənada müəllifi dövrünün qabaqcıl, mütərəqqi fikir sahibləri cərgəsinə çıxarır.

Milli etiqadla tərbiyə etməyin üsul və vasitələri haqqında pedaqoji fikir tariximizdə ümumən mülahizələr bəzən səthi münasibətlə araşdırılmış, məsələnin mahiyyəti tam açıqlığı ilə göstərilə bilməmişdir. Əslində isə milli şüurun oyanması bilavasitə milli etiqad toxumunun bəhrə verməsi ilə bağlıdır. Milli etiqad bir növ inam, əqidə, məslək yoludur. Mənəvi tərbiyə isə bu formalarda təzahir edən – yəni şəxsiyyətin həyatda fəal mövqe tutması – ictimai borca şüurlu münasibət göstərməsi deməkdir. Milli etiqadlarla bağlı uşaqlarda mənəvi tərbiyə vərdişləri aşılamaq səyi uzun müddət yasaq edilmiş, tərbiyə momenti vahid mərkəz “pultundan” idarə edilərək planlaşdırılmışdır. Milli ruhiyyə kəsb etməyən tərbiyə isə heç vədə geniş intişar tapa bilməz.

Uşaq əvvəl öz doğulduğu, dünyaya göz açdığı məkanı tanıyıb duysun, sonra, addımlarını kənar məkanlara qoya bilsin. Yaxud, ilkin olaraq ana laylasının həzin duyğularını dərk edib, sonradan bəşəri hikmətləri əxz etsin. Bu cəhətdən milli etiqad anlayışında ehtiva olunan dini inamlar, "ana südü, dağ çiçəyi" kimi xalq hikmətləri mənəvi tərbiyə işində əsil milli yaddaş mənbələridir. Onları qorumaq, gələcək nəslə çatdırmaq bu gün məhz, bizim üzərimizdədir. Milli etiqad amilləri – xeyrlə-şərə bağlılıq, dostu-düşməndən ayırd etmək, xəlqilik, dini fütuhatını qiymətləndirmək, əqidə yolunu müəyyənləşdirmək kimi cəhətlərdə öz əksini tapmalıdır. Milli dirçəlişin həqiqət yolu məhz, etiqadla tərbiyə almağın zəruriliyindədir.

Milli etiqadla insan tərbiyə etməyin gözəl nümunəsi vaxtilə pedaqoji mətbuatımızın qızıl salnaməsi olan "Dəbistan" və "Məktəb" jurnallarının səhifələrində daha bariz görünür. Xüsusən, uşaqlar üçün nəzərdə tutulmuş bu vasitələr bir növ milli düşüncəyə xidmət edəcək ədəb-ərkan məcmuələridir. Dövrünün qabaqcıl məktəbdarları milli etiqadla tərbiyə etməyin mənəvi aləmdə açdığı yenilik elementlərini bu jurnallar vasitəsilə geniş xalq kütləsinə bəyan etmişdir.

Arxiv sənədləri vasitəsi ilə əldə etdiyimiz nüsxələrdə problemin bu cəhətdən qoyuluşu daha tutarlı faktlarla əhatə olunmuşdur.

Onu da qeyd edək ki, 1906-cı ildə millətin maariflənməsinə kömək etmək məqsədilə Məhəmməd Hüseyn Əfəndizadə və Əli İsgəndər Cəfərzadə ilk maarifçilik jurnalımız olan "Dəbistan" jurnalının nəşrinə başladılar. Hədsiz çətinliklərə baxmayaraq jurnal təxminən iki il işıq üzü görmüş və həmin dövrdə dərslik, dərs vəsaitinin yoxluğundan çətinlik çəkən məktəblərə faydalı kömək etmişdir. Sonralar böyük maliyyə çətinlikləri ilə üzləşən jurnal bağlanmışdır.

1911-ci ildən başlayaraq Qəfur Rəşəd Mirzə ilə Əbdülrəhman Əfəndizadə birlikdə "Məktəb" jurnalının nəşrinə başladılar. Bu jurnalın ömrü daha uzun, yəni 1925-ci ilə qədər olmuşdur. Bu jurnalın da səhifələrində vaxtaşırı olaraq görkəmli maarifpərvər ziyalılardan Fərhad Ağazadənin, Sultan Məcid Qənizadənin, Əli Ağa Hüseynzadənin, Süleyman bəy Əbdülrəhmanzadənin, Tofiq Gəncəlinin və başqalarının xalq maarifinə və təlim-tərbiyə məsələlərinə aid yazıları nəşr olunurdu. Bu yazarlar bir qayda olaraq, millətin gələcəyi olan uşaqların milli etiqadlar zəminində tərbiyəsi işinə ciddi fikir vermişlər.

"Dəbistan"da dərc olunan məqalələrdə ictimai-pedaqoji fikir tariximiz üçün çox qiymətli olan tarixi nümunələr içərisində xalq üçün döyünən qəlblərin iztirabı, millət çarəsi, ana dili məsələsi və digər milli etiqad aşılayan cəhətlər öz əksini tapmışdır. Bu cəhətdən "Dil millətin həyatinə vasitədir" məqaləsi dediklərimizə yaxşı sübutdur. Həmin məqalədə deyilir:

"… Hər millətin baqi olması üçün lazım gələn şərtlərdən biri də o millətin mükəmməl və məzbut bir dilə malik olmasıdır. Dil hər millətin özü icad etdigi bir vasitə həyatidir və bu vasitə qeyb olduqda o millət dilsiz heyvanət kimi alınıb satılmağa məhkumdur. Hər millətin dili nə qədər əcnəbi təsirdən azad olub müstəqil surətdə tərəqqi etsə də o millətin qiraət və kitabəti asan olub millət müstəqil surətdə tərəqqi edər. Buna görə müstəqil surətdə tərəqqi etmək xahiş edən millət gərək öz dilinin tərəqqi və vüsətinə səy etsin. Biz türklər mədəniyyəti ərəb və İrandan aldığımızdan bu dillərin əlfaz və tərkibatını da götürüb öz ana dilimizi bilməyə qeyb etmişik və etməliyik. Bu səbəbə görə də zənnimcə türk dilini təhsil edən şəxs gərək üç il təhsil etsin: üç dilin qəvaidini, sərfü-nəhvini bilsin, öz dilimizi təhsil edən də bizim balalarımızın zəhməti sair millətlərə və dillərə nisbətən üç qat daha artıqdır.

Dili islah və təshih etmək üçün ən birinci vasitə mətbuat və ədəbiyyatdır. Bir tərəfdən ərbabi-qələm, digər tərəfdən mətbuat öz səhifələrində öz əfkar və əxbarini sadəcə bir dil ilə yazıb intişar etsələr əlbəttə bunları oxuyan, bunlar ilə tərbiyə tapan millət də sadə dil ilə danışar və oxuduğunu layiqincə fəhm və zəbt edib edər. Böylə dil vasitəsi ilə millətə hər gunə elmi və fənni məlumat verib oni tərbiyə etmək və tərəqqi etdirmək olur.

Bu gün həqiqətdir ki, artıq demokratik dəyişikliklər, milli istiqlal ilə məfkurələrdə dərin dəyişiklik aparıb xalqımızı əsarət pəncəsində saxlayan köhnə kiril əlifba əsrliyindən qurtarıb

öz təbiətinə, öz istiqlalına uyğun bir əlifba qəbul edildi. Və bunun sayəsində latın qrafikalı milli dil siyasətimizin ümumilik şərəfi mətbuat, məktəb həyatını da sirayət etməkdə dir. Bu yol ilə milli intibahımızın dəyərli keyfiyyətləri sırasında əlbəttədil probleminə hay-küy, süni qondarmaçılıqla nəzər salmağın da qarşısı alınmalı, qurduğumuz müstəqil Azərbaycan Respublikasının Xalq Cumhuriyyətində ehtiyac və həyat üçün bu gün bizdən tələb olunası daha xeyirli, daha elmli yanaşma faktorlarına güvənməliyik. Söhbət Azərbaycan dilinin türk dili ilə əvəz olunması qayıdışından getdiyindən bu işdə, zənnimizcə təkcə Milli Məclis üzvlərinin müvafiq qrupları yox, bütöv xalq iştirak edib öz münasibətini aşkarlamalıdır. Çünki, millətin azadlığa çıxan nicat yolunun başlanğıcı onun dil beşiyindən başlayır. Əlbəttə bu mülahizələr tədqiqatın baş problemi olmadığı üçün biz sadəcə hadisələr kontekstində bu məsələyə də cüzi marağımızı bildirməklə kifayətlənməyi qət etdik.

Hazırkı şəraitdə ailə, məktəb və ictimaiyyət arasında milli-mənlik şüurunun qoyuluş tərzinin hansı forma və metodlarla həyata keçirməyin imkan və vasitələrini də ciddi şəkildə mənimsəməliyik.

Ədəbiyyat

1. Rüstəmov F.A. Azərbaycanda pedaqoji elmin inkişaf tarixindən. Dərs vəsaiti. Bakı: ADPU, 1992.
2. Rəsulzadə M.Ə. Azərbaycan Cumhuriyyəti. İstanbul, 1990.
3. Seyidov Ə.Y. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən. Bakı: Maarif nəşriyyatı, 1987.

Т.Ш.Мехтиева

Социально-исторические особенности в организации национально-нравственного воспитания школьников

Резюме

В статье исследуется педагогическое наследие азербайджанских просветителей. Исследовано формирование национально-нравственного воспитания. Выдвинуты важные факторы, которые значительны по сей день.

T.Sh.Mehtieva

Statement of a problem of formation of consciousness of national advantage in pedagogical the inheritance

Summary

The pedagogical inheritance of the Azerbaijani educators has been researched in the article. Formation of national consciousness is researched.

The important factors which are significant to this day are put forward.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 30.12.2016

S.MƏMMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: inqilab1962@mail.ru

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

TƏLƏBƏ AUDİTORİYASININ İDARƏOLUNMASI ÜZRƏ İŞİN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

Açar sözlər: *idarəetmə, auditoriyanın idarə olunması, psixoloji əsaslar, idarəetmənin psixoloji əsasları, tələbə auditoriyası*

Ключевые слова: *управление, управление аудиторией, психологические основы, психологические основы управления, аудитория студентов*

Keywords: *management, audience management, psychological foundations, psychological bases of management, the audience of students*

Tələbələr ali məktəblərdə təhsil alarkən seçdikləri ixtisaslarla bağlı nəzəri və praktik əhəmiyyətli biliklər alır, eyni zamanda seçdikləri peşə ilə bağlı fənlərin materialları ilə tanış olurlar.

Onlar mühazirə də seminar məşğələləri ilə əhatə olunurlar. Biliklərə və geniş dünyagörüşünə yiyələnmək, vətənin ləyaqətli övladları kimi yetişmək bir tərəfdən onların özlərindən asılıdır, digər tərəfdən müəllimlərin səyindən, məsuliyyətindən, onlarla apardıqları məqsədyönlü və sistemli işlərdən asılıdır.

Bu baxımdan tələbə auditoriyasının lazımı səviyyədə təşkili, zəruri avadanlıqlarla təchizi, auditoriyada normal mənəvi və psixoloji atmosferin, səmimi mühitin, qarşılıqlı anlaşma və qarşılıqlı hörmətin hökm sürməsi böyük əhəmiyyət daşıyır.

Bu mənada fəaliyyətin həyata keçirildiyi mühitdən çox şey asılıdır. Toxum münbit torpaqda cücərir, pöhrələnir, ağacın qol-budağı boy atır, məhsul verir. Ağaca isə, qulluq lazımdır. Ona baxılmadıqda, ətrafı bellənmədikdə, dibinə su tökülmədikdə o quruyur.

Deməli, tələbə auditoriyasının da qayğı və diqqətə ehtiyacı vardır. Müəllimin vəzifəsi o deyildir ki, gəlib tələm-tələsik mühazirəsini oxusun, zəng çalınanda mühazirə mətnlərini yığışdırıb o biri auditoriyaya daxil olsun.

Tələbə auditoriyası ilə də müntəzəm iş aparılmalıdır.

İtalyan filosofu, yazıçısı və siyasətçisi Nikkolo Nakiavelinin (1469-1527) rəhbər, idarəedən və lider haqqında qiymətli fikirləri var. Nikkolo Nakiavelinin qənaətinə görə, hər bir dövlətin bəlası onun hakimiyyətinin zəifliyindən irəli gəlir.

Bu fikri, tələbə auditoriyasının idarə olunmasına da aid etmək mümkündür. Tələbələrin mühazirə və seminar məşğələlərində özlərini apara bilməmələrinin, müəllimə qulaq asmamalarının başlıca səbəbi müəllimin zəifliyi, pedaqoji sahədəki naşılığı, özündən bədgüman olması və idarəetmə işini yaxşı bilməməsidir.

Professorlar Ə.S.Bayramov və Ə.Ə.Əlizadənin haqlı olaraq qeyd etdikləri kimi, "İnsanların qarşılıqlı münasibətləri onların bir-birini qavraması və anlaması prosesində formalaşıb inkişaf edir. Ünsiyyət insanların bir-birini qavramasından başlanır" (1, s.162).

Tədqiqatda "tələbə auditoriyası" iki mənada işlənir:

Birincisi, Tələbələrin mühazirə və seminar məşğələsi keçdikləri, divarları, döşəməsi, tavanı, qapısı və pəncərəsi, oturacaqları, xitabət kürsüsü olan otaq. Auditoriya latıncada *auditorium* sözündən götürülmüşdür. Mənası dinləmək üçün yer deməkdir. Təhsil müəssisəsində, yaxud digər ictimai yerlərdə kütlə, camaat, tələbələr qarşısında şifahi çıxış etmək, mühazirə oxumaq, məruzə etmək, iclas, məşğələ və s. keçirmək üçün nəzərdə tutulan məkan, zal, yaxud otaq. Başqa sözlə, cansız məkan.

İkincisi, canlı varlıqların nəzərdə tutulduğu tələbə qrupu, tələbə kollektivi, müəyyən ixtisas üzrə mütəxəssis olmağa hazırlaşanları, dinlənilən, imtahanlarda iştirak edən, bilik və bacarıqları yoxlanılaraq qiymətləndirilən, buraxılış işi, magistrlik dissertasiyası müdafiə etmək ərəfəsində olan, oxuyan, dərslərə hazırlaşan, proqram materialları üzrə cavab verən tələbələr mənasında. Bu auditoriya təkcə tələbələrlə məhdudlaşmır. Professorlar, dosentlər, müəllimlər də tələbə auditoriyasının nümayəndələridirlər.

Ali məktəb müəlliminin vəzifəsi tələbə auditoriyasını idarə etməkdir. Bu işin öhdəsindən gələ bilməsə, öz fəaliyyətində uğur qazana bilməyəcək, tələbələr onun mühazirə aparmasına, digər müəllimin isə, lazımi səviyyədə seminar məşğələsini keçməsinə imkan verməyəcəkdir. Bu kimi hallarda bəzi müəllimlər yaranmış çətinliklərin səbəblərini axtarıb, yol verdikləri nöqsanları aradan qaldırmaq əvəzinə inzibatçılığa, qadağalara, rəsmiyyətçiliyə keçirlər.

Beləliklə, tələbə auditoriyasında problemlər başlanır. Müəllim-tələbə münasibətlərinin düzgün qurulmaması ixtilaflara gətirib çıxarır. Ona görə də tələbə auditoriyasının idarəolunması probleminin araşdırılması aktual bir problem olaraq meydana gəlir.

Odur ki, professor-müəllim heyəti tələbə auditoriyası ilə işləməyi bacarmalı, bu zaman alışma və uyuşma diqqət mərkəzində dayanmalıdır. Professorlar Ə.S.Bayramov və Ə.Ə.Əlizadənin bu məsələ ilə bağlı qənaətlərinə müraciət edək: "Müxtəlif xüsusiyyətlərə malik adamlar günlərlə deyil, aylarla və illərlə bir yerdə necə işləyirlər? Onlar konkret fəaliyyət şəraitində bir-birilə necə dil tapırlar? Öz hərəkətlərini bir-birilə necə uzlaşdırırlar? İnsanlar konkret birgə fəaliyyət şəraitində bir yerdə işləməyə alışırlar və ya öyrənirlər. Bu zaman bir-birlərinin xüsusiyyətlərini iş prosesində nəzərə almağa başlayır və öz hərəkətlərini bir-birinin hərəkətləri ilə uzlaşdırırlar. Onların işində özünəməxsus ahəng əmələ gəlir. həm işin məhsuldarlığı artır, həm də iş prosesindən və onun nəticələrindən razı qalırlar" (1, s.475).

Tələbə auditoriyası ilə iş zamanı da belədir.

Yeni pedaqoji təfəkkür şəraitində, ölkə Prezidenti cənab İlham Əliyevin 2013-cü il oktyabrın 24-də imzaladığı Sərəncamla təsdiq olunmuş "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası"nın (2) tələbləri baxımından digər təhsil müəssisələri ilə yanaşı ali məktəblərin də öz fəaliyyətlərinə yeni nəzərlə baxmaları, öz işlərində dönüş yaratmaları, təlimin məzmununun təkmilləşdirilməsi kimi mühüm bir işi həyata keçirmələri, təhsil müəssisəsinin idarə olunmasını optimallaşdırmaları aktual bir məsələ kimi qarşıda durur. Bu mənada tələbə auditoriyasının idarə olunması görülməsi nəzərdə tutulan və görüləcək işlərin tərkib hissəsi kimi diqqət mərkəzinə gəlir.

Tələbə auditoriyasında pedaqoji kollektivin, professor-müəllim heyətinin hər hansı bir üzvi və tələbələr bir-birini başa düşməli, bir-birini qəbul etməli, normal ünsiyyət bağlamalı, bir-birilə hörmətlə davranmalıdırlar.

Professorlar Ə.S.Bayramov və Ə.Ə.Əlizadənin göstərdikləri kimi, "Başqa adamı başa düşmək həm də onun sənə münasibətini dərk etmək deməkdir. Özünün bu xüsusiyyətinə görə sosial persepsiyanı eyni vaxtda iki güzgüdə alınan təsvirə bənzətmək olar: insan başqa adamı əks etdirməklə yanaşı özü də onun qavrayış güzgüsündə əks olunur, ünsiyyət prosesində identifikasiya və refleksiya vəhdətdə meydana çıxır" (1, s.169).

Müəllimin vəzifəsi tədris materialını yüksək səviyyədə çatdırmaq, tələbələrin vəzifəsi müəllimi dinləmək, qeydlər götürmək, suallara cavab vermək, seminar məşğələlərinə hazırlıqlı gəlməkdir. Auditoriyada öyrədən kimi müəllim şəxsiyyəti, öyrənən kimi tələbə şəxsiyyəti təşəkkül tapır, formalaşır, inkişaf edir. Hələ eramızdan əvvəl yunan filosofu Sokrat peşəkar müəllimləri "əqlin törədiciləri" adlandırırdı. Müəllim ən başlıca məsələləri əhatə etməklə mühazirəni tələbələrə konkret və yığcam şəkildə çatdırmağı bacarmalı, bu zaman təlimin səmərəli metodlarından və vasitələrindən faydalanmalıdır. Müəllim və tələbələrin bir-biri ilə informasiya mübadiləsi diqqət mərkəzində dayanmalıdır.

"Adamlar bir-birini qavrayarkən zahiri əlamətlər haqqındakı məlumatlarla kifayətlənmirlər, zəruri surətdə bir-birlərinin davranışlarının səbəblərini aydınlaşdırır, ayrı-ayrı keyfiyyətlərə görə şəxsiyyətlərini xarakterizə edirlər" (1, s.169).

Dünya təhsil sisteminə inteqrasiya olunduğumuz müasir şəraitdə, dövlətimizin və hökumətin Azərbaycan təhsilinə, ixtisaslı mütəxəssislərin hazırlığına xüsusi diqqət yetirdiyi hazırkı vaxtda tələbə auditoriyasının düzgün idarə edilməsi və bu səbəbdən də səmərəli nəticələrə nail olunması xüsusilə vacibdir.

Tələbə auditoriyasının idarə edilməsi hansı məsələlərə fikir verilməsini tələb edir? Bu iş necə qurulmalıdır ki, uğurlu göstəricilər alınsın?

İlk növbədə tələbə auditoriyasının idarə olunmasının pedaqoji, fəlsəfi, psixoloji əsaslarına aydınlıq gətirilməlidir. Bu məsələlərin hər birinin ayrıca tədqiqata ehtiyacı vardır. Biz bu yarımfəsildə tələbə auditoriyasının idarə olunması üzrə işin psixoloji əsaslarını araşdırmağa çalışacağıq.

Bunun üçün ilk növbədə idarəetmənin psixologiyasına müraciət edilməlidir. İdarəetmənin psixologiyası psixologiyanın xüsusi bir sahəsidir. İdarəetmənin psixologiyası idarəetmə fəaliyyətinin psixoloji qanunauyğunluqlarını araşdırır. Onun məramı idarəetmə sistemində keyfiyyəti və səmərəliliyi artırmaqdan ötrü psixoloji şərtləri və eyni zamanda idarəetmə fəaliyyətinin təhlilini aparmaqdır.

Tələbə auditoriyasını müəllim idarə edir. Bu zaman auditoriyanın psixoloji baxımdan idarə olunması məqsədilə aşağıdakı məsələlər diqqət mərkəzində dayanır:

1. İdarəetmə alt sistemlərinin vəziyyətinin və dəyişikliklərinin diaqnostikası və proqnozlaşdırılması;

2. Təlim prosesində proqram materialının mənimsənilməsi və ixtisas təcrübəsinin qazanılması sahəsində idarə olunan obyektlərin (tələbələrin) diqqətinin bir yerə cəmləşdirilməsinə və onlarda marağın yaradılmasına istiqamətlənən fəaliyyətin formalaşdırılması.

İdarəetmə psixologiyası auditoriyada olan müəllimdə idarəetmə tələbatının, qabiliyyətinin və səriştəsinin, idarəetmə təfəkkürünün və idarəetmə təxəyyülünün olmasını, eləcə də onun fərdi idarəetmə konsepsiyasına malik olmasını zərurətə çevirir.

T. Xəlilov institut, konservatoriya, tədris akademiyası və universitetlərin auditoriya və laboratoriyalarında müəllimin tələbəyə müraciət tərzinə görə ünsiyyəti aşağıdakı növlərə bölür: 1) təşkiledici; b) qiymətləndirici, c) intizamyaradıcı.

Eyni zamanda tələbə auditoriyası ilə iş aparan professor-müəllim heyətinin fəaliyyətinə də rəhbərlik həyata keçirilməlidir. Burada psixoloji məqam nə ola bilər? Azərbaycan psixoloqu M.Ə.Həmzəyevə müraciət edək. Professor yazır: "Pedaqoji kollektivin fəaliyyətinin səmərəliliyi və burada münasib psixoloji iqlimin yaranması onun düzgün idarə olunmasından, başqa sözlə, rəhbərlikdən çox asılıdır. Burada isə, ən mühüm cəhətlərdən biri pedaqoji kollektivə rəhbərliyin, onu idarəetmənin sosial-psixoloji funksiyalarını həyata keçirməkdən ibarətdir. Həmin funksiyalara aşağıdakıları aid etmək olar: kollektivin təşkili, məqsəd yönəlişliyi, fəallaşdırılması, fəaliyyətinin təkmilləşdirilməsi; kollektivin birliyinin təmin edilməsi, kollektivdə özünüidarəetmənin inkişaf etdirilməsi" (3, s.209).

Tələbə auditoriyasının idarəetmə psixologiyasının predmetini aşağıdakı məsələlər təşkil edir:

1. Şəxsiyyət və onun pedaqoji fəaliyyət prosesində özünütəhsili, özünütərbiyəsi, özünütəkmilləşdirməsi və özünüinkişafı.

2. Tələbə auditoriyasında idarəetmə fəaliyyəti, idarəetməni psixoloji səmərəlilik baxımından təşkil edə bilməsi.

Problemin aktuallığı. Tələbə auditoriyasının idarə olunmasının psixoloji əsaslarını aydın təsəvvür etdikdə müəllim-tələbə münasibətlərini düzgün qurmaq mümkün olur.

Problemin yeniliyi. Məqalədə tələbə auditoriyasının idarə edilməsi üzrə işin psixoloji əsasları müəyyənləşdirilir.

Problemin praktik əhəmiyyəti. Məqalədən ali məktəb müəllimləri faydalana biləcəklər.

Ədəbiyyat

1. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı, 2007.
2. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2013-cü il oktyabrın 24-də imzaladığı Sərəncam: "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası". "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr
3. M.Ə. Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları: Dərs vəsaiti. Bakı: Adiloğlu, 2003.

С.А.Мамедов

Психологические вопросы работы по управлению студенческой аудитории

Резюме

Основная задача преподавателей Вузов заключается в управлении студенческой аудиторией. Не справившись с данной задачей, он не сможет стать успешным в своей деятельности. В таких случаях, некоторые преподаватели часто переходят к администрированию, запретам и формальностям, вместо того, чтобы найти причины трудностей и устранить допущенные недостатки. В связи с этим, начинаются проблемы в студенческой аудитории, так как неправильное построение отношений между преподавателем и студентами приводит к конфликтам. Учитывание психологических основ управления студенческой аудитории поможет устранить эту напряженность.

S.A.Mammadov

Psychological issues work management student audience

Summary

The main task of university professors is to manage the student audience. Unable to cope with this task, he will not be able to become successful in their work. In such cases, some teachers are often transferred to the Administration, prohibitions and formalities in place in order to find the causes of problems and to eliminate the shortcomings. In this connection, the problem starts at the student audience, since improper construction of the relationship between the teacher and students leads to conflicts. The incorporation of psychological foundations of the student audience management will resolve this tension.

Rəyçi: ped.e.d., prof. A.Abbasov

Redaksiyaya daxil olub: 30.12.2016

Ş.M.MƏMMƏDOV
E-mail: sahkerem_59@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

FASİLƏSİZ PEDAQOJİ TƏHSİL SİSTEMİNDƏ İBTİDAİ SİNİF MÜƏLLİMİNİN TƏRBİYƏVİ FƏALİYYƏTƏ HAZIRLANMASI

Açar sözlər: *ibtidai sinif müəllimi, müəllim hazırlığı, fasiləsiz təhsil sistemi, tərbiyəvi fəaliyyət*
Ключевые слова: *учитель начальной школы, педагогическое образование, непрерывная система образования, воспитательная деятельность*
Key words: *a primary school teacher, teacher training, continuous education system, training and education activity*

Bildiyimiz kimi, bütün tiplərdən olan ümumtəhsil məktəbləri, orta ixtisas, ali, diplomdan sonrakı və əlavə təhsil üzrə pedaqoji təhsil proqramlarını həyata keçirən tədris müəssisələri fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı sistemini əhatə edir. Fasiləsiz təhsil – dövlət və qeyri-dövlət təhsil müəssisələrində cəmiyyətin və şəxsin özünün tələblərinə uyğun olaraq müəllimin ümumi və peşə təhsili səviyyəsini artırması prosesidir.

Cəmiyyətimizin müasir inkişaf mərhələsində ibtidai sinif müəlliminin qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsi onun fasiləsiz pedaqoji təhsil sistemində tərbiyəvi fəaliyyətə hazırlıq səviyyəsindən asılıdır.

Gənc nəslin ahəngdar inkişafı vəzifəsini yerinə yetirən müəllim təlim-tərbiyə prosesində həlledici qüvvədir. Müəllimin, xüsusilə, uşaqlarda təhsil və tərbiyənin təməlini formalaşdıran ibtidai sinif müəlliminin şəxsi və peşə keyfiyyətlərinin zənginləşdirilməsi, dövrün tələblərinə uyğun pedaqoji və metodiki hazırlığının təkmilləşdirilməsi böyük əhəmiyyət kəsb edir.

Müəllimin əməyini həmişə yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyev ali məktəb müəllimi, onun fəaliyyəti haqqında demişdir: "Ali məktəb müəllimi olmaq, müəllimlər hazırlamaq, yəni müəllimlər müəllimi olmaq ikiqat şərəfli və eyni zamanda ikiqat məsuliyyətli işdir" [6]. Müəllim haqqında Ulu Öndərin söylədiyi bu sözlər, əlbəttə, bizdə fəxarət hissi yaradır. Eyni zamanda pedaqoji fəaliyyətimizdə, o cümlədən, müəllim hazırlığı işində məsuliyyətimizi də artırır.

Qeyd olunduğu kimi, bu gün müəllimə verilən ictimai sifariş dəyişmişdir. İxtisaslı ibtidai sinif müəllimi peşə çevikliyinə, şəxsi yaradıcılıq qabiliyyətlərinə malik olmalıdır. Müəllimdən yüksək mədəni səviyyə, şagirdlərin inkişafına təkan verən peşə və şəxsi refleksiya, zamanın tələbinə uyğun fəaliyyət tələb olunur. Müasir şəraitdə ibtidai sinif müəllimi humanist pedaqogikanı dəstəkləməli, hər bir işində şəxsiyyətyönümlü mövqe tutmalıdır. Nəzərə almaq lazımdır кi, müəllim məktəbdə həm təlim işi, həm də geniş tərbiyə işi aparır. O, sadəcə olaraq dərs deyən, şagirdlərə elmlərin əsaslarını mənimsətməкlə öz işini məhdudlaşdıran didaкt deyildir. Müəllim gənc nəsli həyata və gələcəк cəmiyyətə hazırlamaq, vətənpərvər gənclər yetişdirmək kimi müqəddəs bir vəzifəni yerinə yetirir. Bu vəzifənin uğurla həyata кeçirilməsi isə müəllimin pedaqoji ustalığından və təcrübəçiliк fəaliyyətindən əsaslı surətdə asılıdır. Buna görə də müasir dövrdə müəllimlərin peşə hazırlığı ilə yanaşı, tərbiyəvi işlərin təşкili və aparılmasının forma və metodları barədə onların təcrübədə tətbiqi yolları barədə dərin biliк və bacarıqlara maliк olmaları mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, tərbiyə işində yeni konseptual yanaşmaların həyata keçirilməsi müəllimin peşəkarlıq, pedaqoji mədəniyyət səviyyəsinin və şəxsi məsuliyyət hissinin əsaslı şəkildə yüksəldilməsi şəraitində mümkündür. Bununla əlaqədar olaraq fasiləsiz pedaqoji təh-

sil sistemində ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanması məsələsi kəskin şəkildə ortaya çıxır.

Azərbaycan Respublikasında ali təhsilin bakalavriat pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı sahəsində konseptual bir sənəd olan Kurikulum hazırlanarkən islahat proqramının tələbləri, təhsil sahəsində dövlət siyasəti, Azərbaycanda fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası, fasiləsiz müəllim hazırlığı sahəsində mövcud dünya təcrübəsi və standartları nəzərə alınmışdır [2].

Müasir dövrdə cəmiyyətin sürətli inkişafı nəticəsində maddi, mənəvi dəyərlər günbəgün dəyişir və buna müvafiq olaraq təhsil-tərbiyənin məzmunu da dəyişir. Bununla bağlı, ibtidai sinif müəllimi öz pedaqoji fəaliyyətini fasiləsiz olaraq təkmilləşdirməlidir. Müəllimin tərbiyəvi fəaliyyətinin təkmilləşdirməsi fasiləsiz pedaqoji təhsil sistemində həyata keçirilir.

Bildiyimiz kimi, bilik və bacarıqlar müəllimlərin tərbiyə işinə münasibətinin əsası və real təzahürüdür. Odur ki, ixtisasartırma sistemində müəllimin tərbiyə işinə hazırlanması üçün pedaqoji, psixoloji və digər elmlər sahəsində ən yeni məlumatlar, ibtidai sinif müəllimlərinin təcrübəsi səmərəli şəkildə tətbiq edilməlidir.

Müəllimlərin pedaqoji fəaliyyətə hazırlanması ilə bağlı bir çox əsərlər mövcuddur. (Y.Ş.Kərimov, M.A.İsmixanov, V.H.Əliyev, T.M.Muradova, V.C.Xəlilov, Ə.Ə.Ağayev, V.A.Karakovski, N.V.Kuzmina, J.N.Kulyutkin, P.A.Nizamov, A.A.Rean, V.A.Slastenin, N.Y.Şurkova və b.)

Həmin müəlliflərin fikirlərinin təhlili göstərir ki, ibtidai sinif müəlliminin peşə fəaliyyətinə hazırlanması bu sahədə müəyyən biliklərin əldə edilməsi, bacarıq və vərdişlərin formalaşdırılması, müəllim şəxsiyyətinin təkmilləşdirilməsi və özünütəsdiqi üçün vacib olan xüsusiyyətlərin, eləcə də şəxsi keyfiyyətlərin inkişafı nəticəsində mümkündür.

Y.P.Belozertsev öz tədqiqatlarında "tərbiyə işinin təşkili və aparılmasına hazırlığın ümumi və bu peşəyə aid xüsusi bilik və bacarıqların əsasında mümkün olduğunu" vurğulamışdır [3; 4].

A.A.Reanın tədqiqatlarında müəllimin peşə fəaliyyətinə sosial-psixoloji hazırlığı əməkdaşlığın müxtəlif formalarına müsbət münasibət kimi, birgə işə maraq, onun nəticələrindən məmnunluq, bu işin vacibliyinin dərk edilməsi və düzgün təşkili kimi müəyyənləşdirilmişdir. Sosial-psixoloji hazırlıq özündə praktik bacarıqları və ünsiyyət xarakterli müəyyən vərdişləri cəmləşdirir [8, s.223-265].

N.Y.Şurkova ali məktəbdə tələbələrin tərbiyə işinə hazırlığına münasibət bildirərkən qeyd etmişdir ki, müasir ictimai-mədəni şəraitdə tərbiyə işinə hazırlığın yeni yollarının axtarışı tərbiyənin humanistləşdirməsi ilə bağlı olub, müəllimin həyat fəaliyyətinə çevrilməlidir [9, s.78].

A.İ.Piskunovun fikrincə, gələcək müəllim hələ ali təhsil aldığı dövrdə başa düşməlidir ki, tərbiyə cəmiyyətin və cəmiyyətdə hər bir təşkilatın başlıca vəzifələrindən biridir [7, s.43].

Beləliklə, "müəllimin tərbiyəvi fəaliyyətə hazırlanması" anlayışı tərbiyəçi və tərbiyə olunanların qarşılıqlı fəaliyyətində peşə bilikləri, bacarıqları, vərdişləri və şəxsi keyfiyyətlərini həyata keçirməyə yönəldilmiş pedaqoji prosesdir. Bu prosesdə həmçinin iştirak edənlərin özünü reallaşdırması, özünə bəraət qazandırması və özünü təkmilləşdirməsi üçün şərait yaradılır.

İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlığını onun bütün peşə fəaliyyəti dövründə formalaşdırmaq mümkündür. Belə ki, bu proses bir çox amillərdən (sosial mədəniyyət, cəmiyyətin mənəvi həyatı, insanın özü, onun əhatəsindən) asılıdır. Şəxsiyyətin formalaşmasının əsasında cəmiyyətin mənəvi, əxlaqi, sosial mühitinin təkmilləşməsi durur.

Beləliklə, tələbələrin və ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlığı uzunmüddətli proses kimi müasir şəraitdə müəllimin tərbiyə işinə düşünülmüş və müsbət münasibətlərində əks olunur, peşə və şəxsi keyfiyyətlərin inkişafının nəticəsi kimi başa düşülür.

Təhsil aldıqları müddətdə gələcək ibtidai sinif müəllimləri müəyyən həcmdə biliklərə yiyələnirlər. Müəllimin pedaqoji biliklər sistemi pedaqogika elminin vəzifələrinə yiyələnməsi və peşə fəaliyyətinin əsaslarını öyrənməsi kimi başa düşülür. Bu sahənin tədqiqatçıları pe-

daqoji biliklərin metodoloji, elmi-nəzəri və praktik biliklərin qarşılıqlı məcmusu olduğunu göstərmişlər.

N.Y.Şurkova və İ.D.Demakovanın fikrincə, tərbiyəçi-müəllim hər bir uşağın şəxsiyyət kimi inkişafı və formalaşdırılmasına təkan verən fərdi xüsusiyyətlərini bilməli, tərbiyə işinin təşkili sahəsində elmi biliklərə malik olmalıdır [9; 5].

Fasiləsiz təhsil prosesində müəllimin tərbiyəvi fəaliyyətə hazırlanması mürəkkəb və çoxcəhətli xüsusiyyətə malikdir. Bu həm təhsilalanların, həm də təhsilalma şəraitinin müxtəlif olması ilə şərtlənir. Belə ki, fasiləsiz təhsil sistemində tərbiyəvi fəaliyyətə hazırlanma prosesinə cəlb edilən tələbələr, ali təhsildən sonrakı dövrdə isə müəllimlər müxtəlif yaş, fərdi, psixi, sosial xüsusiyyətlərə malik olurlar. Həmin xüsusiyyətləri bilmək bizə onların məktəbdə tərbiyə işini təşkil etməyə hazır olmasından danışmağa imkan verir.

Təlim-tərbiyə prosesində müəllimin şəxsiyyəti mühüm əhəmiyyətə malikdir. Xüsusilə, tərbiyəvi təsirlərdə onun şəxsi keyfiyyətləri başlıca amil kimi çıxış edir.

İbtidai sinif müəlliminin və onun fəal mövqeyinin formalaşdırılması, ilk növbədə, onun vacib şəxsi keyfiyyətlərə malik bir insan, yalnız bundan sonra bacarıqlı, pedaqoji fəaliyyət sahəsində xüsusi vərdişlərə malik müəllim olması kimi başa düşülməlidir. Müəllimin zahirən çox sadə, bəzən hətta təkrar kimi görünən işi tarixin ən böyük işlərindən biridir.

Fikrimizcə, cəmiyyətin müasir inkişafı dövründə pedaqoji peşə problemlərinin uğurlu həlli bu fəaliyyətə hazırlığın mükəmməlliyi və keyfiyyəti ilə şərtlənir. Belə hazırlıq müəllimə yeni iş şəraitinə tez uyğunlaşmağa, düzgün pedaqoji və vətəndaş mövqeyi tutmağa, pedaqoji fəaliyyətin başlıca istiqamətlərini müəyyənləşdirməyə, öz pedaqoji bilik və bacarıqlarından səmərəli istifadə etməyə, peşə vəzifəsini müvəffəqiyyətlə yerinə yetirməyə, tərbiyənin metod, forma və vasitələrini düzgün seçməyə və tətbiq etməyə kömək edir.

K.D.Uşinski yazırdı: "Təlim tərbiyənin olduqca qüdrətli üzvüdür və bu üzvdən məhrum olan müəllim uşaqlar üzərində ən başlıca və ən gerçək təsir vasitəsini itirmiş olur" [10, s.44]. Həmin sözlərdə dərin həqiqət vardır. Müəllimin tərbiyəvi fəaliyyəti pedaqoji prosesdə başlıca əhəmiyyət daşıyır. Odur ki, müəllimi bu fəaliyyətə hazırlamaq müəllim hazırlığı ilə məşğul olan təhsil müəssisələrin başlıca vəzifəsidir.

İbtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlığını onun bütün peşə fəaliyyəti dövründə formalaşdırmaq mümkündür. Belə ki, bu proses bir çox amillərdən (sosial mədəniyyət, cəmiyyətin mənəvi həyatı, insanın özü, onun əhatəsindən) asılıdır. Şəxsiyyətin formalaşmasının əsasında cəmiyyətin mənəvi, əxlaqi, sosial mühitinin təkmilləşməsi durur.

Bildiyimiz kimi, müəllimin təcrübədə istifadə etdiyi biliklər onun bacarıq və vərdişləri ilə sıx bağlıdır. Peşə təcrübəsi artdıqca müəllimdə peşə vərdişləri yaranır. Müəllimi auditoriya qarşısındakı çaşqınlıqdan və hər bir addımını götür-qoy etmək məcburiyyətindən xilas edən peşə vərdişləri sayəsində müəllim pedaqoji fəaliyyətin bir çox tərzlərini avtomatik olaraq icra edir. Bilik, bacarıq və vərdişlərə sistematik yiyələnmə nəticəsində təcrübə yaranır, vərdişlər şəxsiyyətin xasiyyətinə, keyfiyyətinə çevrilir ki, bu da müəllimə tərbiyə işinin təşkilində kömək edir.

Fasiləsiz müəllim hazırlığı sahəsində pedaqoji innovasiyalar yolu ilə ibtidai sinif müəlliminin idrak və təcrübə fəaliyyətində vahidliyə və ixtisasartırmada keyfiyyətə nail olmaq üçün müxtəlif fəal təlim formalarından istifadə etmək olar. Müəllimlər üçün fəal təlim yalnız məlumatların həcminin artırılması deyil, onların dərk olunması üçün didaktik və psixoloji şəraitin yaradılması və bu şəraitə intellektual, sosial cəhətdən fəal insanların cəlb olunmasını nəzərdə tutur.

İxtisasartırma sistemində fəal təlim pedaqoji prosesin alqoritmləşdirilmiş və reqlamentləşdirilmiş təşkilat formalarından və metodlarından tərbiyə işinə maraq yaradan, idrakı motivlərə təkan verən problemli, axtarışlı və inkişafetdirici formalarına keçməyə zəmin yaradır.

İbtidai sinif müəlliminin təlim prosesində qarşıya qoyulmuş məqsədə çatmaları üçün aşağıdakılardan istifadə etmək məqsədəuyğun olar:

- müxtəlif mühazirələrin təşkili (problemli xarakterli mühazirə, binar mühazirələr, konfransları)
- müxtəlif seminar məşğələləri (seminar-diskussiya, seminar-tədqiqat)
- işgüzar oyunlar, psixoloji-pedaqoji məşqlər
- fərdi məşğələlər (buraxılış işlərinin yazılması, videofilmlərin yaradılması və s.)
- təhsil-tərbiyə müəssisələrinin iş təcrübəsinin öyrənilməsi və təhlili
- təhlildən əldə edilmiş nəticələrin kollektiv müzakirəsi və s.

İxtisasartırma kurslarında praktik məşğələlərin keçirilməsində yaranan çətinliklərin səbəbi ondadır ki, müəllimlərin çoxu iş planının hazırlanmasının əhəmiyyəti və vacibliyini başa düşmür və buna görə də bir çox ibtidai sinif müəlliminin fəaliyyəti kortəbii xarakter daşıyır. Bəzi müəllimlər bütövlükdə təlim-tərbiyə prosesini, özünün və həmkarlarının fəaliyyətini təhlil etmək bacarığına malik olmurlar, bu isə tərbiyəvi təsirlərin nəticələrinə, onları əvvəlcədən görmək və pedaqoji situasiyanın həlli üçün daha məqsədəuyğun pedaqoji üsullar tapmaq bacarığında özünü göstərir.

Fikrimizcə, ibtidai sinif müəllimlərinin tərbiyə işinə hazırlanması üsullarından biri də işgüzar oyunlardır. İşgüzar oyunların keçirilməsinin əsas xüsusiyyəti ondadır ki, işgüzar oyun təlimin üsulu kimi təlim prosesini müəllimlərin real fəaliyyətinə çox yaxınlaşdırır. Təlimin fərdi və kollektiv üsullarını özündə birləşdirir ki, burada xüsusi vasitələrlə iştirakçıları oyuna cəlb etmək mümkündür. İxtisasartırma fakültəsinin dinləyiciləri tərəfindən təşkil olunmuş işgüzar oyunlar müxtəlif mövzularda ola bilər. Məsələn, «Tərbiyə prosesinin humanistləşməsi», «Pedaqoji ünsiyyət mədəniyyəti», « İbtidai sinif müəlliminin ustalığı», «Müasir tərbiyə formaları», «Müasir ibtidai sinif müəllimi» və s.

Fikrimizcə, işgüzar oyun eyni zamanda həm metod, həm də texnologiya olmaqla müəllimlərdə tərbiyə prosesinə şəxsi münasibətin və bu iş üçün fərdi plan qurmaqla onlarda bacarıq və vərdişlərin yaranmasına köməklik göstərir.

İşgüzar oyun zamanı qrupla iş müəllimlərdə bir sıra bacarıqların formalaşmasını reallaşdırır:

- dəqiq müəyyənləşdirilmiş mövqe tutmaq, müxtəlif şəraitlərdə məhz bu mövqedən danışmaq və hərəkət etmək bacarığı;
- müəllimin bacarıq və vərdişlərinin müsbət təhlili üçün bilərəkdən mövqeyi dəyişmək bacarığı;
- müəllimin tərbiyə işinə hazırlığının formalaşdırılması strategiyasını yaratmaq, onu həyata keçirmək, məqsədə nail olmaq üçün fərdi üsulları, onların səmərəliliyini təhlil etmək bacarığı;
- fikir və hərəkət, fikir və şəxsiyyət arasındakı fərqi üzə çıxarmaq, fikri hərəkətə çevirə bilmək bacarığı;

İxtisasartırma kurslarında seminar məşğələnin kollektiv təşkili formasından da istifadə edilir və bu cür seminar «dəyirmi masa» prinsipi ilə aparılır. Fikrimizcə, bu forma müəllimlərin peşə ünsiyyətinin xüsusiyyətlərini daha dəqiq əks etdirir. Seminar məşğələsi – dinləyicilərlə hər zaman bilavasitə əlaqə, etibarlı münasibətlərin yaranması, pedaqoji ünsiyyətin məhsuldar formasıdır. Seminarlarda yaradıcı fəaliyyət atmosferi yaradılır, dinləyicilər çıxış etməyə, diskussiyaya, mövzunu sadəcə danışmağa, çıxışları dinləməyə cəlb edilir. Seminarın təşkilində müəllim dinləyicilərin şəxsi keyfiyyətlərini də nəzərə alır. (auditoriya qarşısında özünü aparmaq bacarığı, emosionallıq və s.). Buna görə müəllim diskussiyanı idarə edir və rolları bölüşdürür. Özünə inamı olmayanlara onlara tanış olan mövzu üzrə çıxış etmək təklif edilir və bu onlara müvəffəqiyyəti psixoloji cəhətdən hiss etmək imkanı verir. Seminar məşğələlərinin təşkili və keçirilməsi həmişə birgə fəaliyyət və birgə yaradıcılıq prinsipinə əsaslanmış olur.

Dinləyicilərə seminar məşğələlərinin mövzuları əvvəlcədən bildirilir ki, bu da iştirakçıya seminara hazırlaşmağa imkan verir, daha sonra isə mövzuya aid müxtəlif fikirlərin əsaslandırılması və açılmasına şərait yaradılır. Müzakirəyə aktual və problemli məsələlər təqdim olunur (məsələn, uşaq kollektivində özünüidarə, müasir tərbiyənin məqsəd və vəzifələri və s.). Məşğələlərin belə formada keçirilməsi dinləyicilərin elmi təfəkkürünü inkişaf etdirməyə, səhv mövqeləri təkzib etməyə, öz fikrini fəal müdafiə etməyə şərait yaradır.

Təlim fəaliyyətinin bu növü müəllimin qnostik, layihələşdirmə qabiliyyətlərinin, onun peşə keyfiyyətlərinin - pedaqoji refleksiya, məqsədyönlülük, proqnozlaşdırmanın və eləcə də müəllimin ümumi mədəniyyətinin inkişafına kömək edir.

Bildiyimiz kimi, bilik və bacarıqlar müəllimlərin tərbiyə işinə münasibətinin əsası və real təzahürüdür. Odur ki, ixtisasartırma sistemində müəllimin tərbiyə işinə hazırllanması üçün pedaqoji, psixoloji və digər elmlər sahəsində ən yeni məlumatlar, ibtidai sinif müəllmlərinin təcrübəsi səmərəli şəkildə tətbiq edilməlidir. Ali təhsil müəssisələrindəki və ali təhsildən sonrakı mərhələdə aparılan məqsədyönlü iş ali təhsil müəssisələrində təlim-tərbiyə prosesinin təşkilini, ixtisasartırma sistemində bu işin davam etdirilməsini özündə ehtiva edir və fasiləsiz pedaqoji təhsil sistemində müəllimin tərbiyə işinə hazırlanmasına imkan yaradır.

Aparılan təhlillərin nəticəsi göstərdi ki, tərbiyə prosesini yüksək peşəkarlıq səviyyəsində həyata keçirmək üçün ibtidai sinif müəllimində şagird şəxsiyyətinin formalaşması və inkişafına bilavasitə təsir göstərən müəyyən peşə və şəxsi keyfiyyətlər inkişaf etdirilməsi vacibdir. Şagird şəxsiyyətinə müəllimin təsiri ciddi və güclü olur və bu təsir bütün təlim prosesi ərzində davam edir, ayrı-ayrı şagirdlərdə isə, hətta həyatı boyu hiss olunur, öz qüvvəsini və əhəmiyyətini itirmir.

Biz belə hesab edirik ki, tələbələr və müəllimlər üçün fasiləsiz pedaqoji təhsilin hər bir mərhələsində sonralar öz peşə fəaliyyətini həyata keçirməkdə kömək edə biləcək şəxsi keyfiyyətlərin inkişaf etdirilməsinə və formalaşdırılmasına şərait yaratmaq vacibdir.

Tələbəlik dövrü – insanın gələcək peşəkar, yaradıcı işçi kimi fəal sosiallaşması və mürəkkəb quruluşa malik intellekt səviyyəsinin formalaşması dövrüdür. Tələbə yaş dövründə insan nailiyyətlər qazanmağa meylli olur. Ali təhsil zamanı gələcək müəllimləri tərbiyəvi fəaliyyətə hazırlayarkən tələbə yaş dövrünün bu kimi xüsusiyyətləri nəzərə alınmalıdır.

Müəllimlərin yaş həddinin və peşə fəaliyyəti təcrübəsinin nəzərə alınması böyüyən nəslin tərbiyə prosesinin səmərəli olmasına təsir edir. Təhsil müəssisələrində işləyən müəllimlərin, pedaqoji-psixoloji, metodiki biliklərinin köhnəlməsi ilə bağlı onların peşə fəaliyyətində problemlər yaranır. Belə ki, bir neçə il əvvəl təhsil aldıqları üçün bəzi müəllimlər müasir dövr təhsil-tərbiyə prosesindəki yenilikləri qəbul etməkdə çətinlik çəkirlər. Bu isə ixtisasartırma və təkmilləşdirmə sisteminin müəllimlərini ölkə və xarici humanist xarakterli pedaqoji-psixoloji nəzəriyyə və konsepsiyalarla tanış etməyə səbəb yaradır.

Müəllimlərə verilən əmək haqqının səviyyəsi maddi və mənəvi məsrəflərə uyğun gəlmədiyindən pedaqoji iş gənc nəsil üçün ümidverici və cəlbedici sayılmır. Müəllimlərin maddi-rifah halının, yaşayış səviyyəsinin aşağı olması gənc və xüsusilə kişi müəllimlərin pedaqoji fəaliyyətdən uzaqlaşmasına səbəb olur, buna görə də respublikamızda pedaqoji sahəni seçən oğlanların sayı ildən-ilə azalır və müəllimlik tədricən qadın peşəsinə çevrilir.

Bu problem barədə Azərbaycan Respublikası Təhsil Naziri Mikayıl Cabbarov televiziya müsahibəsində bildirmişdir ki, "əgər əvvəllər uğurlu məzunun böyük hissəsinin iddiası müəllim olmaq idisə, son 20 ildə müşahidə edirik ki, bu məzun daha çox hüquqşünas, iqtisadçı, dövlət məmuru və s. kimi peşələrə daha çox üstünlük verir. Peşə seçiminə "bunların heç biri alınmasa mən müəllim olmağa da hazıram" fikri ilə yanaşır". Bir çox alimlər təsdiq edirlər ki, sosial-iqtisadi təsir, həmçinin işləyən müəllimə stimul verir, onu tərbiyəvi fəaliyyətə ruhlandırır.

D.N.Uznadze qeyd edir ki, "fəaliyyətə ruhlandırılma obyektiv şəraitin təsirindən əmələ gələn psixoloji fəallıq yaradır və onu yaradan obyektiv şəraitin əks olunduğu vəziyyəti təqdim

edir. Burdan belə nəticəyə gəlmək olar ki, fəaliyyətə ruhlandırılma sırf subyektiv hal olmayıb, obyektiv hadisələrin subyektə təsiri nəticəsində yaranır" [11, s.66].

Fasiləsiz təhsil sistemində müəllim hazırlığı ilə bağlı aparılan təhlillərin nəticəsi göstərir ki, pedaqoji sahədə qadınların üstünlük təşkil etməsi, yaş həddi problemlərinin olması, oğlanların pedaqoji peşəyə marağının azalması, müəllimlərin öz ixtisas biliklərini artırmasına, elmi yaradıcılığa həvəs göstərməməsi kimi halların yaranmasına daha çox sosial-iqtisadi təsirlər səbəb olur.

Bu gün müəllimlərin maddi-rifah halının yaxşılaşdırılması istiqamətində ölkə başçısının tapşırıqlarına əsasən ümidverici işlər görülür: müəllimlərin bilikləri yenidən qiymətləndirilir və bu qiymətləndirmənin nəticələrinə uyğun olaraq onların maaşları artırılır və s.

Gələcək müəllimin tərbiyə işinə hazırlanması üçün onun pedaqoji təcrübələrdə iştirak etməsi çox böyük əhəmiyyətə malikdir. Belə ki, bu təcrübələr tələbələrin ümumi dünyagörüşünün yüksəlməsinə imkan verir, layihələndirmə, təşkilatçılıq və kommunikativ bacarıqlarını inkişaf etdirir. Bakı Slavyan Universitetinin tələbələri pedaqoji təcrübələrini universitetin nəzdindəki məktəb-lisey kompleksində, orta məktəblərdə, o cümlədən, 190 saylı məktəbdə və orada BSU ilə birgə yaradılmış "Ali və orta təhsilin koordinasiyası kafedrası"nda və respublikanın müxtəlif rayonlarında məskunlaşan məcburi köçkün məktəblərində keçirlər.

Pedaqoji təcrübələrin Bakıdan uzaqda, bölgələrdə keçirilməsi ideyasını hələ, BSU-nun rektoru olarkən dövlət müşaviri, hörmətli akademik Kamal Abdullayev irəli sürmüşdür. Bu ənənə indi də davam etdirilir.

Bölgələrdə səyyar şəraitində keçirilən pedaqoji təcrübələr zamanı tələbələrdə şəxsi və peşə keyfiyyətlərinin formalaşdırılması ilə yanaşı, onların müəyyən rejim, özünəxidmət və asudə vaxtını düzgün təşkil etmək bacarıqları da inkişaf etdirilir. Bu isə onların peşəkarlıq səviyyəsinin yüksəlməsinə kömək etməklə yanaşı, eyni zamanda gələcək ibtidai sinif müəlliminin mənəvi zənginliyinə təkan verər, onun idrak fəaliyyətinin fəallaşması və inkişafına səbəb olar.

Beləliklə, təcrübə nəzəri biliklərin möhkəmləndirilməsi, praktik bacarıq və vərdişlərin formalaşdırılması ilə yanaşı, tərbiyəedici funksiyaya da qadirdir. Təcrübə nəticəsində tələbələr dünyagörüşlərini genişləndirir, şəxsi fəaliyyətlərini təhlil etmək və planlaşdırmaq bacarığına yiyələnir və bütövlükdə, həyat təcrübəsi qazanırlar.

Müasir ibtidai sinif müəllimi təhsil sahəsində əvvəllər baş verənlərdən, bu günkü dəyişikliklərdən hər zaman xəbərdar olmalıdır. İbtidai sinif müəllimlərinin ixtisaslarını artırması təhsil və tərbiyə proqramlarının yeni məlumatlarla zənginləşməsinə, təhsil-tərbiyə prosesində yeni metodların yaranmasına, cəmiyyətin obyektiv tələbatlarına uyğun olaraq təhsil müəssisələrinin məzunlarına verilən tələblərdəki dəyişikliklərə, müəllimlər ordusundakı nəsil dəyişikliyinə və s. səbəb olur.

Müasir dövrdə cəmiyyətin sürətli inkişafı, ictimai şüura məlum olan informasiyaların durmadan artması, informasiya və kommunikasiya texnologiyalarının geniş yayılması, təhsilin məzmununun bu ictimai hadisələrə müvafiq olaraq təkmilləşdirilməsi nəticəsində ali təhsildən sonrakı təhsil xüsusi aktuallıq və əhəmiyyət kəsb edir. Ali təhsildən sonrakı mərhələnin məqsədi müəllimin yaradıcılıq potensialı və tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsidir. Müəllim əlavə təhsil sistemində yalnız təhsilə dair yeni məlumatları əldə etməklə kifayətlənmir, onları təhlil və əvvəlki biliklərlə müqayisə edir, bəzən onlara şübhə ilə yanaşır və bəzən də inkar edir. O, fikrən əldə etdiyi yeni bilikləri öz şəxsi təcrübəsinə tətbiq edir və beləliklə, gələcək peşə fəaliyyətinin yeni istiqamətini müəyyənləşdirmiş olur.

Bütün bu deyilənlərdən belə nəticəyə gəlirik ki, ibtidai sinif müəllimi öz tərbiyəvi fəaliyyətini düzgün qurmaq üçün tərbiyə nəzəriyyəsini, tərbiyə işinin metodikasını, təlim-tərbiyə prosesinin təşkilinə dair hüquqi-normativ sənədləri, müxtəlif təhsil müəssisələrində tərbiyə prosesinin təşkilinə müasir baxışları, şəxsiyyətin inkişafının pedaqoji-psixoloji əsaslarını, uşaq fiziologiyası və psixologiyasını bilməlidir.

Cəmiyyətdə yaranmış müsbət dəyişikliklər ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətinə verilən tələblər və müəllimin bu tələbləri yerinə yetirməyə hazırlığı arasında ziddiyyətlərin yaranmasına səbəb olmuşdur. Ona görə də fasiləsiz pedaqoji təhsil sistemində müəllimin tərbiyəvi fəaliyyətə hazırlanması probleminin həllinin vacib olduğu üzə çıxarıldı.

Eksperimental tədqiqatın gedişində aşkar olunmuşdur ki, müəllimin tərbiyəvi fəaliyyətə hazırlanması prosesi öz təcrübəsinə əsaslanaraq şagirdlərlə qarşılıqlı əlaqə qurması, eləcə də özünüinkişafa və özünütəkmilləşdirməyə tələbatını dərk etməsi ilə həyata keçirilir.

Müəyyən olundu ki, müəllimin tərbiyə işinə hazırlanması ziddiyyətli, ictimai və tarixi səciyyə daşıyan prosesdir və bu prosesin həyata keçirilməsinə ictimai-mədəni sifariş, müəllimə, həm də tərbiyəçi kimi verilən konkret tələblər, məqsədyönlü fasiləsiz təhsil sistemi (nəzəriyyə, baxışlar, ideyalar, tərbiyə nəzəriyyəsi, tərbiyə işinin metodikası və bütövlükdə pedaqoji təhsilin məzmunu) və praktiki hazırlıq əsaslı surətdə təsir göstərir.

Bütün bu deyilənlərdən belə nəticəyə gəlirik ki, ibtidai sinif müəllimi öz tərbiyəvi fəaliyyətini düzgün qurmaq üçün tərbiyə nəzəriyyəsini, tərbiyə işinin metodikasını, təlim-tərbiyə prosesinin təşkilinə dair hüquqi-normativ sənədləri, müxtəlif təhsil müəssisələrində tərbiyə prosesinin təşkilinə müasir baxışları, şəxsiyyətin inkişafının pedaqoji-psixoloji əsaslarını, uşaq fiziologiyası və psixologiyasını bilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, 2009.
2. Azərbaycan Respublikasının Ümumi Təhsilinin Milli Kurikulumu. Bakı, 2009.
3. Белозерцев Е.П. Подготовка учителя в условиях перестройки. // Pedaqogika, 1989.
4. Белозерцев Е.П. Гуманистические основы педагогической подготовки учителя. // Гуманизация образования. 1994, №2, s. 3-8
5. Демакова И.Д. С верою в ученика: особенности воспитателной работы классного руководителя: кн. для учителя (из опыта работы) М.: Просвещение, 1989.
6. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Tərtib edənlər: M.Mərdanov Ə.Quliyev. Bakı: Təhsil, 2002.
7. Пискунов А.И. Педагогическое образование: консепсии, содержание, структура. // Pedaqogika, 2001, № 3, s.41-48
8. Реан А.А., Коломинский J.Л. Сосиально-педагогическая психология. СПб: Питер, 1999.
9. Шуркова Н.Е. Противоречие школьного воспитания: семь проблем, семь решений. М.: 1998.
10. Uşinski. K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.
11. Узнадзе Д.Н. Психология установки. Минск: Питер, 2001.

Ш.М.Мамедов

Подготовка учителя начальных классов к воспитательной деятельности в системе непрерывного педагогического образования

Резюме

В результате развития современного общества ежедневно изменяются материальные и моральные ценности, соответственно этому изменяются и содержание образования и воспитания. В связи с этим учитель начальной школы должен непрерывно улучшать свою педагогическую деятельность. Улучшение педагогической деятельности учителя можно лишь в пределах системы непрерывного педагогического образования. Внедрение важных обязанностей учителем начальной школы зависит от уровня подготовки его к воспитательной деятельности в системе непрерывного педагогического образования. Учителя начальной школы должны приобрести самые новейщие информации в области педагогических, психологических и других наук во время подготовки к воспитательно-образовательной деятельности в системе непрерывного педагогического образования.

Как мы знаем, знание, навыки и привычки являются основанием и отражением отношений учителя к обучению и образовательной деятельности. Опыт дается в результате систематического владения знанием, навыками и привычками. Привычки становятся характером и способностью человека и соответственно, способствуют организации воспитательной и образовательной деятельности. Чтобы выполнить воспитательную деятельность на высоком профессиональном уровне, учителя начальной школы должны развивать определенные профессиональные и личные качества, которые оказывают прямое влияние на формирование и развитие индивидуальности ученика.

Sh.M.Mammadov

Training of the primary school teacher for educational activity in system of continuous pedagogical education

Summary

Material and moral values and respectively the content of education and training activities are changing on a daily basis as a result of development of modern society. In this connection, a primary school teacher must continuously improve his/her pedagogical activity. The improvement of teacher's pedagogical activity is realized within a continuous pedagogical education system. The implementation of the important duties by a primary school teacher depends on his/her preparation level for the training and education activities in a continuous pedagogical education system. The primary school teachers must acquire the latest information in pedagogical, psychological and other sciences during the preparation for training and education activities in a continuous pedagogical education system.

As we know, knowledge, skills and habits are the basis and reflection of the teacher’s attitudes to the training and education activities. Experience is gained as a result of the systematic possession of knowledge, skills and habits. Accordingly, habits become the character and capacity of the person and contribute to the organization of training and education activities. To perform the training and education activities in a high professional level, the primary school teachers must develop certain professional and personal qualities that have direct impact on the formation and development of pupil personality.

Rəyçi: ped.f.d. S.L.Axundova

Redaksiyaya daxil olub: 31.01.2017

Ç.H.MƏMMƏDOVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

"KİTABİ – DƏDƏ QORQUD" DASTANI HAQQINDA MÜLAHİZƏLƏR

Açar sözlər: *ədəbiyyatımızın şah əsəri, əxlaqi keyfiyyətlər, xeyirlə şərin mübarizəsi*
Ключевые слова: *шедевр азербайджанской литературы, моральные качества, борьба добра и зла*
Key word: *king work of literature, moral gualifications, tight of between good and slander.*

"Kitabi Dədə Qorqud" dastanı Azərbaycan folklorunun ən dəyərli və monumental sənət nümunəsidir. Təsadüfi deyil ki, ədəbiyyatçılar, dilçilər, şərqşünaslar və türkoloqlar alimlər onu ədəbiyyatımızın "ana kitabı", "şah əsəri" kimi dəyərləndirmişlər. Dastana ən yüksək qiyməti türk ədəbiyyatı araşdırıcısı M.Köprülü verərək onu türk ədəbiyyatından daha möhtəşəm, daha qiymətli sənət incisi hesab etmişdir. (4, s.9)

Dastana bu qədər yüksək qiymətin verilməsinin səbəbi onun oğuzların həyatı, tarixi, əraziləri, məşğuliyyəti, məişəti, əxlaqı-dini görüşləri, adət-ənənələri və dili barədə zəngin məlumatların verilməsidir. Bu baxımdan o, ensklopedik xarakteri daşıyır.

Dastandakı hadisələr islamaqədərki dövrü əks etdirsə də, onun XI-XII əsrlərdə yazıya alındığı güman edilir. Bu dastanın bizə gəlib çatan əlyazmaları isə çox sonraların yadigarlarıdır. Drezden kitabxanasında dastanın həmin əlyazmalarından birinə təsadüf edən alman şərqşünası Fridrik Fon Dits onu öz ana dilinə tərcümə edib ilk dəfə nəşr etdirmişdir. Bununla o, bizə – oğuz türklərinin xələfi olan azərbaycanlılara öz soykökünü tanımaqda böyük xidmət göstərmişdir.

Dastanda adları çəkilən Qazan xan, Beyrək, Buğac, Basat, Qaraca Çoban və başqaları cəsur, qorxmaz, dəyanətli igidlərdir. Onlar doğma torpaq üçün, el-oba uğrunda, dost yolunda canlarından keçməyə hazır olan igidlərdir. Oğuz elinin qız-gəlinləri də kişilərdən geri qalmırlar, namuslu və fədakar ana, ismətli həyat yoldaşı kimi diqqəti cəlb edirlər.

Dastandakı hadisələr Xeyirlə Şərin, yaxşı ilə pisin, həyatla ölümün arasında gedən mübarizənin fonunda baş verir. İnsanlara da xeyir və şər əməlllərinə görə qiymət verilir, vətənə, xalqa, el-obaya məhəbbət, dosta sədaqət, ümumi mənafeyin şəxsi mənafedən üstün hesab edilməsi kimi əxlaqi keyfiyyətlər tərənnüm olunur.

Dastandakı bu müsbət cəhətlərin gənclərin tərbiyəsinə səmərli təsir göstərəcəyi danılmazdır. Bədii ədəbiyyatın çox güclü tərbiyə vasitəsi olduğunu əldə əsas tutaraq dastanın tədrisi zamanı şagirdlərin, tələbələrin diqqətini bir sıra məqamlara yönəltməli, onları dastandakı hadisələrdən nəticə çıxarmağa, ibrət götürməyə alışdırmalıyıq.

Qəribədir ki, uzun illər "KDQ" dastanı təhlil edilərkən qəhrəmanların müsbət keyfiyyətləri ön plana çəkilmişdir. Halbuki biz gənclərimizə insanların, o cümlədən dastandakı qəhrəmanların mənfi xüsusiyyətlərini görmək və onların insanlara vurduğu zərəri dərk etmək və bundan nəticə çıxarmaq bacarıqları formalaşdırmağa borcluyuq. Axı, tərbiyə prosesi yalnız müsbət cəhətləri, yaxşılıqları təlqin etməklə tamamlanmır. Mənfi cəhətlər, xoşagəlməz hərəkətlər haqqında da söz açılmalıdır.

Dastan keçən əsrin ortalarından orta məktəblərdə tədris olunmağa başlayıb. Hətta dastanın motivləri əsasında yazılmış hekayələr ibtidai siniflərdə öyrədilirdi. İstər şagirdlərin, istərsə də tələbələrin diqqəti dastandakı qəhrəmanları müsbət keyfiyyətlərinə yönəldilmişdir. Halbuki həyatda ideal insan yoxdur, olanda bilməz. Deməli, dastanın keçilərkən mənfi xarakterli obrazların təhlili üzərində xüsusi dayanmaq, mənfi xüsusiyyətlərin başqalarına vurduğu zərəri görmək, dərk etmək və nəticə çıxarmaq kimi bacarıqları formalaşdırmaq bugun daha vacibdir.

"KDQ" dastanında mənfi xüsusiyyətlər, xoşagəlməz cəhətlər çox vaxt sadəcə təsvir olunur. Lakin həmin hadisələrə, mənfi hallara münasibət bildirilmir, rəy söylənilmir. Bu, bəlkə də dastan müəllifinin müsbət qəhrəmanları ideallaşdırmaq istəyindən, bəlkə də müsbət xarakterli insanların xeyirli əməllərinin fonunda onların çox zəif olduğunu göstərmək arzusundan irəli gəlir. Hər halda dastanın təhlili zamanı bu cəhətlər üzərində daha çox dayanmaq lazımdır. Çünki hər hansı kiçik bir səhv bəzən böyük fəsadlara səbəb ola bilir.

Dastanda oğuz elinin başçısı Bayandır xandır. O, dastandakı hadisələrdə bir obraz kimi iştirak etməsə də, hörmətlə yad edilir, haqqında gözəl tərifler söylənilir. Bayandır xan doğrudanmı ideal başçı, nöqsansız insandır? Dastanın birinci boyunda xanlar xanı Bayandır xan məclis təşkil edir. Onun əmri ilə 3 çadır qurulur, oğlu olanlar ağ, qızı olanlar qırmızı, övladı olmayanlar isə qara çadıra yerləşdirilir. O, qara çadırdakı əyləşənlərin altına qara keçə döşəməyi, önünə qara qoyun ətindən yemək qoymağı tapşırır.

Görəsən xanlar xanı Bayandır xan insanları niyə belə alçaldır? Onları fiziki qüsurlarına görə başqalarından təcrid etməkdə nə məqsəd güdür?

Bəlkə də sonralar xanın buğasının qəlbi qırılan, hamının yanında xəcalət çəkən Dirsə xanın oğlu Buğacın əli ilə öldürülməsi təsadüfi deyil.

Yaxşı olar ki, müəllimlər şagirdlərin bu barədə fikirlərini öyrənsinlər. Ölkəmizdə fiziki qüsurlu insanların cəmiyyətə inteqrasiyası, qayğıya ehtiyacı olan insanların oxuması, işləməsi üçün şərait yaradılması barədə məlumat versinlər. Müəllim fiziki qüsurlu insanların cəmiyyət üzvlərindən təcrid edilməsinin, alçaldılmasının çox böyük günah olduğunu şagirdlərin diqqətinə çatdırmalıdır.

Dirsə xan uzun illər həsrətində olduğu övladının – Allah tərəfindən ona göndərilən nemətin qədrini bilmir, naşükürlük edir, yalan sözlərə inanır Buğacı öldürmək istirəyir.

Dastan tədris olunarkən müəllim şagirdlərin diqqətini bu məsələyə yönətməli, insanların fiziki qüsurlarına görə cəmiyyət üzvlərindən təcrid etməyin çox böyük günah olduğunu izah etməlidir.

Dirsə xan uzun illər həsrətində olduğu övladını, başını uca edən oğlunu, Allah tərəfindən ona verilən nemətin qədrini bilmir, naşükürlük edir, yalan sözlərə inanıb övladını yaralayır.

Müəllim onun düzmü hərəkət etdiyini şagirlərdən soruşur. Şagirdlər cavab verirlər ki, udduğumuz havanın, içdiyimiz suyun, yaşadığımız torpağın,yaxınlarımızın qədrini bilməli, qayğısına qalmalı və əzizləməliyik. Dirsə xan isə belə etmədi, nəticədə cəzasını çəkdi. Müəllim-uşaqlara, izah edir ki, ətrafınızda öz yaxınların qədrini bilməyən, övladlarının zibil yeşiklərinə atan valieynlər də cəzasız qalmayacaq.

"Salur Qazanın evinin yağmalandığı" boyda Qazan xanla Qaraca Çobanın bir-birinə münasibəri diqqəti cəlb edir. Bayandır xanın köyküsü, qalın oğuzun dövləti Salur Qazan öz çobanı ilə çox kobud danışır, onun qəlbinə dəyir, ona qarğış edir. Bu, Qaraca Çobanı narazı salsa da, o öz ağasına sadiq qalır, onun düşmən üzərinə tək getməsinə razı olmur. Qazan xan Qaraca Çobanın köməyinə ehtiyacı olmadığını söyləyir. Daha sonra isə çobanın əl çəkmədiyini görüb onu ağaca sarıyır. Bu zaman onun başına xoşagəlməz hadisələrin gələ biləcəyini belə düşünmür. Onu narahat edən yalnız bəylərin tənəsidir.

Müəllim dastandakı qəhrəmanların hərəkətlərinin şagirdlər tərəfindən necə qəbul ediləcəyini öyrənmək məqsədilə onlara bu məsələ ilə bağlı esse yazmağı tapşıra bilər. Esseləri oxutdurduqdan sonra müəllim onların fikrini ümumiləşdirir.

İnsanlar Allahın yaratdığı ən kamil varlıqlardır. İnsanlara dilinə, dininə, rənginə vəzifəsinə, cəmiyyətdəki mövqeyinə görə fərq qoymaq, onları alçaltmaq düzgün deyil. Biz mehribancasına yaşamalı, bir-birinə hörmə etməliyik. Belə etmədikdə insanlar biri birinə qənim kəsilir, aqressiv olurlar. Tayfa başçısının Qazanın insanlara ikili münasibəti düşmənçiliyə, qardaş qırğınına səbəb olur.

"Bayburanın oğlu Bamsı Beyrək boyu"nda Beyrək kafir qızının köməyi ilə əsirlikdən qurtarır. O, qıza söz verir ki, rəqibini aradan götürdükdən sonra onun dalınca gələcək, onunla ailə quracaq. Amma verdiyi sözə əməl etmir, namərdlik edir, kişiyə yaraşmayan addım atır. Bununla da Yalançı oğlu Yalınçığdan fərqlənmir, nakişilik edir. Görkəmli yazıçı Kamal Abdulla "Yarımçıq əlyazma"əsərində çox haqlı olaraq göstərir ki, kafir qızının ruhu daimi Beyrəyi izləyir, onu lənətləyir.

"Basat Təpəgözü öldürdüyü boy"da çoban öz nəfsinin qurbanı olur. Pəri qız onu cəzalandırmağı qərara alır. Nəticədə çobanla yanaşı, oğuz eli də əzaba düçar olur, fəlakət qarşısında qalır. Yeniyetmələrin, gənclərin diqqəti o məsələyə yönəldilməlidir ki, hər iş görəndə yalnız özünü deyil, başqalarını, yaxınlarını düşünmək çox vacibdir. Çobanın hərəkəti oğuzları məğlubedulməz Təpəgözlə üz-üzə qoyur. O, insanabənzər məxluq olsa da, ölümün, qorxulu bir xəstəliyin rəmzidir. O, insanlarla qidalanır, bəşəriyyəti məhv etmək ehtirası ilə yaşayır. Təpəgöz bəlkə də hər hansı bir keçici xəstəliyin rəmzidir, həmin xəstəliklərin qarşısında cəmiyyət acizdir. Amma hadisə nikbin bir sonluqla bitir, Basat Təpəgözün zəif nöqtəsini tapır, onu məhv edir.

"Duxa Qoca oğlu Dəli Domrulun boyu" nun qəhrəmanı özünü hamıdan güclü, hamıdan bacarıqlı hesab edir, özünü məğlubedilməz sayır, öyünür. Özündən razı olan Dəli Domrul hətta Əzrailə də meydan oxuyur, onu hədələyir. Ancaq onu görəndə özünü itirir, yalvarmağa başlayır. "Şərablı olduğu üçün nə söyləmişəm, bilmədim"-deyir. Yalnız ölüm qorxusu müqabilində Allaha pənah aparır, yalvarır, tanrının hamıdan, o cümlədən Adəm övladından da uca olduğunu etiraf edir.Yalnız Allahın böyüklüyünü, hər şeyə qadir olduğunu etiraf etdikdən sonra Rəbbi onu bağışlayır.

Dastan müəllifi gənclərə sanki nəsihət verir: "Ey gənclər, biz Allahın aciz bəndələriyik. Ona görə də nə gözəlliyimiz, nə qüvvəmiz, nə bacarığımızla fəxr etməməliyik. Hamımız bir gün dünyamızı dəyişəcəyik. Son anda nə ata, nə ana, nə var-dövlət, nə də dostlar adama kömək etmir. Yalnız məhəbbət, edilən yaxşılıq insanları bəladan xilas edə bilər. Ona pənah gətirin, dünya malına yox".

Lakonik olduğu qədər möhtəşəm olan bu abidənin yarandığı vaxtdan əsrlər keçsə də, oradakı hər bir hadisə, hər bir fikir müasir dövrlə səsləşir, insanları düşünməyə, mənfi sifətlərdən uzaq olmağa, paklaşmağa, saflaşmağa çağırır. Bu da onun çox qiymətli sənət nümunəsi olduğunu sübut edir.

Ədəbiyyat

1. Abbasov A. "KDQ" dastanında ailə tərbiyəsi məsələləri/ "DQ" 1300. Bakı: Poliqraf, 1999.
2. Ağayev Ə. Zəngin tərbiyə mənbəyi/ "DQ" 1300. Bakı: Poliqraf, 1999.
3. "KDQ" ön söz. Bakı: Gənclik, 1978.
4. Mikayılov Ş. "Ədəbiyyatımızda "Kitabi-Dədə Qorqud"un yeri və ümumtəhsil məktəblərində onun öyrədilməsi məsələləri" /"DQ" 1300. Bakı: Poliqraf, 1999.

Ч.Г.Мамедова

«Мысли о Книге Деда Коркута»

Резюме

«Книга Деда Коркута» является монументальным и ценным произведением азербайджанского народа. В этом эпосе говорится об истории, жизни, обычиях, традициях огузких племен.

Героев эпоса характеризует беззаветный героизм, гуманизм, честность и глубокая любовь к Родине. Но это не значит, что герои эпоса идеальны и лишены недостатков. При изучении эпоса педагогам необходимо уделять внимание как анализу положительных, так и отрицательных поступков главных героев.

Ch.H.Mammadova

Thoughts about "The Dede Gorgud Book"

Summary

"The Dede Gorgud Book" is epic literature and monumentally the most valuable piece of art. The reason the price is so high, the king Dasatan life, history, moral and religious views of life, customs and traditions, and providing rich information about the history of our language. The struggle between good and evil, life and death takes place in the background. People of good and is the price, the motherland, the people, the father - mother love, loyalty to friends and moral qualities are praised as being superior to the person's interest.

Rəyçi: filol.f.d., dos. Ş.M.Ağakişiyev

Redaksiyaya daxil olub: 06.02.2017

K.Ə.MƏMMƏDOVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

MÜASİR TƏHSİL VƏ MÜƏLLİMLƏRİN PSİXOPEDAQOJİ QABİLIYYƏTLƏRİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

Açar sözlər: *prioritet, kompetensiya, təhsildə səriştəlilik, kurikulum, yeni təlim texnologiyaları*
Ключевые слова: *приоритет, компетентность, компетенция в области образования, курикулум, новые технологии обучения*
Key words: *Priority, competency, competency-based approach in education, curriculum, new teaching technologies*

Ölkəmizdə aparılan islahatların, təhsil quruculuğunun indiki mərhələsində əsas diqqət qarşıya qoyulan vəzifəyə uyğun olaraq təhsilin məzmununun yenişləşməsinə, yeni pedaqoji texnologiyalar əsasında həyata keçirilməsinə yönəlmişdir. Pedaqoji texnologiyalardan istifadənin əsas istiqamətləri innovasiyalarla əlaqədər biliyin, müvafiq anlayışların düzgün mənilməsənilməsi, müasir təlim prinsipləri, təlim metodlarından öz yerində maksimum səmərəli istifadə olunması ilə bağlıdır. Dərs zamanı şagirdlərdə qazanılmış bilik və bacarıqların tətbiq edilməsi, öz fikrini əsaslandırıb müdafiə etməsi, sərbəst düşünmə qabiliyyətinin formalaşdırılması təmin olunur. Şagirdlərin fəallığı, müstəqil olaraq bilikləri əldə edib mənimsəmələri, öz qabliyyətlərinin gerçəkləşməsi və təşəbbüskarlığa cəhd etmələri fəal təlimin əsas üstünlüklərindən sayıla bilər.

Təhsil sistemində aparılan islahatlar müasir dərsin məzmununun təkmilləşdirilməsi, yeni təlim texnologiyalarının tətbiqini tələb edir. İnteraktiv təlim metodlarından istifadə təhsilin keyfiyyətinə öz müsbət təsirini göstərir. Bu gün təlim-tərbiyə prosesində şagirdlərə daha çox müstəqillik verilməli, öz fikirlərini sərbəst, çəkinmədən söyləməyə, arzu və istəklərinə müvafiq məşğuliyyətlər seçməyə şərait yaradılmalıdır. Təhsildə yeni təlim metod və texnologiyalardan istifadə daha yüksək nəticələrin əldə edilməsinə gətirib çıxarır, şagirdlərdə müstəqillik, işgüzarlıq, təfəkkür fəallığı, məsuliyyət kimi keyfiyyətlər formalaşdırır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə geniş miqyaslı tədbirləri nəzərdə tutur. Bu istiqamətlərdə səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması, təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı, bundan başqa, təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi, innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılması və s.kimi məsələlər prioritet olaraq nəzərdə tutulur.

Bu istiqamətlərdə səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması, təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı , bundan başqa, təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi, innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılması və s.kimi məsələlər prioritet olaraq nəzərdə tutulur. Hər zaman insanlarıı belə bir sual düşündürməlidir: müasir cəmiyyətdə hansı kompetensiyalar formalaşdırılmalıdır? Xüsusilə qeyd etmək lazımdır ki, səriştəli yanaşmadan istifadə olunaraq, insanın fəaliyyətində xüsusı rol oynayan aşağıdakı təhsil kompetensiyaları

formalaşdırılmalıdır:

- mürəkkəb formada yazılı mətnləri başa düşmək üçün savadlılıq;
- ədədlər və ölçülən kəmiyyətlərlə işləmək, onları saymaq və onlar üzərində müxtəlif əməliyyatları yerinə yetirmək üçün ədədi savadlılıq;
- müxtəlif şəraitdə düzgün həyat mövqeyinin seçilməsi və yaşayış tərzinin formalaşdırılması üçün müvafiq bilik, bacarıq və vərdişlərin qazanılması;
- akademik biliklər sisteminə yiyələnmə.

Bunlardan başqa müasir cəmiyyətdə harmonik fəaliyyət üçün insanlar konseptual kompetensiyalara malik olmalıdırlar. Belə kompetensiyalara- prosedur, motivasiya və fəaliyyətlə bağlı məsələləri daxil etmək olar.

Bütövlükdə təhsildə səriştəli yanaşmanı "nəyi bilmək, nəyi öyrətmək" anlayışı ilə deyil, "necə bilmək, necə öyrətmək" anlayışı ilə əvəz etmək lazımdır. Araşdırmalar göstərir ki, əsas kompetensiyalara sosial kompetensiyaları aid etmək olar. Sosial kompetensiyalar siyasi nəzakət, sosial nəzakət, sosial sahədə ədəbi fəaliyyət, özünün hüquq və mənafeyini qorumaq kimi qabiliyyətlərin öyrənənlərdə formalaşdırılmasını təmin edir. Bu baxımdan sosial kompetensiyalara yiyələnmiş insan fərd kimi ayrıca, eyni zamanda qruplarda işləməyi; vəziyyəti, durumu təhlil etməyi; demokratik xarakterli qrupların formalaşdırılması və qrupların işində iştirak etməyi; konfliktlərin həll olunması üçün müxtəlif yanaşmalardan istifadə etməyi; birgə fəaliyyətin qanun və qanunauyğunluqlarına riayət etməyi; sosial və mədəni xarakterli fərqli hadisələrə, proseslərə tolerant münasibət bildirməyi bacarmalıdır [4].

Araşdırmalar göstərir ki, tədris prosesində öyrənənlərdə tənqidi təfəkkrün formalaşdırılması müəllimdən səriştəli yanaşma tələb edir. Bunun üçün müəllim birinci növbədə öyrənənlərdə (şagird və tələbələrdə) təfəkkürlə bağlı kompetensiyaların imkanlarını gücləndirməklə problemlərin səmərəli həllini təmin etmək üçün inteqrativ xarakter daşıyan tənqidi təfəkkürün formalaşmasına xüsusi diqqət yetirməlidirlər.

Təhsilin keyfiyyəti təlimin yeni texnologiyasını, tədris prosesini bilavasitə reallaşdıran müəllimin yaradıcı əməyindən, peşəkarlıq səviyyəsindən və peşəsini ürəkdən sevməsindən çox aslıdır. Müəllimin yaradıcılıq və sağlam rəqabət tələb edən layihələrdə, müsabiqə və innovativ proqramlarda iştirakı onun yaradıcı əməyinin keyfiyyətinin aşkarlanmasında mühüm rol oynayır.

Dünya təhsilinə inteqrasiyanın sistemli, geniş parametrli prosesə çevrildiyi bir zamanda inkişaf etmiş ölkələrin qabaqcıl pedaqoji təcrübələrini öyrənib, ümumiləşdirib yaymaq, həmkarların çoxillik əməyinin nəticəsi olaraq formalaşmış qabaqcıl pedaqoji təcrübələrdən bəhrələnərək tədris prosesinin səmərəliliyini artırmaq və öz fəaliyyətini təqdim etmək bacarığına malik olmaq müəllimin yaradıcı əməyinin keyfiyyət göstəricilərindəndir.Təhsil prosesində müəllim yeni pedaqoji texnologiyalardan faydalanaraq şagirdlərdə təfəkkürün formalaşmasına nail olur, müasir təlim yanaşmalarını əks etdirən dərs-mühazirə, dərs-yarış, dərs-müzakirə, dərs-disput kimi qeyri-standart dərslərdən istifadəyə üstünlük verir, qruplarla, cütlərlə, fərdi və kollektivlə iş formalarından istifadə edir, dialoqa, məntiqi və tənqidi təfəkkürü inkişaf etdirən, yaradıcı metodlara əsaslanan fəal metodlardan istifadəyə geniş yer verir. Fəal təlimdən istifadə etməklə dərslərin yeni təlimə uyğun qurulması müəllim və şagird fəaliyyətinin səmərəsini artırır. Təhsilin inkişafını şərtləndirən əsas amil məhz müəllimin fəaliyyətidir. Bu gün uğurlu nəticə müəllim fəaliyyətdən aslıdır. Müəllimin uşaqlarla həsas ünsiyyətqurma, əməkdaşlıq, tədqiqatçılıq, özünütəhsil və idarəçilik bacarıqlarına malik olması onun dövrün tələblərinə uyğun inkişaf etmiş xüsusiyyətlərindəndir.

Bu günün tələbi odur ki, hər bir müəllim tədris prosesində yaradıcı mühit yarada bilsin. Bunun üçün müəllimdən yuxarıda sadaladığımız kompetensiyalardan əlavə, eyni zamanda onun tədris etdiyi fənnə aid səriştəliliyi hiss edilməlidir. Qeyd etmək lazımdır ki, Azərbaycan təhsil sistemində tətbiqinə başlanılmış "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları

(kurikulumları") sənədində inkişafetdirici təlim uşağın inkişafının təmin olunmasında mühüm təsir vasitəsi kimi müəyyən edilir və təfəkkürün inkişafını əqli inkişafın başlıca məqsədi sayır [1]. Təlimin inkişafetdirici xarakteri tədris prosesində tətbiq olunan metodlardan, yanaşmalardan çox asılı olduğundan, müəllim sinifdə şagirdlərdən idraki fəaliyyətini aktivləşdirə bilmirsə, təlim özünün başlıca xarakterini - inkişafetdirici xarakterini itirir. Ona görə də məktəb təcrübəsində şagirdlərdə təfəkkürü inkişaf etdirmək üçün nəyi, nə üçün və necə öyrətmək probleminə diqqət artırılmalı və bu fəaliyyətlər həmişə ciddi olaraq diqqət mərkəzində saxlanılmalıdır. Bu gün müəllim qarşısında dərsdə susan, yalnız sual verdikdə cavab verən, heç bir təşəbbüskarlıq göstərməyən dünənki şagirddən tamamilə fərqli bir insan dayanmışdır. İndi şagird müəllimlə əməkdaşlıq edir, öz fikir və mülahizələrini sərbəst bildirir, rəy söyləyir, fərqli yanaşma nümayiş etdirə bilir, hətta müəyyən məsələlərdə müəllimlə razılaşmaya da bilir [1].

Müəllim savadlı, müasir dünyagörüşünə malik, milli mənəvi dəyərlərə sadiq vətəndaşların yetişdirilməsi işinə bütün imkan və bacarığını sərf etməlidir. Nahaq yerə demirlər ki, hər öyrədən müəllim deyil, o kəs müəllimdir ki, ondan öyrənirlər, onun yanına sevə-sevə öyrənməyə gedirlər. Həm də o müəllim yaxşı öyrədə bilər ki, onu yaxşı öyrədiblər.

Elə müəllimlərə ehtiyac var ki, onlar hər bir şagirdin qəlbində elm, bilik, savad məşəli yandırmaqla yanaşı, vətənə, torpağa, millətə sevgi hissləri ilə alışıb yanan, onu düşmən tapdağından azad etməyə, qorumağa hazır və qadir olan vətənpərvər şəxsiyyətlər yetişdirə bilsin [4].

Hər hansı bir peşə sahibi səhv edə bilər və onun səhvindən ziyan çəkənlər də olar, lakin bu səhvi aradan qaldırmaq olar. Amma müəllimin səhvi çoxlu sayda insanların həyatını və gələcəyini təhlükədə qoyar. Bu mənada, nüfuz və hörmətin qazanılması, hər şeydən əvvəl müəllimin özündən asılıdır.

Müasir müəllim qabaqcıl dünya təhsil sistemindən ən önəmli nümunələr seçərək milli zəmin əsasında demokratikləşdirmə, humanistləşdirmə, humanitarlaşdırma, inteqrasiya, diferensiallaşdırma və fərdləşdirmə kimi vacib prinsiplərin tədris prosesinə yaradıcılıqla tətbiqini həyata keçirir. Müasir müəllim təlim fəaliyyəti zamanı təhsil məqsədləri olaraq şagirdlərdə müstəqillik və özünütəşkil qabiliyyətlərini, özlərinin hüquqlarını müdafiə edə bilmək bacarığını və yüksək hüquqi mədəniyyətini, əməkdaşlığı, tolerantlığı, digərlərini qəbul etmək və dinləmək mədəniyyətini, dialoq aparmaq, məzmunlu kompromis axtarıb tapmaq bacarığını formalaşdırmalıdır. Müəllimin yaradıcı əməyi bir də ondan ibarət olmalıdır ki, dərslərini yeni təhsil modeli kimi kurikulum əsasında qurmalıdır. O,bu zaman şagirdləri əzbərçilikdən xilas edərək tədqiqatçılığa, təfəkkür və düşüncələrinin inkişafına gətirib çıxarır. Həmdə özü yenilikləri mənimsəməyə səy göstərir, dərslərinin daha maraqlı, rəngarəng keçməsinə imkanlar yaradır. Bu dərslərdə interaktiv metodların imkanları daha aydın meydana çıxır. Debatlar, rollu oyunların təşkili, müzakirələr, kompyuterdən istifadə edərək tapılan yeni mülahizələr, dəlillər, tarixi faktlar dərsin elə sinifdə öyrənilməsinə zəmin yaradır. Dərslərdə yeni təlim texnologiyaların tətbiqi şagirdlərin idrak fəallığını artırır, nəticədə təlimin keyfiyyəti yüksəlir. Müəllim pedaqoji prosesin təşkilatçısı olmaqla yanaşı ilk növbədə prosesi qiymətləndirməyi bacarmalıdır. Təlim-tərbiyə prosesində qiymətləndirmənin yerini müəyyən etməli, onun statistik təhlilini aparmalı, proqnoz və təkliflər vermək üçün problemə ümumi yanaşıb, qiymətləndirmə ilə bağlı fundamental məsələləri həll etməlidir. Bunun üçün təlimin məzmunu (uşağa nəyi, hansı həcmdə öyrətməli), təlim üsulları (uşağı necə öyrətməli), öyrədici mühit (uşağı hansı şəraitdə öyrətməli) və qiymətləndirmə (öyrətmə prosesinin durumu və onun nəticəsinin göstəriciləri) kimi təlim prosesinin sadələşdirilmiş modelini həyata keçirməyə nail olmalıdır. Müəllim-şagird münasibətləri tədris prosesinin əsas komponentlərindəndir. Odur ki, tədris prosesində müəllimin şagirdlərlə ünsiyyəti, onlara yanaşma tərzi həlledici rol oynayır. Təlim prosesinin yaxşı qurulması üçün müəllim-şagird münasibətləri tənzimlənməlidir. Müəllim şagirdin psixologiyasını öyrənməli, onu stimullaşdırmaq üçün özünün sinif şəraitinə uyğun mexanizmi tapmalı və bunun üçün özündə dözümlülük bacarığı yaratmalıdır. Müasir informasiya texno-

logiyasını mükəmməl mənimsəməli, tədris və inkişaf prosesində ondan istifadənin imkanlarını təhsilalanlara öyrətməlidir.Müəllim yalnız bilik vermir, eyni zamanda öyrənənlərin təfəkkürünün, düşünmə tərzinin dəyişməsinə səbəb olur, idrak fəaliyyətinə təsir edir. Təcrübə göstərir ki, təhsil və inkişaf sahəsində müəllim amili özünün əhəmiyyətinə və misiyasına görə bu gün də, gələcəkdə də aktual olaraq qalacaqdır.

Ədəbiyyat:

1.Ümumtəhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı, 2010.
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
3.“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”. Bakı, 2013.
4. A.Mehrabov. Şəxsiyyətyönümlü təhsil standartlarının hazırlanma texnologiyası. // Azərbaycan məktəbi. Bakı, №4, 2005.
5. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003, səh.212-257
6. Əlizadə Ə.Ə. Məktəbə psixoloji xidmət: problemlər, düşüncələr// Azərbaycan məktəbi, 1993, №3.

K.A.Мамедова

Современное образование и основное направление развития психо-педагогических способностей преподавателей

Резюме

В статье образовательные компетенции выдвигаются на первый план в развитии психо-педагогических навыков преподавателей.

В то же время отмечается, что высокий уровень компетентности, всесторонние знания, навыки и формирования набора личного и социального развития являются ключевым показателем повышения эффективности учебно-воспитательного процесса. Кроме того отмечается, что для грамотного подхода к образованию понятие «чего знать и чему учить», надо заменить понятием «как знать и как учить». Исследования показали, что к ключевым компетенциям могут быть отнесены социальные компетентности. Социальные компетенции способствует формированию у учащихся таких способностей как, политическая вежливость, социальная вежливость, литературная деятельность в социальной сфере, умение защитить свои права и интересы.

K.A.Mammadova

Modern education and main dimensions of development of teachers' psycho-pedagogical competences

Summary

The article deals with the education competencies as one of the basic ways for developing teachers' psycho-pedagogical skills. At the same time, it is noted that high-level proficiency is the main indicator as a factor of individual, social development for shaping a set of knowledge and skills, for promoting efficiency of teaching/learning process. Furthermore, the article highlights that it is important to replace competency-based approach in education, which claims the notion what to know and what to teach, by the notion how to know and how to teach. The researches show that social competencies may be related to basic competencies. Social competencies provide learners with skills formation such as political and social etiquette, literary activity in social field, protecting one's own rights and interests.

Rəyçi: ped.e.n., dos. Q.Q.Əzizov

Redaksiyaya daxil olub: 07.02.2017

N.MƏMMƏDOVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: nermine_m@mail.ru

Azərbaycan Respublikası Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

İKİÖLÇÜLÜ VİZUAL RESURSLAR: ZEHNİ XƏRİTƏLƏR VƏ ANLAYIŞ XƏRİTƏLƏRİNİN PRAKTİK VƏ NƏZƏRİ MƏSƏLƏLƏRİ

Açar sözlər: *iki ölçülü vizual resurslar, zehni xəritələr, anlayış xəritələri, öyrənmə, təhsil, məktəb, müəllim, təhsilalan*
Ключевые слова: *двумерные визуализации ресурсов: ментальные (умственные) карты, концепциионные карты, обучение, школа, учитель, ученик*
Key words*: two measured visual resources, mind maps, concept maps, the study, school, teacher, student*

Təhsilalanları məlumatın qaynağına istiqamətləndirən, ehtiyacları olan məlumata çatmaları üçün müvafiq bacarıqları əldə etmələrini təmin edən təhsil mühitinin yaradılması, təlimə yanaşmada konstruktivlik və problem həlletmə, təşəbbüskar, işgüzar, məsuliyyətli, çevik, yaradıcılığı inkişaf etdirmə kimi qabiliyyətlərin formalaşdırılması dünyanın qabaqcıl ölkələrində olduğu kimi, Azərbaycanın təhsil sistemində də, əsas hədəf kimi götürülür (1,2). Qeyd olunan hədəflərin həyata keçirilməsi üçün təhsilalanların öyrənməsində məsuliyyət daşıyan və müəllimlərin bələdçi rolunu oynadığı məktəb mühitlərində bir çox yeni metoddan, müasir tədris avadanlıqları və resurslarından istifadə edilir.

Bu istiqamətdə tətbiq olunan metodlardan biri də, iki ölçülü vizual resurslardır.

Mütəxəssislər tərəfindən verilmiş təsnifata görə, iki ölşülü vizual resurslar altı qrupda birləşdirilir:

1-ci. Xəritələr: a. zehni xəritə; b.anlayış xəritəsi; c. məlumat xəritəsi; d.fərdi xəritə; e.qrup xəritəsi və digər xəritələr.

2-ci. Diaqramlar: a. Vee diaqramı; b. Veen diaqramı; c. skatter plot diaqramı və digər diaqramlar.

3-cü. Cədvəllər: a. normal cədvəl; matris cədvəl və digəriləri.

4-cü. Sxemlər: a. struktur (ing.organization chart) sxem; b. blok sxem və digərləri.

5-ci. Qrafiklər: a.pasta qrafik; b.çubuq və sütün qrafik; c. xətti qrafik; d.şəkilli qrafik və digəriləri.

6-cı. Şəkillər: a.çəkilmiş şəkil; b.fotoqraf şəkli; c. karikatura şəkli; d. plakat şəkli; e. afişa və digəriləri. (3, 4, 5).

Qeyd olunan iki ölçülü vizual rezurslardan yalnız zehni xəritələr və anlayış xəritələri haqqında bəhs olunacaq, onların nəzəri və praktik məsələlərinə toxunulacaqdır.

İki ölçülü vizual resurslar: zehni xəritələr və anlayış xəritələri beynin sağ və sol hissələrinin birlikdə istifadə edilməsi prinsipinə əsaslanır. Hər bir təhsilalanin fərdi fərqliliklərini diqqətə alan, zehni potensialı üzə çıxaran, yaradıcı düşünmə, öyrənmə, problem həll etmə kimi qabiliyyətləri artıran, yaddaşı inkişaf etdirən, öyrənilən materialla əlaqədar həyati bacarıqlar qazandıran iki ölçülü vizual resurslar: zehni xəritələr və anlayış xəritələri bir tədris resursu kimi təhsilin tərkib hissələrindən birini təşkil edir. Bu baxımdan vizual resurslar: zehni xəritələr və anlayış xəritələri ilə bağlı müəllimlərin maarifləndirilməsi böyük əhəmiyyətə malikdir (6, 7, 8, 9)

Zehni xəritə metodunun əsasını dr. Rocer Sperri (Roger Sperry) və yoldaşlarının beyinlə əlaqədar 1960-cı illərdə apardıqları tədqiqatlarından alınan nəticələr təşkil edir. Sperri və yoldaşları tədqiqatlarında beynin hər iki yarımkürəsinin bir-birindən fərqli funksiyaya malik

olduğunu kəşf etmişlər. Beynin sol qismi analtik bacarıqlarla əlaqədardır. Məntiq, dil və ədədlər sol beynin fəaliyyətləridir. Beynin sağ qisimi isə daha çox duyğu və yaradıcılıqla bağlı olan funksiyaya malikdir. Əlaqələr, şəkillər və rənglər sağ beynin fəaliyyətləri arasındadır. Sperri və yoldaşlarının tədqiqatlarından alınan nəticələri əsas götürərək, tədqiqata başlayan Toni Buzan, 1960-cı illərin sonuna doğru "Zehni xəritə" adlanan bir metod irəli sürmüşdür. "Zehni xəritə" beynin hər iki yarımkürəsindən birlikdə, bütövlükdə istifadə etmə prinsipinə əsaslanır. Deməli, zehni xəritə yalnız ya sağ, ya da sol beyin yarımkürələrinin fəaliyyətini deyil; beynin hər iki yarımkürəsinin fəaliyyət prosesini birlikdə ələ almağı və birləşdirməyi əsas götürən bir öyrənmə metodudur, bir tədris resursudur (3, 4).

Anlayışlar xəritəsi bir metod kimi C.D.Novak (Joseph David Novak) tərəfindən 1970-ci illərdə irəli sürülmüşdür. Sonralar anlayışlar xəritəsi müxtəlif sahələrdə, xüsusən təhsil sahəsində, fənlərin tədrisində bir resurs və metod kimi kimi geniş istifadə edilməyə başlamışdır (6, 7).

Yaradıcılıq hər bir fərddə anadangəlmə vardır. Ancaq yaradıcılığın davamlılığı, inkişaf dərəcəsi və ifadə forması fərddən fərdə fərqlilik göstərir. Bu baxımdan zehni xəritələr və anlayış xəritələri rahat, tez və müstəqil düşünə bilmə, çox istiqamətli düsünmə, fərqli və dəyişik nəticələrə çata bilmə kimi xüsusiyyətləri ehtiva edən bir anlayışdır. Bu metod çox az insanın şans əsəri əldə edə biləcəyi xüsusi bir zehni qabiliyyət olmayıb, tətbiqlərlə inkişaf etdirilən bir metoddur. Bu baxımından, mexaniki əzbərləmə əvəzinə, təhsilalanların başa düşərək, dərk edərək öyrənməsinin təmin olunmasında iki ölçülü vizual resurslar: zehni xəritələr və anlayış xəritələrinin təhsildəki rolu günümüzdə gün keçdikcə əhəmiyyətini artırmaqdadır (3, 4, 5).

Məntiqi və vizual qabiliyyətlərin birlikdə istifadə edilməsi zehni və anlayış xəritələrin əsas xüsusiyyətlərindəndir. Bu səbəbdən zehni və anlayış xəritələri çox fərqli məqsədlər üçün: sinif şəraitlərində yeni bir mövzunun (bölmənin) başlanğıcında, inkişaf mərhələsində, sonunda təhsilalanların mənimsəmə səviyyəsinin müəyyənləşdirilməsində, səhvlərin, çatışmazlıqların aşkara çıxarılmasında və biliklərin qiymətləndirilməsində istifadə oluna biləcək bir metoddur. Layihələrin hazırlanmasında və qiymətləndirilməsində də, istifadə üçün münasibdir. Araşdırma zamanı mürəkkəb məlumatlar arasındakı əlaqələrin müəyyən edilməsində, problem həll etmədə və təkrarda bu xəritələr ideal vasitədir.

Həm metod, həm də tədris resursu, eyni zamanda qiymətləndirmə vasitəsi olan zehni xəritələr və anlayış xəritələrinin təhsilalana verdiyi faydalar ümumiləşdirilərək, aşağıdakı kimi qruplaşdırılmışdır:

❖ dərsin hər mərhələsində fərqli məqsədlərlə istifadə edilir. Dərsin giriş hissəsində ön söz olaraq, dərsin inkişaf hissəsində tədris resursu olaraq, dərsin nəticə hissəsində isə həm xülasə etmək, həm də qiymətləndirmə üçün istifadə oluna bilər.

❖ beynin sağ və sol hissəsindən birlikdə istifadə olunaraq fikirlər və anlayışlar açar sözlər, simvollar və rəsmlərlə ifadə olunur, bu da analitik düşünməyi təmin edir;

❖ hər fikri, ideyanı, anlayışı tək bir sözə və ya rəmzə çevirməyə kömək edir;

❖ əvvəlki məlumatlarla yeni məlumatların inteqrasiya olunmasını təmin edir (anlamlı öyrənmə);

❖ böyük bir mövzuya və ya bölməyə ümumi bir baxış təmin edir;

❖ yaddaşın inkişaf etdirilməsində çox mühüm vasitədir;

❖ mürəkkəb tədris materialının öyrədilməsini, qavranmasını və məlumatın hafizəyə yığılmasını, yaddaşda daha asan və uzun müddət qalmasını təmin edir;

❖ məlumatın sonradan xatırlanmasını asanlaşdırır;

❖ təhsilalanın öyrədilən mövzunun mahiyyətini anlayıb, anlamadığına nəzarət etməyə imkan verir;

❖ səhvlərin təyin olunmasına və aradan qaldırılmasına kömək edir;

❖ əsas fikirlər, anlayışlar vizual ifadə edilir;

❖ asan və səmərəli öyrənmə şəraiti təmin edir;

❖ öyrənilməsi, öyrədilməsi və istifadə edilməsi asandır;
❖ təhsilalanın mənimsəmə səviyyəsi gözlə görülən şəkildə artırır;
❖ istər müəllimlər, istərsə də təhsilalanlar tərəfindən yaradıldığı, onların xüsusi fikirlərini əks etdirdikləri üçün eyni mövzu, ya da eyni anlayışla bağlı fərqli şəkildə çəkilə və mövzuya görə dəyişik strukturlarda ola bilir;
❖ fərqli öyrənmə şəkillərini və təhsilalanlar arasındakı fərdi fərqlilikləri ehtiva edir;
❖ təhsilalan mərkəzli təlim metodu olub, təhsilalanı fəal fəaliyyətə təhrik edir; təhsilalanla müəllim arasında qarşılıqlı müzakirə edilərək, bir xəritənin hazırlanması səmərəli əməkdaşlığı təmin edir;
❖ Yekun təkrarda və qiymətləndirilmədə asanlıqla istifadə edilə bilər;
❖ məlumatların müəyyən bir sistem içində mütəşəkkil öyrənilməsini təmin edir;
❖ söz və simvollardan birlikdə istifadə edilməsi, xəyal gücünü hərəkətə gətirdiyi üçün, təhsilalanların yaradıcı gücü, yaradıcılıqları da, inkişaf edir;
❖ yeni və yaradıcı potensialın aşkar edilməsini təmin edir;
❖ yeni məlumatların qeyd edilməsi vərdiş halına gətirilir;
❖ məlumat və anlayışları planlaşdırarkən, ya da bir kitabdan əhəmiyyətli yerləri qeyd edərkən, kağıza ehtiyac qalmır;
❖ daha çox müəllim tərəfindən və yuxarı sinifdə oxuyan təhsilalanlar tərəfindən istifadə edilməsi təklif edilir (3, 4, 5, 6, 7, 8, 9, 10).

Zehni xəritələr və anlayış xəritələrinin hazırlanması üçün ümumi qaydalar:

➢ iki ölçülüdür;
➢ bir mərkəzə əsas fikir yazılır, sonra isə bütün istiqamətlərə doğru xətlər çəkilərək, əsas fikir inkişaf etdirilir;
➢ rəng və səkildən istifadə olunur;
➢ mərkəzi obraz üçün ən azı üç rəngdən istifadə etmək kifayətdir;
➢ əsas sözləri vurğulamaq üçün ən sevilən rənglərin istifadə edilməsi faydalıdır;
➢ fikirlər oxlar (üfüqi, şaquli, çarpaz) və dairələr vasitəsi ilə birləsdirilir. Bu zaman oxların istiqamətləri mütləq müəyyən olunmalıdır;
➢ fikirlər oxlar vasitəsi ilə bir-birinə bağlanaraq, yeni məlumatların anlaşılmasını və xatırlanmasını təmin edir;
➢ mərkəzi obrazdan yayılan, sxemləri yaradan xətlərin üstünə sözlər yazılmalıdır;
➢ uzun cümlələr əvəzinə, ən çox üç kəlmədən ibarət açar sözlərdən istifadə olunur;
➢ hər bir xətt üçün tək bir söz istifadə edilməli və xətlərin uzunluğu sözlərin uzunluğuna görə tənzimlənməlidir. Çəkilən xətlər mümkün qədər üfüqi edilməlidir. Belə olduğu halda, xətlərin üstlərindəki sözlərin oxunması asanlaşır;
➢ xətlərin qalınlığı əhəmiyyətlərinə görə nizamlanmalıdır. Xəritənin mərkəzinə yaxınlaşdıqca xətlər qalınlaşmalıdır. Xətlər bir-birilə birləşdirilməlidir;
➢ sözlər böyük hərflərlə yazılmalı və böyüklüyü əhəmiyyətinə görə nizamlanmalıdır;
➢ sözlərin düz olması məqsədəuyğundur. Beləliklə, onlar daha asan oxunar;
➢ hər anlayış, fikir xəritədə yalnızca bir dəfə yer almalıdır;
➢ fakt və nümunələrin konkretləşdirilməsindən, qanunlar və anlayışlararası əlaqələrdən istifadə oluna bilməz;
➢ xəritələr sadə və ya mürəkkəb hazırlana bilər;
➢ xəritə lazım olduğundan artıq şişirdilməməlidir. Xəritə başlanğıcda sadə tutulmalıdır. Xəritə çox sayda anlayışı, əlaqəni və qanunu ehtiva edirsə, əvvəl ən əhəmiyyətli elementləri göstərən bir ümumi xəritə, sonra ümumi xəritənin ayrı-ayrı hissələrini ətraflı göstərən xüsusi xəritələr hazırlanmalıdır (4, 5, 6, 7, 8, 9, 11, 12).

Nəticə. İctimai fənlər, texniki fənlər və digər fənlərin tədrisi zamanı mürəkkəb mövzularda anlayışların və məlumatların bir-biriylə əlaqələndirilməsi, təhsilalanların yaradıcılığının

inkişaf etdirilməsi, fərdi nailiyyətlərin və özünə inamın artması işində bu resursun faydaları çoxdur. Bu faydalardan bəlkə də, ən əhəmiyyətlisi məlumatın qısa zamanda və tam şəkildə ifadə edilməsidir. Müəllimlərin bu metoddan tədris prosesində sistemli şəkildə istifadə etməsi təhsilalanların diqqətinin, marağının artmasına, dərsdə daha fəal iştirakına və təhsilin daha keyfiyyətli olmasına öz töhfəsini verə bilər.

Təəssüf ki, dünyanın qabaqcıl ölkələrinin təhsil sistemində əhəmiyyətli yer tutan bu metod ölkəmizdə hələ tam istifadə sahəsinə malik deyil və çox da elə tanınmır. Hazırda belə faydalı bir tədris resursunun ölkəmizdə tanıdılması yalnız təhsilalanlar üçün deyil, eyni zamanda öyrədənlər üçün də, böyük əhəmiyyətə malikdir.

Problemin aktuallığı. Respublikamızda təhsillə bağlı qəbul olunan bütün dövlət əhəmiyyətli sənədlərdə təhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsi, məzmunun yenilənməsi, dövrün tələblərinə uyğunlaşdırılması, bu işdə müasir tədris avadanlıqları və resursların əhəmiyyəti aydın ifadə olunmuşdur. Bu baxımdan iki ölçülü vizual resurslar: zehni xəritələr və anlayış xəritələri ilə bağlı daha geniş məlumat verilməsi, müəllimlərin bu sahədə maarifləndirilməsi günümüzdə aktual məsələlərdən biri kimi diqqəti cəlb edir**.** İki ölçülü vizual resurslar: zehni xəritələr və anlayış xəritələri haqqında geniş məlumatı olan müəllimlər təlim prosesində ondan istifadə etməklə, təlim və tədris prosesini təkmilləşdirə və effektliliyini artıra bilər, eyni zamanda təhsilalanlarda biliyi müstəqil əldə etmə bacarığının formalaşdırılması işinə öz töhfəsini verə bilər.

Problemin elmi yeniliyi: Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki**,** keyfiyyətli təhsil xidmətlərinin təqdim olunmasında iki ölçülü vizual resurslar: zehni xəritələr, anlayış xəritələri və məlumat xəritələri çox güclü bir vasitədir. Məqalədə təlim prosesinin daha səmərəli olması, təhsilalanların müstəqil, yaradıcı fəaliyyətə istiqamətləndirilməsində müəllimə köməkçi olan iki ölçülü vizual resurslar: zehni xəritələr və anlayış xəritələrindən daha məqsədəuyğun, didaktik material kimi istifadə etmək haqqında fikirlər irəli sürülmüşdür.

Problemin praktik əhəmiyyəti: iki ölçülü vizual resurslar: zehni xəritələr və anlayış xəritələri haqqında tədqiqatların nəticəsinə əsasən qeyd etmək lazımdır ki, müəllimlərin təlim prosesində iki ölçülü vizual resurslar: zehni xəritələr və anlayış xəritələrindən istifadə etməsi təlim prosesini zənginləşdirir və onu zövqlü hala gətirir, mövzuların öyrənilməsini asanlaşdırır, təlimim keyfiyyətinin yüksəlməsinə öz töhfəsini verir. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici təhsilalanların təlim nəticələri olduğu üçün, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də, keyfiyyəti üzə çıxaran ən etibarlı metoddur. Bu baxımdan, iki ölçülü vizual resurslar: zehni xəritələr və anlayış xəritələri bir çox qiymətləndirmə işlərinə uyğun vasitədir.

Bu məqalədə təhsilin keyfiyyətini artırmaq üçün zehni xəritələr və anlayış xəritələrinin praktik və nəzəri məsələləri ilə bağlı cəhətlərə toxunulur, müvafiq təkliflər verilir.

Ədəbiyyat

1. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi üzrə Fəaliyyət Planı”// http:e-qanun. az.

2. “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya haqqında”// http://president.az/articles/11312.

3. Kalaycı, N. İki Boyutlu Görsel Öğrenme ve Öğretme Araçları. Bolu: 10. Ulusal Eğitim Bilimleri Kongresi. Abant İzzet Baysal Üniversitesi. 2001. Online

4. Buzan,T., Aklın Gücü. İstanbul: Epsilon Yayıncılık. 2003. http://studenttabletpc.blogs.com/the_student_tablet_pc/files/mind_mapping_overview.pdf.onlayn. İstifadə tarixi 13 mart 2015.

5. Smith, R. L. The Knowledge Mapping Application: Ford’s Robust Engineering Process. Journal of İnnovative Management. 5, 1999. Online.

6. Sevinç E. Free Mind: Özgür Yazılım Dünyasından Zihin Özgürlestirme Hareketi. İstanbul: Bilgi Üniversitesi. EMBA Yazılım Gelistirme. 2005. Online.

7. Balım A.,G., Ertuğ E., Güliz A., Zihin Haritalama Tekniginin fenn ve Teknoloji ögretimindeki yeri. Avrupa Birliği ile Bütünleşme Sürecinde İlköğretim Eğitimi Sempozyumu. İzmir, 15 Nisan 2006. agunay.balim@deu.edu.tr, götürmə tarixi. 10 noyabr, 2016. Online.

8. Derelioğlu, Y., Hayat Bilgisi ve Sosyal Bilgiler Öğretimi Dersinde Akıl Haritasının Kullanımı. İstanbul: Eğitimde İyi Örnekler Konferansı, 2005.

9.Brightman,J., Mapping Methods for Qualitative Data Structuring. London: IOE Conference? 2003. Online.

10.Məmmədova N.I., Humanitar fənlər üzrə tədris resurslarının məzmununa müasir yanaşma. // ARTPİ-nin Elmi əsərləri, cild 83, № 2, 2016.

11. Cəbrayılov İ.H. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2013.

Н.Мамедова

Практические и теоретические вопросы двумерных визуальных ресурсов: о ментальных (умственных) карт и концепциионных карт

Резюме

Двумерные визуализации ресурсов: ментальные (умственные) карты и концепциионные карты отличаются многими преимуществами по сравнению с традиционным обучением; экономит время, позволяет сосредоточиться на важных вопросах деятельности; обеспечивает максимальное использование мозга и творческого потенциала; увеличивает мощность запоминания, учащийся в процессе обучения уделяет внимание индивидуальному различию. В связи с этим, визуальные ресурсы предоставляют дополнительную информацию: о информированности учителей, о важности повышения дополнительной информации, дача ментальных (умственных) карт и концепциионных карт.

В этой статье, принимаются во внимание нужды и потребности общества, обеспечивающие развитие образования с точки зрения содержания и сущности ментальных карт и концепциионных карт, при подготовке соответствующих предложений представляются некоторые моменты и вопросы, связанные с этими областями.

N.Mammadova

Two-dimensional visual resources: Practical and theoretical problems of the mental and conception maps

Summary

The two-dimensional visual resources: mind, concept and information maps differ with many advantages from traditional learning: saves time, allows you to focus on the important issues of activity, ensures maximum use of the brain and creativity, increases the power of remembrance, takes into consideration of every student's individual differences. From this point of view for more information according to the mind and concept maps, awareness of the teachers in this area increases its importance day by day.

In this article there has been emphasized content, essence of mind and concept maps and direction of this activity taking into account the needs and requirements of society in order to ensure the development of education. Here is stressed specifications that should be take into consideration during the preparation these maps and is given relevant offers.

Rəyçilər: ped.e.d., prof. İ.Cəbrayılov,
ped.f.d., dos. T.S.Paşayev

Redaksiyaya daxil olub: 15.02.2017

T.M.MƏMMƏDOVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

AZƏRBAYCAN MİLLİ HƏRBİ-VƏTƏNPƏRVƏRLİYİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

Açar sözlər: *hərbi-vətənpərvərlik tərbiyəsi, təlim, milli tərbiyə, Azərbaycanın keçid dövrləri, milli qurtuluş*

Ключевые слова: *военно-патриотическое воспитание, обучения, национальное воспитание, переходной период Азербайджана, национальное освобождение*

Key words: *military-patriotism upbringing, training, national upbringing, of Azerbaijan times of to passage, national salvation*

Müstəqil Azərbaycanımız istiqlaliyyət qazanana qədər keçməkeşli dövrlər yaşamışdır. 1920-1922-ci illər həm Azərbaycan, həm də Türkiyə üçün son dərəcə ağır və məsuliyyətli keçid dövrü idi. Həmin dövrdə Türkiyə xalqının keçmiş Antanta dövlətlərinə, Yunanıstana və erməni-daşnaklara qarşı milli qurtuluş mübarəzəsi Mustafa Kamal paşanın rəhbərliyi altında davam edirdi. Azərbaycan isə Sovet Rusiyasının XI ordusu tərəfindən işğal edilmişdi.

Azərbaycanda sovet üsul-idarəsi Rusiyanın XI ordusunun gücü ilə yaradıldıqda Moskvada Rusiya dövləti Xarici İşlər Naziriliyi sistemində məsul vəzifədə işləyən Nəriman Nərimanov V.İ.Leninin təklifi ilə Azərbaycana rəhbərliyə göndərildi. N.Nərimanov bundan əvvəl 1918-ci ilə qədər Azərbaycanda siyasi fəaliyyətlə geniş məşğul olmuşdu.

Nəriman Nərimanovun Azərbaycana rəhbərliyə başlaması ilə əlaqədar olaraq "Kommunist" qəzeti 1920-ci il 18 may tarixli sayında yazmışdı: "... onun adı Azərbaycan fəhlələrinə və kəndlilərinə yaxşıca məlumdur. Böyük biliyə və geniş məlumata malik olub, Şərq işlərinə yaxşıca bələd olan Nərimanov yoldaş müsəlman (Azərbaycan) Sovet Sosialist Respublikasının rəhbəri sifətilə yeni vəzifədə şübhəsiz ki, işə çox xeyir verəcəkdir" (3).

Azərbaycan Sovet Respublikası hökümətinə başçılığa 1920-ci ilin may ayının ortalarında başlamış Nəriman Nərimanovun fəaliyyətinə burada yerləşdirilmiş XI ordu komandanlıq və Bakıda özlərinə yuva salmış erməni-daşnak qüvvələr ciddi maneçiliklər edir və müqavimət göstərirdilər. 1921-ci ilin iyulun əvvəlində Sergey Kirovun (Moskva tərəfindən) Azərbaycanda Kommunist təşkilatına rəhbər göndərilməsi ilə Nəriman Nərimanova qarşı müqavimətlər daha da artdı.

Nəriman Nərimanovun 1920-ci il 28 may tarixli dekreti ilə Azərbaycan müdafiə şurası yaradılmışdı. Lakin bu qərara əməl edilməsinə müqavimət var idi. Ordu yaradılması haqqında bundan əvvəl qəbul edilmiş dekretə qarşı müqavimət isə daha çox idi.

1920-ci ilin noyabrında Ermənistan da Rusiyanın XI ordusunun gücü ilə sovetləşdirildikdə Azərbaycanın Zəngəzur və Göyçə mahalları Rusiya tərəfindən Ermənistana birləşdirildi. N.Nərimanov Leninə 1920-ci ilin iyununda və bundan sonra da göndərdiyi teleqramlarda qətiyyətlə yazırdı ki, Azərbaycanın "ərazilərinin bir hissəsinin ermənilərə verilməsi müsəlman kütlələri tərəfindən Sovet hakimiyyətinin xəyanəti, ermənipərəstliyi" (1, s.31) kimi başa düşüləcəkdir.

1921-ci ilin 26 aprelində N.Nərimanov Mustafa Kamal paşaya göndərdiyi teleqramda onu və Türkiyə xalqını Antanta dövlətləri silahlı qüvvələri üzərində tarixi qələbələrə görə təbrik edərək yazmışdı. "Azərbaycan höküməti inqilabi ruhlu türk xalqının onun sərbəstliyini məhv etmək istəyən Antanta dövlətlərinə qarşı müqəddəs müharibəyə qalxdığı həmin günlərin sevincli anlarını təbrik edir və Sizin sevincinizə şərik olduğunu bildirir... Türk xalqı qəhrə-

manlıq mübarizəsinin ikinci ilində onun sərbəstliyini məhv etmək istəyən Antanta dövlətləri üzərində böyük qələbələr qazanmışdır...” (4).

1921-ci ilin 18 oktyabrında Ankarada Azərbaycan Şura Cümhuriyyətinin səlahiyyətli nümayəndəliyinin binasının açılışı münasibətilə səfir İbrahim Əbilov Mustafa Kamal paşanı bu açılışa dəvət etmişdi və Azərbaycan bayrağının səfirliyinin binası üstündə qaldırılması şərəfini ifa etməyi ondan xahiş etmişdi.

Səfirliyin binasının istifadəyə verilməsi münasibətilə keçirilmiş təntənəli tədbirdəki çıxışında Mustafa Kamal paşa demişdi: “Azərbaycan və Türkiyə arasında olan qardaşlıq əlaqələri və bu əlaqələrin səmimiliyi özü-özlüyündə qiymətli olmaqla yanaşı həm də ona görə qiymətlidir ki, Azərbaycan vasitəsilə biz digər dost ölkələrlə əlaqələrimizi həyata keçiririk”.

M.K.Atatürk müasir, dünyəvi Türkiyə dövlətinin yaradıcısıdır. Bu dövlət onun məşhur 6 prinsipi (respublikaçılıq, millətçilik, xalqçılıq, laisizm, etatizm, inqilabçılıq) əsasında təşəkkül tapmış və indi də dünya miqyasında güclü və sayılan dövlətlərdən biridir. Atatürk xarici siyasətdə “yurdda sülh, cahanda sülh” şüarı ilə çıxış etmişdir.

Böyük öndər M.K.Atatürk Azərbaycan xalqına müstəqilliyi uğrunda mübarizədə həmişə dayaq olmuş, lazım gəldikdə köməyini əsirgəməmişdir. Türkiyənin xarici siyasət və hərbi xidmət məmurlarına verdiyi göstərişlərin birində o, demişdir: “Azərbaycanın tamamilə və həqiqətən müstəqil dövlət halına düşməsinin tərəfdarıyıq və bunun üçün ... təşəbbüs göstəriləcək”dir (5, s.68).

Türkiyə dövlətinin inadlı təklifləri nəticəsində Türkiyə və Rusiya arasında 1921-ci ildə bağlanmış Qars müqaviləsində Naxçıvanın Azərbaycana mənsubiyyəti haqqında ayrıca bir maddə yazılmışdır və sonrakı hadisələr göstərdi ki, bu təklif Azərbaycanın dövlət müstəqilliyi istiqamətində atılmış dahiyanə uzaqgörənlikdir.

Eyni xidmətləri Azərbaycan xalqının müstəqilliyi naminə çox ağır bir şəraitdə Nərimanov etmişdir.

1921-ci ilin yayında Türkiyə hökuməti başçısının nümayəndəsi Rza Nur Moskvaya gedərkən yolüstü bir neçə gün N.Nərimanovun şəxsi qonağı olmuşdu, və o, öz xatirələrində yazır ki, doktor Nəriman Nərimanov öz xalqını səmimi sevən və son dərəcə mehriban şəxsiyyətdir. Söhbətlərimizin birində o, dedi: “Biz türkük. Milli hisslərlə yaşayırıq”.

Nəriman Nərimanovun Azərbaycanda fəaliyyət dövrünün iştirakçıları onun Azərbaycana qayıdışını yüksək qiymətləndirmişlər.

Azərbaycan Respublikası Mərkəzi İcraiyyə Komitəsi sədri Səməd ağa Ağamalı oğlu sonralar yazmışdı: “Respublika daxilində etdiyi səfərlərində N.Nərimanov yoldaşı müşaiyət etdiyim vaxt Azərbaycanın zəhmətkeş əhalisi arasında onun nə qədər böyük nüfuza və təsirə malik olduğunu öz gözlərimlə görüb inandım...” (6, s.14).

Görkəmli mühacir, hüquqşünas alim Əhməd bəy Ağayev Azərbaycan hökuməti başçısı N.Nərimanova 1922-ci ilin mayında İtaliyanın Malta adasından göndərdiyi məktubunda yazmışdı: “Sizin kimi doğru və səmimi bir şəxsin bütün türk aləminin və xüsusən, türk mühitinin keçirməkdə olduğu fərqi böhran zamanı Azərbaycanın başında olması bütün türk aləmi üçün xeyirli bir əlamətdir” (7, s.78-89).

1922-ci ilin aprel-mayında çağrılmış Beynəlxalq Genuya konfransında N.Nərimanov iştirak etmiş, Bakı nefti və tərksilah məsələləri üzrə konfransda çıxış etmişdir. Həmin dövrdə İngiltərə və Hollandiya dövlətləri Bakı neftinin istehsalını icarəyə götürmək istəyirdilər və iqtisadiyyatı zəif olan Sovet Rusiyası bu icarədən müəyyən iqtisadi gəlir almaq məqsədilə bu təklifə müsbət yanaşırdı. N.Nərimanov konfransda çıxışında Bakı neftinin Azərbaycan xalqına mənsub olduğunu əsaslandırmışdı və bununla da Bakı neftinin icarəsi haqqında təkliflər rədd edilmişdi.

Vahid Azərbaycan 175 il bundan əvvəl (1828) ikiyə bölündükdən sonra, onun İran dövləti tərəfindən zəbt edilmiş Cənubi Azərbaycan hissəsindən fərqli olaraq Şimali Azərbaycan

XX əsr çərçivəsində üç siyasi qurum şəraitində (Çar Rusiyası, Azərbaycan Xalq Cümhuriyyəti, Sovet siyasi sistemi) yaşadı və dördüncü dövrünü müstəqil dövlət statusunda yaşayır.

XX əsr Azərbaycanın yaşadığı bu dörd siyasi qurumdan ən uzunmüddətlisi (70 il) Sovet siyasi sistemi olmuşdur.

Ədəbiyyat

1. Əhmədov H.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı, Təhsil, 2015.
2. Əliyev R.İ. Mentalitet. Bakı, Təhsil, 2011.
3. "Kommunist" qəzeti, 18 may, 1920-ci il, №14.
4. "Azərbaycan" qəzeti, 14 aprel 2002.
5. Atatürkün xarici milli siyasəti. 1919-1920-ci illər. Ankara, 1981, s.67-94.
6. Ağamalı oğlu. Yol. N.Nərimanov haqqında xatirələrim. ("Pir" əsərinin 1926-cı ildə Moskvada rus dilində nəşri), 49 s.
7. İ.Z.İsmayılov. Azərbaycanda dövlətçilik fikri oçerkləri. B., 1996, s.34-140.

Т.М.Мамедова

Этапы развития Азербайджанско-национального, военно-патриотического воспитания

Резюме

В статье исследуется проблема военно-патриотического воспитания, устанавливаются разные этапы развития: национальное, военно-патриотическое воспитание в Азербайджане, возможности усовершенствования военно-патриотического воспитания в школе.

Статья полезна в работе военных руководителей и исследователей.

T.M.Mammadova

The stages of development of patriotism in azerbaijan national military

Summary

The article examines the problem of military-patriotic education of students, opportunities for improvement establishes military-technical knowledge for teaching other subjects in high school.

The article is useful in the work of military leaders, researchers.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 30.12.2016

T.B.MƏMMƏDOVA
riyaziyyat üzrə fəlsəfə doktoru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

İBTİDAİ SİNİFLƏRDƏ HƏNDƏSİ FİQURLARIN QURULMASI BACARIQLARININ FORMALAŞDIRILMASI

Açar sözlər: *ibtidai sinif, həndəsi fiqur, qurma məsələləri*
Ключевые слова: *начальные классы, геометрические фигуры, задачи на построение*
Key words: *elementary school, geometric shapes, problems on construction*

Həndəsə riyazi təhsilin fəza təsəvvürləri yaradan, inkişaf etdirən və praktik bacarıqlar formalaşdıran zəruri hissəsidir. Həndəsə elementlərinin öyrədilməsi - əsasən də praktik iş, yəni həndəsi fiqurların ölçülməsi, çəkilməsi ibtidai sinif riyaziyyat kursunda xüsusi yer tutur. İbtidai məktəbdə həndəsi materialın öyrədilməsində əsas məqsəd uşaqlarda nöqtə, düz xətt, çoxbucaqlıların müxtəlif növləri, düzbucaqlı, kvadrat və s. kimi həndəsi fiqurlar barədə aydın təsəvvürlərin formalaşdırılmasıdır. Növbəti mərhələ ölçü alətlərindən istifadə etməklə həndəsi fiqurların qurulması və ölçülməsi kimi praktik bacarıqların inkişaf etdirilməsidir. Şagird həmçinin olçü alətləri olmadan da gözəyarı olçməyi, əllə çəkməyi bacarmalıdır

Dərsdə verilən həndəsi məzmunlu tapşırıqlar və onlarla iş metodları uşaqlarda əyani fəza təsəvvürlərini, müşahidə və müqayisə etmək, ümumiləşdirmək və mücərrədləşdirmək bacarığını inkişaf etdirməyə kömək etməlidir.

Bu məqsədlərə nail olmaq üçün praktiki tapşırıqlardan istifadə metodu xüsusi əhəmiyyət kəsb edir. Praktiki tapşırıqlar adətən hər hansı bölmə və ya mövzunun öyrənilməsindən sonra həyata keçirilir və ümumiləşdirici xarakter daşıyır: vərəqi qatlama, vərəqdə həndəsi fiqurların çəkilməsi və s. Eyni zamanda, rəsm çəkmək bacarıqlarının formalaşdırılmasına xüsusi diqqət yetirilir.

İbtidai təhsil proqramında uşaqların nə zaman xətkeşdən, üçbucaqlı xətkeşdən istifadə edəcəkləri, bu və digər vasitələrdən istifadə etməklə bəzi sadə qurma və ölçmələri yerinə yetirəcəkləri göstərilir.

Ümumtəhsil məktəblərinin I-IV sinif kurrikulumunda hər ilin sonunda şagirdlərin əldə edəcəkləri bilik və bacarıqlar göstərilir. Bunlar nöqtə, düz xətt, parça, bucaq, sınıq xətt, üçbucaq, düzbucaqlı, kvadrat, şüa, dördbucaqlı, diaqonal, parallel və kəsişən düz xətlər və s. anlayışları, onları ayırd etmək, çəkmək, ölçmək bacarığıdır.

İbtidai sinifdə həndəsi materialın öyrədilməsi həndəsi fiqurlar barədə təsəvvürlərin toplanmaşdırır, fəza təsəvvürlərinin, məntiqi təfəkkürü, praktik bacarıq və vərdişləri inkişaf etdirir, şagirdləri gələcəkdə həndəsəni öyrənməyə hazırlayır. Həndəsi materialın öyrənilməsi aşağıdakı sxem üzrə aparılır:

Fiqurun adı → fiqurun tanınması → fiqurun qurulması → fiqurun xassələrinin öyrənilməsi.

Hər bir mərhələnin öyrənilməsində kompüter texnologiyalarından istifadə etmək mümkündür. Müxtəlif qrafik redaktorların köməyi ilə fiqurları çəkib əyani şəkildə göstərmək, multimediya proqramlarının vasitəsilə animasiya effektləri tətbiq edərək həndəsi fiqurların qurulma qaydasını öyrətmək olar.

İbtidai siniflərdə uşaqlar oyundan ciddi dərs fəaliyyətinə keçir. Bu keçid çox zaman uşaqlarda psixoloji problemlər yaradır. KT-nın imkanlarından istifadə bu problemi aradan götürməyə kömək edir. Ənənəvi dərslədə əldə etdiyi bilik, baçarıq və vərdişləri dərsdənkənar heç yerdə tətbiq edə bilməyən şagird kompüterdə oyunlar şəklində tətbiq edə bilir. Aşağı sinif

şagirdləri çox emosional olduğundan dərslərdə KT-dan istifadə həm də emosional gərginliyi aradan qaldırmağa kömək edir.

Ibtidai sinif həndəsə materialı propedevtik xarakter daşıdığından bu mərhələdə kompüterdən əyani vəsaitlərin hazırlanması və nümayişi üçün istifadə edilir.

Qurma bacarığının formalaşması üçün şagird xətkeş və qələmdən istifadə etmək vərdişlərinə yiyələnməlidir. Bunun üçün isə dərslikdə, iş dəftərində, kompüterin ekranında rast gəlinən fiqurların dəftərdə çəkilməsi məqsədəuyğundur.

Ilk günlərdən uşaqlar tərifi olmayan əsas anlayışlarla nöqtə, düz və əyri xəttlə tanış olurlar. Onları cəkməyi, adlandırmağı öyrənirlər. Müəllımın göstərişi ilə düz xətt üzərində iki nöqtə qeyd edərək parşa, daha sonra sınıq xətt anlayışı ilə tanış olurlar. Sınıq xəttin başlangıc və sonunu birləşdirərək qapalı sınıq xətt alırlar. Tapşırıqların köməyi ilə qapalı sınıq xətltə çoxbucaqlı arasında əlaqə yaradılır və daha sonra sınıq xəttin ölçülməsi ilə tanışlıq başlanır.

Ilk onluğu oyrənərkən uşaqlar həndəsi fiqurlardan didaktik material kimi istifadə edirlər: sayırlar, hesablayırlar, müqayisə edirlər və s. növbəti mərhələdə çoxbucaqlıların növləri öyrənilir: tərəf, bucaq, təpə anlayışları möhkəmləndirilir. Həndəsi fiqurlar və onların xassəlri ilə tanişlıq qurma məsələlərinin köməyi ilə möhkəmləndirilir. Fiqurları qurarkən şagirdlərdə certyoj alətlərindən istifadə etmək, certyoj çəkmək vərdişi yaranır. Adətən qurma məsələlərinin həlli 4 mərhələyə bölünür: analiz, qurma, isbat vətədqiqat. Ibtidai siniflərdə bu mərhələlərdənqabarıq şəkildə istifadə olunmasa da müəllim uşaqları bu istoqamətdə işləməyə yönəltməlidir: fiqur necə yerləşir, neçə parca çəkilməlidir, düz bucaq qurulubsa düz bucaq modelinin köməyi ilə düz qurulduğu yoxlanılır (yəni düz qurulduğu isbat olunur). Həndəsi materialın öyrədilməsi üçün ən yaxşı metod praktik metodlar əsasən də praktik tapşırıqların yerinə yetirilməsidir. Uşaqlar fiqurları kağızdan kəsməyi, plastilinlə, çöplərlə və s. düzəldə bilməyi bacarmalıdır. Bu zaman fiqurların oxşar və fərqli cəhətləri araşdırılmalıdır. Həndəsi fiqurların xassələrini şagirdlər sərbəst olaraq belə tapşırıqları yerinə yetirərək təcrübədən əldə etməlidirlər.

Ibtidai siniflərdə həndəsədən təklif olunan məsələlərdə:

həndəsi fiqurlardan sayma obyekti kimi istifadə olunarsa- belə məsələlər adətən fiqurların adları, onları tanimaq və fərqləndirə bilmək bacarığı formalaşır;

həndəsi ölçmələr tələb olunursa-bu onlarda parçanın uzunluğunu, sahəni ölçə bilmək qabiliyyətini formalaşır;

hesablama tələb edilirsə-belə məsələlər həll etmək bacarığını təkmilləşir;

qurma işləri lazım gəlirsə-xətkeş, və pərgarın köməyi ilə həndəsi fiqurların damalı və ağ vərəqdə qura bilmək bacarığı formalaşır;

fiqurları təsnif etmək qabiliyyəti yaranır;

fiqurların hissələrə, o cümlədən, bərabər hissələrə bölünməsi, verilən fiqurlardan yeni fiqur yaradılması bacarığı formalaşır.

Həndəsi qurmalar yerinə yetirilərkən tələblər oxu və yazmanı öyrədərkən olduğu kimi olmalıdır, yəni certyojların yüksək keyfiyyətlə yerinə yetirilməsi tələb olunmalıdır. Qurma işləri zamanı şagirdlərdə nə etdiyini izah etmə, termin və simvollardan istifadə etmə qabiliyyəti formalaşmalıdır.

Ədəbiyyat

1. Истомина Н.Б., «Наглядная геометрия» тетрадь по математике для 1кл., М.,2004.
2. Истомина Н.Б., «Наглядная геометрия» тетрадь по математике для 2 кл., М.,2004.
3. Истомина Н.Б., М., «Наглядная геометрия» тетрадь по математике для 3 кл., 2004.
4. Истомина Н.Б., «Наглядная геометрия» тетрадь по математике для 4 кл., М.,2004.
5. Минскин Е.М., «От игры к знаниям» М. «Просвещение»,1982.
6. Шаповалова О.Е., «Практикум по специальной психологии» Учебное пособие БГПИ, Биробиджан, 2000.

7. «Психолого-педагогическая диагностика и консультирование», Институт общегуманитарных исследований Секачев В., М., 2006.

8. Баданова Т.А. Методика формирования пространственного мышления учащихся при изучении геометрии на основе синергетического подхода: Автореферат диссертации на соискание ученой степени кандидата пед. наук 2009.

9. В.В.Прасолов Задачи по планиметрии. – 4-е изд., дополненное – М.: Изд-во Московского центра непрерывного математического образования, 2001. – 584 с.

10. Савин А.П. Метод геометрических мест /Факультативный курс по математике: Учебное пособие для 7-9 классов средней школы. Сост. И.Л. Никольская. – М.: Просвещение, с. 74.

Т.Б.Мамедова

Развитие навыков первичных геометрических фигур в начальных классах

Резюме

Статья посвящена формированию умений и навыков построения геометрических фигур. Автор предлагает, чтобы с первых уроков математики при использовании геометрических фигур ученики чертили их, сначало от руки, затем с помощью линейки.

T.B.Mammadova

Formation of skills of constructing geometric shapes in primary school

Summary

The article is devoted to formation of skills of constructing geometric shapes. The author suggests that the first lessons of mathematics by using geometrical figures features of their students, first by hand, then using a ruler.

Rəyçi: dos. X.T.Novruzova

Redaksiyaya daxil olub: 05.12.2016

Ü.R.MƏMMƏDOVA
E-mail: umhani@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdnində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
(Bakı şəh., İnşaatçılar pr.111)

TƏHSİL MÜƏSSİSƏSLƏRİNDƏ ÇALIŞAN MÜƏLLİMLƏRİN ETİK DAVRANIŞ QAYDALARINA DAİR MÜASİR YANAŞMALAR

***Açar sözlər**: pedaqoji etika, şəxsiyyətlərarası münasibət, pedaqoji əməkdaşlıq, mənəvi keyfiyyətlər, şagirdyönümlülük*
***Ключевые слова**: педагогическая этика, межличностные отношения, педагогическое сотрудничество, духовные черты характера, с ученической направленностью обучения*
***Key words**: pedagogical ethics, interpersonal relations, pedagogical cooperation, spiritual values, student-centered teaching*

İnsanları xoşbəxt edəcək yeganə
vasitə onları bir-birinə yaxınlaşdıran,
onları bir-birinə sevdirən, insanlığın
qarşılıqlı maddi və mənəvi ehtiyaclarını
təmin etməyə yönəlmiş hərəkət və enerjidir.
(Mustafa Kamal Atatürk)

Bu gün cəmiyyətin bütün sahələrində çalışan insanların bir-birilə düzgün münasibət qurmasına, düzgün davranış və ünsiyyət qurmaq mədəniyyətinə yiyələnməsinə çox böyük ehtiyacı vardır. Buna görə də cəmiyyət müasir təhsilin qarşısında ümumbəşəri dəyərlərə yiyələnən, intellektual, sosial və fiziki inkişaf səviyyəsinə malik olan, əmək fəaliyyəti prosesində şəxsiyyətlərarası münasibətləri düzgün quran, problemləri sərbəst həll edən şəxsiyyətin azad inkişaf məsələsini irəli sürür.

Təlim prosesində müasir yanaşmaları nəzərə alsaq tələbyönümlülük, şagirdyönümlülük, inteqrativlik, nəticəyönümlülük cəmiyyətdə özünü realizə edə biləcək, həyati bacarıqlara yiyələnən, problem qarşısında çıxış yolu axtarmağı bacaran, məntiqi düşüncəyə malik olan insanın formalaşmasına zəmin yaranır. Təlim-tərbiyə prosesində şagird şəxsiyyətinin ön plana çəkilməsi üçün istifadə olunan forma, üsul və vasitələr şagirdin tədqiqatçı kimi rolunu vurğulasa da, biz müəllimin öyrədici və istiqamətləndirici rolunu inkar etmirik.

Əksinə, bu gün təlim-tərbiyə prosesində müəllimin üzərinə düşən vəzifə daha məsuliyyətli daha çətindir. Çünki, müəllim təlim-tərbiyə prosesinin istiqamətləndirici vəzifəsində olmaqla, o həm dərsin gedişini maraqlı, rəngarəng qurmalı, həm də şagirdləri prosesinin subyekti rolunda olmasını təmin etməlidir. Ona görə də müəllim üzərinə düşən vəzifənin mahiyyətini dərindən anlamalı, yüksək erudusiyaya malik olmalı, müasir təlim texnologiyalarından düzgün istifadə etməyi bacarmalı, şagirdlər, tələbələr arasında müəyyən nüfuza malik olmalıdır. Müəllimin şagirdlər və tələbələr arasında nüfuzunun olması üçün onun pedaqoji texnikaya yiyələnməsi və pedaqoji etikaya sahib olması vacib şərtlərdən biridir. Çünki təlimin keyfiyyətinin artması birbaşa bu məsələlərin həlli ilə bağlıdır. Şagirdlərin əxlaqi keyfiyyətlərinin və mənəvi dəyərlərinin formalaşmasında müəllimin pedaqoji etikasının böyük əhəmiyyəti vardır.

Pedaqoji etika müəllimin təlim-tərbiyə prosesində yaranmış müəyyən vəziyyətə görə qısa vaxtda ən düzgün, məharətli hərəkət etməsi, ustalıqla və mərifətli üsul işlətməsidir [2]. Etika - (yunanca: əxlaq, ənənə mənasını verir). Aristotel qeyd edirdi ki, etika insanın materiya

ilə davranışı, materiyanın fəlsəfi üsullarla işləyən normativlər əsasında qiymətləndirilməsi, onun əsasında əldə edilən biliklərin praktikaya tətbiqini ifadə edir.

Pedaqoji etika müəllimin davranışında, ünsiyyətində, geyim tərzində, eləcə də daxili aləminin təzahüründə özünü göstərən mühüm bir amildir. Müəllimin pedaqoji etikası müəllim-şagird münasibətinin və pedaqoji əməkdaşlığın yaranmasında, ünsiyyətin müsbət emosiyalar üzərində qurulmasında və şagirdlərlə psixoloji əlaqələr yaradılmasında vacib rol oynayır (2, s.129).

Müasir təhsilin qaerşısında həyati bacarıqlara yiyələnən şəxsiyyəti formalaşdırmaq durursa, bu o deməkdir ki, gəncləri elmi biliklərlə silahlandırmaqla yanaşı, əldə olunan bilikləri həyata tətbiq etməyin yollarını da öyrətmək lazımdır. Təbii ki, bu zaman hansı peşə sahəsi olursa olsun, ilk öncə şəxsiyyətlərarası münasibətlərin düzgün qurulması gələcək işlərin müvəffəqiyyətli alınmasında vacib amildir. Şagirdlərdə və tələbələrdə gözəl əxlaqi keyfiyyətlərin formalaşması, etik davranış qaydalarına riayət olunması birbaşa müəllimin pedaqoji etikasının təsiridir. "İnsan insanın aynasıdır" - atalar sözü bu fikrin əsil təcəssümüdür (3, s.54-56). Pedaqoji etika müəllimin şagirdə məqsədyönlü təsir ölçüsü, ünsiyyətin məhsuldar tərzdə yaradılması bacarığıdır. Müəllim hər bir hərəkətində, davranışında, şagirdlərlə münasibətində dəqiq olmalı və müəyyən həddi aşmamalıdır. Ancaq təssüf ki, bu gün şagird və tələbələrin bəzi müəllimlərin qeyri-etik ünsiyyət formasından, davranış tərzindən çox narazılıqlarını bildirir və bu münasibəti öz şəxsiyyətlərinə hörmətsizlik və sayqısızlıq kimi görürlər. Belə vəziyyətlə rastlaşdıqda, bəzi hallarda uşaqlar hüquqlarını bilir və müəllimdən özlərinə qarşı hörmət və diqqət tələb edirlər, lakin, bəzən uşaqlar belə hallarda müəllimlərinin pis hərəkətlərindən özlərinə nümunə, örnək də götürürlər. Məsələn: Əgər ibtidai sinif müəllimi dərsdən iki alıb ağlayan şagirdinə: "Öl elə indi ağlaya-ağlaya qal görüm ikini necə düzəldəcəksən?", yaxud "Sən gələn dəfə dərsə cavab verməsən saçlarından tutub səni məktəbin həyətində sürüyəcəm"- deyə təlim keyfiyyətini yüksəltməyə çalışarsa cəmiyyət üçün hansı mənəvi dəyərlərlə insan şəxsiyyətini formalaşdırmaq istəyir?

Bu nümunədə pedaqoji etika anlayışına əməl etməyən müəllim ancaq şagirdlərlə deyil, eləcə də öz həmkərlarına qarşı münasibətdə də etik davranış qaydalarına bu cür əməl etməkdədir. Belə halda uşaq psixoloji gərginlikdən ya qorxaq, özgüvənini itirmiş, həmyaşıdlarından çəkingən olacaq, ya da müəlliminin "mədəni davranışı"nı özünə nümunə götürəcək, ətrafındakı insanlara qarşı, aqressiv, hörmətsiz ünsiyyət və davranış tərzini formalaşdıracadır.

Şagirdlərə hörmət etmək, qayğı göstərmək heç də tələbkarlığı azaltmır. Müəllim şagirdə, tələbəyə nə qədər hörmət edirsə, qayğı göstərirsə, bir o qədər də sevgi, istək qazanır.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli əmri ilə təsdiq edilmiş "Müəllimlərin etik davranış qaydaları"nda deyilir: "Müəllimlərin etik davranış qaydaları təhsilin bütün səviyyələrində peşə fəaliyyəti zamanı təhsilverənlərin ümumi davranışını və təhsil prosesi iştirakçıları ilə qarşılıqlı münasibətlərini tənzimləyən normalar məcmusundan ibarətdir". Müəllim, hər şeydən əvvəl, mənəvi cəhətdən yetkin insan olmalıdır [4]. Belə ki, pedaqoji prosesdə mənəvi münasibətlərin məzmunu cəmiyyətdə hökm sürən əxlaq qaydalarından, həm də onların müəllim şəxsiyyətində öz əksini tapan etik-mədəni davranış qaydalarından çox asılıdır. Yeni pedaqoji qaydalar müəllim şəxsiyyətinə verilən müasir tələblərdən irəli gəlmişdir.

Özünə, şagird və tələbələrinə hörmət edən, pedaqoji etika çərçivəsində onlarla davranan, əxlaqi, mənəvi normalara daim sadiq qalan müəllim bu gün ətrafda baş verən sosial-iqtisadi, mənəvi-siyasi hadisələrə də biganə qala bilməz. O, müntəzəm olaraq peşə və sənət sahəsində olan yenilikləri dərk edib, bu adın şərəf və ləyaqətini yüksək, mədəni vərdişlərə qovuşmaq səyi ilə birləşdirməyə də qadir olmalıdır. Odur ki, müəllim peşə fəaliyyətində daha mükəmməl və əzəli olan etik davranış prinsiplərini daim uca tutmaqla, bu yolda müasir və orjinal təsirə malik tələblər sisteminə ciddi məhəl qoymalı, vicdanlılıq, peşəkarlıq və fərdi məsuliyyətini, mədəni davranış etiketlərini, qərəzsizlik missiyasını, gender bərabərliyini və s. göstər-

məlidir. Pedaqoji münasibətlər çərçivəsində müəllimlərin etik davranış prinsipləri pedaqoji proses mərhələlərinin müvəffəqiyyətlə həyata keçirilməsindən çox asılıdır [4].

Təlim-tərbiyə prosesinin mədəni və inkişafetdirici səviyyədə olması üçün müəllimin kollektivlə münasibəti də əsas şərtlərdən biridir və bu məsələ qaydalar müddəasında xüsusilə qeyd olunur. "Müəllim həmkarlarının fəaliyyətini düzgün qiymətləndirməli, onların səhvlərinə, göz yummamalı, fikir və baxışlarına yönəlmiş tənqidləri təhqirə çevirməməlidir, tənqid əsaslandırılmış, dəqiq və xoşniyyətli olmalıdır".

Təbii ki, kollektivdə hörmət qazanmaq, nüfuza malik olmaq müəllimin öz şəxsiyyətinə qoyduğu dəyərdən də çox asılıdır. Elə bu məsələ etik qaydaların digər bir müddəasında da öz əksini tapır. "Müəllim əlavə təhsil və özünütəhsil yolu ilə ixtisasını, elmi-pedaqoji və peşəkarlıq səviyyəsini daim artırır, təhsilin nəticə və göstəriciləri üzrə araşdırma və təhlillər aparır, keyfiyyəti yüksəldilməsi və nailiyyətlərin əldə edilməsi üçün təkliflərə çıxış etməlidir".

Deməli, müəllim tələbələrinə cavab versə, daim öz üzərində işləsə, peşə biliyini artırsa, müasir təlim texnologiyalarından xəbərdar olsa, şagirdyönümlü təhsilin əsas istiqamətini anlaya bilsə, o, pedaqoji prosesdə təlim-tərbiyənin keyfiyyətinin artmasında və gələcək uğurların qazanılmasında böyük rol oynayacaqdır.

Ədəbiyyat

1. Ə.Ş.Həşimov, F.B.Sadıqov . Azərbaycan xalq pedaqogikası. Bakı, 1993.
2. A.Abbasov. Milli əxlaq və ailə etikası, Bakı, 2008.
3. M.İlyasov. Müəllimin pedaqoji ustalığı, Bakı, 2013.
4. www.anl.az (məqalə/az.müəllim/2014 sentyabr)

У.Р.Маммадова

Современные подходы этических норм поведения учителей в образовательных учреждениях

Резюме

В статье говорится об этических нормах поведения, о правильном формировании отношений между учителем и учеником, о педагогической культуре и о духовных чертах характера учителя в образовательно-воспитательном процессе. Особенно отмечается важность педагогической этики общения и педагогического сотрудничества учителя в формировании межличностных отношений.

U.R.Mammadova

Modern approaches to the ethical conduct of the teachers working at educational institutions

Summary

The article deals with the ethical conduct of teachers in teaching and training process, developing positive teacher-student relationship, professional culture and spiritual values. Teachers' ethics, ways of communicating with students and their professional culture are emphasized as the main factors in correct formation of interpersonal relations.

Rəyçi: p.f.d. İ.Həsənova

Redaksiyaya daxil olub: 28.11.2016

N.R.MİKAYILOV
E-mail: mikayilov.natig@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALMAN DİLİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN ŞİFAHİ NİTQ BACARIQ VƏ VƏRDİŞLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

Açar sözlər: *bacarıq, vərdiş, şifahi və yazılı nitq, müasir təlim proqramları*
Ключевые слова: *способность, навыки, устная и письменная речь, современные программы обучения*
Key words: *skill, habit, written and oral speech, modern sciences programs*

Məlum olduğu kimi, qloballaşma dövründə xarici dili öyrənən şagirdlərin əsas məqsədi həmin dildən ünsiyyət vasitəsi kimi istifadə etmək bacarığına yiyələnməkdir. Kommunikativ bacarıqların formalaşmasını təmin edən əsas şərtlərdən biri xarici dil tədrisinin, o cümlədən də xarici dil dərslərinin kommunikativ yönümlü şəkildə təşkil edilməsidir. Lakin təəssüflə qeyd edilməlidir ki, həm orta, həm də ali məktəb şəraitində keçirilən xarici dil dərslərində şagirdlərə və tələbələrə daha çox nəzəri xarakterli biliklər çatdırılır, tədris edilən xarici dilin praktik məqsədlərlə istifadə edilməsinə kifayət qədər diqqət yetililmir.

Xarici dil, o cümlədən də alman dili dərslərinin lazımi tərzdə təşkil edilməməsinin səbəblərindən biri müəllimlərin hazırlanması sisteminin müasir tələblərə uyğun olmamasıdır. Təcrübə onu göstərir ki, çox vaxt dili tədris edən müəllimlər özlərini kommunikativ yönümlü tədrisin tərəfdarları kimi təqdim edərək, əslində kommunikativ yanaşmanın tətbiq edilməsinə heç də meylli deyillər. Bu da, ilk növbədə, onlarda ixtisas dili olan xarici dildə yaradıcılıq qabiliyyətinin və onun əsasını təşkil edən linqvistik, diskursiv, sosiomədəni və strateji kompotensiyaların formalaşması səviyyəsinin irəli sürülən kommunikativ məqsədlərə uyğun olmadığından irəli gəlir.

Müasir dövrün tələblərinə uyğun olaraq müəllim şagirdlər üçün yalnız bilik mənbəyi deyil, onları tədris prosesinə fəal və təşəbbüskar iştirakçı qismində cəlb etməyi bacaran, tədris etdiyi xarici dildə yüksək səviyyədə yaradıcılıq qabiliyyətinə malik olan, şagirdlərin fəaliyyətini düzgün şəkildə istiqamətləndirən və tədris prosesini idarə edən bir şəxs kimi formalaşdırılmalıdır (2, s.46).

Auditoriyada yerinə yetirdiyi vəzifə və rolların bəzən köklü şəkildə dəyişməsi avtoritar model üzərində qurulmuş tədris şəraitində fəaliyyət göstərən xarici dil müəlliminin qarşısında bir sıra problemlər yaradır. Son illərdə nəşr edilmiş metodiki ədəbiyyatda xarici dildə, o cümlədən alman dilində yaradıcılıq fəaliyyətinin şagirdlərdə inkişaf etdirilməsi probleminə dəfələrlə müraciət edilmişdir. S.Şatilov, K.Qrin, M.Makkarti, G.Hüseynzadə, D.İsmayılova, Ə.Səfiyev, Z.Quliyev və başqa tanınmış alimlər yuxarıda qeyd etdiyimiz problemin müxtəlif aspektlərini araşdırmışlar.

Şagirdlərin şifahi nitq və bacarıq vərdişlərinin formalaşmasında yalnız metodist alimlərin deyil, həm də F.İbrahimbəyov, M.Həmzəyev, S.Seyidov, A.Leontyev, B.Lomov, V.Artyomov, B.Belyayev, N.Jinkin, L.Viqotski kimi tanınmış psixoloq və psixolinqvistlərin də dəyərli fikir və mülahizələri vardır. Qeyd emək istərdim ki, adı çəkilən alimlərin əsərlərində xarici dfillərin tədrisində, o cümlədən də şagirdlərin şifahi nitq və bacarıq vərdişlərinin formalaşması ilə bağlı yaradıcılıq probleminin psixoloji aspektləri tədqiq edilir.

Alman dilinin tədrisində ən çətin və məsul vəzifə məhz şagirdlərdə fəal nitq vər-

dişlərinin inkişaf etdirilməsini təmin etməkdir. Bu bacarığa yiyələnmək isə o deməkdir ki, şagird mövcud lüğət ehtiyatından istifadə edərək ünsiyyət prosesində öz fikrini sadə şəkildə asanlıqla ifadə etməyi bacarsın və başqasının nitqini dərk etməklə öz nitqində istənilən söz və ifadəni seçməkdə çətinlik çəkməsin.

Şifahi nitq elə bir mühüm vasitədir ki, bununla şagirdlərə bir tərəfdən dil vərdişləri aşılanır, digər tərəfdən onların bu dili öyrənmək sahəsində əldə etdikləri ilkin bacarıqlar daha da möhkəmləndirilir. Dilə aid öyrənilmiş söz və ifadələrin fəal lüğət ehtiyatına daxil olması və onlardan adi danışıq prosesində səmərəli istifadə etmək bacarığının inkişaf etdirilməsinə imkan yaradılır. Alman dili təliminin başlanğıc mərhələsində dilə aid bütün ilk anlayışlar ilkin danışıq bacarığının aşılanması ilə əldə edilir. Şagirdlər şifahi nitq vasitəsi ilə alman dilində adi danışıq vərdişlərinə yiyələnir, öz fikrini sərbəst, heç bir çətinlik çəkmədən ifadə edə bilmək, başqasının danışığını düzgün anlamaq bacarığına yiyələnirlər.

Görkəmli rus fizioloqu İ.P.Pavlov nitq orqanlarından nitq hərəkəti aparatına daxil olan kinestetik (hərəki) impulsları ikinci siqnal sisteminin «təməli», əsas komponenti adlandırmışdır (3, s.170). Deməli, şifahi nitqsiz başqa nitq növü mümkün deyildir. Şifahi və yazılı nitq bir-birindən onunla fərqlənir ki, şifahi nitqdən istifadə etdikdə əsəb-beyin proseslərində ardıcıllığın bir növü yazılı nitqdən, oxumaqdan və yazmaqdan istifadə etdikdə isə əsəb-beyin proseslərində fəallığın başqa növü yaranır. Şifahi və yazılı nitq arasında ümumi cəhət və vəhdət bundan ibarətdir ki, onların dil örtüyü həmişə yalnız səslidir, bütün nitq prosesləri xarici (danışıq, ucadan oxumaq) və ya daxili (dinləmək, özü üçün oxumaq, yazmaq) danışıqla xarakterizə olunur.

Şifahi nitqdə fikir səs örtüyü vasitəsi ilə əmələ gəlir və ifadə olunur, yazılı nitqdə isə fikir qrafik işarələrlə verilir. Belə ki, şifahi nitq qrafik əlaqə vasitəsi ilə ifadə edilir. Qrafik əlaqə vasitəsi ilə bütün deyilənləri yazmaq, bütün yazılanları isə ucadan oxumaq mümkündür.

N.İ.Cinkin yazır: «Müasir elmi məlumat bunu təsdiq etməyə imkan verir ki, dili mənimsəmək kanalı eşitmə-nitq hərəkəti analizatorudur» (4, s.97).

Şifahi nitq ümumiyyətlə nitqin əsas xassəsidir; şifahi nitqsiz başqa nitq növü mümkün deyildir. "Eşitmə-nitq hərəkəti sisteminin yaradılması hər hansı bir dildə nitqə yiyələnməyin və fikir ifadə etməyin başlıca şərtidir" (5, s.86).

Danışıq prosesi olmayan başqa nitq növünü təsəvvür etmək mümkün deyildir. N.K.Krupskayanın təbirincə desək yeni «öyrənilən dildə yaxşı oxuyub yazmağı bacarmaq üçün ən əvvəl həmin dildə danışmağı öyrənmək lazımdır.» (6, s.511)

Şifahi və yazılı nitqə əməli surətdə yiyələnmək üçün hər hansı bir dilin öyrədilməsi şifahi təməl üzərində qurulmalıdır.

Bu və ya digər dilə yiyələnərkən nitqin mühüm əhəmiyyətə malik olan bir xüsusiyyəti – dillə təfəkkürün vəhdəti məsələsi nəzərə alınmalıdır. Artıq sübut olunmuş həqiqətdir ki, nitq və təfəkkür qırılmaz vəhdətdir. Nitq təfəkkürün ifadə formasıdır. Fikir əlaqələri nitq əlaqələridir. Dil fikrin, bilavasitə gerçəkliyidir (K.Marks).

Təfəkkür həmişə nitqlə bağlıdır. İnsanın öz fikrini ucadan deməsi, yazılı surətdə ifadə etməsindən və ya dinib-danışmadan, fikirləşməsindən asılı olmayaraq, fikir yalnız dil örtüyü şəklində formalaşır və ifadə edilir. Bütün hallarda eyni nitq mexanizmləri fəaliyyət göstərir, nitq aparatı işləyir.

Nitqlə təfəkkürün dialektik vəhdəti xarici dillərin tədrisində də nəzərə alınmalıdır. B.V.Belyayev haqlı olaraq deyir ki, "Şagirdlərə, sadəcə olaraq, xarici dili deyil, həmin dildə düşünməyi öyrətmək lazımdır"(7, s.31).

Bununla əlaqədar olaraq, tədris prosesini elə təşkil etmək zərurəti meydana çıxır ki, öyrənilən dil ünsiyyət vasitəsinə çevrilsin, şagirdlər öyrənilən dildə fikirləşmək bacarığı əldə etsinlər. Dil isə yalnız ünsiyyət vasitəsi kimi, şagirdlər dərsdə fəal iştirak etdikləri zaman,

dilin tədrisində şifahi nitq başlıca məqsəd kimi qarşıda qoyulduğu vaxt təzahür edir.

İsbat olunmuş həqiqətdir ki, xarici dillərə məktəb şəraitində yalnız vasitəli şəkildə yiyələnmək mümkündür. Bu üsul «təbii», «qeyri-mütəşəkkil» ikidilliliklə xarakterizə olunur. İkidilliliyin təşkili şəraitində dil sistemlərinin formalaşması və nitqə yiyələnmək proseslərinin ana dili ilə xarici dilin mürəkkəb qarşılıqlı təsiri ilə səciyyələndirilir. Daimi yad dil mühitində, xarici dildən həmişə təbii ünsiyyət vasitəsi kimi istifadə etmək tələbatının olmaması şəraitində, sinifdə şagirdlər sayca çox, xarici dil dərslərinin miqdarının az olması xarici dilə yiyələnmək işini xüsusilə çətinləşdirir. Belə şəraitdə, yəni yad dilin dinamik bir sistem halında inkişaf etməsindən ana dilindən qazanılmış vərdişlərin qarşılıqlı interferensiya xarakterli təsiri daha artıq dərəcədə təzahür edir. İnterferensiya (qarşılıqlı təsir) probleminin və onun aradan qaldırılması imkanlarının öyrənilməsi məktəb şəraitində xarici dilə yiyələnərkən biliklərin rolunu müəyyənləşdirməyə kömək edir.

Dil üzrə bacarıq və vərdişlər biliklər əsasında formalaşır və inkişaf edir. Şifahi nitqə yiyələnmək problemindən danışarkən bacarıq və vərdişlərin inkişafı mərhələlərinə dair elmi məlumatı nəzərə almaq lazımdır. Düzdür, ümumi psixolologiyada bacarıqla vərdiş arasındakı mövcud qarşılıqlı əlaqə haqqında yekdil rəy yoxdur. Bu məsələni şifahi nitqə tətbiq etməklə vərdişi fəaliyyətin avtomatik komponenti, bacarığı isə biliyin şüurlu tətbiqi hesab edən psixoloqların fikrilə razılaşmaya bilmərik. Şifahi nitqin əsasını dil vasitələrinə avtomatik yiyələnmək təşkil etdiyi üçün, onun vərdişsiz yaradıldığını güman etmək, əlbəttə, səhv olardı. Lakin bu vasitələr hər dəfə yeni şəkildə kombinə edildiyinə və yeni məna bildirdiyinə görə nitqin özü bacarığa çevrilir.

V.A.Artyomov ilkin və əlavə bacarıq və vərdişinin olduğunu göstərir. Onun fikrincə, ilkin bacarıq, diqqəti sərbəst cəmləşdirmək şərti ilə, müəyyən bir işlə icra etməyin mümkün olmasıdır. Əlavə bacarıq isə diqqətin sərbəst cəmləşdirilməsindən sonra hər hansı bir hərəkəti tamamilə yerinə yetirmək, vərdişə mükəmməl yiyələnmək deməkdir. V.A.Artyomov haqlı olaraq müəyyən bir hərəkəti müntəzəm və məqsədəuyğun surətdə dəfələrlə təkrar edərək sərbəst və ən səmərəli bir üsulla yerinə yetirmək bacırığını vərdiş adlandırır (1, s.359).

Bu və ya digər bir işin görülməsi zamanı əvvəlcə nəyi və necə etməyi başa düşmək, sonra isə məşq prosesində hərəkət üçün bacarıq və vərdiş qazanmaq lazım olması haqqında psixologiyanın ümumi müddəası xarici dildə danışmaq bacarığına yiyələnmək üçün kifayət hesab etmək olmaz. Nəzərə alınmalıdır ki, xarici dildə danışıq fəaliyyətin mürəkkəb və xüsusi bir növüdür. O, xüsusi bilik, bacarıq və vərdişlər, bunların qarşılıqlı əlaqəsi ilə səciyyələnir. Xarici dil sahəsində qazanılan «bilik» təkcə dil haqqında heç də yalnız nəzəri məlumata malik olmaq deyil, ən əvvəl dil materialları və hadisələrinin özüdür; səslər, sözlər, söz birləşmələri və cümlələrdir. Bunun əsas xüsusiyyəti ondan ibarətdir ki, dil faktlarına aid biliklər bu materialdan nitqdə istifadə etmək bacarığı və vərdişləri ilə birlikdə toplanır.

Yad bir dilə aid şifahi bilik və nitq vərdişləri həmin dili öyrənən şəxs üçün fikri ifadə etməyin, şifahi ünsiyyətdə olmağın tamamilə yeni formasıdır. Bu fəaliyyət növünə şagirdlərin müvəffəqiyyətlə yiyələnməsi o zaman mümkün olur ki, onlardan hafizənin tədricən inkişafı, zehni fəaliyyətin yüksəldilməsi əsas götürülür, danışıq bacarıqlarının formalaşdırılması diqqət mərkəzində saxlanılır. Bu vərdişlərin yaradılması ilə əlaqədardır.

Qeyd etdiyimiz müddəalardan göründüyü kimi xarici dildə nitqə yiyələnməyin ayrılmaz komponentləri olmaq etibarilə bilik, bacarıq və vərdişlər arasındakı əlaqə və münasibətlər bir an belə nəzərdən qaçırılmamalıdır. Materialın qavranılması, onun dərk edilməsi, şüurda möhkəmləndirilməsi və təcrübədə tətbiq olunması barədə didaktikanın ümumi müddəaları xarici dilin tədrisində də nəzərə alınmalı, dilin xüsusiyyətləri nəzərə alınmaqla tətbiq edilməlidir. Bilik, bacarıq və vərdişlər arasında olan əlaqə və münasibətlər aşağıdakılardan ibarətdir:

1. Bacarıq və vərdişlər biliklər əsasında formalaşır. Biliklər deyərkən fonetika, leksika və qrammatikaya aid faktik materiallar, həm də dilin nəzəriyyəsinə və qaydalarına dair məlumatlar nəzərdə tutulur.

2. Danışıq bacarığı və vərdişlər analogiya üzrə intensiv məşq və hərəkətlər nəticəsində toplanan dil materialı əsasında yaranır və formalaşır.

3. Danışıq bacarığı və vərdişləri fəal dil mühitində yaranır ki, burada faktik materiala aid bilik toplanır və nəzəri ümumiləşdirmələr bacarığı əldə edilir.

Məktəb şəraitində biliklərin dərk edilməsi deduktiv və induktiv üsulların tətbiqi sahəsində mühüm əhəmiyyət kəsb edir. Lakin bu barədə də fikir vahidliyi yoxdur. Lakin, qeyd etməyi lazım bilirik ki, yeni danışıq bacarığının yaradılmasında təkcə induksiya və ya deduksiyadan istifadə etmək yaramır. Çünki nə qədər ki, şagirdlər nitqdə məşq olunan materialı dərk etməmişlər, onlar əslində müşahidə və ya ümumiləşmə aparmağı bacarmırlar. Nitqdə dil materialının məşqinə və bunun ardınca onun dərk olunmasına əməli qaydalar-təlimatlar kömək edir. Şagirdlərin fəaliyyəti əməli qaydalarla istiqamətləndirildiyi üçün bu prosesdə induksiya və deduksiya qarşılıqlı əlaqədə olur. Şagirdlər yalnız təlim materialına yiyələnmək bacarığı və vərdişlərinin yaranması nəticəsində əməli biliklər əldə edir və materialı nəzəri cəhətdən ümumiləşdirə bilirlər. Məhz buna görə də alman dilində danışığın öyrədilməsi prosesində həmişə «biliklərdən bacarıq və vərdişlərə» yolunun yeganə olduğunu hesab etmək, zənnimizcə, düzgün deyildir.

Şagirdlərin alman dilində danışıq bacarıqlarına yiyələnmələri üçün, onlarda dilə şüurlu münasibət tərbiyə etmək, ondan fəal istifadə etmək keyfiyyətinin formAlaşdırılması xüsusi əhəmiyyətə malikdir. Xarici dildə nitqə yiyələnmədə şüurluluq digər fənlərin mənimsənilməsi prosesindəki şüurluluqdan psixoloji cəhətdən xeyli fərqlənir. Bu fərq nitqin psixoloji xüsusiyyətlərindən irəli gəlir. Xarici dildə nitqə yiyələnməkdə dilin maddi əsasının (sözlərin və qrammatik sistemin) dərk edilməsi, beləliklə də bilik qazanılması nitq bacarıq və vərdişlərinin yaranması prosesində baş verir. Nitqdə avtomatiklik yaradılmasına yönəldilmiş intensiv nitq təcrübəsi onunla nəticələnir ki, şagirdlər xarici dildə düşünməyə başlayır, yəni öyrənilən dil hadisələrindən düşünülmədən induktiv surətdə istifadə edirlər. Bununla əlaqədar iki mühüm cəhəti xüsusilə qeyd etmək lazımdır.

Əvvəla tədris prosesində şagirdin dilə düşünmədən (intuitiv) surətdə yiyələnməsini yalnız məhdud dil minimumu (dil materialı) əsasında təmin etmək mümkündür; ikincisi, şagirdlər dil materialına şüurlu məşqlər nəticəsində yiyələnirlər. Odur ki, təlim məqsədinə xidmət edən tapşırıqların xarakteri və ardıcıllığını müəyyənləşdirərkən şifahi nitq tədrisində şüurluluq prinsipinin bu cəhəti nəzərə alınmalıdır.

Şagirdlərin şifahi nitq bacarığının aşılanması prosesində şüurluluq prinsipinə əməl olunmasının digər cəhəti bundan ibarətdir ki, bu keyfiyyətə yiyələnərkən fikir dil mAterialının özünə deyil, onun (dil materialının) məna və məzmununa yönəldilir.

Fəaliyyətin mənimsənilməsi zamanı şagirdlərdə vərdişlərlə yanaşı bacarıqlar da formalaşır. Bacarıqlar - qarşıya qoyulmuş məqsədə müvafiq olaraq iş priyomlarının seçilməsi və həyata keçirilməsi üçün mövcud bilik və vərdişlərdən istifadə olunmasıdır. Bacarıq yarandıqda insan qarşıda duran məsələnin həllində lazım olan yolları və əməliyyatları düzgün seçə bilir və onlara nəzarət etmək üçün zəruri məlumatlardan istifadə qaydalarına yiyələnmiş olur.

Xarici dilin kommunikativ yolla öyrədilməsi zamanı əsas diqqətin dilin formalarına deyil, ünsüyyət prosesinin özünə verilməsi müəllim və şagirdlərin dərsdəki roluna fərqli yanaşma prinsipini irəli sürür. Metodika tarixində müxtəlif fikirlər mövcud olmuşdur. Ən qədim klassik konseptə görə hər bir dili öyrənən qrupun öz ana dili var, bu qrupda olan hər bir kəsin yaşı, qavraması və bilik dairəsi eynidir. Bu konsept o fikrə əsaslanırdı ki, qrammatikanı bilən və düzgün tərcümə etməyi bacaran dili doğrudan da bilir. Bunu kəskin tənqid edənlərdən biri Vilhelm Vitör fikirləşirdi ki, bu cür öyrənmə canlı dili ölü

dilə çevirir. Bu cür dərslər zamanı bütün sözlər və qaydalar əzbərlətdirilir ki, bu da şagird üçün darıxdırıcı olur.

Marburq universitetinin professoru Vitör bu konseptin tam əleyhinə idi və xarici dil dərsinin təmamilə dəyişdirilməsini istəyirdi. Vitör deyirdi ki, şagird qrammatikanı və lazımi söz ehtiyatını mənimsəyirsə, bu hələ dil bilmək deyil. Dərsdə əsas yerdə aktiv şıfahi dil mənimsənilməsi durmalıdır. Bununçün də şifahi nitqə xüsusi fikir vermək lazımdır. Bundan başqa Vitör sözlərin şifahi şəkildə öyrənilməsinin əleyhinə idi. O, fikirləşirdi ki, sözlər cümlə içərisində işlədilməklə öyrədilməlidir. Və artıq XIX əsrin 90-cı illərində yenidən nəzərdən keçirilmiş tədris planlarında qeyd olunurdu ki, dərsin məqsədi praktik yazılı və şifahi nitqə yiyələnmək olmalıdır. Bu sistemin tərəfdarları elə fikirləşirdilər ki, qrammatikanı şagirdlərə əzbərlətdirmək lazımdır ki, o, nümunə cümlələrini tərcümə etsin və müəllimi yamsılamaqla bunu öyrənsin. Dil duyumunu onlar özləri inkişaf etdirməlidirlər. Bu fikrin əsasında o dururdu ki, xarici dil ana dil kimi öyrədilməlidir. Yəni uşaq ilk danışmağa başlayanda ana dilini necə situativ öyrənirsə, xarici dili də o cür öyrənməlidir. Yəni xarici dildə şıfahi nitq yazıdan əvvəl olmalıdır. Bu dövrdə yaranmış fikirlərdən biri də asossasiya metodu ilə dili öyrənmə idi. Asossasiya bir sözün ətrafında yarana bilən müxtəlif sözlər və söz qruplarını nəzərdə tutur. Burda əsas prinsip dərsin birdilli olmasıdır. Bunun üçün ən yaxşı tapşırıqlar ifadələr və dərs haqqında söhbətlərdir. Dərs adətən xarici dildə bir mətnin əsasında qurulur. Məs.: müəyyən situasiya təşkil edən dialoq, uşaq bir şəkillə tanış olur, müəllim xarici dildə bu barədə danışır,uşaq tez-tez təkrarlanan sualları eşidir. Bu nədir? Bunun adı nədir? Hardadır? Necədir? Nə edir? və.s. Beləliklə, canlı dıskussiya yaranır və şagird öyrəndiyi sözləri dialoqlarda və sual-cavablarda işlətməyi öyrənir.

Audio – linqvistik metodla yanaşı inkişaf edən audio-vizual metodun yaradıcıları isə belə hesab edirdilər ki, dili mümkün qədər optik əyani vasitələrlə öyrənmək lazımdır. Yəni hər hansı dialoq situasiyasında onun məzmunu əvvəlcə vizual vasitə ilə izah olunmalı, sonra uyğun gələn ifadə vasitəsi seçilməlidir. Dərs bir şəklin və ya şəkil qrupunun prezentasiyasından başlanılmalıdır. Bəzi aydın olmayan məqamlar sual cavab şəklində yenidən izah olunmalıdır. Şəklin və ya mətnin çoxlu sayda təkrarlanması ilə dialoq əzbərlətdirilməlidir. Şagirdlər şəkillərə uyğun öz daloqlarını qurmalı və səhnələri rollara bölərək təkrarlamalıdırlar. Bütün bu cəhdlər şıfahi nitqin inkişafı üçün irəliyə doğru atılan addımlar idi.

Qeyd etmək lazımdır ki, bir çox tədqiqatçılar dərsin müvəffəqiyyətli alınmasında uzun müddət proqram tələbinin yerinə yetirilməsinin, hətta onun daha da genişləndirilməsi və zənginləşdirilməsinin müstəsna əhəmiyyət kəsb etdiyini qeyd edirlər.

Beləliklə dərsdə yaranan maraq şagirdləri fənni öyrənməyə həvəsləndirir. Nəticə etibarı ilə əsas tələb şagirdlərdə kommunikativ vərdişlərin formalaşdırılmasını və onun təkmilləşdirilməsini təmin etməkdən ibarət idi. Dil tədrisi zamanı dərsdə maraq oyatmaqla müəllim daha səmərəli dərs mühiti yaradır, bu da şagirdlərin ünsüyyət dairəsinin inkişafında böyük rol oynayır.

Beləliklə, interaksiya və ya qarşılıqlı fəaliyyət şagirdlərin kommunikasiya prosesinə cəlb edilməsinin, şifahi nitq və bacarıqlarının və onların xarici dildə yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsinin bir üsulu kimi qəbul edilə bilər. Qarşılıqlı fəaliyyət şagirdlərin auditoriya şəraitində verbal və qeyri-verbal davranışını şərtləndirən sosial amil kimi başa düşülməlidir. İnteraktivliyin bu cür təhlili şagirdlərin alman dilinin öyrənilməsi prosesində fəal, təşəbbüskar iştirakçı qismində cəlb olunmasını nəzərdə tutur.

Ədəbiyyat

1. Артемов В.А. Курс лекций по психологии, ХГУ, 1958.
2. Гусейнзаде Г. Д. Обучение речевой коммуникации на иностранном языке. Баку, 2001.
3. Павлов И.П.. Полное собрание чос., кн.2, изд.2, 1951.
4. Жинкин Н.И. разработать общую теорую усвоения языков. М.: Совпедагокика, 1958, № 3.
5. Шатилов С.Ф. Обучение основам речи на немецком языке в V кл. Автореферат к.д., Л., 1962.
6. Крупская Н.К. Избранные педагогические произведения. М.: Учпедгиз, 1957.
7. Беляев Б.В. Очерки по психологии обучения иностранным языкам. М.: Учпедгиз. 1959.

Н.Р.Микаилов

О путях развития устной речи и навыков общения учащихся на уроках немецкого языка

Резюме

В статье речь идет о путях развития устной речи и навыков общения учащихся на уроках немецкого языка. Выделяется, что все начальные понятия, относящиеся к языку, достигается путем начальных речевых навыков. Поэтому процесс обучения должен организоваться таким образом, чтобы язык превратился в средство общения. Учащиеся, в изучаемом языке должны уметь говорить и выражать свою мысль.

N.R.Mikayilov

The ways of improvement of pupils' oral speech habits and skills at the German lessons

Summary

The article is about the ways of improvement of pupils' oral speech habits and skills at the German lessons. It is noted that all first notions about the languages is acheived by teaching the first speech habits. That's why the teaching process should be organized so that, the language which is thought should turn to a communication means, the students should be able to think and speak in the language they learn.

Rəyçi: fil. f.d., dos. D.Veysəlova

Redaksiyaya daxil olub: 03.02.2017

A.B.MİRZƏYEVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

SİNİFDƏNXARİC TƏDBİRLƏRDƏ YENİYETMƏLƏRİN HUMANİZM TƏRBİYƏSİNİN TƏŞKİLİ İMKANLARI

Açar sözlər: *humanizm tərbiyəsi, sinifdənxaric tədbir, insanpərvərlik, şəxsioyyətin formalaşması, insani dəyərlər*

Ключевые слова: *гуманное воспитание, внеклассное мероприятие, гуманизм, формирование личности, человечные ценности*

Key words: *humane education, extracurricular activities, humanism, the formation of the person, humane values*

Sinifdənxaric tədbirlər məktəblə həyat arasında qovşaq rolunu oynayır. Sinifdənxaric tədbirlər çox rəngarəng olub, müxtəlif fotmalarda (fərdi, qrup, kütləvi kulub və cəmiyyət) təşkil edilir.

Müharibə və əmək veteranları, milli qəhrəmanlarla, elm və incəsənət xadimləri ilə görüşlər, Şəhidlər Xiyabanına, Xocalı abidəsinə ziyarətlər, kitabların müzakirəsi şagirdlərin humanizim tərbiyəsində müstəsna əhəmiyyət kəsb edir.

Təlim prosesində formalaşan humanist keyfiyyətlər sinifdənxaric tədbirlər prosesində bir qədər də möhkəmləndirilir və təhkimləşdirilir. Sinifdənxaric tədbirlərdə şagirdlər ictimai faydalı əməkdə iştirak edir, toplantılarda görünür, birlikdə oynayır, ekskursiyalara gedir, müxtəlif idman növləri üzrə yarışırlar. Müxtəlif sinifdənxaric tədbirlər prosesində şagirdlərin münasibətlərində humanist keyfiyyətlər formalaşır. Həmin humanist münasibətlər onların şəxsiyyətinin sonrakı inkişafını müəyyənləşdirir.

Şagirdin kollektivdə hansı humanist keyfiyyətlərə malik olacağını, birlikdə oynayarkən onların qarşılıqlı münasibətlərini tənzimləyən müəllim hər bir şagirdin vəzifəsini qabaqcadan təyin etməlidir. Kollektiv iş zamanı yaranan münasibətlər çox vaxt böyüklər tərəfindən nizamlanır. Müəllim əməyin keyfiyyətinə, oyun prosesində, toplanışların, ekskursiyaların keçirilməsi ilə əlaqədar şagirdlərin qarşısına tləblər qoymalıdır. Şagirdlər bu tədbirləri bilməli və başa düşməlidirlər.

Əməliyyatların birindən digərinə keçərkən şagirdlər müxtəlif qruplara qoşulurlar, yaşıdları ilə yoldaşlıq edir, özlərini müxtəlif vəziyyətlərdə sınaqdan keçirirlər. Bütün ictimai faydalı işlərin təşkilində başlanğıc prinsip belədir: "bir nəfər də kənarda qalmamalı, bir nəfər də biganə olmamalıdır". Bütün sinif fərdi, qrup və kollektiv tapşırıqlar alır.

Humanist istiqamətə malik müxtəlif ictimai faydalı işlərdə iştirakın tərbiyəvi səmərəsi onda ifadə olunur ki, məktəblilərdə yoldaşlarına humanist münasibət yaranır, onlara və ətrafdakı adamlara qayğıkeş, ədalətli, həssas olmaq, qayğıkeşliyi sözdə yox, işdə göstərmək tələbatı formalaşır.

Yuxarı yaşlı məktəblilərlə sinifdənxaric işlər fərdi, qrup, birləşmiş iş və kütləvi formalarda təşkil edilir. Bu barədə mövcud pedaqoji ədəbiyyatda ayrı-ayrı pedaqoq alimlər (N.M.Kazımov, Ə.Ş.Həşimov, R.Ş.Mustafayeva, A.N.Abbasov, R.İ.Əliyev, Y.R.Talıbov, X.Q.Fətəliyev, A.M.Həsənov, F.B.Sadıqov, S.M.Quliyev və b.) ətraflı bəhs etmişlər.

Şagirdlərin humanizm tərbiyəsi məqsədi ilə fərdi işin sinifdənxaric oxu növündən daha geniş istifadə edilir. Məktəblilər təkcə proqramda nəzərdə tutulanlarla kifayətlənmir, özləri də əlavə kitablar oxuyurlar, lakin bunlar bir sıra hallarda təsadüfən seçilmiş bədii əsərlər olur. Nəticədə şagirdlərin yaşına biliyinə müvafiq olan şagirdlərin humanizm tərbiyəsinə xidmət

edən yaxşı əsərlər bəzən kənarda qalır. Deməli, şagird mütaliyəsinin düzgün istiqamətləndirilməsinə xüsusi diqqət yetirilməlidir.

Bədii ədəbiyyat, şagird şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Müşahidələr və fənn müəllimlərinin qabaqcıl təcrübəsi göstərir ki, şagirdlərin humanizm tərbiyəsində sinifdənxaric oxu üçün lazım olan ədəbiyyatın düzgün seçilməsinin mühüm əhəmiyyəti vardır. Şagirdlər oxuduqları kitabların qəhrəmanlarına bənzəməyə çalışır, onlar kimi qayğıkeş və xeyirxah, doğrucul olmağa çalışırlar.

Sinifdənxaric işlərdə şagirdlərin çoxunu ümumi maraqlar birləşdirir. Buna görə də məktəbdə müxtəlif dərnəklər və qrup halında digər sinifdənxaric tədbirlər təşkil edilir.

Məktəblərdə qrup halında aparılan sinifdənxaric işin ən çox yayılmış formalarından biri dərnək işləridir. Onlar şagirdlərin proqram materialı vasitəsilə əldə etdikləri biliyi dərinləşdirir, yaradıcılıq qadiliyyətini artırır, kollektivdə işləməklə bir-birinə yoldaşlıq, dostluq köməyi kimi humanist keyfiyyətləri də formalaşdırır. Gəncə şəhərindəki 5 saylı orta məktəbdə təşkil olunmuş "Gənc ekoloqlar" dərnəyinin (rəhbəri Hürü Kərimova) üzvləri burada əsl yaradıcı, axdarıcı və tədqiqatçı kimi cıxış edirlər. Yaxınlıqda yerləşən "Gəncə xalça kombinatı"na məxsus iki pambıq və yun sexindən gələn çirkli suyun təmizlənmədən axıdılmasına qarşı çıxış, kombinatın rəhbərliyilə, şəhər sanitar-epidemioloji stansiyasının işçiləri ilə ekoloji mövzuda söhbətlər aparırlar. Şübhəsiz müəyyən qədər bu söhbətlərin nəticəsidir ki, hazırda suyun təmizlənməsi üçün xüsusi çala qazılır və orada təbii və kimyəvi üsulla zərərsizləşdirilir. Bundan başqa şagirdlər Gəncə şəhər Heydər Əliyev mərkəzində, Heydər Əliyev və Nizami prospektlərində xeyli çinar qələmləri sancılmış və onların böyüməsi üçün xeyli işlər görmüşlər. İşləməyə getməzdən əvvəl müəllim şagirdlərə bu əməyin cəmiyyətə faydasından danışır. Yalnız bu zaman gənc ekoloqlar gördükləri işə ürəklə, həvəslə yanaşır, belə ki, onun ictimai əhəmiyyətini dərk edirlər. Gəncə şəhəri Nizami rayonundakı 16 saylı məktəbin əmək fəaliyyətinə cəlb edilən X^a sinfinin şagirdləri uşaq bağçalarında fəallıq göstərmişlər. Bağçada kiçik yaşlı uşaqlara qayğı göstərməklə yanaşı, şagirdlərin bir-birinə münasibətində də xeyli dəyişiklik yaranmışdır. Əgər digər sinfin şagirdləri əmək fəaliyyətindən sonra onlara təklif edilmiş "Mənim dostum" mövzusunda inşa yazarkən sadəcə dostlarının ad və soyadını yazmaqla kifayətlənirlərsə, söhbət aparılmış sinfin şagirdləri özlərinin dostluğa olan münasibətlərini, dostlarını nəyə görə qiymətləndirdiklərini, dostluq etmək bacarıqlarını əks etdirir. Yoldaşlığa, dostluğa bunlara dair atalar sözlərindən nümunələr göstərirlər: "Dost dosta tən gərək, tən olmasa gen gərək", "Taylı tayını tapmasa, günü ax vayla keçər", "Yaxşı yoldaş adamı bay edər, pis yoldaş-zay", "Dostunu göstər, sənin kim olduğunu deyim", "Yaxşı dost dar gündə sınanar", "Hər şeyin təzəsi, dostun köhnəsi".

X-XI siniflərdə ən çox yayılmış sinifdənxaric işlərin birləşmiş forması böyük yaşlı məktəblilərin müxtəlif studiyalarda gördükləri işlərdir. Cəncə şəhər 27 saylı məktəbdə fəaliyyət göstərən təsviri sənət studiyasında bu sahədə toplanan iş təcrübəsi daha çox maraq doğurur. Dərslərdən fərqli olaraq, studiyalarda məşğələlər könüllü və daha yaradıcı xarakter daşıyır. Əgər dərs prosesində şagirdlər eyni problem üzərində işləyirlərsə, studiyadakı məşğələlərdə sərbəst yaradıcılığa geniş şərait yaradılır. Burada şagirdlər müəllimin rəhbərliyi ilə işləsələr də tam sərbəst olur, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək imkanı qazanırlar.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2016.
2. Əliyev R.İ. Mentalitet. Bakı: Mütərcim, 2014.
3. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı: Maarif, 1995.
4. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı: Araz, 2000.
5. Əliyev R.İ. Məktəbə psixoloji xidmətin aktual məsələləri. Bakı: Nurlan, 2004.

А.Б.Мирзоева

Организационные возможности гуманного воспитания у подростков на внеклассных мероприятиях

Резюме

В статье выявлены новые значения понятия гуманизма воспитания, показаны возможности художественной литературы, экскурсий и поездок, кружков в воспитании гуманизма и приведены примеры из школьной практики.

Статья, является экспериментальным научным делом, а также посвящена обогащению педагогической науки.

A.B.Mirzayeva

Organizational capacity human education at teenagers on extra-curricular activities

Summary

The article reveals the concept of the new values of humanism education, shows the possibility of fiction, excursions and trips, clubs in the education of humanity and gives examples of school practice.

The article is an experimental scientific matter and dedicated to the enrichment of pedagogical science.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 10.12.2016

Ş.İ.MİRZƏYEVA
E-mail: mirzayeva.shehla@gmail.com

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

YUXARI SİNİF ŞAGİRDLƏRİNİN İDRAK FƏALLIĞININ YÜKSƏLDİLMƏSİ YOLLARI

Açar sözlər: *idrak, idrak fəaliyyəti, sinifdənxaric işlər, İKT*
Ключевые слова: *познание, познавательная деятельность, внеклассная работа, ИКТ*
Keywords: *cognition,cognitive activity, activities beyond classes, ICT*

Idrak, idrak fəallığı filosoflar kimi, psixoloqların və pedaqoqların da daim diqqət mərkəzində saxladıqları sahələrdir. Şagirdlərin idrak fəllığını formalaşdırmaq, yüksəltmək "idrak fəalliyyətini aktivləşdirmək" adı altında didaktikada çoxdandır ki, mərkəzi yerlərdən birini tutur. Bu problemə aid bir sıra dəyərli əsərlər nəşr olunmuşdur. Q.İ.Şukinanın və N.Q.Morozovanın əsərləri bütövlükdə bu problemə həsr olunmuşdur. Kitablarda təlimin insan həyatındakı əvəzedilməz rolu vurğulanır, şagirdlərdə idrak marağı oyatmaq üçün müxtəlif təlim tiplərindən danışılır, idrak marağının mahiyyəti açıqlanır, biliyə maraq oyadıb tərbiyə etmək, biliyə tələbat oyatmaq məsləhət görülür. Şagirdlərdə fəal həyat mövqeyi formalaşdırmaq üçün bir sıra təkliflər verilir, o cümlədənmüstəqi işlərin tətbiqindən, təlimin həyatla əlqələndirilməsindən bəhs edilir. Şagirdlərin idrak fəallığı bir problemini kimi didaktikada başqa bir məsələyə-təlim prosesinin özünün mahiyyətinə nəzər salmaqla işıqlandırmaq olar.

Qeyd edək ki, təlim prosesinin özünəməxsus quruluşu vardır. O, fəaliyyətin bütün ünsürlərini özündə əks etdirir. Bu prosesin ünsürlərinə təlimin məqsədi, motivləri, məzmunu, vasitə və metodları daxildir (13, 198). Didaktikada təlim prosesini idrak nəzəriyyəsinə bağlayır, ona əsasən işıqlandırmağa çalışırlar. L.N.Qasımova, R.M.Mahnudova "Pedaqogika" dərsliyinə istinadən aşağıda göstərilən sxem dediklərimizə əsas verir:



M.Mehdizadə "Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları" adlı kitabına istinadən isə qeyd edək ki, hələ 1946-cı ildə L.C.Rubinşteyn bu barədə yazırdı ki, bu məsələnin yeganə düzgün həlli təlim yolu ilə idrak prosesinin vəhdətini (eyniləşdirilməsini yox) və fərqlərini (tam şəkildə müxtəlif olmalarını deyil) qəbul etməkdədir. Yenə həmin kitaba istinadən aşağıdakı faktlara nəzər salaq. 1960-cı ildə M.A.Danilov yazırdı ki, təlim prosesinin hərəkverici qüvvəsi təlimin gedişində irəli sürülən təlim və praktiki vəzifələrlə şagirdlərin mövcud bilik, bacarıq və zehni inkişaflarının səviyyəsi arasında olan ziddiyyətlərdir. Bunun psixoloji əsası isə məşhur psixoloq-akademik Q.S.Kostyukun tədqiqatla-

rında üzə çıxmışdır. O yazır ki, uşağın inkişaf mənbəyi ona xas olan daxili ziddiyyətlərdir. İnkişafın hər bir mərhələsində bu ziddiyyətlər özünəməxsus səciyyə kəsb edir. Məsələn, uşağın tələbatı, istəkləri, səyi ilə onun inkişaf imkanlarının səviyyəsi arasında olan ziddiyyətlər belədir. Bu problem indi hal-hazırda Azərbaycan məktəblərində geniş tətbiq olunun fəal-interaktiv təlimdə fəal dərsin Motivasiya mərhələsində öz əksini tapır. S.L.Rubinşteyn şagirdlərin biliklər sistemini mənimsəmələri prosesinin mahiyyətini aydınlaşdırmaq məqsədi ilə deyir ki, bu prosesdə bir-birləri ilə sıx qaşılıqlı əlaqədə olan bir neçə moment, tərəf vardır, belə ki, materialla ilk tanışlıq və onu sözün geniş mənasında qavramaq, başa düşmək, onu möhkəmləndirmək üçün xüsui işlər və, nəhayət, onu müxtəlifşəraitdə istifadə edə bilmək imkanına malik olmaq, təcrübədə tətbiq etmək mənasında dərindən öyrənməkdir.

Bunun fizioloji əsasında isəakademik İ.P.Pavlovun irəli sürdüyü ikinci siqnal sistemi-insan təcrübəsi ilə əlaqədar olub şey və hadisələrin bilavasitə özlərindən alınan siqnalları əvəz edən söz və nitq durur. Obyektiv aləmin, onun cisim və hadisələrinin insan beynində inikasından ibarət olan idrak prosesi-dərketmə çox mürəkkəb, dialektik bir prosesdir. İdrakın bir-birini tamamlayan pillələri onun canlı seyretmədən mücərrəd təfəkkürə doğru inkişafı həmin fəallığın mexanizmini, əsasını təşkil edir. Ümumiyyətlə, idrak fəaliyyətinin təşkilində bir-biri ilə sıx bağlı olan 3 mərhələnin mövcudluğu qeyd edilir: hazırlıq, əsas və möhkəmləndirici mərhələ. Bunun üçün birinci növbədə müvafiq dərketmənin yaradılması, qavrayış və diqqətin təşkili, hafizənin səfərbərliyə alınması mühüm şərt hesab edilir. Fəallığın yüksəldilməsində ciddi əhəmiyyət kəsb edən ümumiləşdirmə və müqayisə prosesi təfəkkürün inikişafına, fəallaşdırılmasına müsbət təsir göstərir.

Bu məqsədlə inteqrativ dərslərdən istifadə çox səmərəlidir. Belə dərslər fənlərarası əlaqəyə əsaslanır. Məktəbdaxili və məktəbdənkənar təlim arasında mövcud olan fərqlərin aradan qaldırılmasında və əldə edilən biliklərin həyatla uzlaşdırılmasında inteqrativ təlimin rolu böyükdür. Məktəbin həyatla bağlılığını təmin etmək və bütün təhsil istiqamətlərini əlaqələndirmək sahəsində inteqrasiya mühüm vasitədir. İKT-dən məqsədyönlü və yerində istifadə də bu işdə çox yardımçı ola bilər. Belə ki, təlim materialının yaxşı, məhsuldar qavranılmasında bir neçə analizatorun iştirakına nail olmaq çox əhəmiyyətlidir. Yeri gəlmişkən qeyd edək ki, əgər müəllim sinifdə şagirdlərin hamısının idrak fəaliyyətini fəallaşdırmağa nail ola bilmirsə,təlim özünün başlıca funksiyasını – şagirdlərin psixi inkişafını, fərdi psixi xassələrinin formalaşdırılmasını yerinə yetirə bilmir. İdrak prosesində bir sıra sadə və mücərrəd psixi proseslər (duyğu, qavrayış, təsəvvür, təxəyyül, təfəkkür, hafizə, hiss, nitq və s.) fəal iştirak edir. Şagirdlər sinifdə maraqlı işlə məşğul olurlarsa və bu iş onlardan təkcə dinləməyi deyil, hər hansı bir məsələni həll etməyi tələb edirsə, tədris materialı üzərində təcrübə aparmaqla məşğul olurlarsa, onların diqqəti də bir o qədər mərkəzləşmiş olur. Diqqət maraqla sıx surətdə əlaqədar olduğundan hər hansı bir mövzu tədris edilərkən şagirdlərin maraqları nəzərə alınmalıdır, çünki maraq diqqətinfəallaşdırılmasının mühüm amillərindən biridir. Dərsdə yerli-yersiz bir çox üsullardan istifadə edildikdə bu şagirdlərdə diqqətlilik deyil, diqqətsizlik yaradır.

Amma təcrübə göstərir ki, dərsdə yenilik olmadıqda şagird yorulur, fəallığı zəifləyir. Beləliklə də, diqqət yayınır və mənimsəmə səmərəli xarakter daşımır. Əksinə, tədris prosesində yenilik, əgər kifayət qədər intensivliyə malikdirsə, Pavlovun dediyi kimi, bələdləşmə reaksiyası yaradır və şagirdin diqqətini cəlb edir. Nəticədə bilavasitə tədris məqsədi ilə bağlı olan yenilik şagirdin nəzərdə tutulmuş materialı mənimsəməsinə imkan yaradır. Adətən, yenilik təkcə məzmunda deyil, qıcıqlandırıcıların fiziki xassələrinin dəyişməsində də özünü göstərir. Psixoloji tədqiqatlar göstərir ki, diqqətimizi müəyyən obyekt üzərində nə qədər çox saxlasaq, həmin obyekti bir o qədər əhatəli və dəqiq qavraya bilərik. Bu baxımdan diqqətin fəallığı bir sıra şərtlərdən asılıdır. Buraya fəaliyyətin xarakteri və məzmunu, diqqət yetirilən obyektə münasibət, həmin cismə və ya fəaliyyətə marağın dərəcəsi və s. aid etmək olar. Qavrayışın fəallığı isə müşahidədən asılı olur. Müşahidələrin müntəzəm olması qavranılan obyekti müxtəlif tə-

rəfdən nəzərdən keçirməyə imkan verir. Müəyyən obyektlərin müvəfəqiyyətlə qavranılmasını təmin etmək üçün insan özünün bütün psixoloji sistemini səfərbər etməlidir. Bu, iki şəkildə: a) kənardan təhriklə; b) insanın özünün niyyət və məqasədindən asılı olaraq həyata keçirilə bilər. Cismə toxunan əlin, eşitdiyimiz səsləri tələffüz edən qırtlağın, görülən konturu izləyən gözlərin hərəkətində fasiləsiz olaraq qavrayış sürətini orijinalla müqayisə etmək, onu yoxlamaq, müəyyən düzəlişlər etmək prosesi baş verir. Bu, qavrayış surətinin yaradılmasında fəallığı şərtləndirən başlıca mexanizmdir.

Müşahidəçiliyi-planlı, məqsədyönlü qavrayış prosesini inkişaf etdirmək üçün xüsusi oyunlar təşkil edilməli, cisimlərin az nəzərə çarpan ayrı-ayrı xassələrinə diqqəti yönəltməklə onları müqayisə etdirməli, tutuşdurmalı, oxşar və fərqli cəhətlərini tapdırmaq lazımdır. Şagirdlərin qavrama fəaliyyətinin inkişafında nitqin böyük rolu vardır. Çünki inkişafı prosesində cisim, hadisə və onları ifadə edən məfhum arasında müvafiq funksional əlaqə yaranır. Sözün iştirakı qayəsində şagirdin qavrayışı ümumiləşdirici xarakterə malik olur.

Hafizənin fəaliyyəti idrak prosesinin həm hissi, həm də məntiqi pilləsi ilə bilavasitə vəhdət təşkil edir. Məntiqi idrakın səmərəli fəaliyyəti hafizənin inkişafından asılıdır. Ona görə ki, müəyyən bir məsələ üzərində düşünərkən hökmən malik olduğumuz biliklərdən istifadə edirik. İsanın gerçəkliyi başa düşməsi, anlaması, mənimsəməsi də hafizə materiallarına istinad etməklə mümkün olur. Öyrənilən materialın həyati əhəmiyyətini dərk etmək, mənasını anlamaq, onu təhlil etmək və tətbiq etməyin əsas yollarını bilmək hafizənin fəallaşdırılmasının əsas amilidir. Təfəkkür bütün psixi proseslərlə əlaqədardır, varlığın dərk olunmasının ali səviyyəsi, idrakın ən yüksək pilləsidir. Təfəkkürün fəallaşmasında mühüm əhəmiyyət formalardan nisbətən mürəkkəbi əqli nəticədir. Müasir təhsil konsepsiyası təfəkkürün inkişafını şagirdlərin idrak fəallığının əsas meyarı hesab edir. Müstəqil çalışmaq, hər hansı bir mövzunu sərbəst surətdə öyrənmək təfəkkür tərminləri üçün mühüm addımdır. Şagirdlərin idrak fəallığı, xüsusilə təfəkkür və hisslərin qarşılıqlı əlaqəsi təxəyyülün inkişaf səviyyəsindən asılıdır. Təxəyyül hissi idrakla məntiqi idrak arasında əlaqə yaradan mühüm bir halqadır, prosesdir.

Görkəmli psixoloqlardan Ə.Ə.Əlizadə, L.S.Viqotski, S.L.Rubinşteyn, K.M.Korniliv, A.Y.Dubletski, R.Q.Natadze təxəyyül proseslərini öyrənmiş. Onun inkişaf etdirilməsi yollarını göstərmişlər.

Dubletski göstərir ki, fikirləşmək əldə olan təcrübəyə isitnad edib gerçəklikdə mövcud olmayan və subyekt üçün yeni olan obyektin dərk edilməsidir (4, s.119). Tanınmış psixoloq L.S.Viqotskinin nəzəriyyəsinə görə, oyun uşağın keçmiş təəssüratını onun maraq və tələbatına uyğun real şəkildə əks etdirməsidir. Onun fikrincə, təxəyyülün yaradıcı fəaliyyəti insanın keçmiş təcrübəsinin rəngarəngliyindən bilavasitə asılıdır, çünki fantaziyanın yaranması üçün o, material verir. İnsanın təcrübəsi nə qədər çox olursa, təxəyyül üçün də bir o qədər material verir". Şagirdlərin təlim işlərinin yerinə yetirilməsinə, onların təxəyyülünün fəallaşdırılmasına kömək edən priyomlar müəyyən olunmuşdur. Həmin priyomlar şərti olaraq 3 qrupa bölünə bilər: 1) Uşaqların təsəvvürlərinin zənginləşdirilməsinə və dəqiqləşdirilməsinə yönəlmiş priyomlar; 2) Şagirdlərin bərpaedici və yaradıcı təxəyyülünün fəallaşdırılmasına yönəldilmiş mətn üzərində iş priyomları; 3) Sözün obrazlı əhəmiyyətinin aşkara çıxarılmasına yönəldilmiş priyomlar.

Şagirdlərə məlum olmayan yeni materialla məlum olan keçmiş material arasında rabitə, əlaqə olduğunda onlar öz diqqətlərini keçmiş materialdan yeni materiala çox asanlıqla keçirir və qavramış olduqları köhnə bilik və vərdişlər üzərində yeni biliklər əldə edirlər. Şagirdlərin qarşılarına gücləri çatan çətinlik qoyulmalıdır.Lakin çox asanlıq da işin ziyanınadır. Məktəb psixologiyasında şagirdlərə verilən bilik, bacarıq və vərdişlərin səviyyəsini uzun müddət bir qayda olaraq güzəran ölçüləri ilə müəyyən etmişlər, öz-özlüyündə əhəmiyyətli olan bu prinsipi birtərəfli başa düşmüşlər, bəzi müəlliflərin (H.M.Bojko, J.M.Majalite, İ.J.Aleksaşina və b.) sözləri ilə desək, onu əslində təlimin asanlaşdırılması kimi mənalandırıblar və psixoloji baxımdan səhv başa düşüblər. Dərsi və dərslikləri də təhlil edəndə çox vaxt elə bu güzəran

ölçülərindən çıxıaş ediblər. Halbuki psixoloji tədqiqatlar əsaslı surətdə göstərir ki, materialı sadələşdirib asanlaşdırdıqca şagirdlərin idrak fəaliyyəti öz-özünə zəifləyib öləziyir.

30-cu illərdə bu ideya L.S.Vıqotskinin nəzəri-eksperimental araşdırmalarında , xüsusilə inkişafın iki sahəsi haqqındakı təlimində yeni aspektdə səslənməyə başladı.Onun tədqiqatlarında bu baxımdan önəmli meyarlar aydın nəzərə çarpırdı.

Təlimin müvafiqliyi prinsipi şagirdin inkişafını birinci səviyyə ilə məhdudlaşdırırdı. Halbuki əqli inkişafın xüsusiyyətləri sözün əsl mənasında ikinci səviyyədə meydana çıxır. L.S.Viqoskinin fikrincə, əgər təlim yalnız aktual inkişaf səviyyəsinə əsaslanırsa, o, inkişafetdirici xarakter daşımır. Təlim yaxın inkişaf səviyyəsinə əsaslananda isə mahiyyətcə yeni xüsusiyyətlər kəsb edir və inkişafetdirici təlim kimi şagirdin əqli inkişafında önəmli rol oynayır. Təəssüflə qeyd etmək lazımdır ki, bu qiymətli nəzəri-psixoloji ideyalar məktəb təcrübəsində uzun müddət əks-səda tapmayıb. Məktəbdənkənar işlər və sinifdənxaric tədbirlər proqram materialları ilə şagirdlərin müstəqil mütaliəsi arasında körpü rolunu oynayır. Bu zaman məktəblilərdə müstəqil mütaliəyə tələbat yaradılır, oxucu maraqları, bədii əsərləri oxumaq, təhlil etmək, qiymətləndirmək bacarığı inkişaf etdirilir. Bu, yüksək səviyyədə Azərbaycan təhsilini bu gün maraqlandıran məsələlərdəndir. Idrakı aktivləşdirmək üçün kompüter texnologiyalarından istifadə çox səmərəlidir.

Bildiyimiz kimi, taksonomiyaların altı mərhələsinin ilk mərhələsi məhz bilikdir, ilkin məlumatdır. Bu, düşünmənin digər yuxarı mərhələləri olan anlama, tətbiq, sintez və dəyərləndirmə mərhələlərində fəaliyyəti təşkil etmək üçün əsasdır, şagirdin təcrübəsini istiqamətləndirməkdə və problemləri hədəfə çevirməkdə yardımçıdır. Fəaliyyətin əsasını təşkil edən məlumatın əldə edilməsi üçün internetin üstünlüyü danılmazıdır. Belə ki, 1) Şagirdlər sinif otaqlarını tərk edib, kitabxanaya getmək zərurəti duymurlar; 2) İKT vasitəsilə internet səhifələrində aparılan araşdırmalar problemi həll edərkən mühüm məlumatları toplamaq və konkret problemi həll etmək üçün münbit şərait yaradır; 3) İKT vasitəsilə əldə edilən informasiya və faktların yerindəcə tətbiqi üçün geniş imkanlar mövcuddur.

Bütün bunlar deməyə əsas verir ki, İKT-nin idrak marağını yaratmaqda və idrakı aktivləşdirməkdə böyük rolu var. Belə ki, şagird tərəfindən hər hansı arzuolunmayan, lakin əhəmiyyətli bir təlim fəaliyyətini digər bəyənilən təlim fəaliyyəti ilə əlaqələndirməklə gözəl bir öyrənmə mühiti yaratmaq və nailiyyət əldə etmək olar. Təlim prosesində İKT dən istifdə səmərəli təsir göstərər, təlim materiallarına gəldikdə isə, əlbəttə bu zaman dərsliklərin və proqramların da idrak fəaliyyətinin aktivləşdirilməsindəki rolunu qeyd etmək yerinə düşər. Şagirdin idrak fəallığı mövqeyi dedikdə onu, məktəblinin təlimə olan aktiv münasibətinin elə təzahür forması, elə fəaliyyəti kimi nəzərə alırıq ki, orada şagird könüllü olaraq bütün qüvvə və qabiliyyətlərini səfərbər edir, böyük məsuliyyət hissi ilə intensiv surətdə işləməklə verilən təlim tapşırıqlarını müəyyən edilən vaxt içərisində yerinə yetirir (14, s.52).

Yenə M.Mehdizadə "Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları" adlı kitabına istinadən deyə bilərik ki, fəallıq mövqeyinin üç səviyyəsinin olduğunu göstərirlər. İdrak fəallığı burada istisna təşkil etmir. Onu da şagirdlərin fəaliyyətində üç səviyyədə görmək olur. İdrak fəallığının ilk səviyyəsini reproduktiv-təqlidedici, yəni tapşırıqları təqlid etməklə icra etmək fəallığıdır. İkinci səviyyəsi axtarıcı-icraedici fəallıqdır, nisbətən yüksək səviyyə olmaqla şagirdlərin daha yüksək dərəcədə müstəqil fəaiyyət göstərməsində təzahür edir. Nəhayət, üçüncü səviyyə yaradıcı fəallıq hesab edilir ki, bu, onun ali səviyyəsi olmaqla şagirdin özünün özünə vəzifə qoyması və onu yerinə yetirmək üçünorijinal yollar axtarıb müəyyən etməsi ilə səciyyələnir. Gördüyümüz kimi, idrak fəallığı mövqeyi heç də kortəbii surətdə, özbaşına formalaşmır. O həm təlim prosesində: təlimin müxtəlif metodları və priyomlarının, növləri və təşkilat formalarının mükəmməl və yüksək səviyyədə istifadə edilməsi nəticəsində, həm də şagirdin "daxili" imkanlarının, o cümlədən maraq və tələbatlarının istifadə edilməsi nəticəsində formalaşır. Bu axırıncılar isə idarak maraqlarının psixoloji əsasları ilə

şərh edilə bilər. Bu problem çox mürəkkəb və böyükdür, mühüm və zəruri olan bir çox məsələni əhatə edir. Son zamanlar pedaqoji psixologiya onları daha çox və daha aydın işıqlandırmağa başlamışdır.

Bildiyimiz kimi, təlim prosesində psixoloji əsaslara riayət olunması müəllimlərdən mütləq müəyyən psixoloji hazırlığa malik olmağı tələb edir. Onun ümumi və pedaqojipsixologiyanın ali məktəb kursunu möhkəm bilməsi, xsusən, məktəbyaşlı uşaqların yaş və fərdi xüsusiyyətlərinin əsas müddəalarını, onların zehni və fiziki inkişafının qanunauyğunluqlarını bilməsi lazımdır. Bu məqsəd üçün təlim prosesinin özünün həm pedaqogika baxımından, həm də psixologiya baxımından mahiyyətini aydın təsəvvür etmək zəruridir. Bunu hələ 70-ci illərdə psixoloq L.T.Oxotina vurğulamışdı. Azərbaycanda Ə.Əilzadə isə müəllimlərini psixologiyanın uğurlarından bəhrələnməmələrinin səbəbini pedaqoji elmlərin birtərəfli diferensasiyasında və ənənvi pedaqoji sistemin məktəblərdə yaratdığı anti-psixoloji ab-hava ilə əlaqələndirirdi (6, s.24-25).

Psixoloq N.D.Levitova görə, təlimin psixoloji komponentləri aşağıdakılardır: 1) Şagirdlərin təlimə müsbət münasibəti; 2) Materialla bilavasitə hissi tanışlıq prosesi; 3) Öyrənilən materialın fəal işlənmə prosesi olan təfəkkür prosesi; 4) Əldə edilmiş və işlənmiş informasiyanın yada salınması və yadda saxlanması prosesi (14, s.55). Şagirdlərin bilikləri mənimsəməsinin, həmçinin xeyli dərəcədə təlimin psixoloji əsaslarını təşkil edən bu psixoloji komponentlərin üzərində dayanaq:

Əgər təlim prosesində şagirdin fəallığı başqa adamlarla münasibət sahəsinə yönəlirsə, bu zaman sosial motivləri fərqləndirirlər. Bu barədə L.S.Viqotski qeyd edirdi ki, məsələ ondan ibarətdir ki, uşağın yaşıdları ilə onunla sinifdə davranış və rəftarına verilən qiymətin fərqinə varması dərs prosesini sosial situasiyaya çevirir.

Təlim situasiyası isə psixoloji qanunauyğunluqdan kənarda mövcud olmadığı üçün həmin situasiyanın həm pedaqoji, həm də psixoloji cəhətləri diqqət mərkəzində olmalıdır. Çünki dərs prosesi adi situasiyalardan fərqli şəkildə özünü göstərir. Doğrudur, təlim situasiyalarını bütünlüklə psixolojiləşdirmək, eləcə də didaktik elementlərin domunanatlığına birtərəfli qaydada şərait yaratmaq olmaz. Quru "intellektualizm" və "hisslərin astenikliyi" təhsilə heç zaman fayda verməyib.

Hər şeydən əvvəl qeyd edək ki, dərs prosesində şagird bu və ya digər situasiyaya, başlıca olaraq təlim situasiyasına düşür. B.Q.Ananyev göstərir ki, müəllim şagirdləri onların intellektini fəallaşdıran, hisslərini steniklaşdirən, iradəni səfərbər edən situasiyaya və ya şəraitə salır. Lakin bunun başqa variantı da ola bilər. Elə nümunələr və mənfi situasiyalar mövcuddur ki, həmin situasiyalarda müəllim özünün qeyri-peşəkarlığı və ya səriştəsizliyi ilə dərsdə şagirdləri əqli fəaliyyətini sıxışdırır, onsanlara inamsızlıq aşılayır, onların ünsiyyətində qorxu və şəxsi natamamlıq hissi formalaşır. Bəs onda hansı situasiyalara üstünlük vermək lazımdır? Daha doğrusu, hansı təlim situasiyaları şagirdlərin dərsdə şəxsi intellektual fəallığının inkişafı və özünü gerçəkləşdirməsi üçün pozitiv hesab edilə bilər? Qoyulmuş suala birmənalı cavab vermək olduqca çətindir. Çünki müxtəlif təhsil sistemlərində təhsil situasiyaları arasında müxtəlif fərqlər özünü göstərməkdədir. Lakin bununla belə məqbul hesab edilən və şagirdlərin idrak fəallığını pozitiv istiqamətdə təmin edən bir sıra situasiyalar vardır. Onlar istənilən təhsil sistemi üçün məqbul sayılar. Ayrı-ayrı psixoloji və pedaqoji mənbələrdə onları aşağıdakı kimi qruplaşdırırlar: 1) Dərsin "optimist başlanğıc" situasiyası; 2) Problem situasiya; 3) Seçim situasiyası; 4) Müvəfəqiyyət situasiyası; 5) İntellektual gərginlik situasiyası.

Hamıya bəllidir ki, şagirdlərin yaşı artdıqca və dünyagörüşləri genişləndikcə öyrənmənin əhəmiyyətini göstərən motivlər də dəyişir, inkişaf edir, xüsusən yuxarı siniflərdə onlar əsaslandırılmış olur. Təlim mütləq həyatla əlaqələndirilməlidir. Onlar bilməlidirlər ki, insan elmə istinad edərək xarüqələr yaradır. Təlimin həyatla əlaqələndirilməsi elə bir vacib prinsipdir ki, bütün məktəb fənlərinin tədrisi prosesinə, bütün tərbiyə tədbirlərinin gedişinə nüfuz edir. Şagirdlərin peşə seçimi olan zamanda onlarda idrak marağının yaradılması və inkişaf et-

dirilməsi, idrak fəalıyyətinin gücləndirilməsi son dərəcə mühüm və məsul bir vəzifədir. Müəllimin nümunəvi şəxsiyyəti, sinifdə işgüzar ab-havanın yaradılması və ədalətli qiymətləndirmə aparmağı bacarması şagirdlərin səylə çalışması üçün motivlər ola bilər. Beləliklə, həm öyrənmənin əsaslandırılması, həm də tədris işində əyləncəlilik, şagirdlərdə dərs üçün idrak marağının inkişaf etdirilməsi məqsədi güdür, hamılıqla icbari tam orta təhsilin həyata keçirilməsi və sinifdə müvəffəqiyyətli, dinamik təlim işi bu məqsəd üçün obyektiv olaraq əlverişli şərait yaradır. Bütün bunlar isə dərsdə şagirdlərin daimi diqqətli olmalarını təmin edir ki, bu da təlim prosesinin ən mühüm psixoloji əsaslarındandır.

Qeyd edək ki, müasir dövrdə tez-tez belə bir ifadə ilə rastlaşırıq: "Şagirdlərə öyrənməyi öyrətmək lazımdır". Bu faktın da sübuta ehtiyacı yoxdur ki, şagirdlərimizin böyük bir qismi öyrənmək istəmir. Bu da müəllimləri və valideynləri narahat edən ən böyük bir problemdir. Bir çox tədqiqatçılar bunu şagirdlərin təlimdə qarşılaşdıqları boryerlərlə əlaqələndirir. Elmi ədəbiyyatda onların təsnifatı da mövcuddur: 1) Emosional boryerlər; 2) Motivasion boryerlər; 3) Kommunikativ boryerlər; 4) Koqnitiv boryerlər. Bunların içində emosional boryerlər xüsusi mürəkkəblik təşkil edir. Onlara müvəffəqiyyətsizlik qorxusu, duyğusallıq və emosionallıq aiddir. Ən çox rastıaşılan isə müvəfəqiyətsizlik qorxusudur. Sadalanan boryerləri dəf etmək üçün təlim vaxtı refleksiyalardan, özünüqiymətləndirmə nümunələrindən istifadə etmək ən optimal üsullar hesab edilə bilər. Optimal qiymətləndirmə texnologiyaları da idrak fəallığını yaratmağın üsullarından biridir. Qiymətləndirmə nümunələri hazırlananda onların onların yaş xüsusiyyətlərinin səciyyəvi cəhətləri, məktəblilərin bilik və bacarıqlarının ölçülməsi üçün müəyyən edilən dövlət standartları diqqət mərkəzində saxlanılmalıdır.

Ədəbiyyat

1. Süleymanova A. Ədəbiyyat dərslərində informasiya və kommunikasiya texnologiyalarından istifadə. Bakı, 2011
2. Suleymanova A.Y. An American Educational exsperience in Azerbaijan Schools, İnternational News, August/ September 2005, (402) 472-5358), http: //www.un/edu/iaffairs, s.79
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 1989
4. Dubletski. Teoriçeskie voprosı voobrajeniya i tvorçestva. Smolensk, 1974
5. Джон Медин «Правила мозга. Что стоит знать о мозге вам и вашим детям», https://newtonew.com/overview/pravila-mozga-kotorye-oblegchajut-obuchenie)
6. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998
7. Əliyev B., Əliyeva K., Cabbarov R. Pedaqoji psixologiya. Bakı, 2011
8. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər, I cild. Bakı, 2008
9. Rüstəmov F. Pedaqoji oyunların təşkili texnologiyası // Kurikulum jurnalı, 2009, № 1, səh.49-56
10. Qasımova L., Mirzəyeva Ş. Azərbaycan təhsiində kurikulum konsepsiyası. Bakı, 2016
11. Морозова Н.Г. Учителью о познавательном интересе. М,1979
12. Как организовать знакомство? Педагогические заметки 21 апреля 2010 рубрика: Интересные факты | источник: shkolazhizni.ru
13. Qasımova L.N., Mahnudova R.M. Pedaqogika. Bakı, 2013.
14. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları Bakı: Maarif, 2012
15. Nuruşov A. Riyaziyyatın tədrisində problemli təlim. Bakı, 1978

Ш.И.Мирзоева

Активность познания старшекласников

Резюме

В статье рассматривается понятие активности познания. Здесь говорится о методах повышения активности познания. В этом деле подчеркивается производительность внедрения методов интерактивных занятий, интеграционных уроков, современных информационных технологий, современных технологий оценивания и внеклассных занятий. Также подчеркивается роль учебных ситуаций, которые позитивно направляют интересы школьников для создания и развития активности познания, указываются барьеры и методы их устранения в процессе занятий школьников. В статье также освещена степень внедрения понятия активности познания в научно-методической литературе. Подчеркивается актуальность проблемы.

Sh.I.Mirzoeva

Improving Cognitive Activity in Senior Students

Summary

The notion and structure of cognitive activity is explained in the article. It indicates the ways of improving cognitive activity. The article emphasizes efficiency of use of the interactive training methods, integrative courses, ICT, modern evaluation techniques. The importance of utilization of tasks directing the attention to positive situations is used for creating and developing cognitive activity. Furthermore, problems encountered during training and the ways for their prevention is indicated. The article also states the concept of cognitive activity in scientific and methodic literature. The importance of the problem is stressed out.

Rəyçi: p.e.d., prof. H.Ə.Əlizadə

Redaksiyaya daxil olub: 06.02.2017

Z.A.MUSAYEVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

YENİYETMƏLƏRİN ƏXLAQ TƏRBİYƏSİNDƏ İSLAM DƏYƏRLƏRİNDƏN İSTİFADƏ

Açar sözlər: *İslam dəyərləri, əxlaq tərbiyəsi, Məhəmməd Peyğəmbərin (ə.s.) kəlamları, dini ayinlər, tərbiyəvi motivlər*

Ключевые слова: *Исламские ценности, нравственное воспитание, высказывания пророка Мухаммеда, религиозные обряды, воспитательные мотивы*

Keywords: *Islamic values, moral education, sayings of the Prophet Muhammad, religious ceremonies, educational motives*

İslam dəyərləri, Məhəmməd Peyğəmbərin (ə.s.) kəlamları uşaqlarda əxlaq tərbiyəsinin formalaşmasına böyük təsiri vardır. Peyğəmbərin bu başlıq altında verilmiş kəlamlarında insani münasibətlərin incəliklərinə toxnulur, bu barədə gözəl tövsiyələr verilir. Peyğəmbər hamının və hər bir kəsi bir-biri ilə mehriban olmağa, bir-birinə qayğı göstərməyə, pis işlərdən, pis əməllərdən çəkinməyə çağırmışdır. O, eyni zamanda, ailə münasibətlərinə dair məsləhətlər vermişdir.

Peyğəmbər hər şeydən əvvəl deyirdi: "Valideynlərinizi sevin, onlara hörmət edin, qəriblərə, yoxsullara kömək göstərin, nə xəsis, nə də israfçı olun, xoş əxlaq olun, adam öldürməyin, qəyyum olduğunuz yetimlərin pulunu yeməyin".

Peyğəmbər uşaqları tərbiyə edirdi ki, dünyada hər şeydən gözəl nemət, hər kəsdən yaxın adam anadır. Peyğəmbər bildirirdi ki, ananı hər bir kəsdən artıq sevmək lazımdır. O deyirdi: "Əvvəlinci anamdır, anamdır, anamdır, sonra atamdır, bundan sonra yaxınlıq dərəcəsinə görə qohum əqrabamdır". Əsabələrindən biri Peyğəmbərdən soruşmuşdur: "Hər hansı bir kəsin ən yaxın adamı kimdir?" Peyğəmbər demişdir: anadır.- Bəs ondan sonra ən yaxın adam kimdir? Peyğəmbər yenə də eyni cavabı vermişdir. – Bəs ondan sonra? Peyğəmbər üçüncü dəfə də: anadır, - demişdir. Bundan sonra isə atanın, qohum-əqrabaların yaxın olduğunu bildirmişdir (5, s.118). "Əgər atanla anan eyni vaxtda səni çağırsa, əvvəlcə ananın yanına get" (5, s.102).

Yaxud da Peyğəmbərin digər bir kəlamı: "Bir adam anasının, atasının üzünə şəfqətlə baxarsa, Allah ona qəbul olunmuş həcc savabı sayar".

Bunlardan əlavə islam dini uşaqlarda mərhəmətli olmaq, rəhmli olmaq, lazım gələrsə xəstəyə baş çəkmək kimi əxlaqi keyfiyyətləri də aşılayır. Məhəmməd Peyğəmbər deyir ki, xəstənin yanına gedib gələndən sonra özünü cənnətdə hiss edəcəksən. Uşaqları tərbiyə edir ki, xəstə yoldaşlarınızı unutmayın, tez-tez onlara baş çəkin, ancaq çox oturmayın, çünki xəstənin yanında çox oturmaq xəstəyə narahatlıq gətirir, xəstə narahat olur.

Məsələn, Peyğəmbərin (ə.s.) kəlamlarından birində deyilir: "Bir xəstənin hal-əhvalını soruşmağa gedən, oradan qayıdanda cənnət bağında gəzmiş hesab olunur" (1, s.126).

"Savab baxımından ibadətin ən üstünü xəstəyə baş çəkməyə gedəndə onun yanından tez qalxmaqdır. Deməli, xəstənin yanında çox oturmaq, onu söhbətə tutmaq, onu narahat etmək düzgün deyildir" (1, s.123).

İslamın yüksək qiymətləndirdiyi və uşaqlara aşıladığı əxlaqi keyfiyyətlərindən biri də insanpərvərlikdir. İslam öyrədir ki, insan insanları sevməlidir, insanları sevən adam, pis əməllər etməz. Hər bir kəs özündən zəifə kömək etməli, böyüyə ehtiramla yanaşmalı, darda olana kömək etməlidir.

Məhəmməd Peyğəmbərin (ə.s.) kəlamlarında deyilir: "Başqalarının sağ-salamat olmasını istə, sən də buna nail olarsan" (3, s.3). "Bir müsəlman aldadan, yaxud ona qarşı hiylə işlə-

dən, yaxud ona zərər yetirən bizdən deyildir" (3, s.5). "Bir mil yol get, bir xəstənin hal-əhvalını soruş, iki mil get, iki adamın arasını düzəlt, onları barışdır, üç mil get, Allah yolunda din qardaşlarından birini ziyarət et." (3, s.10).

Bu kəlamlarda Məhəmməd Peyğəmbər (ə.s.) tövsiyə edir ki, heç kəsə pislik arzu etmə, özünə rəva bilmədiyini başqasına arzu etmə, heç kəsi aldatma, heç kəsə yalan danışma, Peyğəmbər deyir ki, yalanı o zaman demək olar ki, bu yalan kiminsə həyatını xilas edəcəkdir.

İslamda yüksək qiymətləndirilən və uşaqlara aşılanan əxlaqi keyfiyyətlərdən biri də doğruçuluqdur, düzlükdür. Bu nəcib keyfiyyətlər min illər ərzində bəşər cəmiyyətinin inkişafında, zəhmətkeş insanların birgə yaşayışlarının zəruri tələblərindən doğmuş və xalq mənəviyyatı üçün səciyyəvi olmuşdur. İslam uşaqlara öyrədir ki, yalan danışmaq pislik etmək kimi bir şeydir, o deyir ki, yalan danışan adamın yeri cəhənnəmdir. Məsələn, Məhəmməd Peyğəmbərin kəlamlarında belə deyilir: "Doğruçu olun, çünki doğruçu olmaqla yaxşılıq etmək bərabərdir. Həm doğru danışanın, həm də yaxşılıq edənin yeri cənnətdir. Dilinizə yalan gətirməyin, çünki yalan danışmaq pislik etmək kimi bir şeydir, yalan danışanlar və pislik edənlər cəhənnəmlikdir. Tanrıdan yapışın, yahşı adamlara inam etiqaddan sonra can sağlığı diləyin, çünki bu iki şeydən başqa insan üçün xeyirli bir şey yoxdur" (4, s.126). Məhəmməd Peyğəmbər həm də deyir ki, bir-birinizə həsəd aparmayın, lovğalanmayın, bir-birinizə qənim çıxmayın, bir-birinizə arxa çevirməyin. Tanrı qulları, Tanrı necə buyurmuşsa, eləcə də qardaş olun." (4, s.126). Məhəmməd Peyğəmbər həm də öz kəlamlarında bütün insanlara, o cümlədən uşaqlara tövsiyə edir ki, " Ancaq iki şeyi: doğru sözü və doğru yolu əsas tut. Həqiqət sözün ən gözəli Allah sözüdür. Tutulan doğru yolun ən gözəli Məhəmmədin axtarıb tapdığı həqiqət yoludur. Məhəmməd Peyğəmbər (ə.s.) öz kəlamlarında həm də bizi tərbiyə edir ki, özündən zəifləri görəndə onlara əl tut, onlara kömək et. O söyləyir: "Hansı əmək yaxşıdır? - İnsanın ürəyini sevindirmək, acları yedirtmək, darda qalanları kömək etmək, əldən düşənlərin kədərlərini azaltmaq və ziyan çəkənlərin səhvini düzəltmək" (2, s.45).

Məhəmməd Peyğəmbər buyurur ki: "Allahın ən çox sevdiyi ev, içərisində yetimin hörmət gördüyü evdir", "Allahın nəzərində ən sevimli yemək, üstünə çox əl uzanan yeməkdir". Bununla islam dininin banisi bildirir ki, hər kəs, özündən zəif olana kömək etsin, lakin Peyğəmbər buyurur ki, bunu etdikdə o gileylənməməli, tez-tez bunu gözə soxmamalıdır. O deyir: "Kim bir yetimi, yaxud iki yetimi evində saxlayıb böyüdürsə və çəkdiyi əziyyətə görə gileylənmirsə o, cənnətə gedər" (2, s.131).

"Allah kimin əli ilə müsəlmanı sıxıntıdan qutarırsa, o adamı həm bu dünyada, həm də axirət dünyasından qutarar, xilas edər" (2, s.131). Yaxud: "Acların deyil, yalnız toxların dəvət edildiyi ziyarət məclislərindəki yemək, ən pis yeməklərdir" (2, s.117).

Məhəmməd Peyğəmbər (ə.s.) buyurur ki, Allahın bütün yaratdıqlarına acımayın, əgər müsəlman qardaşlarınızdan ürəyindən nə isə keçirsə və həmin şeyi ona vermək imkanı varsa, bunu ondan əsirgəmə. Məhəmməd Peyğəmbər (ə.s.) deyir: "Birisi, müsəlman qardaşını könlündən keçən şeylərlə yedizdirirsə, cəhənnəm əzabından azad olar; (6, s.139) "Mömini sevindirmək, onun borcunu ödəmək, onu ehtiyacdan qutarmaq (onu sıxıntıdan qutarmaq) ibadətlərin ən üstünləridir" , "Şübhə yoxdur ki, verilən sədəqə dilənçinin əlinə düşməzdən əvvəl Tanrıya agah olur" , "Allah deyir ki, məndən rəhm istəyirsinizsə, bütün yaratdıqlarıma acıyın" (6, s.130).

Yaxud " Ulu Tanrı, əgər bir qulun qəlbinə mərhəmət verməyibsə, o qul hər şeydən məhrumdur". Burada Həzrəti-Peyğəmbər bildirir ki, hər bir kəs mərhəmətli olmalıdır, mərhəmətli olmaq insana Tanrı tərəfindən verilir. Tanrı tərəfindən insana mərhəmət verilmirsə, həmin adam dünyada hər şeydən məhrumdur. İslam həmçinin insanların bir zəifə, bir yoxsula yardım etməsini bir aylıq ibadətə bərabər edir. Məhəmməd Peyğəmbər buyurur: - "Qulun qardaşına bir günlük yardımı, onun bir bucağa çəkilib bir ay ibadətlə məşğul olmasından xeyirlidir" (6, s.131). "Allah sıxıntıya düşənin yardımına qoşulanı sevər" (6, s.144).

Həmçinin, islam bildirir, insan öz əlinin zəhməti ilə özünə ruzi qazanmalıdır, uşaqları da tərbiyə edir ki, zəiflərə, gücsüzlərə kömək etsinlər ki, onlar dirçəlsinlər, özlərinə öz əllərinin zəhməti ilə ruzi qazanmağa onlara kömək etsinlər.

"Birimizin ip götürüb dağa qalxması, orada kol-kos qırması, onu satandan sonra qazancını yeməsi və bu qazancdan sədəqə verməsi xeyirlidir" (3, s.5).

İslam uşaqlara belə tövsiyə verir: "Qəlbinin incə olmasını, ehtiyaclarının ödənilməsinin istəyirsənsə, yetimin halına acı, əlini başına çəkib onu oxşa, yediyin şeydən ona da ver, qarnını doyur, belə etsən qəlbin də incələşər, ehtiyacın da ödənilər" (4, s.10). Burada islam uşaqlara tövsiyə edir ki, mərhəmətli insan olmaq üçün insanın qəlbi incə olmalıdır. Bunun üçün o, özündən zəiflərin halına yanmalı, əlindən gələni onlar üçün etməlidir.

Ədəbiyyat

1. Qüdrətov O., Qüdrətov N. Məhəmməd Peyğəmbər: Həyatı və kəlamları. Bakı, 1990.
2. Seyidov F. Ə. Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair. Bakı, 1997.
3. 1411-1412, 1991-1992. "Təqvim".
4. Qurani-Kərim. Bakı: Azərnəşr, 1992.
5. Qurani Kərim (Azərbaycan Türkcəsində açıqlama). Bakı: Azərnəşr, 1993.
6. Əhmədov Əhmədağa. Nakamül-Quran (I kitab). Bakı: Öyrətmən, 1994.

З.А.Мусаева

Использование исламских ценностей в воспитании подростков

Резюме

В статье высказаны высоконравственные и воспитательные изречения из Корана, суть которых интерпретируется с точки зрения современных воспитательных требований и покАзаны формы и места использования этих изречений.

Статья имеет теоретическое и практическое значение в моральном воспитании школьников.

Z.A.Musayeva

The use of Islamic values in the education of adolescents

Summary

The article expresses highly moral and educational sayings from the Koran, which are interpreted from the point of view of modern educational requirements and shows the form and place the use of these sayings.

The article has a theoretical and practical significance in the moral education of students.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 10.12.2016

E.A.NƏZƏRƏLİYEV
E-mail: nazaraliyev_elnur@mail.ru

AMEA-nın Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutu
(Bakı şəh., İstiqlaliyyət küç., 26)

ELM VƏ TƏHSİLƏ İNFORMASİYA XİDMƏTİ LAYİHƏLƏRİNİN KOMMERSİYA XASSƏSİ

Açar sözlər: *Kitabxana-informasiya təminatı, informasiya proseslərinin kommersiyalaşması, qlobal informasiya məkanı*

Ключевые слова: *Библиотечно-информационное обеспечение, коммертизация информационных процессов, глобальное информационное пространство*

Key words: *library and information support, commercialization of information processes, global information world*

Qloballaşma təhsil sistemindən də kənarda qalmadı. Təhsil standartları təkmilləşdikcə beynəlxalq təcrübənin öyrənilməsi mütəmadi həyata keçirilirdi dünya təcrübəsi öyrənilirdi. Lakin 1990-cı ildən artıq qlobal çağırışlara cavab olaraq "Bolonya prosesi" işə düşdü.

Müasir dövrdə kitabxanaların elm və təhsil proqramları ilə qarşılıqlı əlaqələrini öyrənmək, onu proqnozlaşdırmaq və optimal modelini qurmaq ölkədə elm və təhsilə informasiya xidmətinin düzgün təşkili baxımından əhəmiyyətlidir. Tədqiqatlar göstərir ki, elm və təhsilin informasiya təminatı qloballaşırsa eyni zamanda bu proses sürətlə kommersiyalaşır. Bu baxımdan "Mendeley"in, eləcə də bir çox informasiya resursların təcrübəsi diqqəti cəlb edir.

Mendeley - biblioqrafik məlumat kütlələrinin idarəolunması məqsədi ilə tərtib olunmuş pulsuz proqram təminatı olaraq yaradılmışdı. Bu proqram PDF formatında məlumatın sistemli mühafizəsini və istifadəsini, eləcədə alim və tədqiqatçıların sosial şəbəkələrinə əlçatarlılıq təmin edirdi. Londonda, 2007-ci ildə nüfuzlu İT şirkətləri (Last.fm, Skype, Warner Music Group) eləcədə Kembric və Cons Xopkins universitetləri alimləri tərəfindən yaradılmış bu layihə böyük uğurla işə başladı və 2013-cü ildə Elsevier tərəfindən satın alındı. Bu zaman elmi ictimaiyyət proqramın ümümaçıq olması ilə əlaqədar öz narahatlığını bildirməyə başladı. Beləliklə dövriyyəyə daxil olan bütün uğurlu layihələr az bir müddətdə əmtəələşir və kommersiya alətinə çevrilir.

Elsevier – dünyanın 4 nəhəng nəşriyyat evindən biridir. Burada dünyanın elmi məqalə və elmi jurnallarının hər il 25 faizi çap olunur. **Elsevier 1880-cı ildə Amsterdamda (Niderland) yaranmış və hal hazırda İngiltərədə, ABŞ, Braziliya** və bir sıra digər ölkələrdə filialları fəaliyyət göstərməkdədir. Dünya elmi və təhsilinin inkişafında əhəmiyyətli roku ilə yanaşı müəssisə maliyyə siyasəti və müəllif hüququ sahəsində bir çox tənqidlərə məruz qalmaqdadır.

Elsevier 1960-1970-ci illərdə xüsusilə inkişaf mərhələsi keçmişdi. Bu inkişaf 1960-cı illərdə dünyada baş verən informasiyanın avtomatlaşdırılması və mexanikləşdirilməsi sahəsində aparılan aktiv fəaliyyət ilə bağlı idi. Bu illərdə nəşriyyat evi çox sayda akademik materialların, qeyri kommersiya jurnalların alınmasına və onların qiymətlərini qaldıraraq abunəçilərini itirməməyə müyəssər oldu. Beləliklə, 2003-cü ildə humanitar elmlər çıxmaq şərti ilə dünyada çap olunan elmi məqalələrin 28 faizini öz əlinə keçirdi.

1999-cu ildə Science Direct platforması yaradıldı və onlayn internet mağazaya inteqrasiya olundu. 2004-cü ildə Science Direct əsasında Scopus onlayn resurs məlumat bazası yaradıldı. Elsevier hal-hazırda təxminən ildə 250 min məqaləsi olan 2000 elmi jurnal çap edir və arxivləşdirilmiş halda 7 milyon çap vahidini xidmətə verir. 2010-cu ildə Elsevierin kapitallaşdırılması 18 milyard ABŞ dollar təşkil etmişdi.

Elsevier dünyanın 180 ölkəsinin 4500 təşkilat və universitetlərinə öz arxivlərinə əlçatarlıq verməkdədir. Bu müəssisələrin 30 milyon alim və mütəxəssisi il ərzində bu arxivlərdən istifadə edərək 240 milyon elmi məqalənin yüklənilməsi təmin olunur.

2015-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Thomson Reyterlə" əməkdaşlığının başlaması respublikanın 40 aparıcı təhsil müəssisəsinin "Web of Science" platformasına qoşulmasını nəzərdə tuturdu. Bu baxımdan adı çəkilən müəssisənin Azərbaycan elm və təhsilində oynaya biləcək əhəmiyyətli rolu nəzərə alaraq, onun yaranması, inkişafı, müasir informasiya xidmətlərinin araşdırılması vacibdir.

Thomson Reuters – biznesə və peşəkarlara analatik məlumat məhsulları, məlumat bazaları sahəsində dünyada lider təchizatçıdır. Hal-hazırda Avropa ölkələrində, o cümlədən Azərbaycanda da elmin inkişaf səviyyəsi Thomson Reuters resurslarında iştirak etmə dərəcəsi ilə müəyyənləşdirilir.

Bu təşkilatın yaradıcısı 1816-cı ildə Almaniyanın Kassel şəhərində anadan olmuş, mənşəcə yəhudi olan İsrael Yoşafat adlı bir şəxsdir. Sonralar adını və dinini dəyişərək Pol Culius Reyter adı ilə 1851-ci ildə Reyter müəssisəni təsis edir və uğurlu bir jurnalist olaraq fəaliyyətə başlayır. Bu şirkət bütün fəaliyyəti müddətində daima yenilikləri dəstəkləyib, 1923-cü ildə radionun yaranması prosesində onu dəstəkləyir və 1980-cı illərdə kompüter texnologiyalarının yaranması mərhələsində də o cümlədən bu prosesləri dəstəkləyir və sürətlə inkişaf edirdi.

"Thomson Reyter" bir çox digər sistemlərdən fərqli olaraq Windows sisteminə əsaslanmayan, kifayət qədər bahalı və etibarlı olan Uniks sisteminə əsaslanıb. Eləcə də elm və təhsil sistemi ilə yanaşı müxtəlif təcrübə sahələrinə unikal informasiya xidməti təklif edir. "Thomson Reyters"in bütün resursları diqqəti cəlb edən informasiya məhsullarıdır.

Hal-hazırda Thomson Reuters müəssisəsinin bütün dünyada çalışan 50 min yüksək kvalifikasiyalı əməkdaşı mövcuddur. İllik dövriyyəsi 12 milyard, illik gəliri 2 milyard ABŞ dolları təşkil edən Thomson Reuters dünya informasiya bazarında əhəmiyyətli "oyunçudur". "Thomson Reyterin diqqəti cəlb edən informasiya məhsulları əsasən aşağıdakılardır:

- **Thomson Reuters Eikon** – Metastock Pro adlı tamfunksional ticarət kompleksi.Tam analitik alətlərə malik informasiya təminatlı.
- **Thomson Reuters Elektron** – Eikon Messenger adlı informasiya sistemi və ticarət platformu.
- **Lipper** – Fondlar və aktivlərin idarə olunması üçün intellektual analitik sistem.
- **Thomson Reuters Dealing** – 128 ölkəyə aid və 18 min termin və anlayışı özündə toplayan bank razılaşmaları və sənədləri.
- **Thomson Reuters Eikon Messenger** – Maliyyə müəssisələri mütəxəssislərinin elektron kommunikasiya sistemi.

2010-cu ildən Rusiya Federasiyası ilə aparılan danışıqların nəticəsi olaraq Thomson Reuters Rusiya elmi jurnalların məlumat bazası əsasında yaradılmış (Российский индекс научного цитирования -РИНЦ) Rusiya elmi isnadlar indeksini öz platformasına daxil etdi. Thomson Reuters və eLibrary.ru Rüsiyada çap olunan ən nüfuzlu jurnal və elmi monoqrafiyaları özünün Web of Science platformasına daxil etdi. 2016-cı ildə Rusiya Federasiyasında çap olunan 600 nüfuzlu elmi jurnal Thomson Reyterin bazasına daxil edildi.

Tomson Reyter dünyada çap olunan elmi jurnalların biblioqrafik analizlərini hazırlayır və çap etdirir. Məsələn, 2003-2013-cü illərdə müxtəlif elmi jurnallarda məqalələri çap olunan 3000 elm xadiminin 120 min məqaləsinin göstəricisi tərtib olundu. Bu göstəricidə dünyada ən yüksək reytinqli alimlər, məqalələr, elmi müəssisələr, qabaqcıl elmi istiqamətlər, innovasiyaların tətbiqi, impakt faktoru və s. əhəmiyyətli analitik göstəricilər öz əksini tapır.

Kommersiya funksiyalı informasiya müəssisələri içərisində məlumat axtarışı instrumentlərinin mükəmməlliyi ilə fərqlənən ən müasir struktur "Thomson Reyterdir". Bu strukturun öyrənilməsi və xidmət işinin təşkilində özəllikləri müstəqil tədqiqat obyekti ola bilər.

Bununla yanaşı, qlobal informasiya məkanında çox sayda dünyanın nüfuzlu informasiya müəssisələri müxtəlif sahələrdə informasiya xidmətini göstərməkdədirlər. Bu resurslardan istifadə etmək imkanları hər bir resursun təsisçilərinin irəli sürdüyü xüsusi layihələrlə hesablanır və müxtəlifdir. İnformasiya resurslarından istifadə qiymətləri dünya təcrübəsində hələdə vahid norma və standartlara əsaslanmır. Beynəlxalq səviyyədə sahəvi informasiya resurslarının kommersiya xassəli xidmətini təşkil edən nüfuzlu müəssisələr əsasən aşağıdakılardır;

CHEMICAL Abstracts Service sənədlərin çatdırılması xidməti CAS verilənlər bazasında (8 000 jurnal) olan sənədləri və patentləri təqdim edir.

CİTADEL xidməti vasitəsilə 20 bazaya daxil olmaq mümkündür. 5 baza üzrə çatdırma poçt, faks və ya ARİEL vasitəsilə həyata keçirilir (Verilənlər Bazası UMI və Inside Information of BLDSC).

FAXONFinder-1990-cı ildən 10 000 jurnal göstəricisini əhatə edir.

FIRSTSEARCH (OCLC)- OCLC-in Articl First (15 000 dövri nəşr) daxil olmaqla öz bazalarına, və lisenziyalı verilənlər bazalarına (55 baza) daxil olmaq imkanı yaradır.

THE GENUINE ARTICLE (ISI)-ABS Elmi Məlumat İnstitutu ISI bazasında birləşmiş 7 000 jurnal məqaləsini əldə etmək imkanı yaradır.

UNCOVER (Knight-Ridder) - CARL (Kolorado elmi kitabxanalar alyansı) tərəfindən yaradılan verilənlər bazasıdır. İnternet vasitəsilə sərbəst daxil olmaq mümkündür. 16 000 dövri nəşrin biblioqrafik verilənlərindən ibarətdir.

LexisNexis kompaniyası kütləvi kitabxanalar üçün yaratdığı Library Express adlı yeni MB-nı təqdim etdi. Library Express ilk dəfə Amerika Kitabxana Assosiasiyasının Kaliforniyada keçirilən illik Konfransında təqdim olunmuşdur. Kitabxanaçılar bu bazanın Academic Library bazasına oxşar olduğunu, lakin ondan ucuz və həcmcə kiçik olmasını qeyd edirdilər. Baza xəbərlər, hüquq və biznes-məlumatlarına dair 6 000 mənbəyi əhatə edirdi.

Institute Electronic Engineers (IEEE). Araşdırmalardan məlum olur ki, verilənlər bazalarında liderlik ABŞ-a məxsusdur. İkinci yerdə Böyük Britaniyadır. Rusiya bu cəhətdən 15-ci yerdə qərarlaşır (2010-cu ilin göctəricilərinə görə). Bu isə Rusiya elmi jurnallarının qiymətlərinin baha olması ilə əlaqədardır. Rusiya ABŞ-dan 49 dəfə az elmi jurnal nəşr edir. Lakin, onların qiyməti Amerika jurnallarından 4 dəfə bahadır.

JSTOR - Bu ingilis dilli xarici jurnalların elektron surətlərinin arxividir. Resursların əsas hissəsini nüfuzlu elmi nəşrlər təşkil edir. Lakin, JSTOR-da jurnalların sayı o qədər də çox deyil (360 adda). Buna baxmayaraq, bu bazada həqiqətən aparıcı mövqedə olan jurnallar toplanmışdır. Elektron kitabxananın əsas cəhəti onun arxiv layihəsidir. Buraya jurnalların ilk nəşr olunduğu gündən etibarən bütün nömrələri daxil edilmişdir.

Ulrich's Periodicals Directory - Xarici dövri nəşrlərə dair beynəlxalq biblioqrafik bazadır. Burada 250 000-dən artıq jurnal, seriyalı nəşrlər, qəzetlər, elektron nəşrlər haqqında 200 dildə məlumat verilir.

Global Books in Print - Aparıcı beynəlxalq biblioqrafik verilənlər bazası olmaqla dünyanın bütün ölkələrindən 9,2 milyon kitabı əhatə edir.

2000-ci ilin dekabrında ABŞ Konqresi “Public Law 106 - 554” adlı qanun qəbul etdi və bu qanun sənədlərin rəqəmsallaşdırılaraq qorunub saxlanılmasının əhəmiyyətini qeyd etdi. Artıq 2007-ci ildə Konqres kitabxanası 142 milyonluq fondunun 10 faizini rəqəmsallaşdırmışdı. İlk növbədə kitabxanada saxlanılan və 1923-cü ilə qədər olan çap məhsullarını və sənədləri rəqəmsallaşdırmaq qərarı alındı.

Rəqəmsal məkanda yaradılmış və uğurla fəaliyyət göstərən “Dünya rəqəmsal kitabxanası” 12 min nüsxə elektron kitabı açıq əlçatarlığa təqdim etdi. Elm və təhsilə informasiya Xidmətinin kommersiyalaşmasının alternativi olaraq 2000-ci illərin əvvəllərində ABŞ Konqres Kitabxanasının təşəbbüsü ilə yaranan ***World Digital Library tədricən*** formalaşdı və 2007-ci

ildə bu layihəyə Rusiya (Rusiya Milli Kitabxanası) qoşuldu. Bu layihənin 2009-cu ilin aprel ayının 21-də rəsmi açılışı elan edildi.

Dünya Rəqəmsal Kitabxanası aşağıdakı vəzifələri qarşıya qoyurdu:

- Beynəlxalq və mədəniyyətlərarası əlaqələrə dəstək olmaq.
- Qlobal informasiya məkanında mədəni informasiya kütləsinin həcminin və rəngarəngliyinin təmin olunması.
- Pedaqoqlara, alimlərə və bütün maraqlı tərəflərə resurslara əlçatarlıq təmin etmək.
- Ölkə daxili və xarici əlaqə yaradan patnyor təşkilatların rəqəmsallaşmada və yeni texnologiyaların tətbiqində yarana biləcək fərqlərin aradan götürülməsi.

Açılış günü kitabxananın 1170 nüsxə rəqəmsal fondu yaradılmışdı. E-kitabxanada 2013-cü il avqust ayının 5-nə olan resursların vəziyyəti aşağıdakı kimi idi: Cəmisi 8397 obyektdə əlçatarlıqla fəaliyyətə başlayan e-kitabxana mütəmadi öz resurslarını artırmağa başladı. Halhazırda resursların sürətlə artımı ilə yanaşı, resursların rəngarəngliyi də müşahidə olunur.

Fransa Milli Kitabxanası da 1997-ci ildən Gallica layihəsini həyata keçirməyə başladı. Bu layihə əsasında az bir müddətdə 80 min kitab və 70 min sənəd rəqəmsallaşdırılaraq aşıq əlçatarlığa qoyuldu. ABŞ konqres kitabxanası kimi Fransa milli Kitabxanasının da layihəsi qeyri kommersiya layihəsi idi və son məqsəd elm və təhsil sisteminin məlumat təminatının kommersiya asılılığını aradan götürmək idi. 2015-ci ildən başlayaraq Paris meriyasının tabeliyində olan 14 dünya şöhrətli muzeyin bir milyondan artıq eksponatı "yüksək icazəli" rəqəmsallaşmış versiyaları şəbəkədə açıq əlçatarlığa qoyuldu. Bu eksponatlardan 180 mini haqqında saytlarda biblioqrafik resurslara istinad olunaraq tam annotasiyalı məlumat təqdim olunur. Sayt konkret məlumatı konkret muzeylərin fondlarında axtarmaq eləcə də, müəllif, tematik və coğrafi əlamətlərinə görə sorğularla axtarmaq imkanı verir. Bu saytın ən əhəmiyyətli özəlliyi ondan ibarətdir ki, sərgi salonlarında çox az nümayiş edilən eksponatlar yer alır. Nəzərdə tutulur ki, hər il bu kolleksiyaya yüz min eksponat əlavə edilməlidir.

Ədəbiyyat

1. Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı,Azərnəşr, 2013, 368 s.
2. Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı //A.Qurbanov, P.Kazımi, N.İsmayılova// Bakı, Mütərcim. 2012, 308 s.
3. http://www.wdl.org/ru/
4. www.gallica.bnf.fr
5. www.parismuseecollections.paris.fr

Э.А.Назаралиев

Коммерческий характер информационного обслуживания науки и оброзования

Резюме

Статья исследует современные вызовы в информационном обеспечении образования и науки в условиях информационного общества. Сделана попытка формирования структуры библиотечно-информационного обеспечения науки и образования в условиях коммерциализации информационных процессов. Предложена методика проектного менеджмента в библиотечно-информационном обеспечении науки и образования. Как известно, исследование исторического опыта и практики показывает, что с древнейших времен до настоящих дней связи библиотеки с образованием, и библиотеки с наукой обеспечили целенаправленную эволюцию и развитие культурного человеческого общества.

E.A.Nazaraliyev

Modern problems of information service for science

Summary

The article explores the current challenges in the information support of education and science in the information society. In the article it was tried to form the structure of library and information support of science and education in commercialization of information processes. The methods of project management in library and information support of science and education was reflected. As it is well known, the study of the historical experience and practice shows that from ancient times to the present day due to the formation of the library, and library science have provided purposeful evolution and cultural development of human society.

Rəyçi: filol.f.d., dos.A.Ramazanova

Redaksiyaya daxil olub: 10.02.2017

Q.QƏHRƏMANOVA
psixologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: asil_zade@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

TƏLƏBƏLİK DÖVRÜNDƏ YARANAN ƏSAS SOSİAL VƏ GENDER ZİDDİYYƏTLƏRİN SƏBƏBLƏRİ

Açar sözlər: *sosial ziddiyyətlər, kollektivdə gender fərqləri, natamamlıq kompleksi,cinsi fəaliyyət, cinsi rollar*

Ключевые слова: *гендерный конфликт, половое различие в коллективе, комплекс неполноценности, гендерная деятельность, половая роль*

Key words: *gender conflict, sex differences, gender activity, sex role*

Tələbəlik dövründə şəxsiyyətin inkişafını aktuallaşdıran psixoloji ziddiyyətlərdən başqa gələcək şəxsi inkişafın həllinə imkan verən sosial-pedaqoji qarşıdurmanı da ayırd etmək olar. Tələbələrin şəxsi inkişaf probleminin təhlili, ali məktəblərdə onların təlim şərtlərinə uyğunlaşması aşağıdakı ziddiyyətləri bildirməyə imkan verir. Tələbəlik dövrü ərzində yaranan əsas sosial ziddiyyəti, tələbələrin artması ilə (fiziki, iqtisadi, mənəvi) və zamanın məhdudlaşmış limiti, aktual tələblərin yerinə yetirilməsi üçün iqtisadi imkanların çatışmazlığı ilə xarakterizə edilən, mövcud həyat şərtləri ilə bitən, şəxsiyyətin yeni sosial statusunun mövcudluğu arasında ziddiyyəti hesab edirlər.

Başqa tərəfdən, tələbələrin özünüdərketməsində yaradıcılıq nəticələri, onların sosial statusunda, həyat fəaliyyətinin müxtəlif aspektlərində təzahür edən, müstəqilliyə yönələn cəhddir. Bu səylər pedaqoji xarakterik qarşıdurmasının yaranması kimi yaşlı nəslin adamları (valideynlər, müəllimlər və b.) tərəfindən anlaşılmazlıqla qarşılaşır. Belə qarşıdurmalara didaktik mahiyyəti, məzmun, forma, təlim metodlarının müstəqil seçimi və verilən standartlar, tədris planları, proqramlar üzrə müəyyən profilli mütəxəssislər hazırlayan ali təhsil müəssisələrinin tələbləri ilə təcrübəsi olan müəssisələri aid etmək olar. Bu qarşıdurmanın başqa bir tərəfi – müxtəlif kanallar vasitəsilə (zaman etibarı ilə, psixoloji, məişət və s.) və onun adekvat emalının resurslarının yoxluğu vasitəsilə hərəkət edən, insana əvvəlcədən tanış olmayan yeni informasiyanın bolluğudur və bu da nəticədə informasiyanın əhəmiyyətinin qeyri – adekvat qiymətləndirilməsinə gətirib çıxarır.

Ali məktəblərə daxil olma, gənc insanın sosial rolunun, əvvəlki həyat şəraiti ilə müqayisədə böyük gərginliyin ehtimal edildiyi həyat tərzinin sosial əhatəsinin dəyişməsini şərtləndirir. Artan gərginlik ali məktəblərdə təlim şərtlərinə tələblər sisteminin dəyişməsi ilə bağlıdır, bu da tələbələrin təlim fəaliyyəti stereotipinin dəyişməsini, fəaliyyətin bu növünün yerinə yetirilməsinə görə funksional cavabdehlik sisteminin yenidən yaradılmasını aktivləşdirir. M.S.Yanitski öz tədqiqatlarında qeyd edir ki, tələbələrin fəaliyyətinin formal şərtləri nəzərdə tutulan nəticəyə çatmaq üçün təsəvvür edilməz böyük gərginlik tələb edir, buna görə də bu dəyişikliklərə adaptasiya dövrü fasiləsiz dəyişən tədris planı və proqramlarının ali məktəblərdə bütün təlim dövrü ilə praktiki olaraq uyğun gələ bilər [11, 110]. A.A.Qreysman ali məktəblərdə didaktogen problemini tədqiq edərək, şəxsiyyətlərarası ziddiyyət məsələlərinə toxunur [6, 164]. Müəllifin fikrincə, bu ziddiyyətlər onların psixoloji dezadaptasiyasının əsasını təşkil edir. Tələbəlik həyatının müxtəlif aspektlərini nəzərdən keçirərək, müxtəlif dezadaptasiyanın iki qrupunu ayırd edir. Birinci, didaktogen qrup, təlim prosesinin özündə stress vəziyyəti ilə bağlıdır (yoxlamalar, imtahan təcrübələri və s.).

Utancaqlıq, tipoloji qərarsızlıq, həyəcanlı bədgümanlıq, yaxud süstlük kimi belə şəxsi xüsusiyyətlərlə birləşmədə çaşqınlıq, pərtlik, pis hala düşmə, həyəcan, gərginlik kimi stressor vəziyyətlər yaranır. İkinci dezadtasion qrup seksual ailə - nikah tematikası ilə əlaqəlidir (disfunksional valideyn ailəsi, cinsi rol ziddiyyətləri, ailə tərbiyəsinin çatışmazlıqları, xüsusi ailənin qurulmasında psixoloji çətinliklər və s.). Buna görə də müəllif tədris qrupunda (38,4%) və ailə sferasında (20,6%) tələbələrin şəxsiyyətlərarası münasibətlər sistemində pozuntuların əhəmiyyətli göstəricilərini nümayiş etdirir. Ali məktəblərin tədris prosesində tələbələrin dəyər sferasında şəxsiyyətlərarası ziddiyyətlərin tədqiqi Q.M.Dubçak tərəfindən həyata keçirilmişdir [7, 4]. Alınmış məlumatalara əsasən, ziddiyyətlər maddi təlimat, xüsusi sağlamlıq və ailə həyatı kimi belə həyati dəyərlərin əhəmiyyəti arasında yaranır. Həm də tədqiqatçılar belə güman edirlər ki, tələbələrin şəxsiyyətlərarası ziddiyyətlərinin indikatoru kimi "Mən real" və "Mən – ideal" arasında ziddiyyət çıxış edir.

E.V.Prokonyeva gələcək psixoloqların peşəkar inkişaf proqramını işləyib hazırlayaraq belə nəticəyə gəlir ki, peşəkarlığın başlanğıc mərhələlərində gənc mütəxəssislərin "Mən" konsepsiyası komponentlərinin iki qrupunu - struktur (bütövlük, subyektin təqdim olunmuş münasibətlərinin aparıcı forması, uyğunluq, genişlik) və məzmun – psixoloji (subyekt – obyekt mənsubiyyətliliyi, özünü peşəkar qrupdakı kimi qəbul etmə və qəbul etməmə) ayırd edərək ixtisaslaşmanın müxtəlif mərhələlərində onların transformasiyasını önə çəkir [10, 51]. Peşəkar inkişaf böhranını müşayiət edən ziddiyyət situasiyalarının təhlilinə nəzər salaraq, E.F.Zeyer aşağıdakı növləri ayırd edir:

-Tədris - peşəkar və peşəkar fəaliyyətin tədris fəaliyyətinin məzmunu ilə həyata keçirilmə texnologiyalarının qeyri – məmnunluğu ilə şərtləndirilən koqnitiv fəaliyyət;

-Təlimə marağın motivasiyalı, determinasiya edilmiş itkisi, peşəkar artım perspektivlərinin peşəkar qurğu, adaptasiya, pozisiyaların dezinteqrasiyasının nəzərə çarpmaması;

-Kollektivdə, şəxsiyyətlərarası münasibətlərdə qarşıdurmadan asılı davranış, özünün sosial statusu, rolu, qrupda vəziyyətlə bağlı qeyri – məmnunluq [8, 205].

Adətən belə ziddiyyətlər bütövlükdə xüsusi refleksiya ilə öz xüsusiyyətlərinin, imkanlarının təhlili, peşəkar tədris situasiyasının təhlili ilə müşayiət olunur. Ali məktəblərdə təlimin müxtəlif mərhələlərində şəxsiyyətlərarası ziddiyyətləri şərtləndirən ziddiyyətlərə baxaq. Ali məktəblərə daxil olduqda müəyyən zaman aşkarlanır ki, ali məktəbdə təlim ona hazır "reseptlər" və gələcək peşəkar fəaliyyətin yerinə yetirilmə alqoritmini vermir. Müəyyən bir dərəcədə gələcək peşəkar fəaliyyətin alqoritmini formalaşdırmağın mümkünsüzlüyü təhsil prosesinin xüsusiyyəti, onun təcrübi istiqamətlənməsi ilə şərtləndirilmişdir.

Tələbə gələcək peşə seçiminin motivləri ilə təsəvvürlərin ideallaşmasını, yararsızlığı dərk etməyə başlayır. Göründüyü kimi, öz gələcəyinə görə qorxu və həyəcanın yaranması, alınmış biliklərin dissonansı ilə səslənən gələcək ixtisası seçməyə həvəs oyatdı. Yuxarıda sadalanan hadisələr, tələbəlik dövrü üçün xarakterik olan peşəkar inkişafın normativ böhranları ilə üst-üstə düşərək ziddiyyətlərin axınını kəskinləşdirir. E.F.Zeyerin tədqiqatlarına əsasən peşəkar hazırlıq mərhələsində, təlimin birinci və sonuncu kursunda aydın şəkildə təzahür edən peşəkar seçim böhranı yaranır.

Hazırki böhran ayrı-ayrı tədris predmetlərinə qeyri – məmnunluqla, ixtisas seçimində düzgünlük şübhəsinin yaranması, təhsilə marağın və motivasiyanın aşağı düşməsi ilə xarakterizə edilir. Bəzən bu böhran destruktiv tədris-bilik motivasiyasını sosial-peşəkarlığa dəyişməyərək üstün gələ bilər. Peşəkar seçim korreksiyasının böhranının adətən zəif xarakter daşıdığını qeyd edərək, E.F.Zeyer şəxsiyyətin peşəkar inkişafının müstəqil normativ böhranda ayırd etməyi təklif edir. Yuxarıda göstərilən böhran, gələcək mütəxəssisin peşəkar inkişafının qanunauyğun mərhələləri kimi nəzərdən keçirilə bilən, şəxsiyyətlərarası münasibətlərdə "məyus olma böhranı" adlanan şəxsi-subyektiv səviyyədə tələbələrə təsir göstərir, belə ki, ixtisası düzgün seçmədən öz ixtisasında reallaşmaq və mütəxəssis kimi praktiki olaraq mümkün olmayan

ən stessogen hal, özünə görə məyusluqdur. Bununla birgə, bu dramatik anlar gələcək mütəxəssisin ardıcıl şəxsi və peşəkar inkişafı üçün "şansdir".

Bu böhranın konstruktiv həlli "Mən" konsepsiyasının dəyişməsinə, həyati və peşəkar dəyərlərin iyerarxiyasınının yenidən qurulmasına gətirib çıxarır. Dürğun baxışların mümkün dəyişikliklərinə daxili uyğunlaşma, psixoloji müdafiə - "məyus olma" sisteminin işə salınmasını şərtləndirir: tədris müəssisələrində heç vaxt sevilməyən müəllimlərdən, öyrənilən predmetlərdə, gələcək inkişaf perspektivlərində, peşəkar karyeranın qurulmasında məyus olma.

Məqalənin elmi yeniliyi: Məqalədə əsaslandırılmış məsələlər praktik əhəmiyyətə malik olduğu kimi elmi cəhətdən də əsaslandırılıb. Problemin təhlili və həlli yolları məqalənin elmi yükünü artırır.

Məqalənin praktik əhəmiyyəti: Ali təhsil ocaqlarında ,gənclərlə işləyən psixoloq və müəllimlər üçün praktik əhəmiyyətə malikdir.

Məqalənin aktuallığı: Məqalədə vurğulanan məsələlər aktuallığı ilə diqqət çəkir və araşdırılması lazım olann mövzulardandır.

Ədəbiyyat

1. Bayramov Ə.S. Etnik psixologiya məsələləri. Bakı, 1996.
2. Əliyev B.H. Müəllim-tələbə münasibətlərinin təlim prosesinə təsiri. Bakı, 1996.
3. Əliyev R.İ. Psixologiya: Dərs vəsaiti. Bakı: Nurlan, 2008.
4. Əlizadə.Ə.Ə. Azərbaycan güzəran psixologiyası məsələləri. Bakı, 1994.
5. Блажис Р.Р. Анализ состояния психического дискомфорта у студентов: Дис. ... канд. психол. наук. Л., 1987.
6. Гройсман А.А. Психотерапевтические методы в системе профилактики невротических расстройств у студентов: Дис. ... д-ра мед. наук. Л., 1988.
7. Дубчак Г.М. Внутриличностные конфликты студентнів в период обучения в вузе: Автореф. дис. ... канд. психол. наук: Черновцы, 2000. с.
8. Зеер Э.Ф. Психология: Учебное пособие. М.: Академический Проспект; Екатеринбург: Деловая книга,, 2003.
9. Мадорская СМ. Проблема социальной адаптации студентов к учебно му процессу: Дис канд. философ, наук . Минск, 1986.
10. Прокопьева Е.В. Профессиональная Я - концепция психологов (начальные этапы профессионального становления). Дис. ... канд. психол. наук. Ростов: РТУ, 2000.
11. Яницкий, М.С. Основные психологические механизмы адаптации студентов к учебной деятельности: Дис. ... канд. психол. наук. Кемерово, 1995.
12. Temkov J. Psychopathologie und Prophylaxe der gestorten Adaptation in des Ausbildungsprocesse bet Studenien [Text] *I* J.Temkov *II* Psychiatr. Nurol., Med. Psychol., 1975. V.25. №1
13. Universal, E. Nistore nervicordne crynniki u studentov szkol wyzczych. E. Universal, *II* Psychial. Pol., 3.

Г.Гахраманова

Основные причины социальных и гендерных конфликтов в студенческом периоде

Резюме

Несмотря на большой интерес исследователей к проблеме внутриличностных конфликтов, актуализирующимся в студенческом возрасте, данная проблема не рассматривается целостно, анализируются лишь отдельные виды внутриличностных конфликтов, не рассматривается их гендерная специфика.

G.Gahramanova

The main causes of social and gender conflicts in the student period

Summary

Despite the great interest of researchers to the problem of intrapersonal conflicts, actualized in the student's age, this problem is not considered holistically, analyzing only certain types of intrapersonal conflicts, not considering their gender specificity.

Rəyçilər: psixol.e.d., prof. R.İ.Əliyev,
ped.f.d,. S.Q.Həsənli

Redaksiyaya daxil olub: 07.03.2017

D.Q.QULİYEV
professor

S.K.SADIQOV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr, 98)

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Açar sözlər: *xalq, güc, çeviklik, bacarıq, güləş, at çapmaq, qılınc və gürz oynatmaq, nizə və ox atmaq, pəhləvan, "Zorxana", "Milli güləş"*
Ключевые слова: *народ, сила, ловкость, умение, борьба, верховая езда, фехтование, метание копья и стрельба из лука, атлет, "Зорхана", "Национальная борьба»*
Key words: *nation, power, agility, ability, wrestling, horse riding, fencing and macing, javelin throwing, archery, athlete, "Zorkhana", "National wrestling"*

XX əsrin 20-ci illərində Azərbaycanda, o cümlədən Naxçıvanda bədən tərbiyəsi və idman mədəni və ictimai həyatın bir hissəsinə çevrildi. 1924-cü ildə Naxçıvan Bədən Tərbiyəsi Şurası yaradıldı, 1930-cu ilə qədər onun tərəfindən futbol, yüngül atletika, cıdır akrobatika, ağırlıq qaldırma, güləş, voleybol yarışları və başqa idman oyunları təşkil edilirdi. 1931-34-cü illərdə Naxçıvan MSSR, ƏMH (indiki VMH) kompleksi nişançılarının hazırlanmasında mühüm işlər görüldü. 1937-ci ildə ağırlıq qaldırma üzrə Azərbaycan birinciliyi keçirildi. Naxçıvanda bədən tərbiyəsi və idmanın inkişafında «Dinamo», «Spartak», «Burevestnik», «Məhsul», «Ehtiyyat Əmək Qüvvələri» cəmiyyətlərinin (1998 ildən təhsil idman məkəzi) böyük rolu olmuşdur. 1940-cı ildə Muxtar Respublikada 5320 idmançı, 61 idman qurğusu var idi.

1946-cı ildə Naxçıvanda idmanın 9 növünü təmsil edən 250 nəfərlik gənclər idman məktəbi, 1949-cu ildə isə Naxçıvan şəhər təhsil sistemində 10 idman növünü əhatə edən uşaq-gənclər idman məktəbi yaradıldı. 1950-ci ildə bədən tərbiyəsi və idmanla məşğul olanların sayı 15481 nəfər, bədən tərbiyəsi kadrlarının sayı 71 nəfər, idman qurğularının sayı 230 (1 stadion, 12 idman zalı, 197 idman meydançası, 19 atıcılıq tiri, 10 uyğunlaşdırılmış zal və s.) olmuşdur. 1959-cu ildə Azərbaycan Respublikası «Məhsul» cəmiyyətinin yunan-Roma güləşi yarışlarında Naxçıvanın komandası birinci yerə çıxmışdı. 1961-ci ildə Naxçıvan MSSR qadınlarının birinci spartakiadasında 1849, final yarışlarında isə 319 nəfər idman mübarizəsi aparmışdı.

1970-1980-ci illərdə Naxçıvan MSSR-də idman kollektivlərinin və idmançıların sayı xeyli artdı. 1970-ci ildə idmançıların sayı 27390 nəfər (4230-u qadın), idman qurğularının sayı isə 322-yə (2 stadion, 21 idman zalı, 251 idman meydançası və s.) çatdı. Həmin ildə 12 uşaq-gənclər idman məktəbi və 1 güləş məktəbi fəaliyyət göstərirdi. 1980-ci ildə isə 32590 idmançı var idi. İdmanın müxtəlif növləri üzrə məktəblilər arasında Spartakiadalar, «Sevinc» futbol kuboku uğrunda yarışlar, «Şahin», «Cəsurlar» hərbi idman oyunları, «Şən startlar», «Möcüzəli dama», «Ağ top», «Pioner» çoxnövlüyü üzrə yarışlar keçirilməsi ənənəvi şəkil almışdır. Naxçıvanın «Sevinc» futbol komandası 1973-cü ildə Zaqatala şəhərində 13-14 yaşlı uşaqlar arasında keçirilmiş Azərbaycan yarışlarında birinci yerə, həmin ildə Daşkənddə keçirilmiş Ümumittifaq «Dəri top» birinciliyində isə ikinci yerə çıxmışdı.

2003-cü ildə Naxçıvanda Şahmat üzrə gənclər arasında dünya birinciliyi, 2010-cu ildə Naxçıvan MR-da "Əyləncəli İdman Oyunları" keçirilmiş və 16 komanda iştirak etmişdir. Aprelin 23-də «Naxçıvan Open-2011» beynəlxalq şahmat festivalı keçirilmişdir. «Naxçıvan Open 2011» beynəlxalq şahmat festivalında 12 ölkədən 175 şahmatçı mübarizə aparmışdır.

Keçmiş SSRİ dövründə Naxçıvan MR görkəmli idmançıları, müxtəlif idman növü üzrə idman ustaları Xəlil Axundov, Kamil Salayev, Ramiz Mehdiyev, İslam Hümbətov, Tofiq Novruzov, Bağır Həsənov, Hidayət Əliyev, Lətif Əliyev, Ramiq Nağıyev, Elburus Həsənov, Adəm Əkbərov, Dilqəm Quliyev, Cavanşir Salayev, Böyükağa Hacıyev, Sultan Əliyev, Musa Əmirov, Famil İsmayılov, Azər Qənbərov, Yəhya Novruzov, Şəmil Əhmədov, Faiq Həsənov, Əsgər Qəhrəmanov, Cəfər Hümbətov və başqaları Naxçıvanın idman şərəfini qorumuşlar.

Müstəqilliyimiz dövründən sonra Naxçıvanın şahmat, sərbəst güləş, karate komandaları Azərbaycan yarışlarında, İran və Türkiyə idmançıları ilə dostluq görüşlərində mükafata layiq yerlər qazanmışlar. Naxçıvan şahmat məktəbinin yetirməsi Gəncəli İsmayılov 1993-cü ildə Azərbaycan birinciliyində mükafata layiq yer qazanaraq, Avropa çempionatında Azərbaycan komandasının tərkibində iştirak etmişdir. Həmin məktəbin yetirməsi Vüqar Babayev isə Polşada keçirilən beynəlxalq turnirdə bütün rəqiblərinə qalib gəlmişdi. Naxçıvanın karate komandası da yarışlarda uğurlu nəticələr göstərmişdir. 1994-cü ildə Türkiyədə keçirilmiş dostluq turnirində Seyid İsmayılov üçüncü yer, 1995-ci ildə İranda keçirilmiş yoldaşlıq turnirində Sədi İsmayılov, Ramiz Zeynalov və Vüqar Salmanov müvafiq olaraq birinci-üçüncü yerlər tutmuşlar. Naxçıvan güləş məktəbinin yetirməsi, sərbəst güləşçi Əsgərxan Novruzov 1994-cü ildə Minsk şəhərində üç qat Olimpiya çempionu Aleksandr Medvedin şərəfinə keçirilən turnirdə birinci yeri, İstanbulda keçirilən Avropa birinciliyində 6-cı yeri qazanmışdır. 1998-ci ildə boks üzrə Azərbaycan çempionları İlham Kərimov və Toğrul Seyidov Avropa çempionatında iştirak etmiş, İlham Kərimov həm də XXVI Yay Olimpiya Oyunlarının iştirakçısı olmuşdur. Anar Məmmədov 1998-ci ildə kikboksinq üzrə Moskvada keçirilmiş dünya çempionatında gümüş medala layiq görülmüşdür. Vüqar Zeynalov pauerliftinq üzrə dəfələrlə Avropa və dünya birinciliyinin qızıl medalını qazanmışdır. Rüstəm Bağırov 2001-ci ildə həmin növdə Avropa çempionu olmuş, Avropa rekordunu təzələmişdir. Kikboksinq üzrə əməkdar idman ustası (2007) Eldar Qazıbəyov dünya çempionatının qalibi (2002, Yunanıstan), Avropa çempionatının qalibi (2003, Macarıstan), Muey-Tay idman növü üzrə dünya çempionatında I yeri tutmuşdur (2009, Bonqonk). Boks və kikboksinq üzrə idman ustası Elman Qazıbəyov dünya çempionu (2003, Yunanıstan), 2 dəfə Avropa çempionu (2003, Şotlandiya, 2004, Macarıstan), Nihad Seyidov Azərbaycan Respublikasında II yeri, boks üzrə Cəbi Sayılov yeniyetmələr arasında 2002-ci ildə Avropa çempionatında I yerə, Hacı Əliyev (Sərbəst güləş, 61 kq) 2 qat Dünya Çempionatında qızıl medal, (2014 Daşkənd, 2015 Las-Veqas). Avropa Çempionatında qızıl (2014 Vantaa), bürünc (2015 Bakı), Universiada Oyunlarında bürünc (2013 Kazan), 2015-Bakı Avropa Oyunlarının bürünc medal, Rio-de-Janeyro XXXI Yay Olimpiya Oyunlarında (2016) təsəlliverici görüşdə idmançımız 10:8 hesabı ilə Qazaxıstan təmsilçisi Artas Sanaaya qalib gəldi. Bürünc medal uğrunda Hacı Əliyev Bolqarıstan təmsilçisi Vladimir Dubovu da 5:0 hesabı ilə məğlub edərək bürünc medalı qazanmışdır.

Naxçıvan Universitetinin futbol komandası Azərbaycan ali məktəb tələbələrinin futbol çempionatında 2 dəfə birinci yerə, Naxçıvan Universitetinin Voleybol komandası 2 dəfə Qafqaz universitetləri çempionatının qalibi, qızlardan ibarət badminton komandası 4 dəfə Azərbaycan çempionatında birinci yerə layiq görülmüşdür. Naxçıvan MR-ın idmançıları mötəbər yarışlarda müntəzəm olaraq iştirak edir və Naxçıvanın idman şərəfini layiqincə qoruyurlar.

Muxtar Respublikada 2002-ci il iyunun 18-də MOK Muxtar Respublikanın paytaxtı Naxçıvan şəhərində Olimpiya Kompleksi, həmin ildə Boks, Güləş, Karate-do, Şərq Döyüşü Sənəti, Şahmat, Futbol, Yüngül Atletika, Voleybol, Basketbol, 2006-cı ildə Paralimpiya, 2013-cü ildə isə Hava və Ekstremal İdman Növləri, Atıcılıq federasiyaları, həmin federasiyaların perspektivli idmançılarının məlumat bankı yaradılıb.

Bu gün Muxtar Respublikasında, ümumilikdə, 40 min nəfərə yaxın yeniyetmə və gənc aktiv şəkildə idmanla məşğul olur. Muxtar Respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir. Ötən il Naxçıvan Muxtar Respublikası Boks Fe-

derasiyasının 1 idmançısı "Bakı-2015" ilk Avropa Oyunlarında iştirak edib və bürünc medala layiq görülüb. Rio-de-Janeyro XXXI Yay Olimpiya Oyunlarında isə (2016) sərbəst güləş üzrə bürünc medal qazanıb.

Naxçıvanın şahmat məktəbi 1981-ci ildə yaradılmışdır. Məktəbdə 436 şagird məşğul olur. Onların 15-i ustalığa namizəddir (2000).Təkmilləşmə və ibtidai hazırlıq, təlim-məşq qrupları fəaliyyət göstərir. Məktəbin yeniyetmələri məktəblilərin keçmiş ümumittifaq və respublika şahmat yarışlarında iştirak etmişlər. 2004-cü il sentyabrın 2-də Naxçıvan üzgüçülük Mərkəzi, 2009-cu il avqustun 03-də Naxçıvanda yeni şahmat məktəbi istifadəyə verilmişdir.

Naxçıvan MR-da bədən tərbiyəsi və idman kadrları (2008-ci il)

№	Müəssisələr	Cəmi	Ali təhsilli	Orta ixtisas təhsilli	O cümlədən qadınlar	Ştat hesabı işləyən məşqçilər
1	**2**	**3**	**4**	**5**	**6**	**7**
1	Cəmi	753	626	127	116	263
	O cümlədən:					
2.	Ümumtəhsil məktəblərində	441	360	81	48	2
3.	Orta ixtisas təhsil ocaqlarında	10	9	1	1	
4.	Ali məktəblərdə	23	22	1	8	2
5.	İdman məktəblərində	241	203	38	59	240
6.	İdman cəmiyyətlərində	18	17	1		10
7.	Digər təşkilatlarda	20	15	5		9

Cədvəldən göründüyü kimi Naxçıvan MR ali məktəblərində 23 bədən tərbiyəsi kadrı çalışır. Onlardan 22 nəfəri ali təhsilli, 1 nəfəri orta ixtisas təhsilli, o cümlədən 8 nəfər qadındır (2008-ci il).

Ümumi futbol ixtisası üzrə Naxçıvan MR-da 367 qrup fəaliyyət göstərir. Həmin qruplarda 5901 nəfər məşğul olur. (1771 nəfər 5-13 yaşında, 2905 nəfər 14-17 yaşında, 1204 nəfər isə 18-29 yaşında olan yeniyetmə və gənclərdir) (2008-ci il).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bədən tərbiyəsi və idmana diqqət və qayğısı nəticəsində getdikcə Respublikada olduğu kimi, Naxçıvan MR-da kütləvi bədən tərbiyəsi inkişaf edir. Belə ki, bu gün Naxçıvan MR-da 10 idman federasiyaları fəaliyyət göstərir (Atletika, Futbol, Güləş, Basketbol, Voleybol, Şahmat, Şərq döyüş sənəti üzrə federasiyaları). 2004-cü ildə Naxçıvan MR-da 20 idman növü üzrə (onlardan Ağır atletika, Basketbol, Boks, Bilyard, Voleybol, Dama, Cüdo, Yüngül atletika, Karate, Kikboksinq, Kik-şinkay, Nərd, Sambo güləşi, Stolüstü tennis, Super-kontakt, Sərbəst güləş, Taekvando, Futbol, Şahmat) 2315 qruplarda 29269 məşğul olurdusa (O cümlədən 6563 qız idi), 2008-ci ildə isə 30 idman növü üzrə əlavə on idman növü inkişaf etmişdir. (Onlardan Aerobika, Armrestinq, Atçılıq idmanı, Futzal, Daş qaldırma, İdman gimnastikası, Pauerliftinq, ÜFH, Əl topu, Tennis). Həmin 30 idman növü üzrə 2573 qruplarda 34540 məşğul olurdu (onlardan 8156 qadın, 10981 5-13 yaşda olan uşaqlar, 15439 14-17 yaşda olan uşaqlar və 6793 18-29 yaşda olan uşaqlardır).

Naxçıvan MR-da İdman Kompleksi, qurğuları və bədən tərbiyəsi-sağlamlıq mərkəzləri (2011-ci il)

Cədvəl

№	İdman kompleksləri və qurğuları	Sayı (vahid)
I	**II**	**III**
1.	Olimpiya İdman Kompleksləri	2
2.	Sadə İdman qurğuları	689
3.	Şahmat Məktəbi	1
4.	Üzgüçülük Mərkəzi	2
5.	Uşaq Gənclər Şahmat Məktəbi	7
	Uşaq Gənclər İdman Məktəbi	10
7.	Süni örtüklü mini-futbol meydançası	9
8.	Stadion	12
	C Ə M İ:	**732**

Ümumilikdə Muxtar Respublikada 33 idman obyekti tikilərək, yenidən qurularaq və ya əsaslı şəkildə təmir olunaraq istifadəyə verilmişdir (2011-ci il)

Naxçıvan Muxtar Respublikasında istifadəyə verilən ümumtəhsil məktəblərində ən müasir standartlara cavab verən 109 idman zalı yaradılmışdır.

Bütün Respublikada olduğu kimi Naxçıvan MR-da da kütləvi bədən tərbiyəsi və idmanın inkişafı müstəqilliyimiz dövründə xalqımızın ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı cənab prezident İlham Əliyevin bədən tərbiyəsi və idmana göstərdiyi diqqət və qayğının nəticəsidir.

Ədəbiyyat:

1.Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin arxivi.

2.Bağdadbəyov C. «Zorxana». Əlyazması, səh.1 (respublika əlyazmaları fondu C.Bağdadbəyovun arxivindən).

3.Əliyev M. Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idman hərəkatı. Naxçıvan "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi. 1999. 56 səh.

4.Quliyev D. «Milli güləş». Dərslik. «RİZA» MMC-nin mətbəəsi. Bakı, 2003. 265 səh.

5.Pərto Kaşani. Tarixe vərzeşe bastane İran. Tehran, 1337 h.ş., səh.3.

6.«Pəyam no» jurnalı, 1336 h.ş., №6.

7.«Şərq qapısı» qəzeti. «Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir». Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti. Sayı: 5 (20,163) 12 yanvar 2011-ci il.

8.«İdman» qəzeti № 12 (6812) 26 aprel 2011-ci il.

Д.Г.Гулиев, С.К.Садыгов

Истории развития физической культуры и спорта Нахичеванской Автономной Республики

Резюме

В статье рассказывается об истории развития физической культуры и спорта Нахичеванской Автономной Республики 20-х годов XX века, а также, широкое внимание и забота со стороны президента Азербайджанской Республики Ильхамом Алиевым к развитию спорта в Нахичеванской Автономной Республике.

D.G.Gouliyev, S.K.Sadigov

The history of the development of physical culture and sports of the Nakhchivan Autonomous Republic

Summary

The article tells about the history of the development of physical culture and sports of the Nakhchivan Autonomous Republic in 20-ies of XX century, as well as the widespread attention and concern from the President of Azerbaijan Ilham Aliyev to the development of sport in the Nakhchivan Autonomous Republic.

Rəyçilər: ped.f.d., prof. Q.M.Cəfərov
Az.DBTİA-nın İdmanın təkmübarizlik növləri kafedrası
(09.12.2016-cı il tarixli iclasının qərarı (pr.№ 10))

Redaksiyaya daxil olub: 06.01.2017

N.T.QULİYEVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

İCTİMAİ FƏALİYYƏT PROSESİNDƏ TƏLƏBƏLƏRİN İCTİMAİ FƏALLIĞINI ŞƏRTLƏNDİRƏN MEYARLAR

Açar sözlər: *ictimai fəallıq, fəaliyyət, motiv,təşəbbüskarlıq, özfəaliyyət*
Ключевые слова: *общественная активность, деятельность, мотив, инициатива, самодеятельность*
Key words: *public activity, activity, motive, initiative, self-activity*

Azərbaycan Respublikasının təhsil sahəsində islahatının mühüm tələblərindən biri də budur ki, köhnə təhsil sistemində uzun illər bərqərar olmuş "müəllim pedaqoji prosesin subyekti, tələbə isə obyektidir" modelindən əl çəkib müəllimlə yanaşı tələbəni də pedaqoji prosesin subyekti kimi nəzərdən keçirmək, onun müstəqilliyinə, fəallığına, yalnız müəllimin iradəsinə tabe olmayaraq, sərbəst fikir yürütməsinə şərait yaratmaq, tələbə şəxsiyyətinə hörmət etmək və s.-dir.

Bütün bunlar "müəllim-tələbə", "tələbə-müəllim" münasibətlərinin yenidən qurulmasına, köhnə stereotiplərdən imtina edilməsinə imkan verir, bu münasibətlərin "insan-insan" münasibətləri şəklində ("subyekt-subyekt") həyata keçirilməsini təmin edir.

Bu sahədə ali təhsil müəssisələrində - universitet, institut və təhsil akademiyalarında fəaliyyət göstərən gənclər təşkilatlarının, tələbə qurumlarının (tələbə şurası və s.) rolu böyükdür. Tələbələrdə ictimai fəallıq birdən-birə yaradılmır. Bu fəallıq inkişaf edərək formalaşır. Odur ki, formalaşma prosesinə tələbənin inkişafı prosesindən ayrılıqda baxmaq düzgün deyildir.

Q.S.Kostyukin təbirincə desək, "Hər bir şəxsiyyət fərdlərin hər biri üçün xas olan ümumi yaş dərəcələrini keçir, lakin bu keçmə müxtəlifdir. İnkişaf prosesinin özündə və onun nəticələrində: sinir sisteminin funksional xüsusiyyətlərində, insanların fiziki, zehni, emosional, mənəvi və digər xassələrində, maraq və meyillərində, istedadlarında, temperamentlərində və xarakterlərində fərdi fərqlər yaranır. Onlar möhkəmlənib davranışın dinamikasını, insanın təlimdə və əməkdə, ictimai həyatda nailiyyətini müəyyən edir. Həmin fərqlərin mənşəyi inkişaf şəraitindən asılıdır" (1, s.148-149).

İqtibasdan irəli gələn qənaət belədir ki, şəxsiyyətin sinir sisteminin, fiziki, zehni və b. xassələrinin, maraq və meyllərinin, temperamentlərinin funksional xüsusiyyətləri sayəsində meydana gələn fərdi fərqləri və xüsusiyyətləri əsas götürərək, tələbə gənclərdə ictimai fəallığın inkişaf etdirilməsi xüsusi şablona əsasən deyil, müxtəlif forma və səviyyələrdə cəmiyyətin mənafeyi naminə həyata keçir. Fərdin birində ictimai, başqa birində idrak, digərində əmək mövqeyi üstün yer tutur. Bildiyimiz kimi, orta məktəb illərində şagirdin inkişafının gedişi, əsas etibarilə təhsil və tərbiyə ilə həll edilirsə, tələbəlik illərində tərbiyə işinin bütün sisteminin təsiri ilə, habelə ictimai və əmək fəaliyyətinin köməyilə baş verir. Bu da nəzərə alınmalıdır ki, tərbiyə və inkişaf prosesi münaqişəsiz keçinmir, ziddiyyətlərin mübarizəsi şəraitində gedir.

Akad. Q.İ.Şukina şəxsiyyətin fəaliyyəti və inkişafı problemləri üzrə elmi-nəzəri araşdırmaları ümumiləşdirərək fəaliyyətin obyektiv-subyektiv təhlili əsasında göstərmişdir ki, tərbiyə prosesi onun (tərbiyənin) şəxsiyyətin inkişafına öz təsirini hərtərəfli əhatə edən müxtəlif növlərinin mövcudluğunu tələb edir. Müəllif fəaliyyətin strukturunun təhlilini vermiş, uşağın inkişafına hər bir konstruktiv komponentin təsiri xarakteristikasını açmışdır (2, s.92-95).

Fəaliyyətin ictimai məqsədləri onların sosial inkişafının ən mühüm amilinə çevrilir. Fəaliyyətin motivləri şəxsiyyətin tələbatlarında və maraqlarında ifadə olunaraq, onun obyek-

tiv məqsədlərinə uyğun gəlməlidir. Fəaliyyətin məzmunu uşağı biliklərlə, təcrübə ilə zənginləşdirərək, dünyagörüşünü genişləndirir. Əşyavi hərəkətlər fəaliyyətin konkret vəzifələrinin dəyişilməsi ilə daim mürəkkəbləşməlidir.

Fəaliyyətin üsulları, əməliyyatları, bacarıqları onun müvəffəqiyyətini təmin etdiyi təqdirdə daim təkmilləşməlidir. Fəaliyyətin nəticəsi şəxsiyyətin inkişafının, biliklərinin, münasibətlərinin, qiymətləndirmə və özünüqiymətləndirməsinin göstəricisidir.

Fəaliyyətin əlverişli şəkildə həyata keçirilməsinin və onun şəxsiyyətə müsbət təsirinin vacib şərti kimi həm fəaliyyətin obyekitiv imkanlarından (ictimai əhəmiyyətli məqsəd, vəzifə və məzmun) maksimum səviyyədə istifadə olunması, eyni zamanda onun subyektiv başlanğıcı (motivasiya, əşyavi fəaliyyət, fəaliyyətin üsulları və s.) götürülməlidir.

Fəaliyyətin, onun məzmununun, vəzifələrinin, motivlərinin, əməliyyat tərəflərinin tədricən mürəkkəbləşməsi şəxsiyyətin fəallığının və müstəqilliyinin hərtərəfli inkişafına imkan verir.

Tələbələrin ictimai işləri ictimai əhəmiyyətli vəzifələrin həlli ilə bağlıdır və mənəvi davranış, hərəkət və əməllər, münasibətlər təcrübəsini fəal formalaşdırır.

Bütün tələbələrin ictimai fəaliyyətin müxtəlif növlərinə cəlb edilməsinin əhəmiyyəti ondan ibarətdir ki, hər bir gənc Vətən qarşısında öz borcunu dərk etsin, cəmiyyətin mənafeyi tələb edən yerdə işləməyə, əmək sərf etməyə praktik cəhətdən hazır olsun.

V.A.Suxomlinski yazırdı: «Mən əmin olmuşam ki, tərbiyənin bütün məntiqi və fəlsəfəsi bir müdrik həqiqətdir: hər bir şəxs insanlar üçün əməyə nə qədər çox enerji sərf edərsə, bu əməkdə o özünü nə qədər çox təcəssüm etdirərsə, onun qəlbində daha yaxşı olmaq istəyi daha dərin olacaq, onun arzusu, cəhdi, ehtirası daha saf, nəcib olacaqdır» (3, s.229).

İctimai faydalı fəaliyyətdə tələbələr təşəbbüskarlıq, yaradıcılıq təzahür etdirir, uğuru müstəqil qazanmaq istiqamətində sevinc əldə edir, öz əməyinin ictimai əhəmiyyətini görür.

İctimai tapşırıqlar ictimai və şəxsi mənafeləri öz şüurlarında və işlərində uzlaşdırmaqda tələbələrə kömək göstərir. Bu işləri yerinə yetirərək gənclər özlərinin kollektivə məxsusluğunu anlayır, qrup, universitet kollektivləri qarşısında dayanan vəzifələrin yerinə yetirilməsində fəal iştirak edirlər.

Şəxsi maraqlarından məmnun qalmaq, ictimai faydalı fəaliyyətdə bacarığını, qabiliyyət və istedadını göstərmək son nəticədə həmişə ictimai əhəmiyyətli məqsəd və vəzifələrin həllinə istiqamətlənir. Qabiliyyət və istedad bir-birilə sıx tellərlə bağlıdır. Prof. Ə.Ə.Əlizadə yazırdı: «İstedadın açarı qabiliyyət problemindədir. İstedadın nüvəsini qabiliyyətlər təşkil edir. «Qabiliyyət-istedad» psixoloji araşdırma üçün özünəməxsus dixotomiyadır» (4, s.45-46). Tələbələrdə təşkilatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi zamanı bu cəhət diqqət mərkəzində dayanırdı.

Fəaliyyətin kollektiv xarakteri, könüllülük və özfəaliyyət hər bir tələbə üçün fəaliyyətdə fəal mövqeyə çatmağa geniş imkanlar açır.

Əgər hər bir tələbənin fəal mövqe imkanları ictimai faydalı fəaliyyətin səciyyəvi cəhətidirsə, onda belə bir mövqeyin olması onun şəxsiyyətə səmərəli tərbiyəvi təsir göstərməyin, şəxsiyyətin özünün və onun fəaliyyətinin qarşılıqlı inkişafının şərtidir.

Fəaliyyətdə gəncin fəal mövqeyi, eləcə də fəaliyyətin özü həm obyektiv və həm də subyektiv cəhətlərə malikdir.

Obyektiv cəhət – tələbənin fəaliyyətdə iştirakının forması, yaxud səviyyəsidir: o, kollektiv işdə təşkilatçı, icraçı, həmçinin sadəcə iştirakçı ola bilər.

Subyektiv cəhət – ictimai faydalı fəaliyyətin tələbə şəxsiyyətinin dəyişilməsinə, yeni şəxsiyyət təzahürlərinin (bilik, bacarıqların, motivlərin, münasibətlərin) öyrənilməsinə təsiri səviyyəsində ifadə olunur. Tələbə ictimai faydalı fəaliyyətdə subyekt kimi çıxış edir, tədbirləri, tapşırıqları düşünən, planlaşdıran, həyata keçirən, onlara nəzarət edən şəxslərlə həmmüəllif, həmfikir olur. Ali məktəb tələbələrinin hər birində ictimai fəallıq vərdişlərinin formalaşdırılmasına nail olmaq lazımdır. Bu sahədə tələbə kollektivinin özünəməxsus rolu vardır. Möhkəm kollektivin formalaşmasında tələbə şurası böyük rol oynaya bilər və oynamaqdadır. Pe-

daqoq və psixoloqlar kollektivin təhsilləndirici, tərbiyəedici və inkişafetdirici imkanlarını yüksək qiymətləndirmişlər. Onların bir qismi (M.M.Pistrak və b.) kollektivə insanların (bizim tədqiqatda tələbələrin) maraqlarının ödənilməsinə qida verən mühit kimi yanaşır, başqa bir qismi (S.T.Şatski və b.) öz-özünə meydana gələn kiçik qrupa diqqət yetirir və kollektivdə gənc nəsli nələrin öz ətrafına topladığını görməyə çalışır, digərləri (L.S.Viqotski və b.) uşaq kollektivində «davranışın sosial formalarının fərdi uyğunlaşma sahəsinə keçirilməsi qanunu» axtarırdılar. A.S.Makarenko isə tərbiyəedici kollektivin nəzəriyyəsini və təcrübəsi məsələlərini hərtərəfli işləmişdir.

Aparılmış tədqiqatdan görünür ki, tələbələrin bir qismi ictimai işə qoşulmaq arzusunda olduqları və bu gəncləri ictimai fəaliyyətə cəlb etmək imkanı yarandığı halda çox zaman onların bir çoxu praktik olaraq ictimai işdə iştirak etmir. Tədqiqat göstərmişdir ki, belə tələbələr 34,0 faizdən 59,0 faizə qədərdir. Deməli, başlıca problem ali təhsil müəssisəsində ictimai fəaliyyət xarakteri daşıyan işini çoxluğunda, tələbələrin hər birinə ictimai iş, vəzifə tapşırmaq imkanında deyildir. Əsas məsələ tələbələrdən hər birinə nəsə tapşırılmaqda, müvəqqəti, yaxud daimi vəzifə verməyə müvəffəq olmaqda, hər bir tələbənin isə öz imkanı daxilində fəallığına şərait yaratmaqdan ibarətdir. Onların hansı səviyyədə fəallığa yiyələnmələrini diqqət mərkəzində saxlamaq da az əhəmiyyət daşımır. Ali məktəblərin pedaqoji kollektivləri tələbələrdə ictimai fəallığı səmərəli şəkildə formalaşdırmaq üçün kollektivin ictimai fəallığını şərtləndirən meyarları aydın təsəvvür etməlidirlər.

Psixoloji və pedaqoji ədəbiyyata əsasən, həmin meyarları aşağıdakı kimi müəyyənləşdirmək mümkündür:

1. Subyektin işgüzar vəziyyətinin müəyyən edilməsi. İşgüzar vəziyyət mövcud olmazsa, fəaliyyət hüdudlarından kənarda ictimai münasibətlər sahəsində fəallıq mümkün olmaz.

2. İnsanın işinin könüllü və özfəaliyyət xarakteri daşıması və bunun bu və ya digər dərəcədə dərk edilməsi. Özfəaliyyət xarakterinə malik olmayan fəaliyyət ictimai fəallıq kimi nəzərdən keçirilə bilməz.

3. Təzahür edən fəallığın cəmiyyətin quruculuğu, rifahı, məqsədləri mənafeyinə istiqamətləndirilməsi. Əks təqdirdə, biz cəmiyyətimiz əleyhinə fəallıqla qarşılaşa bilərik.

4. İctimai fəallığın parametrinin səciyyəsi, yəni onun təzahürlərinin intensivliyinin göstərilməsi.

5. Tələbələrin ictimai fəaliyyətə könüllü və maraq göstərərək qoşulması, təşəbbüskarlıq nümayiş etdirməsi.

6. Hər bir tələbənin işindən alınan nəticələrin dəyəri

Qeyd olunan meyarların hər birinin özünəməxsus əhəmiyyəti vardır. Lakin onlardan ikisi xüsusilə dəyərləndirilməlidir. İctimai fəallığın tərbiyələndirici rolu bir tərəfdən, onun könüllü olmasında, cəmiyyətin mənafeyi naminə, habelə əxlaqi baxımdan mükafat ummadan həyata keçirilməsi; digər tərəfdən fərdin müstəqilliklə əlaqədar olan özfəaliyyətidir.

Ədəbiyyat

1. Костюкин Г.С. Воспитание и развитие общие основы педагогики. Под.ред. Ф.Ф.Королева и В.Е.Гмурмана М. Педагогика, 1991.

2. Şukina Q.İ. Şagirdlərin ictimai fəallığı və onun formalaşdırılması şəraiti. Məktəb pedaqogikası: Pedaqoji institutlar üçün dərs vəsaiti Bakı; Maarif, 1982.

3. Сухомлинский В.А. Мудрая власть общественной активности младших школьников. Автореф. дисканд. пед. наук. М, 1978.

4. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər: psixopedaqoji məsələlər. Bakı: ADPU, 2006.

5. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika Yeni kurs. Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: Çaşıoğlu, 2002.

Н.Т.Кулиева

Критерии, обуславливающие общественную активность студентов в процессе общественной деятельности

Резюме

В статье определены критерии, обуславливающие общественную активность студентов в процессе общественной деятельности. Принимая во внимание определенные принципы, основным условием для формирования общественной активности студентов является организация этой работы. Общественная активность должна иметь общественное и личное значение, обеспечить активную позицию каждого студента, создать условия для овладения необходимым умением и навыкам у студентов для общественной деятельности, создать возможности для САмоорганизации, позволить формированию позитивного отношения к общественной деятельности и развивать инициативу.

N.T.Gulieva

Criteria stipulating the social activeness during the students' social activity

Summary

The criteria, stipulating social activeness in the students' social activity have been set out in the article. The main precondition for the formation of social activity of students taking certain principles appropriate to organize this work. The activity of public and private interest, to ensure each student is an active position, which is necessary for social activities for students to develop skills and habits conditions and create opportunities for self-organization, public activities allow the formation of a positive attitude and to develop initiatives in this event.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 16.12.2016

N.B.SALMANOVA
professor

S.Q.QARAYEVA
dosent

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., Fətəli xan Xoyski prospekti, 98)

POLİATLONDA MƏŞQ PROSESİNİN QURULMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

Açar sözlər: *poliatlon, idman məşqi, idarə olunma, yarış fəaliyyəti*
Ключевые слова: *полиатлон, спортивная тренировка, управление, спортивная деятельность*
Key words: *polyathlon, sport traininq, to be managinq, competition activities*

Respublikadakı siyasi və iqtisadi vəziyyətə əsaslanaraq, əhalinin məşğulluq və maraq dairəsinə istinad olaraq müasir dövrü müxtəlif idman, xidməti və hərbi- tətbiqi çoxnövçülüklərin geniş yayılması ilə səciyyələndirmək olar. Belə ki, hal-hazırda gənclərin əksəriyyəti tətbiqi-idman çoxnövçülükləri ilə məşğul olmaqla, güc strukturlarında işləməyə üstünlük verirlər. Bu çoxnövçülüklər mürəkkəb olmaqla ciddiliyi tələb edirlər. Tətbiqi-idman çoxnövçülükləri üzrə məşğələlər orqanizmə yüksək tələblər verərək, idmanda yüksək nəticələrin əldə edilməsi üçün zəruri olan bütün funksional sistemlərin təkmilləşməsinə, müxtəlif hərəki bacarıq və vərdişlərə yiyələnməyə, hərtərəfli fiziki inkişafa, mənəvi-iradi keyfiyətlərin tərbiyəsinə kömək edirlər. (1, s.5)

Tətbiqi-idman çoxnövçülükləri üzrə hazırlıq, məşq prosesinin qurulması, hazırlıq sisteminin müxtəlif həlqələrinin modelləşdirilməsi məsələləri aktuallıq kəsb etməklə, çoxnövçülərin hazırlığı üzrə bir sıra ümumi və xüsusi məsələlərin nəzəri və eksperimental əsaslandırılmasının zəruriliyinə gətirib çıxarır.

Hazırda tətbiqi-idman çoxnövçülüklərindəki müasir inkişaf və yeniliklər, çoxnövçülüyün ayrı-ayrı hərəkətləri üzrə məşq yüklərinin planlaşdırılması və növbələşdirilməsi, onların qarşılıqlı təsirinin öyrənilməsi, həcm və intensivliyin seçilməsi, hazırlığın ayrı-ayrı tərəflərinin modelləşdirilməsi və s. elmi, nəzəri aspektlərin təhlilini və əsas məsələlərin həllini ortaya çıxarır.

Müasir dövrdə tətbiqi-idman çoxnövçülüklərində hərtərəfli hazırlıq prosesinin əsas istiqamətlərinin öyrənilməsi zamanı sitemli təhlildən geniş istifadən olunur. Bu təhlilin mahiyəti proqnozlaşdırma, modelləşdirmə, proqramlaşdırma və cari nəzarət əməliyyatlarının ardıcıl həyata keçirilməsindən ibarətdir.

Müxtəlif idman, xidməti və hərbi-tətbiqi çoxnövçülüklər arasında qarşılıqlı əlaqənin müəyən edilməsi üzrə apardığımız araşdırmalar onlara məxsus olan ümumi cizgiləri və xüsusiyyətləri aşkar etməyə kömək etmişdir. Araşdırmalar zamanı müəyyən edildi ki, idman, xidməti və hərbi-tətbiqi çoxnövçülüklərin hər biri tamamilə fərqli idman növlərindən ibarətdirlər. Belə ki, ən azı 3-5 müxtəlif xarakterli hərəkət birləşərək, çoxnövçülük adlanan bir növü yaradırlar.

Tətbiq-idman çoxnövçülükləri üçün xarakterik cəhət ondan ibarətdir ki, onların hər birinin proqramına üç hərəkət mütləq daxil edilir: üzgüçülük, kross qaçışı və güllə atıcılığı. Bir sözlə desək, yəni «klassik üçnövçülük». (2, s.63)

Çoxnövçülüklər	Hərəkətlər						
	Sprint	**Kross**	**Qumbara atma**	**Üzgüçü-lük**	**Atıcılıq**	**Turnikdə dartınma**	**Qolların bükülüb açılması**
Poliatlon (beşnövçülük)	+	+	+	+	+		
DİN əməkdaş-larının xidməti çoxnövçülüyü		+		+	+	+	+
FHN əməkdaşlarının xidməti çoxnövçülüyü		+		+	+	+	+

Ədəbiyyat mənbələrinin təhlililindən aydın oldu ki, müxtəlif çoxnövçülüklər yalnız özünəməxsus olan məşq metodikasına malikdirlər. Çoxnövçülüyə daxil olan hər bir hərəkət məşğul olanların orqanizminə spesifik təsir göstərməklə, özünün icra texnikası, taktikası və hazırlıq sisteminin xüsusiyyətləri ilə səciyyələnirlər. (1,2,3,4)

Təcrübə göstərir ki, müxtəlif çoxnövçülüklər üzrə məşq prosesinin keçirilməsi, məşq vaxtının müəyyən çatışmamazlığı ilə bağlıdır. Belə ki, çoxnövçü gün ərzində iki, üç və daha çox hərəkət üzrə məşq etməli olur. Məşq zamanı məşğul olanların orqanizminin fiziki və psixoloji imkanlarının ümumi limitinin mövcudluğu zamanı hər bir hərəkət üzrə nəticələrin artımı çoxnövçülüyü təşkil edən hər hansı bir idman növündə olduğu kimi arta bilməz. Vəziyyətin belə olması onların qarşılıqlı təsir effektini nəzərə alaraq hazırlığın mikro, mezo, makro silsilələrində məşq yüklərinin daha rasional qurulması variantlarının axtarışını aparmağı labüd edir. Apardığımız tədqiqatlar (2005-2015) sübut etdi ki, çoxnövçülüklərdə məşq prosesinin rasional qurulması zamanı nəticələrin effektli artımı I idman dərəcəsi və İUN səviyəsinə qədər müşahidə olunur. Tərəfimizdən pedaqoji eksperimentlə yoxlanılmış olan, poliatlonçuların hazırlığında səmərəliyi sübut olunan bir günlük və həftəlik silsilədə poliatlon üzrə məşq cədvəlinin modeli aşağıda göstərilir.

II dərəcəli poliatlonçular üçün həftəlik məşq cədvəli

Hərəkətlər	Həftənin günləri							
	I	**II**	**III**	**IV**	**V**	**VI**	**VII**	**Hərəkətlər üzrə məşqlərin cəmi**
Sprint		A			A		İstirahət	2
Qumbara atma		S		S				2
Atçılıq	S		S		S			3
Üzgüçülük	A			A		A		3
Kross			A			S		2

Qeyd: «S» - məşqlər nahara qədər (səhər) keçirilir; «A» - məşqlər nahardan sonra keçirilir.

Məşq yükünün dəyişilmə dinamikasına əsasən yüksək dərəcəli poliatlonçular üçün həftəlik məşq cədvəli

Həftənin günləri	**Ümumi məşq yükünün dəyişilmə dinamikası**	**Çoxnövçülüyün hərəkətləri**	
		Səhər	**Axşam**
I	Böyük	atıcılıq	üzgüçülük
II	Kiçik	qumbara atmaq	kross
III	Maksimal	atıcılıq	sprint
IV	Kiçik	qumbara atmaq	üzgüçülük
V	Böyük	atıcılıq	sprint
VI	Kiçik	kross	üzgüçülük
VII	i s t i r a h ə t		

Məşq cədvəlindən göründüyü kimi intensiv yüklü hərəkətlər və texniki hərəkətlər üzrə məşqlər həftəlik silsilədə çox uyğun olaraq yerləşdirilmişlər. Belə yerləşdirmə məşqlərin səmərəliyinin artmasına imkan yaradır.

Poliatlon üzrə apardığımız tədqiqatlar aşağıdakı nəticələrə əsas verir:

- üzgüçülük, qaçış üzrə məşq və yarış yükləri poliatlonçuların orqanizmində daha dərin funksional dəyişikliklərin getməsinə səbəb olur və bu uzun müddət təsirini saxlayır;
- birgünlük və həftəlik məşq silsilələrinin qurulması zamanı bir gündə həm üzgüçülük, həm qaçış üzrə intensiv yüklərin planlaşdırılması məsləhət görülmür;
- bu növlər üzrə məşqi texniki hərəkətlər üzrə məşğələlərdən sonra keçirmək daha məqsədə uyğun olar;
- yarışlara bilavasitə hazırlıq mərhələsində məşq prosesini qarşıdakı yarışın modelləşdirilməsi prinsipi üzrə qurmaq məqsədəuyğun hesab olunur.

Ədəbiyyat

1.Ермолаев Р.А. Содержание и методика учебно-тренировочного процесса в профессионально-прикладном многоборье: дис. . канд. пед. наук .М., 2006.

2.Варин В.И., Салманова Н.Б. Управление тренировочным процессом в прикладных многоборьях. Научные аспекты управления подготовкой квалифицированных спортсменов. Темсборник научных трудов. Баку. 1989.

3.Осипов И.Т. Основы спортивной тренировки многоборцев. М., ФиС, 1970

4.Требенок А.И. Летний полиатлон. Методика подготовки квалифицированных спортсменов-полиатлонистов: монография Брянск: БФ МосУ МВД России, 2001

Н.Б.Салманова, С.Г.Караева

Главные направления создания тренировочного процесса в полиатлоне

Резюме

Каждое движение входящие в полиатлон наряду с оказанием специфического влияния на организм занимающихся, характеризуется своей техникой выполнения, и факторами тактической и подготовительной системы. Проведенное нами исследование (2005-2015) доказывает что, во время рационального создания процесса тренировки в полиатлоне ведется наблюдение эффективного повышения результатов до I спортивного разряда и уровня КМС. Проверенной с нашей стороны педагогическим экспериментом, была создана модель расписания тренировок по полиатлону в однодневном и недельном цикле доказывающая эффективность в подготовке полиатлонистов.

N.B.Salmanova, S.G.Garayeva

The main directions of creation of the training process in polyathlon

Summary

Each movement included in polyathlon along with a specific effectinfluence to the body of involved, characterized by its technology performance and tactical and preparation system factors. Our researches (2005-2015) proves that while creating a sustainable training process in polyathlon monitores effectively improve results to I sports category and level of CMS. Tested from our part with pedagogical experiment was established the model of training schedules in polyathlon in the one-day and weekly cycle proving the efficiency of the preparation of polyathlonists.

Rəyçilər: ped.e.f.d., prof. Ş.H.Əbdülrəhmanov,
Az.DBTİA-nın Kütləvi-sağlamlıq idman növləri kafedrası
(09.12.2016-cı il tarixli iclasının qərarı (pr.№ 03))

Redaksiyaya daxil olub: 14.12.2016

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru

N.Ə.HEYDƏROV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr.98)

OLİMPİYA OYUNLARINA GEDƏN YOL VƏTƏNİN MÜDAFİƏSİNƏ HAZIRAM NORMALARINDAN BAŞLANIR

***Açar sözlər**: vətənin müdafiəsinə hazıram, Olimpiya oyunları*
***Ключевые слова**: Готов к защите Родины, Олимпийские игры*
***Key words**: Ready to defence of the motherland, Olympic Games*

Bu gün Azərbaycanda bədən tərbiyəsi və idmana böyük diqqət yetirilir. Yeni nəslin sağlam, fiziki və əqli cəhətdən kamil yetişdirilməsi istiqamətində geniş tədbirlər proqramı həyata keçirilir. Başqa sözlə desək, bədən tərbiyəsi və idmanın gələcək inkişafı üçün aparılan mübarizə eyni zamanda, xalqımızın layiq olduğu qüdrətli, müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsi və iqtisadi inkişafının daha da sürətlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Çünki idmanda əldə edilən müvəffəqiyyətlər – ayrı-ayrı idmançıların deyil, bütün millətin müvəffəqiyyətidir. Bunlar da cəmiyyətimizin sosial, iqtisadi, mədəni nailiyyətləri ilə möhkəm bağlıdır və ölkəmizin ümumi tərəqqisi olmadan bu nəhəng nailiyyətlərə nail olmaq, sadəcə, imkansız olardı.

Böyük idmana gedən yol kütləvi standartlardan başlanır. Məhz bu baxımdan kütləvi idman növləri ilə bərabər Olimpiya oyunlarının tədqiqi də mühüm əhəmiyyət kəsb edir.

VMH çoxnövçülüyünün (sovet dövründə Əməyə Müdafiəyə Hazıram çoxnövçülüyü adlanırdı 1937-1993-cü illər) tədqiqatçıları istər sovet dövrü, istərsə də müasir dövr alimləri və mütəxəssislər öz əsərlərində Vətənin Müdafiəsinə Hazıram çoxnövçülüyünün uşaqların, yeniyetmələrin, gənclərin və zəhmətkeş xalqın fiziki, mənəvi və vətənpərvərlik tərbiyəsində əhəmiyyətli rolunu xüsusi qeyd etmişlər. Bütün bu məsələlər zaman-zaman mətbuat səhifələrində geniş müzakirə olunmuş və olunmaqdadır. Vətənin müdafiəsinə hazıram kompleksinin məktəblərin və əhalinin fiziki tərbiyəsinə tətbiqi və həyata keçirilməsi problemləri bir çox məqalə və kitablarda da əksini tapmışdır. Bütün bunlar kütləvilikdən beynəlxalq yarışlara, rekordlara və qələbələrədək böyük maarifləndirici əhəmiyyət daşıyır.

Belə ki, 1973-cü ilin dekabrından başlayaraq SSRİ İdman Komitəsi və KGİMK birgə qərarı ilə yeni ümumittifaq yarışlarının – "Komsomolskaya pravda" qəzetinin mükafatları uğrunda ƏMH çoxnövçülüyü üzrə SSRİ birinciliklərinin yarandığını elan etdilər. Bu yarışlar dörd mərhələdə keçirilirdi. Birinci mərhələ Qələbə Gününə həsr edilir, onun "Vətənin müdafiəsinə hazıram" devizi altında startları dərslərdə, məktəblərdə, tədris qruplarında, briqadalarda, növbələrdə, sexlərdə, şöbələrdə, yaşayış yerlərində, müəssisələrdə və idarələrdə keçirilirdi. İkincisi isə – Sovet gəncləri gününə həsr edilirdi. Bu mərhələ "Kollektivinin şərəfimi qoru" devizi altında keçirilir, rayon və şəhərlərin birinciliyini müəyyən edirdi. Ümumittifaq idmançı gününə həsr edilmiş üçüncü mərhələnin devizi – "Kütləvilikdən ustalığa doğru" adlanırdı. Üçüncü mərhələnin yarışları vilayət, əyalət və respublika birinciliklərі səviyyəsində keçirilir. Nəhayət, sonuncu, dördüncü mərhələ isə final yarışlarından ibarət idi. Bu yarışlar komsomolun yaradılmasına həsr edilir və "ƏMH nişanından – Olimpiya medalına qədər" devizi altında keçirilirdi. ƏMH kompleksi çoxnövçülüyü üzrə Sovet İttifaqı çempionlarına Böyük Qızıl medallar və "Komsomolskaya pravda" qəzetinin birinci dərəcəli diplomları təqdim edilirdi.

O illərdə ƏMH çoxnövçülüyü 75 milyonluq idmançı ordusunu əhatə edir, bu da dünya rekordçuları sırasının artımının etibarlı sığortası, qızıl medalların sahibləri isə beynəlxalq yarışlarda qalib, idmanda isə lider adının namizədləri idi.

Son dərəcə aktuallığı nəzərə alınaraq olimpiya oyunlarının tədqiqi Y.Titovun, İ.Novikov, A.B.Dmitriyev, B.A.Mayorov, A.N.Vorobyov, V.M.Qavrilin, K.P.Papov, D.Mamleyev, B.Fedosov, Z.P.Orlova, V.Şteynbax, S.P.Papov, B.N.Xavin və başqalarının diqqət mərkəzində olmuşdur.

Onlar öz kitab və kitabçalarında, məqalələrində bu məsələyə müraciət etmişlər. Lakin əksər tədqiqatlar görkəmli idmançıların həyat təcrübəsini, tədqiqatların müəyyən qismini isə idmançının keçdiyi həyat yolunu əhatə etmişdir.

Kifayət qədər tanınmış idmançı və mütəxəssis "Balların sayı" adlı kitabın müəllifi Y.Titov oxucular qarşısında gözəllik və mürəkkəblik, gimnastikanın paradoksallıq və intellektuallıq dünyasını, idmanda axtarışın bütün cəlbediciliyini və gərginliyini, idman həyatının çətinliklərini gizlətmədən, açıb göstərir. "İdman yüngülxasiyyətliliyi və laqeydliyi bağışlamır, qət edilmiş yola yekun vurur. İdman çempionu şöhrətlə istənilən qədər mükafatlandırır, əvəzində isə, dünyanın bütün cazibələrindən, demək olar ki, tam imtina etməsini tələb edir". (1)

Y.Titovun kitabında idmanda insan xarakterinin özünü necə göstərdiyi əks olunur. O, idman həyatının "idmançının şöhrətlə sınanması" kimi incə tərəfini açıqlayır: çünki öz müvəffəqiyyəti üzərində qələbəsi, müvəffəqiyyətsizliyi üzərində qələbədən heç də az deyil.

Beş dəfə dünya çempionu olmuş İ.Novikov özünün "Beş gün və bütün həyat" adlı kitabının müqəddiməsində belə deyir: "On dörd il ərzində beşnövçülük üzrə idmançı olmuşam. Bütün bu illər ərzində ölkə çempionatının birini belə buraxmamışam, beşnövçülük üzrə sovet idmançılarının iştirak etdiyi bütün dünya çempionatlarında iştirak etmişəm, dörd Olimpiadada çıxış etmişəm. İlk turnirimdə və ən axırıncı turnirimdə SSRİ yığma komandasının rənglərini müdafiə etmişəm". O, bu mürəkkəb və müxtəliftərəfli sevimli idman növünün bütün incəliklərini ətraflı təsvir edir.

"Mən xokkeyə baxıram" kitabının müəllifi Boris Mayorov – həyatının 14 ilini bu əsarətli, gözəl oyuna verən, şöhrət qazanmış idmançı olmuşdur. Onun kitabı 1969-cu ildə Stokholmda keçirilən çempionatdan, idmandakı yerindən və idman həyatından bəhs edir. Kitab həqiqəti çox gözəl əks etdirir, göstərir ki, hər bir həqiqi idmançı tez və ya gec öz idman karyerinin, öz qələbələrinin mənəvi cəhətdən yenidən dərk edilməsinə gətirib çıxarır və o zaman idman ona əvvəllər gözlədiklərindən daha çox verməyə başlayır; idman - qalib gəlmək elmini öyrədir; idman insanda cəsarəti tərbiyə edir və onda bəzən elə "möhkəmlik ehtiyatı" yaradır ki, bu da ona sonradan uzun müddətə kifayət edir.

Vorobyov A.N. özünün "Bu dünyanın güclüləri" kitabında qeyd edir ki, İdman – ölkə qarşısında borcdur. İdman – uzun illərin fədakarlığıdır. İdman – öz işinə fədakarcasına xidmət etməkdir. Kitabın müəllifi, atletik mübarizənin nəhəng yükünü on beş ilə yaxın öz çiynində daşıyan məşhur ağırlıqqaldıran bu cür düşünür. O, təkcə idman problemlərindən söhbət açmır, həmçinin etikadan, vətənpərvərlikdən, insan ləyaqətindən də danışır.

Kitabın sonunda, gənclərə müraciət edərək, o, "Pravda" qəzetindən misal gətirir: "Biz, yarışların qaliblərini, çempionlarını, rekordçuların şərəfləndirir, ən çox qol vuranlara, ən az top buraxanlara, komandaya dəyərli ballar gətirənlərə layiq olduqlarını veririk. Lakin onların arasından öz davranışları ilə yarışlarda bizim idmanın nəcib idealların təsdiqləyən və inkişaf etdirənlər və sovet idmanının yüksək mənəvi keyfiyyətlərini nümayiş etdirənlər xüsusi ehtirama layiqdirlər".

B.Steynbax "Olimpiya mübarizəsinin qəhrəmanları" kitabında yazır: "Ölkə, dünya çempionunun adı əbədi deyil, zaman içərisində "çempion" adının əvvəlinə "eks" önşəkilçisi əlavə edilir. İdman yarışlarının qalibinə ömürlük verilən yeganə ad mövcuddur. Bu ad – dünyada ən fəxri hesab edilən Olimpiya oyunları çempionudur".

Müəllif, həmçinin bütün müasir yay olimpiadalarının (1896-cı ildən 1972-ci ilə qədər) ən parlaq idman ulduzlarından da bəhs edir. Bunlar, mərdlik, möhkəmlik, iradə nümunələridir, daha çox sayda qızıl medal qazananlardır, ən böyük nailiyyətlərə nail olanlardır. Burada, oxucunun gözü qarşısında 30-cu illərin ən güclü stayeri (uzun məsafəyə qaçan), Polşanın işğal olunduğu illərdə qestapo divarlarında həlak olmuş Yanuş Kusoçinskiy; "qara şimşək" Jessi Ouens – bütün dövrlərin böyük sprinteri; dörd qızıl medal qazanmış holland atleti Fanni-Blankers-Kun; disk atma və yadro itələmə üzrə qızıl medal, hündürlüyə tullanma üzrə bürünc medal qazanmış fransız pianoçu Mişlin Ostermayer; bizim məşhur həmyerlimiz, Vladimir Kuts, sovet idmançıları arasında iki qızıl qazanan ilk idmançı; üç Olimpiadanın qalibi olmuş, macar boksçusu Laslo Papp; üç dəfə ardıcıl olaraq şərəf pyedestalının ən yüksək pilləsinə qalxan gözəl avarçəkən Vyaçeslav İvanov və bir çoxları canlanır.

"Olimpiya ili. Nəticələr. Dərslər. Perspektivlər" kitabında S.F.Pavlov SSRİ İdman Komitəsinin sədri 1972-ci ildə Olimpiya oyunlarında sovet idmançılarının müvəffəqiyyətli çıxışlarından, müharibədən sonrakı dövrdə olimpiya oyunlarının tarixindən bəhs edir. Kitabda məşqçinin hazırlıq işinin qiymətləndirilməsi verilir, bu işin çatışmazlıqları, səhv hesablamalar açıqlanır, ölkənin idman həyatının yaxşılaşdırılmasının perspektivləri, idman ustalığının ən yüksək səviyyədə gələcək inkişafının daha effektiv formalarının tapılması nəzərdə tutulur. (6)

S.P.Pavlov bütün məsələlərin həllini diqqətin hər zaman yeni ƏMH Ümumittifaq bədən tərbiyəsi kompleksinə verilməsində, onun sovet orqanları və müəssisələri tərəfindən təbliğində görür.

B.N.Xarinin "Hər şey Olimpiya oyunları haqqında" adlı kitabı çox maraqlıdır. Kitabda müasir Olimpiya oyunları haqqında ətraflı məlumat toplanmışdır. Material beş bölmə üzrə paylaşdırılmışdır. Birinci bölmədə müasir Olimpiya hərəkatının tarixi, onun təşkilinin ümumi məsələləri işıqlandırılır. İkinci bölmədə bütün yay və qış olimpiya yarışları haqqında ümumi məlumat, bu oyunların ümumi xarakteristikası verilir, ən yaxşı iştirakçıların nəticələri göstərilir.

Üçüncü bölmədə – olimpiya proqramını təşkil edən idmanın ayrı-ayrı növləri haqqında məlumat verilir. Bu bölmələrin hər birində mövcud idman növü üzrə olimpiya yarışlarının reqlamentindən, bu idman növü üzrə müvəffəqiyyət qazanan nümayəndələrin ölkələrindən bəhs edilir, şəxsi və qrup yarışlarının bütün olimpiya çempionlarının siyahısı verilir.

Dördüncü bölüm olimpiya hərəkatında birləşən ölkələr haqqında əlifba sırası ilə nəşr edilmiş məqalələrdən ibarətdir.

Sonuncu bölüm isə şəxsi və qrup yarışlarında qələbə qazanmış bütün sovet idmançıları haqqında biblioqrafik məqalə-məlumatlardan ibarətdir.

XX əsrin idmanında getdikcə yeni-yeni sərhədlər açılır, köhnə, məlum olan konturlar və çevrələr artıq yeni şəkildə özünü göstərməyə başlayır. Gimnastlar və tullayıcılar, xokkeyçilər və üzgüçülər insanların ürəyinə yol açır və dünya yaxın və tanınmış olur. Dünyada dünya simvolu, palma budağı və ağappaq göyərçinlə birgə, əlində olimpiya məşəli olan idmançı olur.

Sovet rekordçuları sırasının beynəlxalq forumlarda azalmayacağının sığortası isə ƏMH nişançılarının və "Komsomolskaya pravda" qəzetinin mükafatı uğrunda çoxnövçülük üzrə qaliblərin artmaqda olan sayıdır.

Sözsüz ki, Xavin çox haqlıdır. İdmandakı yüksək nailiyyətlər kütləviliyin üzərində qurulur. Bu baxımdan məşhur fransız pedaqoqu, müasir Olimpiya oyunlarının banisi Pyer de Kuberton yazırdı: "Yüz nəfərin bədən tərbiyəsi ilə məşğul olması üçün əlli nəfərin idmanla məşğul olması gərəkdir; əlli nəfərin idmanla məşğul olması üçün iyirmi nəfərin idmanın müəyyən sahəsində ixtisaslaşması gərəkdir; iyirmi nəfərin idmanın müəyyən sahəsində ixtisaslaşması üçün isə beş nəfərin son dərəcə gözəl nəticə göstərməsi gərəkdir".

Deyilənlərə yekun vurub belə bir qənaətə gəlirik ki, fiziki tərbiyə insana xidmət etməyə yönəltmək kimi humanist ideyaları yayır. Mədəniyyət, təhsil, bəşəri dəyərlər, sağlam həyat tərzi və s. həmin ideyalar sırasındadır. Təhlükəsizlik məsələləri sülh uğrunda mübarizə apar-

maq da idmanın və bədən tərbiyəsinin nüfuz sahələrindəndir. Sevindirici haldır ki, bu gün Azərbaycan məktəblərində təhsil alan şagirdlərimiz məhz belə bir müstəvidə pərvəriş tapır.

Ədəbiyyat

1. Титов Ю. Сумма баллов. М., «Молодая гвардия», 1971, 224 с. с ил (Спорт личность).
2. Новиков И. Пять дней и вся жизнь. М., «Молодая гвардия», 1974, 239 с. с ил (Спорт личность).
3. Майоров Б.А. Стотрю хоккей. М., «Молодая гвардия», 1970, 238 с. с ил (Спорт личность).
4. Воробьев Б.А. Сильные мира сего. М., «Молодая гвардия», 1972, 320 с. с ил (Спорт личность).
5. Штейнбах В. Герои олимпийских баталий. М., «Советская Россия», 1974, 176 с.
6. Павлов С.П. Олимпийский год. Итоги. Уроки. Перспективы. М., «Физкультура и спорт», 1973, 63 с. с ил.
7. Хавин Б.Н. Все об олимпийских играх. М., «Физкультура и спорт», 1974, 576 с.

Я.Б.Самедов, Н.А.Гейдаров

Путь, ведущий к олимпийским играм, начинается с норматива
“Готов к защите Родины”

Резюме

В данной статье раскрывается сущность и значимость норматива “Готов к защите Родины''. В статье также описывается путь, ведущий от массовости к Олимпийским играм и просвещенное значение спорта. Здесь проанализированы книги Ю.Титова, И.Новикова, В.А.Майрова, А.Н.Воробьева, В.Штейнбаха, С.П.Павлова и В.Н.Хавина, написанные в этом направлении. А также исследована сущность Олимпийских игр. В данной статье в значительной степени описывается роль массовости в большом спорте и гуманистические идеи, направленные служению человека.

Y.B.Samedov, N.A.Heydarov

The way leading to olympic games starts from the normatives
“Ready to defence of the Motherland”

Summary

The essence and importance of the normative “Ready to defence of the motherland” is disclosed in this article. The way leading from mass-scale involvement to Olympics and enlightened significance of sport are explained. The books of Y.Titov, I.Novikov, V.A.Mayorov, A.N.Vorobyov, V.Steinbakh, S.P.Pavlov and V.N.Khavin written in this regard are analysed here. The essence of Olympics from the standpoint of the issue has been investigated. The role of mass in big sport and the humanistic ideas aimed at serving human being have been considerably explained in this article.

Rəyçilər: prof. Q.M.Cəfərov,
dos. Ə.M.Xəlfəyev

Redaksiyaya daxil olub: 11.01.2017

G.Ş.ŞƏRİFOVA,
N.B.CƏFƏROVA
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

OXU DƏRSLƏRİNDƏ ƏDƏBİ TƏLƏFFÜZ VƏRDİŞLƏRİNİN MƏNİMSƏNİLMƏSI ÜZRƏ İŞİN İMKANLARI

Açar sözlər: *kurikulum, oxu, ifadəli oxu, nitq və təfəkkür, nitq bacarıqları, tədris*
Ключевые слова: *куррикулум, чтение, выразителное чтение, речь и мышление, речевые способности, учебный*
Key words: *curikulum, reading, expressive reading, speech and thinking,speech abilities, educationals*

Oxu təliminin optimallaşdırılması, təlimin tərbiyələndirici və inkişafetdirici effektinin təmin edilməsi o vaxt mümkündür ki, müəllim şagirdlərin fəaliyyətini təşkil etməyin metodlarını bilsin, həmin metod və priyomları düzgün seçməyi, onlardan səmərəli istifadə etməyi bacarsın. Oxu tədrisi prosesində əsasən, bu priyomlardan istifadə olunur: müqayisə, tutuşdurma, ümumiləşdirmə, təsnifetmə, mətni hissələrinə ayırmaq, əsas ideyanı göstərmək, planın tərtibi, seçmə oxu, yığcam nəqletmə, qəhrəmanı xarakterizə edən söz və ifadələri seçmə və s.

Qeyd edək ki, kurikulum tələblərinə uyğun yazılmış "Azərbaycan dili" dərslikləri ilə işləmək üçün yazılan müəllim üçün metodik vəsaitlərdə müəyyən tövsiyələr, oxu materialları ilə dil qaydalarının inteqrasiyasına imkan verən metodikalar vardır, lakin bununla belə müəllim öz işinə yaradıcı yanaşmalı və düşünməlidir, daha nələr etmək olar ki, oxu materialları əsasında dil qaydalarının öyrədilməsinin effektivliyi artsın. Belə ki, fəal/ interaktiv təlim metodları öyrənilən oxu mətnlərin məzmununa uyğun seçilərsə və inteqrasiya düzgün aparılarsa, dil qaydalarının tədrisi daha səmərəli olacaqdır.

Yaddan çıxarmaq olmaz ki, oxu təlimində iki istiqamət əsas sayılır: a) mətnin dil və üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi; b) mətnin məzmun və ideya təhlilinin aparılması.

Oxuya verilən tələblərə əməl edilməsi(oxunun düzgünlüyü, oxunun rəvanlığı, oxunun şüurluluğu, oxunun ifadəliliyi) eyni zamanda dil qaydalarının öyrənilməsinə imkan yaradır. Məsələn, ifadəli oxu zamanı ədəbi tələffüz normalarının - orfoepiyanın, intonasiyanın (səsin ton, diksiya, səsin gücü, tembr, melodika, fasiləni, vurğu və s.) gözlənilməsi düzgün tələffüzün, orfoepik normaların mənimsənilməsinə gətirib çıxarır. Əgər oxu zamanı bunlardan biri, deyək ki, vurğu və ya orfoepiya amili dəqiq gözlənməzsə, həmin oxunu düzgün oxu hesab etmək olmaz.

Oxudan sonra mətnin nağıl edilməsi prosesində də müəllim şagirdlərin nitqinə diqqətli olmalı, onların ədəbi tələffüz normalarına uyğun tələffüz etməsinə, düzgün nitq bacarıqlarına yiyələnməsinə nail olmalıdır. Oxuda yol verilən nöqsanlar təbiidir ki, nağıletmə prosesində də özünü göstərəcəkdir. Bu mərhələdə müəllim hər bir tələbin gözlənilməsinə nəzarəti zəiflətməməlidir.

İbtidai siniflərdə şagirdlərdə ədəbi tələffüzlə bağlı möhkəm olmasa da, elementar təsəvvürlər formalaşdırılmalıdır. Onlarda sadə orfoqramların tələffüzü üzrə oxumaq və danışmaq vərdişləri yaranmalıdır.

Müəllim şagirdlərə II sinifdə M.Ə.Sabirin "Yaz günləri" şeirini oxuyur və düzgün tələffüz nümunəsi verir:

Gəl, gəl, a yaz [günnəri],
Ilin əziz [günnəri].
Dağda ərit [qarrarı],
Bağda ərit [qarrarı],
Çaylar [daşıp] sel olsun,
Taxıllar tel-tel olsun.
[Ağajdar] [aşsın] [çiçəx/]
Yarpağı [ləçəy], [ləçəy].
(A.Səhhət)

Göründüyü kimi, bu mətndə 26 sözdən 10-u orfoqram təşkil edən sözlərdir. Belə ki, onlardan 4-ü sonu n, r, c səsləri ilə bitən sözlərə -lar[2] şəkilçisi artırılanda, səs uyuşması (assimlyasiya) hadisəsi baş verir, eyni zamanda sonu ç ilə bitən sözlərə -sın şəkilçisi artırılanda baş verən ədəbi tələffüz hətta sonu x ilə bitən sözlərin düzgün tələffüzü şagirdlərin diqqətinə çatdırılır.

Əgər müəllim ibtidai sinif şagirdlərini intonasiya, melodiklik, ritm, surət, diksiya, səs tonu, tembri, fasiləni və vurğunu, habelə orfoepiyanı gözləməklə oxu texnikasına yiyələndirmək didaktikası ilə iş aparmırsa, şagirdlər də ədəbi tələffüz normalarına uyğun üzündən oxumağı, təbii ki, həm də danışmağı kurikulum tələbləri səviyyəsində bacarmayacaqlar (4, s.270-271). Oxu təlimində bütün bunların - ədəbi tələffüz normalarının başlıca didaktik məqsəd olduğunu dərk etmədən yeni təlim metodlarından istifadənin heç bir faydası olmayacaqdır.

İbtidai sinif müəllimləri ilk növbədə oxu təliminin didaktik məqsəd və vəzifələrini dərindən bilməli, öz gündəlik işində həyata keçirməlidir.

Bu iki sahənin(oxu təlimi və ədəbi tələffüz normalarının aşılanması) hər birinə uyğun tədris metodları var; birinci sahə fonetik, leksik, qrammatik və üslubi işlərə uyğun olan klaster metodunun tətbiqini tələb edir. II sinifdə "Şah İsmayıl" mətninin müəllim tərəfindən səsli oxusundan sonra bu mətnin nüsxələri qruplara paylanır. Qruplar mətni öz aralarında oxuyur və orfoqramları müəyyənləşdirməklə yanaşı, hər bir sözün mənasının anlaşılması və konkret cümlələrin, ifadələrin şərhini vermək üzərində yarışırlar.

Bu mətndə 19 müxtəlif xassəli orfoqram var. Eyni zamanda leksik mənası açılmaqla 4 ifadə var. Bunlar "daşı daç üstə qoymayacağıq", "mömin adam", "əlini Qurana basmaq", "vaz keçmək"dən ibarətdir.

Mətnin dil təhlilindən sonra məzmun təhlili suallarla aydınlaşdırılır. Bu, müsahibə metodu ilə aparılır.

Daha sonra diqqət "Şah İsmayıl haqqında biz nələri bildik?" sualı əsasında aparılır və müəllimin hazırladığı informasiya-dekorlar nümayiş etdirilir. Bu dekorlar içərisində Şah İsmayılın qılıncı, əsərlərindən parçaların fotoları vardır. Adların coğrafiyası sadalanır.

Bundan sonra mətnin ifadəli oxusu üzərində iş gedir. Son nəticə isə mətnin nəqli ilə bağlı olur; mətni kim daha maraqlı söyləyir?

Göründüyü kimi, bu mətn ədəbiyyat, dil və tarix fənləri üzrə xüsusi olan cəhətləri inteqrasiya etməyə imkan verir.

1. "Şah İsmayıl" mətnində tarixi hadisələrdən bəhs olunur; burada mətn "düşmən", "gizlətmək", "Quran", "Gilan", "daşı daş üstə qoymamaq", "mömin", "vaz keçirlər" və s. sözlərin köməyi ilə ifadə olunur.

2. Mətnin ifadəli oxusunda və nağıl edilməsində də həmin sözlər dominantlıq təşkil edir.

Oxu dərslərində dil qaydaları ilə məzmunun nağıl edilməsinə hazırlıq məsələsinin interaktiv metodlarla aparılması və inteqrativ metodla da yekunlaşması müasir təlimin üstünlüklərini göstərir. Bu, oxu təlimindən gözlənilən son nəticələr kimi qiymətləndiril-

məlidir. Qeyd edək ki, ibtidai siniflərdə hər bir mövzunun tədrisi prosesində oxu təlimi və ədəbi tələffüz vərdişlərinin aşılanması üzrə iş aparmaq imkanları mövcuddur. Bu imkanlardan səmərəli istifadə etmək başlıca tələb kimi müəllimin qarşısında durmalıdır.

Oxu təlimi və ədəbi tələffüz vərdişlərinin aşılanması prosesində müəllim yeri gəldikcə yazılışı və tələffüzü fərqlənən sözlər üzərində xüsusi iş aparmalıdır. Belə ki, hər bir oxu materialının tədrisi zamanı müəllim orfoqrafik-orfoepik cəhətdən şagirdlər üçün çətinlik törədən sözləri seçir, dərsdə həmin sözlərin morfoloji və ya fonetik cəhətdən təhlilini təşkil edir. Həmin sözlərin düzgün tələffüzü üzrə məşq-təmrinlər, çalışmalar və s. üzrə iş aparılır (1, s.44).

İbtidai sinflərdə təkcə oxu təlimi və ədəbi tələffüz normaları deyil, bütövlükdə Azərbaycan dili tədris olunur. Bu, dil qaydalarının bir çox sahələrini əhatə etmək vəzifəsini irəli sürür. Bu baxımdan oxu və dil dərsləri arasında sıx əlaqə yaranır. Oxu üzrə hər bir mövzu keçilərkən müvafiq leksik iş aparılır, orfoqrafiya və orfoepiyaya aid konkret vəzifələr öz həllini tapır. Oxu təlimində də fonetik biliklər yada salınmalı, sözlərin səs, tərkibinin düzgün tələffüz olunmasını, orfoepik tələffüzü müəyyənləşdirmək şagirdlərdən tələb olunmalıdır. Bundan başqa, oxu mətnində bəzi sözlərin yazılışının tələffüzündən fərqləndiyi də şagirdlərə çatdırılmalıdır. Onlar bilməlidirlər ki, dəstə, doqquz, işləyir, səndən, şair kimi yazılan sözlər [dəsdə, dokquz, işliyir, sənnən və şayir] şəklində tələffüz olunmalıdır (3).

Oxu dərslərində ədəbi tələffüz vərdişlərinin mənimsənilməsi üzrə iş hər bir mövzunun tədrisində mümkündür. Məsələn, tapmacaların oxusunda ədəbi tələffüz vərdişləeinin yaradılması üzrə iş aparmaq mümkündür:

Bir sürü atlar, Bir sürü at[d]ar,
Çəməndə otlar. Çəməndə ot[d]ar.
Vaxtı gələndə, Vaxtı gələndə,
Dərisi çatlar. Dərisi çat[d]ar.

(pambıq)

Qara quşu quyruğundan asarlar,
Ələ alıb düz qazana basarlar.(çömçə)
Qara quşu quyruğundan asar[r]ar,
Ələ alıb düz qazana basar[r]ar.

Ədəbi tələffüz qaydalarının mətn daxilində öyrədilməsi oxunun dil qaydaları ilə üzvi əlaqəsini təmin edir. Bunların hamısını ibtidai siniflərdə əhatə etmək imkan xaricindədir. Müəllim yalnız oxu dərslərində tədris olunan materiallarla əlaqəli orfoepik qaydaları şagirdlərə mənimsətdikdən sonra mətn daxilində ədəbi tələffüzü vərdişlərinin yaradılması üzrə təmrinlər apara bilər.

Ədəbiyyat

1.Abdullayev N.Ə. Ədəbi tələffüz təliminin metodikası. Bakı: Maarif, 1986.
2.Azərbaycan dilinin orfoepiya sözlüyü. Bakı: Elm, 1982.
3. Azərbaycan dili. I sinif üçün dərslik, Bakı: Altun-kitab, 2012.
4.Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Dərslik. Bakı: ADPU, 2015.
5. İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili (2-ci sinif üçün dərslik). Bakı: Altun Kitab, 2009.
6. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: Nasir, 2003, 520 s.
7. Rəhimov A. I – IV siniflərdə ədəbi tələffüz üzrə işin bəzi məsələləri.// İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1987, №2, s. 8-12.

Г.Ш.Шарифова, Н.Б.Джафарова

Возможности работы по присвоению навыков литературного произношения на уроках чтения

Резюме

В начальных классах преподается ни только нормы обучения чтению и литературного произношения, но в целом и азербайджанский язык. Это дает возможность охватить многие отрасли языковых правил. В связи с этим создается тесная связь между уроками чтения и языка. Реализуя какую-то тему по чтению проводится лексическая работа, решаются конкретные задачи по орфографии и орфоэпии. Ученикам доводится до сведения, что в текстах по чтению написания и произношения некоторых слов отличаются.

G.Sh.Sharifova, N.B.Jafarova

Job opportunities for assigned literary pronunciation skills at the reading lessons

Summary

In the primary classes there are taught not only the norms of literary reading and pronunciation but also the whole Azerbaijan language. This obliges to reach many areas of linguistic rules. In this connection, it is created a strong connection between the lessons of reading and language. When implemented any topic in reading is performed the certain lexical work and specific responsibilities, the spelling and orthoepy find their resolution. During the trainings for reading, the phonetic skills are mentioned and the correct pronunciation of sound structure are required from the students. And communicated to the students that the pronunciation of some words are different from its writing in the text of reading.

Rəyçi: prof. F.R.Xalıqov

Redaksiyaya daxil olub: 07.12.2016

G.X.ŞİRƏLİYEVA
pedaqoqika üzrə fəlsəfə doktoru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

AZƏRBAYCANDİLLİ TƏLƏBƏLƏRƏ QRAMMATİKANIN TƏDRİSİNDƏ MEYDANA ÇIXAN PROBLEMLƏRİN ARADAN QALDIRILMASI YOLLARI

Açar sözlər: *interferensiya, kommunikativ kompetensiya, qrammatik struktur, təlim*
Ключевые слова: *интерференция, коммуникативная компетентность, грамматическая структура, обучение*
Key words: *interference, communicative competence, grammatical structure, training*

Müşahidələrə əsasən deyə bilərik ki, azərbaycandilli tələbələrin yol verdikləri qrammatik səhvləri aradan qaldırmaq və onların qarşısını almaq məqsədilə buraxılan səhvlərin təhlili aparılmalı, onların törəmə səbəbləri araşdırılmalıdır. Əldə edilən nəticələrdən asılı olaraq, diqqət məhz problem və çətinliklərə imkan yaradan qrammatik hadisələrə yönəldilməlidir. Səhvlər dillərarası interferensiya səbəbindən törədilərsə, hər iki dildə qrammatik strukturların müqayisəli təhlili aparılmalı, mövcud fərqlər müəyyənləşdirilməli və tələbələrin diqqəti məhz həmin məqamlara cəlb edilməlidir. Eyni zamanda, məqsədyönlü şəkildə oxşar qrammatik strukturlara xas olan xüsusiyyətlər üzərində ayrıca dayanılmalıdır. Qeyd edildiyi kimi, ənənəvi üsullardan fərqli olaraq, kommunikativ təlim dil strukturundan normalara uyğun şəkildə istifadə etmək bacarığının tələbələrə ünsiyyət prosesində aşılanmasını əsas məqsəd kimi irəli sürür. Məhz bu səbəbdən problem və çətinliklərə səbəb ola bilən hər hansı bir qrammatik struktur təcrid edilmiş şəkildə deyil, kommunikativ baxımdan əhəmiyyətli olan kontekst daxilində mənimsənilməlidir. Kommunikativ yanaşmanın dillərin tədrisinə tətbiq edilməsinin tərəfdarları hər hansı dilin müəyyən qaydalar vasitəsilə idarə edilən davranış olduğunu sübut etməyə çalışaraq, həmin qayda və normaları mənimsəyən insanlarda dildən ünsiyyət məqsədi ilə istifadə zamanı əvvələr rast gəlmədikləri ifadələri eşidərkən onları başa düşmək və nitqlərində işlətmək qabiliyyəti formalaşdırmağı önə çəkirlər. Onlar dilin mürəkkəbliyini nəzərə alaraq, sadəcə, qavrama yolu ilə mənimsənilməsini qeyri-mümkün hesab edirlər. Dillərin kommunikativ təlimini dəstəkləyən alimlərin təklif etdiyi modelə uyğun olaraq, ana dilini mənimsəyən uşaqlar üçün həmin proses dilin təbii ünsiyyət şəraitində baş verdiyindən istifadə edilən linqvistik vasitələrin tədricən, mərhələli şəkildə mənimsənilməsi həyata keçirilir. Uşaqlar sadəcə olaraq böyüklərin nitqini təqlid etmir, ana dilin mənimsənilməsi prosesinin təbii dil mühitində baş vermə sayəsində verbal davranış qaydalarını mənimsəyir və beləliklə, ana dilindən yaradıcı şəkildə istifadə etmək qabiliyyətinə yiyələnirlər.

Zənnimcə, göstərilən model ana dilini təbii şəraitdə mənimsəyən uşaqlar üçün aktual olsa da, xarici dil təlimində eyni kontekstdə yanaşmada mexaniki şəkildə tətbiq edilə bilməz. Burada əsas səbəb ana dilini mənimsəyən uşaqlardan fərqli olaraq, ingilis dilini xarici dil kimi öyrənən tələbələrin dil mühitindən məhrum olmalarıdır. Eyni zamanda, qeyd etmək lazımdır ki, həmin modeli təlimin baş verdiyi kontekstə uyğunlaşdırmaqla dilin öyrədilməsi prosesini təkmilləşdirərək onu səmərəli şəkildə təşkil etmək və nəticə etibarilə, daha yüksək nailiyyətlər əldə etmək mümkündür. Qrammatikanın tədris edilməsinin ənənəvi metod və üsullarından fərqli olaraq, kommunikativyönümlü təlim zamanı tələbələrin yol verdiyi səhvlərin müəllim tərəfindən düzəldilməsi tövsiyə edilmir. Diqqət yalnız nitqin linqvistik baxımdan düzgünlüyünə deyil, həm də nitqin səlisliyinə cəlb edilməlidir. Odur ki, nitqin kommunikativ cəhətdən dil

daşıyıcılarının yaşadıqları cəmiyyətdə mövcud olan normalara uyğun gəlməsinə nitqin qrammatik təşkilindən heç də az əhəmiyyət yetirilməməli, eyni dərəcədə diqqət mərkəzində saxlanılmalı və onlar arasında lazımi tarazlıq yaradılmalıdır. Müasir dövrün tələblərinə uyğun olaraq, xarici dil tədrisinin əsas məqsədi dil öyrənən şəxslərə kommunikativ kompetensiyanın aşılanmasıdır. Qoyulan məqsədlərə müvafiq qaydada nail olmaq üçün rollu oyunlar, kommunikativ problemin həll edilməsi və. s bu kimi fəaliyyət növlərindən istifadə edilir. Tələbə qaydaların adekvat şəkildə tətbiq edilməsi yollarını, konkret situasiyada verbal və qeyri-verbal davranış normalarını bilməli, verilən kontekst çərçivəsində dildən düzgün istifadə etmək bacarığına yiyələnməlidir. Qrammatikanın kommunikativyönümlü təlimi qrammatik vərdişlərin şifahi nitq, dinləyibanlama, oxu və yazı vərdişlərinin formalaşdırılması kontekstində inteqrativ şəkildə inkişaf etdirilməsini nəzərdə tutur. Dil fakültələri tələbələrinə qrammatik vərdişlər aşılanması məqsədyönlü xarakter daşımalı, sistemli, ardıcıl, mərhələli şəkildə həyata keçirilməlidir. Nəzərə almaq vacibdir ki, xarici dil tədrisinin ilkin mərhələsindən başlayaraq qrammatika təlimi təcrid edilmiş şəkildə deyil, nitq vərdişlərinin formalaşdırılması ilə bərabər şəkildə həyata keçrilməli, tədrisin növbəti mərhələsində qrammatikanın təlimi istiqamətində davam etdirilməlidir. Lakin tədrisin mərhələsindən asılı olaraq bu istiqamətdə aparılan işlər fərqli xarakter daşımalıdır. Yuxarı kurslarda vərdişlərin formalaşdırılması deyil, daha çox qrammatik vərdişlərin təkmilləşdirilməsi, kommunikativ kompetensiyanın əsas komponentlərindən biri olan qrammatik kompetensiyanın formalaşdırılmasından danışmaq lazımdır. Kommunikativ yanaşma və qrammatik tərcümə metodlarının tamamilə fərqli, hətta birbirinə zidd olmasına baxmayaraq, qrammatika təlimində qoyulan məqsədlərdən asılı olaraq, onların hər ikisinin istifadə edilməsi tövsiyə edilir. Aydındır ki, mövcud olan heç bir metod panaseya kimi qəbul edilə bilməz. Təlim kontekstindən, kontekst situasiyadan, irəli sürülən məqsədlərdən asılı olaraq müxtəlif metod və üsullardan istifadə edilə bilər (1). Şübhəsiz, heç bir metod təkmil olmadığı kimi, onların xarici dilin tədrisi prosesində əlaqələndirilməsi və məhz bu yolla təlim prosesinin daha səmərəli şəkildə təşkil edilməsi də təkmil hesab edilə bilməz. Müxtəlif metod və vasitələrin əlaqələndirilmiş şəkildə təlim prosesində tətbiq edilməsi dilin digər aspektləri ilə bərabər, qrammatikaya da aid edilə bilər. Xarici dillərin, o cümlədən ingilis dilinin tədrisinə praqmatik məqsədlərlə yanaşan nəzəriyyəçilər dil müəllimlərinə təlim prosesində bir metoddan deyil, lazım gəldikdə müxtəlif, hətta bəzən köhnəlmiş və artıq aktuallığını itirmiş kimi qələmə verilən metod və vasitələrdən istifadə etməyi tövsiyə edirlər. Metodikanın əsas prinsiplərindən biri olan asandan çətinə doğru prinsipinə uyğun olaraq, tədrisin ilkin pilləsində elementar, əsas strukturların mənimsənilməsi nəzərdə tutulur.

Qrammatikanın kommunikativyönümlü tədrisi prosesində səhvlərin qarşısının alınması və buraxılan səhvlərin düzəldilməsi yollarına gəlincə, sözü gedən məsələnin xarici dilin öyrədilməsi kontekstində olduqca vacib və aktual olduğu aydındır. Səhvlərə münasibət istifadə edilən metodla bilavasitə bağlıdır. Belə ki, təlim prosesində qrammatikatərcümə metodundan isifadə edilərkən əsas diqqət nitqin səlisliyinə deyil, onun düzgünlüyünə yönəldilir. Müvafiq olaraq, burada əsas məqsəd məhz səhvlərin qarşısının alınması və onların düzəldilməsidir. Tərədilən səhvlər xarici dilin mənimsənilməsi vəziyyətinin lazımi səviyyədə olmaması və dil təlimi prosesində ciddi problemlərin mövcudluğu haqda məlumat verir. Maraqlıdır ki, qrammatikatərcümə metoduna üstünlük verən metodist və dil müəllimləri hər hansı dil, o cümlədən də ingilis dilinin tədrisi prosesinin təkmilləşdirilməsi, onun daha səmərəli edilməsinin əsas yolunu səhvlərin aradan qaldırılmasına yönəldilmiş çoxsaylı çalışmaların yerinə yetirilməsində görürlər.

Ənənəvi hesab edilən qrammatik tərcümə metodu dil sisteminin mənimsənilməsini əsas məqsədkimi irəli sürürdü. Mövcud qaydaların öyrənilməsi və onlardan istifadə etmək bacarığı arasında heç bir fərq qoyulmurdu. Lakin qaydaları bilmək heç də onlardan istifadə etmək bacarığına malik olmaq demək deyil. Əksər hallarda qaydaların mənimsənilməsi uğurlu kommu-

nikasiyanı təmin edə bilmir. Məsələn, bəzən onlar deyilənləri başa düşüb danışmaq üçün kifayət qədər resurslara malik olsalar da, kommunikasiya prosesinə qoşula və həmin prosesdə fəal şəkildə iştirak edə bilmirlər. Digər hallarında tələbələr köhnəlmiş, artıq aktuallığını itirmiş ifadələrdən istifadə edə bilər, onların ingilis dilində verbal və qeyri-verbal davranışı müasir dövrdə mövcud olan normalara uyğun olmaya bilər. Başqa sözlə, dilin aspektləri olan qrammatika və leksikanın mənimsənilməsinin vacibliyinə baxmayaraq, onların praktikaya tətbiq edilməsi üçün başqa növ bilik və bacarıqlar tələb edilir. Müasir dövrdə dilin aspektlərinin mənimsənilməsi özüözlüyündə bir məqsəd kimi qoyula bilməz. Dilin aspektlərinin mükəmməl şəkildə mənimsənilməsi dilin uğurlu şəkildə öyrənilməsi, öyrənilən dildə kommunikativ kompetensiyaya yiyələnmənin əsasını, bir növ bünövrəsini təşkil edə bilər. Başqa sözlə desək, fəaliyyətin mürəkkəbliyindən asılı olmayaraq, həmin fəaliyyəti təşkil edən, onun tərkib hissəsi olan vərdiş və bacarıqları tələbələrə aşılamaq zəruridir. Təhlil göstərir ki, meydana çıxan problem və çətinliklərə səbəb olan qram-matik vahidlərin böyük əksəriyyəti tələbələrin ana dillərində olmayan vahidlərdir. Problemlərə həsr edilmiş tədqiqatlarda geniş qeyd edilir ki, qrammatikanın tədrisinin səmərəliliyini şərtləndirən amillərdən biri tədris edilən xarici dil ilə tələbələrin ana dilinin qrammatik quruluşları arasında olan fərqlərdir. Odur ki, problemlər və çətinliklərin başlıca səbəbini ingilis dilinin qrammatik quruluşunda axtarılmalıdır. Müvafiq olaraq ingilis dilinin tədrisi zamanı qrammatik materialların təqdim edilməsinin pedaqoji cəhətdən əsaslandırılmış ardıcıllığını müəyyənləşdirmək üçün bu dilin və tələbələrin ana dilinin (Azərbaycan dili) kontraktiv təhlili aparılmalıdır. Müqayisəli təhlil nəticəsində potensial cəhətdən problem və çətinliklərə səbəb olan qrammatik vahidlər müəyyənləşdirilərək tələbələrin diqqətini məhz onlara yönəldilməlidir. Yalnız bu yolla qrammatikanın tədrisi prosesini daha səmərəli şəkildə təşkil etmək və daha yüksək nəticələrə nail olmaq mümkündür (2).

Bunu da qeyd etmək lazımdır ki, qaydalarla müqayisədə müstəsnalıq təşkil edən qrammatik hadisələr nisbətən çətin mənimsənilir. Dilin sistemi ilə üstüstə gəlməyən və əksər hallarda onu pozan normalar tələbələr üçün çoxsaylı problemlər törədir və dilin mənimsənilməsini xeyli dərəcədə çətinləşdirir. Bununla əlaqədar olaraq, bəzi metodist və müəllimlər əvvəlcə qaydalar ilə tənzimlənən qrammatik vahidlərin mənimsənilməsini, sonra isə müstəsnalıq təşkil edən qrammatik vahidlərin tələbələrə aşılanmasını tövsiyə edir və qrammatik materialların məhz bu ardıcıllıqla mənimsənilməsini daha səmərəli hesab edirlər. Mütəxəssislərin bəziləri əsas diqqətin yalnız ingilis dilinə xas olan və başqa dillərdə mövcud olmayan linqvistik vahidlər üzərində cəmləşdirilməsi və məhz bu kimi qrammatik strukturların birinci növbədə mənimsənilməsini məqsədəuyğun hesab edirlər.

Ədəbiyyat

1. Олейникова Е.А. Современные проблемы обучения грамматике на неязыковом факультете // Вестник Московского Агроинженерного Университета, 2009, № 4

2. Корымова Е.В. Проблема обучения грамматике в методике преподавания иностранных языков // http://festival.1september.ru/

Г.Х.Ширалиева

Пути преодоления проблем обучения грамматики у азербайджано-язычных студентов

Резюме

В статье анализируются причины происхождения ошибок, допущенных в процессе работы по выявлению и устранению грамматических ошибок у азербайджано-язычных студентов. Как известно, по сравнению с традиционными предлагает как основную цель прививание студентам умение использовать структуру языка соответственно нормам. Поэтому каждая грамматическая структура, создающая проблемы и трудности, должна усваиваться в контексте коммуникативности.

G.Kh.Shiraliyeva

Ways to overcome the problems in the teaching of grammar Azerbaijani speaking students

Summary

The article deals with the reasons for the origin of the errors made in the work process to identify and eliminate grammatical mistakes of Azerbaijani speaking students. As you know, compared to the traditional offers as the main goal of instilling students with the ability to use language structure accordingly norms. Therefore, each grammatical structure, which creates problems and difficulties to be assimilated in a communicative context.

Rəyçi: filol.f.d., dos. A.Ramazanova

Redaksiyaya daxil olub: 18.01.2017

F.ŞÜKÜROVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNİN YARADICI FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI HAQQINDA

***Açar sözlər**: təfəkkürün müstəqilliyi; yaradıcı fəaliyyət; davranış motivləri*
***Ключевые слова**: независимость мышления; творческая деятельность; мотивы поведения*
***Key words:** independent thinking; creative activity; behavior motives*

Elm və texniki tərəqqinin sürətlə inkişaf etdiyi dövrümüzdə gələcək mütəxəssislərin yüksək səviyyədə hazırlığına, onların intellektual fəaliyyətinin tələb olunan səviyyədə olmasına böyük ehtiyac var. Məlumdur ki, cəmiyyətimizin müasir inkişaf mərhələsində elmi informasiyalar axını əhəmiyyətli dərəcədə artmışdır. Odur ki, tələbələrin müstəqil, yaradıcı düşünmə qabiliyyətlərini elə formalaşdırmaq, tərbiyə etmək lazımdır ki, onlar bu axından baş çıxarmağı bacarsınlar. Ona görə də indi ali məktəbdə tələbələrin idrak fəaliyyətini yalnız müəyyən həcmdə informasiyanı mənimsəməklə kifayətlənmək olmaz. Bu baxımdan müasir dövrün tələblərinə cavab verən xarici dil müəllimlərinin, xüsusilə də qlobal ünsiyyət dili statusunu əldə etmiş ingilis dili müəllimlərinin yetişdirilməsi problemini araşdırarkən ilk növbədə gələcəyin mütəxəssislərinin məhz bu istiqamətdə hazırlanması gündəlikdə olan ən vacib problemlərdən biri kimi qarşımıza çıxır. Gələcək mütəxəssisi müstəqil və yaradıcı surətdə düşünməyə öyrətmək zəruridir. Təbii ki, deyilənlər şəxsiyyətin elə keyfiyyət və xüsusiyyətlərinə diqqəti artırır ki, onlar yaradıcı fəallığı stimullaşdırır. Tələbələrin idrak fəallığını nəzərəçarpacaq dərəcədə müəyyən edə biləcək şəxsi keyfiyyətləri içərisində təfəkkür müstəqilliyinin mühüm yer tutması heç kimdə şübhə doğurmur. Təfəkkür müstəqilliyi həm də yetişməkdə olan nəsildə elmi dünyagörüşün formalaşması prosesində çox mühüm rol oynayır. Şəxsiyyətin yaradıcı fəaliyyətinin şərti olmaqla təfəkkür müstəqilliyi istənilən fəaliyyətin, istər fərdi, istərsə də, kollektiv fəaliyyətin nailiyyətlərinin yüksək səviyyəsini təmin edən mühüm amildir. Şəraitdən və məsələnin xarakterindən asılı olaraq təfəkkür müstəqilliyi özünəməxsus şəkildə təzahür edir. Bu təfəkkürün tənqidiliyi, orijinallığı, dərinliyi və hətta şəxsiyyətin mədəni xüsusiyyətləri kimi fərdi dəyişənlərin birləşməsindən asılıdır. Ali məktəb şəraitinin özünün də təfəkkür müstəqilliyinin təzahürünə, yaradıcılığın inkişafına təsiri yox deyildir. Həmin təsirin xüsusiyyətlərini bilmək tələbələrin idrak fəaliyyətini idarə etmək cəhətdən olduqca qiymətlidir.

Müasir ali təhsilin əsas vəzifələrindən biri, yalnız tələbələrə müəyyən hazır biliklər qazandırmaq deyil, həm də onlarda müstəqil surətdə zəruri bilikləri əldə etmək və istifadə etmək bacarığı, vərdişləri aşılamaqdan ibarətdir. Bu vəzifənin həllinin əsas vasitəsi tələbələrin yaradıcı fəaliyyətinin intensivləşdirilməsidir. Tələbələrin müstəqil idrak və yaradıcı fəaliyyəti müəyyən dərəcədə gündəlik məşğələlər zamanı həyata keçirilir. Bu məşğələlər zamanı tələblərin müstəqil fəaliyyətinə müəyyən səviyyədə müəllim tərəfindən rəhbərlik edilir. Ümumiyyətlə, tələbələrin müstəqil yaradıcı fəaliyyətini inkişaf etdirmək problemi ali təhsilin təşkilini səmərəliləşdirməyin ən mühüm problemlərindən biridir. Ali təhsilin vəzifəsi yalnız lazım olan biliklər verməkdən, ilk vərdişlərə və iş üsullarına yiyələndirməkdən deyil, həm də müstəqil, tənqidi və yaradıcı düşünmək qabiliyyəti aşılamaqdan ibarətdir. Tələbələrin akademik sərbəstliyi onların öyrəndikləri fənnlərə aid bütün suallara müstəqil münasibət bacarığı aşılamaqdan ibarətdir.

Günümüzdə təhsil sahəsində çalışan mütəxəssislər müstəqil iş problemini geniş mənada nəzərdən keçirərək onu təfəkkürün müstəqilliyinin, yaradıcılıq məhsuldarlığının yolu kimi başa düşürlər. Ona görə də son vaxtlar tələbələrin müstəqil işinin artırılmasına xüsusi səy gös-

tərirlər. Ali məktəblərdə tələbələri müstəqil bilik axtarışına təhrik edən şəraitə xüsusi diqqət verilməlidir. Bütün bunlar tələbələrin yaradıcı fəaliyyətinin stimullaşdırılmasının və müstəqilliyi öyrənməsinin bir yoludur.

Məlum olduğu kimi, təfəkkür müstəqilliyi anadangəlmə keyfiyyət deyildir və o, belə demək olarsa, daxili və xarici amillərin əlverişli zəmində çulğaşması nəticəsində inkişaf edir. Odur ki, tələbələrə hər hansı problemin həllinə yaradıcı şəkildə yanaşmaq, müstəqil fikrə gəlmək, məsələnin bu və ya digər cəhətini təcrid edib daha dəqiq dərk etmək və s. kimi mühüm xüsusiyyətləri aşılamaq vacibdir. Təfəkkür müstəqilliyi, məsələyə yaradıcı yanaşma, hər şeydən əvvəl, tələbənin mövcud biliklərlə rastlaşdığı situasiya arasında əlaqə yaratmaqda, müvafiq qayda və qanunları yerində və düzgün tətbiq etməkdə təzahür edir. Bu baxımdan təlim prosesində tələbələrin yaradıcı fəaliyyətinin stimullaşdırılması və təfəkkür müstəqilliyinin müxtəlif səviyyələrdə təzahür etməsini səciyyələndirən əsas amillər "ideyaca zənginləşdirmə", "müstəqil axtarışa yönəltmə", "qarşılıqlı axtarış və korreksiya" prinsipinə əsaslanmalıdır. Deməli, təlimə cəlb olunmuş hər bir üzvün təfəkkür müstəqilliyinin optimal şəkildə təzahürü üçün "axtarış", "mülahizə söyləmə", "ideya irəli sürmə" və "sübut etmə" istiqamətində dialoji prosesin təşkili zəruridir. Təlim prosesinin yalnız "materialın mənimsənilməsi və sonra yada salınması", "oxu, danış" prinsipi ilə işləmək gənc nəslin yaradıcı bacarığının kütləşməsinə gətirib çıxarır. Bu halda tələbələrin yaradıcı fəallığı heçə endirilmiş olur. Çünki, təlim "müəllim (və ya dərslik) informasiya mənbəyi", tələbə isə "informasiyanı qəbul edən tərəfdir". Bu halda tərəflərdən biri "ötürücü", digəri isə "qəbul edici" funksiyanı yerinə yetirir. Məlumdur ki, bu iki tərəf arasında qarşılıqlı təsir, qarşılıqlı fəallıq, tənzimetmə çox aşağı səviyyədə olur. Axı burada "ötürülən informasiyanın miqdarı" ilə "qəbul edilən, yadda saxlanan, sonra yada salınan informasiyanın miqdarı" arasında asılılıq axtarılır. Bunların uyğunluq dərəcəsi təlimin müvəffəqiyyət faizini, təlimin keyfiyyət əmsalını təşkil edir. Halbuki, "ötürülən" və "qəbul edilən" informasiyanın kəmiyyət uyğunluğu nə müəllimin, nə də tələbənin idrak fəallığının göstəricisi ola bilməz. Belə bir fəallıq, yəni informasiyaya yaradıcı münasibət olmadan təlim prosesinin səmərəliliyindən danışmağa dəyməz.

Tələbənin "təfəkkür müstəqilliyini" hərəkətə gətirmək, xüsusən də yaradıcı fəallığını yüksəltmək üçün mühüm amillərdən biri də informasiyanın hansı formada və necə çatdırılmasıdır. Deməli, başqa cəhətlərlə yanaşı, materialın necə təqdim edilməsi də tələbələrdə yaradıcı təfəkkürün aydın təzahürü üçün böyük əhəmiyyət kəsb edir. Bunun üçün ali məktəblərdə təlimin optimal variantını tapılmalı və tələbələrin yaradıcı fəaliyyətini stimullaşdırmaq üçün əlverişli şərait yaradılmalıdır.

Problemə ixtisası xarici dil olan ali məktəblərin pedaqoji fakültələrində təhsil alan tələbələrin yaradıcı fəaliyyətinin inkişaf etdirilməsi baxımından yanaşdıqda qeyd etməliyik ki, bu prosesi səmərəliləşdirmək və bu sahədə uğurlu nəticələr əldə etmək üçün ixtisas dili olan xarici dilin tədrisi, dili professional məqsədlərlə öyrənən tələbələrdə müstəqillik, kreativlik, təşəbbüskarlıq, ixtisas dilində yaradıcı şəkildə istifadə etmək qabiliyyəti inkişaf etdirilməlidir. Müasir dövrün irəli sürdüyü tələblərə uyğun olan xarici dillərin tədrisi sahəsində pedaqoji kadrların hazırlanması strateji əhəmiyyət kəsb edən məsələlərdən biridir. Məhz bu səbəbdən ixtisası dil olan ali məktəblərdə ixtisas dili olan ingilis dilinin tədrisi tamamilə yeni tərzdə təşkil edilməli və həyata keçirilməlidir. Kommunikativlik, tələbəyönümlülük, interaktivlik, əməkdaşlıq, qarşılıqlı hörmət, təşəbbüskarlıq, cavabdehlik, nəticəyönümlülük, yaradıcılıq, fəallıq prinsipləri üzərində qurulan təlim sistemi dil fakültələrində təhsil alan tələbələrin dövrün tələbləri səviyyəsində inkişaf etdirilməsini təmin edir. Şəxsiyyətlərarası münasibətlərin pozitiv olduğu şəraitdə tələbələr çox həvəslə biri digərindən öyrənən və həmçinin də öyrədən tərəf kimi çıxış edirlər. Deməli, tələbələr arasındakı emosional atmosfera idraki atmosfera ilə birbaşa bağlıdır. Bu müvəffəqiyyət əldə olunması üçün stimul yaradır, həm də, sonrakı təlim üçün əlverişli şərait yaradır.

Deməli, effektiv yaradıcılıq fəallığının, təfəkkür müstəqilliyinin əsasında şəxsiyyətin bir sıra xüsusiyyətlərinin və eləcə də, onun fəaliyyətini istiqamətləndirən kompleks davranış motivlərinin olmasını tələb edir. O motivlər kompleksi nəinki fəaliyyəti istiqamətləndirir, həmçinin də onları yönəldir. Başqa sözlə, yaradıcı təfəkkür nəinki intellektual fəaliyyətin xarakterini, həmçinin də bu fəaliyyətin hazırlıq səviyyəsini də müəyyən edir. Tələbələrin hər hansı məsələyə yaradıcı yanaşması qarşıya çıxan məsələnin orijinal, standart olmayan həlli üsulunun axtarılmasında özünü büruzə verir. Tələbələrdə ixtisas dili olan xarici dildə yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsini səmərəli şəkildə təşkil etmək üçün tələbələrin potensial imkanları, onların fərdi xüsusiyyətləri nəzərə alınmalı, təlim prosesində tələbələrin fəal iştirakını, eləcə də, fəndaxili və fənlərarsı əlaqələri təmin edən interaktivlik prinsipi tətbiq edilməlidir. Dil fakültələrində təhsil alan tələbələrə gələcək müstəqil professional fəaliyyətlərini qurmaq üçün zəruri olan vərdiş, bacarıq və kompetensiyaların aşılanması, onlarda ixtisas dili olan xarici dildən kommunikativ məqsədlərinə nail olmaq üçün yaradıcı şəkildə istifadə etmək qabiliyyətinin inkişaf etdirilməsi dildaşıyıcılarının riayət etdikləri kommunikasiya normalarını nəzərə almaqla və eyni zamanda tələbələrin milli-mədəni mənsubiyyətini, yaşadıqları cəmiyyətdə qəbul edilmiş norma və dəyərləri nəzərə almaqla həyata keçirilməsi prioritet kimi qəbul edilməlidir.

Deyilənləri ümumiləşdirərək qeyd etmək istərdik ki, müasir dövrdə ixtisası xarici dil olan ali məktəblərin qarşısında duran əsas məqsədlərdən biri ixtisas dilində adekvat ünsiyyət qurmağı bacaran, dildən müstəqil, sərbəst, yaradıcı şəkildə istifadə edə bilən mütəxəssislərin hazırlanmasıdır. Qloballaşan dünyada baş verən inteqrasiya prosesləri gələcəkdə dil sahəsində çalışacaq mütəxəssislərin professional məqsədlərlə öyrəndikləri xarici dilə linqvistik savada malik olan dil daşıyıcıları səviyyəsində yiyələnmələrini, onlarda analitik bacarıqların inkişaf etdirilməsini, mənimsənilmiş bilik, vərdiş və bacarıqlardan müxtəlif sahələrdə yaradıcı və sərbəst şəkildə istifadə etmələrini tələb edir.

Ф.Шукюрова

О стимулирование творческой деятельности студентов в ВУЗах

Резюме

В статье повествуется формирование способности независимого мышления у студентов. Разбираются пути стимулирования творческой деятельности, говорится о необходимости приобретения навыков, способностей и компетенции для построения независимой профессиональной деятельности будущего специалиста. Автор приходит к выводу что, основной задачей стоящей перед высшими учебными заведениями подготовка кадров, которые самостоятельно пользуются языком, с легкостью могут входить в контакт.

F.Shukurova

About the stimulating of creative activity in students at the universities

Summary

This article deals with the formation of independent thinking in students. It investigates ways of stimulating students' creative activity, speaks about the necessity of constructing habits, skills and competences for setting up independent activity of future specialists. The author concludes that the main task facing institutions of higher education training, who use their own language, can easily come into contact.

Rəyçi: ped.f.d., dos. G.Şirəliyeva

Redaksiyaya daxil olub: 02.12.2016

İ.N.TAHİROVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

YENİYETMƏLƏRDƏ ESTETİK TƏRBİYƏNİN FORMALAŞDIRILMASININ PEDAQOJİ ŞƏRTLƏRİ

Açar sözlər: *estetik tərbiyə, pedaqoji şərt, estetik zövq, qabiliyyət, tərbiyə sistemi*
Ключевые слова: *эстетическое воспитание, педагогические условия, эстетический вкус, способность, система воспитания*
Key words: *aesthetic upbringing, pedagogical condition, aesthetic taste, ability, upbringing system*

Təhsil sisteminin başlıca vəzifəsi dərin və hərtərəfli biliyə, bacarığa, praktiki hazırlığa, yüksək mədəniyyətə, məsuliyyət hissinə, milli dəyərlərə dərindən yiyələnən, onu qoruyan və daim inkişaf etdirən, ailəsini, Vətənini, millətini sevən və daim ucaltmağa çalışan, ümumbəşəri dəyərlərə yiyələnən, insan hüquqları və azadlıqlarına hörmət edən, müstəqil və yaradıcı düşünən, biliyinə, yüksək əxlaqi və mənəvi keyfiyyətlərə malik, mütərəqqi dünyagörüşə malik olan və onu daim inkişaf etdirməyə çalışan şəxsiyyət formalaşdırmaqdır. Göstərilən keyfiyyətlərə yiyələnən insan, gənc vətəndaş-şəxsiyyət yetişdirilməsində tərbiyənin digər sahələri ilə yanaşı, estetik tərbiyənin də rolu və imkanları çox böyükdür. Çünki tərbiyənin digər sahələrindən fərqli olaraq estetik tərbiyə prosesi hissi-emosional zəminə, geniş təsir qüvvəsinə istinad vasitələrinə əsaslanır. Yüksək əxlaqi saflıq, mənəvi-emosional zənginlik estetik tərbiyənin son nəticəsi kimi mühüm əhəmiyyət kəsb edir.

Estetik tərbiyənin əsas təsir vasitələrindən olan təbiət və incəsənətin qarşılıqlı münasibəti, ayrı-ayrı lövhələri həyat hadisələrinin sənət əsərlərində təsvir və tərənnümü, bədii-estetik qavrayış, ifaçılıq, intellektual səviyyə, bunların fəlsəfi, psixoloji, pedaqoji, fizioloji tədqiqi ilə eyni zamanda filosoflar, sənətşünaslar, pedaqoqlar, psixoloqlar və fizioloqlar məşğul olurlar. Buna görə də estetik tərbiyənin mühüm məsələlərinin, əsas komponentlərinin mahiyyətindən, onlara kompleks yanaşmadan danışarkən istər-istəməz həmin elm sahələrinin sintezinə istinad etmək lazımdır. Əlbəttə, burada konkret olaraq həmin sahələrin estetik tərbiyənin inkişafındakı rolundan funksiyasından geniş danışmağa ehtiyac yoxdur. Məktəbdə estetik tərbiyəni müvəffəqiyyətlə başa çatdırmaq üçün bu sahədə tərbiyə vasitələrinin sistemli surətdə əlaqələndirilməsi də mühüm şərtdir. Məsələn, ədəbiyyat dərslərində "Koroğlu" dastanı keçildiyi zaman musiqi guşəsində "Koroğlu" operasından parçalar, dastanın ayrı-ayrı qoşmaları əsasında bəstələnmiş xalq aşıq musiqisindən parçalar dinləmək və ya "Koroğlu" operasına baxış, Nizami yaradıcılığını öyrənərkən yenə musiqi güşəsində Nizami qəzəllərinə yazılmış musiqi əsərlərini dinləmək və bu kimi əlaqələndirmə yolu ilə təbiət, insan və incəsənətdəki gözəlliyə aid biliklərin bir-birini möhkəmləndirməsinə nail olmaq olar.

Məlumdur ki, ümumtəhsil məktəblərində estetik tərbiyənin əsas vasitələri tədris fənnləri, davranış, şərait və geyim, təbiət gözəllikləri, mədəni kütləvi tədbirlər, fərdi və kütləvi bədii yaradıcılıq dərnəkləridir. Onların hər birinin şagirdlərin estetik tərbiyəsində, estetik görüşlərinin formalaşmasında mühüm rolu var. Buna görə də çalışmaq lazımdır ki, şagirdlərin estetik tərbiyəsi işində həmin vasitələrdən, ayrı-ayrı məşğələ növlərindən və tədbirlərdən kompleks şəkildə istifadə olunsun. Çünki təlim-tərbiyə prosesində estetik tərbiyə vasitələrindən kompleks şəkildə istifadə olunması öz növbəsində mənəvi-estetik zənginliyə zəmin yaradır.

Problemin bu şəkildə aktuallığını nəzərə alaraq tərbiyənin ümumi qanunlarından çıxış etmək və estetik tərbiyəyə kompleks yanaşmanın əsas şərtlərini müəyyənləşdirmək lazım gəlir. Müstəqil Azərbaycan Respublikasında xalq təhsili sistemində aparılan islahatlar prosesin-

də estetik tərbiyənin kompleks təsir imkanlarını şərh etmək zərurəti də bu sahəyə göstərilən diqqət və qayğı ilə əlaqədardır. Dünyaya göz açdığı gündən valideynlərinin, sevimli tərbiyəçilərinin qayğısı ilə əhatə olunan, həyatın gözəl nemətlərini dadan uşaqların estetik tərbiyəsi mühüm dövlət əhəmiyyəti kəsb etməklə, ailədə və uşaq bağçaları-körpələr evlərində, ümumtəhsil məktəblərində aparılan tərbiyə işinin çox mühüm bir sahəsini təşkil edir. Bütövlükdə tərbiyə prosesi kimi, estetik tərbiyəyə kompleks yanaşmanın əsas şərtləri, başlıca tələbləri də müxtəlif cəhətlərlə müəyyənləşdirilir.

Estetik tərbiyəyə kompleks yanaşmanın **birinci şərti** tərbiyəyə kompleks qaydada yanaşmanın qanunlarından irəli gələrək estetik tərbiyənin-tərbiyənin digər mühüm sahələri əqli, əxlaqi, fiziki və əmək tərbiyəsi ilə qırılmaz, üzvi əlaqələndirilməsidir.

Uşaq və yeniyetmələrin, məktəblilərin hərtərəfli inkişafı naminə aparılan təlim-tərbiyə prosesində müxtəlif məşğələlərin estetik cəhətdən tərbiyəedici imkanları, qabaqcadan ciddi şəkildə nəzərə alınmalı, bu hisslərin zəminində balacaların əqli-intellektual tərbiyəsi inkişaf etdirilməlidir. Estetik tərbiyə əqli, əxlaqi, əmək, fiziki tərbiyə üzrə aparılan məşğələ və tədbirlərin ana xəttini təşkil etməlidir. Məşğələlərin tədbirlərin emosional təsiri artırılmalıdır.

Estetik tərbiyəyə kompleks qaydada yanaşmanın **ikinci şərti** təlim-tərbiyə prosesində estetik tərbiyənin əsas komponentlərinin estetik hiss, estetik həyəcan, estetik həzz, estetik zövq və estetik fəaliyyətin vəhdətdə götürülməsidir. Yəni istər otaq-kabinet şəraitində həyata keçirilən dərs, laboratoriya məşğələlərində, istərsə də sinifdən-məktəbdənxaric tədbirlərdə estetik tərbiyənin həmin komponentləri keyfiyyət halına keçərək uşaq-məktəbli şəxsiyyətində və fəaliyyətində əks olunmalıdır. Şagirdlərin estetik tərbiyəsinin inkişafı naminə həyata keçirilən bütün məşğələlərdə və rəngarəng tədbirlərdə balacaların estetik hiss, həyəcan, həzz, zövq və fəaliyyəti eyni dərəcədə ahəngdar şəkildə inkişaf etdirilərək tədricən formalaşdırılmalıdır. Ümumtəhsil məktəbi şagirdlərinin estetik tərbiyəsinə kompleks qaydada yanaşmağın **üçüncü şərti** bütün dərs və sinifdən-məktəbdənxaric məşğələ növlərinin, habelə ətraf aləmdə, doğma yurdla əlaqədar təşkil olunan gəzinti və ekskursiyaların, habelə təlim-tərbiyə ocaqlarının binalarının daxili tərtibatı işlərinin kompleks şəkildə götürülməsi, estetik tərbiyə məqsədi ilə onlardan kompleks şəkildə istifadə olunmasıdır. Burada belə bir cəhəti də qeyd etmək lazım gəlir ki, ümumtəhsil məktəblərində, habelə məktəbdənkənar tərbiyə müəssisələrinin bir qrupunda uşaqların, yeniyetmələrin musiqi-estetik fəaliyyəti, digər qrupda isə bunun əksinə, uşaqların rəsm etmə qabiliyyəti, təsviri fəaliyyəti proqramın tələbləri səviyyəsində olur. Bir çox hallarda isə uşaqlar ancaq ədəbiyyat, bədən tərbiyəsi üzrə müəyyən bədii ifaçılıq qabiliyyətinə malik olurlar. Təbiidir ki, belə hallarda uşaqların və yeniyetmələrin estetik tərbiyəsi bir predmet, bir incəsənət növünün əsasında inkişaf edir ki, bu da lazımi nəticə vermir. Uşaqlar digər ədəbiyyat və incəsənət əsərlərinin, rənglərin, səslərin "dilini", onların ahəngini öyrənməkdən məhrum olurlar. Bu isə estetik hisslərin ahəngdar inkişafını ləngidir.

Ümumtəhsil məktəbləri və digər tərbiyə ocaqlarının binalarının (həmçinin həyətlərin) nümunəvi şəkildə bədii tərtibatı da balacaların estetik hisslərinin, estetik zövqlərinin inkişafına qüvvətli təsir göstərən mühüm amillərdir. Əlbəttə, təlim-tərbiyə ocaqlarının rəhbərləri də bu cəhətə xüsusi fikir verməlidirlər.

Uşaqların, məktəblilərin estetik tərbiyəsinə kompleks qaydada yanaşmağın **dördüncü şərti** balacaların dünya görüşünü psixi qabiliyyətlərini və ayrı-ayrı qrupların, siniflərin yaş xüsusiyyətlərini, anlaq səviyyələrini nəzərə almaqla, uşaq bağçaları, körpələr evlərinin, ailənin, məktəbin, digər tərbiyə ocaqlarının, habelə mətbuat, radio-televiziyanın imkanlarının bir məqsədə yönəldilməsindən, estetik-emosional şəraitin yaradılmasına göstərən təsir vasitələrinin yaradıcılıqla əlaqələndirilməsindən ibarətdir.

Yetişməkdə olan nəslin estetik tərbiyəsi bəşəri mahiyyət kəsb etməklə həmişə aktual problemlərdən biri kimi qarşıda durur. Bu problem o zaman müvəffəqiyyətlə həyata keçirilə bilər ki, təlim-tərbiyə ocaqlarında sözün əsl mənasında estetik mühit yaransın. Həyata keçirilən

dərs sinifdən və məktəbdənkənar məşğələlərin hər birində istinad olunan rəngarəng təsir vasitələri uşaqların, müxtəlif yaş qruplarına aid olan məktəblilərin gözəllik, ülvilik hisslərini oyadıb hərəkətə gətirsin, emosional həssaslığını, mənalı yaşayıb-yaratmaq həvəsini daha da artırsın.

Ədəbiyyat

1.Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2016.
2.Əliyev R.İ. Mentalitet. Bakı: Mütərcim, 2014.
3.Cəfərzadə M.C. Estetik tərbiyə, ailə və məktəb. Bakı: Maarif, 1967..
4.Xəlilov V.C. Ümumtəhsil məktəblərində estetik tərbiyəyə kompleks yanaşmanın pedaqoji əsasları. Bakı: Maarif, 1997.

И.Н.Тахирова

Педагогические условия формирования эстетических воспитаний у подростков

Резюме

Для понимания эстетического воспитания нужно обязательно быть подготовленным. Чтобы понять красоту, музыкальные произведения, слушатель должен быть всесторонне культурным и иметь специальную подготовку.

Эстетическое воспитание зависит от его содержания.

В итоге: содержание каждого произведения без слов можно определить по словам.

Именно такое отношение к эстетическому воспитанию, приводит к её глубокому изучению.

I.N.Tahirova

The possibilities of expression in music

Summary

To understand the depth of some of the preparation work of art is very important. In order to understand the content of the aesthetic upbringing, the listener must have general knowledge and specific training.

Its pace depends on the context of compositions.

Thus, the content of each piece of aesthetic upbringing is certainly possible to clarify the wording.

It allows you to go back to the depths of his aesthetic upbringing this attitude.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 07.12.2016

N.İ.VƏLİYEVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MƏKTƏBLİ GƏNCLƏRİN GƏLƏCƏK AİLƏ HƏYATINA HAZIRLAMASININ PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *tərbiyə, təfəkkür, şəxsiyyətin formalaşdırılması, ailə tərbiyəsi, yaş xüsusiyyətləri*
Ключевые слова: *воспитание, воображение, формирование личности, семейное воспитание, возрастные особенности*
Key words: *education, imagination, the formation of personality, family education, age peculiarities*

Azərbaycanda qədim zamanlardan başlayaraq, gənc nəslin ailə həyatına hazırlanması vəzifəsini valideynlərin özləri yerinə yetirirdilər. Uşaqlar erkən yaşlardan etibarən ailə qanunları ilə yaşayır, ilk titrək addımdan, hər hansı sözdən, öyüd-nəsiəhətdən, göstərişdən ailə həyatının yazılmamış qanunlarını öyrənirdilər.

Qız uşağı əsas etibarilə anasının, oğlan da öz növbəsində atasının yolunu təkrar ediridi. Ailə ənənələrini nəinki möhkəm, həm də çox yeknəsəq idi. Ana gələcək müstəqil ailə həyatı üçün zəruri olan bütün şeyləri müəyyən dərəcədə qızına öyrədə bilirdi. Oğlan isə bir növ atasını yamsılayırdı.

Ətrafdakı xeyirxah adamların əməllərini təkrar etmək, yaşlılara baxıb öyrən-mək – "Ailə" elminin sirləri uzun müddət oğlan və qızlara heç də mürəkkəb olmayan belə üsullarla öyrədilmişdir.

Ailə münasibətləri sahəsində əsrlər boyu xalq adət və ənənələri mövcud olmuşdur. Belə adətlər "ər-arvad", "gəlin-qayınana", "ata-uşaqlar", "bacı-qardaş" kimi çoxşaxəli insan münasibətlərinin tənzim olunmasında mühüm rol oynayırdı. Bu sahədə hakim sinfin mənafeyini güdən dini ehkamlardan, hüquqi qaydalardan fərqli olaraq, xalq adət və ənənələri insan münasibətlərində, namus, şərəf, ləyaqət, ismət, həya və s. mənəvi cəhətləri yüksək qiymətləndirir, onların inkişafına kömək edirdi.

Azərbaycan xalqı ailə qurularkən nigahın bağlanmasına həmişə əxlaqi məna vermişdir. Belə ki, nigah münasibətinə girmədən ailə yaratmağı düzgün sanmamış-dır. Bu da təbiidir. Çünki belə ailələrdə gələcək uşaqların tərbiyəsi pozulur, ər-arvadın ailə qarşısında məsuliyyət hissi azalır, həm də nigah bağlamadan cinsi yaxınlığa yol vermək bağışlanılmaz günah sayılır.

Keçmişdə Azərbaycanda ailə məişətində bir neçə nigah forması özünü göstərirdi. Belə ki, monoqam (yunanca "mono" – tək və "qamos" – nigah sözlərin-dən olub təknigahlıq deməkdir) nigah forması zəminində endoqam və ekzoqam nigah qaydaları və adətləri (levirat, sorarat, beşikkərtmə, köbəkkəsmə) mövcud olmuşdur.

Keçmişdə Azərbaycan məişətində ekzoqam nigahlar da (kənar, ögey nigah) geniş yayılmışdır. Nəzərdən keçirilən əəbiyyatlar göstərir ki, ekzoqam nigah endoqam nigahdan xeyli əvvəl yaranıb (4, s.509-511). "XIX əsrdə Azərbaycan ailə-məişət münasibətlərində saxlanmış bir sıra adət və ənənələr sübut edir ki, ekzoqamiya bizim xalqımıza aid olan nigah forması olmuşdur" (5, s.17).

Köbəkkəsmə və beşikkərtmə də bu və ya digər dərəcədə Azərbaycan məişəti üçün səciyyəvi olmuşdur. Oğlan və ya qızın köbəyi düşərkən onları bir-birinə deyikli edirlər. Bu mərasim, bir qayda olaraq, yaxın qohumların, eləcə də dostların övladları arasında həyata keçirilirdi. Dostluq və qomluq münasibətlərini daha da möhkəmləndirmək məqsədi güdürdü.

Beşikkərtmə vaxtı oğlan anası bələkdəki qızı öz köynəyinin yaxasından keçirirdi. Bu oğlana qızı ad eləmək üçün kifayət edirdi.

Göstərmək lazımdır ki, nigahın istər levirat və istərsə də sororat formaları son illərə kimi Azərbaycan xalqının məişətində, xüsusilə ucqar kəndlərdə qalmaqda idi. İndi belə hallar nadir hadisəyə çevrilmişdir. Endoqram nigaha isə hələ də rast gəlinir. Özü də bu izdivacın əsas təşəbbüskarları, keçmişdəki kimi, valideünlər olurlar. İkiqat qohumluq elmi cəhətdən düzgündürmü?

Keçmişdə həmin suallar cavab vermək çətin idi. İnsanlar heç bu barədə düşünmürlər də. Əmiqızı ilə əmioğlunu evləndirmək psixoloji cəhətdən də rahat idi. Uşaqlarından bir yerdə böyümüş gənclər asanlıqda bir-birinə isnişdilər, ailə həyatı üçün böyük əhəmiyyətə malik bir çox problemlər, məslən, gəlin-qayınana, gəlin-baldız problemləri və s. də öz-özünə həll olunurdu. Lakin bununla belə, tibbi müşahidələr göstərirdi ki, qohum ailələrdə xəstə uşaqlara daha çox təsadüf olunur.

Müasir tibb elmi "ikiqat qohumluğu" – yaxın qohumla evlənməni zərərli hal sayır. İkiqat qohumluq bilavasitə irsiyyət prblemi ilə bağlıdır. İrsiyyət – əlamətlərin nəslə keçməsinə deyilir, o, nəsillər arasında varisliyə təminat verir. Müşahidələr göstərir ki, qohum olmayanlar arasasındakı nigahlara nisbətən qohumlararası nigahlarda irsi ailə xəstəlikləri 4-5 dəfə çoxdur. Lakin həm də cəsarətlə demək olar ki, əgər nigah münasibətinə girən gənclər sağlamdırsa da, onların yaxın qohum olmasına baxmayaraq uşaqları sağlam doğulacaq, nigah uğursuzluqla nəticələnməyəcəkdir.

Hazırda müasir azərbaycanlı ailələrdə qohumlararası nigahların sayı hədsiz dərəcədə azalmışdır, gənclər belə nigaha artıq köhnəlmiş, keçmişin zərərli qalığı kimi baxır, belə nigahlardan imtina edirlər.

Keçən əsrdə olduğu kimi, bu gün də respublikada nigah patrilokal xarakterə malikdir. Bunu necə başa düşməli? Toydan sonra gəlin, adətən ərin evinə köçür. Xüsusən şəhərlərdə ara-sıra matrilokal adətə rast gəlinir. Qeyd etdiyimiz kimi, ikinci hal geniş yaylmışdır və xalq bunu yaxşı qarşılamır. Beləsinə üzdə də olmasa, dalda tənə ilə yanaşırlar. Yalnız əlacsız qaldıqda, kasıb və kimsəsiz olduğu, evə kəskin ehtiyacı duyduğu təqdirdə və eləcə də qız ailənin yeganə övladı olduğu, onun evdən çıxıb getməsi həm özü, həm də valideynləri üçün son dərəcə ağır vəziyyət yaratdığı təqdirdə oğlan qayınatasının mənzilinə yığışır.

Azərbaycanda qızın, qadının mənəvi kamillyinə; əxlaqi saflığına tarixən kişi ləyaqətinin, namusunun, qeyrətinin göstəricisi kimi baxmışlar. Öz şərəfini, ismətini ucuz tutan qızların qadınların yüngülxasiyyətliliyi isə ailəyə tənə gətirmişdir. Ataların "qız üz qızardar", "Xəstəlik üz qızartmaz, qızardar qız adamı", "Arvadın isməti, ərin izzəti", "Qazan qarası gedər, namus qarası getməz", "Dünyada hər şey satılıb-alınar, namusdan başqa" və s. sözləri meydana gəlmişdir.

Keçmiş zamanlarda, qayda-qanunun olmadığı, insani hüquqlarının tapdalandığı bir şəraitdə qız böyütmək çətin idi. Namusu hər şeydən yüksək qiymətləndirən ata və analar qız uşağını göz bəbəyi kimi qoruyurdular, böyüyəndə adına söz çığacağından həmişə ehtiyyat edirdilər və təbii ki, anadan qız doğulmasını istəməzdilər. Gəlin köçən qız üçün də yeddi oğul və yalnız bircə qız arzulayırdılar.

Qız şərəfi və qadın isməti kimi nəcib keyfiyyətlərin qorunub saxlanması sevgi və ailə münasibətlərini rövnəqləndirir. Qızlıq şərəfi və qadın isməti olmadan saf məhəbbəti, təmiz aə möhkəm ailəni təsəvvürə gətirmək qeyri-mümkündür. Şərəfli və ismətli olmaq qıza və qadına baş ucalığı gətirir. Nəzakətli və mərifətli, ciddi və təvazökar qızlara hamı hörmətlə yanaşır. Onlar oğlanların nüfuzunu qazanır, həmin oğlanlara müsbət təsir göstərirlər. Oğlanlar isə təbii ki, belə qızların yvnında özlərini ağır aparır, danışıqlarının sərhəddini gözləyir, hərəkət və davranışlarında səhvlərə yol verməməyə çalışırlar.

Dardüşüncəlilik və mədəniyyətin çatışmazlığı yüngülxasiyyətliyə və yelbeyinliyə gətirib çıxarır. Ötəri hissin əsiri olanlar, məhəbbətdə ağılı deyil, hissi əsas götürənlər ictimaiyyə-

tin nəzərində haqlı olaraq pislənir. Təsadüfi deyilməmiş-dir ki, ağıl ilə həya ekiz qardaşdır, birini itirsən, digərini tapa bilməzsən. Belələri həyatda xoşbəxtliyə və səadətə də çata bilmirlər.

Azərbaycan xalqı zəhmətkeş xalqdır. Əməyə bağlanmış adamı günəş heç vaxt yataqda yaxalamayıb. Ata-babaların sözlərini böyük də, kiçik də yaxşü xatırlayır: insanın dəyəri nə yaşla, nə də sosial vəziyyətlə deyil, əməklə ölçülür. Tənbəllik ən rüsvayçı hal – ailənin dağılması səbəblərindən biri kimi nəzərdən keçirilir.

Ər-arvadın şəxsi səadəti, gələcək ailənin, uşaqların xoşbəxtliyi, ümumiyyətlə onların bir şəxsiyyət kimi necə təşəkkül tapmasından çox asılıdır. Ailədə ər-arvad bir gün deyil, orta hesabla 32-40 il birgə ömür sürür. Azərbaycan uzunömürlülər diyarı kimi tanınır. Respublikada 100 ildən artıq birlikdə ömür sürmüş adamlar vardır. Belə ailələrlə yaxından tanış olduqda yəqin edirsən ki, ailə qurulan ilk gün-dən ər və arvad bir-birinə mhribanlıq və sədaqət göstərmişdir.

Ədəbiyyat

1. Abbasov A. N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2016.
2. Əliyev R.İ. Mentalitet. Bakı: Təhsil, 2012.
3. Sadıqov F.B., Həsənli O.Q. Tərbiyəşünaslıq. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2015.
4. Семёнов И.Ф. Как возникло человечество. М.: Знание, 1966.
5. Quliyev H.A. Azərbaycan ailə məişətinin bəzi məsələləri. Bakı, Elm, 1986.
6. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986.

Н.И.Велиева

Педагогические особенности подготовки школьников в семейной жизни

Резюме

В статье прояснены проблемы подготовительных работ школьной молодежи к семейной жизни, выявлены и обоснованы педагогические особенности по решению данных проблем. Статья очень актуальна для учителей – практики и для родителей. Статьей также могут пользоваться и исследователи.

N.I.Valiyeva

Pedagogical features of preparing of pupils to the future family life

Summary

The article researches the problems of preparing of pupils to the family life, also the solving of these problems and their pedagogical basis with these charac – also to parents. The article can be useful for researchers too.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 30.12.2016

Н.Н.АБУТИДЗЕ

Азербайджанский государственный педагогический университет
(г. Баку, ул. Узеир Гаджибеков, 34)

ЖАНР ФОРТЕПИАННОГО КОНЦЕРТА В ТВОРЧЕСТВЕ С.РАХМАНИНОВА

Ключевые слова: *жанр, концерт, мелодия, развитие, стиль, тема, эпизод*
Açar sözlər: *janr, konsert, melodiya, inkişaf, stil, mövzu, epizod*
Key words: *genre, concert, melody, development, style, theme, episode*

Концерты С.Рахманинова, являясь своеобразным красочным полотном, демонстрируют не только яркий авторский стиль композитора, но, что не менее важно, позволяют проникнуть в суть породившей их эпохи, осмыслить весьма сложные процессы развития симфонической и фортепианной музыки. В жанре фортепианного концерта были воплощены, очень зримо и ощутимо, основные темы и идеи выдающегося музыканта-композитора и исполнителя. Масштабная архитектоника и глубина симфонического развития позволили создать монументальные сочинения с высокой художественной идеей.

Каждый концерт – это новый этап творческой жизни композитора, выявляющий эволюцию жанра и образно-стилевой системы. От первого концерта, открывшего творческую дорогу, и до пятого / Рапсодия на тему Паганини/ - мы прослеживаем сложный и тернистый путь усложнения и обогащения всей системы, в которой юношеская пылкость сменяется зрелостью, появлением трагической темы и глубиной раздумий как результата духовного и жизненного опыта.

Концерты С.Рахманинова выдвигают много проблем. Среди них наиболее значимые – проблема тематизма, драматургии, своеобразия авторского стиля, связанного с его мироощущением, эпохой, в которой он жил и творил. Уже Первый фортепианный концерт явился значительным этапом в творческом развитии Рахманинова. Несмотря на то, что здесь довольно ясно прослеживается близость лирико-романтическому типу изложения в концертах Шумана, Грига и монументальному звучанию листовского фортепиано, доминирующему над оркестром, в нем уже явно ощущается Рахманинов с его необычным, ярко унаваемым почерком. Концерт увлекает, звучит эмоционально взволнованно; мужественная патетика в сочетании с мечтательным лиризмом создает особый дух рахманиновской экспрессии. Первый концерт представляет благодатный мАтериал для постижения характера высказывания автора, выразительности фортепианной фактуры, принципов намечающегося симфонического развития. Значимый мАтериал для прослеживания становления рахманиновского стиля представлен в первой части – это главная и побочная партии, а также второй части, в которых отчетливо слышится связь с русской романсово-декламационной мелодикой.

Второй фортепианный концерт занимает особое место в творчестве Рахманинова. Это произведение являяется одним из самых популярных и любимых сочинений не только в силу его музыкальных составляющих – драматизм, благородство и красота тем, тесное переплетение лирического и эпического, необыкновенное волевое начало и энергия, но и потому что автор сумел уловить и воплотить в нем знамение времени – невероятное возбуждение и ожидание чего-то нового на пороге наступающего столетия. Основным мотивом этого концерта является воспевание жизни, ее красоты и радости, несмотря на яркое противопоставление и взаимодействие двух сфер – волевой, эпически сумрачной и светлой лирической, формирующих всю драматургию цикла.

Это одно из редких произведений крупной формы, где так мощно доминирует песенно-мелодическое начало. И неудивительно, что критики того времени отмечают необычайный мелодический дар композитора, проявивший себя в изумительной красоте, певучести и широте представленных тем. Слушая музыку Рахманинова, перед нами возникают образы природы не обобщенного характера, а безусловно русской природы с ее раздольем, широкими просторами и невероятно глубоким дыханием, наполненностью воздухом. В этом «разливе» сдерживающим и организующим волевое начало сочинения составляющим выступает ритм: «…интенсивнейшие порывы от величия внутренней душевной тревоги и сейчас же мощная организующая сила ритма, как оборона против душевного хаоса и прорыва плотины дисциплинированной воли стихией чувствований» /Б.В.Асафьев/. Весьма интересно, что в основном изложении темы Второго концерта при медлительном текучем развертывании мелодической линии, при ее внешней неподвижности, где как будто ничего не происходит, на самом деле накапливается такое напряжение, скрытое до поры до времени, что её «прорыв» в кульминационной фразе производит невероятно глубокое по своей силе эмоциональное воздействие.

1803-cü ildə Kislovodsk yaxınlığında Qafqaz Mineral sularının açılışı olmuşdur. 1803-cü ildə çarın əmri ilə bura "Müalicəvi region" kimi təsdiqləndi. 1810-cu ildə Jeleznovodsk və Yessuntukidə mineral bulaqlar aşkar edilmişdir. 1828-ci ildə Köhnə Russo kurortu, 1830-cu ildə Odessa palçıq kurortları,1833-cü ildə Sergievskie Mineral suları yaradıldı. 1836-ci ildə Sarqas gölün sahilində palçıq xəstəxanası açıldı. Rusiyada kurort sisteminin inkişafı 1919-cu ildə Lenin tərəfindən "Kurortların milliləşdirilməsi haqqında dekret" imzalandıqdan sonra vüsət almışdır. 1921-1922-ci illərdə Qara dəniz sahilində Qafqazda Anapa, Soçi, Qaqra, Suxumi öz fəaliyyətinə başladı, Borjumi, Abastuman bərpa olundu və Sestroreks xəstələrini qəbul etdi.

XX əsrin əvvəllərində Rusiyada 36 kurort, 60 sanatoriya və 3 min yeri özündə birləşdirirdi. Daha məşhur və inkişaf etmiş kurortları Pyatiqorsk, Borjomi, Saki, Köhnə Russo, Odessa, Yevpatoriya və Yalta idi. 1940-cı ilin əvvəlində Rusiyada artıq 3600 sanatoriya və 470 min nəfərlik istirahət evləri var idi. Əsas sanatoriyalar uşaqların müalicəsinə təyin olunmuşdur. 1990-cı ildə Rusiyada artıq 1400 sanatoriya, 2,5 milyon yerlik istirahət evləri var idi.

Rusiyanın birinci balneoloji kurortları Şimali Qafqazda (Jeleznovodsk, Pyatiqorsk və Yessuntuki) idi. Onlar Rusiyanın ən böyük mineral sularıdır. Rusiyanın əsas kurortları, mineral və müalicəvi suları ilə seçilən Qafqaz regionudur. Burada 3000-dən çox mineral su mənbəyi var ki, onların da tərkibində karbon qazının çox olması müalicəvi xüsusiyyətlərlə yanaşı, süfrə suyu kimi də istifadə etməyə imkan verir. Şimali Qafqazın təbii bölgəsi mineral suların zənginliyinə görə dünyada yalnız ABŞ-ın təbii bölgəsindən geri qalır. Mövcud mineral suların ümumi debiti sutkada 1,5 mlrd-dan çox qiymətləndirir. Bu mineral sular Qafqaz dağlarının şimal ətəklərində, 600-3200 m yüksəklikdə yayılıb. Məşhur mineral sulara Arxız, Narzan, Yessentuki, Nalçik və s. göstərmək olar. Bu mineral suların da bazasında 30000 yerlik balneoloji kurortlar fəaliyyət göstərir.

Rusiyanın Şimali Qafqaz kurortları mineral termal sularının zənginliyi baxımından dünyada analoqu olmayan ərazi kimi səciyyələnir. Bu kurortlar 500-dən çox mineral və termal

su mənbəyindən və Tabukan gölünün 2 mln tona yaxın müalicəvi palçıq ehtiyatlarından ibarətdir. Qeyd olunan 500-dən çox mineral və termal su mənbələri 20 min kv.km ərazidə yayılmışdır. Şimali Qafqaz kurortları geniş kompleks təşkil etməklə bir-biri ilə əlaqəsi olan müalicə-sağlamlıq xidməti təşkil edir. Qafqaz Mineral suları bir neçə kurortları qrup şəklində özündə əks etdirir. Qafqaz Mineral sularının yerləşdiyi ərazi isti mülayim rütubətli iqlimdə yerləşir. Orta temperatur yay aylarında 22^0C, qışda -4^0C təşkil edir. Hərdən -30^0C-yə qədər şaxtalı hava ola bilər. Orta illik hava rütubətliyi 70-80%, günəşli günlərin sayı ildə 2150 saata çatır.

1863-cü ildə doktor S.A.Smirnovun müşayiəti ilə rus balneoloji mərkəzi yaradılır və burada ilk sanatoriya xidmətləri təşkil olunmağa başlanılır. 1920-ci ildə isə regionda I elmi kurortoloji institut yaradılmışdır. XX yüzillikdə Qafqaz Mineral sularında ilk dəfə olaraq mineral suların qablaşdırılması aparılmışdır. Kislovodsk, Pyatiqorsk və Yessentuki kurortlarında süfrə suyu istehsal edən 6 zavod vardır ki, bunlar da il ərzində 2 mlrd dekalitrdən çox süfrə suyu istehsal edir.

Pyatiqorsk palçıqları müalicəvi kurortu Botkumot çayının sol sahilində, Maşuk dağının qoynunda, dəniz səviyyəsindən 510-630 m hündürdə yerləşir. İlk kurort Qafqaz Mineral suları təməlinə görə isti termal sulara borcludur, buradakı termal suların bazasında ilk müalicə vannaları təşkil olunmuşdur. “Qaryaçivodskom” 1830-cu ildə Pyatiqorsk adı ilə dəyişdirilib. Pyatiqorsk mineral suları özündə 5 qrupa bölünür. Bu sular termal və mineral sular olan Narzan tipli, karbonlu, radon, hidrokarbonatlı və kükürdlü sulardan ibarətdir.

Pyatiqorsk kurortunun ətrafının palıd meşələri ilə örtülməsi, zəngin təbiətə malik olması ondan istifadə edənlərin sayını artırır. Buna görə də balneoloji müalicə ilə yanaşı, istirahət-sağlamlıq mərkəzi kimi məşhurdur. Pyatiqorsk kurortunda vanna müalicəsi ilə yanaşı, içmə su qalereyası, müalicəvi süfrə suyu istehsalı da aparılır. Karbon sular – Pyatiqorsk narzanı içmə yolu və vanna qəbulu ilə istifadə olunur. Bu suyun tərkibində çoxlu mikroelementlər vardır ki, bu da onun müalicəvi xüsusiyyətindən aslıdır. Radon suları o biri sulara ion tərkibinə görə bənzəyir, amma mineral tərkibi müxtəlif olmaqla, kükürdü və karbonu azdır.

Pyatiqorsk kurortunda ən çox istifadə olunan su Yessentuki №4 suyudur. Onların tərkibində kükürd və duzlar, xlor və natrium çoxdur. Pyatiqorskda 23 sanatoriya müəssisəsi və 100-dən çox istirahət mərkəzi vardır. Sanatoriya müəssisələri keçmiş ittifaqdan qalan sanatoriya müəssisələri ilə bağlıdır. Bu müəssisələrin əksəriyyəti özəlləşdirilmişdir. Hazırda bu kurortların bazasında 3 və 4 ulduzlu otel və əyləncə mərkəzləri, akvaparklar fəaliyyət göstərir. Sanatoriyalarda müalicəvi korpuslardan əlavə hovuzlar, saunalar, trenajor zallar vardır. Bu kurortların ümumi sanatoriya yerlərinin sayı 3000 yerdən çoxdur.

Kislovodsk bölgənin cənubunda, hündürlüyü 4 km olan Şimali Qafqaz dağlarının əhatəsində, 800-1163 m dəniz səviyyəsindən yüksəklikdə yerləşən kurort-sağlamlıq mərkəzidir. Kurortun əsas müalicəvi faktorlarından biri suların karbonlu, az minerallaşmış, hidrokarbonlu-sulfatlı, kalsili və maqnezium-natriumlu olmasıdır. Bu mineral və termal su mənbələrindən vanna müalicəsində və müalicəvi süfrə suyu kimi istifadə olunur. Kislovodskda mineral suların ümumi debiti sutkada 1,5 mln litr-dən çoxdur. Bu kurortda uroloji, ürək-damar, mədə xəstəliklərinin müalicəsi aparılır. Kislovodsk kurortunda Rusiyanın ən böyük modernləşdirilmiş kurort kompleksləri tikilib. Burada 44 sanatoriya fəaliyyət göstərir ki, onların da ümumi yerlərinin sayı 52 minə çatır. Kislovodsk kurortunda müasir-sağlamlıq mərkəzləri sayılan 4 və 5 ulduzlu otellər fəaliyyət göstərir. Kurortun sularından Avropada ən böyük süfrə suyu kimi istifadə olunur. Mineral suların tərkibində yod və mineral duzların çox olması onların müalicəvi xüsusiyyətini artırır.

Yessentuki Stavropolda şəhər olmaqla, Padkumok çayı dərəsində 600-650 m yüksəklikdə, “Mineralnıy vodı” şəhərindən 43 km cənubi-qərbdə yerləşir. Orta temperatur yanvarda +4^0C ,iyulda +20^0C, illik yağıntı 520 mm təşkil edir. Bu balneoloji kurortda günəşli günlərin sayı ildə 280 gün olur. Yessentukidə maddələr mübadiləsinin pozğunluğuna

(piylənmə, şəkərli diabet), mədə-bağırsaq, qaraciyər və s. xəstəliklərə tutulanlar müalicə olunur. Suyu içilir və müalicə vannaları kimi istifadə edilir. Burada müalicəvi məqsəd ilə 20-dən çox mənbələr fəaliyyət göstərir və ən çox Yessentuki №4 və Yessentuki №17 istifadə edilir. Yessentuki №4 suları müalicəvi minerallarla zəngindir. Hal-hazırda bu suyun 11 mənbəyi vardır. Yessentuki №17 xlorlu-hidrokarbonlu olmaqla, natriumlu tərkibi yüksəkdir. Hal-hazırda bu suyun 5 mənbəyi vardır. Bu sulardan mədə-bağırsaqda, böyrəkdə narahatçılıqları olan xəstələr istifadə edə bilər. Vanna kimi isə burada karbonlu sulardan istifadə edilir. Bu kurortda 30-dan çox sanatoriya fəaliyyət göstərir ki, bunlardan da 3-ü uşaq və yeniyetmələr üçündür.

Jeleznovodsk Rusiyanın Stavropol vilayətində şəhər və balneoloji kurort olmaqla, Pyatiqorskdən 17 km şimalda, Jeleznaya Qora və Beştau dağları arasında sıx meşələrlə əhatə olunmuş, dəniz səviyyəsindən təqribən 600 metr yüksəklikdə yerləşir. Jeleznovodskin kurort resurslarının əsasını mineral mənbələr təşkil edir. Mineral bulaqların suyu müalicə məqsədilə içilir (əsasən Simirnov, Slavyanka), vanna qəbul etmək üçün işlədilir və butulkalara doldurulur. Jeleznovodsk bulaqlarının suyu soyuq, ilıq və istidir. Jeleznovodskidə mədə-bağırsaq, böyrək, öd yolları, qaraciyər, sidik daşları xəstəlikləri və maddələr mübadiləsinin pozulması ilə əlaqədar xəstəliklər müalicə olunur. Jeleznovodskdə "Dubovoya Roşşa" sanatoriyasında palçıqla müalicə yeri vardır. Kurort il boyu fəaliyyət göstərməklə, 20 sanatoriya və 30 su mənbəyini əhatə edir.

Hal-hazırda müalicə-sağlamlıq turizmi çox məşhur olmaqla, Rusiyanın çoxlu regionlarını əhatə edir və müxtəlif müalicə formaları təklif edir. Bu kurortlarda 70-dən çox xəstəliyin təbii üsullarla müalicəsi aparılır. Rusiyada palçıq vulkanları ilə müalicə də geniş yayılıb ki, bunların da əsas hissəsi Ural və Volqaboyu turizm bölgələri üçün xarakterikdir. Şimali Qafqaz kurortlarında il ərzində 16 mln nəfər istirahət edir.

Ədəbiyyat

1. Ветитнев А.М., Журавлева Л.Б. Курортное дело. М., 2006
2. Драчева Е.Л. Специальные виды туризма. Лечебный туризм. М., 2010
3. Кусков А.С., Голубева В.Л., Одинцова Т.Н. Рекреационная география. М., 2005
4. Сухарев Е.Е. Курортное дело. М., 2011
5. Третьякова Т.Н. Основы курортного дела. М., 2008

Ф.Н.Агаева

Курорты региона Северного Кавказа России и методы лечения

Резюме

В статье идет речь о лечебных курортах Северного Кавказа России. В статье представлены лечебные методы в Северном Кавказе России. В статье отмечается как термальные и минеральные воды бальнеологических и лечебных курортах воздействует в разных заболеваниях.

F.N.Agayeva

The Methods of Treatment in Regional Resorts of Russian North Caucasus

Summary

The article deals with the healing resorts of the North Caucasus Russia. The article shows the therapeutic methods in Russia's North Caucasus. The article notes how thermal and mineral water and balneological treatment resorts affected in different diseases.

Rəyçi: c.f.d., dos. G.R.Ağakişiyeva
Redaksiyaya daxil olub: 25.11.2016

G.Q.ƏLİYEVA

Azərbaycan Dövlət İqtisad Universiteti
(Bakı şəh., İstiqlaliyyət küç., 6.)

SOSİAL ƏDALƏT VƏ ONUN MEYARI

Açar sözlər: *ədalət, sosial ədalət, bərabərlik, qeyri-bərabərlik, sosial dəyər.*
Ключевые слова: *справедливость, социальная справедливость, равенство, неравенство, социальная ценность.*
Key words: *justice, social justice, equality, inequality, social value.*

İnsanların münasibətlərini tənzimləyən zəruri anlayışlardan biri ədalətdir. Fəlsəfə lüğətində ədalət "insanın varlığı və onun ayrılmaz hüquqlarını müəyyənləşdirən vəzifə anlayışı" kimi müəyyənləşdirilir. Ədalət – əxlaqi-hüquqi kateqoriyadır, eləcə də sosial-siyasi şüurdur. "Ədalət" – insanın həyatından narazı qalmasının nəticəsi olaraq meydana gəlmişdir. Razı insan ədalətə ehtiyac duymur və hətta inkişaf etmiş cəmiyyətdə belə onun haqqında danışmır.

Beləliklə, ədalət anlayışının məzmununa cəmiyyət həyatında müxtəlif fərdlərin (sosial qrupların) praktik rolları ilə onların sosial vəziyyəti, hüquqları və vəzifələri, əməlləri və onun əvəzi, əməyi və onun mükafatı, cinayət və cəzaları, insanların xidmətləri və ictimai minnətdarlıqları arasındakı mütənasiblik tələbləri daxildir. Bu qarşılıqlı əlaqələrin bir-birilə uzlaşmaması ədalətsizlik kimi qiymətləndirilir. Bu yanaşmadan görünür ki, ədalət kateqoriyası həm etik, həm hüquqi, həm də sosial-siyasidir.

Ədalətin xüsusi növü olan sosial ədalət – cəmiyyətin böyük üzvlərinin siyasi, hüquqi, iqtisadi və digər hüquq və maddi dəyərlərin bölüşdürülməsində razı qalmasını daima təmin edən ictimai institutlar sistemidir.

Sosial ədalətə dair müxtəlif konsepsiyalar vardır. Ədalət, azadlıq, bərabərlik və bərabərsizliyin qarşılıqlı əlaqəsinə görə aşağıdakıları ayırmaq mümkündür:

1. Bərabərləşdirici konsepsiya. Bu konsepsiya ədalət və bərabərliyin yaxınlığı, yaxud eyniliyindən çıxış edir. Ədalətin bu növü mülki-hüquq işləri, ziyanın ödənilməsi, cəza və s. sahələrdə tətbiq olunur.

2. Bölüşdürücü konsepsiya. Prinsip olmaqla bölüşdürücü ədalət ümumi nemətlərin ləyaqətlə bölünməsidir, bu və ya digər cəmiyyət üzvünə pay və əmanətlərin proporsional verilməsidir.

3. Liberal konsepsiya. Bu konsepsiya azadlıq və bərabərliyi balanslaşdırmaq, bütöv sosial ədalət sistemi çərçivəsində onları bir-birlərinə dayaq etmək imkanından çıxış edir. Bu yanaşmanın ən məşhur nümayəndələrindən biri müasir amerikalı filosof, C.Roulzdur. O, ədaləti ictimai qurumun prinsipi kimi nəzərdən keçirir. Ədaləti aydınlaşdırmaq üçün o, bərabərlik və qeyri-bərabərlik anlayışlarından istifadə edir. Ədalət insanlar arasında bərabərlik və bərabərsizliyin ölçüsü kimi çıxış edir. İnsanlar hüquqi baxımdan bərabər olmalıdırlar və bu bərabərlik qanunla möhkəmlənməlidir. Onlar sosial dəyərlərin bölüşdürülməsində bərabər olmalıdırlar. Lakin sosial dəyərlərin bölüşdürülməsində bərabərsizlik də ədalətli olardı, belə ki, qeyri-bərabər bölüşdürülmə hər bir kəsə üstün olma imkanı verir. Beləliklə, Roulzun mövqeyinə görə ədalət iki prinsipdən çıxış edir: a) hər bir insan bütün digər insanların azadlığına müvafiq olan əsas azadlıqların nisbətən böyük sisteminə münasibətdə bərabər hüquqa malik olmalıdır; b) sosial və iqtisadi bərabərsizlik elə şəkildə təşkil olunmalıdır ki, birincisi, onlardan hər bir kəs üstünlüyə malik olmaq üçün istifadə edə bilsin, ikincisi, vəzifə və mövqelər hamı üçün açıq olsun.

Sosial ədalətin mahiyyətini anlamaq üçün problemin araşdırılmasına bilavasitə əlaqəsi olan məqamların üzərində qısaca dayanaq. Ondan başlamaq lazımdır ki, sosial ədalətin dərkində qərb və şərq ölkələri fərqlənirlər. Əgər ictimai həyatın şərq ənənəsinə müraciət etsək, onda məlum olur ki, qədim çin və koreya dillərində, eləcə də sanskrit dilində ədalət sözü yoxdur. Lakin bu ədalət anlayışının yoxluğu demək deyil. Ərəb mədəniyyətində ədalət əvvəllər təbiətdə hökm sürən, sonra isə insanlar tərəfindən pozulan harmoniyanın saxlanılmasına müncər edilir. Əgər qərbdə ədalətin onu yaradana kimi mövcud olmaması düşünülürdüsə, müsəlman şərqi ölkələrində tam fərqli olaraq, ədalət yaradılmır, o, itirilmiş tanasübün, yaxud harmoniyanın yenidən bərpa edilməsi kimi nəzərdən keçirilir.

Qərbdə ədalət haqqında baxışlar rəvan şəkildə formalaşmayıb. Fəlsəfi fikir göstərdi ki, bu təsəvvürlər ədalətin tam yoxluğundan siyasətçilərin uzun illər şüurlarına hakim kəsilən utopiyaya kimi inkişaf yolu keçmişdir. Ədalət haqqında avropa humanist təsəvvürlərin fərqləndirici xüsusiyyəti onun qanun və qaydalarla eyniləşdirilməsidir. Avropalının düşüncəsinə görə ədalətli yaşamaq öz dövləti tərəfindən müəyyənləşmiş qanunlarla yaşamaq deməkdir.

C.Roulz göstərir ki, cəmiyyətin bazis strukturu üçün ədalət prinsipləri ilkin razılaşma obyektləridir. Bunun əsasında o, ədalətin iki aspektini ayırır: 1) ədalət ideal cəmiyyətin quruluşudur (ədalətə ciddi razılaşma müvafiqdir); 2) ədalətsizliyin hökm sürdüyü cəmiyyətin real vəziyyəti, cəmiyyət ədalətsizliklə hansısa şəkildə yola getməli olur.

Bəs ədalətsizliklə necə rəftar etməli? Cavab olaraq ədalətin iki prinsipini özünə daxil edən müəyyən razılıq nəzəriyyəsini göstərmək olar: a) hər bir kəs elə bərabər azadlıq hüququna malikdir ki, o, başqalarının da bu cür azadlığı ilə fundamental şəkildə bir araya gələ bilsin; b) iqtisadi və sosial bərabərsizlik o zaman ədalətli olar ki, o, ümumi fayda gətirsin və cəmiyyətin nisbətən az müdafiə olunan üzvlərinin itkilərini kompensasiya etsin. Bu zaman sosial və iqtisadi bərabərsizlik iki şeyi – nisbətən qeyri-sərfəli şəraitdəkilər üçün daha çox faydalı olmanı və oxşar vəziyyətdə olan hər kəs üçün açıq imkanlar və bərabər şərtləri nəzərdə tutmalıdır. Xüsusi razılaşma nəzəriyyəsi ədalətin müntəzəm bərpasını və onun yeni formalarının axtarışını tələb edir.

Sosial ədalətin dərkində başlıca ziddiyyətlərdən biri onun bərabərliklə eyniləşdirilməsidir. Həm gündəlik həyatda, həm də elmi ədəbiyyatlarda tez-tez insanların bərabərliyinin sosial ədalətlə, bərabərsizliyini isə sosial ədalətsizliklə eyniləşdirilməsinə rast gəlinir. Belə eyniləşdirmə sonradan cəmiyyət üçün təhlükəli olan ideologiya və siyasətin yaranmasına təsir göstərir. Bərabərlik – qarşılıqlı əvəzlənməni ifadə edən sadə və kifayət qədər dəqiq anlayışdır. İki insan istənilən vəziyyətlərdə bir-birlərini qarşılıqlı əvəz edə bilərsə, onlar bərabərdirlər. Aydındır ki, belə şey ola bilməz. Deməli, insanlar tam şəkildə bərabər ola bilməzlər. Onlar müəyyən münasibətlərdə: erudisiyalarında, profesionallıqda, hər hansı vəzifənin yerinə yetirilməsində və i.a. bərabər ola bilərlər. Əgər insanlar arasındakı bərabərlik prinsipcə mümkünsüzdürsə, onda sosial ədaləti necə başa düşmək olar?

Sosial ədalət – bütün insanların bərabərliyi deyil, qanun və digər normativ (formal və qeyri-formal) təlimatların ictimai fayda ölçüsüdür. Həmin qanun və normativ təlimatlar insan və təşkilatların, fiziki və hüquqi şəxslərin həyat fəaliyyəti qaydaları ilə razılaşdırılır, sosiumun inkişafına səbəb olur və cəmiyyət üzvlərinin inteqrasiya və layiqli yaşamasını təmin edir. O institutlar, idarəetmə formaları, norma və qanunlar ictimai ədalətli hesab olunur ki, onlar razılaşma əsasında insanların cəmiyyətdə layiqli həyatının əsasını yaradır və qoruyur. Yəni hər kəs konkret olaraq fərdi ədalətini dövlət və sosial institutlarla qarşılıqlı əlaqədə təmin etməyə çalışır.

Elə buradaca sosial ədalət/ədalətsizliyin meyarı məsələsini müəyyənləşdirmək imkanı yaranır. Sosial ədalətin müasir anlamında diqqət bu və ya digər məsələlərdə tərəflər arasında sosial qarşılıqlı əlaqənin razılaşmasına yönəldilir. Bu razılaşma sosiumun üzvlərinin inteqrasiyasını, onların həmrəyliyini və nəhayət, sosial qaydanı təmin edir.

Bu ümumi təminat ilkin razılaşmanı və onun reallaşma mexanizmlərini hər dəfə dəqiqləşdirir, differensasiya edir. Hər bir dəqiqləşdirmə momenti yeni normativ göstərişlərin işlənilib hazırlanması ilə əlaqədardır, ona görə də rəsmi norma (onu "əsas" adlandırmaq olar) şəklində tərtib edilmiş ilkin razılaşma bütöv normalar ("xidmətçi" normalar) kompleksi düzəldir. Həm "əsas", həm də "xidmətçi" normalar sosial-adekvat və ya sosial-qeyri-adekvat ola bilir. Sosial adekvat cəmiyyətin yalnız obyektiv işlərini (problemlərin həlli, cinayət səviyyəsinin aşağı salınması və s.) deyil, həm də bu normalara münasibətdə müsbət ictimai rəyin formalaşmasını əhatə edir.

Əxlaqi (qeyri-rəsmi normalar) razılaşmanın əlamətləri aşağıdakılardır: sosium üzvlərinin hər cür özgələşmə təzahürlərinə münasibətdə tolerantlığın müəyyən səviyyəsinin saxlanılmasına imkan verən normaların ifadəli intervalı (yaxud "imkanlar sahəsi"); cəmiyyətdə mövcud problemə, fəaliyyətə müsbət münasibət; norma pozğunluğunun aşağı səviyyəsi.

Əgər "əsas" və "xidmətçi" normalar sosial-adekvatlığı obyektivdirsə və ya yalnız əhalinin böyük əksəriyyətinin şüurundadırsa, onda həmin normalar sosial səviyyədə neqativ sosial hadisə (anomiya; destabilizasiya; insan, sosial qrupların bəzi davranış, fəaliyyət növlərinin damğalanması; hakimiyyət və sosial qrupların münaqişələri və s.) şəklində çıxış edirlər, fərdi səviyyədə isə ədalətsizlik və azadlığın məhdudlaşdırılması kimi qəbul olunur. Bunun nəticəsi isə maraqların toqquşması və rəsmi yeridilən siyasətlə razılaşmama momentini əks etdirən hər hansı normaların pozulması olacaq.

Beləliklə, ədalət/ədalətsiz və sosial adekvat/qeyri-adekvat normalar sisteminin meyarı bunlardır: rəsmi və qeyri-rəsmi normaların yüksək səviyyədə pozulması; açıq fəaliyyət üçün "imkanlar sahəsinin" daralması; tolerantlığın aşağı səviyyəsi; narazılığın tətil və ya başqa etiraz formalarında həyata keçirilməsi; vətəndaşlarda subyektiv ədalətsizlik hissi; rəsmi sosial institutlara etibarın aşağı səviyyədə olması; dövlətin həyata keçirdiyi tədbirlərə münasibətdə etinasız və ya kəskin mənfi münasibət; siyasi laqeydlik; sosial qruplar arasında münaqişə; ayrıca sosial qrupların sosial istisnası və s. Bu fenomenlər vətəndaşlarda formalaşan ədalətsizlik hissinin aktuallaşmasını bildirir. Belə hisslər insanlarda o zaman meydana çıxır ki, onlar ictimai qarşılıqlı təsirdə daima cəmiyyət həyatında tam olaraq iştirakına maneə törədən sosial qeyri-adekvat normalarla rastlaşırlar.

İnsan hüquqlarının qorunması cəmiyyətdə sosial ədalətin qiymətləndirilməsinin yeganə meyarı deyil. Buraya həyat səviyyəsi və keyfiyyəti, eləcə də, insan potensialının inkişafı kimi göstəriciləri aid etmək olar. Bu göstəricilər müzakirələr mərhələsində olsalar da sosial ədalətin səviyyəsinin ölçülməsində onların fayda və perspektivini inkar etmir. Onları ətraflı nəzərdən keçirək.

İnkişaf etmiş cəmiyyətlərin sosial indikatorlarının işlənilib hazırlanması ilə XX əsrin ikinci yarısında məşğul olunmağa başlanılıb. Müzakirələr zamanı əksər tədqiqatçılar tərəfindən sonrakı müzakirələr üçün qəbul olunmuş iki anlayış – "həyat səviyyəsi" və "həyat keyfiyyəti" formalaşmışdır. Sözün geniş mənasında həyat səviyyəsi dedikdə, insanların kəmiyyətdə ifadə olunan maddi tələbatlarının ödənilməsi səviyyəsi nəzərdə tutulur. Həyat keyfiyyəti dedikdə isə sosial və mədəni rahatlığın subyektiv qiymətləndirilməsini inikas etdirən qeyri-maddi tələbatların ödənilməsi nəzərdə tutulur.

Cəmiyyətdə sosial ədalətin digər meyarı insan inkişafının inteqral göstəricisi olan insan potensialının inkişaf indeksidir. BMT-nin inkişaf proqramı insanın inkişafına dair xüsusi ümumdünya məruzələri verir. Hazırda 100-dən artıq ölkə insanın inkişafına dair illik milli məruzələri çap etdirir. Bu konsepsiyanın başlıca ideyası budur ki, birincisi, "iqtisadi" və "sosial" sektorlar arasında fərq sünidir, "sosial" xərclər imkanların genişlənməsinin əsas vasitəsidir, imkanların genişlənməsi inkişafın son məqsədidir, "sosial xərclər" isə işdə insanların kapital yığımıdır. İkincisi, rifah insanların istəklərinə uyğun həyat sürmək imkanları kimi qiymətləndirilməlidir. Üçüncüsü, insanın inkişafı həm insanın seçiminin genişlənməsi prosesi,

həm də insanların rifahının əldə edilmiş səviyyəsidir. Seçimin genişlənməsindən danışanda onu nəzərə almaq lazımdır ki, faktiki olaraq bu seçim problemləri olan insanların qeyri-müəyyən böyük dairəsinə toxunur. Eyni zamanda bəşəriyyətin istənilən inkişaf mərhələsində üç əsas problem olur: uzun və sağlam ömür sürmək; biliklərin əldə edilməsi; həyat üçün zəruri olan resursların əldə edilməsi. Sağlamlıq, təhsil hüququ və mövcudluq üsullarını əldə etmək imkanları reallaşmasa onların təmin olunması problemli olacaq.

Müasir icmalar sosial ədalətin müəyyən səviyyəsini qoruyub saxlamaq üçün iki strategiyanı: sosial ədalətin sosial-adekvat normaların işlənilib hazırlanması və ayrıca vətəndaş, sosial qrup və yarımsistemə münasibətdə tapdalanmış ədalətin bərpası vasitəsilə qurulmasını nəzərdə tutur.

Sonda qeyd etmək lazımdır ki, sosial ədalət anlayışını təyin edilməsindəki çətinliyə, onun konvensional xarakterinə, həcminin artırılmasına dair müxtəlif yanaşmalara, növ və formalarının bölüşdürülməsindəki mürəkkəbliyə baxmayaraq, bəşəriyyət bu fenomeni dərk etməyə və ictimai praktikada istifadə etməyə can atır.

Ədəbiyyat

1. Гелих О. Я. Справедливость и управление //Менеджмент и маркетинг в социальной сфере: Учебное пособие. СПб., 2003.

2. Дубко Е. Л. Социальная справедливость //Этическая мысль: Науч.-публицист. чтения. М., 1988.

3. Ролз Дж. Теория справедливости. Новосибирск, 1995.

4. Сорокин П. Проблема социального равенства и социализм. 1990. № 12.

5. Троцковская В. А. Справедливость – как ценностно-нормативная основа социального взаимодействия. Барнаул, 1999.

Г.Г.Алиева

Социальная справедливость и ее критерии

Резюме

Понятие справедливости в статье рассматривается как этическая и юридическая категория. Сообщается наличии дистрибютивных и эгалитарных видов справедливости. Также анализируется взаимодействие таких понятий как равенства и неравенства. В статье показана позиция Дж. Роулза о социальной справедливости. Анализируется критерии социальной справедливости.

G.G.Aliyeva

Social Justice and Its Criteria

Summary

The concept of justice is viewed as an ethical and legal category in the article. It reports the presence of distributive and egalitarian types of justice. It also analyzes the interaction of such concepts as equality and inequality. The article states the positions of John Rawls about social justice. It also analyzes the criteria of social justice.

Rəyçi: f.e.n. N.M.Məmmədova

Redaksiyaya daxil olub: 19.01.2017

Y.B.FƏRZƏLİYEV
E-mail: yusif@hotmail.com

G.İ.SULTANOVA

Azərbaycan Dövlət İqtisad Universiteti
(Bakı şəh., İstiqlaliyyət küç., 6.)

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN GÖMRÜK SİYASƏTİ

Açar sözlər: *iqtisadiyyat, gömrük siyasəti, dövlətçilik, Cümhuriyyət.*
Ключевые слова*: экономика, таможенная политика, государственность, Республика.*
Key words*: economy, customs policy, statehood, Republic.*

Ölkənin iqtisadiyyatının sabitləşməsi və iqtisadi əlaqələrinin genişlənməsi nəticəsində dövlət büdcəsinə daxil olan tədiyyələrin artırılması məqsədi ilə sərhəd keçidlərinin möhkəmləndirilməsi mövcud gömrük sisteminin milliləşdirilməsi və onun yeni prinsiplər əsasında qurulması dövlətin qarşısında duran ən ümdə vəzifələrdən biri idi. Bu mühüm vəzifəni həyata keçirmək üçün ölkədə fəaliyyət göstərən köhnə gömrük xidməti sistemi nəzərdən keçirildi, onun struktur bölmələrinin və keçidlərinin fəaliyyəti, normativ hüquqi bazası, iş prinsipi, kadr potensialı, xüsusi tarifləri araşdırıldı və müstəqil dövlətin tələblərinə uyğunlaşdırıldı. Milli dövlətçilik mənafelərini təmin edən yeni normativ hüquqi aktlar və sənədlər hazırlandı, tariflər müəyyən edildi, sərhəd keçidlərində nəzarət gücləndirildi, kadrların tərkibi möhkəmləndirildi, idxal-ixrac mallarının siyahısı dəqiqləşdirildi, qaçaqmalçılığın qarşısının alınması üçün tədbirlər görüldü. İlk addım kimi bütün gömrükxanaların fəaliyyəti yoxlanıldı, Azərbaycanın gömrük xidmətindən sərbəst bəhrələnən Rusiyanın imperiya qaydaları ləğv edildi, yeni təlimatlar, normalar tətbiq edildi. O vaxt Azərbaycanın iqtisadi-ticarət əlaqələrinin böyük hissəsi Rusiya ilə bağlı olduğu üçün bu ölkələr arasında sərhəd gömrük xidməti sistemində qonşu dövlətin iş adamlarına xüsusi üstünlüklər verilmişdi. Sərhədlərdən keçərkən tam sərbəstlik statusundan istifadə edən Rusiyanın iş adamları daşıdıqları mal üçün gömrük rüsumlarından azad idilər. Onlar Azərbaycana Rusiya imperiyasının bir hissəsi kimi baxır, onun təbii sərvətlərini və hazır məhsullarını böyük imperiya ədası ilə daşıyıb aparırdılar.

Azərbaycan Xalq Cümhuriyyəti yarananda ölkənin gömrük sisteminin strukturu Bakı gömrük idarəsindən, Ağstafa, Naxçıvan, Culfa, Astara, Cəbrayıl, Balakən və sairə gömrük məntəqələrindən, keçidlərdən ibarət idi. Lakin ixrac-idxalın həcminə və nomenklaturasına görə Bakı gömrük idarəsi Azərbaycanın gömrük xidmətinin əsasını təşkil edirdi, yüklərin böyük hissəsi quru və su yolu ilə Bakıdan daşınırdı. Gömrük sistemində dövlət qaydaları yaratmaq məqsədi ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti o vaxt sərhəd keçidləri sayılan Ağstafa dəmiryol stansiyasında, Kovaxçı, Mazım çay, Müğanlı, Şıxlı, Salahlı kəndlərində əlavə gömrük postları yaratdı. Bütün ölkə ərazisində gömrük xidmətinin fəalliyyətini müstəqil dövlətin milli mənafeləri səviyyəsində qurmaq üçün Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti 1918-ci ilin dekabr ayının 17-də xüsusi qərar qəbul etdi (1.f.897, v 28) . Bu qərara əsasən hökumət köhnə gömrük xidməti strukturlarının işini yenidən qurdu, yeni məntəqələr, postlar yaratdı, ölkənin bütün məntəqələrində vahid rejim müəyyən etdi.

Azərbaycanın iqtisadi-ticarət əlaqələri əsasən şimal qonşumuz Rusiya ilə bağlı idi. Rusiya ilə iqtisadi-ticarət əlaqələrinin böyük hissəsi Bakı-Xaçmaz dəmir yolu xətti ilə həyata keçirilirdi. Bu istiqamətdə iki tərəfli yükdaşınmalarını tənzimləmək üçün Xaçmaz xüsusi gömrük məntəqəsinin işi gücləndirildi və sərhəddən keçən yüklərdən gömrük rüsumlarının

alınması qaydaları haqqında hökumətin təsdiq etdiyi sərəncam qəbul edildi. Həmin sərəncamla Azərbaycandan xarici ölkələrə ixrac edilən malların siyahısı təsdiq olundu, bir sıra məhsulların satışı qadağan edildi. Hökumətin gördüyü sərt tədbirlər nəticəsində Xaçmaz məntəqəsində ciddi rejim yaradıldı və Rusiyanın iş adamlarının Azərbaycanda özbaşınalığına son qoyuldu, onlar müstəqil dövlətin qanunlarına riayət etməyə məcbur edildi. Əsas neft rayonundan məhrum olan, Azərbaycanın yanacaq məhsullarını maneəsiz daşımaq imkanını itirən Rusiya Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə qarşı müxtəlif xarakterli fıtvalara əl atır, ölkə daxilində qarşıdurma yaratmağa çalışır, qanuni müstəqil dövlət quruluşunu tanımağa tələsmir, hətta onu devirmək haqqında planlar hazırlayırdı. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Rusiyanın təzyiqlərinə qarşı müqaviməti gücləndirmək üçün iqtisadiyyatın tərəq-qisinə üstünlük verir, ölkənin müstəqilliyinin və təhlükəsizliyinin qorunması haqqında təcili tədbirlər görürdü. İqtisadi tədbirlər arasında müqavimət vasitəsi kimi gömrük sistemi xüsusi yer tuturdu, yaradılmış gömrük rejimi imperiya iddialı iş adamlarının qarşısında keçilməz sədd ucaltmışdı.

Şübhəsizdir ki, sivil, demokratik prinsiplərə söykənən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bütün qonşularla, o cümlədən də Rusiya ilə xoş məramlı, qarşılıqlı iqtisadi əməkdaşlığı davam etdirməyə və daha da genişləndirməyə çalışırdı. Özbaşınalığı qəbul etməyən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti beynəlxalq təcrübəyə əsaslanan ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlığı müdafiə edirdi. Bu məramla Azərbaycan Xalq Cümhuriyyəti hökuməti daxili bazarın ehtiyaclarına müvafıq olaraq məhsul mübadiləsinə qərar verdi. Bu qərarla Azərbaycanla məhsul mübadiləsi üçün gələn xarici iş adamlarına əlverişli şərait yaradılır, neftlə məhsul dəyişmək istəyənlərə üstünlük verilir, onlar gömrük rüsumlarından azad edilirdilər (1.f.897, v 29). Rüsumların alınmaması haqqındakı sərəncam Azərbaycanda tələbatdan artıq malların ixracına da aid idi. Burada ölkənin real vəziyyəti, iqtisadi inkişafı və iqtisadi əlaqələrinin genişləndirilməsi əsas götürülürdü. Azərbaycanla geniş iqtisadi əlaqələr yaratmağa çalışan qonşu ölkələrdən biri Gürcüstan idi. Nefti olmayan bu ölkə yanacaq baxımından tamamilə Azərbaycandan asılı idi. Bu səbəbdən də Gürcüstan Azərbaycanla iqtisadi əlaqələri genişləndirmək üçün bütün vasitələrdən istifadə edir, neft almaq üçün özünün bütün sərvət və imkanlarını Azərbaycana təklif edirdi.

Gürcüstanda yanacaq böhranının yaranması Azərbaycanda müstəqil dövlətin qurulması və burada Rusiyanın imperiya təsirinə son qoyulması ilə bağlı idi. Əvvəllər, Gürcüstanın Rusiyanın yardımı ilə heç bir maneə olmadan istədiyi qədər Azərbaycandan neft almaq imkanı var idi. O vaxtlar rus imperiyasının Qafqazda yerləşdirdiyi ordu hissələrinin böyük hissəsi və qərargahı Tiflisdə mərkəzləşdiyi üçün Rusiya Azərbaycandan Gürcüstana kifayət qədər neft daşıyır, hərbi texnikanı və bu ölkəni neft məhsulları ilə təmin edirdi. Azərbaycanda müstəqil dövlətin yaranması və burada Rusiyanın hökmranlığına son qoyulması, Rusiya—Azərbaycan iqtisadi ticarət əlaqələrinin yeni prinsiplər üzərində qurulması Gürcüstanı bu imkandan məhrum etdi. Yeni şəraitdə Azərbaycanla iqtisadi əlaqələri bərpa etmək üçün Gürcüstan yollar axtarır, təşkilatı tədbirlər görürdü. Bu istiqamətdə atılan ciddi addımlardan biri 1918-ci ilin dekabr ayında hər iki ölkədə səlahiyyətli diplomatik nümayəndəliklərin açılması idi. Diplomatik nümayəndələrin fəal işi sayəsində Azərbaycanla Gürcüstan arasında iqtisadi əlaqələr yeni səviyyəyə qaldırıldı, gömrük qaydaları tənzimləndi.

Gürcüstanın Azərbaycandakı diplomatik nümayəndəliyinin rəhbəri G.K.Quqişvilinin Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə apardığı danışıqlar nəticəsində Bakı neftinin Gürcüstana göndərilməsi təmin edildi (1.f.894, v 3). Dost, qonşu Gürcüstana yardım etmək məqsədi ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu ölkəyə neft daşınmasının güzəştli gömrük tarif qaydalarını müəyyənləşdirdi. Bu qaydalara əsasən Gürcüstan, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təsdiq etdiyi həcmdə neft apardıqda gömrük rüsumlarından azad edilir, bu həddi aşdıqda daşınan mal üçün müəyyən edilmiş tariflər üzrə mütləq rüsum

ödəməli idi. Gömrük qaydalarında göstərilirdi ki, neft məhsullarını bütün Gürcüstan vətəndaşları deyil, yalnız ölkənin rəsmi nümayəndəsi daşıya bilər. Bu qayda Azərbaycanın humanist siyasətindən sui-istifadə edilməsinin, özbaşınalığın və qaçaqmalçılığın qarşısının alınmasını nəzərdə tuturdu. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin müəyyən etdiyi gömrük qaydaları, Gürcüstana edilən güzəştlərlə yanaşı milli iqtisadiyyatı sağlamlaşdırmaq üçün gömrük nəzarətinin gücləndirilməsini və rüsumların maksimum həcmdə toplanmasını tələb edirdi. Müəyyən edilmiş gömrük rejiminə əsasən Gürcüstan respublikasının rəsmi nümayəndələri Bakıdan sərbəst neft daşımaq hüququndan istifadə edirdilər. Azərbaycanın ticarət və sənaye nazirliyinin respublika gömrük idarəsinə göndərdiyi 11 noyabr 1918-ci il tarixli məktubunda göstərilirdi ki, Gürcüstana iki min boçka sement göndərilməsi üçün "Tauz aksioner cəmiyyətinə" icazə verilsin və mal göndərildikdən sonra gömrük rüsumu tutulsun (1.f.24, v 4). Məktuba əsasən sement göndərildi, müəyyən tariflər üzrə gömrük rüsumları toplandı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təsdiq etdiyi qaydalara əsasən vətəndaş Əhməd Fiqarov Bakıdan növbə ilə Batuma 500 pud neft və min yüz pud benzin aparmış və iki əməliyyatda gömrük rüsumlarını ödəmişdir (1.f.24, v 4). Gömrük qaydaları bu prinsip üzrə ərzaq və kənd təsərrüfatı məhsullarının ixracını da nəzərdə tuturdu. Mövcud qaydalara əlavə olaraq gömrük rejimini və tarif rüsumlarının toplanmasını gücləndirmək məqsədi ilə Azərbaycan Xalq Cümhuriyyətinin ticarət və sənaye nazirliyi 1918-ci ilin dekabr ayının 5-də 532 saylı yeni qərar qəbul etdi. Qərarda deyilirdi: "Azərbaycanın mövcud iqtisadi vəziyyətində yaranan çətinlikləri aradan qaldırmaq üçün gömrük məntəqələrindən, zastavalarından və keçidlərindən ərzaq və digər məhsullar, balıq, balıq məhsulları, habelə qurudulmuş balıq, kürü aparılarkən nəzarət gücləndirilməlidir. Belə məhsullardan rüsumlar daha çox toplanmalıdır"(1.f.24, v5). Bu qərar bütün kənd təsərrüfatı məhsullarının istehsalının ixracının artırılması üçün geniş imkanlar açdı. Gömrük rejimi və tarifləri üzrə vətəndaş İ.Q.Şereşunko Azərbaycandan Gürcüstana 100 pud tütün və bir vaqon balıq aparmış, müəyyən edilmiş rüsumları ödəmişdir (1.f.24, v 5). Gürcüstan Azərbaycanın Şəki-Zakatala bölgəsində istehsal edilən meyvələrin daşınmasına xüsusi əhəmiyyət verirdi. Bağlanmış müqaviləyə əsasən 1918-ci il dekabr ayının 12-də bölgədən Gürcüstana 539 ton fındıq-qoz, 212 pud alma, 1919-cu il yanvar ayının 31-də 30 pud meyvə, 1925 pud fındıq, yanvar ayının 7-də 837 pud meyvə, 3028 pud fındıq, yanvar ayının 8-10-da 151 pud meyvə, 1391 pud fındıq, yanvar ayının 11-14-də 1167 pud meyvə, 3007 pud fındıq göndərilmişdir (1.f.24, v 2).

Azərbaycanın Gürcüstanla iqtisadi-ticarət əlaqələrinə böyük əhəmiyyət verməsinə, qonşu ölkəyə çoxsaylı güzəştlər etməsinə baxmayaraq idxal-ixrac prosesində, gömrük xidmətində bəzi çətinliklər müşahidə edilir, bağlanmış müqavilələrin şərtləri pozulurdu. Bu istiqamətdə Gürcüstan tərəfi daha çox ziddiyyətli hərəkətlərə yol verir, imzaladığı müqavilələrin tələblərinə əməl etmirdi. İki respublika arasında bağlanan müqaviləyə əsasən onların diplomatik nümayəndəliklərinin aldıqları və göndərdikləri bağlamalar rüsumsuz daşınmalı idi. Azərbaycan üzərinə götürdüyü öhdəliyi tamamilə yerinə yetirsə də, Gürcüstan diplomatik yüklərin göndərilməsindən rüsumlar tələb edirdi. AXC hökumətinin müşaviri Tairovun məktubunda qeyd edilirdi ki, "Azərbaycandan aparılan mallara bizdə heç bir maneə olmur. Təəssüflər olsun ki, Tiflisə gedən azərbaycanlılar Gürcüstan gömrüyündə ciddi yoxlamalara rast gəlir, onlara əzab verilirdi" (1. f. 24, v 20). Gürcüstan respublikası beynəlxalq iqtisadi-ticarət əlaqələrində də özünün maraqlarına üstünlük verir, Azərbaycanın mənafelərini pozurdu. O vaxtlar Avropa ölkələrinin İranla ticarət əlaqələri Gürcüstan və Azərbaycan ərazilərindən keçdiyi üçün hər iki ölkə müvafiq tariflər üzrə rüsumlar almalı idi. Azərbaycanla Gürcüstan arasında 1919-cu il iyul ayının 29-da bağlanan müqaviləyə əsasən Azərbaycan öz öhdəliyinə riayət etdiyi halda Gürcüstan hökuməti müxtəlif bəhanələrlə müqavilənin tələblərini yerinə yetirmirdi. Tranzit şərtlərinin yerinə yetirilməsi haqqında Gürcüstan tərəfi ilə danışıqlar aparılması üçün 1919-cu il avqust ayının 9-da Azərbaycanın Gürcüstandakı

diplomatik nümayəndəsinə xüsusi göstəriş verildi və Azərbaycanın mövqeyi şərh edildi, ölkə ərazisindən keçən mallar üçün rüsumların alınacağı bildirildi (1. f. 24, v 124).

Azərbaycanın qanunu tələblərinə məhəl qoymayan Gürcüstan tərəfi 1919-cu ilin avqust ayının 3-də Azərbaycanın Gürcüstan respublikasındakı diplomatik nümayəndəsinə bildirdi ki, "xaricdən gətirilən malları Gürcüstan tacirləri, yerli firmalar aldığı üçün, həmin mallar Azərbaycan ərazisindən keçərkən rüsumlardan azad olmalıdır" (1.f.24, v 131). Tamamilə haqlı olaraq Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsi Gürcüstan tərəfinin əsassız iddiasını qəbul etməmiş, onu 1919-cu il iyul ayının 29-da bağlanmış 3858 saylı razılaşmaya əməl etməyə çağırmışdır. Görünür nəqliyyat tarifləri ilə bağlı iddialar bəzi qüvvələrin tarixi xəstəliyidir.

Gömrük xidmətinin keçid məntəqələri bölgəsində Gürcüstanın bəzi vətəndaşları qaçaqmalçılıq və quldurluqla məşğul olur, cəzasız qalırdılar. 1919-cu il oktyabr ayının 13-də Zaqatala quberniyasının 326 saylı Müğanlı gömrük xidməti bölməsindən Respublika gömrük idarəsinə göndərilən məktubda deyilirdi; "Yerli əhalinin Gürcüstan ərazisindən keçərək Alazanda, habelə "Şahman-bina" ərazisində Gürcüstan quldurları tərəfindən soyulması, ərzaqlarının əllərindən alınması barədə hər gün məlumat alınır. Təəssüf olsun ki, Gürcüstan tərəfi bu barədə heç bir tədbir görmür" (1.f.24, v 133). Azərbaycan hökuməti Gürcüstan ərazisində baş verən qanunsuzluqların qarşısının alınması üçün danışıqlar aparmaq haqqında Gürcüstandakı diplomatik nümayəndəsinə xüsusi göstəriş verdi. Məktubda deyilirdi: "Müğanlı gömrüyündən oktyabrın 13-də daxil olan 326 saylı məktubun məzmunu ilə Gürcüstan hökumətini tanış etmək lazımdır. Gürcüstan tərəfinə belə hərəkətlərə yol verməməyi xatırladın. Yoxsul insanlara qarşı Gürcüstan tərəfindən yol verilən hərəkətlərə son qoyulmalıdır" (1.f.24, v 161). Çox qəribədir ki, Azərbaycanla iqtisadi-ticarət əlaqələrinə böyük ehtiyacı olan Gürcüstan özünün xeyrinə bağladığı müqavilələrin tələblərinə açıq şəkildə riayət etmir, onların şərtlərini pozur, münasibətləri gərginləşdirir, yeni-yeni hüquq pozuntularını davam etdirirdi.

Azərbaycan hökumətinin dəfələrlə etdiyi müraciətlərə məhəl qoymayan Gürcüstan tərəfi yeni antihüquqi aksiya yaratdı. Bu yeni hadisə ilə bağlı Azərbaycanın gömrük idarəsinin Azərbaycan Xalq Cümhuriyyətinin Tiflisdəki diplomatik nümayəndəsinə 1919-cu il avqust ayının 10-da göndərdiyi 5023 saylı məktubunda deyilirdi: "Avqustun 5-də Maliyyə Nazirinin Tiflisdən aldığı teleqrama əsasən Ağstafa gömrük məntəqəsində keçmiş müfəttiş Fyodorov və nəzarətçi köməkçisi Minayev kimin isə təhriki ilə gömrük məntəqəsini nəzarətsiz qoyub Tiflisə getmişlər. Burada aparılan təftişlər göstərir ki, gömrük məntəqəsində böyük özbaşınalıq aşkara çıxarılmış, böyük çətinliklər və özbaşınalıqlar yaranmışdır. Ona görə bu barədə Gürcüstan qarşısında məsələ qaldırıb, Fyodorov və Minayevə də bu barədə məlumat çatdırın"(1.f.24, v 164). Gürcüstan tərəfi Azərbaycanın tələblərini yerinə yetirəcəyinə razılıq versə də onu yerinə yetirmədi, cinayətkarları geri qaytarmadı.

Gürcüstan tərəfi Azərbaycanın müraciətlərinə baxmayaraq yeni-yeni qanunsuz iddialarla çıxış edirdi. Kaxetiyadan erməni Vermişyev və yəhudi Fandyeri Azərbaycana muraciət edərək tələb edirdilər ki, Poylu gömrük məntəqəsindən Azərbaycana gətirilən şərabların rüsumları məhsul satıldıqdan sonra Bakı gömrük idarəsində ödənilsin. Bu tələb onunla əsaslandırılırdı ki, şərab satılmadan əvvəl gömrük rüsumlarını keçiddə ödəmək sərfəli deyil. Burada erməni fıtvası nəzərdə tutulur, şərabı sərhəddən rüsumsuz keçirib satdıqdan sonra aradan çıxmaq planlaşdırılırdı. Aydındır ki, satılmayan məhsulu təcrübəli iş adamı heç zaman başqa ölkəyə daşımaz. Humanistlik göstərən Bakı gömrük idarəsi 1919-cu il aprel ayının 9-da bu təklifi müzakirə edərək ona razılıq vermiş və Azərbaycanın iş adamlarına eyni əlverişli imkanın yaradılması haqqında alternativ tələb irəli sürmüşdür (1.f.24, v 165). Azərbaycanla Gürcüstan arasında gömrük xidməti ilə əlaqədar yaranmış gərginliyi tənzimləmək məqsədi ilə iki respublikanın sahə rəhbərləri görüşmüş və 1919-cu ilin mart ayının 2-də birgə müqavilə imzalamışlar (1.f.24, v 165). Azərbaycan tərəfindən müqaviləni Bakı şəhər gömrük idarəsinin

rəisi L.İ.Budzinski imzalamışdır. Müqavilədə gömrük idarələrinə sərbəstlik verilməsi, iqtisadi çətinliklər zamanı ayrı-ayrı vaxtlarda ərzaq axınının dayandırılması, istisna olaraq bəzi hallarda hökumətin razılığı ilə müəyyən edilmiş həcmdə ərzaq mallarının iki tərəfli sərhədlərdən keçirilməsi nəzərdə tutulurdu. Bu dəfə də öhdəliyini dəqiq yerinə yetirən Azərbaycandan fərqli olaraq Gürcüstan yenə müqavilənin tələblərinə əməl etmədi. Müqavilə imzalanandan üç gün sonra Zaqatala qubernatorunun Azərbaycanın Daxili İşlər Nazirinə göndərdiyi məktubunda deyilirdi ki, bölgənin sakinləri Gürcüstana meyvə-tərəvəz apardıqda gömrük məntəqələrində onlardan böyük məbləğdə rüsumlar tələb edilir. Naxçıvan sakini, kiçik ticarətçi Rzayev Məhəmməd Hüseyn oğlu 1919-cu il noyabr ayının 7-də Gürcüstana mal apararkən, sərhəd gömrük məntəqəsində onun malının dəyərindən çox rüsum alınmışdır (1.f.24, v 167).

İki qonşu dövlət arasında gömrük əlaqələrində yaranmış gərginlik uzun sürə bilməzdi, müstəqil ölkələr bir-biri ilə normal münasibətlər yaratmalı idilər. Yeni sağlam münasibətlər onların iqtisadiyyatının möhkəmləndirilməsi və təhlükəsizliyinin təminatı üçün lazım idi. Bu zərurəti anlayan hər iki ölkənin gömrük idarələrinin başçılarının 1919-cu il dekabr ayının 25-də imzaladıqları müqavilə respublikalararası ticarət rüsumlarını ləğv etdi, gömrük əlaqələrini nizama saldı, bütün qaçaqmalçılıq, rüsumdan yayınma hallarına qarşı sərt tədbirlər görüldü, gömrük əlaqələrində yeni rejim müəyyən edildi, nəzarət gücləndirildi. Quru və dəmir yollarla aparılan yüklər ciddi yoxlanıldı, müəyyən edilmiş normadan artıq yük tapıldıqda onlardan əlavə rüsumlar tutuldu, siyahıda olmayan malların Azərbaycandan kənara göndərilməsi qadağan edildi, gizli yolla aparılan məhsullar müsadirə edildi, dövlətə təhvil verildi.

Azərbaycanla normal iqtisadi əlaqələr yaradan İran Rusiya ilə ticarəti Azərbaycan ərazisi vasitəsi ilə həyata keçirirdi. Azərbaycan ərazisi ticarət əlaqələri üçün hər üç dövlətə əlverişli idi. Qonşu ölkələr ticarət edir, Azərbaycan isə nəqliyyat xidməti üçün rüsum toplayırdı. Rüsumları dəqiqləşdirmək, onların həcmini maksimum həddə çatdırmaq üçün Azərbaycan ərazisindən keçirilən malların adları, miqdarı, konkret gömrük tarifləri və rüsumları müəyyən edilmişdir.

Azərbaycanın İranla iqtisadi-ticarət əlaqələrinin normal vəziyyətinin səviyyəsini daha da yüksək etmək məqsədi ilə respublika gömrük idarəsi hər iki tərəfə göndərilən bağlamaların rüsumdan azad edilməsi və yoxlanılmaması haqqında qərar qəbul etdi. Göndərilən bağlamaların həcmi, çəkisi, sayı və onlardan alınan rüsumların dəyəri çox böyük olmasa da, bu addım iki ölkə arasında xoş psixoloji iqlim yaradırdı.

Tək-tək hallar istisna edilməklə İranla Azərbaycan arasında normal ticarət əlaqələri və sadələşdirilmiş gömrük münasibətləri var idi. Hər iki tərəfə mal aparan tacirlərin və iş adamlarının yazılı müraciətləri, sənədləri iki həftə ərzində gömrük idarəsində baxılır, rüsumlar müəyyən edilir və əməliyyatın icrasına icazə verilirdi. 1919-cu il iyul ayının 23-də Bakıdakı "Əliyev qardaşları cəmiyyəti" Ənzəli şəhərindəki şəriki İbrahimovun adına 700 pud metal göndərməsi haqqında Bakı gömrük idarəsinə müraciət edir, müvafiq sənədləri təqdim edir. Gömrük idarəsi sənədləri nəzərdən keçirir və rüsumu vermək şərti ilə əməliyyata icazə verir, yük yola salınır (1.f.24, v 27). Azərbaycan-İran münasibətlərini gərginləşdirmək və varlanmaq yolu seçən ermənilər bu ölkələrin sərhəd keçidlərində qaçaqmalçılıqla məşğul olur, rüsum verməmək üçün müxtəlif saxtakarlığa gedirdilər. Erməni taciri Qriqoryan İrana neft, benzin, maşın yağı və 400 kisə buğda unu aparmaq üçün gömrük məntəqəsinə müraciət edərkən sənədlərin saxtalığı müəyyən edilir və aydın olur ki, guya o, İrandakı ingilis qoşunlarının sifarişini yerinə yetirir. Qriqoryan saxtakarlığı əsaslandırmaq üçün sənədlərdə ingilis dəniz birləşməsinin komandanı polkovnik Braunun imzasının olduğunu və yükləri ingilis əsgərlərinin daşıdığını bildirsə də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti hadisə haqqında Brauna məlumat verir və gömrük əməliyyatını ləğv edir.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkənin iqtisadiyyatında mühüm yer tutan gömrük xidmətinin işinin təkmilləşdirilməsinə, onun fəaliyyətinin hüququ bazasının yaradılmasına, əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılmasına böyük diqqətlə yanaşırdı. Ən

əvvəl hökumət gömrük xidmətinin səlahiyyətlərinin artırılması və sərbəstliyin genişləndirilməsi üçün tədbirlər görür, onun əməkdaşlarının sosial qayğılarını yerinə yetirirdi. Ölkənin iqtisadi çətinlikləri şəraitində hökumət gömrük işçilərinin əmək haqlarını vaxtaşırı artırır, onların sosial təminatını yaxşılaşdırırdı. Görülən sosial xarakterli tədbirlər gömrük işçilərinin qanunlara tam əməl etmələrinə stimul yaradır, gömrük rejiminin icrası üçün onların məsuliyyətini artırırdı. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti zamanı ölkənin gömrük xidməti sistemində qanunsuz hərəkətə, o cümlədən sənədsiz, rüsumsuz mal keçirilməsi, tariflərin azaldılması hallarına yol verilməmişdir. Gömrük xidmətində yaradılmış düzlük, paklıq, şəffaflıq, tam qanunçuluq Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik fəaliyyətində qazandığı ən mühüm nəailiyyətlərdən biri idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti gömrük xidmətini inkişaf etmiş dünya dövlətlərinin təcrübəsinə yaxınlaşdırmaq məqsədi ilə bu sahənin strukturunu daim təkmilləşdirir, sadələşdirir, onun fəaliyyətində ən mütərəqqi normaları tətbiq edirdi. Əhəmiyyətsiz xırda keçidlər ləğv edilir, yaxın məntəqələr daha da genişləndirilir, onların buraxılış imkanları artırılır, yüklərin yoxlanışı, sənədlərin baxılması sadələşdirilirdi. İranla iqtisadi-ticarət əlaqələrini daha da genişləndirmək məqsədi ilə 1919-cu il dekabr ayının 29-da Lənkəran qəzasında Lənkəran və Astara gömrük məntəqələri, keçidləri, post və zastavaları yenidən quruldu, Qızıl-Ağac keçid məntəqəsi ləğv edildi. Biləsuvar gömrük məntəqəsi 3-cü dərəcəli zastavaya çevrildi (1.f.24, v 7). Azərbaycan Xalq Cümhuriyyəti hökuməti gömrük xidməti sahəsində həyata keçirdiyi demokratik islahatları təbliğ etmək və dünya dövlətlərinə çatdırmaq məqsədi ilə daha ciddi bir addım atdı. Parlament sədrinin birinci müavini Həsən bəy Ağayevin sədrliyilə qəbul edilən qərara əsasən diplomatların göndərdikləri və aldıqları bütün bağlamalar və sairə yollamalar yoxlamalardan və rüsumlardan azad edilirdi (1.f.24, v 9).

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bütün sahələrdə olduğu kimi gömrük siyasətində də sivil, humanist normalara dönmədən əməl edir, ağır vəziyyətə düşənlərə güzəştlərə gedirdi. Hökumətin 20 avqust 1919-cu il tarixli sərəncamı ilə Rusiyanın rayonlarından və Şimali Qafqazdan qaçqın düşmüş vətəndaşlar gömrük rüsumlarından azad edilmişdilər. Sərəncamda deyilirdi ki, "Qaçqın düşmüş insanlar vətənlərinə qayıdarkən apardıqları əşya və ərzaqlardan gömrük rüsumu alınmasın" (1.f.24, v 76). 1919-cu ildə gömrükdən 100.000.000 manat, azad ticarətdən, yük sərnişini daşınmasından 15.000.000 manat rüsum toplanmışdır (2, s.181). Həmin il dövlət büdcəsi 665 milyon manata çatmışdır (2, s.182). Büdcədən şəhərlərin, kəndlərin və dağıdılmış təsərüfatların bərpası üçün 130 milyon, ümumi təhsil üçün 30 milyon, hərbi xərclər üçün 80 milyon manat vəsait ayrılmışdır (2, s.182). Aqrar bölmədə artım, tərəqqi ümumi gəliri artırdı. Azərbaycanda iri buynuzlu mal-qaranın sayı 1.000.000, atların sayı 150.000, camışların sayı 300.000, dəvələrin sayı 12.000, qoyunların və keçilərin sayı 1,5 milyon başa çatmışdı (2, s.182). Ümumi gəlirin artması ilə təhsilin, səhiyyənin, mədəniyyətin və ordunun maddi texniki bazasının yaradılması üçün vəsait qoyuluşu artırdı.

1920-ci ilin əvvəllərindən başlayaraq Azərbaycana qarşı Rusiyanın müxtəlif xarakterli təzyiqləri daha da gücləndi, sərhədlərdə, gömrük məntəqələrində təxribatları təhlükəli həddə çatdı. Rusiya Azərbaycanın iqtisadi inkişafı, ticarət əlaqələri, müstəqilliyinin möhkəmləndirilməsi ilə barışmaq istəmir, onu yenidən özünün imperiya dairəsinə cəlb etməyə çalışırdı. Rusiyanın imperiya geostrateji siyasətinin nəticəsində 1920-ci il aprel ayının 27-dən 28-nə keçən gecə Rusiya ordusu Azərbaycana müdaxilə etdi, Azərbaycan Xalq Cümhuriyyətini süquta yetirdi, onun formalaşmış gömrük sistemini kökündən dağıtdı, sərhədlərə nəzarəti öz üzərinə götürdü, Azərbaycanın təbii sərvətlərinə sahib oldu. Yeganə təsəllimiz ondadır ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı gömrük xidmətinin ənənələri yaşadı, bu gün müstəqil ölkəmizin dövlətçilik siyasətinin əsasına çevrildi.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Mərkəzi arxivi,
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 897, siyahı 1, iş 62, vərəq 29.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 894, siyahı 1, iş 1, vərəq 3.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 1, vərəq 4.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 114, vərəq 5.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 7, vərəq 2.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 7, vərəq 20.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 13, vərəq 124.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 13, vərəq 131.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 13, vərəq 133.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 13, vərəq 161.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 13, vərəq 164.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 897, siyahı 1, iş 64, vərəq 22.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 12, vərəq 27.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 189, vərəq 7.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 189, vərəq 9.
Azərbaycan Respublikasının Mərkəzi arxivi, fond 24, siyahı 1, iş 18, vərəq 76.
2. Azərbaycan Demokratik Respublikası/ Bakı,1992.

Ю.Б.Фарзалиев, Г.И.Султанова

Таможенная политика Азербайджанской Народной Республики

Резюме

В статье примечается подготовка документов и актов новыми правовыми нормативами, обеспечивающих национальных государственных интересов в период Азербайджанской Народной Республики. Установлены новые тарифы, были созданы усиленный контроль за пересечением границ, были вовлечены новые квалифицированные кадры, была составлена определенная перечня товаров в импорт-экспорт, а также, были приняты меры по предотвращению контрабанды.

Y.B.Farzaliyev, G.I.Sultanova

Customs Policy of the Azerbaijan People's Republic

Summary

The article deals with preparation of documents and acts of the new legal regulations that ensure the national interests of the state in the period of the People's Republic of Azerbaijan. New tariffs have been established a greater control over the border crossings, new skilled personnel has been drawn up to determine the list of goods in import and export, as well, measures were taken to prevent the smuggling were involved.

Rəyçi: t.e.d., prof. V.Həsənov

Redaksiyaya daxil olub: 26.01.2017

Z.F.FEYZULLAYEVA

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

MÜASİR MEDİA MARKETİNQDƏ MEDİA MENECMENTİN ÖZƏLLİKLƏRİ

Açar sözlər: *KİV, iqtisadiyyat, reklam, marketinq, menecment.*
Ключевые слова*: средства массовой информации, экономика, реклама, маркетинг, менеджмент.*
Key words*: media, economics, advertising, marketing, management.*

Medianın düzgün idarəçiliyi müasir dövrün başlıca tələbidir. İnformasiya məhsulu elə bir məhsuldur ki, o təkcə ayrı-ayrı istehlakçılar üçün deyil, bütün cəmiyyət üçün də mühüm əhəmiyyətə malikdir. Bu səbəbdən də həmin bazarın mövcudluğu, inkişafı çox əhəmiyyətlidir. Bu gün kütləvi informasiya vasitələri bizim gündəlik həyatımızın tərkib hissəsinə çevrilib. Müasir həyatımızı iqtisadiyyatsız, marketinqsiz, informasiyasız təsəvvür etmək olmur. Media çox əhəmiyyətli ictimai bir gücdür.

Müasir dövrdə kütləvi informasiya vasitələrini iqtisadiyyatın bir sahəsi hesab etmək olar. Maraq sahəsi media olmasına baxmayaraq, dünyagörüşü və məşğuliyyət sahələri baxımından bu sahədə, marketinq prinsiplərinin mediaya tətbiqi ortaya çıxmaqdadır. Marketinq keçən əsrin 20-30-cu illərində satış konsepsiyası kimi meydana çıxmışdır. Marketinq –ingilis dilində "market" sözündən götürülüb, bazar mənasını verir. Azərbaycan dilinə hərfi tərcüməsi "bazarda fəaliyyət" dir. Marketinq məfhumu müxtəlif iqtisadi ədəbiyyatlarda "biznes fəlsəfəsi", "bazar konsepsiyası ", "satış bazarlarının yaradılması və idarə olunması ", "istehsal-satış fəaliyyəti zamanı meydana çıxan qeyri-müəyyənlik səviyyələrinin aradan qaldırılması", "məhsulların istehsalçılardan istehlakçılara çatdırılması " və s. kimi izah edilir. İstehlakçıların tələbatlarının müəyyən edilməsi bu tələbatlara uyğun məhsulların hazırlanması, məhsulların bazara çıxarılması, qiymətləndirilməsi, satışdan əvvəl və satışdan sonrakı xidmətin təşkili reklam fəaliyyəti tələb olunur və bütün bunlar marketinq tərəfindən həyata keçirilməlidir.

Media təşkilatları, digər müəssisələr kimi bazarın qaydalarına tabedirlər. Media marketinq, bütün istehsal prosesini, istehlak, paylanma və dəyişmə müddətlərini də nəzərə alaraq araşdıran və qanunlarını təyin edən bir çərçivədədir. Media marketinq, istehlakçıların ehtiyaclarını qarşılamaq məqsədilə istehsal fəaliyyəti olan və ictimai xüsusiyyətə malik məhsul verən müəssisələrin bütün fəaliyyətlərin iqtisadi nəzəriyyə istiqamətində araşdırdığı bir qoldur. Belə ki marketinq nəyin, necə və kim üçün istehsal olunduğu ilə maraqlanır. Məsələn, bir firma məhsul istehsal edir və onu mümkün qədər hədəf müştəri qruplarına satmağı, daha səmərəli texnologiyalardan və şirkətlərdən istifadə etməyi planlaşdırır. Məhsul satışı prosesi işçilər, istehsalçılar, (əgər mənfəət varsa) sahibkarlar, səhmdarlar arasında bölüşdürülür. Media və kommunikasiya elmi media və söz azadlığı, media, medianın sosial təsiri və yeni kommunikasiya texnologiyalarının təsiri məsələlərini tədqiq edir. Bütün bu sahələr müəyyən dərəcədə iqtisadi prinsiplərin müzakirəsini ehtiva edir.

Bazar münasibətlərinə keçid şəraitinin qarşısında duran ən mühüm vəzifələrdən biri də müəssisələr (təşkilatlar, birliklər) səviyyəsində menecmentin nəzəri və metodoloji problemlərini işləyib hazırlamaq və həyata keçirməkdir. Nəzəri menecmentin müasirliyi iki nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edir. Əvvəla, ölkənin bazar münasibətlərinə keçid şəraitində əsas təsərrüfat sahələrində idarəetmənin mütərəqqi forma və metodlarının tətbiq edilməsi, ikincisi, müəssisənin dünya bazarına çıxması və xarici iqtisadi əlaqələrin genişləndirilməsi üçün menecment təcrübəsinin dərindən mənimsənilməsi tələb olunur. Əks təqdirdə müəssisə

səviyyəsində səmərəli işləmək mümkün olmaz. Həmin problemlərin öyrənilməsi həm keçid dövrünün, həm də bazar münasibətlərinin tələbidir.

Menecment bir elm kimi XX əsrin əvvəllərində yaranmışdır. Menecment (ingilis dilində manage-idarəetmə) idarəetmə, sistemin idarəedilməsi deməkdir. Menecmentin yaranması ilk dəfə ABŞ-da mühəndis Fredrix Teylorun adı ilə bağlıdır və bir elm kimi XIX əsrin 50-70-ci illərində daha geniş inkişaf etmişdir. Menecment haqqında bu sahənin nəzəriyyəçiləri bir sıra tədqiqatlar, araşdırmalar aparmış, menecment nəzəriyyəsinin formalaşıb inkişaf etməsində mühüm rol oynamışlar. Menecmentin əsas məqsədi – təşkilatın işində ahəngliyin təmin olunmasından, yəni təşkilatın bütün daxili və xarici elementlərinin uyğunlaşdırılmış və effektiv fəaliyyət göstərməsindən ibarətdir.

Menecmentdə insani münasibətlər məktəbinin yaranmasında və inkişafında ən böyük xidməti olan iki alimi - Meri Parker Follett və Elton Meyonu göstərmək olar. İlk dəfə Meri Follett menecmenti "digər adamların köməyi ilə işin yerinə yetirilməsinin təmin edilməsi" kimi təyin etmişdir. Media menecmentinin predmeti informasiya və rabitə sahəsində media idarəedilməsi cəmiyyətinin təşkili hesab olunur. Media menecmenti dəyişən auditoriya ilə ayaqlaşmaq və bütün istifadə olunan sistem və iş axınının auditoriyaya düzgün tərzdə çatdırılması və yeniliklərin yaradılması ilə bağlı olan mövzudur. Həmçinin, buraya bazarda fərqlənən və seçilən tərkibə malik məzmunun çatdırılması da aiddir.

Mətbuat müəssisələrini digərlərindən ayıran bir digər əhəmiyyətli xüsusiyyət isə, tək istehsalı informasiya olmasına qarşılıq, çox fərqli iki marketinq işini tələb etməsidir. Mətbuat müəssisələrində iki fərqli müştəri qrupu əldə tutulmağa çalışılır. Mətbuat müəssisələrin əsasını keyfiyyətli informasiya təqdim edərək reklam sahiblərinə cazibədar görünüb daha çox gəlir əldə edə bilmək və eyni zamanda çox sayda oxucuya çatdırmaqdı. Yəni əslində bir qəzeti alan iki ayrı müştəri kütləsi vardır; oxucular və reklam verənlər.

Media menecmenti anlayışının vahid tərifi yoxdur və media menecmenti sahəsinin indiki forması aydın müəyyən olunmayıb. Amma buna baxmayaraq bir sıra anlayışlar da mövcuddur. Media menecmenti, işçiləri müşahidə və motivasiya etmək və texniki avadanlıq və resursları səmərəli yolla idarə etmək bacarığından ibarətdir. Media menecmentinin əsas xüsusiyyəti menecmentin ümumi nəzəri qanunları və media sahəsinin səciyyəvi xüsusiyyətləri arasında körpü yaratmaqdır. Media və internet menecmentinin bütün məqsədyönlü fəaliyyətin planlaşdırılması təşkili və nəzarət çərəçivəsinə proseslərin yaradılması və yayılması əhatə edir. Həmçinin bu elm KİV-in istehsaledici fəaliyyətində Kiv-in kollektivinin insanlara münasibətinin həmçinin, jurnalsitikanın infrastrukturu ilə istehlakçılarını qarşılıqlı əlaqəsinin idarəsidir. Media KİV-dən başqa həm də biznes qurumudur, ona görə də peşəkar menecerlərə bu sahədə böyük ehtiyac var. Bu institut bir biznes strukturu olaraq qəzetlərin idarəedilməsində başlıca rol oynayır. KİV-in özünəməxsus məhsulunun istehsalında maddi və qeyri maddi kapital istehsal vasitəsi həmçinin şəxsi əmək və təfəkkür rol oynayır. KİV-in menecmentliyinə kütləvi auditoriyanın tələbatını ödəmək və gəlir əldə etmək üçün qəzet nəşrlərini və teleradio proqramını, hazırlıq prinsiplərini vasitə və formalarını aid etmək olar. Kütləvi informasiya vasitələrinin inkişafını təmin edən əsas amillər üç qrupda toplanmışdır:

Texniki inkişaf

İqtisadi inkişaf

Sosial inkişaf

Texniki inkişaf-çap sənətidir və kağızın icadı ilə başlamış, xəbərləşməyi və informasiyanın paylanmasını inkişaf etdirən müxtəlif yeni kəşflərlə tamamlanmış və mətbuatı bugünki təkamülünə çatdırmışdır.

İqtisadi inkişaf-qəzet sayının artması, kağızın daha ucuza əldə edilməsi, artan xərcləri qarşılamaq üçün müxtəlif vasitələrin inkişafının təmin edilməsidir.

Sosial inkişaf-demokratik inkişaflar (ümumi səs hüququnun tanınması),təhsilin inkişafı, daxili və xarici müharibələr mətbuatın inkişafını təmin edən ictimai amillərdir.

Bir mətbuat müəssisəsinə uğurlu bir qəzet istehsalı üçün ticari məqsədlərlə (istehsal qanadı) jurnalistika peşəsi (yaradıcı qanad) məqsədlərinin bir nöqtədə birləşdirilməsi zəruridir. Hər müəssisə kimi mətbuat qurumları də vəzifələrini yaxşı bir şəkildə yerinə yetirə bilmək üçün xidmət və istehsal vasitələri arasında uyğun bir əməkdaşlıq qurmaq məcburiyyətindədirlər. (7, s. 222)

Media marketinq mövzusundakı yanaşmalar zamanla dəyişib inkişaf etmişdir. 1950-1990-ci illər arasındakı dövrdə baxış tək bir istiqamətdə idi. Bu dövrdə görülən işlər, yalnız qəzet sənayesindən ibarət idi. Həmçinin maliyyə və ya kondensasiya və rəqabət kimi media iqtisadiyyatının müəyyən mövzuları da araşdırılmaqda idi. Media sənayesi də, digər bir çox sənayelər də olduğu kimi, bütün dünyada 1990-cı illərdən başlayaraq çox sürətli və əhəmiyyətli dərəcədə inkişaf etməyə başladı. Medianın sürətlə müxtəlif hissələrə ayrılması və "ənənəvi" medianın yerini yeni mediaya verməsi, qloballaşma, tənzimləyici islahatlar, ictimai və texnoloji dəyişikliklər media iqtisadiyyatına da öz təsirini göstərdi.(4, s.3)

Media müəssisələri, informasiya və əyləncə ehtiyacını aradan qaldırmaq xüsusiyyətinə görə digər istehsal müəssisələrindən fərqlənsə də, digər tərəfdən ərz və tələb qanunları etibarilə tam da iqtisadi mexanizmin mərkəzində dayanır. Media-iqtisadiyyat əlaqəsində iki fərqli vəziyyət görülməkdədir:

"İqtisadi düşüncənin mediaya tətbiqi" və "media nəzəriyyəsinin iqtisadiyyata tətbiqi". (5, s.212)

Media KİV-dən başqa həm də biznes qurumudur, ona görə də peşəkar menecerlərə bu sahədə böyük ehtiyac var. Bu institut bir biznes strukturu olaraq qəzetlərin idarəedilməsində başlıca rol oynayır. KİV-in özünəməxsus məhsulunun istehsalında maddi və qeyri maddi kapital istehsal vasitəsi, həmçinin şəxsi əmək və təfəkkür rol oynayır. KİV-in menecmentliyinə kütləvi auditoriyanın tələbatını ödəmək və gəlir əldə etmək üçün qəzet nəşrlərini və teleradio proqramını hazırlıq prinsiplərini, vasitə və formalarını aid etmək olar.

Media marketinq heç vaxt sənaye üçün bugünki kimi əhəmiyyətli olmayıb. Son illər media şirkətləri üçün gurultulu bir dövr olmuşdur. Onların qarşılaşdığı maliyyə gərginliyi və qeyri-sabitlik vəziyyəti ilə yanaşı, media şirkətləri sürətlə dəyişən biznes və sosial mühitdə həyatda qalmaq üçün yollar axtardıqlarına görə texnoloji və təşkilati problemlərlə ilə üz-üzə gəlirlər. Media iqtisadiyyatı sahəsi media və iqtisadiyyatın alt qrupu kimi görünür və yeni tədqiqat, təcrübə sahəsi kimi tanınır.(4, s.5) O, özündə medianın öyrənilməsini, iqtisadi prinsiplərin tədqiqatını və onların sektorda şirkətlərin idarə edilməsinin tətbiqini birləşdirir. Lakin media marketinqin gələcəyini təhdid edən bəzi mövzular da gündəmə gəlməkdədir:

• Medianı idarə edən reklamçılar mediada məhsul müxtəlifliyini yox etməkdə və mediada məhsulun reklam və təqdimatdan arxa plana düşməsinə səbəb olur.

• Məzmunun reklamçılar tərəfindən müəyyən olunmasına səbəb olur.

• Media nümayəndələrinin əməyinin qarşılığını almasına mane olmaqla, media işçisinin dəyərsizləşməsini təmin edir.

• Medianın bir reklam və təqdimat məcrası olaraq görülməsinə səbəb olur. Bu vəziyyət gələcəkdə medianın inandırıcılığına kölgə salacağı kimi cəmiyyətin mediaya xərclədiyi zamanı azaltması təhlükəsini də ortaya çıxaracaq.(8, s.35)

Media müəssisələri digər müəssisələr kimi tələbi qarşılamaq üçün ən aşağı xərclə və ola biləcək ən qısa zamanda təmin edən quruluşlardır. Həmçinin media müəssisələrinin iqtisadi baxımdan araşdırılmasını tələb edən üç fakt var:

1) mətbuat müəssisələri də digər müəssisələr kimi kar məqsədi güdərlər;

2) mətbuat müəssisələri, işçiləri, oxucuları dinləyiciləri və reklamçılar arasındakı istehsal və istehlak müddəti içində yer alır. İnformasiyanın istehlakçıya çatdırılması bu gün də rek-

lamın ən mühüm vəzifəsi olaraq qalır. Lazım olan malın seçilməsinə tələb olunan vaxt məsrəfi baxımından istehlakçı üçün reklamın bu funksiyası vacib əhəmiyyət kəsb edir.Bu səbəbdən reklam sahəsinin böyük hissəsi çox zaman məhz prinsipial informasiyanın verilməsi üçün ayrılır.

3) İstehsal mərhələsində hansı məhsulun, kimin üçün və nə qədər çıxarılacağı planlaşdırılır.

Bu üç maddə medianı iqtisadi bir quruluş halına çevirir. (10, s.68)

XX əsrin əvvəllərində sosial-iqtisadi həyatda tam möhkəmlənməmiş reklamın mövcudluğu yeni yaranan kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsinə obyektiv zərurət yaratdı. Hər hansı siyasi, elmi, mədəni lider də sosial əhəmiyyət daşıdığı üçün reklama möhtacdır. Lakin reklam hay-küylü tərif hesabına deyil, obyektiv tədqiqatdan doğan təhlildən yarandıqda təsir gücünə malik olur. İnformasiya qanunlarına görə, əgər ətrafda hay-küy çoxdursa, onu nəzarət altında saxlamaq üçün hissəciklərə bölmək lazımdır. Bütövlüyü özündə yaşada bilən bu hissəciklər, informasiya gerçəkliyini meydana çıxarır.

Azərbaycanın yeni iqtisadi sistemə, vətəndaş cəmiyyətinə, hüquqi dövlətə keçidi, həmçinin müasir siyasi plüralizm, informasiyaya böyük ictimai tələb yaradır. İnformasiya sferasının, xüsusilə, kütləvi informasiyanın, cəmiyyətin siyasi, iqtisadi, müdafiə və s. strukturlarına təsir imkanları genişdir. Bu səbəbdən də KİV istər dövlət, istərsə də siyasi idarəetmənin sistemli şəkildə tənzim edilməsində çox mühüm element kimi çıxış edir (plüralizm və dövlət maraqlarını uyğunlaşdırmaq məsələsi). Bu gün Azərbaycanda dünya standartlarına cavab verə biləcək KİV-in formalaşması prosesi gedir. Bazar iqtisadiyyatına keçid dövründə isə vəziyyət tamamilə başqadır. İlk növbədə onun tipoloji quruluşu çox mürəkkəb və rəngarəngdir. Yəni ikinci dəfə müstəqilliyimizi əldə etdikdən sonra digər sahələr kimi televizya kanallarının, qəzet və jurnallarının, informasiya agentliklərinin sayı özəl sektor hesabına sürətlə artmağa başlayır. Lakin iqtisadi baza olmadığından onlar ya işə başlaya bilmir, ya da tezliklə fəaliyyətlərini dayandırmalı olur. Birdən-birə bazar münasibətləri ilə üzləşən jurnalistlər də mətbuatın , radio və televiziyanın biznes keyfiyyətini dərk etdilər. Halhazırda Azərbaycanın bütün reklam bazarının həcmini söyləmək olduqca çətindir, çünki bu sahə də ölkə iqtisadiyyatının əksər hissəsi kimi qapalıdır.

Azərbaycanda güclü və beynəlxalq standartları mənimsəmiş medianın mövcudluğu ölkəmizdə demokratiyanın inkişafında mühüm rol oynayır. Demokratik bir dövlət kimi, Azərbaycanın kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinin təmin olunması, mətbuatın fəaliyyətinin stimullaşdırılması, bu sahədə fəaliyyəti tənzimləyən güclü hüquqi bazanın yaradılması kimi məsələləri, dövlət siyasətinin prioritetləri elan edildiyindən ölkə Konstitusiyasında fikir və söz azadlığının təminatı məsələsi təsbit olunub. Hər kəsin istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı var. Kütləvi informasiyanın azadlığına təminat verilir.

Son vaxtlar dünyada baş vermiş qlobal böhran media sahəsinə də təsir göstərib. Çünki media öz işini daha çox reklam, piar üzərində qurur və istənilən şirkət də böhrana məruz qalanda ilk kəsdiyi vəsait reklam və piardan olur.

Mətbuatın inkişafının əsas problemlərini həll etmək üçün ilk növbədə açıq, liberal iqtisadiyyat yaradılması, inhisarçılığın ləğv olunması zəruridir. Bu birinci dərəcəli məsələdir. Reklamın bəyənilməsi, reklamın vergidən azad edilməsi, reklamın məhsulun maya dəyəri sisteminə daxil edilməsi, reklam verilməsinə bütün məhdudiyyətlərin aradan qaldırılması kimi məsələləri ikinci dərəcəli məsələ saymaq olar.

Mətbuatın sağlamlaşdırılması və inkişafı yolu liberal iqtisadiyyatdan, qanunun aliliyindən, tərkib hissəsi də mətbuatda sayılan bütün biznes birliyi üzvləri üçün bərabər şəraitin yaradılmasından keçir.

Ədəbiyyat

Azərbaycan dilində
1. Dadaşov A. "KİV-də reklam və marketinq problemləri". Bakı, 2011
2. Məmmədov X., Mirzəyev S. " Marketinqin əsasları". Bakı, 2004
İngilis dilində
3.Albarran A. B. "Management of Electronic Media". Belmont, 2010
4. Edition T. "Media Economics Theory and practice". London, 2004
5. Pringle, P. K., & Starr, M. F "Electronic media management". Amsterdam, 2006
Türk dilində
6. Anadolu Universitesi yayını "Medya Ekonomisi ve işletmeciliği". Eskişehir, 2013
7. Baytar O. "Gazete çalışanlarının gözüyle medya ekonomisinde temel yönelimler". İstanbul, 2010
8. Mihalis K. "Medya Ekonomisi ve Başrol oyuncuları bu günün ve yarının medya aktörlerinin gözünde reklamcllar ve tüketiciler". İstanbul, 2004
9. Milli Eğitim Bakanlığı "Gazetecilik Basın İşletmeciliği". Ankara, 2011
10. Sayılgan Ş. "Basın işletmeleri ekonomisi". İstanbul, 2006

З.Ф.Фейзуллаева

Особенности медиа менеджмента в современном медиа маркетинге

Резюме

Помимо средств массовой информации, медиа еще является бизнес структурой. Медиа состоит из наблюдений и матирования менеджмента и работников, эффективного управления техническим оборудованием и ресурсами. В статье расследованы суть, особенности и значение медийного менеджмента.

Z.F.Feyzullayeva

Features of the Media Management in the Modern Media Marketing

Summary

In addition to the media, it is still a business structure. The media consists of observation and motivating management and employees, effective technical equipment and management. The article has investigated the essence, characteristics and importance of media management.

Rəyçi: filol.f.d., prof. H.A.Vəliyev

Redaksiyaya daxil olub: 13.02.2017

E.Ə.MƏMMƏDOV
tarix üzrə fəlsəfə doktoru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

OKTYABR ÇEVRİLİŞİ VƏ TÜRKÜSTANDA MİLLİ HƏRƏKAT

Açar sözlər: *ruslaşdırma siyasəti, Oktyabr çevrilişi, milli oyanış, milli hərəkat, müstəqillik*
Ключевые слова: *политика русификации, Октябрьский переворот, национальное пробуждение, национальное движение, независимость*
Key words: *the policy of Russianization, October revolution, national awakening, national movement, nationalism*

Türk xalqları XIX əsrin sonu-XX əsrin əvvəllərində tarixinin ən maraqlı, ən mürəkkəb, ziddiyyətli, acılı-ağrılı, eyni zamanda ən şərəfli səhifələrindən birini yaşamışdır.

XIX əsrin sonunda çarizmin yerinə yetirdiyi ruslaşdırma siyasəti Türküstanda milli oyanışa səbəb oldu. I Dünya müharibəsinin başlanması ilə sosial-iqtisadi vəziyyəti ağır olan əhalinin vəziyyəti bir anda çətinləşdi. Pambıq istehsalının hədsiz dərəcədə artımı, səfərbərlik elanından sonra əmək qabiliyyətli kişilərin cəhbəyə aparılması həmin ailələri çətinliklərlə üzləşdirdi.

Türküstan milli hərəkatı kapitalist münasibətinin inkişafından başlamış tarixi qanunauyğunluğa söykənən bir proses idi. Bu hərəkatın nəticələri isə kapitalizmin böhranı ilə qaynaqlandı. Kapitalizm böhranı bilavasitə kapitalist cəmiyyət həyatının bütün sahələrini-iqtisadiyyat, siyasət, ideologiya, mədəniyyət və beynəlxalq münasibətlərini əhatə edirdi.

Birinci Dünya müharibəsi illərində ölkə ərazisində olduğu kimi milli ucqarlarda da əhalinin müflisləşməsi və ehtiyacın daha kəskin şəkildə artması sosial-iqtisadi ziddiyyətlərin kəskinləşməsinə səbəb oldu. 1917-ci ilin əvvəllərində Rusiyada inqilabi demokratik hərəkat gücləndi. 1917-ci ilin 27 fevralında Petroqradda inqilabın qələbəsindən sonra iki hakimiyyət-Müvəqqəti hökümət və fəhlə əsgər deputatları soveti, martın 7-8-də Daşkənddə həkim, qulluqçu və inşaatçların, az sonra dəmiryolu fəhlələri, pambıqtəmizləmə müəssisələri və tramvay işçilərinin birləşmiş həmkarlar ittifaqı yaradıldı. 1917- ci il martın 28-də Daşkənddə fəhlə və əsgər deputatları Soveti vahid bir sovetdə birləşdilər.

1917-ci il sentyabr ayında Daşkənddə Türküstan müsəlman ictimai təşkilatlarının yeni qurultayı oldu. Qurultayda Rusiyada yaradılacaq yeni Federativ Respublikanın tərkibində Türküstan Federativ Respublikasının təsis edilməsi qərara alındı. Beləliklə, milli məsələnin genişlənməsi əvvəllər mövcud olmuş məhdudiyyətlərin aradan qaldırılmasına, siyasi təşkilatlanma işinin təkmilləşdirilməsinə imkan verdi.

Fevral inqilabından sonra qazax-qırğız milli hərəkatı gücləndi, Orenburqda Qırğız Milli Şurası yarandı. Şuranın 1917-ci il iyulun 21-26-da keçirilən qurultayında qırğız dilində məktəblərin açılması, Rusiya tərəfindən müsadirə edilən torpaqların qaytarılması, yerli «adət» əsasında fəaliyyət göstərən məhkəmənin bərpa olunması, qırğız-qazax milli muxtariyyətinin yaradılması haqqında qərar qəbul edildi. Qurultayda A. Bukeyxanov, A. Baytursunov, H. Qabbasov və digərlərinin başçılığı altında «Alaş» milli qazax partiyasının formalaşması başa çatmış oldu. D. Dostməhəmmədov, M. Tınışpayev, İ. Arabayev, N. Tulin, S. Çukin, D. Sooranbayev və b. ziyalıların fəal iştirakı ilə cənubi Qırğızıstanda partiyanın yerli təşkilatları yarandı.

«Alaş» partiyasının təsis proqramının əsasını İslamı müasirləşdirmək, qazax və qırğız xalqlarının ənənəvi köçəri mədəniyyətini azad şəkildə yaşaya bilmələrini təkrar təmin etmək (köçəriləri bir yerdə yaşamağa məcbur edən çar qanunlarını aradan qaldırmaq), Türküstan bölgəsində yerləşən rusları buradan uzaqlaşdırmaq kimi məsələlər təşkil edirdi. Partiyanın siyasi fəallığını boğa bilməyən Rusiya 1918-ci ildə Yeddisu İnqilab Komitəsi tərəfindən bağlanma qərarı çıxartsa da, partiya «İnqilab təşkilatı» adı altında 1920-ci ilə kimi fəaliyyət göstərdi.

Bolşeviklərin oktyabr çevrilişindən sonra isə Türküstanda milli hərəkatı yeni mərhələyə qədəm qoydu. Bolşevik təbliğatının zəif olması, habelə Rusiya imperiyası dövründə formal da olsa Xivə xanlığı və Buxara əmirliyi kimi muxtar qrumların mövcudluğu da bu prosesi sürətləndirdi.

Bolşeviklərin əsasən rus fəhlələrinə və əsgərlərinə arxalandığı Daşkənd şəhərində isə 1917-ci ilin oktyabrın 28-də silahlı çevriliş baş verdi. Noyabrın axırlarında bolşeviklər bütün Xəzərarxası vilayətlərdə hakimiyyəti öz əllərinə keçirdilər. Noyabrın axırlarında keçirilən fəhlə və əsgər deputatları Sovetlərinin III ölkə qurultayında başda bolşevik F.İ.Kolosov olmaqla Sovet hökümətini təşkil etdi.

Milli qüvvələr isə 1917-ci ilin noyabrında Kokandda "Kokand muxtariyyəti" adlandırılan hökümət təşkil etdilər. Lakin bolşevik hökümətinin qırmızı qvardiya dəstələrinin hücumları nəticəsində 1918-ci ilin fevralında Kokand muxtariyyəti dağıldı. Bütün Türkistanda Sovet hakimiyyəti elan edildi.

1917-ci ilin dekabrında Orenburqda keçirilən II Ümumiqazax qurultayı Qazaxıstanın milli partiyası Alaş tərəfindən Alaş-Orda adlanan milli qazax dövlətinin yarandığı elan edildi. Bu dövlətin ali icraiyyə orqanı olan Xalq Şurasının sədri vəzifəsinə kadet partiyasının üzvü A. Bukeyxanov seçildi. Alaş-Orda dövləti Müvəqqəti Sibir hökuməti, Kokand muxtariyyəti, Şimali Orenburq, Yeddisu qazaxları ilə hərbi-siyasi ittifaq bağlayaraq bolşevik təcavüzünə qarşı mübarizəyə başladılar. Onlar Şərqi, Şimali, Mərkəzi, Qərbi Qazaxıstanın bəzi rayonları, Yeddisu və Orenburq vilayətlərini bolşeviklərdən azad etməyə nail oldular.

Xivə və Buxara oktyabr çevrilişinə qədər Rusiyanın protektoratı altında idi. İndiki Özbəkistan, Türkmənistan, Tacikistan respublikalarının ərazisini əhatə edən Buxara əmirliyidə öz müstəqilliyini elan etdi. Buxara əmiri Seyid Əlim xan müstəqil dövlətin başçısı oldu. Təqribən 900 minlik əhaliyə sahib olan indiki Özbəkistan, Türkmənistan və Qazaxıstan respublikalarının bir hissəsini təşkil edən Xivə xanlığı da öz müstəqilliyini elan etdi. Xivə və Buxarada 1920-ci ilə kimi bəy və xan hakimiyyət quruluşu qalmışdır. Bu dövrdə Xivə, Cüneyd xanın liderliyindəki türkmənlər ilə Murtuza bəyin liderliyindəki özbəklər arasına nüfuz çəkişmələrinə səhnə oldu. Özbəklərin Rusiya tərəfinə keçməsi ilə Cüneyd xan 1918-ci ilin oktyabrında Sovet ordusuna təslim oldu. Bu arada bir qrup xiveli, özbək Cuma Niyaz Sultanmuradın başçılığı ilə Xivə qiyam komitəsini qurdular. Və 1918-ci ilin iyununda Sovetlərin dəstəyi ilə iqtidarı ələ keçirdilər. Xivə Qiyam Komitəsi Cüneyd xan təhlükəsini bəhanə gətirərək Sovetləri köməyə çağırınca 25 yanvar 1920-ci ildə Qızıl Ordu birlikəri Xivəni işğal etdi. Bu hadisə Sovet kitablarında Xivə xalq inqilabı kimi göstərildi.

Sovet hökuməti Türküstanda mövcud olan milli dövlətləri ləğv etdikdən sonra bu ərazini yenidən təşkil ediləcək imperiyanın tərkibinə qatmaq üçün müxtəlif vasitələrdən istifadə etməyə başladı. Bütün Türküstanı sovetləşdirmək üçün Ş. Z. Eliava başda olmaqla yaradılmış «ÜRMİK və RSFSR XKS-nin Türküstan işləri üzrə komissiyası» hələ 1919-cu ildə V. İ. Lenin komissiyasının layihəsi üzərində Türküstanın Özbəkistan, Qırğızıstan və Türkmənistan bölməsi haqqında qeydlər etdi.

1918-ci il 20 apreldən mayın 1-nə qədər Mərkəzi Asiya və Qazaxıstan xalqları nümayəndələrinin Daşkənddə keçirilən V Ümumtürküstan qurultayı keçirildi. Ümumtürküstan qurultayında 30 aprel 1918-ci il tarixdə Türküstan Sovet Respublikasına dair vəziyyəti təsdiqləmiş və hakim dairələri tərəfindən RSFSR tərkibində Türküstan Sosialist Federativ Respublikası adı ilə Türküstan Muxtar Sovet Sosialist Respublikası yaradıldı. TMSSR Orta Asiyada ilk olaraq qurulan Sovet dövləti, eyni zamanda Türküstan adı ilə bağlı ilk böyük Türk dövləti idi. Paytaxtı Daşkənd idi. Mərkəz komissarı kimi Pyotr Alekseyeviç Kobazev və Anderey Fedroviç Solkin, Sovet xalq Komisarı isə Fyodr İvanoviç Kolesov seçilmişdir. 4-16 Oktyabr 1918-ci il tarixi arası təşkil edilən VI Fövqəladə Sovet Qurultayı, Türküstan MSSR konstitusiyasını qəbul etmişdi. O zamanlar 5 milyon insana bərabər olunan əhalisi vardı. Türküstan Kommunist Partiyası ölkə içində qabaqda gedən partiya olmuşdur. 1921-ci ildə Türküstan MSSR, Sovet İttifaqının bir paçası halına gəlmişdir.

Mir Seyid Sultan Qaliyev Böyük Turan və ya Böyük Tataristanı qurmaq üçün mübarizə etmişdir. Lakin bu düşüncə Rusların işinə yaramamış, Ruslar "Parçala və hökmranlıq et" taktikasından istifadə edib bu birliyi bölmüşlər. Ölkə, Rus Vətəndaş müharibəsinin sonrasında 24 Oktyabr tarixində yıxılmışdır. Türküstan MSSR, Xarəzm Sovet Xalq Respublikası və Buxara Sovet Xalq Respublikasını torpaqlarında Türkmənistan SSR, Özbəkistan SSR və onlara bağlı Tacikistan MSSR qurulmuşdur. Xivə Qiyam Komitəsi Xarəzm xalq Cümhuriyyətini elan etdi. Bu dövlət 29 sentyabr 1924-cü ildə ləğv edildi və torpaqlarının bir qismi Özbəkistan SSR-yə qatıldı.

Komissiyanın sovet idarə orqanları yaratmaq cəhdləri Basmacı hərəkatının müqaviməti ilə rastlaşdı. Hərəkat 1924-cü ilə qədər aktiv sürətdə fəaliyyət göstərmişdi. Basmacı öz qruplaşmasını Türküstan birliyi adlandırmış, hər vasitə ilə Sovet hakimiyyətinin Türküstanda qərarlaşmasına qarşı çıxırdı. Bu mübarizədə onlara kömək edən isə "İslam ordusu" adı ilə məşhur olan Ənvər paşanın qüvvəsi idi. Sovet hakimiyyəti qurulduqdan sonra əl-qolu bağlanmış hərəkat iştirakçıları gizli yollarla vilayətdən xaricə qaçmağa başladılar. Əgər vilayətdə qalmış olsaydılar, xeyirlərindən çox ziyanları olacaqdı. Çünki Bolşeviklər bütün silahlı gücü ilə onları axtarırdı. Bu araşdırma nəticəsində Türküstan birliyinin digər üzvlərini də ortaya çıxaracağından hər cəhətdən qorxulu idi.

Oktyabr inqilabı bölünməz, toxunulmaz və tənqid olunmaz vahid idealı, vahid siyasi partiyalı totalitar rejimin yaradılmasının başlanğıcını qoymuşdur. İctimai-siyasi və iqtisadi münasibətlər, habelə millətlər arası münasibətlər sahəsində Oktyabrdan keçən 74 ildən sonra özünü kəskin göstərmiş dərin böhran halları, sosial-iqtisadi, milli və dini qarşıdurmalar bu çevrilişin uğursuz taleyinin nəticələri idi.

Müasir mərhələdə Mərkəzi Asiyanın türk respublikaları beynəlxalq birliyin bərabərhüquqlu üzvüdür. Dünya iqtisadiyyatının inkişafında, Şərq və Avropa ölkələrinin enerji təchizatında önəmli rol oynayırlar. Əldə olunmuş müstəqilliyin qurulub saxlanması üçün qarşıda daha ciddi vəzifələrin həyata keçirilməsi vacibdir. Bunun üçün türk xalqları siyasi, iqtisadi və mədəni sahədə əlaqələrini genişləndirməlidir.

Ədəbiyyat

Türk dilində

1.Devlet Nadir. Rusya Türklerinin Milli Mücadele Tarihi (1905-1917)" Ankara: Türk Tarih Kurumu Yayınları, 1999

2.Delimanoğlu Yaqub. Türkistan. Ankara Tarih Kurumu Yayınları, 2009

3.Hayit Baymirze. Milli Türkistan hürriyyet davası. Ankara Timur Kocaoğlu, 2004

4.Hayit Baymirze. Türkistan Devletlerinin milli mücadile tarihi. Ankara Türk Tarih Kurumu Yayınları, 1995

5.Özdemir Emin. 20. yüzyılın başlarında Kazakıstanda fikir hereketleri. Ankara: Qazi Universiteti, 2007

6.Yakın İbarahim.Türkistanda uyanış-milli hereketler ve Münevver Karı. Ankara: Türk kültürü, 1966

Rus dilində

7.Pobeda Sovetskoy vlasti v Sredney Azii i Kazaxstane. Taşkent,1967

8.İnoətov X. Ş. Oktəbrğskaə revolöüiə v Uzbekistane. M.,1958

9.İnoətov X. Ş. Pobeda Sovetskoy vlasti v Turkestane. M.,1978

Э.А.Мамедов

Октябрьский переворот и национальное движение в Тюркестане

Резюме

В статье с целью изучения чрезвычайно актуальной и чувствительной проблемы истории тюркских народов проанализированы изданные с начала XX века до конца 1918 года труды, опубликованные на страницах газет и журналов того периода статьи, определена суть рассматриваемой проблемы. В центре исследования такие вопросы как национально-освободительное движения, начатое в конце XIX века–начале XX века в Тюркестане и достигшее кульминации образованием Туркестанская АССР (ТАССР), оценка этого события лидерами и активистами движения, отношение к движению из-за рубежа.

E.A.Mammadov

October Revolution and National Movement in Turkistan

Summary

In order to learn the movement of national awakening that is one of the most actual and sensetive problems of Turkic peoples, the works, the articles published in newspapers and magazines from early XX century to late 1918 have analysed and determined the essence of the problem that being investigated.

The movement of national awakeing that began in Turkistan at the end of XIX century and beginning of XX and reached to the peak with TMSSR is on the centre of attention in terms of attitude by foreign publishings to the movement.

Rəyçi: t.e.d., prof. M.İ.Əmrahov

Redaksiyaya daxil olub: 19.12.2016

M.Ə.MƏMMƏDOVA,
Z.H.ƏLİYEVA

Azərbaycan Dövlət İqtisad Universiteti
(Bakı şəh., İstiqlaliyyət küç., 6.)

VERGİYƏ CƏLB OLUNMANIN UÇOTUNUN TƏŞKİLİ METODİKASI

Açar sözlər: *vergilərin növləri, mənfəət vergisi, əlavə dəyər vergisi, əmlak vergisi, torpaq vergisi və digər vergilərin uçotu, vergi dərəcələri, vergi tutma obyektləri.*

Ключевые слова: *виды налогов, налог на прибыль, налог на добавленную стоимость, налог на имущество, налог на землю и другие виды налогов, налоговые ставки, объекты налогообложения.*

Key words: *taxes, income tax, value added tax, property tax, trade tax, and other types of taxes, tax rates, tax facilities.*

Azərbaycan Respublikasının mərkəzləşmiş xalis gəlirinin formalaşmasında müəssisə və təşkilatların mənfəətindən ödənilən vergi həlledici rol oynayır. Mənfəətdən vergi, təsnifata görə birbaşa vergilərə aid edilib, proporsional vergiqoyma sisteminə daxildir. Azərbaycan Respublikasında rezident və qeyri-rezident müəssisələr mənfəət vergisinin ödəyiciləridir.

Mənfəətdən vergi birbaşa vergi kimi əsas funksional təyinatını: məhsul (iş və xidmətlər) istehsalı sferasında investisiya proseslərinin satışını təşkil etməlidir. Mahiyyətinə görə mənfəət vergisinin fiksal funksiyası iqtisadi funksiyasına görə törəmə hesab edilir. Lakin praktikada bütün vergilər kimi bu vergi də daha çox fiksal xarakter daşıyır.

Mənfəət vergisinin fiksal və iqtisadi funksiyalar ilə yanaşı tənzimləyici funksiyası da xüsusi əhəmiyyət kəsb edir. Vergiqoyma obyekti təsərrüfat fəaliyyəti ilə məşğul olan hüquqi subyektlərin dəyər ifadəsində son maliyyə nəticələridir. Qanunvericiliyə uyğun olaraq, vergitutma obyekti kimi müəyyən edilən mənfəət vergisi ödəyicisinin gəlirləri ilə bu gəlirlərdən çıxılan xərc arasındaki fərq kimi müəyyənləşdirilir.

Mənfəət vergisi hesablanan zaman əsas məsələlərdən biri gəlirin və xərclərin uçotunda mövcud olan prinsipləridir. Burada kassa metodu ilə uçot aparan vergi ödəyicisi gəliri əldə edəndə və ya gəlir onun sərəncamına veriləndə, həmin gəlir nəzərə alınmalı və gəlirdən öz xərclərini yalnız bu xərcləri çəkdiyi zaman çıxılmalıdır. Hesablama metodundan istifadə edərkən vergi ödəyicisi, gəlir əldə edilməsi və xərc çəkilməsinin vaxtından asılı olmayaraq gəlir və xərcin müvafiq sürətdə gəlir almaq hüququnun əldə edildiyi və ya xərcin çəkildiyi barədə öhdəliyin yarandığı dövrdən nəzərə alınmalıdır. Fikrimizcə, sözü gedən prinsip əslində mühasibat uçotunun qanununda öz əksini tapmış lakin o, dəqiqlik prinsipinə müəyyən dərəcədə uyğun gəlmir. Qeyd edilən prinsip gəlirlərin faktiki əldə edildiyi, xərclərin isə onların baş verməsi ehtimalının yarandığı vaxt uçotunun aparılmasını nəzərdə tutması ilə əlaqədardır. Ona görə də göstərilən məsələnin nəzərə alınması metodoloji baxımdan çox vacibdir.

Yeni hesablar Planına əsasən müəssisələrdə daimi vergi öhdəliyinin yaranması ilə təxirə salınmış vergi aktivlərinin yaranması uçotda fərqli qaydada əks etdirilir. Daimi vergi öhdəliyinin yaranması uçotda aşağidakı kimi əks etdirilməlidir:

Dt 901"Cari mənfəət vergisi üzrə xərclər"

Kt 521 “Vergi öhdəlikləri”

Təxirə salınmış vergi aktivinin yaranması isə uçotda aşağıdaki kimi əks etdirilməlidir:

Dt 161 “Təxirə salınmış vergi aktivləri”

Kt 521 “Vergi öhdəlikləri”

Hesabat dövrünün şərti xərcləri (gəlirləri) hesabına təxirə salınmış vergi aktivinin azalması və ya tam ödənilməsi üzrə əməliyyata aşağıdakı yazılış tərtib edilməsini nəzərə almaq məqsədə uyğun olar:

Dt 521 "Vergi öhdəlikləri"

Kt 161 "Təxirə salınmış vergi aktivləri"

Təxirə salınmış vergi öhdəliyinin formalaşmasına isə aşağıdakı mühasibat yazılışı tərtib etmək daha düzgün olar:

Dt 902 "Təxirə salınmış mənfəət vergisi üzrə xərclər"

Kt 421 "Mənfəət vergisi üzrə təxirə salınmış vergi öhdəlikləri"

Vergiyə cəlb olunan müvəqqəti fərqlərin sonrakı hesabat dövrlərində azalması və tam həcmdə ödənilməsi zamanı müvafiq olaraq təxirə salınmış vergi öhdəlikləri də azaldılır və ya ödənilir. Bu zaman həmin əməliyyata aşağıdakı mühasibat yazılışı tərtib etmək məqsədə uyğun sayılmalıdır:

Dt 421 "Mənfəət vergisi üzrə təxirə salınmış vergi öhdəlikləri"

Kt 521 "Vergi öhdəlikləri"

Təxirə salınmış vergi aktivlərinin hesablanmasına səbəb olan aktivlərin və ya öhdəliklərin xaric olması zamanı aşağıdakı mühasibat yazılışının tərtib olunmasını məqsədə uyğun hesab etmək olar :

Dt 421 "Mənfəət vergisi üzrə təxirə salınmış vergi öhdəlikləri"

Kt 801 "Ümumi mənfəət (zərər)"

Azərbaycan Respublikasının vergi sistemində dolayı vergilər mühüm yer tutur. Bu vergilərə əlavə dəyər vergisi (ƏDV), aksiz və aksiz yığımları, gömrük tarif rüsumları, idxal-ixrac rüsumları aid ola bilər. Adətən ƏDV həm daxili bazarda, həm də xarici iqtisadi fəaliyyətdə həyata keçirilən əməliyyatları əhatə edir. Çox zaman ƏDV-ni Avropada inteqrasiya prosesinin formalaşması və inkişafındakı roluna görə Avropa vergisi adlandırırlar.

Azərbaycan Respublikasında ƏDV əmtəə bazarında tələb və təklifi tənzimləmək məqsədi ilə 1992-ci ildən tətbiq edilir. ƏDV-nin büdcə gəlirinin formalaşmasında və iqtisadiyyatın tənzimlənməsində rolu olduqca böyükdür.

Son iki ildə Azərbaycan Respublikasının büdcə gəlirlərinin 17,3 faizini ƏDV təşkil etmişdir ki, bu da əvvəlki illərə nisbətən xeyli çoxdur.

İqtisadi sistemdə ƏDV-nin yeri və rolu birmənalı şəkildə qəbul edilmir. Bəzi iqtisadçılar ƏDV-nin həddən artıq fiksal xarakter daşıdığını və vergi dərəcəsinin yüksək olmasını, vergiqoyma bazasının düzgün müəyyən olunmadığını qeyd edirlər. Onlar hesab edirlər ki, ƏDV bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatın mövcud vəziyyətinin tələblərinə cavab vermir.

Qüvvədə olan vergi məcəlləsində büdcəyə ödənilməli olan ƏDV-nin məbləğinin hesablanması ƏDV məbləğinin ilə müvafiq sürətdə əvəzləndirilməli olan verginin məbləği arasındakı fərq kimi müəyyən edilir. Bu baxımdan qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxslər vergi ödəyicisi kimi qəbul edilir. Qüvvədə olan bu vergi məcəlləsində əsas yeniliklərdən biri də fiziki şəxslərin vergiyə cəlb edilməsidir. Bundan başqa, ticarət müəssisələrində də ƏDV-nin hesablanması qaydaları dəyişdirilmişdir. Bunu 2001-ci il 1 yanvara kimi ticarət müəssisələrində ƏDV alış və satış qiyməti arasındakı fərqdən hesablanırdısa da, hazırda belə müəssisələrdə ƏDV-nin hesablanması istehsal müəssisələrində olduğu kimi yerinə yetirilir. Doğrudur, bu bir tərəfdən dövriyyənin gizlədilməsinin qarşısını alır və 241 №-li «Əvəzləşdirilən əlavə dəyər vergisi" hesabını aktivləşdirirsə də, digər tərəfdən çatışmayan cəhətlərə malikdir. Burada çatışmayan cəhətlərə sadələşdirilmiş sistem üzrə verginin tətbigində bir çox fiziki şəxsləri ƏDV-ni ödəməkdən azad etməkdə özünü göstərir. Nəticədə, həmin fiziki şəxslərlə iqtisadi əlaqələr quran ƏDV-nin ödəyiciləri, büdcəyə olan ƏDV vergisi üzrə borclarını əvəzləşdirə bilmirlər. Ona görə də ƏDV-nin yükü tamamilə alıcı müəssisənin üzərinə keçdiyi üçün ƏDV-nin ödəyiciləri, həmin fiziki şəxslərlə təsərrüfat əlaqələrini pozmağa məcbur olurlar. Belə bir vəziyyət iqtisadiyyatda kiçik sahibkarlığın qarşısını alır. Azərbaycan Respublikasının büdcə gəlirləri içərisində xeyli xüsusi çəkiyə malik olan əmlak

vergisinin hesablanması və onun büdcəyə ödənilməsi qaydası da Vergi Məcəlləsində öz əksini tapmışdır. Əmlak vergisi dövlətlə hüquqi və fiziki şəxslər arasında yeni iqtisadi münasibətlərin formalaşması kimi çıxış edir.

Qanunvericiliyə müvafiq olaraq, rezident və qeyri-rezident fiziki şəxslər, rezident müəssisələr, Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsi ilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr əmlak vergisinin ödəyiciləri hesab edilirlər.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində əmlak vergisinin dərəcələrində müəyyən dəyişikliklər edilmişdir. Belə ki, fiziki şəxslərin mülkiyyətində olan əmlakın müəyyən hissəsi vergidən azad olunmuşdur.

Vergi Məcəlləsində hüquqi şəxslər üçün əmlak vergisinin dərəcəsi 1% həcmində müəyyənləşdirilmişdir. Bu özlüyündə müsbət hal kimi qəbul edilməlidir. Eyni zamanda vergi dərəcələri əmlakın orta illik qalıq dəyərinə tətbiq olunur. Diqqəti bir məsələyə yetirsək yerinə düşər. Vergi Məcəlləsinin 199.4 maddəsinə uyğun olaraq vergitutma məqsədləri üçün müəssisənin əmlakının dəyəri müəyyənləşdirilərkən 114.3.2 maddəsində göstərilən maşınlar, avadanlıq və hesablama texnikasının dəyəri vergitutma bazasına daxil edilmir.

Vergi Məcəlləsində müəyyən edilmiş dərəcələrə uyğun olaraq hesablanmış əmlak vergisinə 801 "Ümumi mənfəət (zərər)" hesabının debiti və 521 nömrəli "Vergi öhdəlikləri" hesabının krediti üzrə yazılış verilir. Hesablanmış əmlak vergisi büdcəyə köçürüldükdə isə 521 №-li hesabının debeti 223№-li hesabın krediti üzrə yazılış verilməlidir.

Beləliklə, müəssisə və təşkilatlarda verqiqoymanın uçotunun metodoloji baxımdan dəqiq və düzgün aparılmasının böyük əhəmiyyəti vardır. Vergilərin uçotunun müasir tələblərə uyğun dəqiq aparılması nəticəsində dövlətin mərkəzləşmiş xalis gəlirinin formalaşmasını təmin edir, bununla da büdcə gəlirlərinin çoxalması nəticəsində əhalinin maddi və sosial vəziyyəti yaxşılaşır, ölkəmizin makroiqtisadi səviyyədə milli iqtisadiyyatı tənzimlənir.

Ədəbiyyat

1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2004
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi Bakı, 2016 (sonrakı dəyişiklik və əlavələrlə)
3. Q.Ə. Abbasov, S.M.Səbzəliyev. "Xidmət sahələrində mühasibat (maliyyə) uçotu. Bakı, 2015

М.А.Мамедова, З.Г.Алиева

Методика организации учета налогообложения

Резюме

В статье изложена значимость налогов в формировании бюджета государства, а также рассмотрена методика организации учета разных видов налогов. Особое внимание уделено вопросам усовершенствования учета налога на добавленную стоимость и налога на прибыль, составляющих значительную часть доходов бюджета.

M.A.Mammadova, Z.H.Aliyeva

Technique of the Organization of Accounting Taxation

Summary

The article describes the importance of taxes in the formation of the state budget, as well as the technique accounting organization of different types of taxes. Particular attention is paid to the improvement of the account value added tax and income taxes, which constitute a substantial part of the revenues.

Rəyçi: prof. Ə.İ.Daşdəmirov

Redaksiyaya daxil olub: 11.01.2017

N.F.QƏDİROVA
E-mail: gadirovanarmin@yahoo.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

BÖYÜK BRİTANİYANIN AVROPA İTTİFAQINDAN ÇIXMASININ NƏTİCƏLƏRİ

Açar sözlər: *Brexit, Avropa Ittifaqı, referendum,Birləşmiş Krallıq, Avroskeptisizm inteqrasiya*
Ключевые слова: *Брексит, Европейский союз, интеграция. Референдум, Соединенное Королевство,*
Key words: *Brexit, European Union, integration, Referendum, United Kingdom, euroscepticism*

1962 və 1967-ci illərdə Avropa İttifaqına (Aİ) üzvlük üçün iki dəfə müraciət etmiş Birləşmiş Krallıq hər dəfə Fransanın vetosu ilə üzləşmişdi. Fransanın o dövrdəki prezidenti Şarl de Qoll veto səbəbini bu ölkələrin Aİ strukturuna uyğun olmaması və üzv olacağı təqdirdə Aİ-nın strukturunu dəyişəcəkləri ilə əsaslandırmışdır. Bu vəziyyət 1969-cu ildə Fransa rəhbərliyinin dəyişməsi və həmin ildə keçirilən Lahey zirvəsinə qədər davam etmişdir. 1969-cu ildə Lahey zirvəsində genişlənmə qərarının qəbul edilməsi nəticəsində 1973-cü ildə Britaniya, Danimarka və İrlandiya Avropa İttifaqına üzv oldular.

Əslində, de Qollun Britaniyanın üzvlüyünə mane olma səbəblərindən biri də Aİ-nın əsasını təşkil edən Avropa Kömür və Polad Birliyi (AKPB) yaradılarkən Londonun müşahidəçi mövqe seçməsi idi. Britaniya Aİ-nı quran dövlətlərin sırasında olmaq istəmədi. İqtisadi inteqrasiya, Gömrük İttifaqının yaradılması, gömrük rüsumlarının və qarşılıqlı ticarətdə kəmiyyət məhdudiyyətlərinin ləğvi, üçüncü ölkələrə qarşı ümumi gömrük tariflərinin tətbiqi müsbət nəticələr verəndə Britaniya Avropa İttifaqı üzvlüyünə maraq göstərməyə başladı. Ancaq bu zaman De Qollun sərt tənqidi ilə üzləşdi. De Qollun irəli sürdüyü səbəblər Britaniyanı Aİ-na üzvlükdən kənarda tutmaq məqsədi daşısa da, bu səbəblər o dövr üçün və bu gün etibarı ilə özünü doğrultdu. Britaniyanı Avropa İttifaqına yönəldən və yaxınlaşdıran amillər indi onu Aİ-dan uzaqlaşmağa sövq edir.

Adı tarixə "Dəmir ledi" kimi düşən Marqaret Tetçerin 1990-cı ildə Aİ-nın sammitindən qayıtdıqdan sonra Avropa ilə daha geniş inteqrasiyaya "yox"dediyi vaxtdan bu günə qədər Britaniyada elə də çox şey dəyişməmişdir. Tetçerin siyasi karyerasına son qoyan Avropaya əks mövqeyi bu ölkədə hələ də ən çox müzakirə olunan məsələlərdən biridir.

Britaniya cəmiyyəti hər zaman Avropa İttifaqı ilə münasibətlərə ehtiyatla yanaşırdı.Ölkənin siyasi dairələri Birləşmiş Krallığın Avropa strukturlarına sıx inteqrasiyası məsələsi gündəliyə gələndə bir qayda olaraq geri çəkilirdi.Elə indi də Böyük Britaniya avro zonanın üzvü deyil və milli valyutasını qoruyub saxlayır. 2011-ci ildə qlobal iqtisadi böhran şəraitində Britaniyanın Aİ-da qalmasından narazılıq gücləndi. 2013-cü ilin əvvəllərində Baş nazir, Mühafizəkarlar Partiyasının lideri Devid Kemeron 2015-ci il parlament seçkilərində partiyasının qələbə qazanacağı halda referendum keçirməyi təklif etmişdi. Mühafizəkarlar seçkilərdə qalib gəlib tək partiyalı hökümət təşkil etdilər və referendum məsələsi yeni Nazirlər Kabinetinin proqramında yer aldı.

Ötən il iyunun 9-da Britaniya parlamenti referendumun keçirilməsi məsələsinə baxdı. Parlamentarların 544-ü ümumxalq səsverməsinin lehinə, yalnız 53-ü əleyhinə səs verdi. 2016-cı il fevralın 20-də hökumət ölkənin Aİ-da qalıb-qalmaması barədə iyunun 23-də referendum keçirilməsi barədə qərar qəbul etdi. Baş nazir Devid Kemeron səsvermədən qabaq bildirmişdir ki, avroskeptiklərin qələbə qazanacağı təqdirdə dərhal ölkənin Aİ-dan çıxmasına dair

danışıqlara başlayacaq. Qeyd edək ki, Lissabon müqaviləsinin 50-ci maddəsinə uyğun olaraq Aİ-dan çıxmaq qərarına gəlmiş ölkənin hökuməti bu barədə Aİ-nı məlumatlandırmalıdır. Aİ isə blokdan çıxma prosesinə dair metodik təlimatlar hazırlamalıdır.Müqaviləyə görə danışıqlar iki ildən çox çəkməməlidir.

Birləşmiş Krallıq 2016-cı il iyunun 23-də Aİ-dan çıxmağa səs verdi. Səsvermə hüququna malik olan 46,5 milyon britaniyalının 33,5 milyonunun qatıldığı səsvermədə seçicilərin 51,9 faizi Britaniyanın Aİ-da üzvlüyünün dayandırılmasına səs vermiş 48,1 faizi isə avrointeqrasiyanın davam etməsinə tərəfdar çıxmışdır {6}. Uelsli seçicilərin 52,5 faizi Brüssellə münasibətlərin kəsilməsinə, 47,5 faizi isə Aİ-da üzvlüyün saxlanmasına tərəfdar çıxdı. Şotlandiya və Şimali İrlandiyanın əksər sakinləri Britaniyanın Aİ-dan çıxmasının əleyhinə səs verdilər. Şotlandların 62 faizi avrointeqrasiyanın davam etməsini dəstəklədi, 38 faizi isə bu ideyanı rədd etdi. Şimali İrlandiyada seçicilərin 56{7}faizi Brüssellə münasibətlərdə status-kvonu qoruyub saxlamağa tərəfdar çıxdı, 44 faizi isə hesab etdi ki, Britaniya Aİ-dan kənarda qalmalıdır.

